Bu vitamin qidada az və ya heç olmadıqda insanlarda beri-beri deyilən xəstəlik əmələ gəlir, xəstəlik əsasən ürəyin və sinir sisteminin fəaliyyətinin pozulması ilə müşahidə olunur. B-vitamininin çatışmazlığının qarşısı alınmadıqda ümumi zəiflik, tez yorulma halları müşahidə olunur. Ürəyin həcmi böyüyür, ritmi pozulur, döyünməsi artır. Bundan başqa qidada B-vitamini çatışmadıqda su mübadiləsi pozulur. Bu zaman xəstələr ağızlarının qurumasından və susuzluqdan şikayət edirlər. Bu vitamin bitkilərdə sərbəst halda yox, birləşmiş şəkildə tiaminpirofosfatın tərkibində olur.
İnsanlar bütün il ərzində vitaminlərlə zəngin qida məhsulları ilə əsasəndə bitki mənşəli məhsullarla təmin olunması tövsiyə olunur.

**Ədəbiyyat siyahısı:**

1. Nəbiyev Ə.Ə., Qida məhsullarının biokimyası
2. Nəbiyev Ə.Ə., Qida məhsullarının texnologiyasının nəzəri əsasları

## ЗНАЧЕНИЕ ВИТАМИНОВ ДЛЯ ЖИЗНИ ЧЕЛОВЕКА

**Проф.Ə.Ə.Набиев, Д.Ш.Дадашова**
**Азербайджанский Технологический Университет**
ahad.nabiyev@mail.ru
durdanadadashova03@gmail.com

Рекомендуется в течение всего года обеспечивать людей продуктами, богатыми витаминами, преимущественно растительного происхождения

## THE IMPORTANCE OF VITAMINS FOR HUMAN LIFE

**Prof. A.A.Nabiyev, D.S.Dadashova**
**Azerbaijan Technology University**
ahad.nabiyev@mail.ru
durdanadadashova03@gmail.com

It is recommended that people be provided with vitamin-rich foods throughout the year, mainly of plant origin.

# MÜASİR ÇÖRƏK-BULKA VƏ QƏNNADI SƏNAYESİNDƏ FUNKSİONAL MADDƏLƏRKİMİ QİDA LİFİNİN İSTİFADƏSİ

**G.D.Məmmədova**
**Azərbaycan Dövlət İqtisad Universiteti**
**gunel.mova.91@mail.ru**

Qida sənayesinin hazırkı inkişaf mərhələsinin bir xüsusiyyəti fizioloji vəziyyətini və yaşını nəzərə alaraq insan orqanizminə tənzimləyici və normallaşdırıcı təsir sayəsində sağlamlığın qorunmasına və yaxşılaşdırılmasına töhfə verən keyfiyyətcə yeni funksional qida məhsullarının inkişafıdır. Bu baxımdan, əhalinin müxtəlif kateqoriyalarının istehlakına yönəlmiş funksional çörək məmulatlarının çeşidinin yaradılması çox aktual və vaxtındadır. Funksional qida məhsullarının istehsalı ilə bağlı yerli və xarici elmi mənbələrin təhlili göstərir ki, istehsal olunan məhsulların çeşidinin formalaşması birbaşa bazar tələbindən asılıdır.

Müasir insanın həyatı texniki tərəqqi, fiziki əməyin və enerji xərclərinin azalmasına, habelə istehlak edilən qida miqdarının azalmasına səbəb olan zehni stressin intensivliyinin artmasıyla sıx bağlıdır. O, qida və bioloji aktiv maddələrin fizioloji normalarının istehlakının azalmasına səbəb olur [2, s. 72]. Hazırda əhali arasında qida çatışmazlığının ən mühüm amilləri vitaminlər, minerallar və mikroelementlər, həmçinin qida lifi çatışmazlığıdır. Qida lifinin olmaması insan orqanizminin ətraf mühitin təsirlərinə qarşı müqavimətinin azalmasına zəmin yaradır. Hipodinamiyanın inkişafı, öz növbəsində, insan bağırsağının fəaliyyətinin pisləşməsinə səbəb olur.

Eksperimental və klinik tədqiqatlar qastroduodenal zonanın xəstəlikləri olan insanlarda qida lifinin faydalı təsirlərini bir neçə yolla həyata keçirmişdir:

- ✓ Həm maye, həm də bərk qidaların (pektin və selikli maddələr) mədədən çıxarılmasının yarı ömrünün artması, onikibarmaq bağırsağın motor indeksinin artması;
- ✓ mədənin divarında bərpaedici proseslərin stimullaşdırılması, mədəaltı vəzi aparatına təsirinin bərpası (müalicədən əvvəl aşağı aktivlik ilə bezlərin funksiyasının artması və başlanğıcda hiperfunksional vəziyyətlə ifrazat funksiyasının azalması);
- ✓ mədə şirəsinin ifrazat fəaliyyətinin qarşısının alınması;
- ✓ bədəndə və mədənin antrumunda artan pH;
- ✓ öd turşularının udulmasını artırmaqla mədəyə ödün requrgitasiyasını azaltmaq [1].

Qida lifi insanın mədə-bağırsaq traktında ya heç həzm olunmur, ya da yalnız yoğun bağırsaqda həzm olunur. Onların aşağı enerji dəyəri vardır. Onların qidalanmadakı əhəmiyyəti çox böyükdür. Buna görə pəhrizdə mütləq gündə ən azı 30-40 qram qida lifi olmalıdır. Çörək məmulatları tərkibində qida lifi (buğda və çovdar kəpəkləri, un tərkibli qarışıqlar) və pəhriz lifinin təmiz formaları (mikrokristallik sellüloza, pektin, inulin və oliqofruktoza). Bütün bunlar çörək məhsullarının enerji dəyərini azaltmaqla yanaşı, onları zəruri bioloji qiymətli komponentlərlə zənginləşdirməyə də imkan verir [2, s. 70]. Qida lifləri insan orqanizminin həzm fermentləri tərəfindən həzm olunmayan, lakin faydalı bağırsaq mikroflorasının emal etdiyi qida komponentləridir. Onlar həzm olunmayan polisaxaridlərin və liqninin cəmi kimi müəyyən edilir. Qida lifləri suda həll olunmasına görə iki qrupa bölünür:

a) ***Həll olan qida lifləri:*** Suda həll olan bu lif növü jeleyə bənzər quruluşa malikdir. Liflərin çoxu həll olunan qrupa düşür. Həll olan lif qan şəkərini və xolesterolu tənzimləməyə kömək edir. Həll olan lif yulaf, paxlalılar, sitrus meyvələri, alma və yerkökü kimi qidalarda çoxdur.

b) ***Həll olmayan qida lifləri:*** Suda həll olunmayan bu qrup öz quruluşu sayəsində həzm sistemi hərəkətlərini tənzimləyir. Bu şəkildə nizamsız bağırsaq hərəkətləri və ya qəbizlik problemi olan

insanların pəhrizində həll olunmayan lifli qidalar faydalı olar. Bütün **taxıl məhsulları, qoz-fındıq, gül kələmi** və buna bənzər tərəvəz və **paxlalı bitkilər** həll olunmayan liflə zəngin qidalardır.




**Şəkil 1. Qida lifləri [1]**

Qida lifinə 36 mindən çox bitkidə olan inulin və oliqofruktoza, təbii polisaxaridlər, o cümlədən gündəlik rasionumuza daxil olanlar – soğan, sarımsaq, arpa və buğda taxılları, banan, kasnı kökü daxildir. Onlar mədə və nazik bağırsaqda həzm olunmur və qida lifi funksiyasını yerinə yetirərək, demək olar ki, dəyişməz şəkildə yoğun bağırsağa daxil olurlar. Yoğun bağırsaqda onlar mövcud olan bifidobakteriyaların təsiri altında seçici şəkildə parçalanır, onların aktiv böyüməsini təmin edir, yəni inulin və oliqofruktoza prebiyotiklərdir. Bundan əlavə, onlar mineralların, xüsusilə kalsium və maqneziumun udulmasını yaxşılaşdırır, toxunulmazlığı artırır, yemək zamanı daha sürətli doymağa kömək edir, obez insanlarda lipid mübadiləsini yaxşılaşdırır. Bu maddələr diabetik və aşağı karbohidratlı diyetlərdə istifadə edilə bilər. İnulin və oliqofruktoza kifayət qədər aşağı kalorili məzmuna malikdir – müvafiq olaraq 1,0 və 1,5 kkal/q.

Çörək-bulka məmulatlarının istehsalında inulin və oliqofruktozadan istifadə təkcə insan orqanizminin fizioloji funksiyalarına müsbət təsir göstərən məhsulların alınmasına deyil, həm də hazır məhsulların enerji dəyərinin aşağı salınmasına şərait yaradır. Həm də bu inqrediyentlərin istifadəsi yarımfabrikatların və hazır məhsulların bəzi texnoloji xassələrini, suyun udma qabiliyyətini artırmaq, reoloji xüsusiyyətlərin formalaşmasına təsir etmək, dad və aromatı artırmaq, saxlama müddətini artırmaq imkanı verir [2, s. 71].

**Açar sözlər:** qida lifi, qənnadı məmulatları, bioloji dəyər, funksional, təsnifat, kodlaşdırma

## Ədəbiyyat siyahısı:

1. Dombrovskaya Ya.P., Tekucheva Yu.A. The use of non-traditional vegetable raw materials in the production of baked culinary products of increased nutrition value // Bulletin of the South Ural State University. Seria of Food and biotechnology. 2016, volume 4, № 4, p. 86-94

2. Пищевые волокна [elektron resurs] // http://www.elestbio.ru/statyi/pishchevye-volokna (son müraciət: 23.02.2022)

3. Тарасова В., Нечаев А., Перковец М.В. Комплекс пищевых волокон с эмульгаторами в производстве хлебобулочных изделий // Пищевая промышленность № 9, 2007, с. 70-72

## ИСПОЛЬЗОВАНИЕ ПИЩЕВЫХ ВОЛОКОН В КАЧЕСТВЕ ФУНКЦИОНАЛЬНОГО ИНГРЕДИЕНТА В СОВРЕМЕННОЙ ХЛЕБОПЕКАРНОЙ И КОНДИТЕРСКОЙ ПРОМЫШЛЕННОСТИ

**G.D.Məmmədova**
**Азербайджанский Государственный Экономический Университет**
**gunel.mova.91@mail.ru**

В настоящее время все больше внимания уделяется проблеме здорового питания. Поэтому более востребованы функциональные продукты, восполняющие дефицит макро- и микроэлементов, защищающие и укрепляющие здоровье. Как известно, хлеб и кондитерские изделия являются важными и любимыми компонентами рациона, но в большинстве из них мало витаминов и минералов. В статье рассматривается важная роль пищевых волокон в пищевых продуктах, повышающих биологическую ценность кондитерских изделий.
**Ключевые слова:** пищевые волокна, кондитерское изделие, биологическая ценность, функциональный, классификация, кодирование

## THE USE OF DIETARY FIBER AS A FUNCTIONAL INGREDIENT IN THE MODERN BAKERY AND CONFECTIONERY INDUSTRY

**G.D.Mammadova**
**Azerbaijan State Economic University**
**gunel.mova.91@mail.ru**

Currently, more and more attention is paid to the problem of healthy eating. Therefore, functional products are more in demand, replenishing the deficiency of macro- and microelements, protecting and strengthening health. As you know, bread and confectionery are important and favorite components of the diet, but most of them are low in vitamins and minerals. The article discusses the important role of dietary fiber in food products that increase the biological value of confectionery.
**Keywords:**food fiber, confectionery, biological value, functional, classification, coding

# TOKAY TİP ŞƏRABLARI ISTEHSALI ÜÇÜN ÜZÜM SORTLARININ SEÇİLMƏSININ TƏDQIQI

**A.S.Bağırzadə**

**U.C.Mehdiyev**

**Ə.Ə.Nəbiyev**

**Azərbaycan Texnologiya Universiteti**

**afaqbagirzade8@gmail.com**

Tokay tipli şərablar təsnifatına görə şirin desert şərablara aid olub, tərkibində 16 h%spirt, 16-20% isə arasında təbii şəkər olur.Tokay tipli şərablar ilk dəfə Macarıstanın Tokay şəhərində istehsal olduğuna görə elə adı da buradan götürülmüşdür. Vətənində bu şərabların istehsalında yüksək şəkərliyə malik üzüm sortlarından istifadə olunur. Şərabın hazırlanma texnologiyasında əsas məqsəd ondan ibarətdir ki, heç bir inqrediyentlərdən istifadə olunmur. Qıcqırma prosesi nəticəsində əmələ gəlmiş təbii spirtin hesabına şərab materialının tərkibində şəkər qalığı olur. Təbii şərab istehsalı zamanı üzümün tərkibində şəkər faizini artırmaq üçün üzüm tənəyində salxım burularaq soluxdurulur. Burada əsas məqsəd üzüm giləsinin tərkibində suyun buxarlandırılmasına nail olmaqla şəkər faizini artırmaqdır.

Bu məqsədlə biz Samux və Göy-göl rayonları ərazisində yetişən bəzi texniki üzüm sortlarının seçilməsini tədqiq etmişik. Tədqiqat obyekti kimi ölkəmizdə geniş yayılmış Bayanşirə, Rkasiteli, Mədrəsə və Kaberne-Sovinyon üzüm sortlarının bəzi orqanoleptik göstəriciləri, həmçinin şəkər faizi də tədqiq edilmişdir.

Tədqiqat nəticəsində seçilmiş üzüm sortlarında müxtəlif variantlar üzrə keyfiyyət göstəriciləri (ümumi şəkər, qlükoza, fruktoza, titrləşən turşuluq, C vitamini, fenol birləşmələri) o cümlədən şəkərin turşuluğa nisbəti də müəyyən edilmişdir. Bundan başqa mexaniki tərkib göstəriciləri, həmçinin hər bir üzüm sortunun ayrı ayrılıqda lətli və lətsiz şirə çıxımları da öyrənilmişdir. Tədqiqat nəticəsində məlum olmuşdur ki, Göy-göl rayonu şəraitində yetişən üzüm sortlarının şəkər faizi Samux rayonundayetişən üzüm sortları ilə müqaisədə xeyli aşağı olmuşdur. Əgər Rkasiteli və Kaberne-Sovinyon üzüm sortlarında ümumi şəkərlik 18-22% arasında olmuşdursa, bu göstərici Samux rayonu şəraitində 24-28% hətta 30%-ə qədər olduğu aşkar edilmişdir. Göy-göl rayonunda yetişən üzüm sortlarında titrləşən turşuluğun, C vitamininin, fenol birləşmələrinin miqdarı isəSamux rayonuna nisbətən 6,5-14,4 % yüksək olmuşdur.

Soluxdurulmuş üzüm sortlarında tədqiq olunan keyfiyyət göstəricilərin araşdırmasında məlum olmuşdur ki, üzüm giləsində suyun buxarlanması hesabına şəkər faizi Rkasiteli vəBayanşirə üzüm sortlarında 40% -ə qədər, Kaberne-Sovinyon və Mədrəsə sortlarında isə müvafiq olaraq şəkərlik 28-32% arasında dəyişmişdir.

Soluxdurulmuş üzüm sortlarında digər keyfiyyət göstəriciləri I variantla müqaisədə xeyli çox olmuşdur. Buna əsas səbəb soluxdurulmuş üzüm sortlarında qida maddələrinin tənəffüs prosesinə sərf olunması daha intensifv olmuşdur. Bununla yanaşı soluxdurulmuş üzüm gilələrində digər variantla müqaisədə lətli və lətsiz şirə çıxımları da xeyli az olduğu müəyyən edilmişdir.

Tədqiqat nəticəsində məlum olmuşdur ki, Samux rayonu şəraitində tam yetişmiş Rkasiteli və Kaberne-Sovinyon üzüm sortlarından hazırlanmış Tokay tipli şərabın orqanoleptik göstəriciləri digər variantlarla müqaisədə xeyli üstün olmuşdur. Ona görə də Göy-göl rayonunun dağlıq və dağ ətəyi zonasında yetişən üzüm sortları ilə müqaisədə Samux rayonu şəraitində yetişən üzüm sortları Tokay tipli şərab hazırlamaq üçün daha əlverişlidir.

## ИССЛЕДОВАНИЕ ВЫБОРОВСОРТОВ ВИНОГРАДА ДЛЯ ПРОИЗВОДСТВА ВИН ТИПА ТОКАЙ

**А.С.Багирзаде, У.С.Мехдиев, А.А.Набиев**
**Азербайджанский Технологический Университет**
**afaqbagirzade8@gmail.com**

В результате исследований установлено, что по органолептическим показателям токайский виноматериал из сортов винограда Ркасители и Каберне-Совиньон, полностью вызревший в условиях Самухского района, значительно превосходит другие варианты. Поэтому, по сравнению с сортами винограда, произрастающими в горных и предгорных районах Гёй-Гёльского района, сорта винограда, выращиваемые в Самухском районе, более пригодны для производства вин типа токайских.

## STUDY OF SELECTION OF GRAPE VARIETIES FOR THE PRODUCTION OF TOKAY WINES

**A.S.Bagirzade, U.S.Mehdiyev, A.A.Nabiev**
**Azerbaijan Technological University**
**afaqbagirzade8@gmail.com**

As a result of research it was established that according to organoleptic indicators tokai wine material from Rkasiteli and Cabernet-Sauvignon grapes, fully matured in conditions of Samukh district, considerably exceeds other variants. Therefore, in comparison with grape varieties growing in the mountainous and foothill areas of the Goy-Gel region, the grape varieties grown in the Samukh region are more suitable for the production of Tokay type wines.

# BİYAN KÖKÜNÜN AZƏRBAYCANDAKI NÖVLƏRİNİN BİOLOJİ XÜSUSİYYƏTLƏRİ VƏ YAYILMA ƏRAZİSİ

**M.E.Mirzəyev**

**Azərbaycan Dövlət İqtisad Universiteti**
**mirzeyev_mehdi@mail.ru**

Biyan cinsinin ayrı-ayrı növlərinin öyrənilməsi böyük təcrübi əhəmiyyətə malikdir. Şirinbiyan bitkisi Paxlalılar fəsiləsinə daxildir. Biyan latın dilində qlisseraza deməkdir. Lüğəti mənası şirin kök deməkdir. Biyan cinsinin dünya florasının tərkibində 18 növü yayılmışdır. Azərbaycanda 8 növünə təsadüf olunur. Bunlardan ən geniş yayılanı şirinbiyandır – Glyeyrrhiza glabra. Şirin biyanın hündürlüyü 60-80 sm (bəzən isə 100 sm) olan çoxillik kökümsovlu ot bitkisidir. Kök sistemi yaxşı inkişaf etmişdir. O öz başlanğıcını şaquli istiqamətdə torpağın 2-7 m və daha dərin qatlarına gedən əsas kökdən götürür. Yan kökləri isə əsas kökdən bütün istiqamətlərdə inkişaf edərək yerüstü hissələr əmələ gətirir. Və bu yerüstü hissələrin özlərinin də yaxşı inkişaf etmiş mil kökləri olur. Köklərin torpaqda qalan hissəsi parlaq-sarı və ya limonu-sarı rəngdə, bayırda qalan hissəsi isə bozumtul rəngdə olur. Gövdəsi düzdür, nisbətən möhkəmdir, adətən az şaxələnir, üzəri seyrək qısa tükcüklərlə örtülü olur. Yarpaqlarının uc hissəsi lansetşəkilli olur. Yarpaqlarının ümumi uzunluğu isə 5-20 sm -ə çata bilər. Ümumi saplaq üzərində 7-19 ədəd, bəzən isə 5-19 ədəd yarpaqcıq olur. Yarpaqlarının ümumi görünüşü ellipsvari-lansetvari formada və ya uzunsov yumurtaşəkilli olub demək olar ki, çılpaqdır. Aşağı tərəfdən qatranlı hissəciklərdən və sıx yerləşmiş nöqtəşəkilli vəzilərdən ibarətdir. Yarpaqları teztökülənd ir. Salxımlar formasında olan damarlar adətən yumşaq lətlidir və yarpaqdan qısa olur ki, bunun da uzunluğu 5 (7) sm-ə çata bilər. Çiçək tacı solğunbənövşəyi rəngdə olub uzunluğu 8-10 (11) mm-ə çatır. Kasacıq 5-6 mm uzunluğunda, qısa tükcüklüdür; kasa yarpaqları kasacıq uzunluğunda bəzən isə indan bir az uzun olur. Paxlameyvəsi çılpaq və tüksüzdür, uzunsovdur, düz və asan əyiləndir. Meyvələri açılmayan və ya gec açılan paxlameyvə olub içərisində 3-6 ədəd toxum yerləşir. Bu növdə çiçəkləmə iyun-iyul aylarında, bəzən isə daha tez -may ayında baş tutur. Meyvələrinin yetişməsi isə iyul-sentyabr aylarında olur.

Azərbaycanda Samur-Dəvəçi, Xəzərboyu ərazilərdə, Abşeronda, Qobustanda, Böyük Qafqazın Qubaətrafı rayonlarında, Kiçik Qafqazın mərkəzi və cənub hissələrində, Bərdədə, Kürdəmirdə, Kür-Araz ovalığında, Alazan-Əyriçay ovalığında, Naxçıvan MR-nın cənub ərazilərində (düzən rayonlarında), Lənkəran düzənliyində, Muğan-Lənkəran ovalığında bitir.

## Ədəbiyyat siyahısı:

1. QurbanovE, Ali bitkilərin sistematikası, Bakı, 2009
2. FərziyevM, "Biyan cinsinin növlərinin yayılması və təsərrüfat xüsusiyyətləri", Referat işi

## БИОЛОГИЧЕСКАЯ ХАРАКТЕРИСТИКА И ТЕРРИТОРИЯ РАСПРОСТРАНЕНИЯ СОРТОВ СОЛОДКИ В АЗЕРБАЙДЖАНЕ

**М.Э.Мирзоев**
**Азербайджанский Государственный Экономический Университет**
**mirzeyev_mehdi@mail.ru**

В мировой флоре насчитывается 18 видов солодки. В Азербайджане 8 видов. Наиболее распространена из них солодка голая - Glairrhizaglabra. Лечебное действие солодки давно известно человеку, но в последние годы во многих странах, в том числе и в Азербайджане, ее стали включать в пищевую промышленность в качестве подсластителя, загустителя и т.д. продукты, карамель и др. в качестве пищевой добавки.

## BIOLOGICAL CHARACTERISTICS AND AREA OF DISTRIBUTION OF LIQORICE VARIETIES IN AZERBAIJAN

**M.E.Mirzoyev**
**Azerbaijan State University of Economics**
**mirzeyev_mehdi@mail.ru**

There are 18 species of licorice in the world flora. There are 8 species in Azerbaijan. The most common of these is the licorice - Glairrhiza glabra. The healing effects of licorice have long been known to humans, but in recent years in many countries, including Azerbaijan, it is now included in the food industry as a sweetener, thickener, etc. Extract from sweet licorice root is included in bread, bakery products, caramel, etc. as a food additive.

# BALZAM TİPLİ İÇKİNİN KEYFİYYƏT GÖSTƏRİCİLƏRİNİN TƏDQİQİ

**M.M.Tağıyev**
**A.V.Cəfərova**
**Azərbaycan Texnologiya Unversiteti**
**merdanaztu@mail.ru**

Əhali sayının durmadan artması dünyada mövcud olan hər bir dövlətdən özünün ərzaq təhlükəsizliyini təmin etməyi, məhsulları düzgün saxlamağı gündəmə çıxarır, yaradılmış ərzaq ehtiyatlarından səmərəli istifadə olunmanı,bu məhsullarla insanların düzgün qidalanmasını, həm də sağlamlığının təmin olunmasını zəruri bir məsələ kimi aktuallaşdırır. Çünki tədarük olunmuş qida ehtiyatları düzgün saxlanmadıqda xeyli itki yaranması ilə yanaşı, məhsulun keyfiyyət göstəricilərinin aşağı düşməsi müşahidə olunur. Bu səbəbdən insan orqanizmi lazımi qida komponentləri ilə təmin oluna bilmir, nəticədə maddələr mübadiləsi pozulur, bu da keçici olmayan xəstəliklərin yaranmasına şərait yaradır. Bunun qarşısının alınması dünya üçün qlobal bir problemin həll edilməsi məsələsini gündəmə çıxarır.

Dünya əhalisinin qida probleminin həll edilməsi heç də asan bir məsələ deyildir. Ona görə ki, yer kürəsinnin əraziləri, əkilib beçərilən torpaqları və iqlimi çox rəngarəngdir.Qloballaşan dünyada ekoloji mühitin kəskin pisləşməsi, iqlim dəyişiklikləri hesabına baş verən quraqlıqlar, təbii fəlakətlər, sünamilər əkilən torpaqlara ziyan vurur, min bir əziyyətlə becərilən ərzaq məhsulları məhv olur, nəticədə əhalinin qidalanması problemi yaranır. Hal hazırda Afrika qitəsi və digər inkişaf etməmiş ölkələrində baş verən aclığı buna misal göstərə bilərik. BMT Afrika ölkələri əhalisinin aclıqdan əziyyət çəkdiyini, xüsusi ilə gündəmə gətirir.

Açlıq baş verməsin deyə həm kənd təsərrüfatı məhsulları yetişdirən, həm də bu məhsulların emalını yerinə yetirən qida sənayesi mütəxəxsisləri müxtəlif texnologiyalar işləyib hazırlayırlar.

Buna görə də kənd təsərrüfatı məhsulları yetişdirilməsi ilə məşğul olan dünya alimləri daha məhsuldar sortlarının yaradılması və əkilib becərilməsi problemi üzərində tədqiqat işləri ilə məşğul olurlar. Son illərdə onlar tərəfindən yaradılmış daha məhsuldar və xəstəliyə davamlı geni dəyişdirilmiş ərzaqlara münasibət heç də birmənalı qəbul olunmur. Bir çox dövlətlər, o cümlədən Azərbaycan da geni dəyişdirilmiş ərzaq məhsullarının öz ölkələrinə idxalına və əkilib becərilməsinə məhdudiyyətlər qoyan qanunvericilik aktlarını da qəbul etmişlər.

Müasir zamanda insanların qidlanma strukturunda köklü dəyişikliklər baş verdiyi müşahidə olunur. İnsnların profilaktiki və müalicəvi xüsusiyyətə malik məhsullara tələbatı yuksəlir. Bildiyimiz kimi son dövrlərdə aparılan tədqiqat işlərində təbii antioksidant xüsusiyyətə malik məhsullardan istifadə olunmasına diqqət yetirilməsi təklif olunur. Belə təbii antioksidantlarla, vitaminlərlə bioloji aktiv mineral maddələrlə meyvə və tərəvəzlər daha çox zəngindir.

Onu qeyd edək ki, ənənəvi məhsullar insanların artan tələbatını tam ödəməyə qadir olmadığından funksional əhəmiyyətli məhsulların istehsalının artırılması çox vacibdir. Çünki funksional məhsullar qida lifləri, probiotik və prebiotiklərlə, antioksidantlarla, mineral maddələrlə, mikroelementlərlə, flavanoidlərlə zənginləşdirilir.

Çünki insan, sağlam həyat fəaliyyət üçün, zülallarla, yağlarla, karbohidratlarla, mineral maddələrlə, vitaminlərlə və s. zəruri maddələrlə balanslaşdırılmış qidalarla qidalanmalıdır. Əks təqdirdə balanslaşdırılmamış qida ilə qidalanma madə-bağırsaq sisteminin fəaliyyətinə öz mənfi təsirini göstərir və orqnizmdə arzuolunmaz xəstəliklərin yaranmasına şərait yaranır.

Müasir yaşam tərzi məcbur edir ki, insan həzm üzvülərinin və orqanizminin bütövlükdə işinə laqeyidlik göstərməsin. Buna görə də, düzgün qidalanmamanın mənfi nəticələrinin qarşısını

almaq məqsədilə, bir tərəfdən qidanın tam mənimsənilməsini, digər tərəfdən insan orqanizmini enerji və bioloji aktiv komponentlərlə təmin edən istehlak mallarının elmi cəhətdən əsaslandırılmaqla yaradılması çox vacibdir.

Orqanizmin bir neçə dəqiqə ərzində enerjiyə və bioloji aktiv maddələrə olan ehtiyacının təmin olunması və daha yaxşı mənimsənilməsi üçün bu məhsulların duru, yəni içki şəklində hazırlanması daha məqsədə uyğundur.

Son dövrlərdə işki və şirələrin insanlar tərəfindən daha çox istehlak olunması bunu təsdiqləyir. İnsanların şirə və ickilərə üstünlük verməsi onunla izah olunur ki, onlar yüksək ətir və dad xüsusiyyətinə malik olmaqla, həm vitamin, həm də mineral elementlərlə zəngindir, susuzluğu yatırır, maddələr mübadiləsinin düzgün getməsini təmin edir.

Bildiyimiz kimi, meyvə-tərəvəzlərin təhlükəsizliyi, istehlak və qidalılq dəyəri xüsusi əhəmiyyət kəsb edir. Müasir tibbi-bioloji qiymətləndirməyə əsasən məhsulun qidalılıq dəyərini bioloji aktiv maddələr- mineral birləşmələr, C vitamini, β-karotin, selilioza, pekrin birləşmələri, orqanizm tərəfindən asan mənimsənilən karbohidratlar və turşular yaradır.

Hər bir məhsulun təhlükəsizliyi zəhərli elementlərin, mikrotoksinlərin, nitratların, radionuklidlərin və pestisidlərin miqdarı ilə qiymətləndirilir. Buna görə də məhsulun təhlükəsizliyinin təmin olunması günün aktual məsələlərindən biri hesab edilir.Əkilib becərilən meyvə-tərəvəz xammalında ən çox yayılmış zəhərləyici elementlərin və radionuklidlərin miqdarının azaldılması, həmçinin müalicəvi-profilaktiki xüsusiyyətə malik qida məhsulları reseptlərinin yaradılmasına istiqamətlənmiş elmi cəhətdən əsaslandırılmış tədqiqatların aparılması mühüm əhəmiyyət kəsb edir.

Bunu nəzərə alaraq biz tərəfindən hazırlanan balzam tipli içkinin bəzi keyfiyyət göstəriciləri tədqiq olunmuş və baş verən dəyişikliklərə əsasən tövsiyə verilmişdir.

**Tədqiqatın məqsədi.**Tədqiqatımızın əsas məqsədi azərbaycanda əkilib becərilən və yabanı halda bitən efir yağlı bitkilərdən balzam tipli içki hazırlamaq və onun bəzi keyfiyyət göstəricilərini tədqiq etməkdir.

**Tədqiqatın obyekti.** Tədqiqat obyekti olaraq keşniş, şyüd, tərxun,cəfəri,ispanaq kərəviz, reyhan, quzuqulağı, qarpız, yovşan seçilmişdir.

**Tədqiqatın metodikası.**Tədqiqat ümumi qəbul olunmuş standartlara əsasən aparılmış, məhsulun rəngi vizual, aktiv turşuluğu Mettler Tolersdo pH-metri, şüasındırma və quru maddə ABBE DR-A1 refrüktometri,xüsusi çəki Radwag AS 220/C və 10 ml-lik piknometri, nitritin miqdarı СОЭКС nitrat –tester, makro- və mikroelementlərin ümumi miqdarı Radwag AS 220/C və temperatur rejimi 0-1100$^0$ C olan maqma müfel sobasında aparılmışdır.

Tədqiqat üçün adları qeyd olunan bitkilərdən 3 variantda balzam tipli içki hazırlanmışdır. Hazırlanmış içkilər butulkalara doldurulmuş və otaq temperaturunda (20-25$^0$ C) və soyuducuda 10-12$^0$ C saxlanılmışdır. İki ay saxlandıqdan sonra istifadə üçün içkilərin qapağı açılmış və hər birinin rəngi, mühitin aktiv turşuluğu, şüasındırma əmsalı, quru maddəsi, makro- və mikroelementlərin ümumi miqdarı, xüsusi çəkisi və nitritin miqdarı metodikada qeyd olunan çihazların köməyi ilə hər 10 gündən bir tədqiq edilmişdir. Tədqiqatd bir ay ərzində istifadə olunan içkilərdə baş verən dəyişikliklərin öyrənilməsi ilə yekunlaşdırılmışdır.

Məlum olmuşdir ki, isti emaldan keçirilməklə hazırlanmış içkilər şəffaf olmaqla, I və, III variantda açıq –sarımtıl, II variantda açıq-narıncı rəng çalarlıdır.

Otaq temperaturunda və soyuducuda saxlanan və istifadə edilən, havanın oksigeni ilə bir ay ərzində 3 dəfə təmasda olan balzam tipli içkinin bir ay ərzində aktiv turşuluğu I variantda otaq temperaturunda pH 6,79-5,83,soyuducuda pH 6,79-6,02, II variantda müvafiq olaraq pH 6,66-5,53, pH6,66-6,01, III variantda isə pH 7,74-7,01, pH7,74-7,01, şüasındırma əmsalı I variantda 1,4020-1,4053, 1,4020-1,4069, II variantda 1,4204-1,4236, 1,4225-1,4244, III varintda 1,4346-1,4347,

1,4346-1,4354, makro- və mikroelementlərin ümumi miqdarı müvafiq olaraq I variantda 1,174%, II variantda 1,253%, III variantda 1,136 %, xüsusi çəkisi otaq temperaturunda saxlanılan nümunədə I variantda 1,647-1,662 q/sm$^3$, II nümunədə 1,2508-1,2551 q/sm$^3$, III variantda 1,2569-1,2609 q/sm$^3$, soyuducuda saxlanan nümunədə isə müvafiq olaraq 1,647-1,686 q/sm$^3$, 1,2551-1,2572 q/sm$^3$, 1,2569-1,259 q/sm$^3$ aralığında dəyişikliyə uğrayır. I və III variantlar üzrə hazırlanmış balzam tipli içkilərin tərkibində nitritə rast gəlinməmiş, II variantda isə nitritin miqdarı müvafiq olaraq 16-18 mq/l olmuşdur. Bu buraxılabilən normadan demək olar ki, xeyli azdır.

Aparılan tədqiqat nəticələrinin təhlili onu göstərir ki,biz tərəfdən hazırlanmış balzam tipli içkinin, istifadə edildikdə keyfiyyət göstəriciləri soyuducuda daha yaxşı qorunub saxlanılır. Ona görə də, bu içkinin keyfiyyət göstəricilərinin daha yaxşı qorunub saxlanılmasını təmin etmək üçün, 100-250 ml-lik tünd rəngli şüşə butulkalarda qablaşdırılaraq istifadə olunması tövsiyə edirik.

## ИССЛЕДОВАНИЕ КАЧЕСТВЕННЫХ ПОКАЗАТЕЛЕЙ НАПИТКА ТИПА БАЛЬЗАМ

**М.М.Тагиев**
**А.В.Джафарова**
**Азербайджанский Технологический Университет**
**merdanaztu@mail.ru**

Анализ результатов исследований показывает, что качество приготовленного нами бальзамического напитка лучше сохраняется в холодильнике при употреблении. Поэтому для лучшей сохранности качества этого напитка мы рекомендуем его расфасовывать в бутылки из темного стекла по 100-250 мл.

## STUDY OF QUALITATIVE INDICATORS OF A BALM TYPE DRINK

**M.M.Tagiyev**
**A.V.Jafarova**
**AzerbaijanTechnologicalUniversity**
**merdanaztu@mail.ru**

Analysis of the results of the research shows that the quality of the balsamic drink prepared by us is better preserved in the refrigerator when used. Therefore, to ensure better preservation of the quality of this drink, we recommend that it be packaged in dark glass bottles of 100-250 ml.

# AZƏRBAYCANDA QARIŞIQ YEM ISTEHSALININ VƏZIYYƏTI VƏ PERSPEKTIVLIYI

**t.e.d.,prof., B.M.Bağırov,Doktorant, L.F.Verdiyeva**
**Azərbaycan Texnologiya Universiteti**
**Azərbaycan Dövlət Aqrar Universiteti**
**bayram-bagirov@rambler.ru**
**verdiyevalaman@gmail.ru**

Azərbaycan Respublikasında qarışıq yem istehsalına, bununla əlaqədar yemin zavod və fabriklər hesabına istehsalına və heyvanların tamrasionlu qarışıq yemlərlə təmin edilməsi perspektivləri əsaslandırılmışdır.

Dünya təcrübəsi göstərir ki, bir ölkənin qida təhlükəsizliyinin tam təmin olunması üçün əsas olaraq həmin ölkədə adam başına hər il bir ton taxıl istehsal olunmalıdır. Onun 350 kq-nı çörək, yarma və s. üçün qalanları heyvandarlıqda yem kimi istifadə olunmaqlainsanların ət, süd, və digər qida məhsulları ilə tam təmin olunmasına imkan yaradır. Son illər Respublikada aparılan məqsədyönlü işlər kənd təsərrüfatında o cümlədən, onun əsas sahələrindən biri olan heyvandarlıqda böyük irəliləyişlər olmuşdur.

Azərbaycan Respublikasında illər üzrə heyvandarlıq və bitkiçilik sahələrinin əsas məhsullar-la özünütəminetmə səviyyəsi də bunu sübut edir. Bu bir tərəfdən bitkiçiliyin inkişafı və heyvandar-lığın yem bazası və ondan istifadənin yaxşılaşdırılması hesabına baş vermişdir. Belə ki, heyvandar-lıq və bitkiçilik bir – biri ilə bilavasitə əlaqəli sahələrdir. Azərbaycanda son illərdə həyata keçirilən əsaslı aqrar islahatlardan sonra kənd təsərrüfatı istehsalı sürətlə və dinamik inkişaf etməkdədir. İstehsal olunan əkinçilik və heyvandarlıq məhsullarının həcmi ardıcıl olaraq artmış, bu isə öz növbəsində həmin məhsullarla özünütəminetmə göstəricilərinin yaxşılaşmasına davamlı şərait yaratmışdır. Cədvəl 1 – də 2015-2019 – cu illər ərzində bu sahələr üzrə faktiki kənd təsərrüfatı məhsulları ilə özünütəminetmə səviyyəsi göstərilmişdir. Azərbaycan Respublikası Statistika Komitəsinin məlumatlarına əsasən tərtib edilmiş həmin cədvəl son illər ölkədə bu kənd təsərrüfatı məhsulları ilə özünü ödəmə səviyyəsinin artım intensivliyini xarakterizə edir.

**Cədvəl 1.Azərbaycan Respublikasında taxıl dənləri və heyvandarlıq məhsulları üzrə özünütəminetmə səviyyəsi, faiz.**

| S/s | Məhsullar | İllər | | | | |
|---|---|---|---|---|---|---|
| | | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
| 1 | Dənlilər | 64.5 | 63.8 | 66.3 | 74.1 | 67.3 |
| 2 | Bütün növ ət və ət məhsulları | 94.7 | 87.9 | 84.7 | 82.7 | 82.5 |
| 3 | Süd və süd məhsulları | 84.3 | 87.7 | 86.1 | 86.7 | 86.3 |
| 4 | Yumurta | 99.7 | 98.8 | 100.5 | 101.5 | 101.8 |

Heyvandarlığın inkişafında qarışıq yem böyük rol oynayır. Belə ki, qarışıq yem tamrasionlu olduğu üçün heyvandarlığın məhsuldarlığını artırır və onların sağlamlığına müsbət təsir göstərir.
Cədvəldən görünür ki, Respublikada qarışıq yem - kombikorm üçün yarayan dənli bitkilər və heyvandarlıq məhsulları üzrə özünütəminetmə səviyyəsi haqqında statistik məlumatlarına görə, özünütəminetmə səviyyəsi əsasən müsbət istiqamətlərdə stabil olaraq artır. Bunun əldə olunmasında kombikorm sənayesinin inkişafının müsbət təsiri olmuşdur. Burada son 5 il ərzində bir qrup məhsullar üzrə nəzərə çarpacaq artımlar olmuşdur. Bəzi məhsullar üzrə isə qismən azalmalar

müşahidə edilmişdir. Belə ki, dənli və dənli paxlalılar üzrə 2015-ci illə müqayisədə, 2019-cu ildə 2.8%, bütün növ tərəvəz məhsulları üzrə 8.6%, meyvə və giləmeyvə üzrə 7.4%, nar və üzüm üzrə isə müvafiq olaraq 7 və 1.2% artım müşahidə edilmişdir. Analoji hal heyvandarlıq, habelə balıqçılıq məhsulları üzrə də öz əksini tapmışdır. Belə ki, özünütəminetmə səviyyəsində 2015-ci illə müqayisədə 2019-cu ildə süd və süd məhsulları üzrə 2%, yumurta üzrə 1.1%, balıq və balıq məhsulları üzrə isə 4.6% artım müşahidə edilmişdir. Cədvəldə qeyd edilən yalnız iki məhsul üzrə - kartof, ət və ət məhsulları üzrə özünütəminetmə səviyyəsində azalmalar müşahidə edilir. Qeyd etmək lazımdır ki, azalmalar əsasən müvafiq illər üzrə təbii şəraitə daha həssas məhsullarda baş vermişdir. Bu amillərdən əsası ilin quraqlıq olması səbəbindən baş verdiyi ilə əsaslandırılır. Ona görə də bu amil həmişə nəzərə alınmalı və əvvəlcədən tədbirlər görülməlidir. Payız, qış, yaz aylarında yağış suları yığılmalı və quraqlıq illərdə su çatışmamazlığı səbəbi ilə yaranan su qıtlığı kompensasiya olunmalıdır. Bu həm bitkiçiliyin, həm də taxılçılığın və heyvandarlığın davamlı inkişafını təmin edir.

**Açar sözlər:** qarışıq yem, özünütəminat, heyvandarlıq.

**Ədəbiyyat siyahısı:**


1. Шаршунов В.А., Машины и оборудованиедляпроизводства комбикормов, Справочное пособие/В.А. Шаршунов, А.В.Червяков, С.А. Бортник, Ю.А.Пономаренко, Минск:Эконерспектива, 2005, 487с
2. DairyNews.ru https://www.dairynews.ru/news/proizvodstvo-kombikormov-v-rossii-v-2020-godu-sost.html
3. https://www.soyanews.info1734


## СОСТОЯНИЕ И ПЕРСПЕКТИВЫ ПРОИЗВОДСТВА КОМБИКОРМОВ В АЗЕРБАЙДЖАНЕ

**Докторант, Л.Ф.Вердиева АДАУ, Д.т.н., проф., Б.М.Багиров**
**Азербайджанский Технологический Университет**
**Азербайджанский Государственный Аграрный Университет**
**bayram-bagirov@rambler.ru, verdiyevalaman@gmail.ru**

Обоснованы перспективы производства комбикормов в Азербайджанской Республике, и в связи с этим увеличение производство комбикормов за счет фабрик и заводов и обеспечение животных полнорационными комбикормами.

**Ключевые слова:** комбикорма, самообеспеченность, животноводство

## STATE AND PROSPECTS OF COMPOUND FEED PRODUCTION IN AZERBAIJAN

**Doctoral student, L.F.Verdieva**
**Doctor of Technical Sciences, Prof., B.M.Bagirov**
**AzerbaijanTechnologicalUniversity, Azerbaijan State Agrarian University**
**bayram-bagirov@rambler.ru, verdiyevalaman@gmail.ru**

The prospects for the production of compound feed in the Republic of Azerbaijan are substantiated, and in this regard, an increase in the production of compound feed at the expense of factories and plants and the provision of animals with full-feed compound feed.

**Key words:** feed, self-sufficiency, animal husbandry

# SUBTROPİKBİTKİÇİLİYİN İNKİŞAFININ İQTİSADİ ƏHƏMİYYƏTİ

**N.Qasımova**
**Azərbaycan Kooperasiya Universiteti**
nurida.qasimova1971@gmail.com

Subtropiklərin ən mühüm texniki bitkiləri bunlardır: çay, hər növ sitrus meyvələri, dəfnə, xurma, əncir, nar, zeytun, feyxoa və bəzi başqa həmişəyaşıl və yarpaqlı bitkilər. Açıq sahədə subtropik bitkilər yalnız respublikanın bəzi bölgələrində xüsusəndə Lənkəran bölgəsində, Abşeronda (zeytun) və bəzi Mərkəzi Aran iqtisadi rayonlarında və bitişik rayonlarda (nar) istehsalı genişlənməkdədir. Məqalədə subtropik bitkiçiliyin inkişafının iqtisadi əhəmiyyəti təhlil olunaraq onun aqrar sahə iqtisadiyyatında mühüm əhəmiyyəti olduğu müəyyən edilmişdir.

Azərbaycanın cənub bölgəsinin şərq hissəsində (Astara, Lənkəran, Masallı) subtropik bitkiçiliyin inkişafı üçün əlverişli torpaq iqlim şəraitinin mövcudluğu və subtropik meyvə və çay bitkilərinin bir sıra bioloji xüsusiyyətlərə və fərqli becərmə texnikasına malik olması ölkəmizdə inkişaf etmiş subtropik bitkiçiliyin xüsusi qolunun ayrılmasına səbəb olmuşdur.

Azərbaycanda istifadə olunan bir çox subtropik bitkiçilik məhsullarının və onların emal məhsullarının xaricdən xeyli miqdarda idxal edilməsi faktı subtropik bitkiçiliyin inkişafını aktuallaşdırır. Subtropik bitkilərdən ən çox istifadə olunan sitrus meyvələri (portağal, narıngi və limon), feyxoa və kivi kimi giləmeyvələr xoş dadına və müxtəlif vitaminlərlə zənginliyinə görə, ən çox təzə halda istehlak olunur və ya onlardan müxtəlif şirələr alınır.

Hazırda Azərbaycanın Lənkəran iqtisadi rayonunda subtropik bitkiçiliyin inkişaf etdirilməsi ixrac olunan məhsulların siyahısını artırmağa və daxili tələbatı ödəməyə şərait yaratmaqla idxaldan asılılıq səviyyəsinin azalmasına şərait yaradır.

Lənkəran iqtisadi rayonunda subtropik bitkiçiliyin əsas sahəsi olan sitrus meyvə bağları btkiçilik məhsulları istehsalının yüksək iqtisadi səmərəliliyini və davamlılığını təmin etmək üçün təbii, maddi, maliyyə və əmək resurslarından kompleks istifadəyə əsaslanan və bazar iqtisadiyyatının tələblərinə uyğun olan iqtisadi mexanizmlərin hazırlanaraq tətbiqi zərurudir. Qeyd edək ki, istehlak xassələrinə görə ən qiymətli olan meyvə və giləmeyvə bitkilərinin becərilməsi və reallaşdırılması mürəkkəb bir sistemidir. Eyni zamanda, bu istiqamətdə istehsal sahələrinin rəqabətli şəkildə genişlənməsi daha çox meyvə və giləmeyvə bitkilərinin becərilməsinin təbii-iqlim şəraiti və zonal xüsusiyyətləri ilə bağlıdır. Subtropik bitki növ və sortların yayılmasında, zona xüsusiyyətləri, bioloji və ekoloji xüsusiyyətlərə uyğunlaşma, intensivləşmə amilləri nəzərə alınmaqla müasir texnologiyaların tətbiqində özünü göstərir.

Kənd təsərrüfatı istehsalının hazırkı artım trayektoriyası istehsal resurslarından istifadənin səmərəliliyinin yüksəldilməsini göstərsədə artan xərclər və dəyişən qiymətlər iqtisadi səmərəliliyin aşağı olduğunu göstrərir. Bu əsasən məhsulların daxili bazara və yüksək rəqabətin mövcud olduğu Rusiya Federasiyası bazarlarına yönəldilməsi ilə bağlıdır. Ümumilikdə kənd təsərrüfatı istehsalının və onun ayrı-ayrı sahələrinin iqtisadi səmərəliliyini müəyyən edərkən bir sıra göstəricilərdən istifadə olunur. Bitkiçilikdə iqtisadi səmərəliliyi müəyyən edən əsas iqtisadi göstəricilərə aşağıdakılar aid edilir:

- 1 hektardan əldə edilən məhsuldarlıq;
- 1 hektara çəkilən xərclər;
- 1 sentner məhsulun maya dəyəri;
- 1 sentner məhsula əmək sərfi, adam/saat;
- sərf olunan adam/saata düşən istehsal;
- sərf olunan hər yüz manata görə əldə edilən mənfəət;
- rentabellik səviyyəsi

Kənd təsərrüfatı məhsulları istehsal edən sahibkarlıq təsərrüfatlarının, fermerlərin və müəssisələrin məhsul istehsalı ilə məşğul olmasının əhəmiyyətini xarakterizə edən mühüm göstəri-cilər onların əldə etdikləri gəlirləri və mənfəətləridir. Digər tərəfədən onların ayrı-ayrı sahələrdən əldə etdikləri gəlirlərin ümumi gəlirlərdə payı və bütövlükdə fəaliyyətləri üzrə mənfəətdir.

Ümumilikdə götürdükdə bitkiçilik sahəsində və eləcədə subtropik bitkiçilkdə fəaliyyət göstərən təsərrüfatların iqtisadi səmərəliliyi ilk növbədə sahədən əldə olunan məhsuldarlıq, istehsalın maya dəyəri və məhsulun satış qiyməti kimi göstəricilərdə ümumiləşdirilən və əks olunan bir çox amillərdən asılıdır. Məlum olduğu kimi, məhsuldarlıq və satış qiyməti nə qədər yüksək olarsa, maya dəyəri bir o qədər aşağı olar, hər sentner və hektara düşən mənfəət bir o qədər çox olur və rentabellik səviyyəsi də yüksəlir.

Subtropik bitkiçilik təsərrüfatında da inkişafın davamlılığının əsas şərti kimi səmərəliliyi onların istehsal sahələrinin strukturunun seqmentlərinin hər birinin səmərəliliyi ilə müəyyən edilir ki, bu da konkret (seqmentlər üzrə) və məcmu iqtisadi effektin miqyasının müəyyənləşdirilməsinə vahid metodoloji yanaşmanı nəzərdə tutur. Ümumiyyətlə, bağçılığın iqtisadi səmərəliliyi bir-biri ilə sıx əlaqəli olan, sahənin xüsusiyyətlərini əks etdirən və fərdi çoxalma proseslərini aşkar edən təbii və məsrəf göstəriciləri sistemi ilə xarakterizə olunur (3).

Lənkəran iqtisadi rayonunda subtorpik bitkiçiliyin inkişaf etdirilməsi üçün aşağıdakı prinsiplərin yerinə yetirilməsi istisadi səmərəliliyin artmasına imkan verir:

**Prinsip 1:** Resurslardan səmərəli istifadənin artırılması. Bu öz növbəsində kənd təsərrüfatının davamlı inkişafının əsasını təşkil edir.

**Prinsip 2:** Davamlı olaraq təbii ehtiyatları (torpaq və su) qorumaq və əkinə yararlı sahələri əkinə cəlb etmək üçün bir başa fəaliyyəti genişləndirmək.

**Prinsip 3:** Kəndlərin yaşayış vasitələrini və sosial rifahını qoruyaraq yaxşılaşdırmaq.

**Prinsip 4:** Subtropik bitkiçiliyin səmərəli inkişafına təsir edən amilləri xüsusən də iqlim dəyişikliyi və bazar dəyişkənliyi ilə bağlı məlumatların izlənilməsi.

Qeyd edilənlərbazar iqtisadiyyatının müasir tələblərinə uyğun olaraq təsərrüfatların idarəetmə mexanizmini təkmilləşdirməklə resurslardan səmərəli istifadənin davamlılığını təmin etmək üçün vacibdir.

Hazırki şəraitdə dünyada baş verən iqlim dəyişilikləri bitkiçilik sahəsinin xüsusən də subtropik bitkiçilik sahəsinin inkişafına ciddi təsir etməkdədir və bu təsir gələcəkdə xərclərin artmasını şərtləndirir. Bazarda qiymət dəyişkənliyi, yeni bazarların axtarılması da gəlirlərə təsir edən əsas amillərdən hesab olunur.

Respublikada qida sənayesi məhsullarının zəruri satış şəbəkəsi formalaşsa da kənd təsərrüfatı məhsullarının ticarəti üzrə bazar strukturları və institutları hələ də lazımı səviyyədə inkişaf etməmişdir. Bazar kanalları dağınıq və bəsit şəkildə olmaqla, qeyri-formal sector burada üstünlük təşkil edir. Buna görə də əksəriyyəti kiçik təsərrüfatlardan ibarət olan kənd təsərrüfatı istehsalçılarının xüsusilə bitkiçilik məhsulları üzrə əlverişli şərtlərlə bazara çıxışında problemlər mövcuddur. Belə ki, kənd təsərrüfatı məhsullarının satış qiyməti arasında böyük fərq mövcuddur. Bu problem xüsusilə meyvə, tərəvəz və bostan məhsullarının topdan və pərakəndə satışı şəbəkəsinin kifayət qədər inkişaf etməməsinə görədir (2 səh 151).

Aparılan tədqiqat və araşdırmalarımız göstərir ki, aqrar islahatların həyata keçirilməsi və sahibkarlıq fəaliyyətinin genişlənməsinə baxmayaraq istehsal olunan məhsulların satışında yaranan ciddi problemlər aqrar sahənin bütün istehsal sahələrində inkişafı ciddi şəkildə ləngidir. Məhsulunu vaxtında sərfəli qiymətə realizə edə bilməyən təsərrüfatlar növbəti sadə təkrar istehsalı keyfiyyətli şəkildə həyata keçirə bilmirlər və bu özünü daha çox kiçik təsərrüfatlarda göstərir. Bazar problemi subtropik bitkiçilik məhsullarının satışında da (düyü, naringi, limon, feyxoa) mövcuddur.

Subtropik bitkilərin tərkib hissəsi olan sitrus meyvələrinin inkişafına dair Dövlət Proqramının (2018-2025) icrasından gözlənilən nəticələrin 7.1 bəndində qeyd edilir ki, Dövlət Proqramının həyata keçirilməsi Azərbaycanda sitrus meyvəçiliyi ənənələrinin inkişaf etdirilməsinə, sitrus meyvələrinə olan daxili tələbatın ödənilməsinə və idxaldan asılılığın azaldılmasına, sitrus meyvəçiliyi ilə məşğul olan rayonlarda əhalinin həyat şəraitinin yaxşılaşdırılmasına təsir göstərməklə ölkənin aqrar potensialını gücləndirəcəkdir (1).

Subtropik bitkiçiliyin iqtisadi səmərəliliyini təhlil edərkən sahənin spesifik xüsusiyyətlərini mütləq şəkildə nəzərə almaq lazımdır. Ümumilikdə götürdükdə çoxillik əkinlər əsas istehsal

vasitəsidir. Bu istehsal vasitələri xüsusi məqsədyönlü şəkildə istifadə olunmaqla, meyvə və giləmeyvə məhsulları istehsal etməklə gəlir əldə etmək üçün istehsal sahəsi kimi formalaşır. Əksər əsas fondlardan fərqli olaraq, onlar kənd təsərrüfatının digər sahələrində istehsal üçün istifadə oluna bilməzlər. Meyvə və giləmeyvə bağlarının və çay plantasiyalarının bir xüsusiyyəti həm də ərazinin sabitliyidir: istismar müddətinin sonuna qədər onları köçürmək olmaz. Eyni zamanda, subtropik bitkiçilik bağlarının salınması daha çox xərc tələb edən sahədir. Buna görə də, subtropik bitkiçiliyin səmərəliliyi əsasən sitrus meyvələri və nar bağlarının, çay plantasiyalarının salınması üçün torpaq sahəsinin düzgün seçimindən də asılıdır.

Digər meyvələrdən fərqli olaraq sitrus meyvə bağlarından məhsul yığımından sonrakı itkiləri məhdudlaşdırmaq üçün mövcud olan ən mühüm proseslərdən Biri də sitrus meyvələrinin istehsal olunduğu konkret coğrafi ərazinin, paylayıcı şəbəkələrin və istehlak bazarının şərtlərinə ən yaxşı cavab verə bilən istiqaməti seçməsidir. Məhsul yığımı çox diqqətlə aparılmalıdır, yığım əməliyyatları meyvələri dəyərsizləşdirən lezyonlara və yaralara səbəb ola bilər və göbələk dəyişikliklərinə açıq qapılardır. Meyvələr quruduqda yığmaq lazımdır. İxrac üçün nəzərdə tutulan məhsullar xüsusi proseduralardan keçməsə daşınmaya davam gətirə bilməz.

**Açar sözlər:**subtropik, iqtisadiyyat, səmərəlilik, kənd təsərrüfatı, iqtisadi mexanizm, resurs,

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikası Prezidentinin 13 fevral 2018-ci il 3668 №-li Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sitrus meyvəçiliyinin inkişafına dair 2018- 2025-ci illər üçün Dövlət Proqramı"

2. Hüseyn R.Z., "Aqrar sahədə rəqabətqabiliyyətli məhsul istehsalı: qloballaşmanın çağırışları və inkişaf imkanları", "Avropa" Nəşriyyatı,Bakı, 2018, 408s

3. Интенсивное садоводство на юге Украины: Справ. Изд./Сост. Якушев В.И., Симферопль: Таврия, 2000, 256 с

## ЭКОНОМИЧЕСКОЕ ЗНАЧЕНИЕ РАЗВИТИЯ СУБТРОПИЧЕСКОЙ РАСТИТЕЛЬНОСТИ

**Н.А.Гасымова**
**АзербайджанскийКооперанығйУниверситет**
nurida.qasimova1971@gmail.com

Важнейшими техническими растениями субтропиков являются: чай, все виды цитрусовых, лавр, финики, инжир, гранаты, маслины, фейхоа и некоторые другие вечнозеленые и листопадные растения. В открытом грунте производство субтропических растений расширяется лишь в некоторых районах страны, особенно в Лянкяранской области, Абшеронском (оливковое) и некоторых Центрально-Аранских экономических районах и прилегающих районах (гранат). В статье анализируется хозяйственное значение развития субтропической растительности и определяется ее значение в аграрной экономике.**Ключевые слова:** субтропики, экономика, эффективность, сельскоехозяйства, экономический механизм, ресурс

## ECONOMICSIGNIFICANCEOFTHEDEVELOPMENTOFSUBTROPICALVEGETATION

**N.A. Gasimova**
**Azerbaijan Cooperation University**
nurida.qasimova1971@gmail.com

The most important technical plants of the subtropics are: tea, all kinds of citrus fruits, laurels, dates, figs, pomegranates, olives, feijoa and some other evergreen and deciduous plants. In the open field, the production of subtropical plants is expanding only in some regions of the country, especially in the Lankaran region, Absheron (olive) and some Central Aran economic regions and adjacent regions (pomegranate). The article analyzes the economic significance of the development of subtropical vegetation and identifies its importance in the agrarian economy.

**Keywords:** subtropical, economy, efficiency, agriculture, economic mechanism, resource,

# ÇÖRƏKVƏ ÇÖRƏKMƏHSULLARININAZƏRBAYCANAIDXALININTƏHLILI

**E.Ə.Bayramov, K.Ə.Əzizov**
**Azərbaycan Texnologiya Univesiteti**
**eldaniz@rambler.ru**

**İşin məqsədi** – Azərbaycana idxal olunan çörək və çörək məhsullarını təhlil etmək və məlumat bazası yaratmaqdır.

**Tədqiqatın metodikası** – tərəfimizdən işlənmiş fərdi metodikaya əsaslanır. Bu metodikaya idxalın monitorinqi, verilənlərin toplanması və inteqrasiyası, Dövlət Statistika Komitəsinin verilənlərinin işlənməsi, əsas göstəricilərin hesablanması və nəticələrin formalaşdırılması, açıq mənbələrdə olan materialların təhlili daxildir.

**Tədqiqatın predmeti** – çörək və çörək məhsullarının idxalının tədqiqidir.

**Tədqiqatın praktiki əhəmiyyəti** – alınmış nəticələr kiçik və orta biznesin sahibkarları, aparıcı marketoloqlar, ekspertlər və bu sahədə maraqlı olan şəxslər üçün faydalı ola bilər.

Son 5 il ərzində əhalinin çörək məhsulları istehlakında müsbət trendlər müşahidə olunur. Belə ki, bu dövr ərzində hər nəfərə düşən çörək və çörək məhsulları istehlakı 6,3 faiz azalmışdır. Çörək və çörək məhsulları istehlakının azalması, əhalinin qida rasionunun digər məhsullar hesabına yaxşılaşması ilə bağlıdır. Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən 2014-cü il 6 iyun tarixli 182 nömrəli qərarı ilə minimum istehlak səbəti üzrə çörək və çörək məhsullarının illik istehlak normaları təsdiq edilmişdir (cədvəl 1).

**Cədvəl 1. Minimum istehlak səbəti üzrə çörək və çörək məhsullarının illik istehlak normaları, kq**

| Göstəricilər və məhsullar | Əmək qabiliyyətli yaşadək əhali | Əmək qabiliyyətli yaşda əhali | Əmək qa-biliyyətli yaşdan yu-xarı əhali | Orta he-sabla bütün əhalinin hər nəfəri üçün |
|---|---|---|---|---|
| Əhalinin xüsusi çəkisi, faiz | 22,4 | 68,5 | 9,1 | 100,0 |
| Çörək və çörək məhsulları (una çevirməklə) | 100,5 | 136,8 | 107,9 | 126,1 |

Cədvəl 1-dən göründüyü kimi minimum istehlak səbəti üzrə çörək və çörək məhsullarının illik istehlak norması orta hesabla bütün əhalinin hər nəfəri üçün 126,1 kq olmuşdur [1].

Cədvəl 2-də 2016-2020-ci illər üzrə adambaşına buğdanın və bütün növ unların istehlakı göstərilmişdir.

**Cədvəl 2. Adambaşına buğdanın və bütün növ unların istehlakı, illik kiloqramla**

| Məhsulun adı | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|
| Buğda | 8,4 | 8,4 | 8,3 | 8,8 | 8,7 |
| Un (bütün növləri) | 72,7 | 73,2 | 73,4 | 84,6 | 84,4 |

Cədvəl 2-dən göründüyü kimi adambaşına buğdanın və bütün növ unların istehlakı cüzi dəyişmiş və deyək olar ki, sabit qalmışdır.

Azərbaycanda buğda istehsalı son 2016-2020-ci illərdə 98 925 ton artmış və bu səbəbdən

buğda idxalı 234 499 ton azalaraq 1 365 100 ton olmuşdur. Bütün növ unların istehsalı 272 993 ton, idxal isə 30 813 ton artmışdır (cədvəl 3).

**Cədvəl 3. Çörək və çörək məhsullarının ehtiyatı**

| **Buğda ehtiyatları, ton** | | | | | |
|---|---|---|---|---|---|
| | **2016** | **2017** | **2018** | **2019** | **2020** |
| İlin əvvəlinə qalıq | 875 248 | 1 025 631 | 829 824 | 706 931 | 864 010 |
| İstehsal | 1 799 859 | 1 769 574 | 1 991 683 | 2 114 139 | 1 818 665 |
| İdxal | 1 599 599 | 1 274 434 | 1 080 906 | 1 584 998 | 1 365 100 |
| **Ehtiyatların cəmi** | **4 274 706** | **4 069 639** | **3 902 413** | **4 406 068** | **4 047 775** |
| **Bütün növ un ehtiyatları, ton** | | | | | |
| İlin əvvəlinə qalıq | 490 942 | 494 632 | 481 234 | 457 648 | 468 709 |
| İstehsal | 1 582 300 | 1 603 125 | 1 603 133 | 1 806 069 | 1 855 293 |
| İdxal | 66 489 | 70 155 | 73 223 | 88 453 | 97 302 |
| **Ehtiyatların cəmi** | **2 139 731** | **2 167 912** | **2 157 590** | **2 352 170** | **2 421 304** |
| **Tərkibində sirop, yumurta, pendir və ya meyvə cemi olmayan təzəçörək ehtiyatları,ton** | | | | | |
| İlin əvvəlinə qalıq | 13 967 | 14 106 | 14 260 | 14 404 | 14 652 |
| İstehsal | 1 209 600 | 1 222 800 | 1 235 000 | 1 256 400 | 1 294 604 |
| İdxal | 114 | 126 | 185 | 182 | 232 |
| **Ehtiyatların cəmi** | **1 223 681** | **1 237 032** | **1 249 445** | **1 270 986** | **1 309 488** |
| **Suxarı və peçenye, uzun müddət saxlanan qənnadıməmulatlarınınehtiyatları, ton** | | | | | |
| İlin əvvəlinə qalıq | 9 860 | 10 051 | 12 655 | 13 449 | 15 933 |
| İstehsal | 4 791 | 8 391 | 4 786 | 8 092 | 10 515 |
| İdxal | 10 621 | 13 378 | 16 377 | 18 522 | 17 412 |
| **Ehtiyatların cəmi** | **25 272** | **31 820** | **33 818** | **40 063** | **43 860** |

Araşdırmalar göstərir ki, əhalini çörək və çörək məhsulları ilə təmin etmək üçün həmin məhsulların idxalına ehtiyac var. Bunun səbəbi bir tərəfdən buğda istehsalının əhalinin adambaşına düşən normasının tam təmin edilməməsi, digər tərəfdən isə qida rasionunun müxtəlif çeşidli çörək və çörək məhsulları ilə zənginləşdirilməsinə tələbatın olmasıdır ki, bu da idxalın həcmini şərtləndirir. Azərbaycanın buğda ilə özünü təmin etməsi 60 faiz səviyyəsindədir. Yəni buğdaya ümumi tələbatımızın 40 faizi idxal hesabına ödənilir. İdxal olunan buğdanın böyük əksəriyyəti məhz un emalı sənayesinin tələbatı üçün ödənilir [2].

Azərbaycan özünü tam olaraq buğda ilə təmin edə bilmir. Bunun bir sıra səbəbi var: Azərbaycanın torpaq resurslarının həcmi o qədər də geniş deyil. Rusiya, Kanada, ABŞ, Qazaxıstan, Avstraliya və s. kimi ölkələr geniş torpaq sahələrinə malik olduqları üçün böyük həcmdə buğda istehsalı təmin edən ölkələrdir. Başqa məqam isə ondan ibarətdir ki, Azərbaycanın iqlim şəraiti keyfiyyətli buğda istehsalına imkan vermir. Mütəxəssis-ekspertlərin rəyinə görə may-iyun aylarında Azərbaycanın əsas buğda yetişən regionlarında kəskin istilər düşür, bu da taxılın yetişmə mərhələsi başa çatmadan qurumasına səbəb olur. Bu, həm məhsuldarlığı azaldır, həm də məhsulun keyfiyyətinə mənfi təsir göstərir. İqlim uyğunsuzluğu ilə yanaşı su resurslarında da ciddi problemlər vardır.Ona görə idxalın həcmini müəyyənləşdirirkən Azərbaycanda yaşayan fiziki şəxslər və ya fəaliyyət göstərən müəssisələr tərəfindən həyata keçirilən əqdlərin nəticəsində ölkəyə daxil olan məhsulların miqdarı nəzərdə tutulmalıdır. Sözsüz ki, çörək və çörək məhsullarının, o cümlədən

buğda və bütün növ unların Azərbaycana idxalı zamanı keyfiyyətin ekspertizası məsələlərinə xüsusi diqqət edilməlidir.

Beləliklə, aparılan tədqiqat çörək və çörək məhsullarının, o cümlədən buğda və bütün növ unların Azərbaycana idxalının vəziyyəti haqqında aktual məlumat verir. Tədqiqatlar zamanı adambaşına düşən çörək və çörək məhsullarının, o cümlədən buğda və bütün növ unların istehlak normaları, tərkibində sirop, yumurta, pendir və ya meyvə cemi olmayan təzə çörək ehtiyatları, suxarı və peçenye, uzun müddət saxlanıla bilən qənnadı məmulatlarının ehtiyatları, daxili istehsalın həcmi və dinamikası öyrənilmişdir. Tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, çörək və çörək məhsullarının, o cümlədən buğda və bütün növ unların istehsalının artırılması Azərbaycana həmin məhsulların idxalını azaltmağa imkan verir.

## АНАЛИЗ ИМПОРТА ХЛЕБА И ХЛЕБОПРОДУКТОВ В АЗЕРБАЙДЖАН

**Э.Э.Байрамов**
**К.А.Азизов**
**Азербайджанский Технологический Университет**
**eldaniz@rambler.ru**

В статье, проведенное исследование содержит актуальную информацию о состоянии импорта хлеба и хлебопродуктов, а также пшеницы и всех сортов муки в Азербайджан. Изучены нормы потребления хлеба и хлебопродуктов, в том числе пшеницы и всех сортов муки, а также запас хлеба, не содержащий сироп, яйца, сыр или фруктовые джемы, запас сухарей и печенье, кондитерских изделий длительного хранения, объем и динамика внутреннего производства.

## ANALYSIS OF IMPORTS OF BREAD AND BAKERY PRODUCTS TO AZERBAIJAN

**E.E.Bayramov**
**K.A.Azizov**
**AzerbaijanTechnologicalUniversity**
**eldaniz@rambler.ru**

In the article, the study contains up-to-date information on the state of imports of bread and bakery products, as well as wheat and all types of flour to Azerbaijan. The consumption norms of bread and bakery products, including wheat and all types of flour, as well as the stock of bread that does not contain syrup, eggs, cheese or fruit jams, the stock of crackers and biscuits, long-term confectionery products, the volume and dynamics of domestic production were studied.

### Ədəbiyyat siyahısı:

1.Azərbaycanın ərzaq balansları, Statistik məcmuə, Bakı: DSK, 2021, 124 s
2.Sputnik.azhttps://sputnik.az/20220107/ekspert-mene-de-deyirler-ki-coreyin-cekisi-430-440-qr-gelir-437957466.html

# AĞ SÜFRƏ ŞƏRABIISTEHSALINDAPEKTINMADDƏLƏRININ ƏHƏMIYYƏTI

**S.R.Məmmədov, U.C.Mehdiyev**
**Azərbaycan Texnologiya Univesiteti**
**urxan.mehdiyev@mail.ru**

Azərbaycanda aqrar-sənaye kompleksinin ən rentabelli və ən qədim sahələrindən biri də şərabçılıqdır [1]. Şərabçılıq turizm ölkə iqtisadiyyatının inkişafına mühüm töhfə vermiş və aparıcı sahələrdən biri olmuşdur. Azərbbaycan şərabları gözəl təkrarolunmaz ətrinə və əla keyfiyyətinə görə şöhrət qazanmışdır[4]. Bu baxımdan apardığımız elmi-tədqiqat işindən məlumdur ki, ağ süfrə şərabı istehsalında pektin maddələrinin əhəmiyyəti böyükdür. Pektin maddələri heteropolisaxarid olub, bitkilərin tərkibində geniş yayılmışdır [3]. Pektin maddələri üzümün ən çox daraq və qabıq hissəsində olur. Üzümün şirəsində isə pektin maddələri nisbətən az miqdarda olur. Ona görə də daraqla birlikdə qıcqırdılan Kaxet tipli şərablarda pektin maddələri çoxluq təşkil edir. Bundan başqa əzinti ilə birlikdə qıcqırmasından hazırlanan şərablardsa da pektin maddələri zəngin olur [5].

Bu məqsədlə bizim hazırladığımız ağ süfrə şərabı da 2-3 gün əzinti ilə birlikdə təmasda olduğundan pektin maddələrinin tədqiq olunması ön plana çəkilmişdir.

Ədəbiyyat xülasəsindən aydın olmuşdur ki, pektin maddələri ən çox yetişməmiş üzümün tərkibində olur. Üzüm yetişdikcə propektin pektinə çevrilir. Bu zaman üzümün giləsi nisbətən yumşalır. Üzümün yetişmə müddəti keçdikcə isə həll olmuş pektinin parçalanması nəticəsində üzüm giləsi tamamilə boşalmağa başlayır. Bu da üzümün dad keyfiyyətinə çox pis təsir edir. Belə üzümdən yüksək keyfiyyətli şərab hazırlamaq mümkün olmur [2,5]. Bəzən alimlər belə hesab edirlər ki, pektin maddələri şərabın dad keyfiyyətinə təsir göstərmirlər. Ancaq onun çevrilmələrindən əmələ gələn məhsullar, şərabın əmələ gəlməsində, onun keyfiyyətinə, sabitliyinə və başqa amillərə təsir göstərirlər. Pektin maddələri ilə zəngin olan üzümdən hazırlanan şərablarda metil spirti, furfurol çox olur. Şərabda olan furfurolun əsas mənbəyi də pektin maddələri sayılır [5].

Ağ süfrə şərabı istehsalı zamanı pektin maddələrinin və pektinesteraza fermentinin aktivliyinin dəyişməsi barədə aparılan elmi-tədqiqat işləri cədvəl 1 və 2-də göstərilmişdir. Analiz nəticəsində müəyyən olmuşdur ki, pektin maddələri miqdarca üzümün şirəsində az, əzintidə isə çoxdur (cədvəl 1). Əgər Göy-Göl rayonu şəraitində Bayan-şirə üzüm sortundan alınmış şirədə 0,21% pektin maddələri müəyyən olunmuşdursa, onun qabıq hissəsində - 0,34% olmuşdur. Bundan başqa pektin maddələrinin miqdarı aparılan variantlar üzrə şirənin qıcqırması dövründə və qıcqırmanın sonunda da tədqiq olunmuşdur. Bizə məlum olmuşdur ki, şirənin qıcqırması dövründə pektin maddələri miqdarca 40-50% azalır. Qıcqırmanın sonunda isə pektin maddələrinin şərab materialında miqdarı çox az qalır. Onun müəyyən hissəsi mayalar tərəfindən mənimsənilir, müəyyən hissəsi isə hidroliz olunaraq, monoşəkərlərə ayrılır.

**Cədvəl 1. Ağ süfrə şərabı istehsalı zamanı pektin maddələrinin miqdarca dəyişməsi (yaş çəkiyə görə faizlə)**

| Üzüm sortu | Şirədə | I | | II | | III | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | Qıcqır-manın ortasında | Qıcqır-manın sonunda | Qıcqır-manın ortasında | Qıcqır-manın sonunda | Əzinti-də | Qıcqır-manın ortasında | Qıcqır-manın sonunda |
| **Göy-göl rayonu** | | | | | | | | |
| **Bayan-şirə** | 0,21 | 0,12 | 0,04 | 0,14 | 0,06 | 0,34 | 0,18 | 0,08 |
| **Rkasiteli** | 0,20 | 0,13 | 0,04 | 0,15 | 0,05 | 0,32 | 0,17 | 0,07 |
| **Samux rayonu** | | | | | | | | |
| **Bayan-şirə** | 0,20 | 0,13 | 0,03 | 0,14 | 0,05 | 0,33 | 0,18 | 0,07 |
| **Rkasiteli** | 0,22 | 0,12 | 0,04 | 0,13 | 0,04 | 0,31 | 0,16 | 0,06 |

I – variant – ağ üsulla kükürd anhidridi istifadə edilmədikdə; II – variant – ənənvi üsulla,

kükürd anhidridi istifadə etməklə; III – variant - şirəni əzintidə 2-3 gün saxladıqdan sonra, tam qıcqırtmaqla və $SO_2$-dən istifadə etməklə.

Tədqiqat nəticəsində məlum olmuşdur ki, I və II variantlarda pektin maddələri III varianta nisbətən azalmışdır. Məsələn, Göy-Göl rayonu şəraitində Rkasiteli üzüm sortundan hazırlanmış ağ süfrə şərablarında I və II variantda qıcqırmanın sonunda 0,04% pektin maddələrinin qalığı olmuşdursa, III variantda 0,08% olmuşdur. Tədqiqat nəticəsində maraq doğuran məsələlərdən biri də ondan ibarətdir ki, $SO_2$ əlavə olunmaqla şərab hazırladıqda II və III variantlarda pektin maddələri I varianta nisbətən, yəni kükürd anhidridi istifadə edilməməklə hazırlanan şərablarda az azalması mühitdə edilmişdir. Bu da bir daha təsdiq edir ki, kükürd anhidridi pektolitik ferment preparatlarının aktivliyini azaldır. Bu məqsədlə müxtəlif variantlar üzrə hazırlanmış şərablarda və qıcqırma prosesində, üzümün şirəsində və giləsində pektinesteraza fermentinin aktivliyi də öyrənilmişdir. Fermentin aktivliyinin dəyişməsi prosesi 2-ci cədvəldə göstərilmişdir.

**Cədvəl 2.Ağ süfrə şərabı istehsalı zamanı pektinesteraza fermentinin aktivliyinin dəyişməsi**

| Üzüm sortu | Şirədə | I | | | II | | III | |
|---|---|---|---|---|---|---|---|---|
| | | qıcqırma-nın orta-sında | qıcqırma-nın so-nunda | qıcqırma-nın orta-sında | qıcqırma-nın so-nunda | Əzinti-də | qıcqırma-nın orta-sında | qıcqırma-nın so-nunda |
| | | | | **Göy-göl rayonu** | | | | |
| **Bayan-şirə** | 22,4 | 41,2 | 2,4 | 40,3 | 2,6 | 23,6 | 32,8 | 3,1 |
| **Rkasiteli** | 21,6 | 42,4 | 2,2 | 41,9 | 2,4 | 24,2 | 30,4 | 3,0 |
| | | | | **Samux rayonu** | | | | |
| **Bayan-şirə** | 23,2 | 43,2 | 2,1 | 38,5 | 2,7 | 24,2 | 34,9 | 3,3 |
| **Rkasiteli** | 22,4 | 41,2 | 2,0 | 40,2 | 2,4 | 24,5 | 33,4 | 3,1 |

Bu fermentin aktivliyinin dəyişməsindən məlum olmuşdur ki, qıcqırma prosesinin ortalarında bütün variantlar üzrə ferment pektinesterazanın aktivliyi artır. Qıcqırmanın sonuna yaxın isə fermentin fəaliyyəti get-gedə azalır. Onu da qeyd etmək lazımdır ki, fermentin aktivliyi I və II variantda nisbətən çox, II variantda isə az olmuşdur. Bu əsas onunla izah olunur ki, $SO_2$ fermentin fəaliyyətinin inkişafına mane olur. Bundan başqa, müəyyən olunmuşdur ki, III variant üzrə hazırlanmış ağ süfrə şərabları əzintidə şirəni saxlamaqla istehsal olunduğuna görə fenol maddələri başqa variantlara nisbətən daha zəngindir. Deməli, fenol maddələri dipektinesteraza fermentinin inhibitorudur.

Beləliklə, aparılan tədqiqat nəticəsində aydın olmuşdur ki, ağ süfrə şərabı hazırlamaq üçün pektin maddələri ilə zəngin olan üzüm sortlarından istifadə etmək zəruri deyildir. Ona görə ki, pektin maddələrinin hidrolizindən həm metil spirti, həm də furfurol əmələ gəlir. Bu da şərabın dad keyfiyyətinə pis təsir göstərir. Bundan başqa pektin maddələri ilə zəngin olan üzümlərdə pektin fermentləri daha aktiv olurlar. Bu da o deməkdir ki, ferment fəallaşdıqca, üzümün tərkibindəki qida maddələrinin parçalanması tezləşir. Ona görə də belə üzüm sortlarından yüksək keyfiyyətli şərab hazırlamaq mümkün olmur. Beləliklə, pektin maddələrinin və pektinesteraza fermentinin aktivliyinin öyrənilməsindən aydın olur ki, Göy-Göl və Samux rayonları şəraitində becərilən Bayan-şirə və Rkasiteli üzüm sortlarından şirəni əzintidə 2-3 gün qıcqırtmaqla yüksək keyfiyyətli ağ süfrə şərabı istehsal etmək mümkündür.

**Ədəbiyyat siyahısı:**


1. 2018-2025-ci illərdə AR-da şərabçılıq inkişafına dair Dövlət Proqramı
2. Валуйко Г.Г., Технология виноградных вин, Симферополь: Таврида, 2011, 624 с
3. Косюра В.Т., Основы виноделия, М., 2018, 422 с
4. Fətəliyev H.K., Şərabın texnologiyası, Elm, Bakı, 2011, 472 s
5. Nəbiyev Ə.Ə., – Şərabın kimyası, Elm, Bakı, 2010, 472 s


## ЗНАЧЕНИЕ ПЕКТИНОВЫХ ВЕЩЕСТВ В ПРОИЗВОДСТВЕ БЕЛЫХ СТОЛОВЫХ ВИН

**С.Р.Маммадов**
**У.Дж.Мехтиев**
**Азербайджанский Технологический Университет**
**urxan.mehdiyev@mail.ru**

В статье исследовано изменение пектиновых веществ и активности фермента пектинэстеразы при производстве белых столовых вин с брожением на сусле и мезге. Установлено, что при брожении виноградных сортов Баян-ширей и Ркасители на мезге в течение 2-3 дней в условиях районов Гей-гель и Самух.

## The importance of pectin inclusions in the production of white table wines

**S.R.Mammadov**
**U.C.Mehdiyev**
**AzerbaijanTechnologicalUniversity**
**urxan.mehdiyev@mail.ru**

The article investigates the change in pectin substances and the activity of the pectinesterase enzyme in the production of white table wines with fermentation on must and pulp. It has been established that during the fermentation of grape varieties Bayan-shirey and Rkasiteli on the pulp for 2-3 days in the conditions of the regions of Goy-gel and Samukh.

# ТЕХНОЛОГИЯ ПЕРЕРАБОТКИ РЫБЫ И ИЗМЕНЕНИЯ ПРОИСХОДЯЩИЕ В НИХ

**Н.С.Гусейнов,И.Г.Кязымова**
**Азербайджанский Государственный Экономический Университет**
huseynov_nr@mail.ru

В связи с развитием техники и совершенствованием технологии изучаются и применяются новые методы обработки. Ниже приведены методы обработки, уже используемые и предназначенные для применения в промышленности [1].

1.Применение низкой температуры: а) охлаждение б) замораживание

2.Применяя высокую температуру:а) стерилизация в герметичных контейнерах, б) пастеризация в герметичной таре, в) жарка или варка

3.Сушка тканей рыбы: а) сушка с первичным засолом, б) сушка без первоначального посола, естественно, в) искусственно, путем сублимации

4.Повышение осмотического давления окружающей среды: соление

5.Изменение pH среды: а) маринование, б) приготовление гидролизатора,

6.Применение антисептиков и антибиотиков: а) в виде свободного концентрата, б) в качестве вспомогательного концентрата

7.Обработка волновой и лучистой энергии: а) продукты ядерного деления, б) ультракороткие волны (электромагнитные волны короче 10 м), в) ультрафиолетовые лучи, г) ультразвуковые волны.

Посол – один из способов обработки, применяемый при производстве маринованных, вяленых и копченых рыбных продуктов. Засолка представляет собой диффузионно-осмотический процесс. Диффузия – это переход растворителя (например, соли) из раствора с высокой плотностью в раствор с низкой плотностью. Осмос — это явление обратной диффузии, при котором раствор растворителя переходит из раствора с низкой плотностью в раствор с высокой плотностью. По этим причинам в процессе засолки рыбы через некоторое время в продукте содержится такое же количество влаги и растворителей, как и в солевом растворе.

Вяление – один из самых распространенных способов предотвращения порчи рыбы. Вяленые рыбные продукты Основной процесс в производстве рыбных продуктов связан с удалением влаги. Продолжительность процесса вяления определяется степенью обезвоживания рыбы. Соление и вяление рыбы называется клипфиксом, а вяление без посола – стокфиксом. При сушке вода на поверхности и внутри рыбы испаряется из жидкого состояния. Это происходит из-за прямого внешнего тепла.

В рыбной промышленности рыбу также обрабатывают путем охлаждения и замораживания. По стандарту температура внутри охлажденного мяса рыбы должна быть от -1°С до +5°С. В рыбной промышленности рыбу обычно охлаждают до 0°С. При охлаждении в рыбе происходит ряд физических и химических изменений. Физические изменения - увеличивается плотность мяса рыбы и вязкость клеточного сока и крови, уменьшается вес рыбы, химические изменения связаны с распадом гликогена и образованием молочной кислоты. Накопление молочной кислоты в организме вызывает накопление мышечного белка [2].

При низких температурах обменные процессы в тканях замедляются. Вода и водорастворимые вещества необходимы для жизнедеятельности ферментов и микроорганизмов. Бактерии менее устойчивы к низким температурам. Развитие большинства из них останавливается при -3°С. Многие погибают при заморозке.

Чтобы использовать замороженную рыбу, ее сначала размораживают. В рыбоперера-

батывающей промышленности они создают относительно теплую среду для быстрого размораживания рыбы, что имеет много недостатков. В таких случаях поверхность рыбы быстро промерзает, а лед между мышечными тканями тает и свободно выталкивается из тела рыбы наподобие опухоли.

**Ədəbiyyat siyahısı:**

1. Ершов А.М., Технология рыбы и рыбных продуктов, СПб.: ГИОРД, 2006, 939 с
2. Михаил Сибикин,Технология производства охлажденной и мороженой рыбы: учебное пособие для вузов Издательство: Директ-Медиа, Москва|Берлин,2015, 299 с

## BALIĞIN EMALI TEXNOLOGIYASI VƏ ONLARDA BAŞ VERƏN DƏYIŞIKLIKLƏR

**N.S.Hüseynov**
**İ.H.Kazımova**
**Azərbaycan Dövlət İqtisad Universiteti**
huseynov_nr@mail.ru

Balıq emalı zavodlarında əksər texnoloji proseslər bu üsullara əsaslanır: aşağı temperatur tətbiq etməklə, yuxarı temperatur tətbiq etməklə, balıq toxumasının qurudulması, mühitin osmotik təzyiqinin artırılması, mühitin pH-nın dəyişdirilməsi, antiseptik və antibiotiklərin tətbiq edilməsi, dalğalı və şüalı enerji ilə emaletmə, bu üsulları ayrı-ayrılıqda deyil, həm də kompleks şəkildə ifadə etmək olar.

## FISH PROCESSING TECHNOLOGY AND CHANGES OCCURRING IN THEM

**N.S.Huseynov**
**I.H.Kazimova**
**Azerbaijan State Economic University**
huseynov_nr@mail.ru

Most technological processes in fish processing plants are based on the following methods: low temperature, high temperature, drying of fish tissue, increasing the osmotic pressure of the medium, changing the pH of the medium, the application of antiseptics and antibiotics, wave and radiation energy processing, these methods it can be expressed not only separately, but also in a complex way.

# DƏNLİ BİTKİLƏRİN ƏSASINDA KVASIN TEXNOLOGİYASI

**M.İ.Ağayev**
**İ.H.Kazımova**
**Azərbaycan Dövlət İqtisad Universiteti**
**muradagaye@icloud.com**

Kvas istehsalının əsas mərhələləri dənin təmizlənməsi, dənli məhsulların əzilməsi, kvas şirəsinin hazırlanması, kvas şirəsinin qıcqırması, hazır kvasın kupajı, şəffaflaşdırılması və ya hazır kvasın süzülməsidir.

Dənin qəbulu və təmizlənməsi metal qarışıqların maqnit ayırıcılarda (separatorlarda) aparılan, alaq otlarının və müxtəlif dənlu qarışıqların təmizlənməsindən ibarətdir. Alaq otlarının təmizlənməsinin məqsədi dənli kütlədən mineral və üzvi maddələrin, həmçinin yabanı bitkilərin toxumlarının (digər dənli bitkilərin bütün toxumları) və zərərli qarışıqların (tərkibində zərərli və zəhərli maddələr olan bitkilər və ya onların toxumlarının) kənarlaşdırılmasıdır. Dənli qarışıqlar emal edilmiş məhsulun zədələnmiş, yetişməmiş, cücərmiş və qırılmış dənlərin olması ilə xarakterizə olunur. Təmizləndikdən sonra dən mütləq çeşidlənməlidir. Dənin əzilməsi - ekstraktiv maddələrin şirəyəkeçməsini asanlaşdırmaq üçün aparılır.

Kvas şirəsinin hazırlanması əsas texnoloji mərhələlərdən biridir, onun düzgün aparılması son nəticədə kvasın keyfiyyət göstəricilərindən asılıdır. Dənli bitkilərin əsasında kvas şirəsinin hazırlanması xammalın əzilməsi ilə başlayır. Əzilmə üsulunun seçimi ilk növbədə istifadə olunan xammalın növündən və keyfiyyətindən asılıdır.

Böyük miqdarda səmənilәşməmişdənli məhsullardan, həmçinin fermentləşdirilmiş çovdar səmənidən istifadə edildikdə, bu mərhələdə, xüsusən də səmənilənmiş xammalın aşağı fermentativ aktivliyə malik olduğu hallarda ferment preparatlarından istifadə etmək lazımdır. Əzilmənin əsas məqsədi yüksək molekullu karbohidratların və zülalların hidrolizi, həmçinin xammalın bütün həll olunan maddələrinin şirəyə köçürülməsidir. Əzilmədən sonra kvas şirəsidənli kütlədən ayırmaq üçün süzülür.

Bu istehsalın növbəti mühüm texnoloji mərhələsi kvas şirəsininqıcqırmasıdır. Bunun üçün kvas mayasının və südturşu bakteriyalarının xüsusi irqlərindən, preslənmiş çörəkbişirmə mayalarından, son zamanlarda isə çörəkbişirmə və pivə mayalarının quru kulturalarından istifadə olunur[1,3].

Klassik kvasın texnologiyası xüsusi kvas maya irqlərininvə süd turşu bakteriyalarının irqi əsasında kombinə edilmiş açıtmanın hazırlanmasını nəzərdə tutur. Bu, ənənəvi dad xüsusiyyətlərinə malik kvas əldə etməyə və hər iki növ mikroorqanizmin birgə becərilməsinin metabolizm məhsullarının hesabına onun qidalılıq dəyərini artırmağa imkan verir.

Qıcqırma, 25-30 ºC optimal temperaturda mikroorqanizmlərin fəaliyyəti üçün, qəbul edilmiş texnologiyadan asılı olaraq müəyyən turşuluq səviyyəsinə çatana qədər, şirədəki quru maddələrin 1,0-2,5% azalana qədər aparılır. Qıcqırma müddəti orta hesabla 16-20 saatdır.

Son vaxtlara qədər qıcqırdılmış kvasın kupajı fermentasiyadan sonra məcburi bir mərhələ idi. Eyni zamanda, qəbul edilmiş reseptlərə uyğun olaraq, texnologiyada istifadə edildiyi təqdirdə içkiyə şəkər siropu və kvas şirəsi konsentratı əlavə edilmişdir. Müasir texnologiyaların əksəriyyəti bu addımı aradan qaldıraraq istehsalını sadələşdirir.

Kvasın texnologiyasının son əməliyyatları onun şəffaflaşdırılması və süzülməsidir. Kvasın bioloji dayanıqlığını artırmaq üçün müxtəlif filtrlərdən, istifadə olunur, əlavə olaraq, pasterizasiya bu göstəricini artırmağa imkan verir, bundan sonra kvasın saxlama müddəti 3-6 aya çata bilər. İçki keglərə, PET-şüşələrə və metal tutumlarasüzülür [2,3].

Ədəbiyyat siyahısı:

1. Fətəliyev H.K., Alkoqollu içkilərin texnologiyası,Elm, Bakı,2007, 516 s
2. Агафонов Г.В., Применение стевии и пектина в напитках функционального назначения,Агафонов Г.В., Чусова А.Е., Меньшова И.Ю., Вестник Воронеж.гос. ун-та инж. Технол, 2012
3. Радионова И.Е., Производство кваса: Учеб.-метод. пособие. СПб.: Университет ИТМО; ИХиБТ, 2015, 39 с

## ТЕХНОЛОГИЯ КВАСА НА ОСНОВЕ ЗЕРНОВОГО СЫРЬЯ

**М.И.Агаев**
**И.Г.Казымова**
**Азербайджанский Государственный Экономический Университет**
muradagaye@icloud.com

Основными стадиями производства кваса являются очистка зерна, дробление зернопродуктов, приготовление квасного сусла, сбраживание квасного сусла,купажирование, осветление или фильтрование готового кваса.С целью совершенствования технологии кваса, упрощения технологической цепочки, снижению производственных затрат большинство производителей предпочитают работать на сухих, преимущественно дрожжевых культурах.

## KVASS TECHNOLOGY BASED ON GRAIN RAW MATERIALS

**M.I.Agayev**
**I.H.Kazimova**
**Azerbaijan State Economic University**
muradagaye@icloud.com

The main stages of kvass production are grain cleaning, grain products crushing, kvass wort preparation, kvass wort fermentation, blending, clarification or filtration of finished kvass. In order to improve the technology of kvass, simplify the technological chain, reduce production costs, most producers prefer to work on dry, mainly yeast cultures.

# BİOLOJİ AKTİV MADDƏLƏRİN QİDALANMADA ROLU

**T.f.d.,A.A.Hacıyeva**
**H.M.Zeynalabdin**
**Azərbaycan Texnologiya Universiteti**
**ami2011.65@mail.ru**

Qidalanma əhalinin sağlamlığını təmin edən ən əsas amillərdən biridir. Hal-hazırda ərzaq probleminin əsas aspektlərindən biri əhalini keyfiyyətli qida ilə təmin etməkdən ibarətdir. Azərbaycan Respublikası əhalisini sağlam qida məhsulları ilə təmin etmək üçün qida sənayesinin inkişaf proqramı hazırlanmışdır. Hazırda bu proqram qida sənayesinin inkişafında və əhalinin kütləvi şəkildə tələb olunan yüksək keyfiyyətli istehlak məhsulları ilə təmin edilməsində, həmçinin balanslaşdırılmış qida rasionunun formalaşmasında mühüm rol oynayır. Bu istiqamətdə nəzərdə tutulmuş məsələlərin həlli öz təsdiqini innovativ yolla yüksək keyfiyyətli qida məhsulları istehsalının artırılmasında tapır.

Qidaya təkcə enerji mənbəyi və plastik maddələr kimi deyil, həm də bioloji aktiv maddələrin daşıyıcıları, yəni insan orqanizminə təyin edilmiş hədd daxilində təsir göstərən maddələr kimi də baxılır. Qida məhsulları orqanizmi tam həcmdə enerji ilə təmin etməli, hüceyrələrin və toxumaların qurulması üçün lazım olan maddələrlə, həmçinin bioloji aktiv komponentlərlə təmin etməlidir.

Bioloji aktiv maddələrin sırasına zülallar, amin turşuları, karbohidratlar, vitaminlər, mineral maddələr, polifenol birləşmələr və s.-lər aiddir.

Zülallar plastik maddələr hesab edilir. Onlar orqanizmdə yeni hüceyrə və toxumaların əmələ gəlməsinə, köhnələrin isə əvəz edilməsinə sərf edilir. Karbohidratlar və lipidlər orqanizmin enerjiyə olan tələbatını təmin edir. Mineral maddələr, vitaminlər və bir sıra digər kimyəvi komponentlər maddələr mübadiləsində iştirak edir, həmçinin katalitik və digər tənzimləyici funksiyaları yerinə yetirirlər.

Dövlətin qidalanma sahəsində elmi-texniki siyasəti xalqın sağlamlığının möhkəmləndirilməsinə yönəldilmişdir. Bu məsələnin həlli üçün tərkibində böyük miqdarda bioloji aktiv maddələri (BAM) saxlayan, ətraf mühitin xoşağəlməz amillərinə qarşı orqanizmin qeyri-məxsusi müqavimətini artırmağa imkan verən, ənənəvi olmayan qida məhsullarının çeşidlərinin artırılması, yüksək keyfiyyətli məhsul istehsalı tələb olunur.

Maddələr mübadiləsinin pozulmasının və bir sıra xəstəliklərin qarşısını almaq üçün qidanın tərkibinə meyvələrdən hazırlanmış konservlərin əlavə edilməsi aktual hesab edilir. Belə ki, təzə feyxoa meyvəsi - balanslaşdırılmış qidalanmanın əsas komponentlərindən biridir. Ədəbiyyatlardan məlum olduğu kimi feyxoa çox zəngin kimyəvi tərkibə malik olan meyvədir.  Onun tərkibində insan orqanizminin normal inkişafı üçün zəruri olan çoxlu miqdarda vitamin, şəkər, flavonoidlər, üzvi turşular, mineral maddələr, pektin maddələr, fermentlər, qidalanmada balans üçün lazım olan faydalı komponentlər vardır.

Feyxoanın əhəmiyyətli xüsusiyyəti onun tərkibində suda həll olunan yod birləşmələrinin olmasıdır. Bu meyvə ən çox yod ehtiyatı olan bitkilərdəndir. Ona görə də feyxoadan orqanizmdə yod çatışmazlığı nəticəsində yaranan xəstəliklərin müalicəsində istifadə edilir. Məhz elə bu baxımdan feyxoa əsasında yeni növ konserv məhsullarının hazırlanması, onların çeşidini genişləndirəcək, bu isə qida sənayesinin inkişafına təkan verəcəkdir.

**Açar sözlər:** rasional qidalanma, bioloji aktiv maddələr, zülallar, karbohidratlar, vitaminlər, mineral maddələr, feyxoa, yod

# РОЛЬ БИОЛОГИЧЕСКИ АКТИВНЫХ ВЕЩЕСТВ В ПИТАНИИ

**А.А.Гаджиева**
**Г.М.Зейналабдин**
**Азербайджанский Технологический Университет**
**ami2011.65@mail.ru**

Питание является одним из важнейших факторов обеспечения здоровья населения. В настоящее время одним из основных аспектов продовольственной проблемы является обеспечение населения качественными продуктами питания.

Пища рассматривается не только как источник энергии и пластических веществ, но и как носитель биологически активных веществ, т. е. веществ, в определенных пределах воздействующих на организм человека.

К биологически активным веществам относятся белки, аминокислоты, углеводы, витамины, минеральные вещества, полифенолы и др.

В целях профилактики нарушения обмена веществ и ряда заболеваний важно добавлять в рацион консервированные фрукты. Таким образом, фейхоа является одним из основных компонентов сбалансированного питания. Важной особенностью фейхоа является то, что он является одним из растений с самыми высокими запасами йода. С этой точки зрения разработка новых видов консервов на основе фейхоа позволит расширить их ассортимент, что даст толчок развитию пищевой промышленности.

**Ключевые слова:** рациональное питание, биологически активные вещества, белки, углеводы, витамины, минеральные вещества, фейхоа, йод

# THE ROLE OF BIOLOGICALLY ACTIVE SUBSTANCES IN NUTRITION

**A.A.Haciyeva**
**G.M.Zeynalabdin**
**Azerbaijan Technological University**
**ami2011.65@mail.ru**

Nutrition is one of the most important factors in ensuring the health of the population. Currently, one of the main aspects of the food problem is to provide the population with quality food.

Food is considered not only as a source of energy and plastic substances, but also as a carrier of biologically active substances, that is, substances that, within certain limits, affect the human body.

Biologically active substances include proteins, amino acids, carbohydrates, vitamins, minerals, polyphenols, etc.

In order to prevent metabolic disorders and a number of diseases, it is important to add canned fruits to the diet. Thus, feijoa is one of the main components of a balanced diet. An important feature of feijoa is that it is one of the plants with the highest reserves of iodine. From this point of view, the development of new types of canned food based on feijoa will expand their range, which will give impetus to the development of the food industry.

**Keywords:** rational nutrition, biologically active substances, proteins, carbohydrates, vitamins, minerals, feijoa, iodine

# QIDA MƏHSULLARINDA RADIONUKLIDLƏRIN MÖVCUDLUĞU SƏBƏBLƏRI

**Dos. N.F.Əliyev, S.H.Nağıyev**
**Azərbaycan Texnologiya Universiteti**
nazimaliyev48@mail.ru

Çernobıl AES-dakı qəzadan sonra Azərbaycan torpaqlarında Sr-90 və Cs-137 radionuklidlərinin miqdarı təxminən 3 dəfə artdı. Torpaqlarımızda süni radionuklidlər ümumi radioaktivliyin 2-10% - nı təşkil edir. Torpağa yüksək dozalarda verilən mineral gübrələr radionuklidlərin bitkiyə daxil olmasını zəiflədir. Ağır mexaniki tərkibli torpaqlarda təbii radionuklidlərin miqdarı yüngül mexaniki tərkibli torpaqlara nisbətən çox olur. Torpaqda bitkilər tərəfindən udulan ən təhlükəli süni radionuklidlər Sr - 90 və Cs - 137 – dir.

Torpağa verilən gübrələrdən bəziləri yüksək radioaktivlik yaradır. Ən çox radiasiyanı fosforlu gübrələr –ammonium fosfat, fosforit unu və nitrofus əmələ gətirir.

Bitkilərə yığılan əsas ağır radionuklidlər U -238, Ra -226, Th -232 və sairədir. Tərkibində kalsium çox olan bitkilər Sr -90, kaliumu çox olan bitkilər isə Cs -137 süni radionuklidlərini daha çox udurlar.

Radioaktiv seziumun torpaq və bitki dövriyyəsində öyrənilməsini bəzi hallarda kaliumun bu sistemdə özünü aparması ilə əlaqələndirirlər. Cs -137- nin torpaqdan bitkiyə daxil olması, bu torpaqda olan kaliumun miqdarından asılıdır. Bu radionuklidin bitkinin ayrı-ayrı orqanlarında paylanması və onun dövriyyəyə daxil olması kaliumun həmin bitki orqanizminin daxilindəki hərəkətindən asılıdır. Kaliumla zəngin olan bitkilər özündə yüksək miqdarda radiosezium saxlayır. Eyni şəraitdə yüksək miqdarda kaliuma malik kartof və çuğundurda, buğda və noxuda nisbətən çox radiosezium olması ehtimalı var. Aparılan tədqiqatlar zamanı müəyyən olunmuşdur ki, noxudun dənində kalium və seziumun miqdarı buğdanın dəninə nisbətən üstünlük təşkil edir. Buradan belə bir nəticəyə gəlmək olur ki, torpaqdan bitkiyə daxil olması və onun ayrı-ayrı orqanlar arasında paylanması zamanı kalium və Cs-137 atrasında uyğunluq müşahidə olunur. Radioseziumun və kaliumun torpaqdan bitkiyə keçməsi zamanı sezium -137-nin kaliuma nisbətən çox dövr etməsi müşahidə olunur. Bu onu sübut edir ki, radiosezium torpaqla münasibətdə güclü sorulma xüsusiyyətinə malikdir.

## ПРИЧИНА НАЛИЧИЯ РАДИОНУКЛИДОВ В ПРОДУКТАХ ПИТАНИЯ

**Доц. Н.Ф.Алиев, С.Х.Нагиев**
**Азербайджанский Технологический Университет**
nazimaliyev48@mail.ru

Самые опасные искусственные радионуклиды, поглощенные пищевыми продуктами являются Sr-90 и Cs-137. Количество этих радионуклидов на землях Азербайджана увеличилось почти в 3 раза после аварии на Чернобыльской АЭС.

Исследования показывают:

1. Количество естественных радиоактивных элементов в почвах тяжелого механического состава больше, чем в почвах легкого механического состава.
2. Минеральные удобрения, вносимые в почву в больших дозах, ослабляют проникновение радионуклидов в растение.
3. Растения с высоким содержанием кальция поглощают искусственные радионуклиды Sr -90, а растения богатые калием поглощают Cs-137.

## THE REASONS FOR THE EXISTENCE OF RADIONUCLIDES IN THE FOOD PRODUCTS

**Prof.N.F.Aliyev, S.H.Naghiyev**
**Azerbaijan Technological University**
nazimaliyev48@mail.ru

The most hazardous artificial radionuclides absorbed by food products are Sr - 90 and Cs – 137. After ther accident at Cernobyl NPP, the amount of these radionuclides increased almost three times in the lands of Azerbaijan.

Studies show:

1. There are more radioactive elements in the soils with heavy mechanical composition than in the soils with light mechanical composition
2. Mineral fertilizers applied to the soil in high doses weaken the access of the radionuclides to the plants.
3. Plants containing more Calcium absorb artificial radionuclides such as Cs -137, while plants that contains more potassium absorb Sr -90.

# QEYRI-BƏRABƏR GÜBRƏLƏNMƏNIN DƏNLI BITKILƏRIN MƏHSULDARLIĞINA TƏSIRI

**H.N.Qurbanov**
**"Aqromexanika" Elmi Tədqiqat İnstitutu**

Müasir texnologiyaların əsas meyarları torpağın münbitliyinin qorunması və yaxşılaşdırılması, resursların qorunması, məhsulların ekoloji təhlükəsizliyi, ətraf mühitin mühafizəsidir. Buna görə də, mineral gübrə normaların tətbiqi üçün effektiv enerjiyə qənaət üsullarının öyrənilməsi kənd təsərrüfatı bitkilərinin becərilməsi üçün respublikanın müxtəlif torpaq və iqlim şəraitində gübrələrin istifadəsi müasir kənd təsərrüfatının aktual vəzifəsidir.Xüsusi iqlim şəraitində hər bir kənd təsərrüfatı məhsulu üçün optimal gübrələmə norması var. Gübrələrin hətta torpağın səthinə verilməsi də onların tarla daxilində səmərəliliyini artıran şərtlərdəndir [3].

Mineral gübrələrin verilməsi üçün maşınların işinin əsas aqrotexniki göstəricilərindən biri mineral gübrələrin sahənin səthinə səpilməsinin bərabərliyidir.

Şəkil də inkişaf etmiş ölkələrdə aqrokimyəvi tədqiqatların məlumatlarının işlənməsi nəticəsində əldə edilən bərk mineral gübrələrin qeyri-bərabər tətbiqindən məhsul itkilərinin asılılığı göstərilir.




**Şəkil. Mineral gübrələrin qeyri-bərabər tətbiqi nəticəsində məhsulun itirilməsi**

Çoxsaylı tədqiqatlar sübut etmişdir ki, aqrotexniki göstəricilərə paylayıcı işçi orqanın növü, sahə üzrə paylanmanın bərabərliyi və gübrələmə üsulu təsir göstərir.

Maşının sahə boyu hərəkəti zamanı səpicinin tələb olunan işçi sahəsi üçün seçilməsi məsələsi mürəkkəb elmi-texniki problemdir. Bu, ilk növbədə, diskli səpən tipli işçi orqanlarla təchiz edilmiş maşınların işçi en götürümü maşının özünün dizayn enindəndaha böyük olması ilə əlaqədardır. Buna görə də, istənilən işçi en götürümü təmin etmək üçün sahəni işarələmək və ya maşınları markerlərlə təchiz etmək lazımdır. İstehsal testinin nəticələri göstərdi ki, sahəni qeyd etmədən operator aqreqatı idarə edərkən səhvləri əhəmiyyətli ola bilər. Belə ki, verilmiş 10 m səpmələnmə eni ilə, diskli səpici maşınlarla faktiki işçi səpələnmə eni 7- dən 13-14 m arasında dəyişir [4].

Tarlada torpaqda gübrə paylanması keyfiyyətinin kəmiyyət qiymətləndirilməsi $V_s$ dəyişmə əmsalına uyğun olaraq aparılır:

$$V_s = 100\frac{\sigma_F}{\bar{q}_F},$$

Burada: $\sigma_F$ - bərabər normaların standart kənarlaşmasıdır.

$$\sigma_F = \sqrt{\frac{\Sigma(q_i - \bar{q}_F)^2}{n-1}},$$

$q_F$ – səpən diskə daxil olan gübrə normalarının orta qiymətidir;

$q_i$ - illik gübrə normasının qiymətidir;

n - təxmin edilən normaların (nümunələrin) sayıdır.

Qeyri-bərabər gübrələmə məhsulun xüsusiyyətlərinə əhəmiyyətli dərəcədə təsir göstərməklə, həm də ətraf mühitin çirklənməsinə səbəb olur.

Gübrələmə nəticəsində yaranan qida maddələri baxımından sahənin qeyri-homogenliyi çox vaxt əkinlərin yerləşdirilməsinə əsas səbəb olur.Taxıl bitkilərinin eyni zamanda məhsul itkisinə səbəb olur ki, bəzi illərdə bu itkilər təxminən 25-60%-ə çatmışdır [1].

Tədqiqatlar müəyyən etmişdir ki, səpənlərin konstruktiv xüsusiyyətlərindən və səpilən gübrələrin keyfiyyətindən asılı olaraq, verilən gübrələrin qeyri-bərabər paylanması normasının 40-60%-i arasında dəyişə bilməklə norma çatışmazlığına səbəb olur [2] .

Xarici alimlərin tədqiqatçıları onu da müəyyən ediblər ki, gübrələrin bərabər paylandığı ərazilərdə məhsul qeyri-bərabər tətbiq olunan sahələrə nisbətən orta məhsuldarlıqdan 15% yüksəkdir. Beləliklə, yerli və xarici nəşrlərin materialları və gübrələrin paylanması keyfiyyətinin bütün sahəyə təsirinin öyrənilməsi əsasında müəyyən edilmişdir ki, qeyri-bərabər gübrələmə maşınlar tətbiq etməklə yaranır.

Bununla belə, aparılan tədqiqatlar müəyyən etmişdir ki, müasir maşınlarla aparılan gübrə səpələnmənin tətbiqi təkcə gübrə itkisinə deyil, həm də ətraf mühitin çirklənməsinə səbəb olur .

Sahələrin torpağının faktiki antropogen xüsusiyyətləri səpələyici işçi orqanları olan maşınlar tərəfindən gübrələrin qeyri-bərabər tətbiqindən asılıdır ki, bu da çox vaxt istehsal şəraitində 40 ... 60% -ə qədər dəyişir [3] .

Eyni zamanda yüksək dozada gübrələrin istifadəsi keyfiyyətsiz gübrələmə nəticəsində məhsuldarlığın azalması ilə bağlı riskin artmasına səbəb olur.

Yuxarıda göstərilən məsələləri nəzərə alaraq, laboratoriyamızda səlis bərabər səpələyici hazırlanmışdır.Bu səpələyici boru axınlı gübrəsəpən maşınlara quraşdırıla bilər.Gübrə səpələyici əsas hissələrdən ibarətdir: səpələyicinin üzü, rəqqaslı konus,asma zəncir,arakəsməli paylayıcı.

**Ədəbiyyat siyahısı:**


1. Ələkbərov F., "Gübrələr və onlardan istifadə" Bakı, 2016, 84 s
2. Bağırov B., Alıyev A., Gübrələnmənin mexanikləşdirilməsi, Sabah, Bakı, 2018, 80 s
3. Стратегия машинно-технического обеспечения производства сельскохозяйственной продукции России на период до, 2020, ВИМ.- М., 2003, 65 с
4. Якимов Ю.И., Маслов Г.П., Усовершенствование разбрасывателей удобрений, Сельский механизатор, 2004, № 2.-С.6-9


**ВЛИЯНИЕ НЕРАВНОМЕРНОГО ВНЕСЕНИЯ УДОБРЕНИЙ НА УРОЖАЙНОСТЬ ЗЕРНОВЫХ КУЛЬТУР**


**Г.Н.Гурбанов**
**НИИ" Агромеханика"**



Наукой и опытом установлено, что более 50% урожая зерна можно получить за счет систематического внесения минеральных удобрений. Средний выход продукции зависит от характера распределения удобрений в почве, поэтому изучение эффективных энергосберегающих способов внесения минеральных удобрений является актуальной задачей современного сельского хозяйства для применения удобрений в различных почвенно-климатических условиях.В особых климатических условиях для каждого сельскохозяйственного продукта существует оптимальная норма внесения удобрений.Внесение удобрений на поверхность почвы является одним из условий, повышающих их эффективность в поле. Одним из основных агротехнических показателей работы машин для внесения минеральных удобрений является обеспечение равномерного распределения минеральных удобрений по полю.


**EFFECT OF UNEQUAL FERTILIZER APPLICATION ON GRAIN CROP YIELDS**


**H.N.Gurbanov**
**Research Institute of Agromechanics**



Science and experience have determined that more than 50% of grain yields can be achieved through the systematic application of mineral fertilizers. The average yield of the crop depends on the nature of the distribution of fertilizers in the soil. Therefore, the study of effective energy-saving methods for the application of mineral fertilizers is the actual task of modern agriculture, the use of fertilizers in different soil and climatic conditions of the country for the cultivation of agricultural crops. In special climatic conditions, there is an optimal fertilization rate for each agricultural product. Even the application of fertilizers to the soil surface is one of the conditions that increases their efficiency in the field. One of the main agro-technical indicators of the work of mineral fertilizing machines is to ensure equal distribution of mineral fertilizers in the field.

# KONYAK SPİRTİNİN YETİŞDİRİLMƏSİNDƏ GEDƏN PROSESLƏRİN ÖYRƏNİLMƏSİ

**U.C.Mehdiyev, Ə.V.Məmmədova**
**Azərbaycan Texnologiya Universiteti**
**urxan.mehdiyev@mail.ru**

İşin məqsədi konyak spirtinin yetişdirilməsi zamanı baş verən proseslərin öyrənilməsidir.

Konyak - müxtəlif üzüm şərablarının distilləsi və uzun müddət palıd çəlləklərdə saxlanılması yolu ilə istehsal edilən tünd alkoqollu içkidir [4].

Konyak açıq-qızılıdan qızılı çalarlı tünd kəhraba rənginədək rəngə, kənar qarışıqlarsız parıltılı şəffaflığa, konyak üçün səciyyəvi olan, kənar tam və qoxusuz dad və ətrə malik olmalıdır [6].

Distillə üsulu ilə alınmış konyak spirtindən yüksək keyfiyyətli konyak almaq üçün onu tutumu 30-60 dal olan palıd çəlləklərdə, yaxud içərisinə palıd taxta düzülmüş kaşı (emal) çənlərdə saxlamaq lazımdır.

Uzun illər ərzində bu cür saxlanan təzə konyak spirtləri xüsusi tama və ətrə malik olurlar. Konyak spirtinin yetişməsi zamanı mürəkkəb fiziki və kimyəvi proseslərin getməsilə bərabər palıd oduncağı da fəal iştirak edir [1].

Spirtinin yetişməsi zamanı əsas proses, spirtin və onun qatışıqlarının ayrılmasıdır. Bunun nəticəsində spirtin aromatik birləşmələrinin tərkibi dəyişir və bu da konyakın buketinə mənfi təsir göstərir. Başqa əsas fiziki proses nəticəsində konyak spirti palıd taxtasından həll olunan maddələrin ekstraksiya olunmasına əsaslanır.

Əsas kimyəvi proses nəticəsində konyak spirti ilə uçucu maddələrin bir-birinə təsirindən aromatik maddələrin əmələ gəlməsi, uçucu və uçucu olmayan birləşmələrin hava oksigeninin iştirakı ilə oksidləşməsi baş verir [5].

Konyak spirtinin palıdla təmasda olması nəticəsində palıd oduncağından fenol birləşmələri (liqnin, tanin, flanoidlər, fenol karbon turşuları), karbohidratlar (ksilin, arabun, qlyukan, metilpentozan) azot maddələri (zülal birləşmələri, aminturşuları), lipidlər, mineral maddələr (kalium, natrium) spirtə keçir, yəni ekstraksiya olunur.

E.Y.Martınenkoya görə konyak spirtinin yetişdirilməsi prosesində liqnin böyük əhəmiyyətə malikdir [3]. Liqnin ayrılması palıd taxtanın 1 mm qalınlığında gedir. Palıd taxtanın islanması isə 8-12 mm-də gedir. Konyak spirti daha dərin qatlara buxar şəklində diffuziya olunur. Palıd taxtadan liqnin ayrılması pH aşağı, hərarət yüksək olduqda daha sürətlə gedir. Palıd taxtadan konyak spirtinə keçən birləşmələr müxtəlif kimyəvi çevrilmələrdə iştirak edərək konyakın rəngini, tamını və ətrini (buketini) əmələ gətirir. Onu da qeyd etmək lazımdır ki, konyak spirtini təzə taxtada yetişdirdikdə aşı maddələrin intensiv ekstraksiyası baş verir və onların miqdarı demək olar ki, iki dəfə artır. Eyni zamanda konyak spirtini köhnə taxtada yetişdirdikdə isə liqnin miqdarının artması və aşı maddələrin ekstraksiyasının azalması müşahidə olunur.

Burada həm də aromatik aldehidlərin miqdarının artması baş verir.

Araşdırmalar göstərir ki, [2] konyak spirti emalı rezervuarlarda yetişdirildikdə efirlərin miqdarı artır və çəlləklərdə yetişdirmədə əmələ gələn uçucu efirlərin miqdarına yaxın olur. Mürəkkəb efirlərin ümumi miqdarı 31,8 mq/dm$^3$-a çatmaqla, onlar zəif meyvə ətrinə malik olur və konyak spirtinin buketini zənginləşdirir.

Məlum olmuşdur ki, palıd çəlləklərdə yetişdirilən konyak spirtlərində ətir əmələ gətirici maddələrin miqdarı emal rezervuarlarda yetişdirilənlərlə müqayisədə olduqca yüksəkdir. Bu halda yalnız ali spirtlər (izobutanol və izopentanol) istisna təşkil edir.

Spirtin palıd çəlləklərdə uzunmüddətli yetişdirilmə prosesində əmələ gələn laktonlar və

terpenoidlərə rezervuarlarda yetişdirmə zamanı təsadüf olunmur. Göründüyü kimi ənənəvi yetişdirmə üsulunda spirtdə palıd taxtasından ekstraksiya olunan ətir əmələgətirici maddələr – laktonlar, terpenoidlər və vanilin toplanır. Bunlar isə konyaka səciyyəvi ətir və dad verir. Palıd çəlləklərdə yetişdirilən konyak spirtində belə ətir 15-20 il müddətində toplanır.

Aparılan tədqiqat nəticəsində qeyd etmək lazımdır ki, konyak spirti ənənəvi üsulla yetişdirildikdə aromatik aldehidlərin miqdarı 28 mq/dm$^3$-a çatdığı halda rezervuar üsulunda 0,66 mq/dm$^3$-i keçmir. Müqayisədə mürəkkəb efirlər də çox olur. Belə ki, palıd çəlləklərdə yetişdirilən konyak spirtində onların miqdarı 260-325 mq/dm$^3$, rezervuarlarda isə 210 mq/dm$^3$-dan artıq olmadığı halda, yüksək miqdarı konyaka kəskin tam verən etilasetatın miqdarı 320 mq/dm$^3$ olur.

### Ədəbiyyat siyahısı:

1. Исмаилов Х.С., Искендеров И.В., Мехтиев У.Д., Роль древесины дуба при созревании коньячного спирта, Виноделие и виноградарство, М.: ООО Пищепромиздат, 2015.,с.29-32
2. Fətəliyev H.K., İsmayılov M.T., Konyakın texnologiyası,Bakı:Elm, 2016, 304 s
3. Мартыненко Э.Я., Технология коньяка, Симферополь: Таврида, 2003, 320 с
4. Mikayılov V.Ş., Qida məhsullarının ümumi texnologiyası, Bakı: Kooperasiya, 2018, 232 s
5. Nəbiyev Ə.Ə., Şərabın kimyası, Bakı: Elm, 2010, 472 s
6. Скурихин И.М., Химия коньяка и бренди, М.: ДеЛи Принт, 2005, 296 с

## ИЗУЧЕНИЕ ПРОЦЕССОВ, ПРОИСХОДЯЩИХ ПРИ СОЗРЕВАНИИ КОНЬЯЧНОГО СПИРТА

**У.Д.Мехтиев**
**А.В.Маммадова**
**Азербайджанский Технологический Университет**
**urxan.mehdiyev@mail.ru**

В статье изучены процессы, происходящие при созревании коньячного спирта. Установлено, что при созревании коньячного спирта в дубовых бочках, количество сложных эфиров составляет 260-325 мг/дм$^3$, а в резервуарах - не более 210 мг/дм$^3$. Однако количество этилацетата, придающий резкий вкус коньячному спирту, составляет 320 мг/дм$^3$.

## THE STUDY OF THE PROCESSES OCCURRING DURING THE MATURATION OF COGNAC ALCOHOL

**U.C.Mehdiyev**
**A.V.Mammadova**
**AzerbaijanTechnologicalUniversity**
**urxan.mehdiyev@mail.ru**

The article studies the processes that occur during the maturation of cognac spirit. It has been established that during the maturation of cognac spirit in oak barrels, the amount of esters is 260-325 mg/dm$^3$, and in tanks - no more than 210 mg/dm$^3$. However, the amount of ethyl acetate, which imparts a sharp taste to cognac alcohol, is 320 mg/dm$^3$.

# PANDEMIYA DÖVRÜNDƏ MEYVƏ-TƏRƏVƏZ IXRACININ VƏZIYYƏTI

**t.f.d. U.Ə.Babayeva**

**V.F.Ağayeva**

**Azərbaycan Texnologiya Universiteti**

**ulduz7475@yahoo.com**

Hamıya məlumdur ki, Azərbaycandan ixrac olunan məhsullar içərisində meyvə-tərəvəzlər önəmli yer tutur. Hələ Sovetlər Birliyi dövründə Azərbaycan Rusiya bazarlarının çox hissəsini meyvə-tərəvəz məhsulları ilə təmin edirdi. Müstəqillik dövründən başlayaraq ölkəmizin gömrük sərhədlərinin yaradılması, iqtisadi yüksəliş, qeyri-neft sektorunun inkişafı, əsasən kənd təsərrüfatı məhsullarının əkin sahələrinin genişləndirilməsi, bir çox ölkələrlə bağlanan müqavilələr idxalla yanaşı, ixrac əməliyyatlarının da kifayət qədər artmasına səbəb olmuşdur. 2020-ci ilin yekunları ilə bağlı keçirilən müşavirədə Azərbaycan Respublikasının prezidenti İlham Əliyev öz çıxışında qeyd edib ki, “Ölkəmizdən ixrac olunan meyvə tərəvəz məhsullarının ixracı məsələsinə yenidən baxılmalıdır”. Cənab prezident Rusiyanın Azərbaycandan ixrac edilən pomidor məhsullarına bir neçə dəfə qoyduğu sanksiyaları xatırladaraq hökümətə tapşırıq verib ki, ənənəvi bazarlarla yanaşı yeni Avropa bazarlarına çıxış tapmaq lazımdır. Çünki, Azərbaycanın meyvə- tərəvəz ixracı Rusiya bazarları ilə məhdudlaşmır, artıq Avropa və orta Asiya ölkələri ilə də ixrac əməliyyatları həyata keçirilir [3].

Ölkəmizdən xarici olkələrə ixrac olunan tərəvəzlər içərisində ilk yeri pomidor, meyvələrdən isə mövsümdən asılı olaraq xurma, fındıq, alma. ərik, albalı tutur [4]. Meyvə-tərəvəzlərin əsas keyfiyyət göstəriciləri onların xarici görnüşü, forması, rəngi, iyi və dadı ilə müəyyənləşdirilir [2]. Pandemiya dövründə bütün gömrük sərhədlərində olduğu kimi Azərbaycanda da bir sıra problemlər hələ də yaşanmaqdadır. Nəzərə alsaq ki, meyvə-tərəvəz məhsulları ərzaq malları içərisində saxlanmasına görə tez xarab olan mallar qrupuna aiddir, burdan aydın olur ki, onların gömrük sərhəddində gözlədilməsi və gecikdirilməsi milyonlarla zərər deməkdir[1]. Son on illiyin göstəricilərinə diqqət yetirsək, hər il bu məhsulların ixracında artım və əldə edilən gəlirin yüksəlməsi müşahidə olunur.

- 2010-cu ildə 154 milyon dollarlıq
- 2011-ci ildə 231 milyon dollarlıq
- 2014-cü ildə 290 milyon dollarlıq
- 2016-ci ildə 372 milyon dollarlıq
- 2017-ci ildə 502 milyon dollarlıq
- 2018-ci ildə 558 milyon dollarlıq
- 2019-cu ildə 628 milyon dollarlıq
- 2020-ci ildə 467.3 milyon dollarlıq
- 2021-ci ildə 630.4 milyon dollarlıq

Statistikadan da məlum olur ki, 2019-cu ildə meyvə-tərəvəz ixrzcından əvvəlki illərlə müqayisədə ən yüksək gəlir 628 milyon dollar əldə edilib. 2020-ci ildə pandemiyanın başlaması bu gəlirin 160,7 milyon dolları dək azalmaslna səbəb olsada görülən bir sıra işlər nəticəsində problemin həllinə yönəldilən addımlar atılaraq artıq 2021-ci ildə gəliri 630,4 milyona çatdırmaq mümkün olmuşdur. Bu da 2019-cu illə müqayisədə 2,4 milyon, 2020-ci illə müqayisədə isə 163,1 milyon dollar çoxdur.

**Ədəbiyyat siyahısı:**

1. Nuriyev C.Q.,Şəkərəliyev A.Ş., Əliyev A.Ə.,"Gömrük ekspertizası", Dərslik, Bakı, 2003, 328 s
2.Əhmədov.Ə.İ.,Musayev N.X., "Ərzaq mallarının eksperizası", I hissə, Bakı, 2005, 467 s
3. https://www.bbc.com
4.https://ereforms.gov.az

## СОСТОЯНИЕ ЭКСПОРТА ФРУКТОВ И ОВОЩЕЙ В ПЕРИОД ПАНДЕМИИ

**К.э.н. У.А.Бабаева**
**В.Ф.Агаева**
**Азербайджанский Технологический Университет**
**ulduz7475@yahoo.com**

В период пандемии, как и на всех таможенных границах, в Азербайджане сохраняется ряд проблем. Учитывая, что фрукты и овощи относятся к группе скоропортящихся товаров по причине их хранения внутри продовольственных товаров, понятно, что ожидание и задержка их на таможенной границе означает миллионы убытков. В 2019 году по сравнению с предыдущими годами самый высокий доход от экспорта фруктов и овощей составил 628 миллионов долларов. Если начало пандемии в 2020 году привело к снижению этого дохода до 160,7 миллиона долларов, то в результате проделанной работы, предприняв шаги, направленные на решение проблемы, уже в 2021 году удалось увеличить доход до 630,4 миллиона долларов. Это на 2,4 миллиона долларов больше, чем в 2019 году, и на 163,1 миллиона долларов больше, чем в 2020 году.

## THE STATE OF FRUIT AND VEGETABLE EXPORTS DURING THE PANDEMIC

**Ph.D.U.A.Babayeva**
**V.F.Agayeva**
**Azerbaijan Technological University**
**ulduz7475@yahoo.com**

During the pandemic, as in all customs borders, a number of problems still exist in Azerbaijan.Taking into account that,fruits and vegetables belong to the group of perishable goods due to their storage in food, it is clear that delaying them at the customs border means millions of losses.In 2019, compared to previous years, the highest income from exports of fruits and vegetables was $628 million.Although the onset of the pandemic in 2020 reduced this revenue to $ 160.7 million, as a result of a number of measures taken to address the problem, it was possible to increase revenue to 630.4 million in 2021.This is $ 2.4 million more than in 2019 and $ 163.1 million more than in 2020.

# AZƏRBAYCANDA ÜZÜMÇÜLÜYÜN İNKİŞAFI PERSPEKTİVLƏRİ

**S.A.Vəliyev**
**Azərbaycan Dövlət Aqrar Universiteti**
seymur.valiyev@gmail.com

Məqalədə aqrar sahədə üzümçülüyün inkişafının əhəmiyyəti, mövcud vəziyyəti və inkişaf perspektivi araşdırılmışdır.Üzümçülük aqrar sahələri arasında xüsusi yer tutmaqla, əlavə dəyər yaradılması və iqtisadi səmərəlilik baxımından ölkə iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edir.Bu baxımdan üzümçülüyün davamlı olaraq inkişaf etdirilməsi, keyfiyyətli və ucuz başa gələn yerli üzüm sortlarının yetişdirilməsi xüsusi aktuallıq kəsb edir.

Anbar daxilində yaranan problemlər təchizat zəncirinin bütün proseslərinin sürətinə, effektivliyinə və məhsuldarlığına təsir edə bilir. Bir çox hallarda, bu problemlər hər hansı bir əməliyyat başa çatdıqdan sonra müəyyənləşdirilir. Buna görə də, anbar daxilində invertarlaşdırmanın idarə edilməsi və qarşıya çıxacaq hər hansı bir problemi vaxtında həll etmək üçün bir çox invertar nəzarət metodları tətbiq edilir. Bu məqalədə, TOPSİS invertar modelindən istifadə edilərək problemin aradan qaldırılması yolları öyrənilmişdir.

TOPSİS (optimal qərara ən yaxın sifariş texnikası) çox kriteriylı qərar qəbul etmə mexanizmi kimi istifadə edilir. Bu metod ilk dəfə 1980-ci illərdə Chen və Hwang tərəfindən yaradılmışdır [ 3], amma daha sonra inkişaf etdirilərək hal-hazırki vəziyyətini almışdır.

TOPSİS-i digər invertar metodlarından fərqləndirən xüsusiyyəti anbar daxilində olan məhsulların dəyərinin öyrənilməsində müxtəlif kriteriyalardan istifadə edilməsidir. Bu deyiləni daha da asanlaşdırmaq üçün anbar daxilində olan məhsulların kriteriyalarını müəyyənləşdirək. Bu kriteriyalara qiymət, yararlılıq müddəti, ehtiyyatda olan məhsul miqdarı və tələb daxildir. Bu kriteriyalar bizə imkan verir ki, anbarda olan məhsulların əsl dəyərini müəyyənləşdirək. Bundan da məlum olur ki, digər invertar nəzarət metodları ilə müqayisədə TOPSİS metodu daha dəqiq qərar verməyə imkan yaradır. Məs: ABC metodunda 2 kriteriyadan istifadə edilir. Bu tələb və qiymətdir. TOPSİS metodu isə çox kriteriyalı qərar qəbul etmə metodu olduğuna görə ən optimal qərar qəbul etməyə imkan verir.

Bu metod ideal həllə lazımi yaxınlığı taparkən həm müsbət ideal həlldən olan məsafəni, həm də mənfi-ideal həlldən olan məsafəni nəzərə alır. Üstünlük sırası tapılan məsafələri bir-biri ilə müqayisə etməklə həyata keçirilir. İdeal həll, bütün meyarlar yerinə yetirildikdən sonra üstünlük verilən alternativlərin bu meyarları ideal səviyyələrdə yerinə yetirməsidir. Əgər ideal həll tətbiq edilə bilmirsə və ya əlçatan deyilsə, onda ideal həllə ən yaxın nöqtə seçilməlidir.

TOPSIS metodu müsbət-ideal həllə oxşarlıq indeksi kimi müəyyən edilir. Müvafiq olaraq, müsbət-ideal həllə ən yaxın nöqtənin və ya mənfi-ideal həlldən ən uzaq nöqtənin birləşməsidir. Sonra ideala ən çox bənzəyən alternativ seçilir.

TOPSIS metodundan istifadə etmək üçün aşağıdakı addımlar yerinə yetirilməlidir:

1. M alternativ və N kriteriyadan ibarət matris yaradılır. Bu matris adətən "qərar matrisi" adlanır.

$$(a_{ij})\, M \times N$$

2. Normallaşdırılmışqərarmatrisiyaradılır.

$$\alpha_{ij} = \frac{a_{ij}}{\sqrt{\sum_{i=1}^{M} ( a_{ij})^2}}$$

3. Hərbirkriteriyanınağırlıqdərəcəsimüəyyənolunursonraisənormallaşdırılmışqərarmatrisiyaradılır.

$$X_{ij} = \alpha_{ij} * \omega_j$$

$$\omega_j = \frac{\mu_j}{\sum_{j=1}^{N} \mu_j}$$

$$\sum_{j=1}^{N} \omega_j = 1$$

**4.** Hərbirmeyarüçünənyaxşıvəənpisalternativtapılır:

$$X_j^b = max_{i=1}^{M} X_{ij}$$
$$X_j^\mu = min_{i=1}^{M} X_{ij}$$

**5.** Hədəf alternativi ilə ən yaxşı/ən pis alternativ arasındakı Evklid məsafəsi hesablanır:

$$d_i^b = \sqrt{\sum_{j=1}^{N} (X_{ij} - X_j^b)^2}$$

$$d_i^\mu = \sqrt{\sum_{j=1}^{N} (X_{ij} - X_j^\mu)^2}$$

**6.** Hər bir alternativ üçün ən pis alternativə oxşarlığı hesablanır. Nəticələr TOPSIS xallarımızdır.

$$S_i = \frac{d_i^\mu}{d_i^\mu + d_i^b}$$

**7.** Alınmış alternativləri TOPSİS xalınauyğun olaraq çoxdan aza doğru sıralayırıq.

**Açar sözlər:** təchizat zəncirinin idarəedilməsi, invertarizasiya, invertar nəzarət modelləri, TOPSİS modeli

**Ədəbiyyat siyahısı:**

1. “Anbartəsərrufatınıntəşkilivətəkmilləşdirilməsiistiqamətləri”.AzərbaycanDovlətİqtisadUniversiteti, Bakı, 2011
2. “Tedarikzencirivestokyönetimi” doç.dr. SündüzDağ, doç.dr. NihanKabadayıİstanbulüniversitesiaçikveuzaktaneğitim fakültesi, 2017
3. Donald J.Browser, David J. Closs, M.Bixby Cooper “Supply chain logistics management” 2012 by the McGraw - Hill Copmanies

## USING THE TOPSIS METHOD TO MANAGE INVENTORIZATION OF WAREHOUSE

**E.S.Akhundov, Q.R.Məmmədova**
axundov-elmeddin@mail.ru

The problems within the warehouse can affect the speed, efficiency and productivity of all processes in the supply chain. In many cases, these problems are identified after the completion of any operation. For this reason, many inventory management methods have been implemented to manage warehouse inventory and solve any issues that may arise in a timely manner. This article studies ways to solve the problem using the TOPSIS inverter model.

**Key words**: supply chain management, inventorization, inventory control models, TOPSIS model.

## ИСПОЛЬЗОВАНИЕ МЕТОДА TOPSIS ДЛЯ УПРАВЛЕНИЯ ИНВЕНТАРИЗАЦИЕЙ СКЛАДА

**Э.С.Ахундов, К.Р.Мамедова**
axundov-elmeddin@mail.ru

Проблемы на складе могут повлиять на скорость, эффективность и производительность всех процессов в цепочке поставок. Во многих случаях эти проблемы выявляются после завершения какой-либо операции. По этой причине реализовано множество методов управления запасами для управления инвентаризацией склада и своевременного решения любых проблем, которые могут возникнуть. В данной статье изучаются способы решения задачи с использованием инверторной модели TOPSIS.

**Ключевые слова:** управление цепями поставок, инвентаризация, модели управления запасами, модель TOPSIS.

# AVTOMOBIL NƏQLIYYAT VASITƏLƏRININ KONSTRUKSIYALARININ TƏKMILLƏŞDIRILMƏSININ ƏSAS ISTIQAMƏTLƏRI

**E.N.Babayeva**
**K.F.Vəlizadə**
**F.A.Vəliyev**
**Azərbaycan Texnologiya Universiteti**
**f.veliyev@uteca.edu.az**
**elmirababayeva.atu@gmail.com**

Avtomobil nəqliyyat vasitəsi kimi, aşağıdakı xüsusiyyətlərilə qiymətləndirilir: dinamikliyi, yanacaq qənaətliliyi, dəyanətliliyi, idarəolunma qabiliyyəti, keçiciliyi, hərəkət səlisliyi və s.

Avtomobilin konstruksiyası fasiləsiz olaraq təkmilləşdirilir. Bu təkmilləşmə həm iqtisadi, həm də social səbəblərlə səciyyələndirilir. İqtisadi səbəblər avtomobillərin yanacaq qənaətliliyinin yüksəldilməsi ənənəsini müəyyən edir və müasir avtomobil sənayesinin aparıcı istiqamətlərindən biri sayılır.

Avtomobillərin təhlükəsizliyinin yüksəldilməsi ənənəsi isə social səbəblərlə səciyyələnir.

Yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsində avtomobillərin konstruksiyalarının böyük əhəmiyyəti vardır. Avtomobillərin təhlükəsizliyi daha vacib məsələdir, çünki, avtomobil insan həyatına comfort yaratmaq üçün daxil olduğu kimi eyni dərəcədə də təhlükə mənbəyidir.

Bu təhlükə mənbəyi son illər daha da çoxalaraq böyük problemə çevrilmişdir. Mühərriklərin gücünün və avtomobillərin hərəkət sürətinin artması ilə avtonəqliyyatın təhlükəsizlik təminatı da çətinləşmişdir.

Aparılan araşdırmalar göstərir ki, avtomobillərin konstruksiyalarının təkmilləşdirilməsi məsələsi iqtisadi və sosioloji səbəbləri nəzərə almaqla onlara qoyulan ümumu, istismar, təmir və təhlükəsizlik tələbləri əsasında həll edilməlidir. Bu tələblər aşağıdakılardır:

1. Ümumi tələblər:

- ANV-lər iqlim və yol şəraitinə uyğun, baza modelini kökündən dəyişmədən təkmilləşdirmək imkanına malik olmalı; kuzanın arxitektonikası təmin edilməli; bir maşına çəkilən əmək sərfi minimum olmalı; ucuz və avtomobilin kütləsini azaldan yüngül materialdan geniş istifadə edilməli; konstruksiyaları yüksək etibarlılığa və yeyilməyə qarşı davamlılığa malik olmalı və s.

2. İstismar tələbləri:

- ANV-lərin istismar xərcləri, yanacaq-yağlama materialları sərfi azaldılmalı; orta hərəkət sürətləri artırılmalı, yükgötürmə qabiliyyətindən tam istifadə edilməli; yükləmə-boşaltma işlərinin yüngüllüyü, tezliyi və rahatlığı təmin edilməli və s.

3. Təmir tələbləri:

- Avtomobilin konstruksiyası sökmə - yığma işlərinin asanlığını və sadəliyini təmin etməki; çox yeyilmə ehtimalı olan hissələrin layihələndirilməsində onların təmirolunma imkanları nəzərə alınmalı; təmirdən sonar detalların sərtliklərinin azalmasına yol verilməməli və s.

4. Təhlükəsizlik tələbləri:

a) aktiv təhlükəsizlik tələbləri.

- hərəkət təhlükəsizliyini təmin edən aqreqat və qovşaqlar yüksək möhkəmliyə və işləmə etibarlılığına, ANV-lər bütün istiqamətlərdə yüksək dəyanətliliyə malik olmalı; idarəolunma və tormozlama xüsusiyyətləri yüksək olmalı; ANV-nin idarə olunması sadə olmalı və s.

b) passiv təhlükəsizlik tələbləri asan açılıb-bağlanan təhlükəsizlik kəmərlərinə malik olmalı; hər bir sərnişin ətrafında təhlükəsizlik zonası yaratmalı; qəza zamanı avtomobilin kuzasında

xəsarəti azaldan, asan deformasiya olunan materiallar tətbiq edilməli; yanğın təhlükəsizliyi təmin edilməli və s.

Beləliklə, aparılan araşdırmalar göstərir ki, avtomobillərin konstruksiyalarının təkmilləşdirilməsi həm iqtisadi, həm də sosial səbəblərlə səciyyələndirilir. ANV-nin təkmilləşdirilməsi onların üzərinə qoyulan ümumi, istismar, təmir və təhlükəsizlik tələblərinin həlli istiqamətində aparılmalıdır.

**Ədəbiyyat siyahısı:**

1. Y.Ə.Məmmədov, F.Ç.Eyyubov, E.İ.Zülfüqarov “Avtomobil nəqliyyat vasitələrinin konstruksiyasının əsasları”, Bakı, 2013, 738 s

## ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ СОВЕРШЕНСТВОВАНИЯ КОНСТРУКЦИЙ АВТОМОБИЛЬНЫХ ТРАНСПОРТНЫХ СРЕДСТВ

**Е.Н.Бабаева**
**К.Ф.Велизада**
**Ф.А.Валиев**
**Азербайджанский Технологический Университет**
**f.veliyev@uteca.edu.az**
**elmirababayeva.atu@gmail.com**

Проведенные исследования показывают, что совершенствование конструкций автомобильных транспортных средств должно проводится с учетом выполнения экономических и социальных требований, предъявляемых к ним, в частности общих, эксплуатационных, ремонтных требований, а также требований безопасности.

## The main directions for improving the design of motor vehicles

**E.N.Babayeva**
**K.F.Valızada**
**F.A.Valıyev**
**AzerbaijanTechnologicalUniversity**
**f.veliyev@uteca.edu.az**
**elmirababayeva.atu@gmail.com**

The studies carried out show that the improvement of the structures of motor vehicles should be carried out taking into account the fulfillment of economic and social requirements for them, in particular, general, operational, repair requirements, as well as safety requirements.

# NƏQLİYYAT SAHƏSİNDƏ EKOLOJİ PROBLEMLƏR

**T.f.d.A.A.Əsgərova, İ.C.Əsgərov**
**Azərbaycan Texnologiya Universiteti**
**atu.mss.a.askerova@gmail.com**

Müasir dövrdə ekoloji təhlükəsizlik qlobal problemlərdən biri kimi aktual olaraq qalır. İnsanların ətraf mühitə neqativ təsirinin əsas istiqamətlərindən biri də ətraf mühitin çirkləndirilməsidir. Bu çirklənmə təbii proseslərlə yanaşı, antropogen - yəni insanların təsərrüfat fəaliyyəti ilə bağlı olur. Ətraf mühitin çirkləndirilməsi insan sağlamlığı üçün önəmli yeri olan su, hava və torpağın fiziki-kimyəvi tərkibinin dəyişdirilməsi nəzərdə tutulur.

Məlum olduğu kimi, təbiətin mühafizə obyektlərindən biri də atmosferdir. Mahiyyət etibarı ilə, hava və insanı əhatə edən ətraf mühit eyni zamanda təbii mühitdir. Atmosferin çirklənməsi, xüsusən də antropogen yolla çirkləndirilməsi şübhəsiz ki, nəqliyyat vasitələrinin sayının artması ilə funksional şəkildə əlaqədardır. Bildiyimiz kimi, nəqliyyatın müxtəlif növlərinin fəaliyyəti nəticəsində hər gün atmosferə külli miqdarda zəhərli qazlar atılır, ətraf mühitə yüksək texnogen təsir göstərilir və insanların sağlamlığı üçün ciddi təhlükə yaranır [1].

Elmi-texniki inqilab həyatda məlum olmayan və ağıla sığmayan çox böyük gərginliklər yaratdı: avtomobil nəqliyyatı və aviasiya, kimya sənayesi, nüvə energetikası və s. Bu və digər sahələr təbiət üçün zərərli olmaqla yanaşı, həm də təbii resursların azalmasına, bəzən tükənməsinə səbəb oldu. Avtonəqliyyat vasitələrinin ekoloji təhlükəsizliyinin təmin edilməsində çoxplanlı mühüm vəzifələrdən biri də dövlət ekoloji nəzarət sisteminin yaradılmasıdır. Bu məqsədlə respublikanın sərhəd-keçid məntəqələrində, iri şəhərlərin giriş-çıxış yollarında, habelə magistral avtomobil yollarında daim fəaliyyət göstərən ekoloji postların çoxaldılması zəruridir.

Azərbaycan Respublikası bu gün beynəlxalq nəqliyyat siyasətinin həyata keçirilməsində fəal iştirak edir. Onun inkişaf istiqamətləri dəqiq müəyyənləşdirilmişdir: nəqliyyat kompleksinin beynəlxalq sistemə sürətli inteqrasiyası, hüquq qaydalarının beynəlxalq nəqliyyat hüququ normaları ilə harmonizasiyası, multimodal daşımaların inkişafı, qısa müddətdə, az vəsait itkiləri ilə beynəlxalq yük və sərnişin daşımalarını maneəsiz həyata keçirməyə imkan verən unifiksiya edilmiş qanunların qəbul edilməsi, ekoloji təhlükəsizliyin təmin edilməsi və s.

Ekologiyanın, ətraf mühitin mühafizəsi, ekoloji tarazlığın qorunması daim dövlət siyasətinin vacib istiqamətlərindən biri olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ekoloji mühitin sağlamlaşdırılmasını öz fəaliyyətinin əsas istiqamətlərindən birinə çevirməklə bu sahədə mühüm tədbirlər həyata keçirir. Dövlət başçısı 28 sentyabr 2006-cı ildə "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı"nı təsdiqlədi və icrasına başlandı. Bununla da cənab İlham Əliyevin ölkədə ekoloji vəziyyətin sağlamlaşdırılması ilə bağlı verdiyi tapşırıqların yerinə yetirilməsi sürətləndi.

**Ədəbiyyat siyahısı:**

1. K.H.Abdullayev "Avtomobil nəqliyyatinda ekoloji problemlər"Ədalət, 2010
2. M.Vəliyeva, H.Bəşirova "Azərbaycan ekologiyası -10 ildə", Biblioqrafiya Bakı, 2009

**ЭКОЛОГИЧЕСКИЕ ПРОБЛЕМЫ В СФЕРЕ ТРАНСПОРТА**

**А.А.Аскерова, А.Искандер**
**Азербайджанский Технологический Университет**
atu.mss.a.askerova@gmail.com

Тезис посвящена экологическим проблемам в сфере транспорта. Втезисерассматриваются проблемы, вызванные деятельностью различных видов транспорта, высокое техногенное воздействие на окружающую среду, а также серьезная угроза здоровью человека, и усилия государства по обеспечению безопасности в этой сфере.

**ECOLOGICAL PROBLEMS IN THE SPHERE OF TRANSPORT**

**A.A.Askerova, A.Iskander**
**Azerbaijan Technological University**
atu.mss.a.askerova@gmail.com

The thesis is devoted to environmental problems in the field of transport. The thesis deals with the problems caused by the activities of various modes of transport, high-tech man-made impact on the environment, as well as a serious threat to human health, and the efforts of the state to ensure security in this area.

The Thesis considers the problems caused by the activities of various modes of transport, as well as the high technogenic impact on the environment, as well as a serious threat to human health, and the efforts of the state to ensure security in this area.

# LOGİSTİKA SİSTEMLƏRİNİN SERTİFİKATLAŞDIRILMASI

**R.A.Rzayeva**
**Azərbaycan Texnologiya Universiteti**
**resmiyye-rzayeva@mail.ru**

Logistika – yunanca hesablamaq və düşünmək sənətidir. Hətta Roma imperiyasında **"loqist"** titullu qulluqçular olmuşdur. Bu gün bu məfhum bir qədər transformasiya olunmuş, lakin ilkin mənasını itirməmişdir. Belə ki, iqtisadiyyatda logistika dedikdə, dəqiq müddətlərlə(dəqiq hesablanmış zaman anlarında) istehlakçıların tələbatının optimal ödənilməsi üçün xammalın çatdırılmasının, istehsalının, daşınmasının və paylanmasının bütün mərhələlərində maddi yüklərin, malların, məlumatların və maliyyə axınlarının planlaşdırılması, realizəsi koordinasiyası və nəzarət işi üzrə kompleks təşkilati– idarəetmə fəaliyyəti nəzərdə tutulur. Logistika şirkətin korporativ strategiyasına daxil edilir və onun əhəmiyyətli hissəsini təşkil edir.

Müasir iqtisadiyyat və biznesdə logistika strateji vacib rola malikdir. Məhz logistika (maddi, informativ və maliyyə axınlarının inteqrasiya edilmiş idarə edilməsi) sayəsində iqtisadi cəhətdən inkişaf etmiş dövlətlərdə maddi ehtiyyatlar sərbəst istehsalata daxil olur və məhsullar(yüklər) dəqiq müddətlərdə(dəqiq hesablanmış zaman anlarında) istehlakçıya çatdırılır.

Dünyanın aparıcı şirkətləri öz fəaliyyətlərində logistika texnologiyalarını uğurla tətbiq edir. Bu texnologiyalar arasından **Just-in-time**(dəqiq vaxtda(dəqiq hesablanmış zaman anlarında)), **Requiremets/resource planning**(tələbatın/ ehtiyatların planlaşdırılması), **Demand-driven Logistic** (tələbata uyğunluğa istiqamətləndirilmiş logistika), **Time-based Logistic**(real zaman kəsiyində logistika), **Value-added Logistics**(əlavə dəyər logistikası),**İntegradet Supple Chain Management**( təchizatın inteqrasiya olunmuş(dəqiqləşdirilmiş) halqalarının idarə edilməsi), **E–Logistics**(elektron logistika)və s. qeyd etmək vacibdir. Son illərdə logistikanın funksional sahələrinin idarə edilməsi və biznes proseslərin əlaqələndirilməsi məsələlərinin həllinə yönəlmiş **Supply Chain Management –SCM**(təchizat halqalarının idarə edilməsi) inteqrasiyası konsepsiyası fəal tətbiq edilir.

Göstərilən konsepsiya və texnologiyalar korporativ məlumat sistemi(KMS) ilə dəstəklənir.

Bir çox şirkətlər məxsus olduqları logistika sisteminin beynəlxalq ixtisaslaşma tələblərinə uyğunluğunun obyektiv qiymətləndirilməsində maraqlıdır. Avropada bu sahədə sertifikatlaşdırma fəaliyyətini Logistika üzrə Avropa sertifikatlaşdırma komitəsi(European Certification Board for Logistics–ECBL) və onun üzvləri sıralarına daxil olmuş Avropa dövlətlərinin Milli komitələri tənzimləyir. Şirkətlərin logistik menecment personalının logistik qiymətləndirilməsində üç səviyyəli sertifikatlaşdırma sistemi ifadə edilir: logistika üzrə Avropa sertifikatı –kiçik səviyyə**(EJLog);** logistika üzrə Avropa sertifikatı –böyük səviyyə**(ESLog);** logistika üzrə Avropa sertifikatı –usta **(EMLog).**

Rusiyada hələlik logistika strategiyası biznesin planlaşdırılmasında təbii elementə çevrilməmişdir. Məlumatlara görə Rusiya şirkətlərinin yalnız 3% logistika strategiyasına malikdir və düşünülmüş şəkildə bunu tətbiq edir. Logistika sahəsində elmi – tədqiqat layihələrinin əlaqələndiricisi Rusiyada ELA üzvlüyünə qəbul edilmiş yeganə müəssisə olan **ГУ– ВШЭ-** dir. Həmçinin, Rusiyanı ECBL(European Certifikation Board for Logistics) təmsil edən Sertifikatlaşdırma üzrə Rusiya komitəsi yaradılmışdır.

Rusiya federasiyasında biznesin dəstəklənməsi uyğunlaşdırılmış logistika siyasəti sisteminin yaradılmasının strateji məqsədi sahələrarası və regionalarası səviyyədə Rusiya və beynəlxalq bazaar iştirakçılarının qarşılıqlı logistika əlaqələrinin təmin edilməsi, özütənzimlənən şəbəkələrin

mexanizmlərini, doktrinalarını hazırlamaq və həyata keçirməkdən ibarətdir. Bu sistemin realizə olunması beynəlxalq səviyyədə tanınmış standartların və onların sertifikatlarının tələblərinə cavab verən keyfiyyət sistemlərinin idarə edilməsini, təchizat halqalarının logistika sistemlərinin kütləvi tətbiqini, həmçinin, milli və nəqliyyat təhlükəsizliyinin təminatı nəzərə alınmaqla həyata keçirilməsini tələb edir və şübhəsiz ki, bu Rusiyanın Dünya Ticarət Təşkilatına uyğunlaşdırılmasına şərait yaradacaq.

Dünyada menecment və logistika sahəsində, həmçinin beynəlxalq, həm də məhsul istehsalçılarının, təchizat operatorlarının dünya və regional cəmiyyətləri tərəfindən qəbul edilmiş onlarla standartlar var ki, onlar da mərhələli şəkildə Rusiya Federasiyasında tətbiq edilir. Yeni çərçivə standartlarından biri də, bu yaxınlarda dərc olunmuş İSO/PAS 28000:2005 "Təchizat halqasının təhlükəsizliyinin idarə edilməsi sistemi" adlı sənəddir.

2005-ci ilin əvvəllərində logistika sahəsində istehsal, xidmət, elm və təhsil dairələrini təmsil edən Rusiya federasiyasının müəssisələrinin və təşkilatlarının bəziləri tərəfindən milli logistika sistemlərinin fəaliyyətinin əlaqələndirilməsinə xidmət edən "Qiymətləndirmə və logistika" alt komitəsi təsis edilmişdir.

Alt komitə qarşısına qoyulmuş tapşırıqların həllinin praktik nəticəsi 2005–2006-cı illərdə **"ЛОГОСЕРТ"** şərti adı ilə logistika sistemlərinin könüllü sertifikatlaşdırılması Sisteminin yaradılması və dövlət qeydiyyatından keçirilmişdir.

İnkişaf etmiş bazar iqtisadiyyatı şəraitində könüllü sertifikatlaşdırmanın aparılması ticarət maneələrinin kənarlaşdırılması şərtlərinə çevrilir. Belə ki, rəqabət qabiliyyətliliyi qaldırılmaqla faktiki olaraq istehsalçını bazarda yerlə təmin edir.

Sistem ölkənin idxal məhsullarının sifarişçinin göstərdiyi dövlət standartlarının, həmçinin beynəlxalq, regional, və digər ölkələrin milli standartlarının bütün tələblərinə uyğunluğunun təsdiqlənməsi üçün nəzərdə tutulmuşdur. Verilmiş sertifikatda məhsulun təhlükəsizliyi, həmçinin onun bütün istehlak xassələri barədə tam informasiya öz əksini tapır. Buna görə də alıcı üçün məhz bu könüllü sistem məcburi sistemə nisbətən daha çox məlumatlandırıcı və cəlbedicidir.

Könüllü sertifikatlaşdırma sistemləri məhsullara və xidmətlərə aid edilir. Bəzi sistemlər kompleks xarakter daşıyır, çünki onlar xidmətlərə və məhsullara, keyfiyyət sistemlərinə və ətraf mühitin mühafizəsi sistemlərinə aiddir.

Hazırki vaxtda ölkədə məcburi sertifikatlaşdırma, xaricdə könüllü sertifikatlaşdırma üstünlük təşkil edir.

Misal üçün xaricdə fəaliyyət göstərən aşağıdakı könüllü sertifikatlaşdırma sistemlərini sadalamaq olar:

1. Avtomabil nəqliyyatı Nazirliyinin hazırladığı avtomobil vasitələrinin dəyərinin qiymətləndirilməsi sistemi;
2. "Эko-NİVA" tərəfindən işlənib hazırlanmış Ekoloji aqroistehsal sertifikatlaşdırma sistemi;
3. Mərkəzi regionun sertifikatlaşdırma Mərkəzinin işləyib hazırladığı sanitar xidmətlərin sertifikatlaşdırma sistemi.

Müasir iqtisadiyyat və biznesdə logistika strateji vacib rola malikdir. Məhz logistika sayəsində iqtisadi cəhətdən inkişaf etmiş dövlətlərdə maddi ehtiyyatlar sərbəst istehsalata daxil olur və məhsullar(yüklər) dəqiq müddətlərdə(dəqiq hesablanmış zaman anlarında) istehlakçıya çatdırılır. Dünyanın aparıcı şirkətləri öz fəaliyyətlərində logistika texnologiyalarını uğurla tətbiq edir. Bunun müsbət nəticəsi kimi logistika sistemlərinin könüllü sertifikatlaşdırılması Sisteminin yaradılması və dövlət qeydiyyatından keçirilmişdir. Könüllü sertifiktlaşdırma sistemlərinin yaradılmasında məqsəd məhsulların və xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması, həmçinin onların daxili və xarici bazarda rəqabət qabiliyyətinin yüksəldilməsindən ibarətdir.

### Ədəbiyyat siyahısı:

1. Aslanov Z.Y., Zeynalova M.S., Sertifikatlaşdırmanın əsasları, Dərslik, Bakı, "İqtisad Universiteti" Nəşriyyatı – 2018, 280s
2. Aslanov Z.Y., Maşınqayırma məhsulunun keyfiyyətinin idarə edilməsi metodları, Monoqrafiya, Bakı, Elm, 2013, 316 s.
3. Медведев А.М., Ряполов А.Ф., Международная стандартизация и сертификация продукции,М.: Изд-во стандартов, 1989-120 s
4. Метрология, стандартизация и сертификация: в вузах России: сб. метод. материалов.- М.: Изд-во стан- дартов,1998
5. Сергеев А.Г., Латышев М.В., Сертификация: Учебное пособие для стундентов вузов. – М.: Издательская корпорация «Логос», 1999, 248с
6. Чайка И.Н. Стандарты ИСО 9000 будут пере- смотриваться.Концепцияверсии.2008, И.Н.Чайка сертификация, 2006, №1
7. Колчков, В.И. Метрология, стандартизация, сертификация: Учебник / В.И. Колчков, М.: Форум, НИЦ ИНФРА-М, 2013, 432с

## СЕРТИФИКАЦИЯ ЛОГИСТИЧЕСКИХ СИСТЕМ

**Р.А.Рзаева**
**Азербайджанский Технологический Университет**
**resmiyye-rzayeva@mail.ru**

Логистика играет стратегически важную роль в современной экономике и бизнесе. Благодаря логистике в экономически развитых странах материальные ресурсы поступают в свободное производство, а продукция (грузы) своевременно (в точно рассчитанные моменты) доставляется потребителям.
Ведущие мировые компании успешно применяют логистические технологии в своей деятельности. В результате была создана и зарегистрирована система добровольной сертификации логистических систем. Целью создания систем добровольной сертификации является повышение качества продукции и услуг, а также повышение их конкурентоспособности на внутреннем и внешнем рынках.

## CERTIFICATION OF LOGISTICS SYSTEMS

**R.A.Rzayeva**
**Azerbaijan Technological University**
**resmiyye-rzayeva@mail.ru**

Logistics plays a strategically important role in the modern economy and business. Thanks to logistics, in economically developed countries, material resources enter free production and products (cargoes) are delivered to consumers in a timely manner (at precisely calculated moments).
The world's leading companies successfully apply logistics technologies in their activities. As a positive result, a system of voluntary certification of logistics systems was established and registered. The purpose of establishing voluntary certification systems is to improve the quality of products and services, as well as to increase their competitiveness in the domestic and foreign markets.

# BAKI ŞƏHƏRİNDƏ QƏSƏBƏDAXİLİ VƏ QƏSƏBƏLƏRARASI MARŞRUT XƏTLƏRİNİN TƏŞKİL EDİLMƏSİ

**A.F.Əliyeva**
**Azərbaycan Texniki Universiteti**
**ayten.ali@aztu.edu.az**

Bakı şəhərində nəqliyyat sahəsi üzrə idarəetməni tənzimləmək məqsədi ilə Bakı Nəqliyyat Agentliyi fəaliyyət göstərir [1]. Agentliyin fəaliyyətində əsas məqsəd şəhərin inzibati ərazisində nəqliyyat vasitələrinin və piyadaların rahat, təhlükəsiz və fasiləsiz hərəkətini təmin etməkdir.

BNA-nın əsas fəaliyyət istiqaməti dedikdə, paytaxtın marşrut şəbəkəsi başa düşülür. Bunlara şəhərdaxili və şəhərətrafı marşrutlar aiddir. Şəhərdaxili marşrutlar 2 rəqəmlə, şəhərətrafı marşrutlar isə 3 rəqəmlə nömrələnir. Şəhərətrafı marşrutlara qəsəbədaxili, qəsəbələrarası və ya mərkəz ilə əlaqələndirilən xətlər daxildir.

Qəsəbədaxili xətlər qəsəbənin daxilində fəaliyyət göstərir, əsasən, böyük qəsəbələrdə, kəndlərdə olur. Adətən, kiçiktutumlu avtobuslar istismar edilir, buna səbəb qəsəbə daxilində yolların ensiz olması, bundan əlavə böyüktutumlu avtobusların təhlükəsiz manevr edə bilməsinin çətinliyidir. Eyni zamanda sərnişin axını nəzərə alınaraq, kiçiktutumlu avtobuslar istismar edilir. Bu xətlərin əsas məqsədi sərnişinlərin qəsəbə daxilində mərkəz hissələr, dükanlar, təhsil müəssisələri, xəstəxana və digər iaşə obyektlərinə gediş-gəlişi üçündür. Sərnişinlər bununla qəsəbə mərkəzlərinə, ordan isə şəhərətrafı digər marşrutlarla da mərkəzə gedə bilir. Bunun üçün əsas, böyük qəsəbələrdə kiçik nəqliyyat qovşaqları nəzərdə tutulub. Bunlar nəqliyyat mübadilə mərkəzlərinin (HUB-lar) kiçik formasıdır [2]. HUB-lar son illərdə nəqliyyat parkının müasirləşdirilməsi, sərnişinlərin müntəzəm marşrut avtobuslarından təhlükəsiz və rahat istifadəsini təşkil etmək məqsədilə yaradılan bir layihə idi. Bu konsepsiyada əsas məqsəd sərnişinlərin rahat gediş-gəlişinin təmin edilməsi, şəhərdə nəqliyyatın mobilliyinə nail olunması, Bakının mərkəzi hissəsində nəqliyyat sıxlığının aradan qaldırılmasıdır. Layihənin icrası vətəndaşların rahatlığı ilə yanaşı, sərnişin daşımada təhlükəsizlik baxımından da mühüm rola malikdir.

Qəsəbələrarası marşrutlar isə bir neçə qəsəbəni əlaqələndirən xətlərdir. Misal olaraq, bir rayonun bir neçə qəsəbəsi ola bilər. Qısacası, rayon mərkəzinə gediş-gəliş üçün və ya bir qəsəbədən digərinə gediş-gəliş üçün istifadə edilir. Bunlar sərnişin tələbatına əsasən təşkil edilir. Bu xətlərdə, adətən, kiçik və ortatutumlu avtobuslar istismar edilir.  Tələbata, əsasən, böyüktutumlu avtobuslar da istismar edilir.

Qəsəbədaxili və qəsəbələrarası marşrutlar üzrə interval sərnişin tələbatına əsasən müəyyən edilir. İnterval, adətən, 10-15 dəqiqə və daha çox olur. Qəsəbədaxili və qəsəbələrarası marşrutlar, əsasən, sərnişinlərin ərazilərdə mərkəz və ya şəhər istiqamətinə fəaliyyət göstərən marşrutlarla əlaqələndirmək üçün istifadə olunur. Belə ki,  hər qəsəbənin bir neçə hissəsindən şəhər istiqamətinə bir neçə marşrutun təşkili yollarda sıxlıq yarada bilər. Bunun üçün HUB-lardan istifadə edilir. Bakı şəhərində qəsəbədaxili və qəsəbələrarası sərnişin daşımaları sahəsində elmi-tədqiqat işləri indiyə kimi aparılmamışdır. Odur ki, bu sahədə aparılan elmi-tədqiqat işi Bakı şəhərinin qəsəbələrində yaşayan sakinlərinə nəqliyyat xidmətinin yaxşılaşdırılmasına kömək edə bilər.

## Ədəbiyyat siyahısı:

1. https://az.wikipedia.org/wiki/Bak%C4%B1_N%C9%99qliyyat_Agentliyi
2. https://www.bna.az/az

## ORGANIZATION OF INTRA-AND INTER-RESIDENTIAL ROADS IN BAKU

**A.F.Alıyeva**
**AzerbaijanTechnologicalUniversity**
**ayten.ali@aztu.edu.az**

Baku Transport Agency operates in Baku to organize transport management. The main purpose of the agency is to ensure the smooth, safe and uninterrupted movement of vehicles and pedestrians within the administrative boundaries of the city.

The main activity of BNA is the route network of the capital. These include urban and suburban roads. Urban routes are numbered with 2 digits and suburban roads with 3 digits. Suburban roads include intra-residential, inter-urban or central lines.

## ОРГАНИЗАЦИЯ ВНУТРИ-И МЕЖКВАРТИРНЫХ ДОРОГ В БАКУ

**А.Ф.Алиева**
**Азербайджанский Технологический Университет**
**ayten.ali@aztu.edu.az**

Бакинское транспортное агентство действует в Баку для организации управления транспортом. Основной целью агентства является обеспечение бесперебойного, безопасного и бесперебойного движения транспортных средств и пешеходов в пределах административных границ города.

Основной деятельностью BNA является маршрутная сеть столицы. К ним относятся городские и пригородные дороги. Городские маршруты нумеруются 2 цифрами, а пригородные дороги - 3 цифрами. К пригородным дорогам относятся внутрижилые, междугородные или центральные линии.

# IIIBÖLMƏ

# YÜNGÜLSƏNAYEMÜHƏNDISLIYI

# ВОЗМОЖНОСТЬ ИСПОЛЬЗОВАНИ ОБЪЕКТОВ БИОНИКИ В МОДЕЛЯХ ТРИКОТАЖНЫХ ИЗДЕЛИЙ

**Проф. д.т.н. Д.А.Гаджиевç С.Д.Мамедоваç А.Э.Халилова**
**Азербайджанский Технологический Университет**
**j.hajioglu@rambler.ru**

В настоящее время трикотаж занимает ведущие позиции среди текстильной продукции. Трикотажные изделия отличаются от изготовленной из ткани и других ткани подобных материалов комфортностью и функциональностью одежды. Трикотажная продукция служит самовыражению, выбирается под определенное настроение и проявлению индивидуальности покупателей.

Ассортимент трикотажа расширяется использованием тех переплетений, структура которых напоминают элементы, взятые из природы. Применение различных природных мотивов, приводит к разнообразию фактуры (поверхности) трикотажа. Конкурентоспособность трикотажной продукции будет зависит, прежде всего созданием новых видов трикотажных переплетений.

В настоящее время есть необходимость вести исследования закономерностей бионики во взаимосвязи со структурой трикотажных материалов (полотен, купонов и др.) и изделий из них.

Расширение возможности технологических оборудований трикотажного производства, вырабатывающих переплетения, напоминающих элементов бионики способствует созданию новых видов трикотажных изделий. Обращение производителей к природе, т.е. к бионике обеспечивает их неисчерпаемым источником информации. Тем самым подтверждается актуальность данной темы.

Исследование бионических структур (элементов) способствуют определению ряда трикотажных переплетений, из которых должны быть изготовлены новые виды и формы изделия (костюма) с определенным внешним видом и главное со свойствами. **П**режде всего нужно изучить взаимосвязь между бионическими структурами и трикотажными полотнами, создать методы трансляции в трикотажные полотна и изделия с элементами, мотивами, ассоциациями из живой природы. Здесь важно совершенствование методов художественного проектирования структуры переплетений трикотажа с использованием элементов бионики.

Анализ литературных источников, посвященных проектированию трикотажных полотен, показывают, что известные исследования направлены на решение вопросов, связанных с формированием трикотажных переплетений и рисунков на их основе. В настоящее время недостаточно изучены условия разработки переплетений, рассматривающих трикотажные структуры с напоминающие элементы бионики .

Следует разрабатывать методы учитывающие аналогии признаков, свойств, визуальных эффектов и биологического объекта и трикотажного полотна при проектировании новых видов и форм изделий (костюмов).

Для создания необходимой фактуры и рельефов трикотажного полотна с элементами бионики нужноиспользовать два способа:

1. Выбором подходящего переплетения;
2. Выбором подходящего вида пряжи и нитей.

Трикотажными переплетениями для выработки полотен, предназначенных для изготовле-

ния изделий (костюмов) с элементами бионики могут быть кулирная гладь и ластик с роспуском выбранных петельных столбиков, ажурные и ананасные, плюшевые и ворсовые на основе плюша, жаккардовые (особенно рельефные, рельефно-накладной полный и неполный), прессовые с роспуском выбранных петельных столбиков и т. д.

Пряжи и нити для этой цели могут быть использованы армированные нити типа синель, фасонные нити: петлистая, спиральная (извилистая), с ровничным эффектом, эпонж, узелковая, с сукрутинами, синель и т. д.

Форма, строения и окраска бионических тел являются важнейшими признаками, при использовании того или иного вида переплетения трикотажа и выборе изделия. Форма бионических объектов может быть самой разнообразной.

Изделия с элементами бионики могут быть с ворсовой поверхностью трикотажа, например, шубы и куртки подобно пушнину тигра, льва,медведи, волка, лисицы и т. п. зверей. Женское пальто и куртки с густой бархатной-шелковой фактурой трикотажа может напомнить шкуры олени, лощади и др. животных. Изделия из синели могут ассоциировать шкуры овец и т. п. домашних животных. Национальная папаха из полотен трикотажа, полученных из нитей синели успешно заменяет каракулевою шкуру.

В результате проделанной работы установлено, что использование элементов бионики в проектировании новых видов переплетений трикотажа способствует расширению ассортимента полотен и созданию конкурентоспособной трикотажной продукции.

## TRİKOTAJ **MƏMULATLARININ MODELLƏRİNDƏ BİONİKA ELEMENTLƏRİNİN TƏTBİQİ İMKANLARI**

**Prof.t.e.d. C.Ə.Hacıyev**
**S.C.Məmmədova**
**Ə.E.Xəlilova**
**Azərbaycan Texnologiya Universiteti**
**j.hajioglu@rambler.ru**

İşdə trikotaj qumaşları hörmə quruluşunun, təbiətdə rast gəlinən bəzi cisim və yə canlılara məxsus elementlərdən istifadə edilməklə, qumaşların və onlardan hazırlanan məmulatların çeşidinin genişləndirməsi imkanları araşdırılmışdır.

## POSSIBILITIES OF APPLICATION OF BIONIC ELEMENTS IN MODELS OF KNITTED PRODUCTS

**Prof. d.t.s. J.A.Hajiyev**
**S.J.Mammadova**
**A.E.Khalilova**
**AzerbaijanTechnological University**
**j.hajioglu@rambler.ru**

The study explores the possibilities of expanding the range of fabrics and products made from them, using the structure of knitted fabrics, elements belonging to some objects or creatures found in nature.

# SƏNAYE MƏHSULUNUN DİZAYN NƏZƏRİYYƏSİ VƏ METODOLOGİYASI

**Dos. T.H.Mirzəyev, C.X.Qurbanlı**
**Azərbaycan Texnologiya Universiteti**
t.mirzeyev@uteca.edu.az

Bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq toxuculuq və yüngül sənayedə istehsal edilən məmulatların (parçaların, trikotajın, xalçaların, geyimlərin, ayqqabıların və s.) bədii layihələndirilməsinin xüsusi əhəmiyyəti vardır. Məmulatların dizaynı onun müasir zövqə uyğun gəlməsinin əsası olmaqla iqtisadi səmərə gətirən vaçib amillərdən biridir. Məmulatın bədii layihələndirilməsinin mütərəqqi üsullarından, müasir texnika və texnologiyadan istifadə etməklə stabil çeşidli, yüksək keyfiyyətli, dünya bazarına çıxımlı məhsul istehsalı mümükündür [1].

Surətlərin sosial aspekti sənaye incəsənətinin yaradılmasında əsas əhəmiyyət kəsb etməklə bilavasitə istehsalat xarakteri və üsulları ilə bağlıdır. Məlumdur ki, bu və ya digər predmetin sosial əhəmiyyəti ona hər hansı forma verilməsindən asılıdır. Əlbətdə ki, sənaye incəsənəti - sosial mahiyyəti bir başa ifadə etmir. Bunu incəsənətin digər növləri edir. Onlar isə sosial yaxud iqtisadi sistemin çərçivəsində yarandığı üçün sistemin dolayı yolla əlamətlərinin daşıyıcısı olur, hər şey sosial tələbdən, sənaye məmulatının funksiyasından asılıdır. Formaca gözəl olan, həm dəmüəyyən funksiya daşıyaraq lazımlı olmalıdır. Lakin biz xaricdən idxal edilən məmulatların psixoloji funksiyası ilə bərabər onların milli mentalitetimizə uyğun gəlməyən surətlərinin həyatımıza daxil olmasının qarşısının alınmasına çalışmalıyıq. Bununla da biz «Estetik revizionizmin» «Demokratik reolizmin» modalarda qeyri humanist və ifratçı estetik konsepsiyaların sənaye incəsənətinə daxil olmasına imkan verməmiş olarıq [2].

Bədii layihələndirilmənin nəzəriyyəsi sosial tələblər əsasında formalaşdırılaraq əsasən aşağıdakıları müəyyən edir:

- tirajların və surətlərin öyrənilməsi ilə modellərin ünvanlaşdırılması;
- təbiətdə, arxitekturada və texnikada elemetlərin qurulma formasının oyrənilməsi;
- insanların tarixi və etnoqrafik ənənələrinin öyrənilməsi;
- formanın struktur imkanlarının və onun qabaqcadan qurumu haqqında məlumatların öyrənilməsi;
- formaəmələgəlmədə funksional-texniki və bədii əhəmiyyətin müxtəlif faktorlarının tədqiqi;
- bədii fikrin sənaye istehsalında reallaşdırılması məqsədi ilə müasir texnologiyanın və texniki imkanların analizi;
- kostyumun ansanbl sistemində layihələndirilən obyektin yerinə müəyyən edilməsi.

Dizayn termini - ozlüyündə müxtəlif növlü layihələndirmə fəaliyyəti olub, predmet mühitinin, estetik və funksional keyfiyyətinin formalaşmasına istiqamətlənmişdir.

Sənaje məmulatının istehsal prosesi kollektiv yaradıcılıq prosesidir. Məsələn,tikiş məmulatları modellərinin hazırlanma prosesində rəssam-layihələndiricilər (dizaynerlər) qrupu texniki-konstruksiyalaşdırıcılar, texnologiyalar və s. qruplarla birkə işləməli koordinator rolunu aparmalı və surətin ilkin eskiz variantının saxlanmasına nəzarət etməlidir. Layihənin yaradılmasında dizaynerin rolu daim dəyişir: o, gah aktiv yaradıcı, gah da surətin (modelin) tətbiqinin passiv müşahidəcisinə çevrilir.

Dizayn metodikası ardıcıl olaraq analiz və sintez üsullarının tətbiqinə əsaslanır:

Layihəqabağı analiz – layihəndirmənin ilk mərhələsi olub, aşağıdakıları müəyyən edilir:

1) mühitin, əşyaların yaxud əşyalar kompleksinin nəzərdə tutulmuş funksiyalarının tədqiqi və məlumatların qarşılaşdırılması;

2) layihələndiriləcək məmulatların və mühitin mahiyyətcə araşdırılması;

3) layihələndiriləcək məmulatların və mühit predmentlərinin hazırlanma üsullarının öyrənilməsi;

4) nəzərdə tutulmuş obyektin (funksional təyinatı eyni olan) analoqlarının araşdırılması yolu ilə onların çatışmayan cəhətlərinin müəyyən edilməsi;

5) istehlakçı istəyinin müəyyənləşdirilməsi. Bundan başqa mühitin, əşyaların yaxud əşyalar kompleksinin layihələndirilməsində sosial-iqtisadi, funksional-dəyərlilik (əhalinin təlabatlar qrupunun strukturunu müəyyən etmək, dizayn məhsulunun hansı kateqoriya əhali üçün nəzərdə tutulduğunu müəyənləşdirməklə xərcləri dəyərləndirmək), texnoloji və forma analizlərinin aparılması da vacibdir.

Aparılan analizlərin nəticələri sintez əməliyyatlarına inteqrasiya olunmalıdır. Bunun isə nəzərdən

kecirilən obyektin strukturəmələgətirmə və harmonikləşdirmə (kompozisiya) yolu ilə aparılması mümkündür. Tək (ədədi) əşyaların strukturəmələgətirməci – onların formaələgətirməsidir. Kompozisiya – hormonikləşdirmə üsulu olub, vasitələr və nəzərdən keçirilən obyektin estetik bütövlüyünün yaradılması üsullarının sistemindən ibarətdir. Sintez prosesində aparılmış tədqiqatların nəticələri formaəmələgətirmənin konkret üsulları ilə reallaşdırıla bilər: a) kombinator üsulu; b) analoqlar üsulu; c) bədii-assosativ üsul.

Qeyd edək ki, kombinator və analoqlar üsulları kostyumun formaəmələgəlməsində daha geniş öyrənilmişdir. Dizaynda sintez – dizayner anlizində əksini tapmış layihə məlumatlarının fikrən ardıcıllanması və vahid bütövlük təsəvvüri (layihə görnüşü) əldə edilməsidir. Sintez üsullarını ya sistemli yanaşma xüsusiyyətli (kombinator və analoqlar üsulları kimi) ya da kortəbii- intiutiv (bədii-assosativ üsulu kimi) olmaqla iki qrupa bölmək olar.

Layihələndirmə – reallıqda mövcud olmayan nəzərdə tutulmuş xassələrə malik obyektin təsvirinin, şəklinin (eskizinin, maketinin) yaxud konsepsiyssının yaradılmasından ibarətdir. Dizayner layihəsində bilik və fantaziya, dəqiqlik və intuisiya, elm və incəsənət, istedad və ustalıq qarşılıqlı əlaqədə təzahür edir. Hər hansı bir əşyanın (məhsulun) mükəmməl dizayner layihəsini işləmək üçün mütəxəsisdən bu əşya (məhsul) barəsində akademik bilik (xassələri, quruluşu, modelləşdirilməsi, konstruksiyası, istehsal texnologiyası və s. barədə), elmi-sistemli yanaşma, bacarıq və qabiliyyət, fantaziya və bədii intuisiya, istedad və ustalıq olmalıdır [3].

Aparılmış tədqiqatlarla sənaye məhsulunun dizayn layihələndirilməsinin daha qısa müddətdə aprılması üçün prosesin loqik ardıcıllıq prosedru müəyyən edilmiş və laboratoriyada sınaqdan keçirilmişdir. Bundan başqa modelləşmə mərhələsində sənaye məhsulunun manikenlər üzərində maketləşdirilmə üsulunun yeni metodikası işlənmişdir. Bu meodikanın tətbiqi ilə modelləşdirmə prosesinin ənənəvi üsulla müqaisədə daha qısa müddətdə icra edilməsi və keyfiyətcə üstün olması tədqiqatlarla sübut edilmişdir.

**Ədəbiyyat siyahısı:**

1.Paşayev B.S., Parça və geyim məmulatlarının layihələndirilməsi, Bakı:"Təhsil NPM",2004, 352 s

2.Благова Т.Ю., Теория и методология дизайна, Часть 1 и Часть 2, Учебное пособие, Благовещенск: Амурский гос. ун-т, 2018, 90 с

3.Тухбатуллина Л.М., Формирование творческого компонента профессиональной компетенции дизайнера в процессе проектного обучения:Дисс.... канд. пед. Наук, Казань, 2009, 198 с

## ТЕОРИЯ И МЕТОДОЛОГИЯ ДИЗАЙНА ПРОМЫШЛЕННЫХ ИЗДЕЛИЙ

**Доц. Т.Г.Мирзоев, Д.Х.Курбанлы**
**Азербайджанский Технологический Университет**
**t.mirzeyev@uteca.edu.az**

В данном тезисе представлена информация о процессах, теории и методах проектирование в дизайне для создания современных промышленных изделий. Также разработана новая прогрессивная методика проектирования промышленных изделий. Исследованиями доказано, что с применением этой методики процесс моделирования может быть выполнен в более короткие сроки по сравнению с традиционным методом и превосходить его по качеству.

## THEORY AND METHODOLOGY OF INDUSTRIAL PRODUCT DESIGN

**Prof. T.H.Mirzaev, Master student. J.H.Kurbanly**
**AzerbaijanTechnologicalUniversity**
**t.mirzeyev@uteca.edu.az**

This thesis presents information on the processes, theory and methods of design in design to create modern industrial products. A new progressive methodology for designing industrial products is also developed. Research has proven that with the application of this methodology, the modeling process can be accomplished in a shorter time frame compared to the traditional method and exceeds it in quality.

# BÖYÜK NAXIŞLI TRİKOTAJ KUPONLARINDAN ALINAN MƏMULATLARIN XARİCİ GÖRÜNÜŞÜNÜN YAXŞILAŞDIRILMASI

**Prof.t.e.d. C.Ə.Hacıyev**

**Ç.C.Həşimova**

**S.A.Rzayeva**

**Azərbaycan Texnologiya Universiteti**

**j.hajioglu@rambler.ru**

Trikotaj qumaş və kuponlarının səthində alınmış naxış və ya (rəsmlərin, təsvirlərin) hazırlanacaq məmulatların xarici görünüşünün dizayner tərəfindən nəzərdə tutulan düşüncələrini dəqiq əks etdirməsi xüsusi önəm daşıyır. Məmulatın bədii tərtibatında nəzərdə tutulan özəlliklərin istehsal olunan məhsulda əks olunması texnologiyanın imkanlarına bağlıdır.

Kuponlar trikotaj materialı kimi quruluşca qumaşlardan fərqlənir. Bilindiyi kimi kuponlar boruvari (müstəvi şəklində) olmaqla kəmər (ətək), bədən, keçid (ayrıcı) cərgələri kimi hissələrdən ibarətdir.

Kuponların bədən hissəsi naxışlı və naxışsız olmaqla istehsal olunur. Çox vaxt alınan kuponların həndəsi ölçüləri sabit olmayıb, bir- birindən fərqlənir. Bu da kuponlardan alınan trikotaj məmulatlarının xarici görünüşünə və keyfiyyətinə, o cümlədən material sərfinə öz mənfi təsirini göstərir.İri naxışlı kuponların ənənəvi qaydada sərilməsi naxışların məmulat hissələrinin üzərində çiyin və yan tikiş xətlərinə nəzərən sürüşməsinə səbəb olur. Bununla da kuponlardan alınan məmulatların səthində naxışlar bədii tərtibata uygun gəlmir. İri naxışlı məmulatlarda naxışların bədəndə sürüşməsiz, düzgün yerləşməsi məmulatın xarici görünüşünü yaxşılaşdırır. Bu baxımdan mövzu aktualdır.

Əvvəlcə trikotaj kuponlarının üzərində alına bilən naxışların xarakteri, forması və ölçüləri fərqli ola bilər. Qeyd edək ki, trikotajın səthində naxış olmadıqda və ya naxışın ölçüləri kiçik olduqda, yəni kiçik ölçülü naxışlar olduqda, bədii tərtibatın təmin olunmasında elə bir çətinlik olmur. Kuponun bədən hissəsində olan naxışın ölçüləri böyuk oldugu hallarda nəzərdə tutulan bədii tərtibatın təminatı ilk öncə məmulat hissəsinin düzgün biçilməsindən asılı olur.

Tutaq ki, böyük naxışları olan kupondan kişi cemperi istehsal olunmalıdır. Kuponların sərilməsinin ənənəvi qaydası onların qüsursuz yan və sökülməyən aşagı-kəmər kənarına görə düzəldilməsini (bərabərləşdirilməsini) özündə ehtiva edir. Böyük naxışlı kuponların sərilməsi mövcud qaydaya uyğun yerinə yetirildikdə onların biçilməsindən alınan məmulatın ülgülərinin (hissələrinin) naxışları çox vaxt müvafiq hisssəsinin üzərində tikiş xətlərinə nəzərən, yerdəişmələrə məruz qalır.

Nəzərə almaq lazımdır ki, məmulatın ayrı-ayrı hissələri ( məsələn, kişi cemperində ön, arxa və qol) ülgülərin müvafiq kuponların üzərində yerləşmə sxeminə uygun olaraq sərilmiş kuponların biçilməsindən alınır.Bu zaman məmulatın hər bir hissəsinin naxışının (rəsminin), ülgünün üzərində əvvəlcədən qeyd olunmuş səmtləndirmə xəttinə nəzərən sapmasının eyni ölçüdə olanları bir məmulat ücün yararlı sayılmalıdır.Məmulat hissələrinin dəstləşdirilməsi

(ön + arxa + 2qol ) naxışların səmtləndirmə xətlərinə uyğunluğu əsas götürülərək aparılmalıdır. Hər bir hissə, şaquli səmtləndirmə xətti əvəlcədən üzərində qeyd olunmuş ülgü ilə müqayisə olunaraq, sapmaları eyni və ya yaxın olan hissələr eyni bir məmulat ücün olan dəstdə bağlanmalıdır.Bu üsülla qismən də olsa naxışların məmulat hissələrinin üzərində simmetrik paylanmasına nail olmaq mümkündür. Lakin bu yolla əldə edilən məmulatın estetik təminatı ödənmir və onun yüksək keyfiyyətli sayılması qeyri-mümkündür.

Böyük naxışlı (rəsmli) kuponlardan alınan hissələrdəki naxışların, onların üzərində olan şaquli səmtləndirmə xəttinə nəzərən sapmadan yerləşməsi üçün elə etmək lazımdır ki, müvafiq kuponun

və ülgünün (eyni zamanda məmulat hissəsinin) üzərində olan səmtləndirmə xətləri bir-birinin üstünə düşşün.

Bu məqsədlə kuponların ənənəvi sərilmə üsulundan fərqlənən yeni sərilmə üsulu işlənmişdir. Bu üsulun mahiyyəti ondan ibarətdir ki, əvvəlki kuponun və onun üstünə sərilən hər sonrakı kuponun şaquli səmtləndirmə xətləri şaquli müstəvidə bir-birinə paralel yerləşməli, həm də kuponlar təkcə sökülməyən aşagı kənarına görə bərabərləşdirilməlidirlər. Sol, yuxarıvə sağ kənarların bərabərləşdirilməsinə ehtiyac qalmır.

## УЛУЧШЕНИЕ ВНЕШНЕГО ВИДА ТРИКОТАЖНЫХ ИЗДЕЛИЙ, ПОЛУЧЕННЫХ ИЗ КУПОНОВ С КРУПНЫМИ УЗОРАМИ

**Проф.д.т.н.Д.А.Гаджиев**
**Ч.Д.Гашимова**
**С.А.Рзаева**
**Азербайджанский Технологический Университет**
**j.hajioglu@rambler.ru**

В работе проанализированы факторы, влияющие на ухудшению внешнего вида трикотажных изделий, изготовленных из купонов с крупными узорами. Предусмотрено выбор купонов с одинаковыми геометрическими размерами ипоследующейих группировкой на подготовительном этапе раскроя. Предложен новый способ настилания купонов,где их выравнивание выполняется по нижнему, не распускающему краю. Ориентация рисунков осуществляется по вертикальной линии, проходящей через выбранную точку на участке (лекале) деталей изделии.

**Ключевые слова:** купон, узоры, выбор, настилание, раскрой

## IMPROVING THE APPEARANCE OF JERSEYS PRODUCED FROM COUPONS WITH LARGE PATTERNS

**Prof. d.t.s. J.A.Hajiyev**
**C.J.Hashimova**
**S.A.Rzayeva**
**Azerbaijan Technological University**
**j.hajioglu@rambler.ru**

The paper analyzes the factors affecting the deterioration of the appearance of knitwear made from coupons with large patterns. There is a choice of coupons with the same geometric dimensions and their subsequent grouping at the preparatory stage of cutting. A new way of laying coupons is proposed, where they are aligned along the lower, non-opening edge. The orientation of the drawings is carried out along a vertical line passing through the selected point on the section (pattern) of the product details.

**Keywords:** coupon, patterns, choice, laying, cutting

# TİKİŞ İSTEHSALINDA NƏMLƏNDİRİB-İSİTMƏ İŞLƏRİNİ İCRA EDƏN AVADANLIQLARIN ENERJİ MƏSRƏFLƏRİNİN ANALİZİ

**R.T.Mirzəyev**
**Azərbaycan Texnologiya Universiteti**
**razil-mirze@mail.ru**

Enerji resurslarının rasional xərclənməsi istehsal sahələrində avadanlıqların istifadənin səmərəliliyindən çox asılıdır.Strukturun təyin edilməsi və onların istismar üsulları arasındakı fərqlərə baxmayaraq, enerji istifadəsinin səmərəliliyinin artırılması üçün potensial imkanlar oxşardır. Bütün potensiyal enerjiyə qənaət aşağdakı üc qurpda cəmləşir [1].
1.Avadanlıqların istismar və texniki xidmət strategiyaları;
2. Avadanlıqların konstruksiyasının və ya modifikasiyasının dəyişdirilməsi strategiyaları;
3.Yeni avadanlıq yaradılması strategiyası.
Məlumdur ki, tikiş sexıərini əsasən tikiş maşınarı və nəmləndirb-istmə avadanlıqrarı təşkil edir. Deməli enerji resuslarına qənayəti burda axtarmaq lazımdır ki, bu zaman məhsulun keyfiyyətidə yüksətmək lazımdır.

Nəmləndirb-istmə əməliyatları müasir avadanlıqlarda əsasən tikiş materiallarına isti, nəm,və mexaniki qüvvənin təsiri ilə həyata kecirilir. Beləliklə, muəyyən vaxt ərzində parca paketləri nəmlənir, isidilir, və deformasiyaya uğradıldıqdan sonra qurudulur və soyudulur. Nəmləndirb-istmə prosesi tələb olunan texnoloji effektin konkret təşkilati-texniki istehsal şərtləri üçün səciyyəvi olan ən az enerji xərcləri ilə əldə edildiyi halda səmərəli hesab edilə bilər.Müasir tikiş müəssisələrində nəmləndirb-istmə avadanlıqlarında əsas rolu elekrtik qızdırılan, buxarla qızdırılan və konbinə edilmiş şəkildə buxarla alt yastığı, elektrik ilə üst yastığı qızdıran presslərrdən (sıxıcılardan) istifadə edirlər [2]. Bundan başqa ütülərdən, hava-buxar manekenlərindən də geniş istifadə edirlər. Nəmləndirb-istmə avadanlıqları müasir tikiş müəssələrində ən çox enerji sərf edən avadanlıqdırlar. Tikiş maşınları bundan az elektrikenerji sərf edir [3]. Tədqiqat işində, nəmləndirb-istmə avadanlıqlarını öyrənilməsində əsas diqqəti daha çox enerji sərf edən preslərin (sıxıcıların) üst və alt yastıqlarının materiyallara necə istilik kecdiyini təcrübələirlə müəyyən etmək lazımdır.Tədqiqatlar gəstərdi ki, preslərin (sıxıcıların) catışmayan cəhətlərindən biri alt və üst yastıqlarının materiyala təsiri müddətinin cox uzun cəkməsi və preslərin (sıxıcıların) işci orqanlarının cox metal tutumlu olması ilə bağlı enerji sərfiyyatının artımına səbəb olur [1]. Pres (sıxıcı) avadanlıqlarının yastıqlarının qızdırılması üsulunun təkmilləşdirilməsi enerji istehlakının səviyyəsinə əhəmiyyətli dərəcədə təsir göstərə bilər. Preslərin (sıxıcıların) işçi orqanlarının qızdırılması üsulları müxtəlif ola bilər. Bu üsullardan ən geniş yayılmışı elektrik- buxar və konbinə edilmiş üsullarıdır.

Son illərdə ütüləmə preslərinin (sıxıcılarının) işçi orqanlarının qızdırıcısı kimi elektrik qızdırıcı elementlərindən və qızmış buxarla birgə istifadəsindən geniş istfadə edilir. Belə ki, pressin (sıxıcının) ust yastığını elektrik enerjisi ilə alt yastığı isə buxarla qızdırılır . Bu zaman müəssənin enerji balansında 40% enerji preslərin (sıxıcıların) yastıqlarının isti vəziyyətdə saxlanmasına sərf edilir. Buxarın müəssə daxilində hərəkəti zamanı əlavə itki nəticəsində müəsisənin iqdisadi göstəriciləri aşağı düşür. Nəmləndirb-istmə əməliyyatları konstruksiyalarına, əməliyyatların icra mexanizmlərinə və materiallara istiliyin ötürülməsi üsullarına görə fərqlənən texnoloji avadanlıqlarda ümumi cəhətlər də vardır.

Son zamanlar enerji resurslarından istifədənin səmərəliliyinin artırılmasının əsas istiqamətlərindən biri kimi müəsisələrin enerji istehlakı rejimlərinin optimallaşdırılması problemlərinin aktuallığı əhəmiyyətli dərəcədə artmaqdadır. Enerji resurslarına qənaət, ondan istifadənin səmərəliliyinin artırılması məsələlərinin həlli üçün tikiş sənayesi müəssisələrində enerji istehlakı sisteminin inkişaf dinamikasını öyrənmək lazımdır.

"Bakı tikiş evi" açıq səhmdar cəmiyyətində 1995-2019-cü illər ərzində tikiş sənayesi istehsalının əsas göstəricilərinin artım dinamikası bizim tədqiqatlarla araşdırılmışdır. Bunun üçün adıkeçən

müəsisənin maliyyə təsərrüfat hesabatlarının təhlili aparəlmışdır ki, yuxarıda göstərilən müddət ərzində istehsal edilən məhsulun ümumi həcmi, dövriyyə fondlarının orta illik dəyərinin 14,3 dəfə artması ilə eyni vaxtda 13,5 dəfədən çox artmışdır. Bu müddət ərzində enerji sərfi müvafiq olaraq 12,3-dəfədən çox artmışdır. Bütün bu deyilənlər onu göstərir ki, enerji göstəriciləri ilə digər iqtisadi göstəricilər arasında sıx korrelyasiya rabitəsi mövcuddur. Qeyd etmək lazımdır ki, elmi-texniki tərəqqi şəraitində əməyin enerji göstəricisi istehsalın texniki səviyyəsini müəyyən edir. Bütün bu deyilənlər tikiş məmulatlarının istehsalının enerji istehlakı göstəricisinə görə idarə edilməsinin zəruriliyini sübut edir.Bu zaman müəssisənin ümumi enerji istehlakında istehsal elementlərinin hər birinin rolu və yerini və enerji istehlakı meyarına görə məhsulun keyfiyyətinin effektiv idarə edilməsi imkanlarını müəyyən etmək vacibdir.

Müasir kompleks sistemlərin tədqiqi sistemli yanaşmasının, fiziki və riyazi modelləşdirmə üsullarının, informasiya nəzəriyyəsinin və s. istifadəsi ilə ayrılmaz surətdə bağlıdır. "Məqsədyönlü"adlanan ən mürəkkəb sistem növlərinə, xüsusən istehsal sistemlərinə baxarkən sistemli yanaşmanın tətbiqi xüsusilə aktualdır. Sistemin mütəşəkkil mürəkkəbliyinin öyrənilməsi problemi yaranır. Təşkilati nöqteyi-nəzərdən bu sistemdə iki növ strukturun ayrd etmək olar-ekstensiv və intensiv. Ekstensiv struktur məkanda mövcuddur, intensiv-zamanda. Bu, öz xüsusiyyətlərinə uyğun olan qarşılıqlı təsir nəticəsində yaranır. Bir elementin digərinə təsiri onların dəyişməsi ilə bağlıdır və bu proses nəticəsində qarşılıqlı əlaqə təkrarlanaraq, tsiklik xarakter alır. Bu o deməkdir ki,elementlər arasında qarşılıqlı əlaqə davamlıdır və bu, ekstensiv strukturun dəyişməsinə gətirib çıxarar.

**Ədəbiyyat siyahısı:**

1. БерезненкоН. П., Разработка энергосберегающей технологии и повышение уровня качества швейных изделий на операциях влажно-тепловой обработки: Дисс…докт.техн. наук.– К., 1986, 394 с
2. Пилипенко Н.В., Сиваков И.А., Энергосбережение и повышение энергетической эффективности инженерных систем и сетей. Учебное пособие.СПб:НИУ ИТМО, 2013, 274 с
3. Mirzəyev R.T., ƏliyevaS.S., Tikiş məmulatları hissələrinin nəmləndirmə-isitmə əməliyyatlarında işçi rejimlər, AMEA Gəncə bölməsi, “Xəbərlər məcmuəsi” №4 (78), Gəncə, 2019,s.170-173

## АНАЛИЗ ЭНЕРГОПОТРЕБЛЕНИЙ ОБОРУДОВАНИЯ, ВЫПОЛНЯЮЩЕГО ВЛАЖНО-ТЕПЛОВЫЕ РАБОТЫ В ШВЕЙНОМ ПРОИЗВОДСТВЕ

**Р.Т.Мирзоев**
**Азербайджанский Технологический Университет**
**razil-mirze@mail.ru**

Рассмотрены основные принципы функционирования системы производства швейных изделий, систематизированы факторы, оказывающие влияние на процесс энергопотребления. Обобщены теоретические и практические основы энергетических процессов швейного производства, включая процессы влажно – тепловой обработки деталей одежды. Рассмотрены три стратегии снижения энергетических затрат, одной из которых является выбор технологических параметров и нормирования рабочих сред действующего оборудования.

## NALYSIS OF ENERGY EXPENSES OF EQUIPMENT PERFORMING WET-HEAT WORKS IN SEWING PRODUCTION

**R.T.Mirzoev**
**AzerbaijanTechnologicalUniversity**
**razil-mirze@mail.ru**

The basic principles of the functioning of the system of production of garments are considered, the factors influencing the process of energy consumption are systematized. The theoretical and practical foundations of the energy processes of clothing production, including the processes of wet-heat treatment of clothing parts, are generalized. Three strategies for reducing energy costs are considered, one of which is the choice of technological parameters and the normalization of working environments of current equipment.

# КОНЦЕПТУАЛЬНОЕ НАПРАВЛЕНИЕ ДИЗАЙН-КОСТЮМА

**Тагиев Тейрун Фуад оглы, магистрант**
**Доц. Ф.А.Бабаев**
**Азербайджанский Технологический Университет**
teyrun619@gmail.com

Потребность стильного костюма со стороны искусства и его изучением обнаружилось в начале XXI века, когда промеж массы людей появилось надобность на потребление костюма и его эргономической и грациозной форме и возникли новые технологии. Проштудировав отдельные исключения и проектировку одежды, учитывая его социальное, эстетическое, общефилософское и прочего значения, мы сможем всецело ревизовать концептуальность костюма. Само слово «концептуальный» образовано от слова «концепция», что обозначает ключевую тенденцию чего-нибудь [1], то есть «концептуальный» костюм создаётся в рамках концептуальных, мировоззренческих идей и теорий, которые модифицируются в одежду, напоминающую архитектурные конструкции – так пишется в американской энциклопедии одежды и моды [2]. В нынешнее время безгранично видима установка рассмотрения практического значения одежды на её призначную неограниченность и выразительность. Ведь первостепенной задачей дизайнера является внушительное усовершенствование образного проектирования костюма. Мода обладает крупным воздействием на формирование костюма, на его дизайн и вышивку, ведь мода неразрывно связывает себя с историей формирования костюма, тем не менее устанавливать моду и костюм в равное расположение не совсем верно, потому что искусствоведы помечают происхождение моды как общественное событие эпохи отдалённого от современного времени средневековья. Собственно в тот период процесс формирования одежды приобретает новоиспечённые линии, которые свойственны для моды. Возникает общеевропейский костюм, а не только национальный либо региональный. В одежде выявляются новинки, которые в последствии станут всеобщим увлечением. Оригинальность концептуального костюма охватывается в активном креативном экспериментировании. Возникновение портновской машины, придумка застёжки-молнии, искусственных волокон проявляют воздействие на изготовление одежды и функциональные специфики костюма. Э. Скьяпарелли провела первое исследование в области дизайна костюма, когда в 1930-х годах она начала употреблять искусственные материалы при производстве одежды, а так же она впервые применила застёжку-молнию в костюме [3]. Создавать костюм архитектурных линий, который, в свою очередь, осуществлял вероятным ход вакуум-формования был запатентован П. Карденом. Концепцией научно-технической новинки было создание стильного костюма, который образцово подражает сложение тела человека. Можно усмотреть попытку самоидентификации в причинах воззвания дизайнеров к концептуальным формам. А.Б. Гофман ориентировал на один критерий моды, который объединял эстетическую функцию костюма с игрой. Гофман говорил, что «присутствие ценности игры в структуре моды частично изъясняет размашистое распространение истолкования моды как явления эстетического» [4]. На рубеже XX – нач. XXI вв. концептуальный костюм делается объектом внимания на многих выставках, так как к костюму стали относится как к культурному наследию. Наши представления об одежде были почерпнуты ещё с средневековья. Немного посчастливилось сберечь предметов одежды относящиеся, примерно, к периоду XV в. В тот период отслеживалось возрождение искусства и архитектуры, расширение торговли и связей между народами Европы. Изменения, которые протекали в тот момент, не могли не отразиться и на костюмах.

Чем больше мы пытаемся изучить историю костюма, тем больше мы погружаемся в неё и можем обнаружить множество открытий. Каждый самобытный костюм играет свою роль.

## Список литературы:


1. Джоан Нанн: История костюма 1200-2000, Москва «Астрель. АСТ», 2003, 344 с
2. Плешкова Ирина Сергеевна: Концептуальное направление в дизайне одежды XX - начала XXI веков, Санкт-Петербург, 2010, 200 с, [2], [3], [4]
3. Бердник Т.О.: Дизайн костюма. Ростов на Дону «Феникс», 2000, 481 с
4. Каминская Н.М.: История костюма, Москва «ЛЕГКАЯ ИНДУСТРИЯ», 1977, 130 с
5. Глобальная трансформация - Русский проект, InternalPredictorUSSR, 42 с [1]


## KOSTUM DİZAYNININ KONSEPTUAL İSTİQAMƏTİ


**Dos. F.A.Babayev**

**T.F.Tağıyev**

**Azərbaycan Texnologiya Universiteti**

**teyrun619@gmail.com**



Hazırda kostyum dizayneri ilkin eskiz həllinin hazır geyim məmulatında olduğu kimi qalması üçün bütün layihələndirmə mərhələlərində iştirak edir. Ona görə də dizayner kostyum-konsepsiyasını hazırlamaqla, onun müasir stilə və moda istiqamətinə həmçinin milli geyim və dekorativ-tətbiqi sənət nümunələri elementlərinin kostyumda və ya onun materiallarında əksinin tapılmasına çalışmalıdır. Digər tərəfdən kostyumun istehsalında son mütərəqqi konstruksiyalaşdırma üsüllarından və hazırlanma texnologiyalarından istifadə edilməsinə nail olunmalıdır ki, həm məhsulun keyfiyyəti yüksək olsun həm də iqtisadi səmərə əldə edilsin. Kostyumun əsas funksiyası ondan istifadə edənlər üçün erqonomik olması və estetik cəhətcə cəlbedici olmasıdır.


## CONCEPTUAL DIRECTION OF DESIGN COSTUME


**T.F.Tagiyev**

**Prof. F.A.Babaev**

**Azerbaijan Technological University**

**teyrun619@gmail.com**



Currently, the costume designer is involved in all stages of design to ensure that the initial sketch solution remains the same as in the finished garment. Therefore, by developing a costume concept, the designer should try to reflect the elements of national costumes and decorative-applied arts in the costume or its materials in its modern style and fashion direction. On the other hand, the use of the latest advanced design methods and manufacturing technologies in the production of the suit must be achieved in order to ensure both high product quality and economic efficiency. The main function of the suit is to be ergonomic and aesthetically pleasing to its users.

# BİTKİ MƏNŞƏLİ DEKORATİV BOYAQLARIN ALINMASI TEXNOLOGİYASI

**İ.Q.Qasımov**
**S.Y.Adığözəlova**
**G.N.Əsədova**
**Ş.Q.Əliyeva**
**AMEA Gəncə Bölməsi**
**penahova.shahnaz@mail.ru**

Azərbaycanın coğrafi ərazisinə daxil olan bir çox rəngli mineralların təbii birləşmələrlə yanaşı (malaxit, kinovar, hematit, alunit və.s rəngli bitki örtüyünə malik vətənimizdə bitki mənşəli boyaqlardan istifadə qədim dövrlərdən bu günlərimizə qədər geniş istehsal və istifadə sahələrinə malikdir. Təkcə onu qeyd etmək kifayətdir ki, Azərbaycan florasına daxil olan 4500 ali bitki növlərindən 1500 (~ 3%) boyaq bitkisi kimi istifadə edilə bilər. Bütövlükdə dünyada 2000-dən çox boyaq bitkiləri məlumdur ki, onlardan 130-u bitki boyaqları alnması üçün sənaye miqyasında istifadə olunmaqdadır.

**Mövzunun aktuallığı.** Təcrübədə dah çox istifadə olunan sintetik boyalar alınması bir çox hallarda ayrı-ayrı kimyəvi çevrilmələrin aparılmasını, kimyəvi reagentlərdən istifadəni zəruri edir. Ona görə də təbii xammal olan müxtəlif boyaq bitkilərindən ekoloji, eyni zamanda iqtisadi cəhətdən səmərəli bitki boyalarından istifadə, günümüzün aktual mövzularından birinə çevrilmişdir. Bu deyilənləri nəzərə alaraq AMEA Gəncə Bölməsi Bioresurslar İnstitutu "Boyaq emalı texnologiyası" laboratoriyası əməkdaşları bu istiqamətdə elmi araşdırmaları davam etdirirlər.

**Tədqiqatın məqsədi.** Qərb bölgəsinin boyaq bitkiləri əsasında ekoloji bitki boyaqları alınması və tətbiq sahələrinin müəyyən olunmasıdır.

**Tədqiqat obyekti.** Bölgənin boyaq bitkiləri.

**Tədqiqatın metodları.** Boyaq bitkiləri orqanlarından rəngverici maddələrin alınması məqsədi ilə ekstraksiya üsulu ilə boyalar alınması, kalorimetrik üsulla rəng rəng çalarlarının müəyyən olunması.

**Materiallar və müzakirələr.**

AMEA Gəncə Bölməsi Bioresurslar İnstitutu "Boyaq emalı texnologiyası" laboratoriyası əməkdaşları tərəfindən bölgənin boyaq bitkilərindən boya, konsentrat və piqmentlər alınması istiqamətində səmərəli texnoloji üsullarla boyalar alınması, həmçinin boyaqların aşağıda qeyd olunan istiqamətlərdə istifadəsitədqiq olunur.

1. Qida sənayesində, o cümlədən kosmetologiya və farmokologiyada.
2. Toxuculuqda (lif və parçaların) xalçaçılıq və ipəkçilikdə.
3. Dekorativ- incəsənət sahələrində.

Qeyd olunduğu kimi laboratoriya əməkdaşları tərəfindən ekoloji boyaqlar alımasına daha çox üstünlük verilir və alınan boyaqların DS-tələblərinə müvafiq olmalarıtədqiqat işlərinin mühüm cəhətidir. Məlum olduğu kimi bitki boyaqlarının alınmasında yüksək çıxım və keyfiyyətə nail olmaq üçün əvvəlcədən bitkinin hansı orqanlarından (kök, gövdə, meyvə yarpaq, zoğ və.s)istifadə olunacağı, fəsil, bitkidən istifadənin vaxtı (günün hansı saatlarında eləcədə aqrotexniki qulluq kimi məsələlərə xüsusi önəm verilir.

Dekorativ boyakarlıq, qədim tarixə malik olub sonuncu yüzilliklər ərzində bu sahədə böyük uğurlar qazanmış tətbiq spektri genişlənmişdir.

Aparılan elmi-tədqiqat işlərində bitki mənşəli və mineral piqmentlər qarışığı əsasında boyaqlaralınmışdır.

Tədqiqat işləri davam etdirilərək:

1. Qoz qərzəyi ilə aparılaraq 30 qr qoz qərzəyi 200 ml suda 2 saat qaynatdıqdan sonra onun

20 ml-nə 2 qr H2SO4 (sulfat turşusu), 2 qr xörək duzu, 4 qr sümük yapışqanı, 2 qr kaolin əlavə edib qarışdırdıqda turşu mühitdə materiallar üzərində tünd şabalıdı rəngdə boyaq örtük qatı əmələ gəldi.

2. 20 ml qoz qərzəyi ekstraktına qələvi mühitində 2 qr NaOH, 4 qr xarrat yapışqanı, 2 qr kaolin tozu əlavə olunduqda kağız, taxta və gips materialları üzərində şabalıdı rəngdə boyaq örtük qatı əmələ gəlmişdir.

3. 6 qr boyaq otu kökünü bir gün suda saxlayıb sonra onu qaynadıb alınan boyaq ekstraktının 20 ml-nə 2 qr H2SO4 (sulfat turşusu), 2 qr NaCl-xörək duzu və 4 qr sümük yapışqanı, 2 qr kaolin tozu qatılaraq bir saat qarışdırdıqda zoğalı qırmızı rəngdə boyaq örtük qatı alındı. Onu kağız, taxta və gipsə sürtdükdə standartlara uyğun boyaq örtük qat alınmışdır.

**Alınmış boyağın dekorativ materiallarda örtük qat əmələ gətirməsi xüsusiyyətləri**

Cədvəl 1

| Boyaq materialın alındığı bitkilərin adı | Dekorativ materiallar üzərində əmələ gələn boyaq örtüyə sərf olunan boyağın miqdarı və ölçüsü |
|---|---|
| 1.Murdarça | 100 $qr/m^2$ |
| 2.Palıd ağacı qabığı | 98,5 $qr/m^2$ |
| 3.Qızılağac | 125 $qr/m^2$ |
| 4.Zanbaq gülü | 80,5 $qr/m^2$ |
| 5.Zəfəran çiçəyi | 82,6 $qr/m^2$ |
| 6.Amarant çiçək və yarpağı | 110 $qr/m^2$ |

**Tədqiq olunmuş bitki mənşəli boyaqlar və mineral qatışıqların əsas fiziki-mexaniki xassələri**

Cədvəl 2

| Boyaq bitkisi əsasında alınmışdır | Quruma vaxtı $20\pm S^0C$ | Bir qat təbəqənin qalınlığı | Adgeziya balı | Əyilmə-yə qarşı möhkəmlik mm | Zərbəyə davamlılıq N-m $Kq/sm^2$ | Bərklik şərti, ölçü | Parlaqlıq % |
|---|---|---|---|---|---|---|---|
| Zəfəran çiçəyi | 8 | 30 | 1 | 1 | 5,0 | 0,6 | 50 |
| Lalə çiçəyi | 6 | 33 | 1 | 1 | 5,0 | 0,5 | 40 |
| Palıd qabığı | 8 | 28 | 2 | 1 | 5,0 | 0,5 | 65 |

**Nəticə**: Boyaq bitkisi olaraq istifadə olunmuş bitkilərdən müxtəlif rəng və çalarları alınmış, xarici təsirlərə qarşı davamlılıq örtücülük, digər fiziki-texniki göstəriciləri tətqiq olunmuş, tətbiq sahələri müəyyən olunmuşdur. Rəng indeksi və DS tələblərinə müvafiqlik araşdırılmışdır.Murdarça,palıd, sarıçiçəkdən dekorativ sulu və yağlı boyalar alınmış, fiziki-kimyəvi,texniki parametrləri təyin edilmişdir. Həmin boyalar dekorativ-incəsənət sahələrində istifadəsinin məqsədə uyğun olması müəyyən olunmuşdur.

**Açar sözlər:** bitki mənşəli, dekorativ, parametr, incəsənət, fiziki-mexaniki, adgeziya

## Ədəbiyyat:

1. Бородукин В.Ф. Химия красителей. М., 2012
2. Шмидлин Г.У. Подготовка и крашение декоративных материлов.М., 2009

3. Мельников Б.Н. Моригонов П.В. Применение красителей. М., 2015
4. Патент №2426755 (РФ). Способ получения красителя из выжимов.темных сортов ягод. Переверкин И.В. КостаковаН.С.и др. Б И . № 23. 25.06.2009
5. Болотов В.М., Нечаев А.П. Сарафанов Л.И. Пищевые красители: Классификация свойства, анализ, применение. М., 2009

## ТЕХНОЛОГИЯ ПОЛУЧЕНИЕ ДЕКОРАТИВНЫХ КРАСИТЕЛЕЙРАСТИТЕЛЬНОГО ПРОИСХОЖДЕНИЯ

**И.К.Касумов**
**С.Й. Адыгезелова**
**Г.Н.Асадова**
**Ш.К.Алиева**
**Гянджинское Отделение НАНА**
**penahova.shahnaz@mail.ru**

Исследовано технология полученияпрастительных красителей из крушины, дуба и бессмертника. Изучено физико-технические, химические особенности объекта исследования. На основе красителей вышеуказанных растений изготовлено водные и масляные краски. Определены цветовой индекс (RGB), а также потребности ГОСТ-а 19214-80, ТУ 6-10-2054-86, устойчивость внешним воздействиям.

**Ключевые слова:** растительные, декоративное, параметр, искусство, физико-механические, адгезия.

## TECHNOLOGY OBTAINING DECORATIVE DYES OF PLANT ORIGIN

**I.G.Gasimov**
**S.Y.Adigozalova**
**G.N.Asadova**
**Sh.G.Alieva**
**Ganja Branch of ANAS**
**penahova.shahnaz@mail.ru**

Based on dyeing plants of the Western region were made the juicy and oily dyeing matter. Have been investigated the physic- chemical and mechanical feature of research object. Decorative dyeing based on its application based on its application fields (art, welfare, technique, advertising) were researched and noted.

**Key words:** vegetable, decorative, setting, art, physico-mechanical, adhesion

# IVBÖLMƏ
# İNFORMASIYA TEXNOLOGIYALARI VƏ KOMPÜTER MÜHƏNDISLIYI
## KORPORATİV ŞƏBƏKƏLƏRIN ETİBARLILIĞINA TƏSİR EDƏN AMİLLƏRİN TƏHLİLİ

**T.e.d, prof.B.M.Bağırov, A.P.Ədilov**
**Azərbaycan Texnologiya Universiteti**
**bayram-bagirov@rambler.ru**
**aqiladilov@gmail.com**

Korporativ informasiya şəbəkəsi müəssisə işçilərinin işlədiyi istehsal proseslərinin və kompüter proqramlarının avtomatlaşdırılması sistemidir. Şəbəkənin əsas təyinatı müəssisə və ya korporasiyanın təsərrüfat fəaliyyətini idarə etməkdir. Bu şəbəkənin etibarlı işinin təmin olunması üçün sistemə təsir edən amillər araşdırılmış və təyin edilmişdir.

Korporativ şəbəkə - bir müəssisə və ya qurumun bir və ya bir-birindən sıx məsafədə yerləşən binalarda yerləşdiyi ərazini əhatə edən bir-biri ilə əlaqəli lokal şəbəkələr məcmusudur.

Bununla belə, korporativ şəbəkə coğrafi olaraq paylanmışdır, yəni bir-birindən xeyli məsafədə yerləşən idarələri, şöbələri və digər strukturları birləşdirəndir. Korporativ şəbəkənin qurulması prinsipləri yerli şəbəkə yaratmaq üçün istifadə olunanlardan tamamilə fərqlidir. Bu məhdudiyyət əsasdır və korporativ şəbəkənin layihələndirilməsi zamanı ötürülən məlumatların miqdarını minimuma endirmək üçün bütün tədbirlər görülməlidir. Əks halda, korporativ şəbəkə onun üzərindən ötürülən məlumatı hansı proqramlara və onların emal etməsinə məhdudiyyətlər qoymamalıdır. Hazırda korporativ şəbəkə strukturunun seçimi empirik şəkildə həyata keçirilir [1].

Bir qayda olaraq, bu öz təcrübələrinə əsaslanaraq mütəxəssislər tərəfindən edilir. Beləliklə, korporativ şəbəkənin strukturunun seçilməsi prosesi şirkətdən asılıdır. İlkin mərhələdə, korporativ şəbəkələrin sayı az olanda, şəbəkə strukturunun seçilməsinin bu üsulu məqbul sayılırdı. Hesablama və telekommunikasiya sahəsində sürətli inkişaf korporativ şəbəkələrə tələbatın da kəskin artmasına səbəb olmuşdur. Korporativ şəbəkələrin strukturlarını seçmək üçün ictimaiyyətə açıq üsulların və alqoritmlərin olmaması onların inkişafını nəzərəçarpacaq dərəcədə ləngidir. Bu problemə sistemli yanaşma tələb olunur. Effektiv ictimaiyyətə açıq metodların mövcudluğu şəbəkə dizaynının vaxtını və xərclərini əhəmiyyətli dərəcədə azaldır və bu mürəkkəb problemin həllini daha geniş mütəxəssislər üçün daha əlçatan edir [1,2].

Korporativ şəbəkənin təşkilinin mümkün olduğu əsnada müasir texnologiyalar verilənlərin ötürülməsi üsullarına görə təsnif edilə bilər. Ümumiyyətlə, üç belə əsas üsul var:

-kanal dəyişikliyi;

-mesajın dəyişdirilməsi;

-paketin dəyişdirilməsi.

O, keyfiyyətsiz rabitə kanalları ilə işləmək üçün nəzərdə tutulub. Keyfiyyətin artması ilə informasiyanın ötürülməsi üçün Frame Relay şəbəkələrində öz yerini tapan HDIC kimi protokoldan istifadə etmək mümkün olur. Yüksək performansa və texniki çevikliyə nail olmaq istəyi SMDS texnologiyasının inkişafı üçün hərəkətverici qüvvə oldu. Daha sonra ATM standartlaşdırması ilə genişləndi [3].

Korporativ şəbəkələrin məhsuldar və etibarlı işinin təşkili üçün bir sıra vacib, praktiki əhəmiyyətə malik tələblər vardır.

Etibarlı işin təşkili üçün korporativ şəbəkələrə əsas tələblər bunlardır:

-şəbəkənin məhsuldarlığı və ötürmə qabiliyyəti müvafiq texniki xassələri təmin etməlidir:

-hər bir iş yerində 10 Mb/s-dən çox sürətlə İnternetə çıxışın mövcudluğu;

-hər bir iş yerində IP ünvanının olması;

-təşkilatın korporativ şəbəkəsi şöbələrin iş stansiyaları və serverlər arasında fasiləsiz məlumat axını:

Korporativ şəbəkələrin üstünlükləri bunlardır:

Bütün texniki cihazların bir qrupda birləşdirilməsi;

Müxtəlif formatlı məlumatlara sürətli çıxış;

İnformasiyanın rahat emalı və ötürülməsi;

Şəbəkənin ayrı-ayrı hissələrini təkmilləşdirmək imkanı;

Məlumat təhlükəsizliyi;

Real vaxt rejimində bütün korporativ fayllara daxil olmaq;

Personal tərəfindən həyata keçirilən bütün əməliyyatları uzaqdan idarə etmək imkanı [3,4].

Göründüyü kimi, korporativ şəbəkələrin bütün üstünlüklərinə nail olmaq üçün birinci növbədə bu şəbəkələrə qoyulan tələblər və onu yerinə yetirmək üçün üsul və vasitələr olmalıdır.

**Açar sözər:** şəbəkə, protokol, təhlükəsizlik, ethernet, idarəetmə

**Ədəbiyyatsiyahısı:**

1.Корячко, Д. А. Корпоративные сети, Технологии, протоколы, алгоритмы

2. Шиндер Д.Л. Основы компьютерных сетей / Пер. с англ. М.: Вильямс,2002

3.Транебаум Э. Компьютерные сети, 4-е издание - СПб.: Питер, 2006, 992с

4. internet resursu: https://www.sviaz-expo.ru/ru/articles/korporativnaya-ofisnaya-set/

## АНАЛИЗ ФАКТОРОВ, ВЛИЯЮЩИХ НА НАДЕЖНОСТЬ КОРПОРАТИВНЫХ СЕТЕЙ

**Д.т.н., проф. Б.М.Багиров, А.П.Адилов**
**Азербайджанский Технологический Университет**
**bayram-bagirov@rambler.ru**
**aqiladilov@gmail.com**

Корпоративная информационная сеть - это система автоматизации производственных процессов и компьютерных программ, которыми пользуются сотрудники предприятия. Основной целью сети является управление экономической деятельностью предприятия или корпорации. Факторы, влияющие на систему, были исследованы и идентифицированы для обеспечения надежной работы этой сети.

## ANALYSIS OF FACTORS AFFECTING THE RELIABILITY OF CORPORATE NETWORKS

**D.t.s., Prof. B.M.Bagirov, A.P.Adilov**
**Azerbaijan Technological University**
**bayram-bagirov@rambler.ru**
**aqiladilov@gmail.com**

A corporate information network is a system for automating production processes and computer programs used by employees of an enterprise. The main purpose of the network is to manage the economic activities of an enterprise or corporation. The factors influencing the system have been researched and identified to ensure the reliable operation of this network.

# WEB 3 TEXNOLOGIYASI

**N.Cəfərov**
**R.Q.Ramazanov**
**Azərbaycan Texniki Üniversiteti**
**rakiframazanov11@gmail.com**

İnternetin hal-hazırda insan həyatının böyük bir parçası olması heç kimə sirr deyil. Bir çox işimizi internet vasitəsilə göre bilirik. Nümünə olaraq bir çoxumuz , alış-veriş, iş və ya təhsil , boş zamanımızdan dəyərli şəkildə faydalanmaq üçün internet şəbəkələrini istifadə edirik.

Bu cür istifadəyə uyğun olaraq VEB də dayanmadan inkişaf edir. İlk olaraq veb1 olaraq bildiyimiz şəbəkə 1980-cı illərinin sonunda yarandı. Bu şəbəkə nisbətən az istifadəçiyə sahibdi.

20 ildən artıqdır ki istifadə olunan internet şəbəkəsi Veb2 istifadə olunur. Çox maraqla gözlənilən Veb3 texnologiyası bitcoin dünyası sayəsində son zamanlarda çox məhşurlaşıb. Bəs Veb3 nədir?

Web 3.0 nedir və nə iş görür?

2004-cu ildən bu zamanadək gündəmə gələn VEB 3.0 texnologiyası tam özünü unutdurmuşkən 2022-ci ildə yenidən gündəmə damğa vurdu.

Veb 3 -u texnologiya bazarına qayıtmasına səbəb isə finans dünyası oldu. Bitcoin, Etherium kimi kripto pul sistemləri blokchain vasitəsilə interneti yeni bir eraya doğru hərəkətə başlatdı.

WWW(World Wide Web) sisteminin dəyişilməsi əslində bir tərəfdəndə Metaverse ilə üst-üstə düşür. VEB 2.0 məşhurlaşmasından sonra bir çox internet nəhəngi olan marka və proqramlar yaranmağa başladı.

Google, Twitter, Facebook, YouTube, LinkedIn kimi dünya markaları buna bir misaldır.

İnternetin ikinci təkamül formasının bizə bu qədər yenilik gətirməsi bizi Web 3.0-a yol tapmağa vadar etdi. Uzun illər gündəmdə olan Web 3.0-ın nəhayət ki, yaranmağa başladığını deyə bilərik. Bu yeni internet şəbəkəsi semantik şəbəkə adlanır. Bunun mənası nədi?

Web 1.0-da əlaqələndirmə rolunu aparan serverlər idi. Kimsə ilə əlaqə saxlamaq üçün bizə server lazım idi. Web 2.0-da bu serverlər platformalarla əvəz olundu və biz yalnız qeydiyyatdan keçməklə əlaqə yarada bilərdik. Nəhayət, internet üzərindən vasitəçi olmadan kimsə ilə ünsiyyət qurmaq mümkündürmü? Burda Web 3.0 işə düşür.

Web 3.0 heç bir vasitəçi olmadan mərkəzləşdirilməmiş əlaqə yaratmağa imkan verəcək. Yenə də mərkəzləşdirilməmiş sistemə malik kriptovalyutalar son zamanların əsas mövzusuna çevrilib. Bu, Web 3.0 imkanını yenidən gündəmə gətirdi və bizdə qeyri-ixtiyari bir gözlənti yaratdı.

Proqramlar artıq istifadə olunmayacaq

Web 2.0-da "app" adlanan proqramlar Web 3.0-da "dapp" (Decentralized app - decentralized application) adlanır. Başqa sözlə, internetdə gəzmək üçün proqramlar yerinə pul qabı məntiqi ilə işləyən dapps istifadə olunacaq. Beləliklə, istehsal olunan məzmunun əvəzini yalnız istehsalçı ödəyəcək və tətbiqlər bundan heç bir qazanc əldə etməyəcək.

Web 3.0-ın Metaverse ilə uyumu

Daha yaxından baxsaq, Metaverse və Web 3.0 kifayət qədər uyğun texnologiyalardır. Web 3.0 Metaverse üçün infrastruktur olacaq. Metaverse üçün istifadə ediləcək VR cihazları Web 3.0-a keçidi sürətləndirə bilər. Açıq mənbə sistemi, etibarlı infrastruktur və yoxlanıla bilən rabitə üsulları təmin edildikdə bu proses asanlıqla əldə edilə bilər. Əslində, hər iki texnologiya internet dünyasının gələcəyidir.

VR eynəkləri və beyin sensorları haqqında; Müharibə pilotu, Tank sürücüsü, sualtı qayıq

kapitanı, bayraktar(Harop) idarəedicisi və süni intellektlə idarə olunan dağıdıcı sistemlər , əsgər itkisi olmadan döyüşəcək.

**Ədəbiyyat siyahısı:**

1. https://www.investopedia.com/web-20-web-30-08698
2. https://finance.yahoo.com/

## WEB 3 TECHNOLOGY

**N.Jafarov**
**R.G.Ramazanov**
**Azerbaijan Technical University**
**rakiframazanov11@gmail.com**

The article analyzes the new generation of technologies and their possible impact on our lives. WEB 3 technology aims to provide a one-to-one connection by freeing cryptocurrency management and user connections from third-party software. The advantages of WEB technologies are compared and analyzed.

## ВЕБ 3 технология

**Н.Джафаров**
**Р.Г.Рамазанов**
**Азербайджанский Технический Университет**
**rakiframazanov11@gmail.com**

В статье анализируются технологии нового поколения и их возможное влияние на нашу жизнь. Технология WEB 3 направлена на обеспечение прямого соединения путем освобождения управления криптовалютой и пользовательских подключений от стороннего программного обеспечения. Сравниваются и анализируются преимущества WEB-технологий.

# İNFORMASİYA TEXNOLOGİYALARI EKOLOGİYANIN MÜHAFİZƏSİNDƏ

**N.A.Sadıxova**
**Azərbaycan Texnologiya Universiteti**
**nehayet_2000@mail.ru**

Bu gün ekoloji problemlər kifayət qədər aktualdır. Çoxlu sayda ekoloji problemlər var: qlobal istiləşmə, iqlim dəyişikliyi, təbii ehtiyatların tükənməsi, tullantıların qeyri-düzgün utilizasiyası, meşələrin qırılması, ozonun təbəqələşməsi və havanın çirklənməsi. Ətraf mühitin çirklənməsi ən təhlükəli təhdidlərdən biridir. İnformasiya mərkəzlərinin ststistikasına görə çox insanlar ətraf mühitin çirklənməsini terrorizm, hərbi toqquşmalar, texnogen fəlakətlər və bəşəriyyətin üzləşdiyi digər təhdidlərdən daha təhlükəli hesab edirlər.

Müasir texnologiyalar hər birimizə sözün əsl mənasında kompüterimizdən əl çəkmədən və ya smartfonumuzu buraxmadan bir az alim olmaq və təbiətin öyrənilməsinə, mühafizəsinə mümkün töhfə vermək üçün dünyanın hər yerindəki yad adamlarla birləşməyə imkan verir.

Təmiz hava, təmiz suya ehtiyac, torpaq və meşələrə, çayların sahillərinə sərbəst keçid - bütün bunlar kiminsə eqoist maraqları ucbatından təhlükə yarada bilər.

Qeyd etmək lazımdır ki, hər bir dövlətin ekoloji siyasətinin ən mühüm tərkib hissələrindən biri müxtəlif miqyaslı və mürəkkəblik dərəcəsi müxtəlif olan ekoloji problemlərin öhdəsindən gəlməyə qadir, səriştəli mütəxəssislərin hazırlanmasıdır. Burada informasiya texnologiyalarını qeyd etmək yerinə düşər.

Müasir rəqəmsal texnologiyalar çox sürətlə inkişaf edir və bütün biznes sektorlarında mövcuddur. Məhz informasiya texnologiyaları şirkətlərə təhlükəsiz materiallardan, intellektual sistemlərdən və s. istifadəni nəzərdə tutan qabaqcıl, zərərsiz istehsal modelinə keçid etməyə kömək edir.

Müəssisələrdə, şirkətlərdə ətraf mühiti qorumaq üçün rəqəmsal transformasiyaya nail olmaqda kömək edən mütəxəssislərə daim ehtiyac var. Hər kəs mənfi iqlim dəyişikliyi ilə mübarizə strategiyalarının işlənib hazırlanmasında ixtisaslaşan mütəxəssis əldə etməyə çalışır. Müştəri ehtiyaclarına cavab verən və onların biznes proseslərinə dəstək verən rəqəmsal transformasiya proqramlarının hazırlanmasında geniş təcrübəyə əsaslanan ekspertlərin köməyi ilə təşkilat rəhbərləri üçün əsaslandırılmış investisiya qərarları qəbul etmək daha asandır.

Rəqəmsal transformasiyanın ilk növbədə şirkətlərin özləri üçün faydalı olduğuna diqqət yetirmək lazımdır, çünki onlar öz təşəbbüslərinə diqqəti cəlb edə və bununla da digər bazarlarda davamlı inkişaf texnologiyalarının inkişafına töhfə verə bilərlər.

Ətraf mühitə zərərli təsirləri azaltmaq üçün şirkətlər "advanced manufacturing" termini adını alan qabaqcıl istehsal modelinə keçməyə başladılar. Bu, yeni təhlükəsiz materialların və intellektual sistemlərin, xüsusən də robototexnika və simsiz sələqə şəbəkələrinin istifadəsi ilə xarakterizə olunur. Nümunə olaraq müəssisədəki obyektlərin vəziyyətini izləyən, qarşılıqlı əlaqədə olan simsiz əlaqə və informasiya sistemləri toplusunu göstərmək olar: avadanlıq, konveyerlər, montaj maşınları, reaktorlar və s.

Belə sistemlər real vaxt rejimində ötürücülərdən qəbul edilən verilənləri emal edir və istehsal nəzarəti ilə qarşılıqlı əlaqədə olur. Belə avtomatlaşdırılmış sistem müəssisədəki göstəricilərdə baş verən istənilən dəyişikliyə reaksiya verir, qəzalar və problemli vəziyyətlər barədə işçi heyətinə məlumat verir, avadanlıqlardan istifadənin səmərəliliyini təhlil edir, ətraf mühitin çirklənmə səviyyəsini və əmələ gələn tullantıların həcmini qiymətləndirir.

Bu gün texnologiyalar nəinki istehlakçıların və korporasiyaların maraqlarına xidmət edə bilər, həm də ətraf mühitin qorunması üçün effektiv vasitələrin yaradılmasına kömək edə bilər.

İnformasiya texnologiyalarının istifadəsi ümumi istixanaların qaz tullantılarını 15-20 faiz azalda bilər.

Dünya praktikasında belə hallər çoxdur. Məsələn, Almaniya, Danimarka və İsveçdə də bərpa olunan enerji mənbələri ilə işləyən və daha az enerji sərf edən "aktiv" evlər populyarlıq qazanır.

"Microsoft" şirkəti Yerin ekosistemində baş verən dəyişiklikləri izləmək üçün "Planetary Computing" süni intellekt platformasını istifadəyə verib. "Planet kompüteri" elmi ictimaiyyətə, ekoloqlara, təşkilatlara və hökumətlərə mövcud vəziyyəti daha dəqiq qiymətləndirmək, dəyişiklikləri izləmək, proqnozlar vermək və müvafiq olaraq ekoloji problemlərin öhdəsindən daha səmərəli şəkildə gəlmək və onların baş verməsinin qarşısını almaq üçün nəzərdə tutulub.

Microsoft həlli - süni intellektlə dəstəklənən Microsoft Azure texnologiyalarına əsaslanan bulud platformasıdır. "Planet kompüteri" kosmosda, səmada, yerdə və suda insanlardan və maşınlardan trilyonlarla informasiyanı toplayacaq. Bu böyük həcmli verilənləri təhlil etmək üçün maşın dilindən istifadə edilir.

Tullantıların azaldılması qlobal məsələdir. Hər bir dünyəvi dövlət bu sahədə müəyyən səylər göstərdiyini nümayiş etdirir.

Azərbaycanın "Xəzər kompleks ekoloji monitorinq" idarəsi, "Ekol Mühəndislik Xidmətləri"nin Ekoloji Monitorinq Departamenti rəqəmsal ötürücülərdən istifadə edərək ətraf mühitdəki müəyyən problemləri əvvəlcədən proqnozlaşdıra və həll edə bilirlər.

Müasir dünyada sərhəd tanımayan texnologiya bizə dünyanın müxtəlif yerlərindəki insanlarla bir anda birləşməyə - təbiəti birlikdə kəşf etməyə və onu qoruyub saxlamağa çalışmaq imkanı verir. Eyni zamanda hər kəs hansı layihəyə nə qədər vaxt və səy sərf etməyə hazır olduğunu özü müəyyən edə bilər.

**Ədəbiyyat siyahısı:**


1. Ефремов И.В., Солопова В.А.,Информационные технологии в сфере безопасности: практикум: учебное пособие, Оренбургский государственный университет, 2018,116 с
2. Информационные технологии в экологии, Материалы Всероссийской научно-практической конференции, посвященной Году экологии в России, г. Нижневартовск, 23 ноября, 2017, Издательство Нижневартовского государственного университета, 2018
3. Ətraf mühitin qiymətləndirilməsi (xülasə), Ölkə Tərəfdaşlıq Strategiyası: Azərbaycan, 2014-2018


## INFORMATION TECHNOLOGIES IN THE PROTECTION OF ECOLOGY


**N.A.Sadikhova**
nehayet_2000@mail.ru



Today, environmental problems are quite relevant.One of the most important components of the environmental policy of each state is the training of skilled professionals who are able to cope with environmental problems of different scales and degrees of complexity. It is worth mentioning information technologies here.


## ИНФОРМАЦИОННЫЕ ТЕХНОЛОГИИ В ЗАЩИТЕ ЭКОЛОГИИ


**Н.А.Садыхова**
nehayet_2000@mail.ru



На сегодняшний день экологические проблемы достаточно актуальны. Одной из важнейших составляющих экологической политики каждого государства является подготовка квалифицированных специалистов, способных справиться с экологическими проблемами разного масштаба и степени сложности. Здесь стоит упомянуть информационные технологии.

# İKT VA ONUN AZƏRBAYCAN IQTISADIYYATINININKIŞAFINA TƏSIRI

**J.N.Muradova**
**Azərbaycan Dövlət Neft və Sənaye Unversitentinin**
jalemuradova92@gmail.com

XX əsrin son dövrlərində İKT cəmiyyətin inkişafına təsir göstərən əsas amillərdən biri hesab olunur. Onların əhatəsinə dövlət strukturları, iqtisadi-sosial sahələr,vətandaş cəmiyyəti institutları, elm va təhsil, mədəniyyət və bütövlükdə insanların həyat tərzi daxildir. Bir çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr İKT-nin verdiyi üstünlüklərdən faydalanır.

Belə ki, hazırda dünya ölkələri ildə informasiya texnologiyalarına 1 trilyon dollardan yuxarı vəsait xərcləyir. Məhz buna görə də bütün ölkələr üçün, ümumilikdə dünya iqtisadiyyatı üçün bu xərclərin hansı dərəcədə effektiv olması xüsusi əhəmiyyətə malikdir. Qeyd edək ki, bu, coğrafi mövqeyi və inkişaf səviyyəsindən asılı olmayaraq bütün dövlətlər üçün mühüm əhəmiyyətə malikdir. İnformasiya texnologiyalarına investisiya qoyuluşlarının effektivliyinin və onların iqtisadi inkişafda xüsusi əhəmiyyəti olan informasiya sistemlərinin inkişafında rolunun qiymətləndirilməsi məqsədilə hazırda müxtəlif yanaşmalar mövcuddur. Bu yanaşmalardan biri ölkənin, regionun və ya ayrılıqda götürülmüş müəssisənin mövcud vəziyyətinin nəzərə alınması ilə ayrı-ayrı göstəricilərə və aspektlərə görə qiymətləndirilməsi üsullarıdır.

Dünya ölkələrinin inkişafında İKT-nin rolunun əhəmiyyəti ildən-ilə dəyişir. Bunu İKT-nın tətbiq istiqamətlərinin dəyişməsi və yeniləşməsində də görmək olar. ABŞ-da İKT-nin geniş tətbiq sahəsi hərbi sahə olmuşdur. Lakin illər keçdikcə mülki sahədə İKT-nin tətbiqi və onun inkişaf etdirilməsi üçün büdcə xərcləri artırılıb və ümumi iqtisadi inkişafda yüksək nəticələrin əldə olunmasının təməli qoyulub.Ölkəmizdə informasiya texnologiyaları sahəsi prioritet sahə kimi qəbul olunmuşdur. Prezident İlham Əliyev bildirmişdir ki, informasiya-kommunikasiya texnologiyalarının gələcək inkişafında çox önəmli rolu olacaqdır. Çünki bütün dünyanın elmi-texniki tərəqqisi bu istiqamətdə inkişaf edəcəkdir.

İKT-nin iqtisadiyyatda tətbiqi yeni iqtisadiyyatın yaranmasına, onun qloballaşmasına, təsiredici faktorların tərkibinin dəyişməsinə, iqtisadiyyatın inkişaf amillərinin daha müasir, geniş müstəvini əhatə etməsinə səbəb olmuşdur. Bugünkü iqtisadiyyat məhz İKT-nin təsiri və tətbiqi nəticəsində öz sələflərindən ən yaxşı xüsusiyyətləri götürərək yeni, informasiya əsaslı bazada inkişaf etməyə başlayıb. İKT-nin tətbiqi müasir dünyanın inkişafında material faktorların rolunu dəyişir. Əgər ənənəvi cəmiyyətdə başlıca mövqe material dəyərlilərin istehsalı və bölüşdürülməsi, eləcə də bu proseslərlə əlaqədar münasibətlər idisə, yeni cəmiyyətdə birinci yerə informasiyanın yığılması emalı və ötürülməsi çıxır.

Beləliklə, iqtisadi proseslərin material dəyərlilərə yönəlmiş istiqaməti, informasiyalaşmış inkişaf istiqamətinə yönəlir. Müasir dövrdə İKT-nin tətbiqi hər bir müəssisə rəhbərinin qarşısında vəsaitlərin istehsalın artırılmasına və ya informasiya sistemlərinin yaradılmasına qoyulması problemini meydana çıxarır. Çünki bu gün istənilən müəssisə bazarda öz yerini saxlamaq üçün effektiv işləyən informasiya sisteminə malik olmalıdır.

Məhz İKT-nin tətbiqi ilə yaradılmış effektiv informasiya sistemləri müəssisə daxilində avtomatlaşdırılmış sistemlərlə idarəetmə və istehsalı təşkil etməklə, həm də xarici informasiya resurslarına yol açır. Hazırda hər bir müəssisə üçün məhsul bazarı, rəqiblərinin maliyyə vəziyyəti, dünya bazarı göstəricilərinin dinamikası haqqında məlumatlara malik olmadan mövcud təsərrüfat məsələlərini həll etmək mümkün deyil. Azərbaycanda da bu istiqamətdə olduqca əhəmiyyətli işlər görülüb və görülməkdədir. Ölkədə "elektron hökumət" quruculuğu sürətlə inkişaf etdirilir. Hər bir dövlət orqanı özünün elektron xidmətlərinin sayını və növlərini günü-gündən artırmaqdadır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanan sərəncamla Elektron Hökumət üzrə Dövlət Agentliyi yaradılıb. Agentlik də bu işləri mərkəzləşdirilmiş qaydada həyata keçirəcək və onların səmərəliliyini daha da artıracaq. Ölkədə innovasiyalı iqtisadiyyatın yaradılması, iqtisadiyyatda İKT-nin rolunun artırılması üçün çoxşaxəli tədbirlər həyata keçirilir.

İKT sahəsi prioritet sahə kimi irəli sürülərək onun daha da inkişaf etdirilməsi qarşıya ən öndə məqsəd kimi qoyulub. Elə bu səbəbdəndir ki, dövlət başçısı Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi nəzdində İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun yaradılması üçün sərəncam imzalayıb. Fond ölkədə İKT məhsullarının istehsalını stimullaşdıracaq, orta və kiçik sahibkarlara uzunmüddətli və azfaizli kreditlər verəcək.

Dünya təcrübəsi göstərir ki, İKT-dan geniş istifadə edilməsi dövlətin hərtərəfli inkişafına, cəmiyyətin sosial-iqtisadi vəziyyətinə xidmət edərək, mövcud problemlərin həll edilməsi və yoxsulluğun azaldılması üçün əsaslı vasitələrdən hesab olunur. Son dövrlərdə Azərbaycanda İKT-dən istifadə sahəsində müyyən işlər görülmüş və bir sıra sferalarda bu texnologiyaların tətbiq edilməsində ciddi nailiyyətlər qazanılmışdır. Ölkəmizdə telekommunikasiya infrastrukturunun modernləşdirilməsi, ən yeni texnologiyaların tətbiqi üzrə ciddi işlər görülməkdədir. Yerli şirkətlərin dünyanın ayrı-ayrı ölkələrinin İKT şirkətləri ilə əmakdaşlığı nəticəsində bu sahədəki beynəlxalq təcrübə ölkəmizə gətirilir. Artıq Azərbaycan şirkətləri həm regionun İKT bazarında, həm də qlobal bazarda iştirak edirlər. Azərbaycanda bir çox fəaliyyət göstərən şirkətlər uğur qazanaraq proqram təminatı məhsulları bazarında fəaliyyət göstərir. Bunlara AtaTexnologiyanı misal göstərmək olar. "AtaTexnologiya" İKT-nin əsas sahələrindən biri olan proqram təminatı məhsulları bazarında fəaliyyat göstərir. Proqram təminatı mahsullarına gəldikdə burada həddindən artıq istiqamətlər var. Fəaliyyati ERP (Enterprise Resource Planning) sistemləri sahəsini əhatə edir. ERP–hər hansı bir müəssisənin biznes proseslərini avtomatlaşdıran bir sistemdir. Burada anbar uçotu, mühasibatlıq, insan resurslarının idarə olunması, tədarük, satış prosesləri, servis və.s tam bir sistem vasitəsilə avtomatlaşdırılır. "AtaTexnologiya" MMC-nin təklif etdiyi ERP məhsulları Türkiyənin "Netsis" şirkətinin məhsullarıdır. Bu məhsul tam Azarbaycana uyğunlaşdırılıb, poqram Azarbaycan dilində, Azarbaycan qanunvericiliyinə uyğun hazırlanmışdır.

Hal-hazırda şirkət Türkiyənin "Yaz" şirkətinin Azərbaycanda rəsmi nümayəndəsi olaraq banklar üçün "marbas ii" avtomatlaşdırılmış bank əməliyyat sistemini, müəssisə va təşkilatlar üçün isə Netsis Enterprise Resourse Planning "Red Code" proqram təminatını təklif edir. Həmçinin, "AtaTexnologiya" MMC müəssisələr üçün lazım olan bütün növ kompüter və İT avadanlıqlarının satışını və xidmətlərin göstərilməsini həyatakeçirir.

**Ədəbiyyat siyahısı:**

1. Electronic Commerce: Theory and Practice (Studies in Computational Intelligence), Makoto Yokoo, Springer,2008
2. Karimov S.Q., İnformasiya sistemlari, Bakı,200
3. https://president.az ›
4. unec.edu.az
5. https://www.economy.gov.az
6. iqtisadiislahat.org

## ИКТ И ЕГО ВЛИЯНИЕ НА РАЗВИТИЕ ЭКОНОМИКИ АЗЕРБАЙДЖАНА

**Ж.Н.Мурадова**
**Азербайджанский Государственный Университет Нефти и Промышленности**
jalemuradova92@gmail.com

Широкое использование ИКТ в реальных секторах экономики в наше время позволяет домохозяйствам трансформировать свою рыночную инфраструктуру (финансы, торговля, бизнес и т.д.)восновы информационных технологий. Это позволит создать технологические базы, электронную коммерцию, информационные и маркетинговые сети среды электронного бизнеса.

## ICT AND ITS IMPACT ON THE DEVELOPMENT OF THE AZERBAIJANI ECONOMY

**Z.N.Muradova**
**Azerbaijan State University of Oil and Industry**
jalemuradova92@gmail.com

The widespread use of ICT in the real sectors of the economy in modern times allows households to transform their market infrastructure (finance, trade, business, etc.) into the basics of information technology.This will enable the creation of technological bases, e-commerce, information and marketing networks of the e-business environment.

# KORPORATİV MÜHİTDƏ SİEM TEXNOLOGİYASININ BEYNƏLXALQ STANDARTLARLA GÜCLƏNDİRİLMİŞ "BANKLARDA İNFORMASİYA TƏHLÜKƏSİZLİYİNİN İDARƏ EDİLMƏSİ QAYDASI"NDA ROLU

**A.V.Ağayev**
**Azərbaycan Texnologiya Universiteti**
**abdulhuseyn.aghayev@gmail.com**

Təhlükəsizlik Məlumatları və Hadisələrin İdarə edilməsi sistemi (SIEM) təhdidləri və ya hadisələri aşkar etmək üçün təhlükəsizliklə bağlı məlumatların mərkəzləşdirilmiş şəkildə toplanmasına cavabdehdir. Beləliklə, o, çoxsaylı loq hadisələrini əlaqələndirərək real vaxt və ya tarixi hadisələr üzrə təhlükəsizlik analitikası imkanlarını təmin edir. Əlavə olaraq, SIEM, hadisə məlumatlarının uzun müddətli saxlanması ilə loq idarəetmə imkanlarını təmin edir.

Ümumiyyətlə, SIEM-lər idarə olunan infrastrukturun yaratdığı hadisələri toplamaq, koreliyasiya etmək, saxlamaq və əlaqələndirmək qabiliyyətinə malikdir [1]. Onlar müasir təhlükəsizlik əməliyyatları mərkəzləri üçün mərkəzi platformanı təşkil edir, çünki onlar çoxsaylı sensorlardan hadisələri toplayır [2,3]. Bu əsas imkanlardan başqa, adətən SIEM-lərin bazardakı müxtəlif mövqelərini əks etdirən mövcud sistemlər arasında çoxlu fərqlər var.

**2. SIEM həlləri**

Təhlükəsizlik Məlumatı və Hadisələrin İdarə Edilməsi (SIEM) sistemləri administratorlara təhlükəsizlik siyasətlərini tərtib etməyə və müxtəlif mənbələrdən hadisələri idarə etməyə kömək etmək üçün hazırlanmışdır. Ümumiyyətlə, sadə SIEM bir-birindən müstəqil işləyə bilən ayrı-ayrı bloklardan (məsələn, mənbə cihazı, loqların toplanması, təhlilin normallaşdırılması, qaydalar mühərriki, loqların saxlanması, hadisələrin monitorinqi) ibarətdir, lakin SIEM hamısı birlikdə işləmədən istənilən effekti verməyəcək. Şəkil 1 normal SIEM həllinin əsas komponentlərini göstərir:




**Şəkil 1. SIEM-in ilkin komponentləri**

**3. SIEM texnologiyasının beynəlxalq standartlarda yeri və Azərbaycan Respublikası Mərkəzi Bankının "Bankda informasiya təhlükəsizliyi idarə edilməsi qaydasında" yeri**

İlk öncəNIST tərəfindən qoyulmuş 800-53 standartlarına necə cavab verdiyini və informasiya təhlükəsizliyi həllərində nə kimi xidmətləri ehtiva etdiyinə diqqət yetirək:

"NIST 800-53 standartları və təlimatları intuitiv, prioritetləşdirilmiş çərçivədə tərtib edilmiş təhlükəsizlik nəzarətlərinin hərtərəfli dəstini təmin edir. Hər bir federal agentlik CISO (İnformasiya Təhlükəsizliyi Mütəxəssisi) və onun komandaları hansı nəzarətin mövcud olduğunu və agentliklərin cavabdeh olduqları əsas ölçülərə qarşı necə fəaliyyət göstərdiklərini seçmək, həyata keçirmək, işlətmək və hesabat vermək üçün çoxlu vaxt sərf edirlər. NIST SP 800-137-də (ISCM) son təlimatlar qeyd etmək, təhlil etmək, xəbərdarlıq etmək, cavab vermək və hesabat vermək üçün 72 saatdan az ümumi dövriyyə müddətini tövsiyə edir. Giriş məlumatları üçün məcburi xüsusi bir arxiv dövrü yoxdur, buna görə də əksər təşkilatlar hadisələrin məhkəmə araşdırması və audit məqsədləri

üçün uzun müddət saxlayırlar. Daha yeni saxlama qaydaları minimum 36 ay nəzərdə tutur. Bu yanaşmanın çətinlikləri çoxdur, ən kritik olanı burada vurğulanır.

1. Axtarış və daxil olmaq çətin və çox vaxt səmərəsizdir, çünki indeksləşdirmə və məlumat konfiqurasiyası azdır.

2. Axtarış terminləri çox konkret olmalıdır ki, "naməlum" fəaliyyət nümunələrini tutmasın.

3. Nümunələrin və anormallıqların müəyyən edilməsini məhdudlaşdıran yeni və mövcud məlumatlar arasında real vaxt korrelyasiyası yoxdur.

4. Zərərli davranış kontekstində hadisələrin zəncirlənməsi çətindir.

5. Hadisələrin aşkarlanması və müdaxiləsi günlər, hətta həftələr çəkə bilər.

6. Effektivliyi və birliyi yoxlamaq üçün fəaliyyətin xəritəsini çəkmək olduqca çətindir.

7. Korrelyasiya CPU sürətində (saniyədə milyonlarla dəfə) baş verir, axtarışlar zaman intervallarına görə baş verir (yəni 1 dəqiqə, 30 dəqiqə, gündəlik, həftəlik və s.).

İndi isə bizim üçün daha çox əhəmiyyət kəsb edən və Mərkəzi Bank tərəfindən də istinad edilən İSO 2700X standartlarına əsasən SIEM-in əhəmiyyətinə diqqət yetirək. Yəni, qəbul edilmiş qaydanın ilk hissəsində də (Ümumi müddəalar) qeyd edildiyi kimi, bu Qayda "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 38.3-cü maddəsinə uyğun olaraq hazırlanmış və Beynəlxalq Standartlaşdırma Təşkilatının ISO/IEC 2700X standartlarının tələbləri nəzərə alınmaqla Azərbaycan Respublikasında fəaliyyət göstərən banklarda və xarici bankların yerli filiallarında informasiya təhlükəsizliyinə dair minimum tələbləri müəyyən edir . Yenilənməzdən öncə informasiya təhlükəsizliyinin idarə edilməsinə dair anlayışlarda bəzi məlumatlar yox idi ki, bunlardan biri də auditanlayışıdır. Ancaq, daha da önəmlisi informasiya təhlükəsizliyinin ən əsas 3 komponentlərinin də bu anlayışların arasında özünü əks etdirməsi sevindirici haldır.

Belə nəticəyə gəlmək olar ki, kənd təsərrüfatında rəqəmsal sistem əmək məhsuldarlığının artmasını və istehsal xərclərinin azalmasını təmin edir. Belə rəqəmsal texnologiyalardan (yeni texnika və texnologiyalar, elektron ticarət, süni intellekt, böyük həcmli informasiyaların təhlili və s.) istifadə ilə istehsalın təşkili müasir üsullarla təşkil olunur. Dəyər zənciri boyunca informasiyaları, elektron məlumatları toplayan, emal və təhlil edən, həmçinin bölüşdürən alətlər rəqəmsal kənd təsərrüfatının formalaşmasında çox mühüm rol oynayır. Bu prosesdə xüsusi diqqət, kənd təsərrüfatı məhsullarının dəyər zəncirində iştirak edən tərəflərin istehsalı yaxşılaşdırmaq üçün vahid sistemə inteqrasiya edilmiş qabaqcıl və yeni texnologiyalardan istifadəsinə yetirilir.

Nəzərə almalıyıq ki, rəqəmsal kənd təsərrüfatının inkişafı məhsul istehsalı üsullarını dəyişdirmək gücünə malikdir. Bu isə o deməkdir ki, əgər rəqəmsal texnologialardan istifadə geniş yayılsa bu zaman dəyər zənciri boyunca effektiv nəticələr almaq olar. Bundan əlavə olaraq kənd təsərrüfatında mobil və digər ağıllı texnologiyaların yayılması ilə kənd təsərrüfatı strukturlarının informasiyalara, istehsal amillərinə, həmçinin bazarlara çıxış imkanları daha da yaxşılaşar. Nəticədə isə, istehsal həcmi artar, məhsuldarlıq yüksələr, təhcizat sistemi optimallaşar və əməliyyat xərcləri əhəmiyyətli dərəcədə azalar.

Rəqəmsal texnologiyaların köməkliyi ilə lazımı informasiyaların daha tez və dəqiq şəkildə fərqli mənbələrdən toplanmasını, həmin məlumatların müvafiq qərarların qəbulu üçün dəqiq təhlil edilməsini təmin etmək olar. Belə qərarların qəbulunu robototexnikavə qabaqcıl ağıllı texnologiyalar vasitəsi ilə daha yüksək dəqiqliklə həyata keçirtmək mümkündür.

Rəqəmsal hənd təsərrüfatı siteminin inkişafı ilə iqlim dəyişikliyinin izlənməsi, risklərin azaldılması, kənd təsərrrüfatı bitkilərinin və heyvanların məhsuldarlığının artırılması, məhsulların sahələrdən istehlakçıya çatdırılması üzrə təhcizat zəncirinin sadələşdirilməsi, alış və satış üzrə çəkilən əməliyyat xərclərinin azaldılması, ixtisaslı işçi qüvvəsinin artırılması və qıtlığının aradan qaldırılması,istehsalçıları lazimi və zəruri məlumatlarla vaxtında təmin edilməsi, sahə işlərinin vaxtında planlaş-dırırlması, resursların və elmi cəhətdən əsaslandırılmış yanaşmalardan effektiv şəkildə istifadə edilməsivə bu vasitə ilə xərclərin azaldılması hədəflənir.

Rəqəmsallaşdırma öz mənbələrindən istifadə edərək elektron genişləndirmə formatında istehsal strukturlarına müəyyən vaxt rejimində tövsiyyələr verə bilir. Hava haqqında informasiya, peyk və dronlardan alınan informasiya, torpaq sensorundan alınan informasiyalar və s. rəqəmsallaşdırmanın mənbələrinə misal kimi göstərilə bilər.

Rəqəmsal texnologiyalardan kənd təsərrüfatında istifadə həmçinin, istehsalın optimallaşdırırlmasına, rəqəmsal ödəniş sistemlərinin inkişafına, elektron ticarət platformalarının daha da genişlənməsinə, rəqəmsal texnologiyalarla bağlı uğursuzluqların aradan qaldırılmasına və ya minimuma endirilməsinə, dəyər zənciri boyunca əmələ gəlmiş xərclərin azaldılmasını təmin etməyə imkan yaradır. Rəqəmsal texnologiyalar aqrar sahələrin bütün seqmentlərinə nüfuz edir. Bununla da, aqrar sferadakı bütün fəaliyyət növlərində innovativ texnologiyalardan maksimum istifadə edilməsini zəruri hala çevirir.

Dolayısıyla belə nəticəyə gəmək olar ki, kənd təsərrüfatı sektorunda rəqəmsallığın yayılması və

dəstəklənməsi son dərəcə vacibdir. Buna görə də dəqiq və uyğun məlumatların doğru zamanda, uyğun formatda və ən uyğun ünsiyyət vasitəsindən istifadə etməklə təqdim olunması çox vacibdir. Beləliklə də ötürülən məlumatların, insanların həyatlarında və dolanışığında önəmli bir təsiri olacaqdır.

Azərbaycanın kənd təsərrüfatı sahəsində önəmli bir potensiala malikdir. İnformasiya və kommunikasiya texnologiyaları dəyər zəncirinin bütün mərhələlərində əkinçiliyə inteqrasiya olunan bu potensialdan maksimum dərəcədə faydalanmaq lazımdır. Bu potensialı artırmaq üçün əkinçilik sektorunda rəqəmsallaşmanın yayılması və dəstəklənməsi son dərəcə vacibdir.

**Ədəbiyyat siyahısı:**

1.Azərbaycan Respublikası Prezidentinin "Rəqəmsal transformasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2021-cil 27 aprel tarixli Fərmanı

2. Alıyev İ.H., Soltalı İ.Q. Aqrar sahənin modernləşməsi və rəqabətqabiliyyətliliyinin əmin olunması. Bakı, "Avropa", 2017, 428 s

3. Астахова Т.Н., Колбанев М.О., Шамин А.А. Децентрализованная цифровая платформа сельского хозяйства // Вестник НГИЭИ. 2018, №. 6 (85). С. 5-14

4. Ванюшина О.И. Цифровая трансформация сельского хозяйства России: состояние и перспективы // Цифровая экономика: проблемы и перспективы развития. 2019,с.87-93

5. Josep Mestres Domènech. The challenges facing the State in the new digital economy. https://www.caixabankresearch.com/en/economics-markets/public-sector/challenges-facingstate-newdigital-economy. July 9, 2015

## НЕОБХОДИМОСТЬ ИСПОЛЬЗОВАНИЯ ЦИФРОВЫХ ТЕХНОЛОГИЙ В РАЗВИТИИ АГРОБИЗНЕСА

**С.И.Мамедова**
**Азербайджанский Государственный Аграрный Университет**
**mammadovasevindj9@gmail.com**

Применение цифровых технологий в агропромышленном комплексе позволяет повысить производительность и качество в различных сферах производства, снизить потери, принять более взвешенные решения и повысить экономическую эффективность.В связи с этим применение цифровых технологий в агробизнесе имеет существенные преимущества, но его реализация требует существенных изменений в системе управления аграрной экономикой.Стимулы очень важны для цифровизации. Эти стимулы включают текущий уровень конкуренции, который способствует повышению производительности труда, доступ к цифровым технологиям и наличие финансовых ресурсов для инвестирования в цифровые технологии. С учетом этих факторов государство поддерживает экономическую активность и стремится ускорить внедрение цифровых технологий.

## THE NEED TO USE DIGITAL TECHNOLOGIES IN AGRIBUSINESS DEVELOPMENT

**S.I.Mammadova**
**Azerbaijan State Agrarian University**
**mammadovasevindj9@gmail.com**

The use of digital technologies in the agro-industrial complex allows to increase productivity and quality in various areas of production, reduce losses, make more informed decisions and increase economic efficiency. In this regard, the use of digital technologies in agribusiness has significant advantages, but its implementation requires significant changes in the management system of the agricultural economy. Incentives are very important for digitalization. These

incentives include the current level of competition that promotes productivity, access to digital technologies, and the availability of financial resources to invest in digital technologies. Given these factors, the state supports economic activity and seeks to accelerate the adoption of digital technologies.

# ACCESS PROQRAMI VASITƏSI ILƏ VERILƏNLƏR BAZASININ ŞƏBƏKƏ RESURSLARINDA YERLƏŞDIRILMƏSI VƏ ISTIFADƏSI

**Y.N.Qələndərli**
**Azərbaycan Texnologiya Universiteti.**
**ygalandarli@gmail.com**

Microsoft Access müxtəlif növ informasiyanı toplamağa və sistemləşdirməyə, verilmiş şərtlərə əsasən obyektlərin axtarışı və sıralanmasını təşkil etməyə, verilənlərin daxil edilməsi üçün formalar tərtib etməyə və hesabatlar hazırlamağa imkan verən tətbiqi proqramdır.Access verilənlər bazası proqramlarını inkişaf etdirmək üçün zəngin xüsusiyyətlərə malik platforma təqdim edir. Verilənlər bazası proqramı həm məlumatların saxlanması və idarə edilməsi üsulunu, həm də biznes tapşırıqlarının məntiqinə (tətbiq məntiqi) əməl edən istifadəçi interfeysini təmin edən kompüter proqramıdır. Bu məqalədə əsas yerləşdirmə planlaması, qablaşdırma və imzalama, verilənlər bazası proqramlarının yerləşdirilməsi və Access Runtime mühiti müzakirə olunur. Microsoft Access geniş diapazonda informasiyanın idarəetmə effektivliyini artıran güclü tətbiqi proqramdır. Access həm sadə həm də mürəkkəb verilənlər bazası ilə işləməyə imkan verir. Bu proqram relyasiya verilənlər bazası (VB) ilə işləyir. Relyasiya VB-da müxtəlif tipli verilənlər cədvəllərdə saxlanılır və bu cədvəllər arasındakı əlaqələr yaradılır. Nəticədə VB-da müxtəlif tipli dəyişənlərlə işləmək mümkün olur.

Ehtiyaclarımızdan və resurs mövcudluğundan asılı olaraq Access verilənlər bazasını paylaşmağın bir neçə yolu var. Bu yazıda biz mövcud variantlara, hər birinin faydalarına və əlavə məlumat üçün resurslara nəzər salacağıq.Verilənlər bazası – bir yerdə saxlanılan, mərkəzləşdirilmiş idarə olunan, bir-biri ilə qarşılıqlı əlaqəli vəmüxtəlif istifadəçilər tərəfindən müxtəlif məqsədlərlə istifadəedilən fayllar toplusudur. Verilənlər bazasında saxlanılan verilənlər adətən konkret tətbiq sahəsinə aid olur.Son zamanlar verilənlər bazasının daha geniş yayılmış növlərindən biri də əlaqəli verilənlər bazasıdır. Bu verilənlər bazasında informasiya bir və ya bir neçə cədvəllərdə saxlanılır. Cədvəllər arasında əlaqə bir və ya bir neçə uyğun gələn sahələr vasitəsilə həyata keçirilir. Əlaqəli verilənlər bazasında cədvəlin hər bir sətri unikaldır. Unikallığı təmin etmək üçün bir və ya bir neçə sahələri işə salan açarlardan istifadə olunur. Açarlar nizamlanmış şəklində saxlanılır ki, bu da axtarış zamanı cədvəl yazılarına birbaşa buraxılışı təmin edir.

Verilənlər bazası proqramları zamanla dəyişir. Eyni zamanda istifadəçilər, şəbəkə mühiti, ötürmə qabiliyyəti, gecikmə, verilənlər bazası ölçüsü, pik istifadə müddəti və gözlənilən artım templəri də daxil olmaqla tələb və performansa təsir edən bir çox amillər dəyişir. Verilənlər bazası həlli uğurlu olarsa, çox güman ki, təkamülə ehtiyac olacaq. Xoşbəxtlikdən, Access sadədən daha mürəkkəbə doğru təkamül yoluna malikdir və bunun effektiv şəkildə miqyası müəyyən müddətə çata bilər.

Biz məlumatların idarə edilməsini və tətbiq məntiqini bir faylda birləşdirən Access proqramı yarada bilərik. Bu, Access-də standart proqram strukturudur. Məlumatların idarə edilməsi və tətbiq məntiqinin bir faylda birləşdirilməsi ən sadə yerləşdirmə metodunu təmin edir, lakin bu üsul yalnız

bir neçə nəfərin eyni vaxtda tətbiqdən istifadə etdiyi və müəyyən risk ehtiva etdiyi halda daha yaxşı işləyir. Məsələn, istifadəçi proqram faylını istəmədən silməklə və ya zədələməklə məlumat itkisinə səbəb ola bilər. Əksər hallarda, məlumatların idarə edilməsi və tətbiq məntiqini ayırmalıyıq. Bu, performansı və etibarlılığı artırmağa kömək edir.Verilənləri və məntiqi ayırmağın bir yolu Database Access əmrindən istifadə etməkdir. Bu əmr verilənlər bazası proqramını iki Access faylına bölür: biri məntiq üçün (ön hissə) və biri məlumat üçün (arxa hissə). Məlumatların tamlığı və təhlükəsizliyi üçün əgər verilənləri məntiqi bir faylda birləşdirsək verilənlər proqram məntiqi ilə eyni risklərə məruz qalır. Ayrı-ayrı məntiq və məlumat fayllarından istifadə edən Access proqramı şəbəkə qovluqlarında NTFS təhlükəsizlik xüsusiyyətlərindən istifadə etməklə məlumatların bütövlüyünü və təhlükəsizliyini qorumağa kömək edə bilər.

Tətbiqin əlavə təhlükəsizlik seçimlərini tələb edə bilərik. Məsələn, hansı istifadəçilərin xüsusi məlumatlara girişinə nəzarət etmək imkanı. Bu halda biz proqram məlumatlarımızı saxlamaq və idarə etmək üçün SQL Server və ya SharePoint-dən istifadə edə və proqram məntiqini təmin etmək üçün Access-dən istifadə edə bilərik.

Əgər birdən çox istifadəçi proqramdan eyni vaxtda şəbəkə üzərindən istifadə etməli olacaqsa, verilənlər və məntiq bir faylda birləşdirilərsə, məlumatların korlanması ehtimalı daha yüksəkdir. Bundan əlavə, məlumatı və məntiqi bir Access faylında birləşdirsək, Access-in yaratdığı şəbəkə trafikini optimallaşdıra bilmərik. Əgər birdən çox istifadəçi eyni vaxtda proqramımızı şəbəkə üzərindən istifadə edəcəksə, biz iki və ya daha çox Access faylından istifadə etməklə, ya da verilənlər üçün verilənlər bazası server məhsulundan və proqram məntiqi üçün Access-dən istifadə etməklə məlumatları və məntiqi ayırmalıq.

## РАЗВЕРТЫВАНИЕ И ИСПОЛЬЗОВАНИЕ БАЗ ДАННЫХ НА СЕТЕВЫХ РЕСУРСАХ ЧЕРЕЗ ACCESS.

**Ю.Н.Галендерли**
**Азербайджанский Технологический Университет**
**ygalandarli@gmail.com**

Принимая все это во внимание, мы можем ясно видеть, что Access - лучшая программа для развертывания и использования баз данных на сетевых ресурсах. VBIS Access 2010 - это система управления реляционными базами данных. Access дает пользователю максимальную свободу путем указания типа данных.

## DEPLOYMENT AND USE OF DATABASES ON NETWORK RESOURCES THROUGH ACCESS

**Y.N.Galandarli**
**Azerbaijan Technological University**
**ygalandarli@gmail.com**

Taking all this into account, we can clearly see that Access is the best program for deploying and using databases on network resources.VBIS Access 2010 is a relational database management system. Access gives the user maximum freedom by specifying the type of data.

# MATHCAD PROQRAM PAKETI NƏDİR?

**Ç.Ç.Adilzadə**
**Azərbaycan Texnologiya Universiteti**
cinareadilzade@gmail.com

Mathcad proqramı riyazi proqram paketi olub, 1988-ci ildə Math Soft Inc firması tərəfindən riyazi məsələlərin ədədi üsullarla həlli üçün yaradılmışdır. Proqram 1994-cü ildə Maple paketinin simvolik hesablama vasitələrinin Mathcad paketinə inteqrasiyası və paket üzərində edilən təkmilləşmələr nəticəsində o, bu gün geniş istifadəçi kütləsinin: şagird, tələbə, müəllim, elmi işçi, mühəndis texnoloqların, iqtisadçı menecerlərin və s.əməyini avtomatlaşdıran və yüngülləşdirən əvəzolunmaz bir vasitədir. Digər riyazi proqram paketlərindən fərqli olaraq, paket WYSIWYG (What You SeeIs What You Get1) prinsipi əsasında yaradılmışdır.

Mathcad 12 Professional paketi inteqral sistem olub, özündə hesablama prosessoru ilə yanaşı mətn, düstur, qrafiki redaktorları birləşdirir. Bunun nəticəsində proqramdan hesablama məqsədilə yanaşı, çap məhsullarının, electron kitabların və hipermətn sənədlərin yaradılmasında geniş istifadə olunur. Bu proqramla nəinki hesablamalar aparmaq, həmçinin teorem və lemmalar isbat etmək olar.

Mathcad Professional 12 bütün Windows əlavələri kimi Baş menyunun Proqramlar bölməsinin Mathsoft Apps proqram qrupunun Mathcad Professional 12 əmrini yerinə yetirməklə və ya kursoru İşçi stolda yerləşən proqram yarlığının üzərinə qoyub siçanın sol düyməsini iki dəfə sıxmaqla yüklənir. Bu zaman ilk öncə ekranda proqramın «loqotipi», sonra isə əsas interfeys pəncərəsi açılır.




**şək.1.1**

Mathcad Professional 12 olduqca sadə və Windows əlavələri üçün vahid standart interfeysə malikdir. Belə ki, proqramın əsas interfeys pəncərəsi aşağıdakı elementlərdən ibarətdir:

Başlıq sətiri; Menyu sətiri, Xüsusi alətlər panelləri, İşçi sahə; Cari vəziyyət sətiri.

Başlıq sətiri vasitəsilə proqramın interfeys pəncərəsini bağlamaq, bütün ekran boyu böyütmək və ya normal ölçüsünə nail olmaq, qapamaq və ekranda yerini dəyişmək olar.

Proqramın «intellektual» imkanları menyu sətiri və alətlər panelləri vasitəsilə reallaşır. Menyu sətiri 9 ədəd menyudan: File (Fayl), Edit (Redaktə), View (Görünüş), İnsert (Daxiletmə), Format(Format), Math (Riyazi), Symbolics (Simvollar) Window (Pəncərə), Help (Arayış) menyularından ibarətdir. Hər bir menyu əmrlər sistemindən ibarətdir. Bəzi menyular iyerarxik sistemə malikdir. Belə ki, menyunun  işarəsinə malik əmrini yerinə yetirdikdə altmenyu açılır. Bundan əlavə, paket kontekst menyu sisteminə də malikdir.

Konkret alətlər panelinin ekranda əks olunması View menyusunun Toolbars əmrini yerinə

yetirdikdə açılan altmenyuda müvafiq alətlər panelini aktivləşdirməklə tənzimlənir. Xüsusi panellərin ekranda əks olunması Math panelinin müvafiq alətləri vasitəsilə də təmin edilir. Xüsusi panellər «sürüşkən» olub, ekranda istənilən yerdə yerləşdirilə bilər. Bunun üçün kursoru panelin başlıq sətirinin üzərinə qoyub siçanın sol düyməsini sıxmaqla hərəkət etdirmək lazımdır. Siçanın sıxılmış düyməsini buraxdıqda alətlər paneli ekranda yeni yerdə bərqərar olacaqdır. Alətlər panelinin □ düyməsini sıxmaqla alətlər panelini gizlətmək olar. Alətlər panelinin ekrandan «gizlədilməsi» həmçinin kontekst menyunun Hide əmri vasiləsilə də təmin olunur. Qeyd edək ki, Standart və Formatlaşma panelinin alətlərinin sayını istifadəçi öz tələbatına uyğun tənzimləyə bilər. Belə ki, istifadəçi kursoru panelin üzərinə qoyub, siçanın sağ düyməsini sıxdıqda açılan kontekst menyunun Customize əmrini yerinə yetirməklə açılan dialoq pəncərəsində (şək. 1.2) yeni alətlər əlavə edə bilər və ya qeyd olunmuş aləti paneldən ləğv edə bilər.




**şək. 1.2**

Proqramın interfeys pəncərəsinin işçi sahəsində sənəd pəncərəsi əks olunur. Proqram yükləndikdə adətən, ilk öncə sənəd pəncərəsinin mərkəzində istifadəçini proqramın imkanları ilə tanış etmək üçün nəzərdə tutulmuş Tip of Day dialoq pəncərələr sisteminin ilk pəncərəsi əks olunur.

İstifadəçi proqram haqqında tanış olmaq üçün Next düyməsini, dialoq pəncərəsini bağlamaq üçün isə Close düyməsini sıxmalıdır. Proqram informasiyaya müxtəlif miqyasda baxmağı təmin edir, bu halda View →Zoom əmrini yerinə yetirib, açılan pəncərədə miqyas vahidini seçmək lazımdır. Cari vəziyyət sətiri isə yardımçı informasiyanın əks olunmasına xidmət edir və onun ekranda əks olunması View →Status Bar əmri vasitəsilə tənzimlənir.

Mathcad 12 Professional riyazi proqramın əsas hesablama obyekti riyazi ifadələrdir. Riyazi ifadələr dəyişənlər, sabitlər və funksiyalardan istifadə olunur. Onlar sənədə klaviaturadan və ya alətlər panelindən daxil edilir. Mathcadda bu məqsədlə Evalution, Matrix, Calculus, Calculator, Boolean alətlər panelləri nəzərdə tutulmuşdur.

Dəyişənin adına ədəd və ya ifadə mənimsətmək üçün dəyişəni sənədə daxil etdikdən sonra Calculator və ya Evalution alətlər panelərlinin := alətini və ya «Shift+:» düyməsini sıxmaq lazımdır. Dəyişənin adı həmişə hərflə başlamalıdır və bunun üçün riyaziyyatda qəbul olunduğu kimi əsasən latın və ya yunan əlifbasından istifadə olunur. Qeyd edək ki, paket dəyişəni onun adındakı böyük və kiçik hərflərə, hərfin şriftinə görə fərqləndirir. Belə ki, paket M, m , m və m dəyişənlərini müxtəlif dəyişən kimi qəbul edir. Dəyişənin aldığı qiymətlərə uyğun olaraq onlar ədədi, sətir, indeksli, diskret və s. tiplərə bölünürlər. İndeksli dəyişənlərə massivlər aiddir. Diskret dəyişənlər müəyyən addımla artan qiymətlər alır. Dəyişənlər həmçinin ölçü vahidinə də malik ola bilərlər.

Paketdə həmçinin bir sıra sistem dəyişənləri, o cümlədən Tol, Ctol4, Origin5 və s. nəzərdə tutulmuşdur. Mathcad həqiqi, kompleks, tam, rasional ədədlərlə işləməyi təmin edir. Həqiqi ədədlər müxtəlif formatda: sürüşkən vergüllü, mühəndis, eksponensial formatda daxil oluna bilər. Həqiqi ədədlər 10□ 307 □ 10307 intervalında dəyişir. Kompleks ədədlər riyaziyyatdan məlum yazılış formasında daxil olunur. Kompleks ədədin xəyali vahidi i və ya j hərfi ilə işarə olunur. Ədədlər həmçinin səkkizlik və on altılıq say sistemində ola bilər. Səkkizlik say sistemində ədədin yazılışının sonunda «O», on altılıq say sistemində isə ədədin yazılışının sonunda «H» və ya «h» işarəsi

olmalıdır.

İstifadəçi tərəfindən təyin olunan funksiyanı sənədə daxil etmək üçün ilk növbədə funksiyanın adını və mötərizədə arqumentini, sonra «:=» işarəsini və riyazi ifadəni daxil etmək lazımdır. Standart funksiyalar isə İnsert→Function əmrini yerinə yetirməklə açılan dialoq pəncərəsinin funksiya siyahısından İnsert düyməsini sıxmaqla daxil olunur.

Mathcad-da hesablama rejimləri.

Mathcad-da hesablama əməliyyatı adətən avtomatik hesablama rejimində, ədədi və ya analitik-simvolik olaraq həyata keçirilir. Bu rejimdə dəyişənin müəyyən qiymətlərində riyazi ifadənin və funksiyanın ədədi qiymətinin hesablanması üçün riyazi ifadəni və ya funksiyanı daxil etdikdən sonar klaviaturanın "=" düyməsini sıxmaq kifayətdir. Hesablamanın nəticəsi "=" işarəsinin sağında əks olunacaqdır. Əgər hesablamanı yerinə yetirmək mümkün deyilsə, hesablama blokunun aşağısında sarı fonlu düzbucaqlı çərçivədə səhv haqqında məlumat əks olunacaqdır (şək.1.3).




**şək.1.3**

Riyazi ifadəni və ya funksiyanı simvolik hesablamaq üçün kursoru Symbolic alətlər panelində yerləşən «→» alətinin üzərinə qoyub siçanın sol düyməsini sıxmaq lazımdır. «→» işarəsi cari hesablama blokunda ifadənin sağında əks olunduqdan sonra isə Enter düyməsini sıxmaq lazımdır.Bundan sonra hesablamanın nəticəsi işarənin sağında əks olunacaqdır. İfadəni simvolik hesablamaq mümkün olmadıqda «→» sağında ifadə təkrar əks olunur.

Avtomatik hesablama rejimində sənədin redaktəsi zamanı dəyişənin qiymətində və ya ifadənin yazılışında dəyişiklik olduqda avtomatik olaraq hesablamanın nəticəsi yeniləşəcək. İfadənin hesablanması tələb olunmadıqda istifadəçi kontekst menyunun Disable Evaluation əmri vasitəsilə cari ifadə üçün hesablama rejimindən imtina edə bilər. Bu zaman dösturun sağ yuxarı küncündə qara rəngli nişan yaranır. Kontekst menyunun Enable Evaluation əmrini yerinə yetirməklə isə hesablama rejimindən imtina edilmiş ifadə üçün hesablama rejimini yenidən aktiv etmək olar.

**Ədəbiyyat siyahısı:**

1.Riyazi Proqram Paketləri, İsabala Qurbanov, Bakı, 2005
2.Tətbiqi Proqramlar Paketi, Məhsəti orucov, Gəncə, 2017
3.Riyazi Məsələlərin Hesablama Üsulları ilə həlli, Rövşən Hümbətəliyev, Bakı, 2016
4.https://dokumen.tips/documents/riyazi-proqram-paketlri.html
5.https://halzen.ru/az/windows-8/informacionnye-tehnologii-dlya-matematicheskih-vychislenii-na-primere-paketa.html

## ЧТО ТАКОЕ ПРОГРАММНЫЙ ПАКЕТ MATHCAD?

**Ч.Ч.Адилзаде**
**Азербайджанский Технологический Университет**
**cinareadilzade@gmail.com**

Mathcad позволяет выполнять математические операции при создании документов, таких как текстовый процессор (например, MicrosoftWord). Matchad, как и MicrosoftExcel, мгновенно отражает изменения на своей странице для всех вычислений. Еще одной важной особенностью программного обеспечения Mathcad является то, что оно позволяет использовать единицы измерения в операциях. Таким образом, вы можете контролировать однородность размеров в своих вычислениях и отображать результат в привычных вам единицах измерения.

## WHAT IS MATHCAD SOFTWARE PACKAGE?

**Ch.Ch.Adilzade**
**Azerbaijan Technological University**
**cinareadilzade@gmail.com**

Mathcad allows to perform mathematical operations when creating documents such as a word processor (such as Microsoft Word). Matchad, like Microsoft Excel, instanty reflects changes on its page to all calculations. Another important feature of Mathcad software is that it allows the use of units in operations. In this way, you can control dimensional homogeneity in your calculations and display your result in the units you are used to.

## NG SDH -YENİ TEXNOLOGİYANIN TƏTBİQİ

**N.E.Əmrahov**
**Azərbaycan Texnologiya Universiteti**
**nurlanmrahov@gmail.com**

Dünya telekommunikasiyası bir çox elmi və texnoloji inqilablara məruz qalmışdır. Onun birinci inqilabı tamamilə texnoloji əhəmiyyətə malik idi və analoq veriliş və kommutasiya prinsipindən rəqəm prinsipinə keçid ilə əlaqəlidir. Keçən əsrin 60-cı illərindəki bütün dünyada başlayan bu inqilabdan bir əsr keçdi və 90-cı illərdə tamamilə yeni texnologiyaların ortaya çıxmasına gətirib çıxardı. Onun əsas xüsusiyyətləri ondan ibarətdir ki, sonuncu ana qədər o bütün cəmiyyəti əhatə etməmiş və yalnız telekommunikasiya sektorunda tətbiq edilmişdir.

Telekommunikasiyada ikinci inqilab, mobil rabitə sistemlərinin yaranma səbəbi ilə bağlıdır. Birinci inqilabdan fərqləndirən cəhət onun bütün insan sivilizasiyasını əhatə etməsidir. İstənilən bir yerdə, istənilən vaxt hər hansı iki nəfərin bir-biri ilə ünsiyyət qura bilməsi fikri, mobil rabitənin cəmiyyətin qeyri-maddi dəyərlərindən birinə çevrilməsi diqqət çəkdi. Əhalinin belə dərin dəstəyi, yeni inqilabı fırtınalı vəziyyətə gətirib çıxara bilmədi. Onun nəticəsi olaraq, indiki zamanda bir çox avropa ölkələrinin rabitə şəbəkələrinin "mobilləşməsi" faizi, naqilli rabitə "klassik" xidmətlərin əhatə dairəsini əhəmiyyətli dərəcədə aşır.

İndi başlayıb və getdikcə sürətlə inkişaf edən üçüncü inqilab, qlobal informasiya cəmiyyətinə (QİC) keçiddir. Bu inqilab köklü olaraq iki əvvəlki inqilablardan fərqlənir, oyalnız təkcə bütün cəmiyyəti əhatə etmir, həm də onun qurğularının əsaslarını dəyişdirir, ümumiyyətlə, istiqamətlər, dəyərlər və sairə dəyişir. Məsələn, informasiya resusları qlobal informasiya cəmiyyətinə QİC keçid prosesi, civə, neft və qaz ehtiyatları ilə paralel olaraq strateji olur. Kommunikasiyalar sferası, biznesin inkişafı üçün heç də əsas sayılmır, onların iqtisadi modeli və istehsalın modelləri daha çox virtuallaşdırılmasıdır və s.

Yeni virtual texnologiyaların həyatda tətbiqi istiqamətindən biri də, əhalinin cəmiyyətin informasiya resurslarına və bütün dünya sivilizasiyasına mümkün qədər geniş imkanların təmin edilməsidir. Beləliklə, bütün müasir rabitə sistemlərini: magistral şəbəkələrdən tutmuş terminalın sonuna qədər modernləşdirmək lazımdır. Dünya və ölkə təcrübəsində yeni bir inqilab yaranır bu isə Yeni Nəsil Şəbəkəsi (NGN) adlandırıldı.

Nəticədə, NGN inqilabı ideoloji cəhətdən əsaslandırılmış olur və yeni nəsl SDH sistemləri üçün yeni tələblər irəli sürülür: NGSDH texnologiyası paket trafikinin ötürülməsini dəstəkləməlidir.




*Şəkil 4.1. Şəbəkələrdə üç trafik qrupunun inkişafının keyfiyyət qiymətləndirmələrindən biri*

NGN şəbəkələrinin ikinci xüsusiyyəti, ən azından texnologiyanın inkişaf mərhələsində, protokolların müxtəlifliyinin həmçinin trafik profillərinin, müxtəlifliyinin çox olmasıdır. Demək olar ki, texniki məsələlərin həllinin müxtəlifliyi, yeni bir inqilabın başlanğıcından meydana gəlmişdir və ən azından növbəti on illikdə aktual qalacaqdır.

NGN texnologiyaları yalnız rabitə sistemləri üçün, ənənəvi fiziki, kanal və şəbəkəsəviyyələrini əhatə etmişdir.NGN, inqilabi anlayış olaraq, OSI modelinin bütün səviyyələrində dəyişikliklər nəzərdə tutulur.Hər səviyyədə və hətta hər bir fərdi iş üçün texniki həllərin, sürətli inkişafı prosesində bir neçə alternativ həll yolları mövcuddur. Buna görə hər hansı bir problem çox variantlı həll yollarına sahibdir.Köhnəlmiş və zəif həllər və texnologiyalar bazardan çıxır, lakin texniki həllərin intensivliyi, yeni yarananların intensivliyindən əhəmiyyətli dərəcədə azdır, nəticədə ümumi həllərin sayı daimi olaraq artır.Ümumi vəziyyətdə bütün səviyyələrdə yeni texnologiyaların kifayət qədər böyük bir təbəqəsi operatorların başçılarınının üzərinə düşür.

Son vaxtlarda müasir anlayışlar arenasına texnologiyaların konvergensiyasının və inteqrasiyasının yeni prinsipi yaranmışdır.Sadəcə olaraq, bu prinsipi belə izah etmək olar, müasir NGN şəbəkələrində "bütün hər şey vasitəsilə" prinsipi əsasında texnologiyanın imkanlığından istifadənin mümkünlüyü təmin edilməlidir yəni, həll imkanları bərabər səviyyədə olmalıdır.Hər hansı bir müasir telekommunikasiya texnologiyasının gələcək inkişafı üçün**,** yaxınlıq (konvergensiya) prinsipi çox vacib hesab olunur.SDH texnologiyasına gəldikdə, bu prinsip müasir şərhdə müddəa ilə göstərilə bilər: NGSDH-nin müasir konsepsiyası bütün müasir NGN texnologiyasının bütün mövcud və perspektiv protokollarına və trafik profillərinəuyğunlaşdırılmalıdır**.**

NGN inqilabı, prioritetlərə və müxtəlif qərarlara, protokollara və s. etdiyi ümumi dəyişikliklərə yanaşı, həmçinin telekommunikasiya sisteminin özünün qurulması prinsiplərinin də dəyişikliklərinə də səbəb oldu. Əvvəllər rabitə sistemi əsas birinci və ikinci şəbəkələrə bölünürdü və onların kanallarından istifadə edilirdisə, NGN şəbəkələrində əsas prioritet kanalların kommutasiyasına deyil, paketlərin kommutasiyasına verilir. Beləliklə də rabitə sisteminin strukturunun özüdə dəyişikliyə məruz qaldı.

**Ədəbiyyat siyahısı:**

1. https://www.fujitsu.com/downloads/MAG/vol45-4/paper06.pdf
2. https://mars.tekkom.dk/mediawiki/images/6/65/Ng.sdh.slides.e.pdf
3. https://en.wikipedia.org/wiki/Synchronous_optical_networking

## NG SDH - ПРИМЕНЕНИЕ НОВЫХ ТЕХНОЛОГИЙ

**N.E.Əmrahov**
**Азербайджанский Технологический Университет**
**nurlanmrahov@gmail.com**

В статье анализируется применение технологий NGSDH, их роль и режимы работы в области телекоммуникаций в мире.

**NG SDH - APPLICATION OF NEW TECHNOLOGIES**

**Н.Э.Амрахов**
**Azerbaijan Technological University**
**nurlanmrahov@gmail.com**

The article analyzes the application of NG SDH technologies, their role and modes of operation in the field of telecommunications in the world.

# VBÖLMƏ
# METAL VƏ MATERIALLAR MÜHƏNDISLIYI
## KAUÇUK, REZİNOTEXNİKİ MƏMULATLAR VƏ ONLARIN TƏTBİQİ

**Prof. Ə.A.Əlbəndov**
**L.R.Mərdiyeva**
**X.Ə.Mustafayev**
**Azərbaycan Texnologiya Universiteti**
**lmardiyeva@mail.ru**

Rezin sənayesinin bir sıra sahələri arasında rezinotexniki məmulatlarının (RTM) istehsalı xüsusi fərqlənir. Məhsulların geniş çeşidinə görə bu istehsal sahəsi istifadə olunan müxtəlif materiallar, emal texnikası, avadanlıq və istehsal prosesləri ilə xarakterizə olunur. RTM istehsalında tətbiq olunankauçuklarqoşulmuş ikiqat rabitəli dien karbohidrogenlərinin polimerləşmə məhsullarından ibarət olub təbii və sintetik kauçulara təsnif olunur.

*Təbii kauçuk*bəzi tropik bitkilərin (hevea, fikus və s.) süd şirəsinin tərkibində olanizoprenin polimerləşmə məhsulundan ibarətdir.

Təbii kauçukun makromolekullarında ikiqat rabitələrin olması onların həndəsi izomerlərinin (*trans*- və *sis*-forma) mövcud olmasına səbəbb olur. Bunun nəticəsi olaraq *sis*-formalı kauçuk *trans*-formalı kauçukla müqayisədə daha çox elastikliyə malik olur. *Sis*-izomerlərin makromolekullarında bütün metil qrupları ikiat rabitənnin eyni tərəfində, *trans*-izomerlərdə isə birinci haldan fərqli olaraq müxtəlif tərəfində yerləşir.

Makromolekullarında bütün elementar həlqələri sis –formada olan təbii kauçukla yanaşı, bəzi tropik bitkilərin şirəsindən alınan dəriyəbənzər *quttaperça* (kimyəvi tərkibinə görə təbii kauçukla eyni olan yüksəkmolekullu karbohidrogen) adlanan qətranda elementar hələlər *trans*-formada olur.Bununla əlaqədər quttapreça təbii kauşukdan fərqli olaraq kifayət qədər az elastikliyə malik olur.

Sintetik kauçuklar.Sənaye miqyasında sintetik kauçuk ilk dəfə 1931-ci ildə SSRİ-də S.V.Lebedev üsulu ilə əldə edilmiş və yarımzavod qurğusunda divinildən 260 kq *butadien kauçuku* adlanan sintetik kauçuk alınmışdır. 1932-ci ildə dünyada ilk dəfə olaraq onun sənaye sintezi həyata keçirilmişdir. Almaniyada kauçuk 1936-37-ci illərdə, ABŞ-da isə 1942-ci ildə sintez olunmuşdur. Alınan kauçuk su və qaz keçirməmək qabiliyyətinə malik olmaqla yanaşı, nizamsız quruluşa

malik olduğundan təbii kauçukla müayisədə az elastikidir.

Metalüzvi katalizatorlardan – tərkibinə titan, sirkonium və digər metal duzların əlavə edimiş alüminium alkil törəmələrindən istifadə edərək XX əsrin 50-ci illərində *divinil* adlanan xətti stereonizamlı quruluşa malik sintetik butadien kauçuku alınmışdır. Steroizamer quruluşa malik sintetik *izopren-* və *xloroprenkauçukları* da oxşar üsulla alınmışır.

Butadien və izoprendən alınan kauçuklar şinlərin, müxtəlif rezintexniki məmulatlarınn, ayaqqabıların, məişət, qida və tibbi təyinatlı məmulatların istehsalı üçün istifadə olunur. Xloropren kauçuku yanmamazlığı, yağ, benzin, turşu və qələvilərin təsirinə davamlılığı ilə xarakterizə olunur. Xloropren kauçukundan şlanqların, kipləşdiriciərin, rezinləşdirilmişş parçaların və kabellər üçün qoruyucu örtüklərin hazırlanmasında istifadə olunur.

Kauçuklar əldə etmək üçün bir deyil, iki müxtəlif monomerdən istifadə olunan sopolimerləşmə üsulu da mövcuddur.

Monomerlərin nisbətini dəyişməklə müxtəlif xassələrə malik kauçuklar əldə etmək olar.

Hazırda sintetik kauçuk istehsalının həcmi təbii kauçuk istehsalının həcmini üstələyir. Kauçuklar başlıca ollara rezinotexniki məmulatların, şinlərin, ayaqqabıların, elektrikizolyasiya materiallarının istehsalında istifadə olunur.

*Kauçukların xassələri*: Kauçukun ən vacib fiziki xüsusiyyəti onun elastiki olması ilə yanaşı su və qaz keçirməməzliyidir. Kauçuklar maye karbohidrogenlərdə (benzin, benzol, toluol) və onların xlor törəmələrində (xloroform) həll olunur. Qızdırıldıqda kauçuk yumşalaraq elastikliyini itirirərək yapışqannlıq kəsb edir,soyuduqda isə kövrək olur. Havada saxlandıqda, kauçuklar ikiqaat rabitədən oksidləşmə səbəbindən tədricən elastikliyini itirirlər

. *Kauçukların vulkanlaşdırılmasıı. Rezin.* Fiziki və mexaniki xüsusiyyətlərini yaxşılaşdırmaq üçün kauçukları vulkanlaşdırırlar, yəni havasız mühitdə kükürdlə qızdırırlar. İstehsal olunan kauçukların əksəriyyəti vulkanlaşdırılır. Qızdırıldıqda kauçukla kükürdün kimyəvi birləşməsi prosesi *vulkanlaşdırılma* adlanır. Vulkanlaşmanın müddətini və temperaturunu qısaltmaq üçün tərkibə az miqdarda (0,5-2,5%) sürətləndiricilər adlanan maddələr, məsələn PbO və s.) daxil edilir.Vulkanlaşma zamanı kauçuk makromolekullarının kükürd atomları körpücüklərii ilə ikiqat rabitə yerlərindən bir-birinə tilkilməsi baş verir:



**Şəkil 1.Vulkanlaşdırılmış kauçukun əmələ gəlməsi**

Vulkanlaşdırılmış kauçuk şaxələnmiş şəbəkəli quruluşa malik olduğundan vulkanlaşdırılmamış kauçukla müqayisədə daha az elastikliyə malik olub kifayət qədər möhkəmliklə xarakterizə olunur. Kükürdün miqdarı artdıqca alınan materialın bərkliyi də artır. Rezinlər vulkanlaşdırılmış kauçukdakı kükürdün miqdarından asılı olaraq *yumşaq* (5-10% kükürd) və *bərk rezinlərə* (30% - dan çox kukürd) ayrılır. Tərkibində 25-35% kükürd olan kauçuk bərk bir material olub *ebonit* adlanır. Ebonit elastiklik xassəsinə malik deyildir Elastik rezin istehsalında kükürd kauçuk kütləsinin 1-4% -ni təşkil etməlidir.

Rezinin tərkibi. Rezinin tərkibinə kauçukla yanaşı, reagent, vulkanlaşdırıcı maddələr, vulkanlaşdır-ma prosesini sürətləndiricilər, doldurucular, yumşaldıcılar, antioksidanlar və boyalar daxil edilir.

Rezin məmulatları istehsalında istifadə olunan əsas xammal təbii və sintetik kauçukdur. Hazırda rezin materialları əsasən etil spirti, neft, təbii qaz və digər maddələr əsasında alınan sintetik kauçukdan istehsal olunur.

*Regenerat.* Köhnə rezin məmulatları və rezin istehsalatı tullantılarının emalı nəticəsində əldə edilən plastik bir materialdır. Regeneratlərdən istifadə rezin qarışığında kauçukun miqdarını azlmasına, rezin məmulatlarının maya dəyərinin aşağı düşməsinə və onların plastikliyinin xeyli dərəcədə artmasına səbəb olur.. Əsas vulkanilaşdırıcı maddə kükürddür. Rezin qarışıqlarının tərkibindəki kükürdün miqdarını dəyişdirməklə müxtəlif elastikliyə malik rezin əldə etmək mümkündür.

*Doldurucular* aktiv, qeyri-aktiv və xüsusi olmaqla üç qrupa bölünür. Aktiv doldurucular (qücləniricilər) kimi rezinin mexaniki xüsusiyyətlərini (möhkəmliyini və aşinma müqavimətini) artırmış olur. Belə maddələrə misal olaraq sink belilini, kaolini və digər maddələr daxildir.
Qurum yüksək aşınma müqavimətinə malik davamlı rezin üçün əsas doldurucudur. Qeyri-aktiv dolduruculara talk, təbaşir, infuzor torpaq və s. daxildir. Belə doldurucular rezinin həcmini artırmaq və qiymətini azaltmaq məqsədilə istifadə olunur. Xüsusi dolduruculara aid olunan kaolin və asbest rezinin kimyəvi davamlılığını, diatomit isə onun elektrikizolyasiya xüsusiyyətlərini artırış olur.
*Yumşaldıcılar (plastikləşdiricilər)* kauçuğa yumşaqlıq, elastiklik verir və emalını asanlaşdırır.

*Antioksidanlar* kauçuğun yaşlanmasının qarşısını alan maddələrdir.

**Rezinin əsas növləri vətətbiqi.** Rezin məmulatları xalq təsərüfatının bütün sahələrində geniş istifadə olunur. Rezin məmulatlarının çeşidi hazırda on minlərlə ölçülür və əsas kütləsii təkər (şin) istehsalına sərf olunur.Təkərlər istehsalından əlavə avtomobildə təxminən 200 yaxın hissələr rezindən hazırlanır. Rezinin möhkəmliyini və elastikliyini artırmaq üçün onun içərisinə metal torlar və ya yaylar daxil edilir. Belə rezin *armaturlanmış rezin* adlanır.Ondan hazırlanan rezinotexniki məmulatlar avtomobil şinləriinn, sürücü kəmərlərinin, konveyer lentərinin, boru kəmərlərinin və s. hazırlanmasında istifadə olunur. Armaturlanmış rezini hazırlamaq üçün bürünc təbəqəsi ilə örtülmüş və üzərinə yapışqan çəkilmış metal tor rezin qarışığa daxil edilərək eyni vaxtda preslənib vulkanlaşdırılır.

*Məsaməi rezinlər* xarakterinə və stehsal üsuluna görə böyük məsamələrə malık süngərvari və bircins qəfəsli rezinlərə bölünür. Onların istehsal üsulu rezinin qazları udma qabiliyyətinə və qazlarin rezin vasitəsilə diffuziyasına əsaslanır. Süngərvari rezin amortizatorların, oturacaqların, pəncərə yastıqlarının, şinlərin protektor təbəqələrinin istehsalında istifadə olunur.
Bərk rezin və ya ebonit, tünd qəhvəyi və ya qırmızı rəngə malikdir, 50 ilə 90 ° C arasında istiliyə davmlı olmala yüksək gərginliyiə (25-60 kV / dəq) tab gətirir.
*Ebonit* konstruksiya hissələri, ölçü cihazları və müxtəlif elektrik avadanlıqlarının istehsalı üçün istifadə olunur . Bundan əlavə, ebonit monobloklu akkumliyatorların , ayırıcıların hamar və yivli lövhələr şəklində seperatorların və qələvi akkumliyatorların müxtəlif hissələrinin hazırlanmasında tətbiq olunur.

*Yumşaq rezinlər* sənaye avadanlıqlarının, istehlak mallarının və elektroizolyasiya təyinatlı məmulatların istehsalında geniş istifadə olunur.

## Ədəbiyyat siyahısı:

1.Аврущенко Б.Х., Резиновые уплотнители. Л., «Химия», 1978
2. Новые каучуки. - М.: Издательство иностранной литературы, 2011
3. Иванова В.Н., Технология резиновых изделий. - Л.: Химия, 1988
5. Гофман В.Г., Вулканизация и вулканизирующие агенты. - Л.: Химия, 1968

## КАУЧУК, РЕЗИНОТЕХНИЧЕСКИЕ ИЗДЕЛИЯА И ИХ ПРИМЕНЕНИЕ

**Доц. А.А.Албандов**
**Л.Р.Мардиева**
**Х.А.Мустафаев**
**Azerbайджанскийтехнологический униивеситет**
**imardiyeva@mail.ru**

Каучуки-продукты полимеризации диеновых углеводородов с сопряжёнными двойными связями.Натуральный каучук-продукт полимеризации изопрена, который содержится в млечном соке некоторых тропических растений. К важнейшим свойствам каучука относятся эластичность, водо- и газонепроницаемость. Для улучшения физико-механических свойств каучуки подвергают вулканизации - нагреванию с серой без доступа воздуха. Сущность вулканизации: заключается в «сшивке» макромолекул каучука по местам двойных связей мостиками из атомов серы. Продукты вулканизации каучука - резина и эбонит. Каучуки, полученные из бутадиена и изопрена, используют для производства шин, различных резинотехнических изделий, обуви, изделий бытового, пищевого и медицинского назначения. Хлоропреновый каучук характеризуется негорючестью, масло- и бензостойкостью, устойчивостью к действию кислот и щелочей. Из хлоропренового каучука изготавливают шланги, уплотнители, прорезиненные ткани, защитные оболочки кабелей.

## RUBBER, RUBBER PRODUCTS AND THEIR APPLICATIONS

**Prof. A.A.Albandov**
**L.R.Mardiyeva**
**H.A.Mustafayev**
**Azerbaijan Technological Universitety**
**imardiyeva@mail.ru**

Rubbers are polymerization products of diene hydrocarbons with conjugated double bonds. Natural rubber is a polymerization product of isoprene, which is contained in the milky sap of some tropical plants.

The most important properties of rubber are elasticity, water and gas tightness. To improve the physical and mechanical properties, rubbers are subjected to vulcanization - heating with sulfur without air access. Theessence of vulcanization: it consists in the "crosslinking" of rubber macromolecules in places of double bonds by bridges of sulfur atoms. The products of rubber vulcanization are rubber and ebonite. Rubbers obtained from butadiene and isoprene are used for the production of tires, various rubber products, footwear, household, food and medical products. Chloroprene rubber is characterized by non-flammability, oil and petrol resistance, resistance to acids and alkalis. Chloroprene rubber is used to make hoses, seals, rubberized fabrics, protective sheaths for cables.

# AIIIBIIIC2VI MONOKRİSTALLARIN BRİCMEN METODU İLƏ ALINMASI

**F.e.d., prof. M.B.Cəfərov, f.-r.e.n, dos. Z.S.Səmədov, Z.C.Xələfov, N.F.Orucova**
**AzərbaycanTexnologiyaUniversiteti**
mentiq.ceferov@uteca.edu.az, zardan@mail.ru, x-zakir@mail.ru

Əvvəlcədən sintez olunub əridilmiş material ampulaya doldurularaq havası çıxarılıb bağlanır. Şəkil 1-də göstərilən qurğuda ampulaistizonadanbirqədərsoyuqzonayadoğru$10^{-4}$ mm/san sürətləaşağıyadoğruhərəkətetdirilir Bu prosesdəmonokristalformalaşır.MonokristalalmaqüçünBricmensobasındanistifadəolunur.Bu sobanınüstüncəhətiodurki, kiçiktemperaturqızdırmazonasıvardır. O da temperature qradienti yaratmağa imkan verir. Sobadatemperaturyuxarıdanaşağıyadoğruhərəkətdətədricən azalır. [1]




**Şəkil1.1-ampulanın aşağı düşmə mexanizmi; 2-ampula; 3-ərinti; 4-böyüyən kristal; 5-qızdırıcı; 6-diafraqma ;7-termocüt**

Blokun köməyi ilə ampula verilmiş sürətləaşağı temperatura doğru hərəkət edir. Temperaturundəqiq ölçülməsiüçünsobanınaşağıvəyuxarıhissəsindətermocütlərdənistifadəolunur.Bu termocütlərdə loqometrlərə qoşulur [2].

Bricmen sobasının aşağıdakı üstünlükləri vardır:

1. Ərimədə maddələrin monokristallarını almaq üçünçoxəhəmiyyətlidir;
2. Bu metodlaistənilənverilmişformadamonokristalalmaq mümkündür;
3. Göyərdilən monokristalların tavlandırılması nəticədə struktur xarakteristikalarını yaxşılaşdırır;
4. Bricmen sobası az yertutur;
5. İstilikkeçirmə şəraiti kristallaşma zonasında simmetrik istilik sahəsini almağa imkan verir. Bu şərtdaxilindəasanlıqla müstəvi (laylı)kristallaşmacəbhəsinialmaqolar. [3]

**Ədəbiyyat siyahısı:**

1. ДжафаровМ.Б., О зонной структуре $Bi_2$ $Te_3$. Физика и техника полупроводников,Санкт-Петербург том 53 в.5, 2019, 4 с
2. Мурашкевич А.Н., Жарский Н.М. Теория и методы выращивания монокристаллов, Москва, 2010, 214 с
3. Намельский А.Я., Монокристаллы полупроводников, Москва: Металлургия, 1978,199 с

## ПОЛУЧЕНИЕ МОНОКРИСТАЛЛОВ $A^{III}B^{III}C_2^{VI}$ПО МЕТОДУ БРИДЖМЕНА

**Проф. М.Б.Джафаров, Доц. С.З.Самедов, З.Д.Халафов, Н.Ф.Орукова**
**ОруджоваНилуфар Фархад гызы**
**Азербайджанский ТехнологическийУниверситет**
**mentiq.ceferov@uteca.edu.az, zardan@mail.ru, x-zakir@mail.ru**

Методом Бриджмена были получены монокристаллы $A^{III}B^{III}C_2^{VI}$. Для этого была установлена печь Бриджменаи получены хорошие результаты.

## PRODUCTION OF$A^{III}B^{III}C_2^{VI}$ MONOCRYSTALS BY USING BRIDGMAN METHOD.

**Prof. M.B.Jafarov, Z.S.Samadov, Z.J.Khalafov. N.F.Orujova**
**AzerbaijanTechnologicalUniversity**
**mentiq.ceferov@uteca.edu.az, zardan@mail.ru, x-zakir@mail.ru**

The Bridgman method was used to obtain from $A^{III}B^{III}C_2^{VI}$compounds. For this purpose, a Bridgman furnace was set up and good results was obtained.

## ÇEŞİDLƏYİCİ QURĞUNUN KONSTRUKTİV PARAMETRLƏRİNİN ƏSASLANDIRILMASI

**T.f.d., dos. A.M.Cəfərova**
**E.A.Paşayev**
**A.F.Çunayeva**
**L.A.Əsgərova**
**“Aqromexanika” Elmi Tədqiqat İnstitutu**
**aqromexanika@mail.ru**

Fındığın istehsalında çətin və çox zəhmət tələb edən işlərdən biri də çeşidləmə əməliyyatıdır. Bir çox xarici ölkələrdə bu tipli qurğular mövcuddur. Lakin baha başa gəldiyi üçün fermerlərə sərfəli deyildi. Bu işdə əsas məqsədimiz fındığı bir neçə fraksiyalara ayırmaqdır. Bu məqsədlə çeşidləyici qurğunun bəzi konstruktiv parametrləri nəzəri tədqiqatlar əsasında müəyyən edilmişdir və qurğunun çeşidləyici barabanında fındığın diyirlənmə mailliyini öyrənmək üçün laborator cihazı hazırlanıb, maillik bucağı müəyyən edilmişdir.

Azərbaycan Respublikasında aqrar sahədə prioritet istiqamətlərdən biri də fındıqçılıqdır.
Qeyri neft sektorunun inkişafı ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin aqrar sektorun inkişafına aid xeyli fərman və sərəncanlar verilmiş, xüsüsəndə fındıqçılığın inkişafına xüsusi qayğı göstərilmişdir.

**Mövzunun aktuallığı.** Fındıq məhsulunun yetişdirilməsində əsas texnoloji proseslərin yerinə yetirilməsi üçün tingin basdırılması, cərgələr arasının becərilməsi, xəstəlik və ziyanvericilərə qarşı mübarizə tədbirləri, budama, məhsulun yığılması və s. müxtəlif maşın və avadanlıqlar mövcuddur. Fındıq istehsalçıları adətən, fındığın ləpə halında istehsalı ilə maraqlıdırlar. Bunun üçün qərzəkdən təmizlənmiş fındıq çeşidlənməli, ləpədən ayrılaraq istifadə olunmalıdır. Son nəticədə ləpələr üyüdülərək qənnadı məhsullarının istehsalında istifadə edilir.
Odur ki, fındıq çeşidlənməli və sonra ləpədən ayrılmalıdır. Fındığın qabığı isə sənayedə və dərman məhsulları istehsalında istifadə oluna bilər.

**Məslənin vəziyyəti**. Fındıq istehsalında çətin və cox zəhmət tələb edən işlər – onun qərzəkdən təmizlənməsi, çeşidlənməsi, qırılması və fındığın ləpədən ayrılmasıdır. Bu məqsədlə fındıqçılıqla məşğul olan rayonlarda müxtəlif xarici maşın və avadanlıqlardan istifadə olunmasına baxmayaraq bir çox yerlərdə hələ də əl əməyindən geniş istifadə olunur ki, bu da əmək sərfinin və məhsulun maya dəyərinin artmasına səbəb olur.

Hal-hazırda başqa ölkələrdə fındığı çeşidləyən bir çox çeşidləyici maşın və qurğular mövcuddur. Onların arasında А9-ККБ çeşidləyici, Universal çeşidləyici, və Şnekli çeşidləyici və. s. maşınlar var.

**Tədqiqatın məqsədi.** Fındığı çeşidləyici qurğunun konstruktiv parametrlərinin təyini üçün nəzəri tədqiqatların aparılmasıdır.

**Tədqiqatın obyekti.** Fındığı çeşidləyici qurğudur.

**Tədqiqatın metodları.** Nəzəri tədqiqatlar əsasında fındığı çeşidləyən qurğunun konstruktiv parametrlərinin əsaslandırılması xüsusi metodlarla və dövlət standartlarına uyğun aparılmasıdır.

**Materiallar və müzakirələr**

Fındıq məhsulunun ilkin emalı üçün axın xəttinin işlənməsində əsas əməliyyatlardan biri də qərzəkdən təmizlənmiş fındığın çeşidlərə ayrılmasıdır. Bu qurğunun ilkin variantı hazırlanmış və laboratoriya şəraitində işi yoxlanmışdır.

Aparılmış tədqiqatlar nəticəsində fındığı çeşidləyən qurğunun kinematik sxemi müəyyən edilmişdir. (Şəkil 4.)




**Şək.4. Fındığı çeşidləyən (kalibrləyən) qurğunun prinsipial kinematik sxemi.**
***1-sonsuz vint reduktoru; 2-aparan ulduzcuq; 3-çeşidləyici baraban; 4-bunker; 5-elektrik mühərriki; 6-zəncir; 7-aparılan ulduzcuq; 8-lövhə; 9-çərçivə.***

Qurğu aşağıdakı iş prinsipi ilə işləyir:

Təmizlənmiş fındıq bunkerə (4) tökülür. Qurğu işə salınır. Hərəkət el. mühərrikindən (5), mufta vasitəsilə sonsuz vint reduktoruna (1) ötürülür. Reduktorun hərəkəti zəncir ötürməsi (6) vasitəsilə çeşidləyici barabana (3) verilir. Qapaq açılaraq fındıq bunkerdən işçi orqan-barabana, hissə-hissə verilir və fraksiyalara ayrılır. Deşiklərə ilişən fındıqlar təmizləyici roliklər vasitəsilə barabana qaytarılır. Fındıq dörd fraksiyaya (14, 17, 22 mm və daha böyük) ayrılaraq uyğun qablara tökülür.

Fındığı çeşidləyən qurğuda önəmli məsələlərdən biridə çeşidlənmiş fındığın qablara rahat tökülməsini təmin etməkdir. Bunun üçün tutucunun maillik bucağının düzgün seçilməsidir. Bu məqsədlə laborator cihazı hazırlanıb və laboratoriya təcrübələri aparılmışdır.

Qurğunun çeşidləyici barabanında fındığın diyirlənmə mailliyini öyrənmək üçün laborator cihazı hazırlanıb, maillik bucağı müəyyən edilmişdir.(şək 5.)



**Şək 5. Maillik ölçən cihaz.** ***1- Çərçivə; 2 - maili lövhə; 3 - qab.***

Maillik α bucağı 5, 6, 7, 8, 9 və 10 dərəcə hüdudunda dəyişə bilir. Optimal maillik bucağını təyin etmək üçün 100 ədəd eyni ölçüdə fındıq götürülüb maili lövhəyə tökərək, optimal maillik dərəcəsi müəyyən edilmişdir.

Nəticədə kimi α=5˚maillikdə 100 ədəd fındıqdan 50 ədədi, α=7˚- də uyğun olaraq 77 ədədindən 23 ədədi lövhə üzərində qalmışdır . Artıq α=9˚olanda müvafiq olaraq 97 ədədi tökülmüş, cəmi 2 ədəd fındıq lövhə üzərində qalmışdır. α=10˚ maillikdə fındıq tam olaraq tökülmüşdür.

Beləliklə qurğuda maillik bucağı α = 10˚olmalıdır.

**Açar sözlər:** qurğu, fındıq, çeşidləyici, deşik, baraban, cihaz, bucaq, fraksiya, maillik, çərçivə.
Çeşidləyici qurğunun konstruktiv parametrləri tədqiqatlar əsasında müəyyən edilmişdir ki, lövhənin optimal maillik bucağı α = 10˚olmalıdır.

### Ədəbiyyat siyahısı:

1. Летошнев М.Н., «Сельскохозяйственные машины». Теория, расчет, проектирование и испытание, Москва, 2015
2. Испытание сельскохозяйственной техники. Программа и методы испытания, ГОСТ 70.4.3-2010, Москва, 2016

## ОБОСНОВАНИЕ КОНСТРУКТИВНЫХ ПАРАМЕТРОВ КАЛИБРОВОЧНОГО УСТРОЙСТВА

**Доц. Э.А.Пашаев**
**А.М.Джафарова**
**А.Ф.Чунаева**
**Л.А.Аскерова**
**«Агромеханика"НИИ**
**aqromexanika@mail.ru**

Одной из самых сложных и трудоемких операций в производстве фундука является калибровка. Калибровочные устройства производятся во многих зарубежных странах. Однако из-за дороговизны этих устройств, фермерам не выгодно их приобрести.

Нашей основной целью в данном исследовании является создание экономически выгодных калибровочных устройств.В этой статье на теоретической основе были определены конструктивные параметры сортировочного устройства, а также разработано лабораторное устройство для исследования наклона доски прибора в сортировочном барабане и определен этот угол наклона.

## SUBSTANTIATION OF DESIGN PARAMETERS OF SORTING DEVICE

**Prof. E.A.Pashayev**
**A.M.Jafarova**
**A.F.Chunayeva**

**L.A.Asgarova**
**"Agromechanics Scientific - Research Institute"**
**aqromexanika@mail.ru**

One of the most difficult and labor-intensive task in hazelnut production is sorting. Such devices are available in many foreign countries. However, due to the high cost of these devices, it is not profitable for farmers to purchase them. Our main goal in this study is to create cost-effective sorting devices. For this purpose, some constructive parameters of the sorting device were determined on the basis of theoretical research, and a laboratory device was developed to study the rolling slope of the hazelnuts in the sorting drum of the device, and to determinethis inclination angle

# POLİTETRAFLÜOR ETİLEN POLİMERİNİN ALINMASINDA PERSULFAT TURŞUSUNUN VƏ HİDROPEROKSİDİN TƏSİREDİCİ MEXANİZMİNİN TƏDQİQİ

**Dos, Ə.N. Muradov**
**Q.G.Zülfüfaqov**
**İ.B.Nəsirli**
**Azərbaycan Texnologiya Universiteti**
**e.muradov@uteca.edu.az**

Plastik kütlələrin məişətdə və xalq təsərrüfatında rolu çox böyükdür. Plastik kütlələr elastikdir, kimyəvi və elektrokimyəvi korroziyaya uğramır.

Son zamanlar sənayedə əhəmiyyət qazanmış polimerlər içərisində flüorlu polimerlər ən maraqlı materiallardır. Bunların ən əhəmiyyətlisi politetraflüoretilendir. Etilenin flüorlaşmasından alınan tetraflüoretilen katalizator və inisiatorun iştirakı ilə çox asan polimerləşərək politetraflüoretilen polimeri istehsal edilir.

**Məqalədə əsas məqsəd**: tetraflüoretilenin alınmasında inisiator kimi istifadə olunan persulfat turşusu və hidroperoksidin təsiredici mexanizmini tədqiq edib əhəmiyyətini aydınlaşdırmaqdır.

Sənayedə persulfat turşusu [$H_2S_2O_8$] kalium hidrosulfatın [$KHSO_4$] qatı məhlulunu elektroliz etdikdə alınır: $(-)katod \rightarrow K \ + HSO_4^- \rightarrow Anod \ (+)$

$2H_2O + 2\bar{e} = H_2 + 2OH \rightarrow (KHSO_4)2HSO^-{}_4 - 2\bar{e} = H_2S_2O_8$ - Persulfat turşusu.

Persulfat turşusunun istehsalının ikinci üsulu sulfat turşusunun 50%-li məhlulunu elektroliz etməklə $H_2S_2O_8$ almaqdır. Bu turşunun duzları persulfatlar adlanır. [$K_2S_2O_8$, $(NH_4)_2$, $S_2O_8$] $H_2S_2O_8$ duzları qüvvətli oksidləşdiricidir.

Tetraflüoretilen mənfi 76°S-də qaynayan qazdır. Onu almaq üçün xlordiflüormetanı hidroliz edirlər: $2\ CHCLF_2 \xrightarrow{t^o s} 2HCl + CF_2\text{-}CF_2$

***Təcrübi hissə:***

Reaktora təzyiq altında 10 $m^3$ tetraflüoretilen doldurub üzərinə 1litr hidrogen peroksid məhlulu əlavə edib ılıq su ilə hidroliz edilir. Sintez reaktorunda yüksək təzyiq yaradılır. Polimerləşmə suspenziyada çox asan və sürətlə gedir. Reaksiya:

$$nCF_2 = CF_2 \xrightarrow[H_2O\, t^0 s,]{H_2S_2O_8, H_2O_2} -CF_2-CF_2-...[-CF_2-CF-]_n-CF_2-CF_2$$

Alınan termoplastik kütlə soyudulur, süzülərək sudan azad edilir.

Politetraflüor və ya Flüorplastik-4 yüksək molekulkütləsinə malik polimerdir.

Tetraflüoretilen persulfat turşusunun inisiatorluğu ilə polimerləşir. Persulfat turşusunun kimyəvi formulu: $H_2S_2O_8$

Kimyəvi quruluş:

O O

|| ||

H ⁻ O ⁻ S ⁻ O ⁻ S – O - OH

|| ||

O O

Bu turşunun $Na_2S_2O_8$, $K_2S_2O_8$, və $(NH_4)$ $S_2O_8$ tərkibli duzları da qüvvətli oksidləşdiricilərdir.

Nəzəri hissə:

Tetraflüoretilenin molekulunda bir ikiqat rabitə var: $F_2C = CF_2$

Bu rabitələrdən biri siqma ($\sigma$)rabitədir. Kvant nəzəriyyəsinə görə atom orbitallarının qarşılıqlı təsirdə olan atomların nüvələrini birləşdirən rabitə oxu boyunca qapanması hesabına yaranan rabitə $\sigma$-rabitə adlanır. $\pi-$rabitə -atom orbitallarının rabitə oxunun hər iki tərəfindən bir-birini qapayarsa [yandan qapanma] əmələ gələn rabitəyə $\pi-$rabitə deyilir. $\pi-$rabitə rabitə oxunun üst və alt tərəfində olmaqla iki qapanma oblastı ilə xarakterizə olunur. Orbitalların dalğa funksiyasının maksimum qapanması o zaman baş verir ki, onlar bir-birinə rabitə oxu boyunca istiqamətlənmiş olsun. Odur ki, siqma rabitə $\pi-$rabitəyə nisbətən davamlı rabitədir.

$\sigma$ və $\pi-$ rabitələrin atom orbitallarının qapanma sxemi aşağıdakı kimidir:



p-p p-p

$\pi-$rabitəsinin əmələ gəlmə enerjisi çox kiçikdir. Persulfat turşusu sulu məhlulda reaksiyaya daxil olaraq hidrogenperoksid əmələ gətirir: $H_2S_2O_8 + 2H_2O = H_2O_2 + 2H_2SO_4$

Persulfat turşusu və hidrogen peroksid qüvvətli oksidləşdirici xassəyə malikdirlər.

$$H_2S_2O_8 \xrightarrow{t} H_2O + O(O + O = O_2)$$

Reaksiyadan alınan atomar oksigen tetraflüor etilenə inisiator kimi təsir edərək $\pi-$rabitəni qırır monomeri $\pi-$ kompleksə (aktiv monomerə) çevirir. Aktiv monomer $[-CF_2-CF_2-]$ radikalına çevrilir.Hər iki karbon atomlarında qoşalaşmamış elektronlar əmələ gətirir ki, bu da polimerləşməyə səbəb olur.

Birinci mərhələdə əmələ gəlmiş radikal özünə aktiv quruluş vahidini birləşdirməklə ardı kəsilmədən daha böyük yeni makroradikal əmələ gətirir və zəncir hədsiz böyüməyə başlayır. Bu proses polimerləşmə adlanır.

$$....R' + CF_2 = CF_2 \xrightarrow[p]{t^0 s} R' - CF_2 - CF_2 - ... \xrightarrow[\text{zəncirin böyüməsi}]{\text{+aktiv monomer}}$$

Politetraflüoretilen polimeri.

Elmi məqalədə politetraflüoretilenin alınma üsulu göstərilməklə tətbiq olunan inisiatorların təsiredici mexanizmi kvant (elektron) nəzəriyyəsi əsasında izah edilmişdir. Termoreaktiv qatran olan politetraflüoretilen qızdırıldıqda ərimədən yumşalır, soyudulduqda isə sıx və möhkəm həblərə çevrilir. Bu plastik kütləni yüksək kimyəvi davamlılığa malik olımasına görə ondan kimya sənayesində müxtəlif aparatların, müxtəlif maşın və avtomobillərin detalları hazırlanır. Flüorplastik-4-ün kimyəvi üsulla alınma texnologiyasında tətbiq edilən inisiatorların, plastifikatorların, qatma və doldurucuların təsir mexanizmi nə qədər düzgün izah olunarsa məhsuldarlıqda bir o qədər yüksək olar.

**Ədəbiyyat siyahısı:**

1. Mövsümzadə M., Qurbanov P., Üzvi kimya II hissə (dərslik), Maarif nəşriyyatı, 1986
2.Sadıqzadə S.İ., Polimerlər kimyası, Azərnəşr, dərslik,Bakı, 1988
3.Hüseynov R.İ., və başqaları.Yüksək molekullu birləşmələr və onların xalq təsərrüfatında tətbiqi, dərs vəsaiti, Gəncə, 1996
4.Hüseynov R.İ., və başqaları. Yüksək molekullu birləşmələr plastik kütlələr, onların maşınqayırmada, yeyinti və yüngül sənayenin maşın və aparatlarında tətbiqi, dərs vəsaiti,Gəncə, 1991

## ИЗУЧЕНИЕ ЭФФЕКТИВНОГО МЕХАНИЗМА ПЕРСУЛЬФАТНОЙ КИСЛОТЫ И ГИДРОПЕРОКСИДА В ПРОИЗВОДСТВЕ ПОЛИТЕТРАФЛЮЕРА, ЭТИЛЕНА

**Доц. А.Г.Мурадов**
**Г.Г.Зульфуфагов**
**И.Б.Насирли**
**Азербайджанский Технологический Университет**
**e.muradov@uteca.edu.az**

Роль пластмасс в повседневной жизни и в экономике страны очень велика. В настоящее время в Сумгаите действуют заводы по производству пластмассового полипропилена. Пластмассы эластичны и не подвергаются химической или электрохимической коррозии. Фторированные полимеры являются наиболее интересными материалами в области полимеров, которые в последнее время приобрели большое значение в промышленности. Наиболее важным из них является политетрафторэтилен. Тетрафторэтилен, полученный фторированием этилена, легко полимеризуется в присутствии катализатора и инициатора с образованием полимера политетрафторэтилена.

## STUDY OF THE EFFECTIVE MECHANISM OF PERSULFATIC ACID AND HYDROPEROXIDE IN THE PRODUCTION OF POLYTETRAFLUOR, ETHYLEN POLYMER

**Prof. A.N.Muradov**
**G.G.Zulfufagov**
**I.B.Nasirli**
**Azerbaijan Technological University**
**e.muradov@uteca.edu.az**

The role of plastics in everyday life and the national economy is very large. At present, there are factories producing plastic polypropylene in Sumgayit. Plastics are elastic and do not corrode chemically or electrochemically.Fluorinated polymers are the most interesting materials in the field of polymers, which have recently gained importance in the industry. The most important of these is polytetrafluoroethylene. Tetrafluoroethylene obtained from the fluorination of ethylene is easily polymerized in the presence of a catalyst and an initiator to produce a polytetrafluoroethylene polymer.

## ALUNIT FILIZININ EMALI TEXNOLOGIYASININ TƏKMILLƏŞDIRIRLMƏSI

**Dos. A.Z.Əsgərov**
**C.E.Əsgərzadə**
**Azərbaycan Texnologiya Universiteti**
**asgerzadehcemile.97@gmail.com**

Araşdırmalar göstərir ki,alunit filizinin emalı zamanı yaranan alüminat məhlulları öz tərkibi və xassələrinə görə, boksit emalından alınan alüminat məhlullarından fərqlənir. Belə ki, alunitin mövcud texnologiya üzrə emalında yaranan alüminat məhlulunun tərkibi natrium, kalium qələvisindən başqa müəyyən miqdarda qələvi sulfat birləşmələridə olur ki, buda alınan son məhsulun çirkləndirməklə yanaşı texnoloji prosesin gedişinə mənfi təsir göstərir. Bu baxımdan mövcud texnologiyanın bəzi qovşaqlarında yeni texnologiyanın işlənməsinə və tətbiqinə böyük ehtiyac yaradır.

Bu zaman yaranan çatışmamazlığı aradan qaldırmaq məqsədi ilə Gəncə alüminium zavodunda “Çevrilmiş” sxemdən (“обращенная” схема)şəkil 1. istifadə olunmasından məsləhət görülür.




**Şəkil 1. Hidrokimyəvi qovşaqda prosesin ardıcıl aparılmasının (I,II) sxemləri.**
**(I)- mövcud texnologiya üzrə;**
**(II)- “çevrilmiş” sxem üzrə.**

Şəkil 1-də iki texnoloji sxem verilir, hər iki texnoloji sxemdə silisiumsuzlaşdırılmış alüminat məhlulunun dekompozyozlarda parçalanması və nəticədə alınan ana məhlulun buxarlandırılması proseslərinin ardıcıllığı göstərilir. Bu sxemlər arasındakı əsas fərq ondan ibarətdir ki, bu proseslərin ardıcıl olaraq aparılması fərqlənir, alınmış nəticələrə görə 2-ci texnoloji sxem 1-cidən üstündür.

2-ci texnoloji sxemdə 1-cisxemdən fərqli olaraq silisiumsuzlaşdırılmış aluminat məhlulu əvvəlcə buxarlandırma qovşağına verilir, buxarlandırılır, tərkibi sulfat duzlarından təmizləndikdən sonra, onun tərkibi tam təmizlənmiş alunit kilkəsinin yuma suyu ilə durulaşdırdıqdan sonra dekompozyorlarda parçalanmaya uğradılır. Buxarlandırılmış alüminat məhlulunun kaustik qələviyə görə qatılığı $Na_2O_k$ 150-200 q/l, temperaturası 65-60$^0$C təşkil edir. Alüminat məhlulunun dekompozyorlarda parçalanması 70 saat çəkir.

Parçalanmadan alınan ana məhlulunun temperaturası 45-40$^0$C, kaustik modulu isə 1,9-dan 3,8-ə qədər dəyişir. Parçalanmadan yaranan hidrat horrası hidroseparatora verilir, burada siniflərə ayrılır, hidroseparatorun axarı isə çökdürücüyə verilir, buradan maya hidrat kimi istifadə olunur. Hidroseparatorun çöküntüsü isə süzülüb, yuyulduqdan sonra məhsul hidrat kimi közərtmə sexinə göndərilir. Ana məhlul süzüldükdən sonra qələviləşdirmə sexinə verilir ki, bundanda yeni alunit filizinin qələviləşdirilməsində istifadə edilir.

## УСОВЕРШЕНСТВОВАНИЯТЕХНОЛОГИИ ПЕРЕРАБОТКИ АЛУНИТОВЫХ РУД

**Доц.А.З.Аскеров**
**Д.Э.Аскерзаде**
**Азербайджанский Технологический Университет**
**asgerzadexcemile.97@gmail.com**

В данном тезисе предложена использование «обращенной» технологической схемы, с целью улучшения качества полученного продукта, предотвращения проблем при переработ-

ке алунитовых руд и указываются основные различия «обращенной» схемы от существующей технологической схемы. По этой схеме, обескремненый алюминатный раствор, отправляется в выпарку для выпаривания, а затем очищается от сульфатных солей передается в декомпазор для разложения. Таким образом, полученный разложенный маточный раствор отправляется для выщелачивания новой порции алунитовой руды.

## IMPROVEMENTS IN THE TECHNOLOGY OF PROCESSING AUNTIE ORES

**Prof. A.Z.Askerov**
**J.E.Askerzade**
**Azerbaijan Technological University**
**asgerzadexcemile.97@gmail.com**

This thesis proposes the use of an "reversed" flowsheet, in order to improve the quality of the obtained products to prevent problems in the processing of alunite ores, and indicates the main differences between the "reversed" flowsheet and the existing flowsheet. According to this scheme, the desiccated aluminate solution is sent to the residue for evaporation, and then purified from sulfate salts, it is transferred to a decomposer for decomposition. Thus, the resulting decomposed mother liquor is sent to leach a new portion of alunite ore.

## HIDRAZIN TÖRƏMƏLƏRI ƏSASINDA POLIMERLƏRIN ALINMASI

**Dos. V.Ə.Budaqlı, P.T.Məhərrəmova**
**Azərbaycan Texnologiya Universiteti**
**velibudaqli73@gmailcom**

Məlumdur ki, hidrazin və hidrazonların əvəzlənmiş bir sıra birləşmələri, həmçinin onların daha mürəkkəb quruluşlu törəmələri dərman preparatları, yüksək keyfiyyətli maye raket yanacaqları, kimya və kimya texnologiyasında uğurla istifadə olunan qiymətli maddələrdir.

Bu istiqamətdə aparılan tədqiqat nəticəsində məlum olmuşdur ki, dialkilhidrazinlə diizosianatın qarşılıqlı təsir reaksiyası kifayət qədər yüksək sürət və çıxımla 1,1 – diəvəzlənmiş bissemikarbazidin alınması ilə nəticələnir.

$$2R_2NNH_2 + OCNR'NCO \rightarrow R_2NNHCONHR'NHCONHNR_2$$

O

CHC

$R_2NNHCONHR'NHCONHNR_2$ + || O ⟶

CH C
O

$\longrightarrow (HOOCH{=}CHCOOCH_2CH_2)_2\ NNHCONHR'NHCONHN(CH_2CH_2OCOCH{=}CHCOO)_2$

Qeyd etmək lazımdır ki, reaksiyanın gedişinə və reaksiya məhsulunun çıxımına reaksiya üçün götürülmüş reagentlərin hansı ardıcıllıqla reaksiya mühitinə əlavə olunması təsir göstərmir. Bununla belə dialkilhidrazinə diizosianatın əlavə edilməsinə üstünlük verilir, çünku əks halda reagentlər əlavə edilərkən polimerin əmələ gəlməsi reaksiyası xeyli mürəkkəbləşir.

n, n' – Difenilmetanbis [ 4 – ( 1,1 – *di* – 2 - oksietilsemikarbazid].

2,5 q Di ( 2- oksietil) hidrazin 20 ml susuz xloroformda götürülərək 0 – $5^0$C temperatura qədər soyudulur və daima qarışdırmaqla yavaş – yavaş 2 q n, n' – difenilmetandiizosianitin 6ml xloroformdakı məhluluna əlavə olunur. Sonra reaksiyaqarışığı 1 saat müddətində 20 – $25^0$C – də qarışdırılır. Yağabənzər çökmüş reaksiya məhsulu su əlavə olunmaqla kristallik formada çökdürülür.

## ПОЛУЧЕНИЕ ПОЛИМЕРОВ НА ОСНОВЕ ГИДРАЗИНОВЫХ ПРЕОБРАЗОВАНИЙ

**Доц.В.А.Будаглы, П.Т.Магеррамова**
**Azerбайджанский Технологический Унииреситет**
velibudaqli73@gmailcom

Взаимодействием избытка несимметричных диал килгидразинов с диизоцианатами синтезированы 1,1 – дизамещеные биссемикарбазиды. Реакцией избытка малеинового ангидрида с бис [1,1 – ди (2- оксиэтил) семикарбазидами] получены соответствующие тетракарбоновые кислоты.

## OBTAINING POLIMERS ON THE BASIS OF HYDRAZINE PRODUCTS

**Prof.V.A.Budaqli, P.T.Maharramova**
**Azerbaijan Technological University**
velibudaqli73@gmailcom

With the inferaction of asymmetrical dialkil – hydrarynes with diizonats we got 1,1 – didisorderedbissemicarbazides. With the rection of maleinandidrize with [ 1,1 – di ( 2 – oxyethyl) semicarbazides]. We got corresponding tetracarbone acid.

## FLOTASIYA ÜSULUNUN METALLURGIYADA ƏHƏMIYYƏTININ TƏDQIQI

**Dos. N.İ.Əmiraslanova**
**Y.R.Abbasov**
**AzərbaycanTexnologiyaUniversiteti**
Yasin.abasov.20@gmail.com

Flotasiya-mineralların emal üsullarından biri, xüsusi səth enerjilərindəki fərq səbəbiylə mineralların səthdə yapışma-tutmaqabiliyyətindəki fərqə əsaslanır. Flotasiya, tərcümədə (fr.Flottation, flotterdən- üzməküçün) –suyun səthində üzmək, incə-bərk hissəciklərin, ən çox mineralların və parçalanar qayrılmış (dağılmış) fazanın damcılarının emulsiyalardan ayrılmasıdır [1.2]. Maye (su) iləhissəciklərin (damcıların) nəmlənmə qabiliyyətindəki fərqə və bir qayda olaraq maye - qaza (çox nadir hallarda bərk hissəciklər - maye) ayrıcı səthə (interfeysə) seçici yapışmalarına əsaslanır. Flotasiya xüsusi maddələrdən – flotasiya reagentlərindən (flotasiya reaktivləri) istifadə etməklə aparılır [ 3,4] . Elementar flotasiya prosesitermodinamik xüsusiyyətlərlə

müəyyən edilir. Bir hissəciyin hava qabarcığına yapışma ehtimalı sərbəst enerji itkisi ilə müəyyən edilir, bu nə qədər böyükdürsə, təmas bucağıda bir o qədər böyük (yəni, mineralın səthinə qədər hidrofobik olarsa, onun hava qabarcığına yapışma ehtimalı bir o qədər yüksək ) olar.

Flotasiya ilə doymuş məhlullarda asılmış halda suda həll olunan duzlar (məsələn, silvinit ($KCl$) halitdən, ($NaCl$) ayırmaq olar. Flotasiya sayəsində incə yayılmış filiz yataqları sənaye istehsalına cəlb olunur və mineralların kompleks istifadəsi təmin edilir.Flotasiya eyni zamanda suyun üzvü maddələrdən (neft, yağlarvə s.), duzların və çamurun incə çöküntülərindən təmizlənməsi, bakteriyaların təcrid edilməsi və ayrılması və s. məqsədi ilə aparılır.

Həqiqi flotasiya şəraitində mineral hissəciklərin hava qabarcıqlarına yapışmasının nəticəsi, qabarcığı və hissəciyi ayıran su qatının dağılma kinetikası ilə müəyyən edilən, yəni yapışma kinetikası ilə müəyyən edilir.

Buradan aydın olurki, mineral hissəciyin səthi qədər hidrofobik olarsa, toqquşma qüvvəsi və hissəciyi sudakı hava qabarcığına lövbərləmək üçün lazım olan təmas müddəti bir o qədər az olar. Kinetik şəraitdə zərrəciklərin ölçüsü və forması, səthinkələ-kötürlüyü (pürüzlülüyü) və s. Formalarıda yapışmaya əhəmiyyətli təsir göstərir. Kiçik hissəciklər üçün flotasiya ehtimalı əsasən onların qabarcıqlarla toqquşması ehtimalı üzrə, böyük olan hissəciklər üçün isə hissəciyin qabarcığa sabit yapışma ehtimalı üzrə aparılır.

Yuxarıda qeyd olunanları nəzərə alaraq qeyd etmək olar ki, flotasiyanın əsas tətbiq sahəsi əlvan metallurgiyadır.Flotasiya mineral zənginləşdirilməsi və emalının əsas üsullarından biridir.Onun köməyi ilə: bütün mis, molibden və qurğuşun-sink filizləri, berilyumun bir hissəsi, bismut, dəmir, qızıl, litium, manqan, arsenik, qalay, civə, gümüş, sürmə, titan vədigərfilizlər; qeyri -metal minerallar-apatitvəfosforitlər, barit, qrafit, əhəngdaşı (sement istehsalı üçün), maqnezit, qum (şüşə istehsalı üçün), flüorvəçöl şpatlarıvə s. zənginləşdirilir.Ümumiyyətlə flotasiya metallurgiya sənayesində əsas proseslərdəndir.

**Ədəbiyyatsiyahısı:**


1. Абрамов А. А. Технология переработки и обогащения руд цветных металлов. Т. III, кн. 1. Рудоподготовка и Cu, Cu–Py, Cu–Fe, Mo, Cu–Mo, Cu–Zn руды (575 с.) ; кн. 2. Pb, Pb–Cu, Zn, Pb–Zn, Pb–Cu–Zn, Cu–Ni, Co-, Bi-, Sb-, Hg-содержащие руды (472 с.). М. : Изд-во МГГУ, 2005
2. Абрамов А.А. Собрание сочинений.Флотация. Физико-химическое моделирование процессов.М.:Изд-воМГГУ«Горная книга», 2010.607 с
3. Чантурия В. А., Вигдергауз В. Е. Электрохимия сульфидов. Теория и практика флотации. М.:Изд-во «Руда и металлы»,2008. 272 с
4. Абрамов А. А. Флотационные методы обогащения. 3-е изд., перераб. и доп. М. : Изд-во МГГУ, 2008. 710 с


## ИССЛЕДОВАНИЕ ЗНАЧЕНИЯ МЕТОДА ФЛОТАЦИИ В МЕТАЛЛУРГИИ

**Доц. Н.И.Амирасланова**
**Я.Р.Аббасов**
**Азербайджанский Технологический Университет**
**Yasin.abasov.20@gmail.com**

В связи с вышеизложенным следует отметить, что основная область применения флота-

ции - это металлургия. Флотация - один из основных способов обогащения и переработки полезных ископаемых. С его помощью: обогащаются все медные, молибденовые и свинцово-цинковые руды, часть бериллиевых, висмутовых, железных, золотых, литиевых, марганцевых, мышьяковых, оловянных, ртутных, серебряных, сурьмяных, титановых и других руд; неметаллические полезные ископаемые - апатит и фосфориты, барит, графит, известняк (для производства цемента), магнезит, песок (для производства стекла), фтор и полевые шпаты и др. В целом флотация является одним из основных процессов в металлургической промышленности.

## RESEARCH OF THE IMPORTANCE OF THEFLOTATION METHOD IN METALLURGY

**Prof. N.I.Amiraslanova**
**Y.R.Abbasov**
**Azerbaijan Technological University**
**Yasin.abasov.20@gmail.com**

In connection with the above, it should be noted that the main field of application of flotation is metallurgy. Flotation is one of the main methods of enrichment and processing of minerals.
With its help: all copper, molybdenum and lead-zinc ores, part of beryllium, bismuth, iron, gold, lithium, manganese, arsenic, tin, mercury, silver, antimony, titanium and other ores are enriched; non-metallic minerals - apatite and phosphorites, barite, graphite, limestone (for cement production), magnesite, sand (for glass production), fluorine and feldspars, etc. In general, flotation is one of the main processes in the metallurgical industry.

# VIBÖLMƏ

# İQTISADIYYAT VƏ MENECMENT

# MALIYYƏ-BANK SISTEMININ KOOPERASIYA ƏLAQƏLƏRININ INKIŞAFINA TƏSIRI.

**Dos. X.M.Ağayeva**
**L.A.Əsgərova**

Azərbaycanda həyata keçirilən iqtisadi islahatların sosial yönümlü və nəticələri daim diqqət mərkəzindədir. Birmənalı şəkildə demək olar ki, ölkənin artan iqtisadi qüdrəti vətandaşların həyat səviyyəsinin yüksəlməsinə, onların həyat keyfiyyətinin yaxşılaşdırılmasına xidmət edir. Əhalinin ərzaq məhsulları ilə etibarlı təminatında kooperasiya amilinin yeri və rolu təbiət- cəmiyyət-dövlət tandeminin xarakteri və səmərəliliyi ilə şərtlənir. İdxal olunan ərzaq məhsullarından güclü asılılıq, dünyadakı qeyri-sabitlik, ərzaq idxal edən aparıcı ölkələrdə baş verən iqtisadi böhranlar, qlobal ərzaq inflyasiyası səbəbindən ölkə əhalisinin ərzaqla etibarlı təminatına mənfi təsir edir. Odur ki, ərzaqla etibarlı təminatı və ərzaq təhlükəsizliyi məsələlərin vahid kontekstdə baxılmalıdır.

Kooperasiya özünün iqtisadi təbiəti, spesifik xüsusiyyətləri və geniş funksiyaları hesabına cəmiyyətin inkişafının çətin dönəmlərində, böhran şəraitində milli iqtisadiyyatın sağlamlaşdırılmasında mühüm rol oynamış və oynamaqdadır. Kooperativlərin resursların cəlb edilməsi, maliyyə-bank sisteminin inkişaf etdirilməsi, satış bazarlarının əldə edilməsi, kənd təsərrüfatına məşğulluğun səviyyəsinin yüksəldilməsi və quruluşunun yaxşılaşdırılmasında mühüm imkanları gerçəkləşdirilməlidir. İntensiv inkişaf özünəməxsus kooperasiya mühiti formalaşdırır. İntensiv inkişaf mühiti islahatların innovasiya yönümünü gücləndirməklə inteqrasiya münasibətlərini də intensivləşdirmək iqtidarındadır.

Kooperasiyaların inkişaf etdirilməsinin səmərəliliyi qarşılıqlı əlaqəli fəaliyyət göstərən istehsal, emal, satış qurumlarının fəaliyyətinin optimal təşkilində, ərzaq təhlükəsizliyinin təminatında, dayanıqlı inkişaf imkanlarının reallaşdırılmasında, innovativ fəallığın yüksəldilməsində və kəndin sosial tərəqqisində ifadə olunmalıdır. Aqrar sahədə yeni yaranmış təsərrüfatların ölçülərinin tənzimlənməsi baxımından kooperasiyanın təşviqi obyektiv zərurətdir.

Kooperasiyaların yaradılması mexanizmi hazırlanarkən kənd təsərrüfatı texnikasının növləri üzrə differensiya aparılması məqsədəuyğundur. Differensasiya amillərinə, ilk növbədə torpaq iqlim şəraiti, təsərrüfatın ixtisaslaşması, ərazilər üzrə yerləşmə, təkrar istehsal proseslərinin maliyyə-bank sistemi vasitəsilə dəstəklənməsinin regional prioritetləri, kənd təsərrüfatı texnikası bazarının və regionun maliyyə bazarının vəziyyəti aid edilməlidir.

Qabaqcıl xarici təcrübə göstərir ki, aqrar sahədə kooperasiyanın inkişafı milli iqtisadiyyatın digər sahələrdə kooperasiya hərəkatının təkan vericisi olur. Dövlətin kooperasiya hərəkatını stimullaşdırmağa yönəlmiş fəaliyyəti aqrar-sənaye istehsalı iştirakçılarının inteqrasiya proseslərinə marağını artırır. Maliyyə-bank sisteminin resursları ilə təminat təkcə kənd təsərrüfatı kooperativlərində istehsalı deyil, həmçinin onların məhsullarının satışı sferasını da fəallaşdırır. Kənd yerlərində kooperasiya təcrübəsi həmçinin şaquli inteqrasiyanın motivasiyası nöqteyi-nəzərindən diqqətə layiqdir.

Kənd təsərrüfatı kooperasiyanın stimullaşdırılması pozitiv makro və mikromühit təsirlərinin gücləndirilməsinə, neqativ təsirlərin neytrallaşdırılmasına yönəldilməlidir. Bu məqsədlə proqram-məqsədli yanaşmadan istifadə olunmalı, əhalinin ərzaq malları ilə etibarlı təminatı üçün mövcud istehsal, resurs, institutsional və qismən iqtisadi- inzibati potensial hərəkətə gətirilməlidir.

**Ədəbiyyat siyahısı:**

1. Konstitusiyası. Bakı, Azərnəşr, 1997
2. "Azərbaycan Respublikasının Aqrar islahatın əsasları haqqında" Qanunu.Bakı,1995

3. "Azərbaycan Respublikasının Torpaq islahatı haqqında" Qanunu. Bakı,1996
4. "Azərbaycan Respublikasının kənd təsərrüfatında sığortanın stimullaşdırılması haqqında" Qanunu. Bakı, 2002
5. "Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı. Bakı, 2001
6. "Azərbaycan Respublikası regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004- 2008-ci illər) Bakı, 2004
7. Azərbaycanın kənd təsərrüfatı. Bakı, DSK, 2012
8. Azərbaycanın statistik göstəticiləri. Bakı, DSK, 2012
9. Az.ETKİ vəTİ-nin "Aqrar sahədə kooperasiya və inteqrasiya münasibətlərinin inkişafı" şöbəsinin 2012-ci illik hesabatı.
10. Aliyev İ.H., Məmmədova Ş.Ə.Aqrar sahənin inkişafının maliyyə mənbələri.bakı, Elm, 2007, 227s
11. Ataşov B.X.Ərzaq təhlükəsizliyinin aktual problemləri. Bakı, "Elm", 2005, 336 s
12. Vəliyev A.H. Torpaq istehsal vasitəsi kimi. Bakı, "Şərq- Qərb" Nəşriyyat evi, 2011, 84s.,s 27-28
13. Vəliyev T. İqtisad elminin nəzəri əsaslarının tarixi təkamülü. Bakı, "Elm". 1999,284s
14. Zeynallı Ə.Azərbaycan kənd təsərrüfatı coğrafiyasının müasir problemləri. Bakı "Elm",2005,392s
15. Буздалов И.Н. Возрождение кооперации. Москва, Экономика, 1990,175с
16. Ибрагимов М.А. Структурная реформа аграрного сектора: теория, методология и практика (на примере Азербайджанской Ресрублики). Saarbrucken, Germanv LAPLAMBERT Academic Publishing, 2012, 431

## ВЛИЯНИЕ ФИНАНСОВО-БАНКОВСКОЙ СИСТЕМЫ НА РАЗВИТИЕ КООПЕРАТИВНЫХ ОТНОШЕНИЙ.

**Доц, Х.М.Агаева**
**Л.А.Аскерова**

В статье рассмотрены вопросы воздействия финансово- банковской системы на развитие кооперативных связей. Также указана роль банковской системы по обеспечению ресурсами как производственной сферы так и сферы продаж. Стимулирование кооперации в отрасли должно быть направлено на усиление макро и микро воздействий, на нейтрализацию негативных воздействий. С этой целью должен быть использован програмно - целевой подход к решению проблемы, приведен в действие действующее производство по обеспечению населения пищевыми продуктами т. е весь экономико – административный потенциал.

## INFLUENCE OF FINANCIAL AND BANKING SYSTEM ON THE DEVELOPMENT OF COOPERATIVE RELATIONS.

**Prof. H.M.Agaeva**
**L.A.Askerova**

The article examines the impact of the financial and banking system on the development of cooperative ties. The role of the banking system in providing resources for both the production sphere and the sales sphere is also indicated. Stimulating cooperation in the industry should be aimed at enhancing macro and micro impacts, at neutralizing negative impacts. For this purpose, a program-targeted approach to solving the problem should be used, the existing production to provide the population with food products, that is, the entire economic and administrative potential, should be put into action.

# RƏQƏMSAL IQTISADIYYATIN ELEKTRON TICARƏTƏ TƏSIRI

**i.e.f.d. dos. Ə.Ə.Əhmədova**
**Azərbaycan Dövlət Neft və Sənaye Unversitentinin**
Akima.ahmedova@gmail.com

Rəqəmsal iqtisadiyyatın təşəkkülü və sürətli inkişafı iqtisadiyyatın bir çox sahələrində dəyişikliklərin və yeniliklərin yaranmasına gətirib çıxarır. Rəqəmsal mühitin yaradılmasının əsasını dövlət orqanları, vatandaşlar, o cümladan biznes qurumları arasında səmərəli münasibətlərin formalaşdırılması təşkil edir. Əsasən xidmətlərin, şəxsi sənədlərin, sertifikatların, gəlir vergisi və əməklə bağlı olan xidmətlərin vətəndaşlara onlayn formada təqdim edilməsi böyük əhəmiyyət kəsb edir.

Rəqəmsal iqtisadiyyat dövlət qurumları, beynəlxalq təşkilatlar, özəl sektorun, inkişafında mühüm rol oynayır. Rəqəmsal iqtisadiyyat anlayışının mahiyyəti onun sərhədsiz olduğunu göstərir. Rəqəmsal iqtisadiyyatın dünya ölkələri üzrə qeyri-bərabər inkişaf etdiyini nəzərə alaraq, elektron kommersiyanın imkanlarından faydalanmaqda və mövcud çətinliklərin aradan qaldırılmasında inkişaf etməkdə ölkəmiz müəyyən addımlar atır.İnkişaf etməkdə olan ölkələrdə yerli platformaların ölkədaxili və transsərhəd elektron kommersiya üçün dəstəklənməsi, kiçik və orta sahibkarların elektron ticarət sahəsində fəaliyyətlərinin dəstəklənməsi, inkişaf etməkdə olan ölkələrin beynəlxalq elektron ticarət platformaları ilə bağlı üzləşdiyi çətinliklər və bu çətinliklərin aradan qaldırılması yolları kimi mövzular müzakirə edilib [3].

Ölkəmizdə "Bakı E-kommersiya Forumu-2018" layihəsinin təqdimatı keçirilib. Tədbirdə çıxış edən nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə son illərdə qlobal iqtisadi çağırışlara uyğun genişmiqyaslı iqtisadi islahatların aparılmasından söz açıb. Ölkədə aparılan məqsədyönlü siyasət biznes və investisiya mühitinin əlverişliliyinin artırılması və ölkəmizin beynəlxalq reytinqlərdə mövqeyinin daha da yaxşılaşdırılması ilə nəticələnib. O bildirib ki, sahibkarlıq siyasətinə dair vahid yanaşmanın, innovasiyaların, beynəlxalq standartların daha geniş tətbiqi, ixrac bazarlarının araşdırılmasında dövlət dəstəyinin artırılması və digər dəstək mexanizmlərinin genişləndirilməsi ölkədə sahibkarlığın inkişafına böyük təkan verib.

İqtisadiyyatın diversifikasiyası, sahibkarlığın və qeyri-neft sektorunun inkişafı Azərbaycan Respublikasında həyata keçirilən iqtisadi siyasətin prioritet istiqamətlərindəndir: "Son illərdə ölkədə e-ticarət sürətlə inkişaf edir. 2016-cı ildə Azərbaycanda pərakəndə elektron kommersiya dövriyyəsi 25.613,000 manat, 2017-ci ildə isə 46.227.000 manat olub. Hazırda BMT-nin Ticarət və İnkişaf Konfransının (UNCTAD) B2C elektron kommersiya indeksində Azərbaycan 144 ölkə arasında 68-ci yerdədir". Daha sonra Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas çıxış edib.

Azərbaycanın Aİ üçün vacib partnyor olduğunu qeyd edən səfir bu əməkdaşlığın 20 ildən artıq davam etdiyini bildirib. Elektron kommersiya sahəsində ölkəmizin bir çox nailiyyətlər əldə etdiyini də deyən K.Yankauskas Azərbaycanın nəqliyyat qovşağına çevrilməsi üçün regional və coğrafi üstünlüyə malik olmasını vurğulayıb: "Dünyanın qloballaşması texnologiyaların paylaşmasını zəruri edir və bu gün bütün dünyada xidmətlər rəqəmsallaşır. Azərbaycan da bu açıq rəqabətə girməlidir. Bu baxımdan, "Azərbaycan Respublikasında elektron xidmətlərin və elektron ticarətin inkişafının gücləndirilməsi" layihəsi çox vacibdir. Artıq iki ildir ki, həyata keçirilən bu layihə çərçivəsində xeyli nailiyyətlər əldə olunub və biz bundan sonra da ən yaxşı təcrübələri Azərbaycana gətirməyə hazırıq". Amma dünya ticarəti ilə nisbətdə Azərbaycanın ticarət dövriyyəsində hələ də yaxşı nəticələr yoxdur.

İqtisadçıların fikrincə Avropa "Raqamsal Vahid Bazarı"nı bütünlüklə inkişaf etdirərək 2020-ci ilda 500 mld Avro gəlir qazana bilər [1].

Bu il vergi sahəsində aparılan islahatların istiqamətlərindən biri də "rəqəmsal iqtisadiyyat"ın, o cümlədən "e-ticarət"in vergiyə cəlb olunmasıdır. Müasir dövrdə internetin geniş yayılması iqtisadiyyatın

yeni inkişaf mərhələsinə başlamasına səbəb olub, informasiya texnologiyaları iqtisadiyyata nüfuz edib.Texnologiya və informasiya inqilabı nəticəsində son zamanlar yüksək sürətlə inkişaf edən yeni iqtisadi model kiberbiznesin yaradılmasını şərtləndirib. Kiberbiznes informasiya texnologiyasının tətbiqindən yaranan və idarə olunan bütün sahələri əhatə edir. "Rəqəmsal iqtisadiyyat" isə onun bir elementi olmaqla, iqtisadiyyatın informasiya texnologiyalarının köməyi ilə elektronlaşan hissəsidir.

Elektron ticarəti, elektron informasiya mübadiləsini, elektron idman-mərc oyunlarını, kapitalın elektron hərəkətini, elektron pulları, "e-bankinq"i, "e-sığorta"nı və s. özündə birləşdirən "Rəqəmsal iqtisadiyyat"ın ən geniş yayılmış növlərindən biri də elektron ticarətdir. Artıq dünya üzrə istifadəçilərinin sayı 1,5 milyarda çatan elektron ticarət iki yerə - "offline" və "online" bizneslərinə bölünür. Bunlardan "offline" biznesi dünya üzrə daha geniş yayılıb. Təkcə "offline" ilə pərakəndə satılan malların ümumi pərakəndə satışdakı təxmini payı 5,9 faiz müəyyən edilib.

Azərbaycanda bu sahənin vergiyə cəlb olunması ilə bağlı hansı bir cox yeni addımlar atılıb. Belə ki, internet şəbəkəsi vasitəsilə həyata keçirilən ticarət sövdələşmələri genişlənir. Lakin elektron ticarət əməliyyatlarının virtual aləmdə həyata keçirilməsi həmin əməliyyatların vergiyə cəlb edilməsi məsələlərini çətinləşdirir [2].

Vergi sahəsində aparılan islahatların mühüm istiqamətlərindən biri də vergi ödəyicilərinin vergi risklərini minimuma endirmək və vergidən yayınma hallarının qarşısını almaq məqsədilə "Könüllü vergi açıqlaması" sisteminin tətbiqi və təşviqi mexanizminin hazırlanmasıdır.

Rəqəmsal iqtisadiyyatın və informasiya cəmiyyətinin inkişafı elektron ticarətin, elektron hökümətin, elektron bələdiyyələrin formalaşması xüsusiyyətləri, rəqəmsal iqtisadiyyatın tətbiqi proqramları, İKT-nin iqtisadi inkişafda rolunun artırılması istiqamətlari barəsində təklif və tövsiyyələrin hazırlanmasından ibarətdir.

**Açarsözlər:**rəqəmsalticarət, kommersiya

**Ədəbiyyat siyahısı:**

1. http://ict.az/az/content/203
2.http://www.azlibnet.az/pdf/serencamlar/sr1.pdf
3. http://www.mincom.gov.az/fealiyyet/it/
4. unec.edu.az
5. https://az.wikipedia.org

## Влияние цифровой экономики на электронную коммерцию

**Доц. А.А.Ахмедова**
**Азербайджанский Государственный Нефтяной и Промышленный Университет**
**Akima.ahmedova@gmail.com**

Появление и быстрое развитие цифровой экономики приведет к изменениям и инновациям во многих сферах экономики. Основой для создания цифровой среды является установление эффективных отношений между государственными органами, гражданами и бизнес-структурами. Предоставление гражданам услуг, удостоверяющих личность документов, справок, подоходного налога и трудовых услуг в режиме онлайн имеет огромное значение.

**Ключевыеслова**: цифроваякоммерция, коммерция

## Impact of digital economy on e-commerce

**Prof. A.A.Axmadova**
**Azerbaijan State Oil and Industry University**
**Akima.ahmedova@gmail.com**

The emergence and rapid development of the digital economy will lead to changes and innovations in many areas of the economy. The basis for the creation of the digital environment is the establishment of effective relations between government agencies, citizens and business entities. Online provision of services, identity documents, certificates, income tax and labor-related services to citizens is of great importance.

**Keywords:** digital commerce, commerce

# BAZAR İQTİSADİYYATININ FƏRQLƏNDİRİCİ CƏHƏTLƏRİ VƏ XÜSUSİYYƏTLƏRİ

**i.e.d. C.S.Zeynalov, S.F.Babakişiyeva**
**Azərbaycan Texnologiya Universiteti**
**sbabakishiyeva@mail.ru**

Bazar iqtisadiyyatı təsərrüfat təşkilinin elə xüsusi tipini ifadə edir ki, onun əsas subyektləri olan istehsalçı və istehlakçı arasında əlaqələri tənzimləyən aralıq idarəedici, planlaşdırıcı və digər inzibati təsisatlar mövcud olmur. Yəni, bazar iqtisadiyyatı amirlik iqtisadi sisteminin alternatividir.

Bazar iqtisadiyyatının tarixi genetik əsasını əmtəə təsərrüfatı təşkil edir. Belə ki, əmtəə təsərrüfatının meydana gəlməsi və inkişafı ilə əlaqədar olaraq bazar formalaşmış və onun mühüm ünsürünə çevrilmişdir. Bazarın əmələ gəlməsi isə bilavasitə ictimai əmək bölgüsünün yaranması ilə əlaqədardır. İlk böyük ictimai əmək bölgüsü olan maldar tayfaların əkinçilikdən ayrılması nəticəsində əməyin ixtisaslaşması ictimai istehsalın səmərəliliyini yüksətməklə əmtəələrin mübadiləsini zəruri etmişdir. Qədim tayfaların təsadüfi məhsul mübadiləsindən başlayaraq pulun ümumi ekvivalent kimi çıxış etdiyi müasir bazara qədər mübadilə tədricən genişlənmiş və təkmilləşmişdir.

Bazar münasibətlərinin yaranmasının digər mühüm şərti istehsalçıların iqtisadi cəhətdən əlahiddəliyi olmuşdur. İctimai əmək bölgüsü şəraitində istehsalçıların iqtisadi əlahiddəliyi (ayrılığı) onların arasındakı iqtisadi əlaqələrin bazar formasını təbii zərurətə çevirmişdir. İstehsalçıların iqtisadi ayrılığı onların öz məhsullarına sərəncam verməyə, özgəninkiləşdirməyə, sahib olmağa və istifadə etməyə, yəni onun mülkiyyətçisi olmağa imkan verir [3].

Bazar iqtisadiyyatının iqtisadi əsasını istehsal vasitələri və iş qüvvəsinin müxtəlif şəkildə ayrılmış mənimsəmə formaları təşkil edir. Bu zaman mülkiyyət heç olmazsa istehsal amillərindən biri üzrə elə əlaqələri ifadə edir ki, cəmiyyətin ancaq bəzi üzvləri ona özününkü kimi münasibətdə olurlar. Buna görə də bazar iqtisadiyyatının subyektləri kimi istehsal amillərinin mənimsənilməsi üzrə ən müxtəlif iqtisadi münasibətləri təmsil edən insanlar və ya kollektivlər çıxış edirlər.

Bazar iqtisadiyyatının əsas tənzimləyici mexanizmi bazarın özüdür ki, o da son dərəcə cürbəcür olmaqla özünün xüsusi qanunları əsasında fəaliyyət göstərir. İqtisadiyyat sahəsində 1970-ci ildə Nobel mükafatına layiq görülmüş P.Samuelsonun təbirincə desək, bazar elə nizamlanmış strukturdur ki, bunun vasitəsilə əmtəənin satıcıları və alıcıları onun qiyməti və miqdarını müəyyən etmək üçün qarşılıqlı fəaliyyət göstərirlər.

Bazarı iqtisadi fəaliyyətin təşkilinin digər tiplərindən fərqləndirən bir çox cəhətlər vardır ki, onlar da əsasən aşağıdakılardır.

Əvvələn, həqiqi bazar ona həm sərbəst daxil olmağı, həm də ondan sərbəst çıxmağı nəzərdə tutur. Məhz buna görə də bazarın iştirakçılarının sayı heç nə ilə məhdudlaşmır. Həm də iştirakçılar nə qədər çox olarsa bazar qanunları daha geniş fəaliyyət göstərirlər.

İkincisi, bazarda çoxsaylı əmtəə istehsalçıları təmsil olunduqlarına görə ayrı-ayrı əmtəə istehsalçıları öz qiymətini istehlakçıya diktə edə bilmək üçün bazara lazım olan qədər əmtəə çıxara bilmirlər. Hər bir satıcı öz əmtəəsinə daha yüksək qiymət qoymağa çalışır, lakin satıcılar çox olduğundan istehlakçıların tələbinin təsiri altında ümumi qiyməti tənzimləməyə məcbur olurlar. Bu zaman rəqabət mexanizmi fəaliyyət görtərməklə bazar münasibətlərini tənzim edir.

Üçüncüsü, bazarda maddi, maliyyə və insan resurslarının sərbəst surətdə yerləşdirilməsi nəzərdə tutulur. Bazarın hər bir iştirakçısı öz gəlirini artırmağa çalışdığına görə resursların yerini daha çox mənfəət verən, yeni imkanlardan istifadə olunan, qabaqcıl texnologiyanın mənimsənildiyi, əməyin daha yaxşı ödənildiyi sahələrə dəyişməli olurlar.

Dördüncüsü, bazar bütün iştirakçılar üçün bərabər imkanı təmin etdiyinə görə hər kəsin tələb və təklif, qiymət, əmtəələrin xüsusiyyətləri və s. haqqında tam məlumata malik olması hüququ da təsdiq

edilir. Bu da hər bir iştirakçıya mövcud imkanlardan ən yaxşısını seçməyə şərait yaradır. Lakin, imkan və onun gerçəkliyə çevrilməsi arasında müəyyən ayrılıq da ola bilər.

Beşincisi, azad bazarda hər hansı bir satıcı qurupu üçün güzəşt (məs., əmtəələrin ticarət nişanlarına görə və s.) olunması imkanı istisna edilir. Əgər bütün əmtəələr standarta uyğundursa, onlar mütləq mənada eyni növlü sayılırlar [3].

Məlumdur ki, kifayət qədər əmtəə bolluğu yaradılmazsa bazar iqtisadiyyatı formal xarakter daşıyar. Deməli, əmtəə-bazar münasibətlərinin maddi bazasının genişləndirilməsi məqsədəuyğun surətdə tənzim edilməlidir. Buna respublikamızın ayrı-ayrı regionlarında mövcud xammala əsaslanan hazır məhsullar, xüsusən də yeyinti sənayesi məhsulları istehsalının artırılması sayəsində nail olmaq mümkündür.

Yeni təsərrüfatçılıq şəraitində ölkəmizdəki əmtəə-bazar münasibətlərinin genişləndirilməsində istehsalın kombinasiyalaşdırılması üsulu səmərəli vasitələrdən biridir. Hazırda respublikamızın əsasən xammal ixrac etdiyi ilə əlaqədar olaraq bazar iqtisadiyyatı şəraitində xüsusi əhəmiyyət kəsb edən, yüksək gəlir gətirə bilən müəssisələrdə istehsalın kombinasiyalaşdırılması üsuluna keçilməsi bazar münasibətləri baxımından faydalıdır. Bunun başqa üstünlükləri də vardır. Məsələn, mövcud müəssisələrin kombinasiyalaşma yolu ilə işləməsi nisbətən az vəsait qoyuluşu tələb edir, əmtəə istehsalının artırılmasına, mənfəətin çoxaldılmasına, əmək məhsuldarlığının və rentabelliyin yüksəldilməsinə imkan verir.

Hazırda ölkəmizin bəzi bölgələrində istehsalın kombinasiyalaşdırılması sahəsində müəyyən işlər görülsə də, bazar iqtisadiyyatı bu istiqamətdə ciddi dəyişikliklərin baş verməsini tələb edir. İlk növbədə çalışmaq lazımdır ki, xammalın daha çox hissəsi son məhsula çevrilsin, həmin məhsulun çeşidi genişləndirilməklə keyfiyyəti yüksəldilsin və rəqabətə davamlılıq qabiliyyəti artırılsın [2].

Əmtəə-bazar münasibətləri kateqoriyaları arasında rəqabət xüsusi yer tutur. Çünki əmtəə-bazar münasibətləri və rəqabət prinsipi bir-biri ilə bağlıdır. Rəqabət əmtəə-bazar münasibətlərinə daxilən xasdır və bilavasitə onun təbiətindən irəli gəlir. Azad bazar rəqabəti istehsal dairəsində işin səmərəli təşkilinə, məhsulun keyfiyyətinə və onun insanların zövqünə uyğun gəlməsinə böyük təsir göstərir. Rəqabət bazar iqtisadiyyatının əsasıdır. O, daha yaxşı əmtəə və xidmət nümunələri yaratmağa sövq etməklə istehsalda istehlakçıların tələblərinə əməl olunması meylini gücləndirir. Rəqabət prinsipi yeni müəssislərin yaradılmasına maraq oyadır, müxtəlif çeşiddə keyfiyyətli məhsul buraxılmasına şərait yaradır. O, həmçinin eyni məhsul istehsal edən və rəqabətə davam gətirə bilməyən müəssisələrin müflisləşməsinə və iflasa uğramasına da səbəb olur [3].

Bazar iqtisadiyyatına keçidin çətinlikləri nəzərə alınaraq bu sahədən yaxçı baş çıxara bilən mütəxəssis kadrlarının hazırlanması zərurəti meydana gəlmişdir. Bazar iqtisadiyyatı şəraitinə uyğun kadrların hazırlanması vacib problemlərdən olduğuna görə bu məsələnin həllinə böyük əhəmiyyət verilir. Buna konkret olaraq öz universitetimizin, yəni Azərbaycan Texnologiya Universitetinin timsalında da aydın görmək olar. Burada artıq neçə illərdir ki, bazar iqtisadiyyatına uyğun yeni kadrlar (menecer, marketoloq, auditor və s.) hazırlanır [2].

Bazar iqtisadiyyatının inkişafı istehsalçıların, cəmiyyətin müxtəlif sosial qruplarının mənafelərinə uyğun gəlməlidir. Bazar münasibətləri onun əsas prinsiplərinə, mülkiyyətçiliyin rəngarəngliyinə əməl edildikdə, bol və geniş çeşidli əmtəələr istehsalı və xidmət sahələrinə, sağlam rəqabət mübarizəsinə, maliyyə-kredit sisteminə və qiymət mexanizminə nail olunduqda səmərəli fəaliyyət göstərə bilər.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının iqtisadiyyatı uzun illər boyu əsasən xammal istehsalı istiqamətində inkişaf etdirilirdi. Yəni, o, xammal mənbəyi kimi başqa regionların əlavəsinə çevrilmişdir. Belə ki, respublikamızda istehsal olunan üzüm və pambığın 90%-ə qədəri son məhsula çevrilmək üçün keçmiş Sovetlər Birliyinin müxtəlif yerlərinə göndərilirdi. Əlbəttə, belə bir vəziyyət bazar münasibətlərinə geniş meydan aça bilməzdi. Odur ki, müstəqillik illərində respublikamızdakı mövcud xammal bazsı əsasında son məhsul istehsal edən obyektlərin yaradılması geniş vüsət almışdır. Bu ilk növbədə yeyinti məhsulları istehsalı sahələrinə aiddir.

Artıq 30 ildir ki, suveren dövlət olan Azərbaycanın dünya bazarına sərbəst, özü də xammal ilə deyil, son hazır məhsullarla çıxması bazar iqtisadiyyatı şəraitində obyektiv zərurətə çevrilmişdir [1].

**Açar sözləri:**bazar iqtisadiyyatı, ictimai əmək bölgüsü, istehsalçıların iqtisadi cəhətdən əlahiddələşməsi, bazar iqtisadiyyatının iqtisadi əsası, bazar iqtisadiyyatının əsas tənzimləyici mexanizmi, bazarın fərqləndirici cəhətləri, yeni təsərrüfatçılıq şəraiti, menecer, marketoloq, auditor

**Ədəbiyyat siyahısı:**

1. Abbasov C.M. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası. Bakı, 2005
2. Əliyev A., Şəkərəliyev A. Bazar iqtisadiyyatına keçid: dövlətin siyasəti. Bakı, 2002
3. Тарануха Ю.В. Микроэкономика: Учебник. Москва: Дело и Сервис, 2009

## РАЗЛИЧИТЕЛЬНЫЕ ЧЕРТЫ И ОСОБЕННОСТИ РЫНОЧНОЙ ЭКОНОМИКИ

**Д.С.Зейналов, С.Ф.Бабакишиева**
**Азербайджанский Технологический Университет**
**sbabakishiyeva@mail.ru**

В начале статьи раскрывается сущность и предпосылки возникновения рынка, определяются различия между рынком и другими типами организации экономической деятельности, исследуется способ комбирование производства как эффективное средство в расширении товарно-рыночных отношений в нашей стране.

В работе отмечается, что среди категорий товарно-рыночных отношений особое место занимает конкуренция как основы рыночной экономики и свободная рыночная конкуренция оказывает большое влияние на эффективность организации работы в сфере производства и качества продукции.

**Ключевые слова:**рыночная экономика, общественное разделение труда, экономическое обособление производителей, экономическая основа рыночной экономики, основной регулирующий механизм рыночной экономики, отличительные черты рынка, новые условия хозяйствования, менеджер, маркетолог, аудитор.

## DISTINCTIVE FEATURES AND FEATURES OF THE MARKET ECONOMY

**C.S. Zeynalov, S.F.Babakishiyeva**
**AzerbaijanTechnological University**
**sbabakishiyeva@mail.ru**

At the beginning of the article, the essence and prerequisites for the emergence of the market are revealed, the differences between the market and other types of organization of economic activity are determined, the method of combining production is studied as an effective means of expanding commodity market relations in our country.

The paper notes that among the categories of commodity-market relations, competition occupies a special place as the basis of a market economy and free market competition has a great influence on the efficiency of organizing work in the field of production and product quality.

**Keywords**: market economy, social division of labor, economic isolation of producers, economic basis of a market economy, the main regulatory mechanism of a market economy, distinctive features of the market, new business conditions, manager, marketer, auditor.

# AZƏRBAYCAN İQTİSADİYYATINDA MÜƏSSİSƏNİN İQTİSADİ VƏZİYYƏTİNƏ TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**F.İ.İsmayılov, G.Ş.Aydınlı**
**Azərbaycan Texnologiya Universiteti**
**gulcinaydin1999@gmail.com**

Vergi orqanlarının fəaliyyətində şəffaflığın təmin edilməsi,vergi inzibatçılığının əlverişli biznes mühitinin formalaşdırılmasına yönəldilməsi,korrupsiya və digər neqativ hallarla mübarizə sahəsində fəaliyyətin gücləndirilməsi məqsədilə aparılan struktur dəyişiklikləri çərçivəsində Vergilər Nazirliyində Rəqəmsal vergi inzibatçılığı departamenti yaradılıb.Yeni yaradılmış departament elektron vergi inzibatçılığının tətbiqi,onun texnoloji təminatının daha yüksək səviyyəyə çatdırılması,məsafədən vergi xidmətlərinin göstərilməsi,operativin formasiya mübadiləsinin təmin edilməsi,informasiya təhlükəsizliyi sisteminin idarə edilməsi,vergi ödəyicilərinə aid məlumatların məxfiliyinin tam qorunması və digər istiqamətlərdə fəaliyyət göstərəcək.Departamentin tərkibində Vergi Ödəyicilərinə məsafədən xidmət şöbəsi,İnformasiya təhlükəsizliyi şöbəsi və İnformasiya texnologiyaları şöbəsi yaradılıb.

Vergilər Nazirliyinin rəqəmsal texnologiyalardan istifadənin genişləndirilməsi sahəsində hədəflərindən biri onlayn kassa aparatlarının tətbiqidir.Hazırda nəzarət-kassa aparatlarından nazirliyin sisteminə ötürülən məlumatlar oflayn rejimdə həyata keçirilir.Vergilər Nazirliyinin məqsədi ondan ibarətdir ki,kassa aparatları sahəsində şəffaflıq təmin olunsun.Bunun üçün yaxın gələcəkdə yeni texnologiyadan istifadə etməklə onlayn kassa aparatlarının tətbiqi planlaşdırılır.Nazirliyinin formasiya sistemi və onlayn kassa aparatı arasında məlumat mübadiləsi onlayn rejimdə həyata keçiriləcəkdir.Nəticədə nazirliyin sistemində vergi ödəyicilərinin əməliyyat məlumatları daha dürüst olacaq və satış mühasibatlığında şəffaflığı artıracaq.Bundan əlavə,kassa aparatları üzrə texniki tələblərə yenidən baxılması planlaşdırılır.

**Ədəbiyyat siyahısı:**

1. www.taxes.gov.az
2. ARKonsitutsiyası , 2021

## ОЦЕНКА ВЛИЯНИЯ НА ЭКОНОМИЧЕСКОЕ СОСТОЯНИЕ ПРЕДПРИЯТИЯ В ЭКОНОМИКЕ АЗЕРБАЙДЖАНА

**Ф.И.Исмаилов, Г.Ш.Айдынли**
**Азербайджанский Технологический Университет**
**gulcinaydin1999@gmail.com**

В рамках структурных преобразований в Министерстве по налогам и сборам создан Департамент цифрового налогового администрирования,направленный на обеспечение прозрачности деятельности налоговых органов,направленность налогового администрирования на создание благоприятной бизнес-среды,усиление борьбы с коррупцией и другими негативными явлениями.Вновь созданный отдел будет заниматься внедрением электронного налогового администрирования,его технологической поддержкой, дистанционным налоговым обслуживанием,оперативным обменом информацией,управлением системой информационной безопасности, полной защитой конфиденциальностии нформации о налогоплательщиках и другими направлениями. В составе департамента созданы Департамент дистанционного обслуживания налогоплательщиков,Департамент информационной безопасности и Департамент информационных технологий.

## ASSESSMENT OF THE IMPACT ON THE ECONOMIC CONDITION OF THE ENTERPRISE IN THE ECONOMY OF AZERBAIJAN

**F.I.Ismayilov, G.Sh.Aydinli**
**Azerbaijan Technological University**
**gulcinaydin1999@gmail.com**

The Digital Tax Administration Department has been established at the Ministry of Taxes as part of structural changes to ensure transparency in the activities of tax authorities,focus the tax administration on creating a favorable business environment,and strengthen the fight against corruption and other negative phenomena.The newly established department will work on the introduction of electronic tax administration,its technological support,remote tax services, operational information exchange,information security system management,full protection of taxpayer information confidentiality and other areas. The Department of Remote Taxpayer Services, Information Security Department and Information Technology Department have been established within the department.

# KORPORATIV ŞƏBƏKƏLƏRIN ETIBARLILIĞINA TƏSIR EDƏN AMILLƏRIN TƏHLILI

**T.e.d, prof. B.M.Bağırov**

**A.P.Ədilov**

**Azərbaycan Texnologiya Universiteti**

**bayram-bagirov@rambler.ru**

**aqiladilov@gmail.com**

Korporativ informasiya şəbəkəsi müəssisə işçilərinin işlədiyi istehsal proseslərinin vəkompüter proqramlarının avtomatlaşdırılması sistemidir. Şəbəkənin əsas təyinatı müəssisə və ya korporasiyanın təsərrüfat fəaliyyətini idarə etməkdir. Bu şəbəkənin etibarlı işinin təmin olunması üçün sistemə təsir edən amillər araşdırılmış və təyin edilmişdir.

Korporativ şəbəkə - bir müəssisə və ya qurumun bir və ya bir-birindən sıx məsafədə yerləşən binalarda yerləşdiyi ərazini əhatə edən bir-biri ilə əlaqəli lokal şəbəkələr məcmusudur.

Bununla belə, korporativ şəbəkə coğrafi olaraq paylanmışdır, yəni bir-birindən xeyli məsafədə yerləşən idarələri, şöbələri və digər strukturları birləşdirəndir. Korporativ şəbəkənin qurulması prinsipləri yerli şəbəkə yaratmaq üçün istifadə olunanlardan tamamilə fərqlidir. Bu məhdudiyyət əsasdır və korporativ şəbəkənin layihələndirilməsi zamanı ötürülən məlumatların miqdarını minimuma endirmək üçün bütün tədbirlər görülməlidir. Əks halda, korporativ şəbəkə onun üzərindən ötürülən məlumatı hansı proqramlara və onların emal etməsinə məhdudiyyətlər qoymamalıdır. Hazırda korporativ şəbəkə strukturunun seçimi empirik şəkildə həyata keçirilir [1].

Bir qayda olaraq, bu öz təcrübələrinə əsaslanaraq mütəxəssislər tərəfindən edilir. Beləliklə, korporativ şəbəkənin strukturunun seçilməsi prosesi şirkətdən asılıdır. İlkin mərhələdə, korporativ şəbəkələrin sayı az olanda, şəbəkə strukturunun seçilməsinin bu üsulu məqbul sayılırdı. Hesablama və telekommunikasiya sahəsində sürətli inkişaf korporativ şəbəkələrə tələbatın da kəskin artmasına səbəb olmuşdur. Korporativ şəbəkələrin strukturlarını seçmək üçün ictimaiyyətə açıq üsulların və alqoritmlərin olmaması onların inkişafını nəzərəçarpacaq dərəcədə ləngidir. Bu problemə sistemli yanaşma tələb olunur. Effektiv ictimaiyyətə açıq metodların mövcudluğu şəbəkə dizaynının vaxtını və xərclərini əhəmiyyətli dərəcədə azaldır və bu mürəkkəb problemin həllini daha geniş mütəxəssislər üçün daha əlçatan edir [1,2].

Korporativ şəbəkənin təşkilinin mümkün olduğu əsnada müasir texnologiyalar verilənlərin ötürülməsi üsullarına görə təsnif edilə bilər. Ümumiyyətlə, üç belə əsas üsul var:

- kanal dəyişikliyi;
- mesajın dəyişdirilməsi;
- paketin dəyişdirilməsi.

O, keyfiyyətsiz rabitə kanalları ilə işləmək üçün nəzərdə tutulub. Keyfiyyətin artması ilə informasiyanın ötürülməsi üçün Frame Relay şəbəkələrində öz yerini tapan HDIC kimi protokoldan istifadə etmək mümkün olur. Yüksək performansa və texniki çevikliyə nail olmaq istəyi SMDS texnologiyasının inkişafı üçün hərəkətverici qüvvə oldu və imkanlar. daha sonra ATM standartlaşdırması ilə genişləndi [3].

Korporativ şəbəkələrin məhsuldar və etibarlı işinin təşkili üçün bir sıra vacib, praktiki əhəmiyyətə malik tələblər vardır.

Etibarlı işin təşkili üçün korporativ şəbəkələrə əsas tələblər bunlardır:

- şəbəkənin məhsuldarlığı və ötürmə qabiliyyəti müvafiq texniki xassələri təmin etməlidir:
- hər bir iş yerində 10 Mb/s-dən çox sürətlə İnternetə çıxışın mövcudluğu;
- hər bir iş yerində IP ünvanının olması;

- təşkilatın korporativ şəbəkəsi şöbələrin iş stansiyaları və serverlər arasında fasiləsiz məlumat axını:

Korporativ şəbəkələrin üstünlükləri bunlardır:

- Bütün texniki cihazların bir qrupda birləşdirilməsi;
- Müxtəlif formatlı məlumatlara sürətli çıxış;
- İnformasiyanın rahat emalı və ötürülməsi;
- Şəbəkənin ayrı-ayrı hissələrini təkmilləşdirmək imkanı;
- Məlumat təhlükəsizliyi;
- Real vaxt rejimində bütün korporativ fayllara daxil olmaq;
- Personal tərəfindən həyata keçirilən bütün əməliyyatları uzaqdan idarə etmək imkanı [3,4].

Göründüyü kimi, korporativ şəbəkələrin bütün üstünlüklərinə nail olmaq üçün birinci növbədə bu şəbəkələrə qoyulan tələblər və onu yerinə yetirmək üçün üsul və vasitələr olunmalıdır.

**Açar sözər:** şəbəkə, protokol, təhlükəsizlik, ethernet, idarəetmə

**Ədəbiyyatsiyahısı:**

1. Корячко, Д. А. Корпоративные сети. Технологии, протоколы, алгоритмы
2. Шиндер Д.Л. Основы компьютерных сетей / Пер. с англ. - М.: Вильямс,2002
3. Транебаум Э. Компьютерные сети. 4-е издание - СПб.: Питер, 2006, 992с
4. https://www.sviaz-expo.ru/ru/articles/korporativnaya-ofisnaya-set/

## АНАЛИЗ ФАКТОРОВ, ВЛИЯЮЩИХ НА НАДЕЖНОСТЬ КОРПОРАТИВНЫХ СЕТЕЙ

**Д.т.н., проф.Б.М.Багиров, А.П.Адилов**
**Азербайджанский Технологический Университет**
**bayram-bagirov@rambler.ru**
**aqiladilov@gmail.com**

Корпоративная информационная сеть - это система автоматизации производственных процессов и компьютерных программ, которыми пользуются сотрудники предприятия. Основной целью сети является управление экономической деятельностью предприятия или корпорации. Факторы, влияющие на систему, были исследованы и идентифицированы для обеспечения надежной работы этой сети.

**Ключевые слова:** сеть, протокол, безопасность, Ethernet, управление

## ANALYSIS OF FACTORS AFFECTING THE RELIABILITY OF CORPORATE NETWORKS

**Prof. B.M.Bagirov, A.P.Adilov**
**Azerbaijan Technological University**
**bayram-bagirov@rambler.ru**
**aqiladilov@gmail.com**

A corporate information network is a system for automating production processes and computer programs used by employees of an enterprise. The main purpose of the network is to manage the economic activities of an enterprise or corporation. The factors influencing the system have been researched and identified to ensure the reliable operation of this network.

**Keywords:** network, protocol, security, ethernet, management

# İNVESTISIYALAR VƏ ONLARIN GERI QAYTARILMASI

**İ.f.d., dos. F.İsmayılov**
**T.N.Rəhimov**
**Azərbaycan Texnoloji Universiteti**
**telman.rehimov@mail.ru**

**İnvestisiya**-gəlir (mənfəət) və ya sosial səmərə əldə etmək məqsədi ilə sahibkarlıq və digər fəaliyyət növləri obyektlərinə qoyulan maliyyə vəsaitindən, habelə maddi və intellektual sərvətlərdən ibarətdir. Belə vəsait və sərvətlər aşağıdakılardır:

- pul vəsaiti,
- məqsədli bank əmanətləri,
- kreditlər,
- paylar,
- səhmlər və digər qiymətli kağızlar;
- daşınar və daşınmaz əmlak (binalar, qurğular, avadanlıq və» başqa maddi sərvətlər);
- müvafiq qaydada rəsmiləşdirilmiş elmi-təcrübi və digər intellektual sərvətlər;

Bu və ya digər istehsal növünün təşkili üçün zəruri olan ancaq patentləşdirilməmiş, texniki sənədləşdirmə, vərdiş və istehsalat-təcrübəsi kimi tərtib edilmiş texniki, texnoloji, kommersiya və digər biliklərin məcmusu («know-how»); torpaqdan, sudan və digər ehtiyatlardan, binalardan, qurğulardan, avadanlıqdan istifadə hüquqları, habelə müəlliflik hüququndan irəli gələn və başqa əmlak hüquqları; başqa sərvətlər.

Əsas fondların yaradılmasına və təkrar istehsalına, habelə maddi istehsalın digər formada inkişafına investisiya yönəldilməsi kapital qoyuluşları şəklində həyata keçirilir.




**Şəkil 1. Müxtəlif xüsusiyyətlər üzrə investisiya növləri**

Mənbə: Zeynalov V.Z. Azərbaycanda İnvestisiya siyasəti. Bakı 2012

**İnvestisiya fəaliyyəti**

**1.**İnvestisiya fəaliyyəti investorların investisiya qoyuluşu və onun həyata keçirilməsi ilə əlaqədar bütün hərəkətlərinin məcmusudur.

**2.** İnvestisiya fəaliyyətinin aşağıdakı növləri vardır:

Azərbaycan Respublikasının vətəndaşları, qeyri-dövlət müəssisə, idarə, təşkilat və qurumları

tərəfindən həyata keçirilən özəl investisiya fəaliyyəti;

dövlət hakimiyyət və idarəetmə orqanları, habelə dövlət müəssisə, idarə və təşkilatları tərəfindən büdcələrin, büdcədənkənar fondların, özlərinə məxsus və borc vəsaitinin hesabına həyata keçirilən dövlət investisiya fəaliyyəti;

xarici vətəndaşlar, hüquqi şəxslər, dövlətlər, beynəlxalq maliyyə təşkilatları, habelə vətəndaşlığı olmayan şəxslər tərəfindən həyata keçirilən xarici investisiya fəaliyyəti;

Azərbaycan Respublikasının və xarici dövlətlərin vətəndaşları, hüquqi şəxsləri və dövlətlər tərəfindən həyata keçirilən birgə investisiya fəaliyyəti.

**3.** İstehsalata və sosial sahəyə elmi-texniki tərəqqinin nailiyyətlərini tətbiq etmək üçün investisiya fəaliyyətinin bir forması kimi innovasiya fəaliyyəti həyata keçirilə bilər. İnnovasiya fəaliyyətinə aşağıdakılar daxildir:

uzunmüddətli elmi-texniki proqramların həyata keçirilməsi;

iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi məqsədi ilə məhsuldar qüvvələrin vəziyyətində keyfiyyət dəyişiklikləri etmək üçün fundamental tədqiqatların maliyyələşdirilməsi;

texnika və texnologiyanın prinsipcə yeni, qənaətcil növlərinin işlənib hazırlanması, buraxılması, yayılması və tətbiqi.

Bu gün bir çox insanlar bilir və başa düşür ki, maliyyə azadlığına gedən yol investisiyalardan keçir və maliyyə cəhətdən müstəqil və zəngin olmaq üçün gecə-gündüz işləmək lazım deyil, müəyyən pul vəsaiti əldə etmək üçün sadəcə maliyyə savadlılığı səviyyəsini artırmaq və passiv gəlir mənbələrini yaratmaq kifayyətdir.

İnvestisiya etmək üçün müasir zamanda bu sahədə bir o qədər biliyə də ehtiyac yoxdur. Yalnız investisiya əsaslarını öyrənmək, doğru investisiya vasitələrini tapmaq və optimal investisiya portfelini formalaşdırmaq lazımdır. Təcrübə əldə etdikdən və investisiya sahəsində müəyyən bilik səviyyəsinə çatdıqdan sonra isə daha riskli və gəlirli investisiyalara müraciət etmək olar.

İnformasiya mənbələrin əksəriyyəti investisiyaları gələcəkdə kapitaldan gəlir əldə etmək məqsədi ilə müəyyən bir pul vəsaitinin qoyuluşunu (sərmayəni) nəzərdə tutan bir fəaliyyət kimi təsvir edir. İnvestisiyaları əkin prosesi ilə müqayisə etdikdə hər şey daha sadə görsənir. İnvestisiyalar – kapitalın"əkini" prosesidir, hansı ki, "gəlir" şəklində məhsul verir. Yəni: əkin edirsən, böyüdürsən, məhsulu yığırsan. Lakin bu sadəlik yalnız görünən hissədir və özünüz "əkinçi" olanda bu sadə görünüş dağılır. İlk öncə başa düşmək lazımdır ki, Siz yemədiyiniz taxılı əkirsiniz (saxladığınız və xərcləmədiyiniz pul vəsaitinizi investisiya edirsiniz), bəzən isə taxıl az olduqda, Siz yeməyinizi azaldırsınız ki, tarlanı əkə biləsiniz (xərclərinizi azaldırsınız ki, daha çox investisiya edəsiniz). İkincisi, əkin üçün vaxtı və tarlanı seçmək lazımdır, bunu düzgün etməsəniz, məhsulunuz böyük ehtimalla məhv olacaq (investisiya alətlərinin seçim riski). Üçüncüsü, məhsul yetişdikdə, ona qulluq etmək və yabanı otlar və ziyanvericilərdən qorumaq lazımdır (idarəetmə ehtiyacı). Dördüncüsü, vaxtı gələndə məhsulu yığmaq, onu zamanında yığmalısınız və onun saxlanılması üçün bütün şəraiti yaratmalısınız (əməliyyat xərcləri). Beləliklə, məhsuldarlıq eyni zamanda həm xarici (iqtisadi "havadan"), həm də daxili faktorlardan (əkinçinin sənətkarlığından) asılıdır. Adətən məhsuldarlığı əkinin artması ilə ölçürlər – əkinçi əkdiyini qaytarır və həmçinin ondan artığını da qazanmağa çalışır.

**İnvestisiyaların geri qaytarılması müddətini necə hesablamaq olar**

İnvestisiyaların geri qaytarılması müddətini hesablamaq üçün il üçün maliyyə axınına investisiya qoyuluşunun miqdarını bölmək lazımdır. Məsələn, şirkətin 1 milyon rubl investisiya qoyulubsa və çıxışda 500 min rubl məbləğində pulun alınmasını alırıq, geri ödəmə müddəti iki ilə bərabərdir.

**İnvestisiya geri qoyulma müddətini necə qiymətləndirmək olar**

Layihənin geri ödəmə müddətinin daha qısa olduğu güman edilir, daha cəlbedici investisiya

olacaq. Əksinə, iç içə pulu geri qaytarmaq üçün daha uzun müddət tələb olunur, investorlar üçün daha az maraqlı layihədir. Əsas nöqtə, qısa bir müddət yalnız əməliyyatların daha yüksək gəlirliliyini göstərir, həm də daha aşağı maliyyə riskini daşıyır.

**Geri ödəmə müddətinin məhdudluğu**

Ümumiyyətlə, geri ödəmə müddəti ən yaxşı göstərici deyil və bu qədər tez-tez istifadə edilmir, məsələn, korporativ maliyyə kimi bir sahədə istifadə olunur. Niyə? Çünki geri ödəmə müddəti, fərqli bir müddətdə pulun dəyəri kimi bir həqiqəti nəzərə almır. Hesablamaların asanlığı üçün nəzərə alınmır. Ancaq əslində bu gün investorun hesabına gələn iki eyni miqdarda pul və deyək ki, bir ildən sonra - bir-birlərinə bərabər deyil. Gələcək ödənişlər bugünkü pula gətirilməlidir, adlanır, uyğun deyil.

İlkin nümunəmizi genişləndirmək üçün ən sadə izahatda. Tutaq ki, investisiya məbləği 1 milyon rubl təşkil etmişdir. İldə 500 min rubl qazancı verir. Ancaq eyni zamanda, investor pulunu - yalnız 5% -i heç bir risk etmədən banka bir əmanət qoymaq imkanı var. Və nəzərə almaq mümkün olardı ki, eyni inflyasiyanın ildə ən azı 5% eyni olacaq. Sonra ortaya çıxır ki, bu gün bir il ərzində alınacaq 500 min bu, tamamilə fərqli bir dəyəri var - 5 faiz azdır. Yəni 475 min rubl. Və başqa bir il - ödəniş, 250 rubl olan faizi istisna olmaqla, sadə bir hesablama ilə də 10 faizdən azdır. Nəticədə, real geri ödəmə dövrü olacaq - əvvəlcə hesablanır.

**İnvestisiyaların geri qaytarılması və p / e nisbəti**

Maraqlı bir məqam, investisiyaların geri qaytarılması dövründə məşhur birjanın göstəricisini P / E nisbətini tərcümə etməkdir. Həqiqətən, göstərici, bu qiymətli kağıza gələn hadisə mənfəətində səhmlərin cari payını bölüşdürən özəlliyi təmsil edir. Yəni, qiyməti 100 rubl olan müəyyən bir pay var. İl ərzində onun üçün 10 rubl olan gəlir hesabları. Bu, onun bugünkü kotirovkasında satın alınması on il ərzində 100 rubl bölünmüş, 10 rubl ilə bölünməlidir. Sənaye şirkətlərinin əksər səhmləri üçün adi göstərici P / e nisbəti - bir yerdə 10 ətrafında bir yerdədir. Müasir şirkətlərdə xeyli yüksəkdir. Niyə? Çox güman ki, investorlar gələcəkdə gəlirin əhəmiyyətli dərəcədə artmasına ümid edirlər və qazancın dünənki mühasibat tarazlığının olmasına bərabər qalmalarına davam etməyin.

**Təcrübədə necə istifadə olunur?**

Yəqin ki, investisiyaların geri qaytarılması dövrünün çox şərti bir göstərici olduğu aydındır. İlkin investisiyaların geri qayıtdıqdan sonra nə qazancın olacağını bizə bildirmir. Ödəniş müddəti alternativ investisiyalarla pul vəsaitlərinin hərəkəti ilə müqayisə olunmur, inflyasiyanı nəzərə almır və s. Buna baxmayaraq, potensial riskləri qiymətləndirmək üçün uğurla istifadə edilə bilər. Həqiqətən, pulun daha sürətli qayıdırsa, bir yerə bir yerə investisiya qoymaq üçün bir o qədər arzu yaranır.

**Açar sözlər:** investisiya, maliyyə, investor, kapital, sərmayə, şirkət, qiymətli kağızlar, bank əmanətləri, kredit

**Ədəbiyyat siyahısı:**

1. Əhmədov M.A., Hüseyn A.C. İqtisadiyyatın dövlət tənzimləməsinin əsasları. Metodik vəsait. Bakı: "İqtisad Universiteti" – 2011, 120 səh
2. 9 oktyabr 2007-ci il tarixli 429-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 10, maddə 938)
3. 28 dekabr 2018-ci il tarixli 1410-VQD nömrəliAzərbaycan Respublikasının Qanunu ("Azərbaycan" qəzeti, 1 fevral 2019-cu il, № 25, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 01, maddə 27)
4. 3 may 2019-cu il tarixli 1585-VQD nömrəliAzərbaycan Respublikasının Qanunu ("Azərbaycan" qəzeti, 14 iyun 2019-cu il, № 128, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 6, maddə 993)
5. S.Z. İsayev "İnvestisaya fəaliyyətinin hüquqi tənzimlənməsi" Dərs vəsaiti,Bakı, 2010

6. Жеральд Отье. Из ряда вон! Как зарабатывать на альтернативных инвестициях, М.: Интеллектуальная Литература, 2019
7. Yankovski K.P. İnvestisiyalar: Dərslik / K.P. Yankovski. - SPb.: Peter, 2012, 368 s
8. Igonina L.L. İnvestisiyalar: Dərslik. müavinət / L.L. İqonina; Ed. V.A. Slepov. - M.: Hüquqşünas, 2012, 480 s

## ИНВЕСТИЦИИ И ИХ ВОЗВРАТ

**Доц. Ф.Исмаилов, Т.Н.Рагимов**
**Азербайджанский технологический университет**
**telman.rehimov@mail.ru**

Инвестиции - это посвящение актива для достижения увеличения стоимости в течение определенного периода времени. Инвестиции требуют пожертвование некоторыми текущими активами, такими как время, деньги или усилия.

В финансах целью инвестирования является получение дохода от вложенного актива. Возврат может состоять из дохода (прибыли) или убытка, полученного от продажи имущества или инвестиций, нереализованного прироста капитала (или амортизации) или инвестиционного дохода, такого как дивиденды, проценты или доход от аренды, или комбинация капитала. выигрыш и доход. Доход может также включать прибыль или убытки от курсовых разниц в связи с изменениями обменных курсов иностранных валют.

Инвесторы обычно ожидают более высокой доходности от более рискованных инвестиций. При инвестициях с низким уровнем риска доход также обычно невелик. Точно так же высокий риск сопряжен с возможностью высокой прибыли.

Инвесторам, особенно новичкам, часто советуют диверсифицировать свой портфель. Диверсификация имеет статический эффект снижение общего риска.

**Ключевые слова:** инвестиции, финансы, инвестор, капитал, инвестиции, компания, ценные бумаги, банковские депозиты, кредит

## INVESTMENTS AND THEIR RETURN

**Prof. F.Izmailov, T.N.Rahimov**
**Azerbaijan Technological University**
**telman.rehimov@mail.ru**

Investment is the dedication of an asset to attain an increase in value over a period of time. Investment requires a sacrifice of some present asset, such as time, money or effort.

In finance, the purpose of investing is to generate a return from the invested asset. The return may consist of a gain (profit) or a loss realized from the sale of a property or an investment, unrealized capital appreciation (or depreciation), or investment income such as dividends, interest, or rental income, or a combination of capital gain and income. The return may also include currency gains or losses due to changes in the foreign currency exchange rates.

Investors generally expect higher returns from riskier investments. When a low-risk investment is made, the return is also generally low. Similarly, high risk comes with a chance of high returns.

ForInvestors, particularly tonovices, are often advised to diversify their portfolio. Diversification has the statistical effect of reducing overall risk.

**Keywords:** investment, finance, investor, capital, investment, company, securities, bank deposits, credit

# SAHİBKARLIQ FƏALİYYƏTİNİN RƏQABƏTƏDAVAMLI İQTİSADİİNKİŞAFIN NƏZƏRİ ASPEKTLƏRİ

**Dos.N.A.Hacıyeva, S.F.Babakişiyeva, K.A.Məmmədov, Ş.Ş.Hüseynova**
**Azərbaycan Texnologiya Universiteti**
nushaba.hajieva@mail.ru
sbabakishiyeva@mail.ru

Məqalədə emal sənayesi müəssisələrində innovasiyaların tətbiqi onların rəqabət üstünlüyünə nail olmasını, müəssisədə istehsal olunan məhsulun səmərəliliyinin və keyfiyyətinin yüksəldilməsi, müəssisənin rəqabətqabiliyyətinin inkişaf strategiyasını artıran və qiymətləndirən digər innovtiv üsullar qeyd olunur.

Qloballaşan dünyada beynəlxalq meyarlara uyğun güclü dövlət kimi inkişaf etmək yalnız rəqabətədavamlı, dayanıqlı və davamlı inkişaf edən açıq iqtisadi sistemin idarə olunması ilə mümkün ola bilər.

Respublikada aparılan məqsədyönlü islahatların nəticəsidir ki, son 2010–2020-ci illərdə qeyri-neft sektorunun dinamik inkişafı davam etmiş və onun real artım faizi, ümumi artım faizini üstələyərək 7,6%, o cümlədən emal sənayesində 6,6%, rabitədə 29,7%, nəqliyyatda yük daşıması 3,1% təşkil etmişdir. [3].

Nəticə olaraq Dünya İqtisadi Forumu tərəfindən 2020-ci ildə üzrə hazırlanmış «Qlobal Rəqabətlilik Hesabatı»nda Azərbaycan MDB ölkələri arasında birinci, makroiqtisadi sabitlik indeksi üzrə 190 ölkə arasında 28-ci yerdə qərarlaşmışdır.

Bu gün emal sənayesi müəssisələrində sahibkarlıq fəaliyyətinin mövcud vəziyyəti, müasir qloballaşan dünyada rəqabətədavamlı məhsullar istehsal etməyə bütövlükdə hazır deyil. Bu isə onu deməyə əsas verir ki, emal sənayesində sahibkarlıq fəaliyyətinin rəqabət strategiyasının formalaşması mexanizmi yenidən elə işlənilməlidir ki, bu halda ölkədə yeni rəqabət mühitinin yaradılması sahibkarlıq subyektlərinin rəqabət qabiliyyətliyinin azalması ilə nəticələnməsin. [3].

Emal sənayesi müəssisələrində innovasiyaların tətbiqi onların rəqabət üstünlüyünə nail olmasını, müəssisədə istehsal olunan məhsulun səmərəliliyinin və keyfiyyətinin yüksəldilməsini stimullaşdırır. [2].

Bunlara əsaslanaraq belə nəticəyə gəlmək olar ki, iqtisadi inkişafın metodoloji əsası rəqabətə təsir edən əsas amillərin qiymətləndirilməsidir. Bunlar isə sahə üzrə iqtisadi inkişaf strategiyasının qurulmasına kömək edər. Bu amillərə aşağıdakılar daxildir:

1. Texnoloji amillər. Bu amillərə elmi bilik, istehsal fəaliyyətinə və məhsula yeniliklərin daxil edilməsi və s. daxildir.
2. İstehsal amilləri. Bu amillərə minimum xərclərlə səmərəli fəaliyyət, yüksək keyfiyyətli istehsal, ixtisaslaşdırılmış kadrların cəlb edilməsi və s. daxildir.
3. Müəyyənləşdirici amillər. Bu amillərə çoxlu sayda distributorlar, pərakəndə satışdan gəlir əldə edilməsi, təchizat və təminatın vaxtında aparılması və s. daxildir.
4. Marketinq amilləri. Bu amillərə keyfiyyətli xidmət, alıcının tələbatının tam ödənilməsi, böyük çeşiddə məhsul, zəmanətin verilməsi və s. daxildir.
5. İxtisaslaşdırıcı amillər. Bu amillərə konkret və aydın reklamın yaradılması, texnoloji və layihələndirmə sahəsində ixtisaslı işçilərin çoxluğu və s. daxildir.

Lakin, qeyd etmək lazımdır ki, emal sənayesi müəssisələrinin müxtəlifliyinə görə bu amillər bir-birindən fərqlənirlər.

Bütün bu amillər sayəsində müəssisə öz rəqabətqabiliyyətliliyini yüksəldən, yəni müəssisənin səmərəli fəaliyyətinə müsbət təsir edən amilləri artırmağa, mənfi təsir edən amilləri isə azaltmağa imkan verən strategiyanı hazırlayır. [1]. Müəssisə öz bazardakı səviyyəsinə və həmçinin də öz məhsulunun inkişaf səviyyəsinə əsaslanaraq rəqabətqabiliyyətliliyini artıran strategiya seçir. Bu

halda müəssisələr göstərilən amillərdən istifadə etməklə, özünün rəqabətqabiliyyətliliyini artıran aşağıdakı strategiyaları yarada bilirlər:

1. Bazarın ələ alınması strategiyası.
2. Bazarın inkişaf strategiyası.
3. Məhsulun inkişaf strategiyası.
4. Diversifiksiya olunmuş inkişaf strategiyası.

Bütün bunlarla yanaşı, qoyulmuş məqsəd və vəzifədən asılı olaraq, müəssisənin rəqabətqabiliyyətli inkişaf strategiyasını artıran və qiymətləndirən digər innovativ üsullar da vardır. Bunlar aşağıdakılardır:

1. İnnovasiyadan daimi olaraq istifadə..
2. Yerli və beynəlxalq standartlara cavab verən məhsul istehsalı..
3. Mənfi və müsbət cəhətlərinin öyrənilməsi məqsədilə rəqib müəssisələrin öyrənilməsi.
4. Elmi-tədqiqat müəssisələri ilə əlaqənin qurulması, həmçinin də məhsulun keyfiyyətini artırmaq məqsədilə elmi işlərə investisiya qoyulması.

**Açar sözləri:**sahibkarlıq fəaliyyəti, islahatlar, emal sənayesi, inkişaf strategiyası, rəqabətqabiliyyətli, innovativ üsullar

**Ədəbiyyat siyahısı:**

1. Aslanzadə İ.A., Dövlət innovasiya siyasətinin formalaşması və sənaye sektorunun rəqabətqabiliyyətliliyinin yüksəldilməsi problemləri: iqtisad üzrə elmlər doktoru dis.Bakı, 2014, 12
2. Qarayev R.H. Emal sənayesi müəssisələrinin rəqabətqabiliyyətlilik səviyyəsinin yüksəldilməsinin iqtisadi inkişafında rolu // Bakı:AMEA iqtisadiyyat institutu Elmi əsərlər. 2016, №4, s. 111-116
3. Süleymanov Q.S., Qarayev R.H., Məmmədova S.R. Azərbaycanın sahibkarlıq fəaliyyətinin inkişaf mərhələləri və perspektivləri // -Bakı: "İqtisadi və siyasi elmləri" jurnalı, 2016, №4 (5), s. 50-58
4. Жучкевич О.Н. Конкурентоспособность товаров и организаций.О.Н.Жучкевич, В.В.Квасникова – Москва: Инфра-М, 2015, 184 с

## ТЕОРЕТИЧЕСКИЕ АСПЕКТЫ РАЗВИТИЯ КОНКУРЕНТОСПОСОБНОСТИ ПРЕДПРИНИМАТЕЛЬСКОЙ ДЕЯТЕЛЬНОСТИ

**Доц. Н.А.Гаджиева, С.Ф.Бабакишиева, К.А.Мамедов**
**Азербайджанский Технологический Университет**
**nushaba.hajieva@mail.ru**
**sbabakishiyeva@mail.ru**

В статье отмечается применение инноваций на предприятиях перерабатывающей промышленности для достижения их конкурентных преимуществ, повышения эффективности и качества выпускаемой на предприятии продукции, другие инновационные методы, повышающие и оценивающие стратегию развития конкурентоспособности предприятия.

**Ключевые слова:** предпринимательство, реформы, перерабатывающая промышленность, стратегия развития, конкурентоспособность, инновационные методы.

## COMPETITIVE ECONOMY OF BUSINESS ACTIVITIES THEORETICAL ASPECTS OF DEVELOPMENT

**Prof. N.A.Gajiyeva, S.F.Babakishiyeva, Senior lecturer Mammadov Karim Adil**
**Azerbaijan Technological University**
**nushaba.hajieva@mail.ru**
**sbabakishiyeva@mail.ru**

The article notes the use of innovations at the enterprises of the processing industry to achieve their competitive advantages, improve the efficiency and quality of products manufactured at the enterprise, other innovative methods that increase and evaluate the strategy for developing the competitiveness of the enterprise.

**Key words:** entrepreneurship, reforms, processing industry, development strategy, competitiveness, innovative methods

# YEYINTI SƏNAYESININ ELMI-TEXNIKI VƏ INNOVASIYALI INKIŞAF STRATEGIYASININ SEÇILMƏSI

**Dos. X.F.Məmmədova, L.E.Usubova**
**Azərbaycan Texnologiya Universiteti**

Çörəkbişirmə sənayesi yeyinti sənayesi sahələri içərisində investisiyanın cəlbediciliyi baxımından ən əlverişli sahələrdən biridir.

Aparılmış araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, yaxın illərdə çörəkbişirmə sənayesinin istehsal-texniki bazasının inkişafı əsasən yeni müəssisələrin tikilməsi ilə deyil, texniki silahlanma və mövcud çörək zavodlarındakı avadanlıqların modernləşməsi ilə xarakterizə edilir. Ölkənin çörəkbişirmə sənayesinin müasir vəziyyətini qiymətləndirərək qeyd etmək lazımdır ki, bu sənaye sahəsində bulka, şəkərli və unlu qənnadı məmulatların istehsalı üçün kompleks – mexanikləşdirilmiş və avtomatlaşdırılmış axın xətləri çatışmır və texniki yeniləşməni tələb edir.

Yeyinti müəssisələrinin elmi-texniki inkişaf sahəsində daxili mühitin təhlili göstərir ki, köhnəlmiş avadanlıqların yeniləri ilə əvəzlənməsi və mütərəqqi texnikanın tətbiqi uyğun strategiyanın reallaşdırılması müxtəlif mülkiyyət formalarından idarəetmə komandasının bacarığından asılı olaraq müxtəlif cür həyata keçiriləcəkdir. Hesab edirik ki, çörəkbişirmə müəssisələrinin texniki silahlanmasını yeni texnoloji xətlərin tətbiq edilməsi ilə əhəyata keçirmək olar. Belə yeni texnoloji xəttlərə misal olaraq «Qostol» (Sloveniya), «Vinkler», «Diosna», «Rapido» (Almaniya), «Zeever Rondo» (İsveçrə) və sair xəttləri göstərmək olar.

Yeni texnoloji tətbiqi nəticəsində çörəkbişirmə müəssisələrində istehsal olunan məhsulların çeşidi genişləndirmək, istehlakçının artan tələbatını təmin etmək və yüksək iqtisadi səmərə əldə etmək mümkündür. Qeyd etmək lazımdır ki, çörəkbişirmə müəssisələri yeni texnika almaq üçün maliyyə vəsaitlərinin alınmasında çətinliklər çəkirlər.

Bazar iqtisadiyyatı şəraitində Bakı şəhərinin və Respublikanın rayonlarında yerli hakimiyyət orqanları tərəfindən çörəkbişirmə məhsullarının rentabelliyinə məhdudiyyət qoya bilər.

Çörəkbişirmə müəssisələrndə istehsalın rentabelliyinə qoyulmuş məhdudiyyət onlardan yerli büdcəyə vergilərin daxil olmasını azaldır ki, bu da rayonun sosial sferasının inkişafına yönələn vəsaitlərin azalmasına səbəb olur. Beləliklə məhsulun rentabelliyinə qoyulmuş məhdudiyyət elmi texniki tərəqqi nəaliyyətlərinin və investisiya layihələrinin tətbiq edilməsinin sürətləndirilməsini təmin etmir.

Texniki silahlanma cari və perspektiv dövrdə maddi və əmək resurslarından daha səmərəli istifadə olunması, istehsalın diversifikasiyasını, məhsulun keyfiyyətinin yaxşılaşdırılması və çeşidinin genişləndirilməsi hesabına gəlirin artırılmasına imkan verir

«İnnovasiyanın strategiyası» anlayışını iki aspektdə tədqiq etmək olar:

- birinci, fəaliyyətinin əsasında innovasiya prosesi duran təşkilatlar üçündür ki, bu gələcəkdə müəssisə tərəfindən istifadə edilə biləcək yeniliyin yaradılması üçün mənbəydir:

- ikinci, innovasiya strategiyasını işləyən çörəkbişirmə müəssisələri şəraiti üçündür. Bu zaman müxtəlif yanaşmalardan istifadə edilir; gələcəkdə tətbiq ediən texnologiyada, avadanlıqlarda prinsipcə dəyişiklik gətirə biləcək yeniliyin əldə edilməsi planlaşdırılır.

Müəssisədə müəyyən sahədə elmi tədqiqat, təcrübə eksperimental işləri (ETTEİ) təşkil etmək, ixtisaslaşmış təşkilatda yeniliyn işlənməsinə sifariş vermək (sifarişçi kimi çıxış etmək). Eyni zamanda aparılan tədqiqatlar göstərir ki, innovasiyaların strategiyası ancaq fərdi müəssisələr üçün baxmaq məqsədə uyğun deyildir. Məlumdur ki, yenilik dünyəvi cəmiyyətin elmi fikrinin nəticəsi o, cümlədən sahə aspektində də ola bilər. Bu iqtisadi artımın əldə olunmasının şərtlərindən biridir.

Əksəriyyət müəllif innovasiya strategiyasını radikal innovasiyanı həyata keçirən müəssisələrə tətbiq etməklə işləyirlər ki, bu da onlara satışın rentabelliyinin birdən-birə artması və yaxud istehlakçıların yeni seqmentinə nail olmaları hesabına artıq gəlir götürməyə imkan verir. Məsələn P.V.Zabelin və N.K.Moç-

seeva innovasiya strategiyasına aşağıdakı təyinatı verir. «İnnovasiyaların strategiyası prinsipcə yeni məhcul və yaxud texnologiyalar yaratmaqla və yaxud yeni üsulla mövcud dərk etmiş və yaxud dərk edilmiş tələblərini təmin edilməsinin köməyi ilə rəqabət üstünlüyünün əldə olunmasını nəzərdə tutur». İstənilən yeniliyin tətbiqi elmin nəailiyyətlərinə əsaslanır. Yeni elmi biliklərin alınması, dövlət büdcəsi tərəfindən maliyyələşdirilən fundamental tədqiqatların aparılması prosesində mümkündür. Dövlətin müdafiəsinə olan ehtiyac xarici ölkələrin təcrübəsi ilə təsdiqlənir. Bazar iqtisadiyyatının istənilən real modelində dövlətin iştirakını nəzərdə tutur. Bu həm dövlətin müdafiəsinə və həm də yeni texnikanın işlənməsinə və tətbiq edilməsinin stimullaşdırılmasına aid edilir. Lakin bu prosesdə dövlətlərin rolu çox böyük deyil. Elmi sahə strukturunda işlərin növünə (yəni texnikanın və texnologiyanın işlənməsi və tətbiqi mərhələləri) ETTEİ-in həyata keçirilməsi üçün xərclər fərqli olaraq aşağıdakı kimi bölüşdürülür: elmi tədqiqat işləri – 3,1%, təcrübə konstruktor işləri 5%, təcrübə ekspermental nümunələrinin hazırlanması və sınağı – 16%.

İnnovasiya sahəsində aparılan tədqiqatlar göstərir ki, onların iqtisadi artıma təsiri daha da genişlənir. Bu müəssisənin innovasiya fəaliyyətində reinjenirinqin hesabına əldə edilir.

Çörəkbişirmə sənayesində reinjenirinqin innovasiya xarakterinə iki mövqeydən baxma təklif edilir:

Birinci yeni iş prosesi işlənir və onun reallaşdırılması başqa çörəkbişirmə müəssisələrinin istehsalat-təsərrüfat sistemində (istehsal güclərinin artırılmasında, ambar binalarının tikintisində, soyuducu qurğuların alınmasında, yeni idarə etmə xidmətinin və informasiya mərkəzlərin formalaşdırılmasında və sair) növbəti innovasiya üçün şərait yaradır.

İkinci, reinjenirinq innovasiya fəaliyyətində metod kimi və innovasiya strategiyasının müxtəlif növü kimi çıxış edir. Çörəkbişirmə müəssisələri üçün innovasiya strategiyası başqa strategiyalardan fərqlənir və yüksək dərəcədə məqsədə o cümlədən iqtisadi artıma çatmağa imkan verir.

**Açar sözlər:**sənaye, innovasiya strategiyası, rentabellik, avadanliq, reinjinirinq

**Ədəbiyyat siyahısı:**

1. Abbasov A.B. Planirovanie razvitiə pişevoy promışlennosti APK. Baku, Azerneşr, 1988, 159 s
2. Abbasov A.B. Sahibkarlıq fəaliyyəti növləri, təşkili və inkişaf problemləri. Bakı, 1998
3. Burqanova P.A. Analiz i vıbor konkurentnıx poziüiy predpriətiə: Uçebnoe posobie. – Kazanğ, 1998, 44 s
4. Qunin V.İ., Barançeev V.P. Ustinov V.A., Ləpina S.Ö. Upravlenie innovaüiəmi. – M: İNFRA-M 1999, 301 s
5.İvanova E.A. Oüenka konkurentosposobnosti predpriətiə: uçebnoe posobie. – İzdatelğstvo «Feniks». 2008, 298s

## ВЫБОР НАУЧНО-ТЕХНИЧЕСКОЙ И ИННОВАЦИОННОЙ СТРАТЕГИИ РАЗВИТИЯ ПИЩЕВОЙ ПРОМЫШЛЕННОСТИ

**Х.Ф.Мамедова, Л.Э.Усубова**
**Азербайджанский Технологический Университет**

Рассматриваемые инновационные стратегии:с учетом изменяющейся среды хлебозавод нацелен на развитие предприятия и использование его потенциала. Таким образом, можно сделать вывод, что воспроизводство в хлебопекарной промышленности эффективно тогда, когда оно основано на инновациях.

**Ключевые слова:**промышленность, инновационная стратегия, рентабельность, оборудование, реинжиниринг

## THE CHOICE OF SCIENTIFIC, TECHNICAL AND INNOVATIVE STRATEGY FOR THE DEVELOPMENT OF THE FOOD INDUSTRY

**Kh.F.Mammadova, L.E.Usubova**
**Azerbaijan Technological University**

Innovative strategies under consideration. Taking into account the changing environment, the bakery aims to develop the enterprise and use its potential. Thus, we can conclude that reproduction in the baking industry is effective when it is based on innovation.

**Keywords:** industry, innovation strategy, profitability, equipment, reengineering

# TURIZMDƏ SAHIBKARLIĞIN MÖVCUD VƏZIYYƏTI

**Dos. F.A.İsgəndərov, B.Q.Məmmədov, E.H.Əliyev, İ.H.Yusibov**
**Azərbaycan Texnologiya Universiteti**
**elshad_eliyev.83@mail.ru**

Məqalədə ölkəmizdə turizmdə sahibkarlığın mövcud vəziyyəti haqqında məlumat verilır. Müasir şəraitdə Azərbaycanda turizmdə sahibkarlığın inkişafının qiymətləndirilməsi, onun inkişaf istiqamətlərinin, potensial imkanlarının müəyyənləşdirilməsi, ölkəmizdə həyata keçirilən sosial-iqtisadi inkişaf Proqramlarının sahibkar müəssisələrinin yaradılmasına təsirinin təhlil edilməsi məsələlərindən ibarətdir.

Turizmin inkişaf etdirilməsi üçün bu sektorda sahibkarlıq fəaliyyətinin genişləndirilməsi əsas şərtlərdən sayılır. Lakin, sahibkarlığın bütün sahələrdə olduğu kimi turizm sektorunda da bir çox problemlər var. Həmin çətinliklərin əsasında turizm sahibkarlığı üçün maliyyə çatışmazlığı dayanır. Mövcud maliyyə mənbələrinin bu sektora yönəldilməsi, ondan səmərəli istifadə olunması vacib məsələlərdən hesab olunur.

Qeyd edək ki, turizm sahibkarlığının istifadə edə biləcəyi investisiya mənbələri daxili və xarici olmaqla aşağıdakılardan ibarətdir:
a) Dövlət büdcəsi və büdcədənkənar fondlar;
b) Əhali yığımları;
c) Müəssisə daxili vəsaitlər (nizamnamə kapitalı, yığım fondu, amortizasiya ayırmaları və s.);
d) Cəlb olunan kənar vəsaitlər (bankların kreditləri, borc kapitalı);
e) Xarici mənbələr (beynəlxalq təşkilatların qrantları, texniki yardım proqramları, maliyyə institutlarının vəsaitləri və s.)
Ölkəmizdə mehmanxana və mehmanxana tipli müəssisələrin statistikasına nəzər salaq:

**Cədvəl.1 Azərbaycanda mehmanxana və mehmanxana tipli müəssisələrin mülkiyyət növləri üzrə sayı (ədəd)**

| № | İllər<br>Mülkiyyət növü | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|
| 1 | **Dövlət** | 45 | 45 | 35 | 38 | 33 | 33 |
| 2 | **qeyri-dövlət** | 487 | 503 | 528 | 558 | 609 | **622** |
| 3 | **Xüsusi** | 470 | 488 | 515 | 545 | 592 | 604 |
| 4 | **Xarici** | 12 | 10 | 8 | 8 | 12 | 13 |
| 5 | **birgə** | 5 | 5 | 5 | 5 | 5 | 5 |
| **Cəmi:** | | **536** | **548** | **563** | **596** | **642** | **655** |

***Mənbə:*** *Müəlliflər tərəfindən Azərbaycanda Turizm Dövlət Statistika Komitəsi Bakı-2021 məlumatlarından istifadə etməklə tərtib olunmuşdur. səh. 26-27.*

Cədvəl.1-dən göründüyü kimi, Azərbaycanda mehmanxana və mehmanxana tipli müəssisələrin mülkiyyət növləri üzrə sayı 2015-ci ildə 536 olduğu halda, 2020 - ci ildə 655 - ə şatmışdır. Mülkiyyət növlərinə görə 622 ədəd müəssisə qeyri-dövlət sektoruna məxsusdur. Onlardan 604 - ü xüsusi, 13 - ü xarici, 5 - i isə birgə müəssisələrdir. Rəqəmlərdən göründüyü kimi, bu sahə əsasən qeyri-dövlət sektoruna məxsusdur.

2016-cı ildə "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi" mövcud imkan və potensialdan səmərəli istifadə etməklə Azərbaycanın 2025-ci ilədək həm regionda, həm də digər dünya ölkələri arasında cəlbedici turizm məkanlarından birinə çevrilməsi hədəf kimi qarşıya qoyulmuşdur. 2025-ci ildən sonrakı dövr üzrə perspektiv isə ölkəni dünyada turistlərin ən çox üstünlük verdikləri 20 turizm məkanından birinə çevirməkdir.

Turizmdə sahibkarlıq problemləri makroiqtisadi və sahədaxili ərazi problemlərinə bölünür və iqtisadiyyatın sosial iqtisadi inkişaf istiqamətləri çərçivəsində prioritet kimi formalaşır. Prioritetliyin zəruriliyi müxtəlif ölkələrdə müxtəlif mövqelərdən qiymətləndirilir:

- İqtisadi artımı təmin etmək baxımın danpotensial resurslar kimi formalaşdırılır.
- İqtisadiyyatın mövcud şəraitində ən səmərəli investisiya qoyuluşlarını, onların istifadəsinin əsas istiqamətləri kimi qəbul olunur, layihələşdirilir.
- Regionların sosial iqtisadi inkişafını təmin etmək üçün bazarın və məşğulluğun doldurulması təminatı kimi istifadə olunur.

Sahibkarlıq mikrosəviyyəli izah olunur. Belə ki;
- Gəlirlər formalaşır;
- Müəssisənin davamlı inkişafı təmin olunur;
- Müəssisədə işləyənlərin həyat səviyyəsi təmin olunur;
- Regionların, şəhər əhalisinin təminat səviyyəsi yaxınlaşır. Prioritetlər iqtisadi, sosial cəhətdən əsaslandırılır. Iqtisadi prioritetlik məhsulların, xidmətin maya dəyərinə görə müəyyənləşir, fəaliyyət növü seçilir. Maya dəyəri aşağı olan müəssisələrdə turizmin fəaliyyət növü daha səmərəli hesab olunur.

Turizm prioritetliyi sahibkarlıq prioritetliyi ilə uzlaşır və onun yerləşməsi regionlar üzrə inkişafı tənzimlənən siyasət kimi meydana çıxır. Prioritetlər tənzimləməni formalaşdırır. Dövlət və qeyri-dövlət təşkilatlarının, sahibkarların, yerli təşkilatların marağını təmin edən prioritetlər sistemi pilləvari ierarxiya strukturu kimi formalaşır:

1-ci mərhələ - dövlət maraqları prioritetləri ;
2-ci mərhələ - region maraqları prioritetləri;
3-cü mərhələ - əhalinin maraqları prioritetləri;
4-cü mərhələ - turizm subyektinin maraqları prioritetləri.

Turizm sferasında şəxsi maraqlar, dövlət maraqları və ictimai maraqlar mövcuddur. Sahibkar dövlətin maraqlarını ödəmək üçün vergilər verməlidir, dövlət büdcəsinə ödəmələr etməlidir və yerli icra orqanlarının, bələdiyyələrin zəruri resurslarını formalaşdırmalıdır. Sahibkar digər tərəfdən davamlı inkişaf etmək üçün özlərinin perspektiv proqnozlarını və həmçinin əhalinin yaşayışı üçün zəruri olan resursları təmin etməlidir. Şəxsi maraqlar isə əmək haqqı kimi işlə təmin olunmaq, sosial müdafiə olaraq həmin yaşayan ərazidə sosial infrastruktur obyektlərinin inkşafında müəyyən gəlir əldə etməlidir.

**Ədəbiyyat siyahısı:**

1. "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi". Azərbaycan Respublikası prezidentinin 2016-cı il 6dekabr tarixli fərmanı
2. Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6fevral tarixli 125 nömrəli sərəncamı
3. Əlirzayev.Ə.Q. "Turizmin iqtisadiyyatı və idarə edilməsi". Bakı, "İqtisadiyyat Universiteti" nəşriyyatı, 2010
4. Hümbətov.Y.Ə, Kərimov.F.C, Qapaqov.V.F, Cavadzadə.X.N "Turizm sənayesinin təşkili." Ali məktəblər üçün dərs vəsaiti. Bakı 2021, 333 səh
8. naftusia.com/ru/ukraina/kurort-truskavec/

## СОВРЕМЕННОЕ СОСТОЯНИЕ ПРЕДПРИНИМАТЕЛЬСТВА В ТУРИЗМЕ

**Доц., проф.Ф.А.Искендеров, Э.Х.Алиев**
**Азербайджанский Технологический Университет**
**elshad_eliyev.83@mail.ru**

В статье представлена информация о современном состоянии предпринимательства в сфере туризма в нашей стране. Она состоит из оценки развития предпринимательства в сфере туризма в Азербайджане в современных условиях, выявления направлений его развития, потенциальных возможностей, анализа влияния реализуемых в нашей стране программ социально-экономического развития на создание предпринимательских предприятий.
**Ключевые слова:** туризм, предпринимательство, бизнес-среда, проблемы, формы предпринимательства, приоритетные направления

## THE CURRENT STATE OF ENTREPRENEURSHIP IN TOURISM

**Prof. F.A.Isgandarov, E.H.Aliyev**
**Azerbaijan Technological University**
**elshad_eliyev.83@mail.ru**

The article provides information on the current state of entrepreneurship in tourism in our country. It consists of assessing the development of entrepreneurship in tourism in Azerbaijan in modern conditions, identifying its development directions, potential opportunities, analyzing the impact of socio-economic development programs implemented in our country on the establishment of entrepreneurial enterprises.
**Keywords:** tourism, entrepreneurship, business environment, problems, forms of entrepreneurship, priority areas

# AQRAR SAHƏYƏ YÖNƏLDİLƏN İNVESTİSİYALAR VƏ ONLARIN ƏSAS İSTİQAMƏTLƏRİ

**R.M.Cəfərova**

**S.Ş.Aslanov**

**Azərbaycan Dövlət Aqrar Universiteti**

samiraslanov1208@gmail.com

Aqrar sahədə müxtəlif mülkiyyətə sahib yeni təsərrüfat subyektlərinin yaradılması və dayanıqlı inkişafını təmin etmək üçün dövlətin sanballı kredit yardımları zəruridir. Həmin ehtiyacları səmərəli şəkildə ödəyən yeni kredit mexanizmləri formalaşdırılmalıdır.Respublikanın aqrar bölməsinə investisiya qoyuluşunun təmin edilməsi böhranlı vəziyyətin aradan qaldırılmasına, onun tədricən sabitləşməsinə və inkişafına əlverişli şərait yarada bilər.[2 səh 319] Aqrar sahəyə yönəldilən investisiyaların əsas etibarilə aşağıdakı istiqamətlərdə sərf olunması zəruridir:

-istehsal həcminin genişləndirilməsi üçün yeni bina və qurğuların tikilməsi;

-müasir və daha çevik olan yeni avadanlıqların, texnika və texnologiyaların əldə olunması;

- əlavə xammal, material və əmək vəsaitlərinin alınması, həmçinin kənd təsərrüfatında əsas istehsal vasitəsi olan torpaqların keyfiyyətinin yaxşılaşdırılmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsi və s.

Kənd təsərrüfatı məhsullarının istehsalına yönəldilən vəsaitlər isə çox cüzidir. Onun da böyük hissəsi bilavasitə ərzaq məhsullarının istehsalı və emalının payına düşür. Lakin bu sahəyə yönəldilən investisiyaların, o cümlədən xarici investisiyaların həcmi artarsa, aqrar sahənin ayrı-ayrı istiqamətlər üzrə inkişafına geniş imkanlar yarana bilər.

Bu imkanlardan səmərəli istifadə edilərsə, taxıl, ət, yumurta, quş əti, konserv məhsulları, meyvə-tərəvəz, çay və digər ərzaq məhsullarının istehsal həcmi, nisbətən az məsrəf sərf etməklə xeyli arta bilər. Ayrı-ayrı məhsullar istehsalının həcmi indikindən xeyli artıq olar ki, bu da ölkəmizi həmin məhsulların idxalından tam azad edər və onu ərzaq məhsullarını ixrac edən güclü ölkəyə çevirə bilər.

Təbii ki, səmərəli bazar münasibətlərinin formalaşmasında qarşıya çıxan məsələlərin tam həlli – iqtisadiyyatın bütün sahələrində, o cümlədən aqrar sahədə islahatların məqsədyönlü və elmli şəkildə aparılması, həm makro, həm də mikroiqtisadi səviyyədə təsirli tədbirlərin görülməsi, ən əsası isə investisiya qoyuluşlarının düşünülmüş şəkildəki fəaliyyətindən asılıdır. Aqrar sahədə maliyyə-kredit münasibətlərinin tənzimlənməsi və təkmilləşdirilməsində bank sistemi də mühüm rol oynayır. Qeyd etmək lazımdır ki, qısa müddət ərzində Azərbaycanda aparılan maliyyə-kredit sisteminin əsaslı islahatı nəticəsində bank sistemi təkmilləşdirilmiş, bu sektor kəmiyyət mərhələsindən keyfiyyət mərhələsinə keçməyə başlamışdır. Yeni iqtisadi şəraitə uyğun aparılan iqtisadi islahatların mühüm sahələrindən biri olan bu sahədə müəyyən irəliləyişlərə nail olunsa da, müasir dünya standartlarına çatmaq üçün hələ çox işlərin görülməsi tələb olunur. Belə ki, iqtisadi və sosial sahələrin istənilən vasitələrlə inkişafı, bank sisteminin iştirakı olmadan mümkün deyildir. Ona görə də bank sistemi öz funksiyalarını qloballaşma prosesinin tələblərinə və spesifik xüsusiyyətlərinə uyğun şəkildə yerinə yetirməlidir. Məhz belə bir şəraitdə müstəqil dövlətin maliyyə təhlükəsizliyini təmin etmək olar. İnvestorlar investisiya fəaliyyətində əmanətçi, kreditor və alıcı qismində çıxış edə, habelə investisiya fəaliyyətinin istənilən iştirakçısının funksiyalarını yerinə yetirə bilər. [1]

Aqrar sahədə müxtəlif mülkiyyət mənsublu yeni təsərrüfat subyektlərinin yaradılması və dayanıqlı inkişafını təmin etmək üçün dövlətin sanballı kredit yardımları zəruridir. Buna görə də, həmin ehtiyacları səmərəli şəkildə ödəyən yeni kredit mexanizmləri formalaşdırılmalıdır. Müşahidələr göstərir ki, kənd təsərrüfatı kimi mühüm bir sahənin kreditləşdirilməsi üçün, ixtisaslaşdırılmış Aqrar Bankın fəaliyyəti vacibdir. Bu bankın həm də yeni yaradılan və formalaşmaqda olan aqrar təsərrüfat qurumlarının etibarlı maliyyə dayağına çevrilməsi günümüzün əsas tələbidir. Əsas səbəb odur ki,

dövlətin və beynəlxalq maliyyə qurumlarının yardımı ilə ölkədə kənd təsərrüfatının inkişafına yardım edən proqram və layihələr dağınıq həyata keçirilir. Bu səbəbdən də mövcud investisiyaların aqrar sahədə səmərəli yerləşdirilməsi və istifadəsi ilə məşğul olan xüsusi bank qurumuna ehtiyac vardır.

**Ədəbiyyat siyahısı:**

1. İnvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı: Qanun, 2001
2. Qarayev İ., Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi. Bakı 2011

## ИНВЕСТИЦИИ В АГРАРНЫЙ СЕКТОР И ИХ ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ

**Р.М.Джафарова**
**С. Ш. Асланов**
**Азербайджанский Государственный Аграрный Университет**
**samiraslanov1208@gmail.com**

Для создания и обеспечения устойчивого развития новых хозяйствующих субъектов с различной формой собственности в агропромышленном комплексе необходима значительная государственная кредитная помощь. Для эффективного удовлетворения этих потребностей должны быть сформированы новые кредитные механизмы. Обеспечение инвестиций в аграрном секторе республики может создать благоприятные условия для выхода из кризиса, его постепенной стабилизации и развития

## INVESTMENTS IN THE AGRICULTURAL SECTOR AND THEIR MAIN DIRECTIONS

**R.M.Jafarova, S.Sh.Aslanov**
**Azerbaijan State Agrarian University**
**samiraslanov1208@gmail.com**

In order to create and ensure the sustainable development of new economic entities with different ownership in the agricultural sector, significant government credit assistance is needed. New credit mechanisms must be formed to effectively meet these needs. Ensuring investment in the agricultural sector of the republic can create favorable conditions for overcoming the crisis, its gradual stabilization and development.

# AZƏRBAYCANDA İNNOVASİYALI SIĞORTA BAZARI: TRENDLƏR VƏ YENİ ÇAĞIRIŞLAR

**İ.f.d., dos. X.Ağayeva**
**S.Ş.Əlizadə**
**Azərbaycan Texnologiya Universiteti**
alizade_serdar@mail.ru

Azərbaycan Respublikasının iqtisadi potensialının reallaşdırılması çoxsaylı risklərlə - həm təbii, həm də cəmiyyətin təsərrüfat və sosial həyatına xas olan risklərin idarə edilməsini zəruri edir. Belə ki, risklərlə xarakterizə olunan yeni iqtisadi şəraitdə uzunmüddətli milli siyasətin həyata keçirilməsi xüsusi əhəmiyyət kəsb edir. Odur ki, burada sığorta bazarının yaradılmasına onun innovativ elmi-texnoloji yanaşma əsasında inkişafına zərurət vardır. Sığorta bazarı alqı-satqı obyekti kimi sığorta hadisələri üzrə müdafiəni edir. Tələb və təklifin formalaşdığı xüsusi sosial-iqtisadi mühitdə iqtisadi münasibətlərin müəyyən edən bir sahədir. Hər hansı digər mal, iş və xidmətlər bazarı kimi, sığorta bazarı da tsiklikliyə, sığorta xidmətlərinin qiymətlərinin aşağı düşməsinə və artımda qanunauyğun iqtisadi tərəddüdlərə meyllidir. Sığorta bazarının inkişafı qeyri-müəyyənliklərdən və risklərdən qorunmağa kömək etməklə, eləcə də daxili yığımın toplanması üçün investisiya kanalı təmin etməklə ölkə iqtisadiyyatının dayanıqlı inkişafına töhfə verir. Lakin, Sığorta bazarının genişlənməsi, əhalinin sığorta təminatı almayan hissəsinin sığorta məhsulları ilə əhatə olunması, maliyyə xidmətlərinə çıxışın artırılması və iqtisadiyyatın şaxələndirilməsinin dəstəklənməsi məqsədilə yeni sığorta məhsullarının yaradılmasına ehtiyac vardır.

**Sığorta bazarının innovativ inkişafında maliyyə sistemininin yenilənməsinin yeri və rolu:**Müasir iqtisadiyyatda sığorta xidmətlərinin rolu kəskin şəkildə artdığından, sığorta bazarının vəziyyəti və inkişaf tendensiyaları bu gün olduqca aktual bir mövzudur. Maliyyə sistemi bir-biri ilə əlaqəli və bir-birindən asılı olan aşağıdakı üç komponentdən ibarətdir: maliyyə bazarları, maliyyə institutları (maliyyə vasitəçiləri) və maliyyə tənzimləyiciləri (maliyyə bazarı tənzimləyiciləri). Maliyyə sistemi iqtisadi artımı stimullaşdırmaqla, bazarın əsas subyektlərinin iqtisadi nəticələrinə təsir göstərməklə, bununla da ümumi rifah səviyyəsini müəyyənləşdirməklə iqtisadiyyatda başlıca rol oynayır, Bu, infrastrukturun mövcudluğu şəraitində mümkündür. Həmin infrastruktur vasitəsilə maliyyə ehtiyatlarına (bir qayda olaraq, fond formasında) malik olan subyektlər bu ehtiyatları digər subyektlər arasında bölüşdürür.

Azərbaycan maliyyə sisteminin cəmi aktivlərində bankların və bank olmayan kredit təşkilatlarının payı 2019-ci ildə müvafiq olaraq 88 faiz və 9,7 faiz, sığorta şirkətlərinin cəmi aktivlərdə payı isə 2,3 faiz təşkil etmişdir. Azərbaycan maliyyə sisteminin seqmenti olan sığorta bazarında 2010–2015-ci illərdə orta illik artım tempi 20 faiz təşkil etmişdir. 2015-ci ildə Azərbaycanda sığorta haqlarının həcmi artaraq 444 milyon manat olmuşdur [3, s.44-45]. Bununla belə, sığorta haqlarının ÜDM-də xüsusi çəkisi cəmi 0,8 faizdir. Bank sektorundan yüksəkasılılıq sığorta şirkətlərinin başlıca riski hesab olunur. Azərbaycanda sığorta bazarının səmərəli fəaliyyət göstərməsi ilk növbədə zəruri normativ-hüquqi bazanın olmasından asılıdır. Azərbaycanda sığorta fəaliyyəti kifayət qədər çoxlu sayda qanunvericilik aktları: Azərbaycan Respublikasının Mülki Məcəlləsi, qanunlar ("Sığorta fəaliyyəti haqqında", "Azərbaycanda vətəndaşların tibbi sığortası haqqında", "Sərnişinlərin icbari şəxsi sığortası haqqında"), Azərbaycan hökumətinin qərar və sərəncamları, Maliyyə Nazirliyinin, İqtisadi inkişaf Nazirliyinin normativ-hüquqi aktları, habelə Azərbaycan Mərkəzi Bankının əmr və təlimatları ilə tənzimlənir. Hazırda Azərbaycanın sığorta bazarında 20 sığorta, bir təkrarsığorta şirkəti fəaliyyət göstərir. Onlardan 4-ü həyat, 16-si isə qeyri-həyat sığorta şirkətidir. Hal- hazırda bazardakı bütün yığımların 73% -i (414.9 milyon manat) könüllü sığortanın, 27% -i (153.6 milyon manat) icbari sığortanın payına düşüb. Ödəmələr üzrə könüllü sığortanın payı 73.5% (137.3 milyon manat), icbari sığortanı payı isə 26.5%

(49.6 milyon manat) təŞkil etmişdir. Eyni zamanda, Azərbaycanın on aparıcı sığorta şirkətinin yığımları 508,99 milyon manat (ümumi sığorta yığmlarının 89,54%-i) təşkil etmişdir. Sığorta sektorunda nəzarətin risk əsaslı yanaşmaya uyğun aparılması sağlam maliyyə sisteminin formalaşdırılması baxımından faydalı ola bilər. Bu xüsusilə son vaxtlar tətbiq edilən həyat sığortası üzrə göstəricilərin yaxşılaşması sarıdan olduqca əhəmiyyətlidir.

**Şəkil 1.1. Azərbaycanda 2013-2019-ci illərdə həyat və qeyri-həyat sığortası (milyon manatla)**




**Mənbə:** *(http://marja.az/news2020)*

Şəkil 1.1 də verilən məlumatlara diqqət edildiyi zaman son yeddi ildə həm həyat, həmdə qeyri-həyat sığortası üzrə göstəricilər əhəmiyyətli şəkildə müsbətə dəyişmişdir.Belə ki, 2013-cü ildə həyat sığortası üzrə yığımlar 23 mln manat olsada bu göstərici yeddi ildə təqribən on beş dəfə artaraq 341 mln manat təşkil etmişdir. Sözügedən illə ərzində qeyri-həyat sığortası üzrə artım iki dəfə təşkil etmişdir. Belə ki, son yeddi ildə qeyri-həyat sığortası üzrə artım 197 mln manat olmuşdur. Cədvəl məlumatlarının təhlili 2018-ci illədə müqayisədə analoji halın təkrar olunduğunu deməyə əsas verir.

**Sığorta bazarının innovativ yanaşma əsasında inkişafında rəqəmsal marketinqin əhəmiyyəti:** Bu gün dünya bank sektoru rəqəmsal transformasiyanın episentrindədir və rəqəmsal gələcəkdə rəqabətə dözümlü olmaq fikrində olan ənənəvi banklar müştərilərin tələbatının təmin edilməsində daha dinamik, çevik və effektiv olmaq üçün yeni rəqəmsal transformasiya texnologiyalarının axtarışına çox böyük səylər göstərir [2, s. 48]. Rəqəmsal marketinq bu gün sığorta sənayesində inkişaf trendlərindən biridir. istehlakçılar onlayn kanallara kütləvi miqrasiyanı davam edərkən, sığorta işində sövdələşmə həyata keçirərkən rəqəmsal xidmətlər gözləyirlər. Bu rəqəmsal tendensiyadan yararlana bilməyən firmalar bugünkü istehlakçı ilə əlaqəni itirmək riski altındadırlar. Rəqəmsal reklam xərcləri son illərdə xeyli artmışdır. Sığorta agentləri, məsələn, məhsul və ya xidmətdə maraqlı olan insanlarla əlaqə axtarırlar. Əgər onların coğrafi ərazilərində hər hansı Şəxs sığorta satın alırsa və atdıqları ilk addım şəhərdəki yerli agentliyə baş çəkmə deyil, İnternetdə sürətli axtarış olmuşdursa, onda agentlər bu istehlakçı uğrunda rəqabət apara biləcək vəziyyətdə olmalıdırlar. Bunu onlar rəqəmsal marketinqin köməyi ilə edə bilərlər. Rəqəmsal sığorta marketinqinin başqa bir böyük üstünlüyü agentlərin sorğuları emal edə biləcəyi sürət və səmərəlilikdir. Onlar formaları real vaxt rejimində ala və bir neçə dəqiqə ərzində istehlakçıya geri zəng edə bilərlər. İqtisadiyyatın tam rəqəmləşdirilməsi şəraitində sığorta təşkilatlarında marketinqin inkişafının əsas istiqaməti məhsul və xidmətlərin personalladırılmasıdır [4, s.34].

Azərbaycanın sığorta bazarının xüsusiyyətlərinə, kənd təsərrüfatı şəraitinə və dövlət siyasətinə uyğun olan kənd təsərrüfatı sığortası modelinin seçilməsi və tətbiqi mühüm əhəmiyyətə malikdir. Kənd təsərrüfatı sığortası mexanizmi kifayət qədər böyük institut olduğundan, onun formalaşdırılması və yaradılması zamanı dövlətin kənd təsərrüfatı ilə bağlı strateji siyasəti, kənd təsərrüfatı infrastrukturunun əhəmiyyəti və s. amillər diqqətdə saxlanılmalıdır.Aqrar sığorta bir çox ölkələrdə geniş yayılmışdır. Bu, kənd təsərrüfatı məhsullarının istehsalçılarını qorumaq üçün bir mexanizmdir. Azərbaycanda aqrar sığorta haqqında qanun 2019-cu ilin iyununda qəbul edilmişdir. Avqust ayında Prezident İlham Əliyevin Fərmanı ilə Azərbaycanda aqrar sığorta sisteminin təşkili, inkişafı və dayanıqlığını təmin etmək məqsədini güdən Aqrar Sığorta Fondu yaradıldı. Fond qanunun qüvvəyə mindiyi ildən sonrakı ildə,

2020-ci ilin yanvar ayında işə başlamışdır.

**Açar sözlər:**Sığorta, risk, sığorta haqqı, sığorta bazarı, innovasiyalı sığorta bazarı, iqtisadi artım, sahibkarlıq, innovasiya siyasəti, yeni trendlər

## Ədəbiyyat siyahısı:

1. Məmmədov Z.F. (2017), Maliyyə Sektoru: risklər, yeni çağırışlar və imkanlar, UNEC Ekspert jurnalı, 01 [03] may, s.44-45
2. Abbasbəyli M.A. (2016), Bank sektorunda böhran, pul siyasəti və maliyyə bazarlarına nəzarət modeli: aktual meyyllər və dünya təcrübəsi. Bakı: Azərnəşr, 212 c
3. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi// https://azertag.az/store/files/news/malıyye%20strateji%20yol.pdf
4. Баринов Э.А. (2020), Страховой рынок как сегмент финансового рынка ЕС, Ученые записки Российской Академии предпринимательства, Т.19, № 1, с 117

## AZERBAIJANI INNOVATIVE INSURANCE MARKET: TRENDS AND NEW CHALLENGES

**Dos. Kh.Agayeva**
**S.Sh.Alizade**
**AzerbaijanTechnological University**
**alizade_serdar@mail.ru**

The latest in the insurance market, which is an integral part of the Azerbaijani financial sector. The average annual growth rate in five years was 20 percent. At the same time, the share of insurance premiums in GDP does not exceed 1 percent. Higher than the banking sector of insurance companies the degree of dependence is the main risk.
**Keywords:**Insurance, risk, insurance premium, insurance market, innovative insurance market, economic growth, entrepreneurship, innovation policy, new trends

## ИННОВАЦИОННЫЙ СТРАХОВОЙ РЫНОК АЗЕРБАЙДЖАНА: ТЕНДЕНЦИИ И НОВЫЕ ВЫЗОВЫ

**Доц. Х.Агаева**
**С.Ш.Ализаде**
**Азербайджанский Технологический Университет**
**alizade_serdar@mail.ru**

Новинки на страховом рынке, которыеявляются неотъемлемой частью финансового сектора АзербайджанаСреднегодовой темп роста за пять лет составил 20 процентов. При этом доля страховых премий в ВВП не превышает 1 процента. Выше банковского сектора страховых компаний степень зависимости является основным риском.
**Ключевые слова:**Страхование, риск, страховая премия, страховой рынок, инновационный страховой рынок, экономический рост, предпринимательство, инновационная политика, новые тенденции

# MÜƏSSİSƏDƏ METROLOJİ TƏMİNATININƏSAS XÜSUSİYYƏTLƏRİ

**Ə.Ə.Fətəliyev**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

Müəyyən bir parametrin, məhsulun xarakteristikasının, prosesin və ya hadisənin keyfiyyət ölçülərini yerinə yetirmək üçün istehsala metroloji dəstək vermək üçün texnoloji proseslərin mərhələləri nəzərdən keçirilir. Metroloji təminatın ən mühüm üsullarından biri məhsulların işlənib hazırlanmasında, istehsalında və sınaqdan keçirilməsində ölçülərin vahidliyini təmin etməkdir.Metroloji təminat ölçmələrin vahidliyinə və tələb olunan dəqiqliyinə nail olmaq üçün zəruri olan elmi və təşkilati əsasların, texniki vasitələrin, qayda və normaların yaradılması və tətbiqidir. Beləliklə, metroloji təminat elmi (A), texniki (B) və təşkilati əsaslara (C) malikdir.

A. Metroloji təminatın elmi əsasını metrologiya təşkil edir.

Metrologiya (yunan dilindən "metro" - ölçü, "loqos" - tədris) ölçmələrin vəhdətini və tələb olunan dəqiqliyini təmin edən ölçmələr, üsul və vasitələr haqqında elmdir. Hansı bir ölçmə obyekti üçün müəyyən bir parametrinin, xarakteristikasının, prosesinin, hadisənin keyfiyyətcə müəyyən edilməsi (ölçülməsi) üçün aşağıdakılar zəruridir:

- bizi maraqlandıran obyektin xüsusiyyətlərini müəyyən edən parametrləri, xüsusiyyətlərin seçilməsi;
- seçilmiş parametrlərin müəyyən edilməli olduğu etibarlılıq dərəcəsinin təyin edilməsi, dözümlülükləri, dəqiqlik standartlarını təyin edilməsi;
- tələb olunan dəqiqliyə nail olmaq üçün ölçmə üsullarını və vasitələrini seçilməsi;
- ölçmə vasitələrini müvafiq etalonlarla əlaqələndirməklə (ölçmə vasitələrinin dövri yoxlanılması, kalibrlənməsi yolu ilə) onların funksiyalarını yerinə yetirməyə hazır olmasını təmin edilməsi;
- ölçmələr üçün tələb olunan şəraitin nəzərə alınmasını və ya yaradılmasının təmin edilməsi;
- ölçmə nəticələrinin işlənməsini və xəta xarakteristikalarının qiymətləndirilməsini təmin edilməsi.

Yuxarıda göstərilən müddəalar bir növ zəncirdir, hər hansı bir həlqənin çıxarılması qaçılmaz olaraq etibarsız məlumatların alınmasına və nəticədə əhəmiyyətli iqtisadi itkilərə və səhv qərarların qəbul edilməsinə səbəb olur.

Hər hansı ölçmə tapşırığının düzgün və səmərəli həlli üçün ölçmə nəticələrindən istifadə etmək imkanı aşağıdakı üç şərtlə müəyyən edilir:

1. Ölçmə nəticələri hüquqi vahidlərlə ifadə edilir;
2. Ölçmə nəticələrinin dəqiqlik göstəricilərinin qiymətləri tələb olunan müəyyən edilmiş etibarlılıqla məlumdur;
3. Dəqiqlik göstəricilərinin qiymətləri seçilmiş meyarlara uyğun olaraq bu nəticələrin nəzərdə tutulduğu problemin optimal həllini təmin edir (ölçmə nəticələri tələb olunan dəqiqliklə alınır).

Ölçmə nəticələri ilk iki şərti ödəyirsə, o zaman onlardan istifadənin mümkünlüyü barədə məlumatlı qərar qəbul etmək üçün onlar haqqında bilinməli olan hər şey məlumdur. Belə nəticələr müqayisə oluna bilər, müxtəlif kombinasiyalarda, müxtəlif insanlar, təşkilatlar tərəfindən istifadə oluna bilər. Bu, ölçmələrin vəhdətinin təmin edilməsi deməkdir.

Yuxarıda sadalanan şərtlərdən üçüncüsü tətbiq olunan metodların və ölçmə vasitələrinin düzgünlüyünə olan tələbi müəyyən edir. Ölçmənin qeyri-kafi dəqiqliyi nəzarət xətalarının artmasına və iqtisadi itkilərə səbəb olur. Həddindən artıq qiymətləndirilmiş ölçmə dəqiqliyi daha bahalı ölçmə vasitələrinin alınması xərclərini tələb edir. Ona görə də bu tələb təkcə metroloji deyil, həm də iqtisadi tələbdir, çünki ölçmələr zamanı məsrəflər və itkilərlə bağlı (xərclər və itkilər iqtisadi meyarlardır).

Ölçmələr zamanı hər üç şərt yerinə yetirilərsə (ölçmələrin vahidliyi və tələb olunan dəqiqliyi təmin edilir), onda metroloji dəstək haqqında danışmaq olar.

C. Metroloji təminatın texniki əsası:

- dövlət etalonları sistemi və fiziki kəmiyyətlər vahidi;
- nümunəvi ölçü vasitələrinin və yoxlama vasitələrinin köməyi ilə fiziki kəmiyyət vahidlərinin ölçülərinin etalonlardan bütün ölçmə vasitələrinə ötürülməsi sistemi;
- emal zamanı ölçü vasitələrinin vahidliyini və dövriyyəyə buraxılmasını təmin edən ölçü vasitələrinin Dövlət sınağı sistemi;
- ölçü vasitələrinin məcburi yoxlanılması və ya metroloji sertifikatlaşdırılması sistemi;
- maddələrin və materialların tərkibi və xassələrinin standart nümunələri sistemi - standart istinad məlumatları və fiziki sabitlər və xassələr sistemi - maddələr və materiallar;
- ölçmə üsullarının sertifikatlaşdırılması, o cümlədən zəruri sənədlər toplusunun hazırlanması;
- normativ-texniki sənədlərin metroloji ekspertizası;
- idxal olunan istinad materiallarının istifadəsinə icazə vermək üçün sənədlərin yoxlanılması.

C. Metroloji təminatın təşkilati əsasını "Metrologiya haqqında" Qanuna uyğun fəaliyyət göstərən metroloji xidmət təşkil edir.

Beləliklə, ümumilikdə istehsalın metroloji təminatı müəyyən dərəcədə texnoloji proseslərin və bütövlükdə müəssisənin idarə edilməsinin optimallaşdırılmasını təmin etməli, prosesləri stabilləşdirməli, məhsul istehsalının keyfiyyətini qorumalıdır. Eyni zamanda, istehsalın metroloji təminatı xərcləri istehsalın miqyasına, texnoloji dövrlərin mürəkkəbliyinə uyğun gəlməli və son nəticədə nəinki özünü doğrultmalı, həm də gəlir gətirməlidir.

## ОСНОВНЫЕ ОСОБЕННОСТИ МЕТРОЛОГИЧЕСКОГО ОБЕСПЕЧЕНИЯ НА ПРЕДПРИЯТИИ

**А.А.Фаталиев**

**Азербайджанский Государственный Экономический Университет, UNEC**

В статье рассматривается вопросы, как основные особенности метрологического обеспечения на предприятии.Установлено, что метрологическое обеспечение производства должно в той или иной мере обеспечивать оптимизацию технологических процессов и управление предприятием в целом, стабилизировать процессы и защищать качество продукции. При этом затраты на метрологическое обеспечение производства должны соответствовать масштабам производства, сложности технологических циклов и в конечном итоге не только оправдывать себя, но и приносить доход.

**Ключевое слово:**метрологические обеспечение, единство измерений, степень надежности, способы измерений, экономические потери.

## THE MAIN FEATURES OF METROLOGICAL SUPPORT OF THE ENTERPRISE

**A.A.Fataliev**

**Azerbaijan State University of Economics, UNEC**

The article considers the question of the main features of metrological support of the enterprise.It is established that metrological support of production should be in this or that measure to ensure the optimization of technological processes and management of the enterprise as a whole, to stabilize the process and protect the quality of products. At the expense of metrological support of production it is necessary to correspond to the scale of production, the complexity of technological cycles and, of course, not only to justify themselves, but also to bring income.

**Keywords:**metrological assurance, uniformity of measurements, degree of reliability, measurement methods, economic losses.

# AQRAR SAHƏ MƏHSULLARI ISTEHSALININ IXRAC STRUKTURUNUN ARTIM SƏVIYYƏSININ IQTISADI QIYMƏTLƏNDIRILMƏSI

**Dos. Ə.A.Qurbanova**

**Aslanova Nərminə Asim qızı**

**Azərbaycan Texnologiya Universiteti**

aslanovanarmina1@gmail.com

Milli iqtisadiyyatın davamlı inkişafı qloballaşma və dünya iqtisadi əlaqələrin genişləndiyi bir dövrdə xarici ticarət əlaqələti böyük rol oynayır.Xarici bazarlarda ölkənin əldə etdiyi nəaliyyətlər və uğurla həyata keçirilməsi xarici valyutanın əldə edə bilməsi bu əlaqələrdən asılıdır. Ölkənin xarici ticarət əlaqələri ölkədə fəaliyyət göstərən istehsal sahələrinin ixrac potensialı ilə birbaşa asılıdır.

Həm dünya ölkələrlə, həm də qonşu ölkələri ilə xarici, həmçinin iqtisadi ticarət əlaqələrinin artmasına Azərbaycanın müstəqilliyi təkan vermişdir. Xarici ticarət sektorunun ölkə iqtisadiyyatının aparıcı sahələrindən birinə çevrilməsinə və xarici ticarət əlaqələrinin genişlənməsinə səbəb aqrar sahə məhsullarının ixracının həyata keçirilməsi üçün görülən tədbirlərdir. Bu da öz növbəsində xarici ticarət əlaqələrinin formalaşmasının və ixrac potensialının artırılmasını zəruri etmişdir.

Azərbaycanın xarici ticarət tərəfdaşlarının sayının xeyli artmasına təkan verən son illər ərzində Azərbaycanın xarici ticarət fəaliyyətinin yüksəldilməsi yolunda həyata keçirilən tədbirlər. Hal-hazırda 170-dən çox ölkə ilə ölkəmiz iqtisadi əlaqədədir. Ölkədə standartlara uyğun məhsulların istehsalı, yeni texnoloji infrastukturun qurulması,xarici bazarlara ölkə məhsullarının ixracının həcmi artırılıb. Lakin Azərbaycanın xarici ticarət dövriyyəsi son 5 ildə 0.7 dəfə azalmışdır, 2018-ci ildə ixrac 2014-cü illə müqayisədə 32.9% azalmışdır. 5 il bundan əvvəl Azərbaycanın ixracının coğrafiyasına baxsaq, Azərbaycan 137 ölkə ilə ticarət əməliyyatları aparırdısa, hal-hazırda bu rəqəm 175-ə çatıb. Bu ixrac potensialımızın çoxalmasının nəticəsidir. Artıq bu gün Azərbaycan ənənəvi olan bazarlarla yanaşı ABŞ, Yeni Zenlandiya Avstraliya və bir çox Şərqi Asiya Azərbaycan məhsulları bu ölkələrə göndərilir. İxrac məhsulları təkcə qaz və neft məhsullarından ibarət deyil, bu kimi məhsullar arasında əsas yeri kənd təsərrüfatı məhsulları çay, meyvə-tərəvəz, qərəzkli bitkiləri heyvan mənşəli piylər, bitki və yağlar tutur. İdxala daha çox ərzaq məhsulları daxil olduğu zamanlarda müstəqilliyin ilk illərində, bu gün qida məhsullarının miqdarı idxal məhsulları arasında azalmışdır.

MDB ölkələri əvvəllər Azərbaycanın əsas ticarət partnyorlarını təşkil edirdisə, bu nisbət indi Avropa birliyinin ölkələrinin xeyrinə dəyişib. MDB ölkələri arasında olan Rusiya Federasiyası Azərbaycanla ən çox ticarət dövriyyəsinə malik olan ölkədir. Rusiya Federasiyasının ticarət dövriyyəsində Azərbaycanın payı 50%-dır. Rusiyanın Azərbaycanın kənd təsərrüfatı məhsulları üçün böyük bazara sahib olması digər MDB ölkələri ilə müqayisədə Rusiya daha böyük üstünlüyə sahib olmasının səbəblərindən biridir.Rusiya ilə Azərbaycan arasında keçmişdə mövcud olmuş ticari-iqtisadi əlaqələri də bu dövriyyənin artmasında başlıca rol oynayır. Potensial əməkdaşlığı daha da genişləndirməyə imkan verən iqtisadiyyatın həcminin Azərbaycanda son 5 ildə artmasıdır. Lakin regional ixracın həcmi ölkəmizdə 2014-cü ilə nisbətən 2018-ci ildə 10.9% azalmışdır. Bu baş vermişdir portnyor ölkələrin əməkdaşlarının nisbətən azalması nəticəsində. Lakin aqrar sahə ölkəmizin əmtəə dövriyyəsində mühüm yer almışdır.Belə ki, ixrac aqrar sahədə əvvəlki illər üzrə müqayisədə böyük sürətlə 30%-dən çox artmışdır. Avropa Birliyi ölkələri ilə ticarət əlaqələrini daha da genişləndirilməsini stimullaşdıran infrastruktur və digər layihələrin uğurla icraçısı kimi xarakterizə edilən Azərbaycanın iqtisadiyyatının dinamik inkişafıdır.MDB ölkələri Azərbaycanın xarici ticarət dövriyyəsində əsas yer tutur. Ancaq 2018-ci ildə əmtəə dövriyyəsində MDB ölkələri ilə 98.5% təşkil etmişdir, 2018-ildə 2013-cü illə müqayisədə MDB ölkələri ilə əmtəə dövriyyəsində 1.5% azalma olmuşdur.

**Mövzunun aktuallığı:** Mövzu üzrə ixrac potensialının artırılmasına müasir şəraitdə daha geniş imkanların yaradılır və dövlət öz dəstəyini hər zaman aqrar sahəyə gücləndirilir.

**Tədqiqatın məqsədi:** İxrac potensialını artırmaqla aqrar sahədə istehsalın iqtisadi səmərəliliyinə nail olmaqdır.

**Tədqiqatın obyekti :**Tədqiqatın obyektini ixracın təmin edilməsinin praktiki və nəzəri məsələlər kompleksi təşkil edir. Aqrar sahənin ixracın artım səviyyəsinin iqtisadi qiymətləndirilməsinin tədqiqi tədqiqatın obyekti təşkil edir.

**Tədqiqatın metodu**: Xarici ölkə və ölkə alimlərinin, iqtisadçıların, mütəxəssislərinin, aqrar sahənin inkişafı və xarici ticarətin ixracın təsiri problemlərinə, ixrac siyasətinə həsr edilmiş tədqiqatları, əsərləri təşkil edir.

**Açar sözlər:**ixrac,kənd təsərrüfatı,aqrar sahə,iqtisadiyyatın qiymətləndirilməsi

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycanın statistik göstəriciləri 2018, Bakı, "Səda" nəşriyyatı, 2019
2. Cahangirov P.H. "Aqrar sahədə ixrac yönümlü məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsi" Az.ETKTİ və Tİ-nun elmi əsərlər toplusu. Bakı, 2001
3.Cəmil Sultanov. İxrac potensialı sisteminin strukturu və inkisaf xüsusiyyətləri. "Hüquqi dövlət və qanun". 2008, 10. s. 28-32

## ЭКОНОМИЧЕСКАЯ ОЦЕНКА УРОВНЯ РОСТА СТРУКТУРЫ ЭКСПОРТА ПРОДУКЦИИ АГРОПРОМЫШЛЕННОГО КОМПЛЕКСА

**Н.А.Асланова**
**Доц. А.А.Гурбанова**
**Азербайджанский Технологический Университет**
**aslanovanarmina1@gmail.com**

В эпоху устойчивого развития национальной экономики, глобализации и расширения мирохозяйственных связей внешняя торговля играет большую роль.

## ECONOMIC EVALUATION OF THE GROWTH LEVEL OF AGRO-INDUSTRIAL EXPORTS STRUCTURE

**N.A.Aslanova**
**Prof. A.A.Gurbanova**
**Azerbaijan Technological University**
**aslanovanarmina1@gmail.com**

In an era of sustainable development of the national economy, globalization and the expansion of world economic relations-foreign trade plays a major role.

# METROLOJİ TƏMİNATIN BƏZİ ASPEKTLƏRİ

**L.R.Məhərrəmova**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

İSO 9000 seriyasının beynəlxalq standartlarının tətbiqi ilə metrologiyanın inkişafında yeni mərhələ başlandı ki, bu da metroloji fəaliyyətin idarə edilməsinin inzibati prinsipindən qanunvericiliyə keçid və böyük ölçüdə standartlara uyğunlaşdırılması ilə xarakterizə olunur.

Hər hansı ölçmə tapşırığının düzgün və səmərəli həlli üçün ölçmə nəticələrinin tətbiqi mümkünlüyü aşağıdakı şərtlərlə müəyyən edilir:

1. Ölçmə nəticələri hüquqi vahidlərlə ifadə edilir;
2. Ölçmə nəticələrinin dəqiqlik göstəricilərinin qiymətləri tələb olunan müəyyən edilmiş etibarlılıqla məlumdur;
3. Ölçmə nəticələrinin dəqiqlik göstəricilərinin qiymətləri seçilmiş meyarlara uyğun olaraq ölçmələrin aparıldığı problemin optimal həllini təmin edir.

Ölçmənin nəticələri ilk iki tələbi ödəyirsə, onlardan istifadənin mümkünlüyü barədə əsaslandırılmış qərar qəbul etmək üçün bu barədə bilinməli olan hər şey məlumdur. Bu zaman ölçmələrin vəhdətinin təmin edildiyini, onların nəticələrinin hüquqi vahidlərlə ifadə edildiyini və xətaların verilmiş ehtimalla müəyyən edilmiş hüdudlardan kənara çıxmadığını bildirirlər.

Sadalanan şərtlərin üçüncüsü, qeyri-kafi ölçmə dəqiqliyinin nəzarət səhvlərinin artmasına, iqtisadi itkilərə, həddindən artıq qiymətləndirilməsi isə daha yaxşı ölçmə vasitələrinin alınması üçün həddindən artıq xərclərə səbəb olduğunu göstərir. Buna görə də, bu, yalnız metroloji deyil, həm də iqtisadi şərtdir, çünki iqtisadi meyar olan ölçmələr zamanı xərclər və itkilərlə əlaqələndirilir.

Əgər hər üç şərt yerinə yetirilirsə, onda biri metroloji təminatdan danışır, bu, vahidliyə və ölçmələrin tələb olunan dəqiqliyinə nail olmaq üçün zəruri olan elmi və təşkilati əsasların, texniki vasitələrin, qayda və normaların yaradılması və tətbiqi deməkdir. Beləliklə, *metroloji təminat* elmi, texniki və təşkilati əsaslara malikdir.

Metroloji təminat anlayışı genişdir və texniki ölçülərdən tutmuş onların vəhdətinin təmin edilməsinə qədər hər şeyi, o cümlədən qanunvericilik nöqteyi-nəzərindən əhatə edir və ümumilikdə sınaq, ölçmə və nəzarətə tətbiq edilir. Texnoloji istehsalın metroloji təminatı anlayışından da istifadə etməyə icazə verilir.

Metroloji təminatın elmi əsasını metrologiya - ölçmələr elmi təşkil edir. Təşkilatın əsasını Rusiyanın metroloji xidməti təşkil edir. Metroloji dəstəyin texniki əsasını aşağıdakı sistemlər təşkil edir:

- vahidlərin ən yüksək dəqiqliklə təkrar istehsalını təmin edən fiziki kəmiyyət vahidlərinin dövlət etalonları sistemi;
- fiziki kəmiyyət vahidlərinin ölçülərinin etalonlardan bütün ölçü alətlərinə ötürülməsi sistemi;
- tələb olunan dəqiqliklə təyin olunmasını təmin edən işçi ölçmə vasitələrinin hazırlanması, istehsalı və dövriyyəyə buraxılması sistemi.
- məhsulların, texnoloji proseslərin və digər obyektlərin xüsusiyyətlərini;
- seriyalı və ya kütləvi istehsal üçün nəzərdə tutulan ölçmə vasitələrinin məcburi dövlət sınağı sistemi;
- ölçü vasitələrinin istehsalı, istismarı və təmiri zamanı onların vahidliyini təmin edən məcburi dövlət və idarə yoxlaması və ya metroloji sertifikatlaşdırma sistemi;
- elmi tədqiqatlar, məmulat konstruksiyalarının və onların hazırlanması üçün texnoloji proseslərin işlənib hazırlanması üçün etibarlı məlumat verən maddələrin və materialların fiziki sabitləri və xassələri haqqında standart arayış məlumatları sistemi və s.;

• ölçmə prosedurlarının işlənib hazırlanması, standartlaşdırılması və sertifikatlaşdırılması sistemi.

Ölçmələrin vahidliyinin təmin edilməsi qaydaları və normaları Ölçmələrin vahidliyinin təmin edilməsi üzrə Dövlət Sisteminin normativ sənədlərində müəyyən edilir.

Bu yanaşma metroloji tələblərə əməl olunmasının məcburi olduğu və dövlət metroloji nəzarətinə məruz qalan fəaliyyət sahələrini müəyyən edir.

Ölçmələrin vahidliyinin təmin edilməsinə dövlət nəzarəti hüquq və vəzifələri qanunla da müəyyən edilmiş dövlət müfəttişləri tərəfindən həyata keçirilir.

Qeyd etmək lazımdır ki, yalnız metroloqlar metroloji dəstək fəaliyyətinə cəlb edilmirlər, eyni zamanda ölçmələrin vahidliyinə cavabdeh olan şəxslər və ya təşkilatlar, həm də hər bir mütəxəssis ya etibarlılığı ilə maraqlandığı kəmiyyət məlumatının istehlakçısı, ya da onun əldə edilməsi və ölçmələrin etibarlılığının təmin edilməsi prosesinin iştirakçısı kimi cəlb edilirlər.

Beləliklə, metroloji təminatın hazırkı vəziyyəti yüksək ixtisaslı mütəxəssislər tələb edir. Xarici təcrübənin daxili şəraitə mexaniki şəkildə ötürülməsi hazırda mümkün deyil və ölçmə məlumatlarına əsaslanan qərarların hazırlanmasında və qəbul edilməsində yaradıcı olmaq üçün mütəxəssislər kifayət qədər geniş dünyagörüşünə malik olmalıdırlar. Bu, təkcə istehsal sektorunda çalışan işçilərə aid deyil. Metrologiya sahəsində biliklər etibarlı ölçmə məlumatlarından istifadə etməli olan məhsul satışı üzrə mütəxəssislər, menecerlər, iqtisadçılar üçün də vacibdir.

## НЕКОТОРЫЕ АСПЕКТЫ МЕТРОЛОГИЧЕСКОГО ОБЕСПЕЧЕНИЯ

**Л.Р.Махарамова**
**Азербайджанский Государственный Экономический Университет**

В статье рассматриваются такие вопросы, как некоторые аспекты метрологического обеспечения.Установлено, что современное состояние метрологического обеспечения требует высокой квалификации специалистов, но в связи с невозможностью механически перенести зарубежный опыт на внутренние условия специалисты должны обладать достаточно широким кругозором, чтобы творчески подходить к принятию решений на основе данных измерений. В результате этого наряду с развитием производства, это даст толчок к получению качественной продукции.

**Ключевые слова:** метрологическое обеспечение, развитие метрологии, международный стандарт, научные основы метрологии, средства измерений

## SOME ASPECTS OF METROLOGICAL SECURITY

**L.R.Maharamova**
**Azerbaijan State University of Economics**

The article considers such issues as some aspects of metrological support.It is established that the current state of metrological support requires high qualifications of specialists, but due to the impossibility of mechanically transferring foreign experience to the internal conditions of specialists, it is necessary to have the necessary qualifications. As a result of this outfit with the development of production, it will give a boost to the production of quality products.

**Keywords:** metrological support, development of metrology, international standard, scientific basis of metrology, means of measurements

# MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABATIN İNFORMASİYA ƏLAQƏLƏRİNİNTƏDQİQİ

**Dos.X.M.Mehdiyev, E.Q.Məmmədov**
**Azərbaycan Texnologiya Universiteti**

Bazar şəraitində elmi-texniki tərəqqinin sürətləndirilməsi, idarəetmə sisteminin təkmilləşdirilməsi yolu ilə iqtisadiyyatın inkişafı və onun səmərəliliyinin yüksəldilməsi əsasında müəssisə və təşkilatların sosial vəziyyətinin yaxşılaşdırılması, istehsalın fasiləsiz davamı və istehlakçıların ehtiyac və tələbatlarının tam və vaxtında ödənilməsi müəssisənin dövriyyə vəsaiti ilə təmin olunması səviyyəsindən bilavasitə asılıdır.

Müəssisə və təşkilatların maliyyə vəziyyəti onların istehsal ehtiyatları ilə təmin olunması, dövriyyə vəsaitinin dövr sürəti, müəssisənin bank krediti ilə təmin olunması, kreditdən öz məqsədli təyinatı üzrə istifadə edilməsi, debitor və kreditor borclarının vəziyyəti, müəssisəyə xammal və materialların vaxtında daxil olması, məhsulun sifarişçilərin ünvanına müqaviləyə uyğun yola salınması və müəssisənin ödəmə qabiliyyəti ilə xarakterizə olunur. Bir qayda olaraq müəssisə və təşkilatların maliyyə vəziyyətinin sabitliyi dövriyyə vəsaitinin dövriyyəsinin sürətləndirilməsini, istehsalın ahəngdarlığını, eyni zamanda maliyyə-təsərrüfat fəaliyyətində yüksək son nəticələr əldə edilməsini təmin edir.

Maliyyə-hesablaşma intizamına və bazar prinsiplərinə riayət etməklə müəssisə və təşkilatların son maliyyə nəticəsi müəyyən edilir. Məhz son maliyyə nəticələrinə görə müəssisənin təsərrüfat fəaliyyətinə qiymət vermək mümkün olur. Müəssisədə istehsal və tədavül prosesində hər hansı bir səbəbdən maliyyə çətinliyinin yaranması ilk növbədə xərclərin ödənməsinə, malgöndərənlərlə hesablaşmaların vəziyyətinə, materialların vaxtında daxil olmasına və s.yə mənfi təsir göstərir.

Təcrübə göstərir ki, müəssisə və təşkilatların maliyyə-hesablaşma çətinlikləri və maliyyə vəziyyətinin pisləşməsi müxtəlif səbəblərdən: müəssisənin dövriyyə vəsaitlərinin çatışmaması; dövriyyə vəsaitlərindən istifadə edilməsi üzrə mövcud qaydaların pozulması hesabına vəsaitin dövriyyədən yayındırılması; hesablaşma intizamının pozulması hesabına debitor borclarının artması; yüklənmiş və yola salınmış, lakin istehlakçıların tələblərinə cavab verməyən məhsulların göndərilməsi və s. dən baş verir.

Belə bir şəraitdə müəssisə və təşkilatların maliyyə vəziyyətinin öyrənilməsinin məzmunu əsas və dövriyyə fondlarından istifadənin məqsədəuyğunluğunu öyrənməkdən, onun maliyyə və kredit sistemi ilə, mal satan və alıcı təşkilatlarla, ayrı-ayrı şəxslərlə, sair debitor və kreditorlarla qarşılıqlı hesablaşmaların aparılması vəziyyətini öyrənməkdən ibarətdir.

Müəssisə və təşkilatların maliyyə vəziyyətinin təhlili təsərrüfat fəaliyyətinin öyrənilməsində sonuncu və ümumiləşdirici mərhələ olmaqla yanaşı təsərrüfat fəaliyyətinin son maliyyə nəticələrinin yaxşılaşdırılmasında mühüm rol oynayır. Belə ki, müəssisə və təşkilatların bütün kəmiyyət və keyfiyyət göstəricilərinin son nəticəsi bilavasitə öz əksini maliyyə göstəricilərində tapır. Bu göstəricilər isə müəssisədə məhsul istehsalı və satışı üzrə tapşırıqların yerinə yetirilməsi səviyyəsindən, istehsal ehtiyatlarınan səmərəli istifadə edilməsindən, qənaət rejiminin gözlənilməsindən, maya dəyərinin aşağı salınması, mənfəət və rentabellik göstəricilərinin yaxşılaşdırılmasından asılıdır. Ona görə maliyyə vəziyyəti haqqında hesabatın informasiya əlaqələrinin tədqiqi xüsusi aktuallıq kəsb edir.

Qeyd etmək lazımdır ki, maliyyə hesabatı formaları içərisində özünün informasiya əhatəsinə görə daha vacib hesab edilən müəssisə və təşkilatın “Maliyyə vəziyyəti haqqında hesabatı”dır. Bu hesabat forması öz məzmunu və quruluşu etibarı ilə mühasibat balansından ibarətdir ki, bu da təşkilatın maliyyə vəziyyətini xarakterizə edir və onlar tərəfindən maliyyə planının yerinə yetirilməsinə nəzarət etmək və onun maliyyə fəaliyyətinin qiymətləndirilməsi və təhlili üçün xidmət edir.

Maliyyə vəziyyəti haqqında hesabatda 3 növ informasiyalar qeyd olunur ki, bunlar təşkilatın

aktivlərini, öhdəliklərini və kapitalını əks etdirir. Müəssisə və təşkilatların aktivləri və öhdəlikləri hər biri uzunmüddətli və qısamüddətli olmaqla iki ayrı-ayrı bölmədən ibarət olduğuna görə, ümumilikdə hesabat üzrə informasiyalar 5 bölmə üzrə qruplaşdırılır. Bunlar aşağıdakılardan ibarətdir: 1.uzunmüddətli aktivlər, 2.qısamüddətli aktivlər,3.kapital,4.uzunmüddətli öhdəliklər,5.qısamüddətli öhdəliklər.

Qeyd edilən bölmələrdən ilk ikisi balansın aktivində, qalan üçü isə passiivində yerləşən informasiyalar əsasında formalaşdırılır. Balansda təsərrüfat vəsaitləri (aktivlər) növləri, tərkibi və istehsal prosesindəki funksional roluna görə, eyni zamanda öhdəliklər və kapital formalaşması və məqsədli təyinatı üzrə əks etdirilir.

Qeyd etmək lazımdır ki, kommersiya təşkilatlarında tərtib olunan maliyyə vəziyyəti haqqında hesabatda informasiyaların bölmələr üzrə əks etdirilməsi ardıcıllığı büdcə təşkilatlarında tərtib olunan eyni adlı hesabatdan fərqlənir. Bu fərq ondan ibarətdir ki, kommersiya təşkilatlarında maliyyə vəziyyəti haqqında hesabatında birinci bölmədə uzunmüddətli aktivlər, ikinci bölmədə isə qısamüddətli aktivlər verildiyi halda, büdcə təşkilatlarında maliyyə vəziyyəti haqqında hesabatında birinci bölmədə qısamüddətli aktivlər, ikinci bölmədə isə uzunmüddətli aktivlər əks olunur. Bunu öhdəliklərə də aid etmək olar. Digər bir fərq təşkilatın hesabat formasında tutduğu bölmə mövqeyinə görədir. Belə ki, kommersiya təşkilatlarının maliyyə vəziyyəti haqqında hesabatında kapital haqqında informasiyalar hesabatın üçüncü bölməsində verildiyi halda, büdcə təşkilatlarının maliyyə vəziyyəti haqqında hesabatında beşinci bölmədə verilir.

Maliyyə vəziyyəti haqqında hesabatın bölmələri üzrə verilmiş bütün maddələrdə əks olunan məbləğlər təşkilatın Baş kitabındakı hesab vərəqələri, sintetik hesablar üzrə dövriyyə-qalıq cədvəli və balansda mühasibat hesabları üzrə müvafiq informasiyaların ardıcıl şəkildə işlənməsi və qruplaşdırılması proseslərində hesablanaraq göstərilir.

Aktivlərin, öhdəliklərin, gəlirlərin və xərclərin qiymətləndirilməsi həqiqi dəyərlə yerinə yetirilir. İnformasiyaların mühasibat uçotunda faydalılığını təmin etmək üçün göstərilən obyektləri aşağıdakı qaydada qiymətləndirmək nəzərdə tutulur:

-cari dəyərlə, yəni hər hansı obyektin dəyişdirilməsi zəruri olan tarixə ödənilən pul vəsaitinin məbləği ilə;

-cari bazar qiymətilə, yəni obyektin satılması nəticəsində, yaxud onun ləğv edilmə müddəti daxil olan zaman alına bilən pul vəsaiti məbləği üzrə.

Maliyyə vəziyyəti haqqında hesabatda əks etdirilmiş informasiyalar müəssisə və təşkilatın aktivlərinin, öhdəliklərinin və kapitalının, o cümlədən hesabat dövründəki formalaşdırdığı maliyyə nəticələrinin və bütövlükdə maliyyə vəziyyətinin mövcud vəziyyətini informasiya istifadəçilərinin nəzərinə çatdırır.

**Ədəbiyyat siyahısı:**

1. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının qanunu. Bakı,2004
2.Abbasoc T.A. Büdcədən maliyyələşən təşkilatlarda uçot və hesabat (GAAP və İFRC). Bakı, 2014
3.Sadıqov Ə.A., Sadıqov T.Ə., Cəfərova Ş.Ə., Sadıqov C.Ə. "Mühasibat uçotu" dərslik. Bakı, "Təhsil işçisi mətbəəsi" MMC, 2012
4.Səbzəliyev S.M. Mühasibat (maliyyə) hesabatı. Bakı, 2003

**ИССЛЕДОВАНИЕ ИНФОРМАЦИОННЫХ СВЯЗЕЙ ОТЧЕТА О ФИНАНСОВОМ СОСТОЯНИИ**

**Х.М.Мехтиев, Э.К.Мамедов**
**Азербайджанской Технологический Университет**

В статье рассматривается изучение, значимость и содержание финансового состояния, виды информации, их группировка, последовательность отражения по разделам в отчете финансового состояния.

**STUDY OF INFORMATION LINKS OF THE FINANCIAL STATEMENT.**

**Kh.M.Mehdiyev, E.G.Mammadov**
**Azerbaijan Technological University**

The article discusses the study,significance and content of the financial condition, types of information, their grouping, the sequence of reflection by sections in the report of the financialcondition.

# BIZNES MÜNASIBƏTLƏRININ INKIŞAFINDA MARKETINQIN ROLU

**N.Q.Hüseynov, M.F.Zamanlı**
**Azərbaycan Texnologiya Universiteti**
mushgunaz.1995@mail.ru

Məqalədə, iqtisadi münasibətlərin inkişafında marketinqin roluna nəzər salınmışdır.

Marketinq dedikdə, firmanın bazarda uğurlu satışını təmin etməklə bağlı fəaliyyət nəzərdə tutulur. Bu gün, marketinqin çoxlu sayda müxtəlif tərifləri mövcuddur ki, bu da onun müxtəlifliyini, həll edilməli olan vəzifələrin və istifadə olunan vasitələrin müxtəlifliyini, ən əsası isə "uğurlu satış" ideyasına müxtəlif yanaşmaları əks etdirir. Marketinq aşağıdakı kimi nəzərdən keçirilə bilər:

• idarəetmə fəaliyyəti və ya idarəetmə prosesi kimi;
• idarəetmə konsepsiyası kimi;
• elmi fənn kimi.

Marketinq bazar tsiklinin yekun konsepsiyasıdır, o, məqsədi insanların ehtiyaclarının və tələblərinin qarşılanması olan bazarla mübadilələri həyata keçirmək üçün fəaliyyətdir. Mübadilə prosesi iş tələb edir: bu, alıcıların axtarışı, onların ehtiyaclarının ortaya çıxarılması, müvafiq məhsulların layihələndirilməsi, onların bazara təşviq edilməsi, anbar təsərrüfatı, daşınma, qiymətin formalaşması, xidmətin təşkili və reklam işindən ibarətdir.

İqtisadiyyatda marketinqin rolu – onun ticari-əməliyyat səmərəliliyinin artırılmasıdır. Müasir mərhələdə, marketinq dedikdə, yalnız bazar konyukturasının inkişafına cavab verməyə qadir olan deyil, eyni zamanda bazara çıxışı, bazarın genişlənməsini, bazar təhlükəsizliyini təmin edərək ətraf mühitin özünün parametrlərini dəyişdirə bilən idarəetmə düşüncə tərzi olan bazara yönəlmiş ifadə başa düşülür.

Bazarda aktiv fəaliyyət, bu gün müəssisələrin iqtisadi inkişafının təməl daşıdır. Hazırda, son istifadəçi barədə biliklər, onun bütün tələblərinə çevik cavab vermək bacarığı həyati əhəmiyyət kəsb edir. Əks halda, malların satışı təmin oluna, müəssisənin rentabelliyi arta bilməz. Malların satışının müxtəlif forma və metodlarının imkanlarının və effektivliyinin öyrənilməsi, əhalinin ehtiyaclarının formalaşması, kommersiya şirkətinin nüfuzunun artırılması üzrə işlərin görülməsi son dərəcə zəruridir. Müəssisələrin bu tip iqtisadi davranışı, adətən, rəqabətli iqtisadiyyat şəraitində müəssisələrin istehsal və satış fəaliyyətinin təşkilinin xarici təcrübəsində özünü layiqli şəkildə doğrultmuş marketinqlə bağlıdır.

Bu gün, praktiki olaraq, sənaye baxımından inkişaf etmiş elə bir ölkə yoxdur ki, orada marketinq fəaliyyətləri bu və ya digər dərəcədə tətbiq olunmasın. Çünki marketinq yönümlü firmalar daha rəqabətli olur, daha az itkiyə məruz qalır və rentabellilik baxımından liderlik edirlər.

Bazar iqtisadiyyatı şəraitində marketinqin funksiyası mal və xidmətlərə tələb və təklifin səmərəli uyğunluğunun təmin edilməsi üçün azad və rəqabətli mübadilənin təşkil edilməsidir. Bu uyğunluq spontan səciyyə daşımır və aşağıdakıları tələb edir:

- istehsalla istehlakçı arasında maddi mübadilənin, başqa sözlə, fiziki əmtəə axınının təşkili;
- kommunikasiyanın, ayrı cür desək, mübadilədən əvvəl gələn, onu müşayiət edən və tələb və təklifin effektiv uyğunluğunun təmin edilməsi üçün onu izləyən informasiya axınının təşkili.

Beləliklə, marketinqin rolu satıcılar və alıcılar arasında mübadilə və kommunikasiyanın təşkil edilməsidir.

Marketinqin iqtisadiyyatda rolu ondan ibarətdir ki, o, tələbə müvafiq olaraq istehsalı həyata keçirməlidir. Marketinq xidmətlərinin səyləri ictimai tələbata müvafiq gələn mallar çeşidinin yaradılmasına yönəldilmişdir. Məhsulun xarici görünüşünə, istehlak xüsusiyyətlərinə, satışdan sonrakı xidmətə daha çox diqqət yetirilir. Bu zaman, marketinq səyləri alıcını bu məhsulun ən yaxşısı olduğuna inandırmağa, alıcının ticarət markasına "təəhhüd"ünü yaratmağa yönəldilməlidir.

Marketinqdə idarəetmənin bazar konsepsiyasına ehtiyac bazar iqtisadiyyatı olan ölkələrdə rəqabətin güclənməsi ilə əlaqədar son vaxtlar xüsusilə hiss olunur. Marketinq, müntəzəmliyi bazar münasibətləri sferasına genişləndirməklə istehsal, elmi-tədqiqat və istehsalat, maliyyə və satış fəaliyyətinin müxtəlif məsələləri üzrə qəbul edilən qərarların etibarlılığını artırır. Bu, əmtəə dövriyyəsi prosesinin rasionallaşdırılmasında, müəssisədaxili planlaşdırma prosesində mühasibat uçotu və bazar vəziyyətinin proqnozlaşdırılması təcrübəsinin təkmilləşdirilməsində özünü göstərir. Marketinq, həddindən artıq istehsal böhranlarını yumşaltmaq və aradan qaldırmaq üçün bir vasitə tapmağa, tələb və təklifin uyğunluğunu təmin etməyə imkan verir.

Marketinq bazar iqtisadiyyatı sistemində mühüm iqtisadi rol oynamağa xidmət göstərir. Yalnız tələb və təklif arasında effektiv əlaqə təmin etdiyinə görə deyil, həm də ona görə ki, mərhələləri aşağıdakılardan ibarət olan iqtisadi inkişafın karlı dövrünü başladır:

- marketinq qarşılanmamış ehtiyacları aşkar edir və müvafiq olaraq uyğunlaşdırılmış məhsullar işləyib hazırlayır;
- marketinq bu yeni məhsullara tələbatın yaranmasına və artmasına gətirib çıxaran fəaliyyətlər planını həyata keçirir;
- artan tələbat xərclərin azalmasına gətirib çıxarır ki, bu da qiymətləri aşağı salmağa imkan verir, bunun sayəsində bazara yeni alıcı qrupları daxil olur;

Bazarın bu cür genişlənməsi miqyasda qənaət etməyə və təkmilləşdirilmiş və ya yeni məhsulların işlənib hazırlanmasına imkan verən yeni investisiyalar cəlb edir.

**Mövzunun aktuallığı.** Biznes münasibətlərin inkişafında marketinqin rolu biznes münasibətləri kontekstindən aktual hesab olunur.

**Tədqiqatın məqsədi.** Biznes münasibətlərin inkişafında marketinqin rolu və əhəmiyyətinin araşdırılmasından ibarətdir.

**Tədqiqat obyekti.** Biznes münasibətlərdə marketinqin rolu.

**Tədqiqat metodu.** Marketinqin rolunun müəyyən edilməsində empirik metod.

**Açar sözlər:** marketinq, marketinq menecment, qarşılıqlı marketinq, marketinq kompleksi, təşviqat

**Ədəbiyyat siyahısı:**

1. İbrahimov İ., Səfərova V. Sənayenin təşkili və idarə edilməsi. Bakı, BBU, 2018
2. İsmayıl Mahmud oğlu Xeyirxəbərov. «Marketinq tədqiqatları». Dərs vəsaiti. "İqtisad Universiteti" nəşriyyatı, Bakı: 2015, 364 s
3. Məmmədli O.Q., Xurşudov Ş.N., İsmayılov F.İ., İbrahimova R.R., Turabova G.S.. Marketinq. Ali məktəblər üçün dərslik, Bakı, "Ecoprint", 2016, 400 s
4. Quliyev F.V. Marketinqin idarə edilməsi, Dərs vəsaiti, Bakı, 2018, "Kooperasiya" nəşriyyatı, 280 s
5. Голубков, Е. П. Основы маркетинга: учебник. 3–е изд., перераб. и доп. – М.: Финпресс, 2015, 704 с
6. Голубков, Е. П. Основы маркетинга. Учебник. – М.: Финпресс, 2016, 136 с
7. Онофрейчук, О. Д. Реклама, как средство продвижения товара // Вопросы экономики, 2014, № 5, с.21–27
8. Самагина О. А. Учебная литература для ВУЗов. Маркетинг Менеджмент Экономика, Воронежский государственный университет, 2016, 66 с

## РОЛЬ МАРКЕТИНГА В РАЗВИТИИ ДЕЛОВЫХ ОТНОШЕНИЙ

**Н.Г.Гусейнов, М.Ф.Заманлы**
**Азербайджанский Технологический Университет**
**mushgunaz.1995@mail.ru**

В условиях рыночной экономики функция маркетинга состоит в организации свободного и конкурентного обмена для обеспечения эффективного соответствия предложения и спроса на товары и услуги.

Роль маркетинга в экономике заключается в том, что он призван привести производство в соответствии со спросом. Усилия маркетинговых служб направлены на создание такого ассортимента товаров, который соответствовал бы общественному спросу.

## THE ROLE OF MARKETING IN THE DEVELOPMENT OF BUSINESS RELATIONS

**N.G.Huseynov, M.F.Zamanly**
**Azerbaijan Technological University**
**mushgunaz.1995@mail.ru**

In a market economy, the function of marketing is to organize a free and competitive exchange to ensure the effective matching of supply and demand for goods and services.

As for the role of marketing in the economy, first of all, it should be noted that it is designed to adapt production to demand. The efforts of marketing services are aimed at creating such an assortment of goods that would correspond to public demand.

# MILLI IQTISADIYYATIN INKIŞAFINDA KIÇIK BIZNESIN ROLU

**S.İsmayılova**
**H.M.Rzayeva**
**Azərbaycan Texnologiya Universiteti**
**hemayerzayeva626@gmail.com**

Məqalədə milli iqtisadiyyatın inkişafında kiçik biznesin rolu aydınlaşdırılmışdır.

Kiçik və orta biznesin inkişafı bazar iqtisadiyyatının prioritet istiqamətlərindən biridir. Dünya təcrübəsindən məlum olduğu kimi, kiçik biznes bazar iqtisadiyyatında önəmli rol oynayır, iqtisadi artım tempini müəyyənləşdirir, həmçinin maddi, maliyyə və kadr ehtiyatlarının daha rasional bölgüsünü təmin edir. Digər tərəfdən, iqtisadiyyatda önəmli məsələlərdən birini iş yerlərinin yaradılması mühiti tutduğu üçün, bu baxımdan, iri müəssisələrə nisbətən kiçik biznesdə yeni iş yerlərinin yaradılmasına daha az xərc tələb olunur.

Kiçik biznes milli iqtisadiyyatın çiçəklənməsinə səbəb olan, istehsalın dirçəldilməsinə və əhalinin iqtisadi fəallığının artırılmasına güclü təkan verən mühüm faktordur. Kiçik biznes iqtisadiyyatın ən çevik və nəticəvi sahələrindən biri olmaqla bərabər, eyni zamanda, ÜDM-in əksər hissəsinin yaradılması da onun payına düşür, iqtisadi fəal əhalinin əksər qismi onda fəaliyyət göstərir. İş yerinin təsis edilməsindən əlavə, rəqabət qabiliyyətli, dinamik və şaxələndirilmiş iqtisadiyyatın yaradılmasında da kiçik biznesin inkaredilməz rolu vardır.

Bazar münasibətlərinin formalaşması və inkişafı bir-birindən fərqli mülkiyyət formalı təsərrüfat subyektlərinin fəaliyyəti ilə şərtlənir. Ölkənin sosial-iqtisadi inkişaf səviyyəsi özünü çoxlu sayda kiçik mülkiyyətçilər təbəqəsi kimi təqdim edən kiçik bizneslə əhəmiyyətli şəkildə müəyyən edilir. Məhz bu səbəbdən, digər sivil ölkələrdə olduğu kimi, Azərbaycanda da bu sahənin inkişafına böyük önəm verilir. Kiçik biznes sahəsində milli ehtiyatların əsas kütləsi yaradılır və dövr edir, bu da, öz növbəsində, orta və iri biznes üçün qida mühiti deməkdir. Kiçik müəssisələrin kiçik texnoloji istehsal və idarəetmə çevikliyi imkan verir ki, bazarın dəyişən konyukturasına dəqiq və zamanında uyğunlaşma getsin və reaksiya verilsin. Makroiqtisadi mühitə əhəmiyyətli təsir göstərməyə qadir olan kiçik biznes daha dinamik inkişaf edən sektordur. Kiçik biznes, məşğulluğun genişləndirilməsinə qatqı göstərir, monopoliyanın yaranmasına maneə yaradan bazar mexanizminin həqiqi fəaliyyətinə şərait yaradır, ayrı cür desək, rəqabət mühitinin formalaşdırılmasının mühüm faktoru kimi çıxış edir.

Kiçik biznesin inkişafı köhnə irimiqyaslı müəssisələri canlandırmaqla yanaşı, həm özü, həm də, ümumilikdə, bazar iqtisadiyyatı nəzərəçarpacaq fayda əldə edir.

Kiçik biznes, həm də əhalinin məşğulluq probleminin həll edilməsində, ayrı-ayrı malların istehsal edilməsində və elmi-tədqiqat işlərinin inkişaf etdirilməsində əhəmiyyətli rol oynayır.

Sonda, kiçik biznesin kreditləşdirilməsi və sığortalanması, onun investisiya fəallığının stimullaşdırılması sahəsində dövlət dəstəyinin fəallaşdırılmasının zəruri olmasını qeyd etmək yerinə düşər. Hazırki dövrdə, milli iqtisadiyyatda kiçik biznesin inkişafının konkret perspektivləri barəsində uzunmüddətli proqnozlar vermək bir qədər çətindir. Lakin belə qənaətə gəlirik ki, kiçik biznesin fəaliyyətinin əməli (konstruktiv) tənzimlənməsi dövlətin iqtisadi siyasətinin prioritet istiqamətlərindən birini təşkil etməlidir.

Kiçik biznesin dəstəklənməsi strategiyası xüsusi sahibkarlığın inkişafının, rəqabət qabiliyyətli milli iqtisadiyyatın və ölkənin siyasi-iqtisadi və sosial dayanıqlığının təminatçısı qismində çıxış edən orta təbəqənin formalaşdırılmasının başlıca şərti olduğuna əsaslanaraq formalaşdırılmalıdır. İqtisadiyyatın bu

sahəsində çalışan sahibkarların başlıca vəzifəsini öz fəaliyyətlərinin prioritetlərini əsaslı şəkildə dəyişərək təsərrüfatçılığın sivil prinsiplərinə keçilməsi təşkil etməlidir.

**Mövzunun aktuallığı.** Kiçik biznes iqtisadiyyatın ən çevik və nəticəvi sahələrindən biri olduğu üçün bazar iqtisadiyyatı şəraitində kiçik biznes olduqca mühüm əhəmiyyət kəsb edir.

**Tədqiqatın məqsədi**. Milli iqtisadiyyatın inkişafında kiçik biznesin rolunun müəyyən edilməsi.

**Tədqiqat obyekti.** Milli iqtisadiyyatın inkişafında kiçik biznes.

**Tədqiqat metodu.** Kiçik biznesin milli iqtisadiyyatda oynadığı rolun təyin edilməsi baxımından, dinamika sıralarının təhlili metodu.

**Açar sözlər:** milli iqtisadiyyat, kiçik biznes, bazar münasibətləri, sosial-iqtisadi inkişaf, kiçik müəssisə

## Ədəbiyyat siyahısı:

1. İsgəndərova M.M. Kiçik və orta biznesin inkişafına dövlət dəstəyi. Azərbaycan Respublikası Gəncə Dövlət Universiteti. Beynəlxalq elmi konfrans, Gəncə 2018, 04-05 may, s. 326-328
2. İsgəndərova M.M. Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafının prioritet istiqamətləri və maliyyələşdirmə mənbələri. Kooperasiya elmi-praktiki jurnal № 3, 2018, s. 106-110
3. Аббасов А.Б. Организация и управление бизнесом. [Организация и управление бизнессом], Изд. АГЭЭ, Баку, Азербайджан, 2011
4. Приоритеты развития сбалансированной и устойчивой конкурентной экономики в регионах Азербайджана. Под редакцией Надирова А.А. Баку, 2013

## РОЛЬ МАЛОГО БИЗНЕСА В РАЗВИТИИ НАЦИОНАЛЬНОЙ ЭКОНОМИКИ

**С.Исмайлова**
**Г.М.Рзаева**
**Азербайджанский Технологический Университет**
**hemayerzayeva626@gmail.com**

Малый бизнес также играет важную роль в решении проблемы занятости, производства определенных товаров и развития научных исследований.

## THE ROLE OF SMALL BUSINESS IN THE DEVELOPMENT OF NATIONAL ECONOMY

**S.Ismaylova**
**G.M.Rzayeva**
**Azerbaijan Technological University**
**hemayerzayeva626@gmail.com**

Small business also plays an important role in solving the problem of employment, production of certain goods and development of scientific research.

# MÜƏSSISƏDƏ KEYFİYYƏT MENECMENTİ SİSTEMİNİN INKIŞAF TENDENSIYASI

**T.E.Cəfərzadə**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

Müasir bazar şəraitində hər bir müəssisə keyfiyyətin aşağı düşməsi problemləri və keyfiyyət idarəetmə sisteminin tətbiqi zərurəti ilə üzləşir, bu, müəssisənın rəhbərliyi İSO 9000 seriyası standartlarının tələblərinə uyğun olaraq lazımi sənədlərin hazırlanması problemilə rastlaşır. ГОСТ İSO 9000-2011-ə uyğun olaraq keyfiyyət idarəetmə sisteminin işlənib hazırlanmasına və tətbiqinə yanaşma bir neçə mərhələdən ibarətdir, o cümlədən: istehlakçıların, eləcə də digər maraqlı tərəflərin ehtiyac və gözləntilərinin müəyyən edilməsi; keyfiyyət sahəsində təşkilatın siyasətinin və məqsədlərinin işlənib hazırlanması; keyfiyyət məqsədlərinə nail olmaq üçün lazım olan proseslərin və məsuliyyətlərin müəyyən edilməsi; keyfiyyət məqsədlərinə nail olmaq üçün zəruri resursların müəyyən edilməsi və onların təmin edilməsi; hər bir prosesin effektivliyini və səmərəliliyini ölçmək üçün metodların işlənib hazırlanması; hər bir prosesin effektivliyini və səmərəliliyini müəyyən etmək üçün bu ölçmələrin nəticələrini tətbiq etmək; uyğunsuzluqların qarşısını almaq və onların səbəblərini aradan qaldırmaq üçün zəruri vasitələrin müəyyən edilməsi; keyfiyyət idarəetmə sisteminin davamlı təkmilləşdirilməsi prosesinin işlənib hazırlanması və tətbiqi.

Bu yanaşma ГОСТ İSO 9000-2011 keyfiyyət idarəetmə standartında təsbit edilmiş səkkiz prinsipi və zəruri tədbirləri nəzərə aldığı üçün həyata keçirilən keyfiyyət idarəetmə sisteminin saxlanmasına və təkmilləşdirilməsinə öz töhfəsini verir. Yuxarıdakı yanaşmanı mənimsəyən təşkilat, proseslərin düzgün aparılmasına və məhsulun keyfiyyətinə inam yaratmaqla maraqlı tərəflərin inamını aşılayır və davamlı təkmilləşdirmə üçün zəmin yaradır. Bu, artan müştəri məmnuniyyətinə, təchizatçı məmnuniyyətinə və bütövlükdə müəssisənin uğuruna gətirib çıxarır. Bununla belə, yalnız bu standarta etibar etmək çətindir, çünki o, keyfiyyət idarəetmə sisteminin inkişafı üzrə fəaliyyətlər haqqında yalnız ümumi fikir verir. 2002-ci ildə keyfiyyət idarəetmə sistemlərinin standartlaşdırılması ilə məşğul olan texniki komitə (TC 176 ISO) təşkilatda MCISO 9001:2000-ə uyğun olaraq keyfiyyət idarəetmə sisteminin tətbiqi prosedurunu təklif etdi. KMS tətbiqi proseduru aşağıdakı addımları əhatə edir:

Mərhələ 1. Məqsədlərin tərifi. Əldə etmək istəyən tipik məqsədlər aşağıdakılardır: səmərəliliyin və gəlirliliyin artırılması; istehlakçı tələblərinə uyğunluq; istehlakçı loyallığı; bazar payını saxlamaq və artırmaq; təşkilat daxilində psixoloji iqlimin yaxşılaşdırılması; xərclərin və təşkilatın xarici borcunun ölçüsünün azaldılması.

Mərhələ 2. Gözləntilərin tərifi. Təşkilatın fəaliyyətinin nəticələri aşağıdakıları maraqlandıra bilər: istehlakçılar; təchizatçılar; pnersoal; səhmdarlar; bütövlükdə cəmiyyət.

Mərhələ 3. ISO 9000 seriyası standartlarının öyrənilməsi Tələb olunan məlumatlar: ümumi məlumat; ISO 9000, 9001 və 9004-ün ətraflı öyrənilməsi; Müşayiət edən məlumat ISO 9000 seriyası standartlarının tətbiqi təcrübəsi.

Mərhələ 4. Təşkilatın keyfiyyət idarəetmə sistemində ISO 9000 seriyası standartlarının tətbiqi. Təşkilatın rəhbərləri sertifikat əldə etmək üçün KMS-nin hazırlanmasına və tətbiqinə ehtiyac olub-olmaması barədə qərar verməli olacaqlar.

İSO 9004 standartına əsaslanan keyfiyyət idarəetmə sisteminin effektivliyinin artırılmasının davam etdirilməsi. Bu prosedura riayət edilməsi təşkilatın keyfiyyət idarəetmə sisteminin ISO 9000 seriyası standartlarının tələblərinə uyğun işləməyə hazır olduğunu düşünməyə əsas verir. İşlənmiş yanaşmalar və

prosedurlar əsasında, müəssisənin əməl edəcəyi keyfiyyət sisteminin yaradılması texnologiyası qurulur. Bəzi maddələr bütün müəssisələr üçün ciddi şəkildə məcburidir və universaldır, digərləri isə nəzərə alınmaya bilər, lakin bütün bunlar ciddi şəkildə ISO 9000 seriyası standartlarının tələblərinə uyğundur.

Bir qayda olaraq, KMS-nin hazırlanması prosesi məlumat görüşü ilə başlayır, bu görüşdə bütün işçilər müəssisənin fəaliyyətində KMS-nin rolu, onun prinsipləri və işçilərə təsir edəcək dəyişikliklərlə tanış olurlar. Bu hadisə heyəti hazırlayır və dəyişiklik qorxusu səbəbindən

müqaviməti aradan qaldırır.

Keyfiyyət sisteminin yaradılmasına dair rəsmi qərarın qəbulu əmrinin köməyi ilə həyata keçirilir və burada göstərilir: KMS-nin işlənib hazırlanmasına və fəaliyyətinə cavabdeh(lər); KMS-nin işlənib hazırlanması və həyata keçirilməsinin əsas mərhələlərini; ifaçılar; həyata keçirmə qrafiki.

Rəhbərliyin əmrinə uyğun olaraq aşağıdakı iş növlərinin yerinə yetirilməsini nəzərdə tutan qrafik tərtib edilir: kadr hazırlığı proqramının hazırlanması; proseslərin və prosedurların müəyyən edilməsi; blok diaqramın işlənməsi; yeni normativ sənədlərin hazırlanması və mövcud normativ sənədlərin düzəlişləri; Keyfiyyət Təlimatının hazırlanması.

Bu mərhələnin mahiyyəti ISO 9000 seriyası standartlarının tövsiyələrini nəzərə alaraq, bu konkret müəssisədə keyfiyyəti idarə etmək üçün nə edilməli olduğunu, yəni lazımi proseslərin, sənədlərin, strukturların tərkibini müəyyən etməkdir. Növbəti mərhələdə proseslər müəssisə tərəfindən görülən işlərin siyahısı şəklində müəyyən edilir və GOST ISO 9001-2011 standartına uyğun olaraq sənədləşdirilməli olan altı məcburi prosedur var. Gələcəkdə təsvir olunan prosedurlar Keyfiyyət Təlimatına daxil edilir.

Bu mərhələnin mahiyyəti ISO 9000 seriyası standartlarının tövsiyələrini nəzərə alaraq, bu konkret müəssisədə keyfiyyəti idarə etmək üçün nə edilməli olduğunu, yəni lazımi proseslərin, sənədlərin, strukturların tərkibini müəyyən etməkdir. Növbəti mərhələdə proseslər müəssisə tərəfindən görülən işlərin siyahısı şəklində müəyyən edilir və GOST ISO 9001-2011 standartına uyğun olaraq sənədləşdirilməli olan altı məcburi prosedur var. Gələcəkdə təsvir olunan prosedurlar Keyfiyyət Təlimatına daxil edilir.

Struktur tərkibinin tərifi keyfiyyət idarəetmə sisteminin hər bir səviyyəsində proseslərə cavabdeh olanları təyin etməyə imkan verir.

Keyfiyyət sistemi qurulduqdan sonra ona vaxtaşırı yenidən baxılmalı, saxlanmalı və davamlı olaraq təkmilləşdirilməlidir.

Beləliklə, müəssisələrdə İSO 9000 seriyası standartlarını tətbiq edərkən keyfiyyət idarəetmə sistemi sadələşdirilmiş formaya malikdir, bu da müəssisənin səmərəliliyinə və səmərəliliyinə töhfəsini azaltmır. İdarəetmənin xüsusiyyətlərini nəzərə almamaq da mümkün deyil, bununla əlaqədar olaraq İSO 9000 seriyası standartlarına uyğun keyfiyyət sisteminin yaradılması müəssisədən bazarda rəqabəti nəzərə alan müntəzəm idarəetmə sisteminin işlənib hazırlanmasını tələb edir.

Müəssisələrin əksəriyyətində fəaliyyətlərinin köklü şəkildə yenidən qurulmasına daxili ehtiyac yoxdur. Müəssisənin dünya bazarına çıxmaq üçün rəqabət qabiliyyətinin artırılmasının faydalarını az adam başa düşür və sonradan uyğunluq sertifikatı almaqla KMS-nin hazırlanmasına və tətbiqinə vicdanla yanaşır.

Bununla belə, hətta KMS sertifikatının alınmasına rəsmi yanaşma da müsbət nəticələr verir, çünki sənədlərin inkişafı fəaliyyətin səmərəli təşkili prinsiplərinin öyrənilməsi və praktiki bacarıqların əldə edilməsi ilə bağlıdır. Nəticədə, KMS-in inkişafına daha da töhfə verəcək mütəxəssislər qrupu formalaşacaq.

Bütün fəaliyyət səviyyələrində yüksək keyfiyyət şirkətin uzunmüddətli uğurunun qarantıdır. ISO 9000 seriyalı beynəlxalq standartlara əsaslanan müəssisənin keyfiyyət idarəetmə sistemi həm daxili, həm də xarici bazarlarda inkişaf etməkdə maraqlı olan müəssisələrin idarə edilməsinin tərkib hissəsidir. Bu KMS inkişaf texnologiyası müəssisələrdə ISO 9000 seriyası standartlarına uyğun olaraq KMS tətbiqi

planının həyata keçirilməsinə kömək etmək üçün nəzərdə tutulmuşdur. Bu texnologiya keyfiyyət sisteminin yaradılmasının həyata keçirilməsinə yanaşmalardan yalnız biridir, buna görə də, ilk növbədə, ISO 9000 seriyası standartlarının müddəalarını rəhbər tutmaq lazımdır, xüsusən KMS tətbiqi üzrə realizasiya planında qeyri-müəyyən vəziyyətlər yarandıqda.

## ТЕНДЕНЦИИ РАЗВИТИЯ СИСТЕМЫ МЕНЕДЖМЕНТА КАЧЕСТВА НА ПРЕДПРИЯТИИ

**Т.Э.Джафарзаде**
**Азербайджанский Государственный Экономический Университет**

В статьи рассмотрены вопросы как тенденции развития системы менеджмента качеством на предприятии.

Установлена, что международные стандарты Система менеджмента качества предприятия является неотъемлемой частью управления предприятиями, заинтересованными в развитии как на внутреннем, так и на внешнем рынках. Тенденция развития этой системы управления качеством призвана помочь предприятиям реализовать план по внедрению системы управления качеством в соответствии с международными стандартами. Данная технология является лишь одним из подходов к созданию системы качества, поэтому в первую очередь необходимо руководствоваться положениями международных стандартов.

**Ключевые слова:** система менеджмента, тенденция развития, внутренний рынок, внешний рынок, руководство по качеству

## TRENDS IN THE DEVELOPMENT OF THE QUALITY MANAGEMENT SYSTEM AT THE ENTERPRISE

**T.E.Jafarzade**
**Azerbaijan State University of Economics**

The article deals with issues as trends in the development of the quality management system at the enterprise.

It has been established that international standards The quality management system of an enterprise is an integral part of the management of enterprises interested in development both in the domestic and foreign markets. The development trend of this quality management system is to help enterprises implement the plan to implement a quality management system in line with international standards. This technology is only one of the approaches to creating a quality system, therefore, first of all, it is necessary to be guided by the provisions of international standards.

**Keywords:** management system, development trend, domestic market, foreign market, quality manual

# KIÇIK VƏ ORTA SAHIBKARLIĞIN INKIŞAFINDA MALIYYƏ TƏMINATININƏSAS ISTIQAMƏTLƏRI

**Y.Abbasova**
**S.Ş.Dünyamalıyeva (Əsgərova)**
**Azərbaycan Texnologiya Universiteti**
**soni95515@gmail.com**

Məqalədə kiçik və orta sahibkarlıq anlayışı və maliyyə istiqamətləri nəzərdən keçirilmişdir. Sahibkarlıq – şəxsin müstəqil surətdə həyata keçirdiyi, əsas məqsədi əmək istifadəsindən , malların istifadəsindən və satışından , işlər görülməsindən və ya xidmətlər göstərilməsindən mənfəət götürülməsi olan fəaliyyətdir.

Dövlət tərəfindən sahibkarlara daim yardım edilməsi kiçik və orta biznes subyektlərinə hər zaman imkan verir ki , öz fəaliyyətlərini əlaqələndirsinlər , iri müəssisələrlə rəqabətdə iştirak etsinlər və öz inkişaflarını təmin etsinlər .

Qeyd etmək lazımdır ki , bir sıra xarici ölkələrdə sahibkarlıq terminologiyasında , həmçinin ona işçilərin sayının aid edilməsi meyarında fərqlər mövcuddur. Belə ki , " Kiçik biznes " termini yalnız ingilis dili ölkələrdə ən çox yayılmışdır. Digər Qərbi Avropa ölkələrində və Yaponiyada ən çox "kiçik və orta müəssisə " termini işlənir .

Nəzərə almaq lazımdır ki, sahələr üzrə də xeyli fərqlər mövcuddur. Topdan və pərakəndə satış ticarətində , xidmət sferasında , maliyyə və sığorta biznesində bu göstərici orta hesabla iki dəfə azdır.

Ümumiyyətlə , kiçik ve orta biznes sferasına , müəssisə fərqlərinə baxmayaraq bütün sənaye ölkələrində əsasən sahibkarlığa dövlət himayəsinin ümumi əlamətləri mövcuddur. Bunlara aşağıdakılar aiddir :

• Şəxsi işlə məşğul olmaq istəyən işsizlərə kömək proqramı.
• Maliyyə köməyi proqramı.
• Dövlət kontraktlarının alınmasında kiçik və orta sahibkarlıq fəaliyyətinə yardım sistemi.
• Kiçik müəssisələrin innovasiya fəaliyyətinin inkişaf proqramı.

Azərbaycanda kiçik və orta sahibkarlığın və bütövlükdə ölkə iqtisadiyyatının inkişaf etdirilməsi üçün güclü potensial və geniş imkanlar mövcuddur . Bunun üçün ümumi biznes mühitinin yaxşılaşdırılması , maliyyə resurslarına çıxış imkanlarının daha sərfəli və effektiv təşkil edilməsi , kiçik və orta sahibkarlıq subyektlərinin yerli və xarici bazarlara çıxışının təmin edilməsi, bacarıqlı və ixtisaslı kadr təminatının yaradılması atılmalı olan vacib addımdır.

Hal-hazırda mövcud təşəbbüslər əsasında kiçik və orta sahibkarların maliyyə mənbələrinə daha asan çıxışının təmin edilməsi üçün müvafiq fəaliyyətlər həyata keçirilir . Vençur maliyyə formasında yerli investisiyalar stimullaşdırılaraq və bir başa xarici investisiyaların kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyət göstərdiyi sektorlara cəlb edilməsi üçün məxanizimlər təkminləşdirilir .

Son olaraq qeyd etmək olar ki , hədəflərin reallaşdırılması gələcəkdə Azərbaycanda biznes üçün daha əlverişli şəraitin yaradılması , kiçik və orta sahibkarlığın inkişafı üçün ünvanlanmış müxtəlif proqram və layihələrin həyata keçirilməsi , aidiyyəti dövlət qurumlarının iştirakı və səyi , xüsusilə də zəruri prosseslərin sadələşdirilməsi və şəffaflığın təmin edilməsi sayəsində mümkün olacaqdır.

**Mövzu aktuallığı:** Mövzuda sahibkarlıq , Azərbaycanda kiçik və orta sahibkarlıq və maliyyə istiqamətləri araşdırılıb.

**Tədqiqatın məqsədi:** Azərbaycanda kiçik və orta sahibkarlıqla bağlı görülən işlərin öyrənilməsi.

**Tədqiqat obyekti:**Kiçik və orta sahibkarlığın inkişafında maliyyə təminatının əsas istiqamətləri.

**Tədqiqat metodu:**Hal-hazirda Azərbaycan Respublikasında kicik ve orta sahibkarlarin maliyyə mənbələrinə daha asan çıxışının təmin edilməsi metodu.

**Açar sözlər:** Kiçik və orta sahibkarlıq, maliyyə, iqtisadiyyat, biznes, investisiya

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikası Prezidentinin 06 dekabr 2018-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"
2.Azərbaycanda kiçik və orta müəssisələr üzrə araşdırma. Bakı, 2009
3.Məmmədov Z.F Maliyyə böhranının anatomiyası, 2005, 7322 s
4. Namazova C.B İnvestisiyalar Dərslik, "CBS" Nəşriyyatı,Bakı, 2014

## ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ ФИНАНСОВОГО ОБЕСПЕЧЕНИЯ В РАЗВИТИИ МАЛОГО И СРЕДНЕГО ПРЕДПРИНИМАТЕЛЬСТВА

**Е.Аббасова**
**С.Ш.Дунямалиева (Аскерова)**
**Азербайджанский Технологический Университет**
**soni95515@gmail.com**

Прежде всего, в данной работепредставлена информация о предпринимательст-ве.Государство оказывает постоянную помощь предпринимателям, развитию малого и среднего бизнеса в Азербайджане, улучшению деловой среды.

## THE MAIN DIRECTIONS OF FINANCIAL SUPPORT IN THE DEVELOPMENT OF SMALL AND MEDIUM-SIZED BUSINESSES

**Y.Abbasova**
**S.Sh.Dunyamalieva (Askerova)**
**Azerbaijan Technological University**
**soni95515@gmail.com**

First of all, this workprovides information about entrepreneurship, reflects the constant support of entrepreneurs by the state, the development of small and medium-sized businesses in Azerbaijan, the improvement of the business environment, the implementation of the set goals.

# AZƏRBAYCANDA KIÇIK VƏ ORTA SAHIBKARLIĞIN NƏZƏRI METODOLOJI ƏSASLARI

**Dos. Y.Abbasova, S.E.Məhərrəmova**
**Azərbaycan Texnologiya Universiteti**
**sekine_1989@mail.ru**

Azərbaycan sosial-iqtisadi inkişafının yeni mərhələsində sahibkarlıq subyektlərinə daha çox diqqət yetirilməkdədir.

Hazırkı müasir dövrdə iqtisadiyyatın tərəqqi prosesində sahibkarların xüsusi çəkisi ötən illərlə müqayisədə dinamik xəttlə artmışdır.

Müstəqilliyini qazanmış Azərbaycan Respublikasının sürətli iqtisadi inkişafı üçün ölkədə aparılan düşünülmüş, iqtisadi siyasətə uyğun olaraq Milli iqtisadiyyatın bütün sahələrinin, o cümlədən kiçik və orta sahibkarlığın inkişafının istiqamətləri düzgün müəyyənləşdirilməli və stimullaşdırıcı tədbirlərin görülməsi əsas şərtlər hesab olunur.

Azərbaycanda sahibkarlığın inkişafı məqsədilə 1996-cı ildən başlayaraq, biznes subyektlərinin fəaliyyətinə əngəllərin yaradılmaması məqsədilə bir sıra dövlət proqramları qəbul olundu və icraata yönəldildi. Ümummilli lider Heydər Əliyev tərəfindən imzalanan müvafiq fərmanda ölkənin biznes subyektlərinin fəaliyyətinə əssasız müdaxilələrin qarşısının alınması kimi tapşırıqlar öz əksini tapmışdır. Belə bir zamanda ümummilli lider Heydər Əliyev tərəfindən məlum fərmanın verilməsi ilə biznes subyektlərinin fəaliyyətinə əsası olmayan müdaxilələrin qarşısının alınması kimi tədbirlər bu istiqamətdə uğurlu addım oldu.

Qeyd edək ki, ölkəmizdə 2003-cü ildən başlayaraq son 18 ildə iki milyondan artıq yeni iş yerləri açılmış, yeni istehsal və xidmət sahələri istifadəyə verilmişdir. Açılan yeni iş yerlərinin 80 faizini daimi iş yerləri təşkil edir.

Təcrübə göstərir ki, kiçik və orta sahibkarlıq subyektlərinin yüksək xüsusi çəkiyə malik olması, məhsul istehsalının və əməyin təşkilində çevik istifadə formalarının tətbiqi ilə məhsulların çeşidinin genişləndirilməsinə və keyfiyyətinin yüksəldilməsinə, istehsalçılar arasında rəqabət mübarizəsinin gücləndirilməsinə nail olmaq mümkündür.

Kiçik və orta sahibkarlıq subyektlərin mahiyyətini müəyyənləşdirən əsas xüsusiyyətləri ondan ibarətdir ki, onlar böyük həcmdə kapital qoyuluşu tələb etmir, bazar konyukturasının dəyişməsinə operativ reaksiya verir, bazar iqtisadiyyatına yüksək mobillik və çeviklik gətirir.

«Kiçik və orta sahibkarlıq» termini iri təsərrüfatçılıq qabiliyyətlərindən onu ayırmaq üçün kəmiyyətcə müəyyənləşdirilməsini nəzərdə tutur. Kiçik və orta sahibkarlığın bir sıra meyarları mövcuddur:

- müəssisədə məşğul olan işçilərin sayı;
- satışın (dövriyyənin) həcmi;
- aktivlərin dəyəri.

Elmi araşdırmalar göstərir ki, təsərrüfat subyektlərinin təsnifləşdirilməsi məqsədilə dəyər göstəriciləri şəklində olan aşağıdakı meyarlardan daha çox istifadə olunur. Buraya işçilərin sayı, sabit kapitalın həcmi, kapital qoyuluşunun həcmi, satılmış məhsulun həcmi, elektrik enerjisinin istehsalı, əsas fondların dəyəri aiddir.

Beləliklə, mikro, kiçik, orta və iri təsərrüfat subyektlərinin təsnifləşdirilməsi hər bir ölkənin

qanunvericiliyi ilə müəyyən edilir və əsasən dövlətin onlar üçün müəyyən etdiyi imtiyazlardan və güzəştlərdən istifadəni tənzimləmək məqsədi güdülür. Çünki, bazar münasibətləri əsasında fəaliyyət göstərən hər bir ölkədə dövlət kiçik və orta sahibkarlıq subyetləri üçün müxtəlif imtiyazlar və güzəştlər müəyyənləşdirməklə onların sahibkarlıq fəaliyyətinə cəlb olunmasına stimul yaratmaq məqsədi daşıyır.

Qeyd edək ki, dövlət tərəfindən sahibkarlara daimi yardım edilməsi kiçik və orta biznes subyektlərinə imkan verir ki, fəaliyyətlərini əlaqələndirsinlər, iri müəssisələrlə rəqabətdə iştirak etsinlər və inkişafını təmin etsinlər.

Qeyd etmək lazımdır ki, ölkənin sahibkarlıq sahəsinin mühüm amillərindən biri də bu sahədə normal rəqabət mühitinin yaxşılaşdırılmasından ibarətdir. Bu barədə 1993-cü ildə «Antiinhisar fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş, 1996-cı ildən başlayaraq isə mövcud qanunvericilik bazasının genişləndirilməsi və təkmilləşdirilməsi ilə bağlı bir sıra işlər görüldü.

Azərbaycanda sahibkarlığın inkişafı ilə bağlı qəbul edilən qərarlar milli iqtisadiyyatın davamlı inkişafının təmin olunması baxımından stateji xarakter daşıyır. Dünyada baş verən qlobal böhranlara baxmayaraq ölkəmizdə biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması, bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi, investisiya layihələrinin güzəştli şərtlərlə kreditləşdirilməsi iqtisadi inkişafa öz müsbət təsirini göstərir.

**Mövzunun aktuallığı**. Azərbaycan Respublikasında "Kiçik və Orta sahibkarlıq" haqqındakı mövzu daima öz aktuallığı ilə seçilib və gündəmdə qalmağı bacarıb.

**Tədqiqatın məqsədi**. Müasir bazar iqtisadiyyatı şəraitində kiçik və orta sahibkarlığın milli iqtisadiyyatın inkişafındakı rolu öyrənilməsidir.

**Tədqiqat obyekti.**Azərbaycanda Kiçik və orta sahibkarlığın nəzəri metodoloji əsasları

**Tədqiqat metodu.** Müasir şəraitdə kiçik və orta sahibkarlığın maliyyə mexanizminin təkmilləşdirilməsi metodu.

**Açar sözlər:** iqtisadiyyat, sahibkarlıq, müəssisə, subyekt, müasir bazar, biznes, fərman, investisya

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2017-ci il tarixli "Kiçik və orta sahibkarlıq sahəsində idarəetmənin daha da təkmilləşdirilməsinin təkmilləşdirilməsi haqqında " Fərmanı. Bakı,2017
2. Azərbaycan Respublikası Prezidentinin 06 dekabr 2018-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"

## ТЕОРЕТИКО-МЕТОДОЛОГИЧЕСКИЕ ОСНОВЫ МАЛОГО И СРЕДНЕГО ПРЕДПРИНИМАТЕЛЬСТВА В АЗЕРБАЙДЖАНЕ

**Доц. Е.Аббасова, С.Э.Магеррамова**
**Азербайджанский Технологический Университет**
**sekine_1989@mail.ru**

Диссертация включает общие направления развития малого и среднего бизнеса в Азербайджанской Республика, а также финансирование малых и средних предприятий, обучение этих субъектов в зарубежных странах. Таким образом, можно правильно реализовать льготы и привилегии, предоставляемые государством в микро, малых и средних предприятиях.

## THEORETICAL AND METHODOLOGICAL BASIS OF SMALL AND MEDIUM ENTREPRENEURSHIP IN AZERBAIJAN

**Prof. E.Abbasova, S.E.Magerramova**
**Azerbaijan Technological University**
**sekine_1989@mail.ru**

The dissertation discusses the directions of development of small and medium- sized enterprises in the Republic of Azerbaijan, as well as the general concept of financing small and medium-sized enterprises, the analyasis of definitions given to these entities in foreign countries, as well as the criteria used in the classification of economic entities. Thus, it is possible to correctly implement the benefits and privileges provided by the state

in micro, small and medium-sized enterprises.

# UÇOTUN DÜZGÜN TƏŞKİL MÜQAVİLƏ ÖHDƏLİKLƏRİNİN YERİNƏ YETİRİLMƏSİNİN MÜHÜM AMİLİDİR

**Dos. X.M.Mehdiyev, V.Y.Əliyev**
**Azərbaycan Texnologiya Universiteti**

Azərbaycan iqtisadiyyatını bazar sisteminin tələblərinə uyğun surətdə yenidən qurmaq, iqtisadiyyatın bütün sahələrində iqtisadi inkişafa nail olmaq üçün dünya standartlarına uyğun, yüksək keyfiyyətli, rəqabətqabiliyyətli məhsul istehsalı və satışı qarşıda duran ən mühüm vəzifələrdən biridir. Bu vəzifənin yerinə yetirilməsi bazar münasibətlərinin hərtərəfli inkişafını nəzərdə tutur. Bazar münasibətlərinin inkişafı isə istehsal və satış fəaliyyətinin əsaslı surətdə dəyişdirilməsini müəyyən edir. Dəyişikliklərin başlıca istiqaməti müəssisələrin fəaliyyətinin istehlakçıların tələbatının daha dolğun və hərtərəfli ödənilməsinə yönəldilməsidir. Bununla əlaqədar müəssisənin fəaliyyətinin əsas vəzifəsi bazarı öyrənməkdən, məhsul istehsalında istehlakçıların tələb və ehtiyaclarını nəzərə almaqdan və buraxılan məhsulları istehlakçılara vaxtında çatdırmqdan ibarətdir.

Satış iqtisadiyyatın və əhalinin tələbatının öyrənilməsindən hazır məhsulun istifadəsində istehlakçılara texniki kömək göstərilməsinə qədər müxtəlif fəaliyyət növlərini özünə daxil edir. Müəssisənin məhsuluna tələbi üzə çıxarmaqla satış istehsal fondlarından daha mükəmməl istifadə etməyə, əmək məhsuldarlığını artırmağa imkan verir. Hazır məhsulun reallaşdırılması vasitəsilə satış müəssisənin maliyyə vəziyyətinə, mənfəətə, rentabelliyə və istehsal-təsərrüfat fəaliyyətinin digər tərəflərinə təsir göstərir.

Müəssisə və təşkilatlarda satış fəaliyyəti əsasən hazır məhsulla əlaqədardır. Buraxılan hazır məhsulu bir yerdə toplamaq, mühafizə etmək, qorumaq, saxlamaq lazımdır. Bütün bunlar üçün, daha sonra həmin hazır məhsulların satışı üçün görüləcək işlər düzgün uçot aparılmasını nəzərdə tutur. Bunun üçün ilk növbədə məhsul buraxılışı ilə əlaqədar istehsal olunan məhsulun düzgün uçotunu aparmaq, onu ilk uçot sənədləri ilə rəsmiyyətə salmaq, onun hazırlanması ilə əlaqədar işləri uçota almaq, xərc normalarını müəyyən etmək, hazır məhsulun maya dəyərini müəyyən etmək lazımdır ki, bu da məhsul buraxılışı üzrə uçotun qarşısına qoyulan mühüm vəzifələrdir.

İstehsal prosesindən çıxan hazır məhsullar müəssisənin hazır məhsul anbarına daxil olur. Müəssisələrin hazır məhsul anbarında istehsal-texniki əməliyyatlar istehsal prosesinin davamıdır və ona məhsulun qəbulu, onun növlərə ayrılması, markalanması, anbara vurulması, kompleks partiyaların formalaşması, yola salınması, yüklənməsi, buraxılması, göndərilməsi, istehlakçılara doğru hərəkəti, eləcə də reallaşdırılması daxildir.

Qeyd etmək lazımdır ki, məhsul buraxılışı və satışı istehlakçılarla bağlanan mal göndərmə müqavilələri əsasında həyata keçirilir. Məhsul göndərilməsinə mal göndərmə müqavilələrinə uyğun olaraq məhsulun faktiki buraxılışı və ya yola salınması aid edilir. Lakin məhsul nəinki göndərilməli, həm də realizə edilməlidir, yəni istehlakçıya göndərilməli və dəyəri ödənilməlidir. Realizasiya əmtəə-pul münasibətlərinin mövcudluğu ilə əlaqədardır və məhsulların alqı-satqısını müəyyən edir. Əgər müəssisə məhsulu istehlakçıya yola salırsa, tədiyəçi isə bu məhsulun dəyərini ödəyirsə, onda məhsul realizə edilmiş sayılır.

İndi müəssisələrdə məhsul göndərilməsinə görə öhdəliklərin yerinə yetirilməsinə, bu zaman istehlakçıların tələblərinin nəzərə alınmasına, bu işdə onların məsuliyyətinin artırılmasına böyük əhəmiyyət verilir. Müqavilə öhdəliklərini nəzərə almaqla mal göndərmə planlarının yerinə yetirilməsi əmək məhsuldarlığının yüksəltməyin, tapşırılan iş sahəsində vəziyyət üçün hər bir işçinin məsuliyyətini gücləndirməyin təsirli vasitəsinə çevrilmişdir.

Respublikamızda bir çox sənaye müəssisələri bazar şəraitində fəaliyyət göstərir. Sənaye istehsalının ümumi həcminin xeyli hissəsi həmin müəssisələrin payına düşür. Əmək kollektivinə təsərrüfat müstəqilliyi verilməsi, müqavilə öhdəliklərinin yerinə yetirilməsində onların rolunun və məsuliyyətinin

yüksəldilməsi, istehsal planlarının istehlakçıların tələbləri əsasında formalaşdırılması, müəyyən edilmiş tapşırıqların yerinə yetirilməsinə ciddi nəzarət qoyulması və s. müqavilə intizamının möhkəmləndirilməsində müsbət rol oynamışdır. Müqavilə öhdəliklərinə dəqiq əməl edilməsi isə iqtisadiyyatın, onun hər bir vəsiləsinin ahəngdar fəaliyyət göstərməsi üçün çox mühüm amildir.

Aydındır ki, hər bir müəssisə xeyli sayda müəssisə və təşkilatlarla əlaqə saxlayır, onlardan xammal, material, avadanlıq və s. alır, öz məhsulunu isə çoxlu sayda müxtəlif istehlakçılara göndərir. Eyni vəziyyət respublikanın bir çox sənaye müəssisələri üçün xarakterikdir. Bu mürəkkəb və çoxtərəfli əlaqələrin təmin edilməsi müqavilə intizamının köməyi ilə həyata keçirilir. Bu amilin rolu iqtisadiyyatın bazar inkişaf yoluna keçdiyi indiki şəraitdə xüsusilə artır. Müqavilə öhdəliklərinin yerinnə yetirilməsi səviyyəsi artmağa doğru meyl edir. Respublikamızda müqavilə öhdəliklərinə ciddi əməl edən müəssisələrin sayıaz deyildir. Lakin buna baxmayaraq müqavilə öhdəliklərini yerinə yetirməyən müəssisələr də vardır. Onlar məhsul satışı üzrə tapşırıqları yerinə yetirməsinə baxmayaraq müqavilə öhdəliklərinə tam əməl edə bilmədiyindən istehlakçıları çətin duruma salır. Bu da onu göstərir ki, həmin müəssisələrdə müqavilə öhdəliklərinə dəqiq əməl edilməsinin əhəmiyyətini hələ də layiqincə qiymətləndirmirlər.

Müqavilə öhdəliklərinə istehsalçı müəssisələrin təqsiri üzündən də əməl olunmur. Məlumdur ki, yüksək keyfiyyətli məhsul göndərilməsi müqavilənin mühüm şərtidir. Lakin müəssisələrin bir qismi müqavilənin bu şərtinə əməl etmirlər.Bir sıra müəssisələr hələ də keyfiyyətsiz, standarta uyğun gəlməyən məhsul istehsalına yol verirlər. Bununla əlaqədar istehlakçılardan şoxlu şikayətlər gəlir, keyfiyyətsiz məhsula görə müəssisələrdən cərimələr tutulmasını tələb edirlər. Odur ki, belə halların baş verməsi hələ hazır məhsulun istehsaldan buraxılması və sənədləşdirilməsi zamanı qarşısı alınmalıdır. Bundan başqa, hazır məhsulların buraxılmasının və satışının, eləcə də alıcılarla hesablaşmaların vaxtında sənədləşdirilməsi, onun saxlanmasına nəzarət də nəzərdən qaçırılmamalıdır.

Müqavilə öhdəliklərinin yerinəyetirilməsi məhsulun istehlakçılar tərəfindən alınması və dəyərinin ödənilməsi vaxtı üzrə deyil, onun göndərilməsi vaxtı üzrə nəzərə alınır. Nəticədə istehlakçı məhsulu yalnız aldıqdan sonra onun müqavilə şərtlərinə uyğunluğunu müəyyən edə bilir. Buraya onu da əlavə etmək lazımdır ki, məhsulun keyfiyyətinə olan tələblər, onun müqaviləyə uyğun gəlməməsi üzündən geri qaytarılması malgöndərmənin yerinə yetirilməsi göstəricisində öz əksini tapmır.

Ona görə də müqavilə öhdəliklərinin yerinə yetirilməsinin istehlakçılar tərəfindən məhsulun dəyərinin ödənilməsi vaxtı üzrə qiymətləndirmək daha məqsədəuyğundur. Bu, həmin göstəricinin hesablanmasının daha təkmilləşdirilmiş metodu olar.Bu halda malgöndərmə göstəricisinin hesablanmasının etibarlılığını xeyli dərəcədə yüksəltmək mümkündür, çünki onun əsasını operativ qaydada yerinə yetirilən hesablamalar deyil, mühasibat uçotu məlumatları təşkil edəcəkdir.

Bütün bu qeyd edilənlər müqavilə intizamını möhkəmləndirilməsində uçotun düzgün təşkilinin mühüm rol oynadığını göstərir.

**Ədəbiyyat siyahısı:**

1.Abbasov Q.Ə., "Mühasibat uçotu" Dərslik və metodiki vəsait. Bakı, "Təknur" nəşriyyatı, 2017
2. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının qanunu. Bakı,2004
3.Salahov Ə., Mehdiyev V. Mühasibat uçotu. Dərs vəsaiti. Bakı, "3 saylı Bakı Mətbəəsi" ASC, 2016
4.Sadıqov Ə.A., Sadıqov T.Ə., Cəfərova Ş.Ə., Sadıqov C.Ə. "Mühasibat uçotu" dərslik. Bakı, "Təhsil işçisi mətbəəsi" MMC, 2012

**ПРАВИЛЬНАЯ ОРГАНИЗАЦИЯ УЧЕТА - ВАЖНЫЙ ФАКТОР ВЫПОЛНЕНИЯ ДОГОВОРНЫХ ОБЯЗАТЕЛЬСТВ**

**В.Я.Алиев, Х.М.Мехтиева**
**Азербайджанский Технологический Университет**

В данной статье отмечается важность значения правильного проведения учета по выполнению договорных обязательств о выпуске и сбыте готовой продукции на предприятиях. Здесь уделяется внимание вопросам о своевременном принятии готового продукта с производства, документации, контроль за сохранность, отправке, своевременном проведение расчетов с покупателями, качестве и ассортименте поставляемой продукции и др. – все это положительно влияет на выполнение договорных обязательств.

**PROPER ORGANIZATION OF ACCOUNTING IS AN IMPORTANT FACTOR IN CONTRACTUAL OBLIGATIONS**

**V.Y.Aliyev, X.M.Mehdiyeva**
**Azerbaijan Technological University**

This article notes the importance of correct accounting for the fulfillment of contractual obligations on the release

and sale of finished products.Here,attention is paid to the issues of timely aceeptance of the finished products from production,documentation,safety control,dispatch,timely settlement of accounts with customers,the quality and range of products supplied,etc. -all this has a positive effect on the fulfillment of contractual obligations.

# MARKETINQ IŞGÜZAR MÜNASIBƏTLƏRIN FORMALAŞMASININ ƏSAS VASITƏSI KIMI

**N.Q.Hüseynov, A.Z.Məmmədova**
**Azərbaycan Texnologiya Universiteti**
**arzu1.memmedova1@gmail.com**

İşgüzar münasibətlər dedikdə,biznes sferasında rəhbərliyin göstərişləri çərçivəsində ciddi şəkildə müəyyən edilənünsiyyət və əlaqələr sistemi nəzərdə tutulur. İşgüzar münasibətlər ciddi şəkildə nəticələrə yönləndirilir, onların əsas motivasiyası ünsiyyət prosesinin özü deyil, son hədəfdir.İşgüzar münasibətlər müəyyən bir vəzifənin (istehsalat, elmi-kommersiya, satış və s.) həllinə tabe olan şəxslərinfəaliyyətindəki qarşılıqlı əlaqədir. Məqsədi ünsiyyət prosesindən kənar olan işgüzar münasibətlərin keyfiyyəti ümumi işlə məşğul olan subyektlər arasında yaranan qarşılıqlı anlaşma, hərəkətlərin ardıcıllığı və prioritetlərin aydınlığı ilə şərtlənir. Bu baxımdan, marketinqin işgüzar münasibətlərin formalaşmasında oynadığı mühüm rolu nəzərdən qaçırmaq olmaz.

Müəssisənin istehsal-satış problemlərinin çözülməsində işgüzar əlaqənin qurulması olduqca vacib əhəmiyyət kəsb edir. Belə əlaqələrin yoxluğu, ictimaiyyətin müəssisənin fəaliyyəti barəsində lazımi qədər məlumat əldə etməsinə imkan vermir, bəzən isə müəssisəvə ya onun istehsal etdiyi məhsul barəsindəyanlış fikir formalaşır.

İşgüzar münasibətlərdə xoş ünsiyyətin formalaşmasında, təşkilat və ya müəssisənin nüfuzunun yüksəldilməsində ictimaiyyətlə əlaqə tədbirləri ilə bərabər, institusional reklam, həmçinin imic reklamı da əvəzsiz rol oynayır. Bu cür reklamların əsas hədəfi istehlakçıların diqqətini müəssisənin özünə, onuncəmiyyətə təqdim etdiyi xidmətlərə, verdiyi töhvələrə və dəyərlər sisteminəcəlb etməkdən ibarətdir. [1,s.152]

İşgüzar münasibətlər üzrə marketinqin qarşısında bir sıra vəzifələr, o cümlədən firmaya münasibət-dəpozitiv yanaşmanın formalaşdırılması, təşkilatlarla, istehlakçı qrupları ilə ünsiyyətin qurulması, arzuo-lunmaz informasiyaların yayılmasının qarşısının alınması və s. kimi məsələlər dayanır. Bu vəzifələri həyata keçirmək məqsədilə müəssisə və təşkilatlar mətbuatla əlaqələrin qurulması vəonun qorunub sax-lanılması, müəssisə və onun istehsal etdiyi məhsul barəsində zəruri məlumatın yayılması, müəssisədaxili və xarici əlaqələr üzrə fəaliyyətin icra edilməsi, müəssisənin ölkənin ictimai vəsosial həyatında rolunun və mövqeyinin aydınlaşdırılması üzrə fəaliyyətin yerinə yetirilməsi kimi vəzifələri də icra edirlər.

İşgüzar münasibətlər üzrə marketinqin rolundan danışdıqda, firma və təşkilatların ictimaiyyətlə kommunikativ əlaqə qurmaq və öz müsbət obrazını yaratmaq məqsədilə bir sıra ictimai tədbirlərə qatılmaqlabərabər, bəzən onlara sponsorluq etdiklərini də qeyd etmək yerinə düşər. Bir qayda olaraq, sponsorluq edilən tədbirin təşkilatçısı ilə sponsorluq edən firma və ya təşkilat arasında artıq müəyyən səviyyədə formalaşmış münasibət vəqarşılıqlı əlaqə dayanır.

Dünya ölkələrində, xüsusilə, inkişaf etmiş ölkələrdə sponsorluq çox vacib kommunikasiya vasitəsi kimi qəbul edilir. Bundan əlavə, əsas marketinq alətləri qismində reklamın, xüsusilə,korporativ reklamın rolu da danılmazdır. [1,s.158]

İşgüzar münasibətlərin qurulması üzrə fəaliyyət, həmçinin Kütləvi İnformasiya Vasitələri ilə (KİV) qarşılıqlı xoş münasibətlərin və pablisitinin yaradılmasını nəzərdə tutur.

Bütün təbliğat tədbirlərinin yerinə yetirilməsinin son hədəfi məhsul satışının, mənfəətin məbləğinin artırılmasından ibarətdir. Odur ki, satışının həcminə və mənfəətin səviyyəsinə göstərilən təsirin ölçülməsi bütün hallarda ən münasib qiymətləndirmədir. Lakin bu göstəricidən intensivsurətdə keçirilən

reklam və satışın stimullaşdırılması tədbirlərinin təsirini istisna etmək lazım gəlir ki, bu da son dərəcə çətin və mürəkkəb bir məsələdir. Həmçinin, qeyd etmək lazımdır ki, təbliğat üzrə tədbirlər satışın həcminin artırılmasına deyil, əsasən, firma və ya müəssisənin nüfuzunun yüksəldilməsinə vəictimaiyyət-lə əlaqənin yaxşılaşdırılmasına xidmət edir. Bu nöqteyi-nəzərdən, qiymətləndirmənin həmin istiqamətlər üzrə alınan nəticələrə müvafiq olaraq icra edilməsi daha məqsədəuyğun hesab edilir.

Son zamanlar, dünya bazarlarında məhsul istehsalçıları olan firmaların, müəssisələrin ictimai mövqeləri və əlaqələri xeyli möhkəmlənmişdir. İstehsal texnologiyasında, məhsulların keyfiyyətində və istehlak xüsusiyyətlərində eyniliyin və bərabər səviyyənin yaranması, istehlakçılar və bazarlar üzərində mübarizənin kəskinləşməsi, alıcıları firma və müəssisələrin etibarlılığına, yüksək nüfuza malik olmalarına daha çox reaksiya verməyə vadar edir. Məhz bu səbəbdən, firma,müəssisə və təşkilatlar ictimaiyyətlə əlaqəni hər vasitə ilə genişləndirməyə, belə əlaqələrin ən effektiv konsepsiyalarından yararlanmağa daha çox meyl edirlər.

**Mövzunun aktuallığı.**Hazırki vaxtda bazarda uğurla fəaliyyət göstərmək, rəqabət mübarizəsində qalib gəlmək üçün istifadə edilən ən mühüm konsepsiyalardan biri marketinq olduğu üçün tərəfimizdən işlənən mövzu aktuallıq kəsb edir.

**Tədqiqatın məqsədi.**İşgüzar münasibətlərin formalaşmasının əsas vasitəsi kimi marketinqin mahiyyətini izah etmək.

**Tədqiqat obyekti.**İşgüzar münasibətlərin formalaşmasının əsas vasitəsi kimi marketinqin kommunikasiya aləti.

**Tədqiqat metodu.** Marketinqin işgüzar münasibətlərdə oynadığı rolun fərqləndirmə metodu ilə təyini.

**Açar sözlər:** işgüzar münasibətlər, marketinq, kommunikativ əlaqə, institusional reklam, ictimaiyyətlə əlaqə

**Ədəbiyyat siyahısı:**

1. Aşurov A.S. Marketinqin kommunikasiya sistemi.Dərslik. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı. 2018, 204 s
2. Məmmədov A.T. Marketinq. Dərslik. Bakı, İdeal Print, 2014
3. Алексунин В.А., Скляр Е.Н., Авдиенко Г.И. Маркетинговые коммуникации. Практикум. М. Изд. «Дашков и К». 2014
4. НаумоваА.В. Интегрированные маркетинговые коммуникации в местах продажи. Учеб. пос. для студентов. Новосибирск : Сиб. УПК, 2007

## МАРКЕТИНГ КАК КЛЮЧЕВОЙ ИНСТРУМЕНТ ПОСТРОЕНИЯ ДЕЛОВЫХ ОТНОШЕНИЙ

**Н.Г.Гусейнов, А.З.Мамедова**
**Азербайджанский Технологический Университет**
**arzu1.memmedova1@gmail.com**

Система коммуникаций играет важную роль в достижении целей маркетинговой деятельности и поддержании позиций предприятия на целевых рынках, и эта система не считается внутренней системой. Таким образом, деятельность по системе коммуникации, помимо деятельности внутри фирмы, охватывает также взаимодействие и отношения с предприятиями и организациями вне фирмы, а также с потребителями.

## MARKETING AS A KEY TOOL IN BUILDING BUSINESS RELATIONS

**N.G.Huseynov, A.Z.Mammadova**
**Azerbaijan Technological University**
**arzu1.memmedova1@gmail.com**

The communication system plays an important role in achieving the goals of marketing activities and maintaining the position of the enterprise in target markets, and this system is not considered an internal system.Thus, the activities of the communication system, in addition to activities within the firm, also cover interactions and relationships with enterprises and organizations outside the firm, as well as with consumers.

# AZƏRBAYCANDA MALIYYƏ BAZARININ FORMALAŞMASI PROBLEMLƏRI

**Dos. R.M.Qəmbərova**
**A.V.Əkbərzadə**
**Azərbaycan Texnologiya Universiteti**
**aytac.akbarzada96@gmail.com**

Azərbaycanda KOS-lar xarici maliyyə mənbəyi kimi əsasən bank kreditlərinə üstünlük verirlər. Yüksək kredit dərəcələri, tələb olunan məbləğin çatışmazlığı KOS-ların maliyyəyə çıxışını zəiflədir. KOS-ların şəffaflıq və hesabatlılığa marağının olmaması onların maliyyə bazarı mənbələrindən faydalanma imkanlarını məhdudlaşdırır.

İqtisadiyyatın neftdən asılı olması və bu sektorun iri sahibkarların təsiri altında olması səbəbindən kiçik və orta sahibkarlıq (KOS) Azərbaycan iqtisadiyyatında həmişə marjinal rol oynayıb. 2016-cı ilin statistik məlumatlarına əsasən, KOS-ların iqtisadiyyatda əlavə dəyərdə xüsusi çəkisi 6,4 faiz, iqtisadiyyatda və məşğulluqda ümumi istehsal məhsulunda isə müvafiq olaraq 9,2 faiz və 18,5 faiz təşkil etmişdir. 2015-ci ildə Azərbaycan manatının devalvasiyası ölkənin maliyyə sisteminə təsir edən amillərdən birinə çevrilib. Kəskin devalvasiya nəticəsində valyuta riskinin pisləşməsi və problemli kreditlərin əhəmiyyətli dərəcədə artması bank sektoru üçün ciddi problemlər yaradıb. Bank sektorunun resurs potensialının azalması KOS-ların maliyyəyə çıxışını məhdudlaşdıran əsas amillərdən biridir. Eyni zamanda, Azərbaycanda kapital bazarı KOS-lar üçün maliyyə mənbəyi rolunu oynamır. KOS-ların maliyyə əldə etməsinə mane olan amillər bütün biznes üçün yüksək faiz dərəcələri, ağır kredit şərtləri və kredit təşkilatlarının regionlara maliyyə təminatında marağının olmamasıdır. Azərbaycanda maliyyə inklüzivliyinin və maliyyə savadlılığının artırılmasının vacibliyi son vaxtlar aktuallaşıb. Ölkə əhalisinin və sahibkarların, o cümlədən KOS-ların maliyyə institutları tərəfindən təklif olunan xidmətlərə əlçatanlıq səviyyəsi arzuolunan deyil. İqtisadiyyatın Əsas Sektorları" 2016-cı ildə qəbul edilmişdir. KOS-ların maliyyəyə effektiv və əlverişli çıxışının təmin edilməsi Yol Xəritələrində əsas strateji hədəflərə daxil edilmişdir. KOS-ların maliyyələşdirilməsinə dair rəsmi statistik məlumat bazası olmadığı üçün kreditləşmənin dəyər üzrə bölgüsünü müəyyən etmək çətindir. zəncirlər. Bazarın 50%-nə sahib olan banklar arasında aparılan sorğu nəticəsində məlum olub ki, onlar daha çox ticarət və ya məhsul və ya xidmətin son mərhələsi olan qida xidməti sektorunun maliyyələşdirilməsində maraqlıdırlar. Kredit təşkilatlarının kiçik bir hissəsi kənd təsərrüfatının maliyyələşdirilməsinə üstünlük verir. Qlobal dəyər zəncirinin əsas sahələrindən biri

Azərbaycan iqtisadiyyatının iştirak etdiyi aqrar sektordur. KOS-ların üstünlük təşkil etdiyi qeyri-neft sektorları ticarət və kənd təsərrüfatıdır. Kənd təsərrüfatı sektoru müxtəlif bitkiçilik və heyvandarlıq məhsulları vasitəsilə ölkə üzrə dəyər zəncirinin yaradılmasına öz töhfəsini verir. Hökumətin son qanunvericilik və institusional təşəbbüsləri KOS-ların maliyyələşdirilməsini təmin etməyə yönəlib.

**Mövzunun aktuallığı.** Azərbaycanda KOS-ların maliyyəyə çıxışı ilə bağlı problem aktualdır.

**Tədqiqatın məqsədi.** Azərbaycanda maliyyə bazarının formalaşdırılmasında problemlərin tapılması.

**Tədqiqat obyekti.** KOS-ların maliyyəyə çıxışı.

**Tədqiqat metodu.** Maliyyə bazarının formalaşması üçün metodlar.

**Açar sözlər:** Azərbaycan, KOS, maliyyə inklüzivliyi, maliyyə savadlılığı, kredit, bank

**Ədəbiyyat siyahısı:**

1. Azerbaijan Economic Reforms Review. Center for Analysis of Economic Reforms and Communication. January, Baku, 2018
2. https://www.researchgate.net/publication/318043037_Rol_finansovyh_rynkov_v_razvitii_nacionalnoj_ekonomiki_Azerbajdzana
3. http://edf.az/uploads/documents/maliyye_elchatanligi_aliyev_samir.pdf
4. https://www.adb.org/sites/default/files/publication/511266/adbi-wp973.pdf

## ПРОБЛЕМЫ ФОРМИРОВАНИЯ ФИНАНСОВОГО РЫНКА В АЗЕРБАЙДЖАНЕ

**Доц. Р.М.Гамбарова**
**А.В.Акбарзаде**
**Азербайджанский Технологический Университет**
**aytac.akbarzada96@gmail.com**

В Азербайджане МСП в основном предпочитают банковские кредиты в качестве источника иностранного финансирования. Высокие кредитные ставки и нехватка необходимых средств ограничивают доступ МСП к финансированию. Незаинтересованность МСП в прозрачности и подотчетности ограничивает их доступ к источникам финансового рынка.

## PROBLEMS OF FORMATION OF FINANCIAL MARKET IN AZERBAIJAN

**Prof. R.M.Gambarova**
**A.V.Akbarzadeh**
**Azerbaijan Technological University**
**aytac.akbarzada96@gmail.com**

In Azerbaijan, SMEs mainly prefer bank loans as a source of foreign funding. High credit rates and a lack of required funds weaken SME access to finance. SMEs' lack of interest in transparency and accountability limits their access to financial market sources.

# TƏŞKILATDA INNOVASIYA FƏALIYYƏTI ILƏ ƏLAQƏLI RISKLƏRIN IDARƏ EDILMƏSININ TƏKMILLƏŞDIRILMƏSI

**Dos. E.Y.Hüseynova**

**S.Ə.Hüseynova**

**Azərbaycan Texnologiya Universiteti**

sitarehuseynova998@gmail.com

İnnovasiya fəaliyyəti, sahibkarlıq fəaliyyətinin digər sahələri ilə müqayisə olunarsa, daha çox risklidir. Çünki innovativ sahibkarlıqda uğurlu nəticə əldə etmək çox çətindir. Böyük təşkilatlarda isə risk bir neçə dəfə azdır, çünki adi iqtisadi fəaliyyətin miqyası onu kompensasiya edir.

Müəssisələrin innovasiya risklərinin idarə edilməsində bütün mümkün risk növlərini müəyyən etmək, risklərin idarə edilməsi şöbələrinin işini bacarıqla təşkil etmək lazımdır. Risk menecerləri müxtəlif risklərin idarə edilməsi tədbirlərinin effektivliyini qiymətləndirmək və onlardan istifadə üçün tövsiyələr vermək üçün məlum metodlardan istifadə etməli və ya müəssisənizin fərdi xüsusiyyətlərinə yönəlmiş öz metodologiyasını inkişaf etdirməlidirlər.

Əhəmiyyətli olan müxtəlif risk təsnifatlarının qurulması ilə risklərin idarə edilməsinin təkmilləşdirilməsidir. Ümumi risk təsnifatının yaradılması risklərin qiymətləndirilməsi sistemini təmsil edir, innovasiya riskini idarə etmək üçün daha yaxşı üsul tapmağa kömək edir. Risk dərəcəsini müəyyən edə bilən və riski vaxtında azaltmaq üçün tədbirlər görə bilən müxtəlif üsullardan istifadə etmək lazımdır. Tam risk təsnifatının yaradılması mürəkkəb və vaxt aparan prosesdir. Məhz buna görə də risk təsnifatının bir çox müəllifləri onun çətinliyi və praktikada istifadəsinin əlverişsiz olması səbəbindən tam risk təsnifatının yaradılmasını məqsədəuyğun hesab etmirlər. Riski səciyyələndirmək və onu minimuma endirməyə başlamaq üçün onun hansı təsnifat meyarlarına aid olduğunu müəyyən etmək lazımdır, bundan sonra riskin xarakterini və səbəbini müəyyən etmək və yekunda bu riskə təsir edən amilləri tapmaq olar. Təklif olunan ümumi risk təsnifatı müəyyən riski maksimum keyfiyyətlə təhlil etməyə imkan verir. Əldə edilən məlumatlar çox vacibdir, çünki əlamətlər və risk faktorları haqqında məlumat çatışmazlığı varsa, risklərin tam təhlili və zərərsizləşdirilməsi mümkün deyil.

Hazırda innovasiya, elmi və texnoloji təkmilləşmə demək olar ki, bütün dünyada sabit iqtisadi tərəqqinin əsasını təşkil edir. Bu göstəricilər təbii ehtiyatlardan və müxtəlif materiallardan kifayət qədər qənaətlə istifadə etməklə əhalinin müxtəlif növ məhsul və xidmətlərə olan tələbatını daha yaxşı ödəməyə imkan verir. İnnovasiya mallara, pula, istehsal amillərinə, habelə kapitalın tətbiqinin bir çox sahələrindən tələb-təklifin qeyri-müəyyənliyinin nəticəsi olan iqtisadi konyukturanın qeyri-müəyyənliyi ilə bağlıdır. Müasir şəraitdə ən təsirli olanı risklərin öyrənilməsinə kompleks yanaşmadır. Bir tərəfdən, bu cür yanaşma layihənin mümkün nəticələri haqqında tam təsəvvür əldə etməyə imkan verir, yəni investoru gözləyən müsbət və mənfi amilləri təhlil etməyə imkan verir, digər tərəfdən, risk təhlili üçün riyazi üsullardan istifadə etməyə imkan verir.

**Mövzunun aktuallığı.** Risklərin idarə edilməsinin təkmilləşdirilməsidemək olar ki, bütün dünyada sabit iqtisadi tərəqqinin əsasını təşkil edir

**Tədqiqatın məqsədi.** Müəssisələrin innovasiya risklərinin idarə edilməsində bütün mümkün risk növlərini müəyyən etmək.

**Tədqiqat obyekti.** Risklərin idarə edilməsinin təkmilləşdirilməsi.

**Tədqiqat metodu.** Spesifik metodlarla riskləri müəssisənin potensialına uyğun olaraq tez və

keyfiyyətlə zərərsizləşdirilməsi.

**Açar sözlər:** müəssisə riskinin idarə edilməsi, iqtisadi risk təhlili, innovasiyaların idarə edilməsi

## СОВЕРШЕНСТВОВАНИЕ УПРАВЛЕНИЯ РИСКАМИ, СВЯЗАННЫМИ С ИННОВАЦИОННОЙ ДЕЯТЕЛЬНОСТЬЮ В ОРГАНИЗАЦИИ

**Доц. Э.Я.Гусейнова**
**С.А.Гусейнова**
**Азербайджанский Технологический Университет**
**sitarehuseynova998@gmail.com**

Инновации более рискованны, чем другие области предпринимательства,**п**отому что добиться успешных результатов в инновационном предпринимательстве очень сложно. В крупных организациях риск в разы меньше, потому что его компенсирует масштаб обычной экономической деятельности.

## IMPROVING THE MANAGEMENT OF RISKS ASSOCIATED WITH INNOVATION ACTIVITIES IN THE ORGANIZATION

**Prof. E.Y.Huseynova**
**S.A.Huseynova**
**Azerbaijan Technological University**
**sitarehuseynova998@gmail.com**

Innovation is more risky than other areas of entrepreneurship**b**ecause it is very difficult to achieve successful results in innovative entrepreneurship. In large organizations, the risk is several times less because the scale of ordinary economic activity compensates for it.

### Ədəbiyyat siyahısı:

1.Qasımov F.H., Nəcəfov Z.M. İnnovasiyalar: yaranması, yayılması və inkişaf perspektivləri. Bakı – "Elm" – 2009

2. https://innovationmanagement.se/2010/09/22/clues-to-innovation-risk-management/

3.https://www.researchgate.net/publication/320747924_Analysis_of_risk_management_in_innovation_activity_process

# PLANLAMA SEKTORUNDA RISKLƏR VƏ ONLARIN IDARƏ EDILMƏSI

**Dos. C.N.İsmayılov**
**S.E.Bayramova**
**Azərbaycan Texnologiya Universiteti**
**sevinj.bayramova@aztelekom.az**

Risklərin idarə edilməsi prosesi ən əsas məsələlər üzrə planlaşdırma və qərarların qəbul olunmasını müşayiət etməlidir. Bu, ilkin olaraq yeni strategiya və prosedurların tətbiqinə, layihənin idarə edilməsinə, böyük maliyyə investisiyalarına və ziddiyyətlərin optimallaşdırılmasına aiddir.

Təşkilat, onun hədəfləri, əməliyyatları və perspektivləri haqqında obyektiv məlumatların mövcudluğu daha balanslı və effektiv planlaşdırmağa imkan verir. Bu, öz növbəsində, təşkilatın əlverişli imkanlardan istifadə etmək, mənfi təsirləri azaltmaq və performans təkmilləşdirmələrinə nail olmaq qabiliyyətini artırır.

Risklərin idarə edilməsi prosesi təşkilat rəhbərliyinin bütün səviyyələrində (məsələn, ən yüksək səviyyədə, struktur bölmələr və ya layihə qrupu səviyyəsində) idarəetmə qərarlarını müşayiət etməlidir, buna görə də risklərin idarə edilməsi biznes proseslərinin və ya onların idarə edilməsinə inteqrasiya edilməlidir.

Aparıcı beynəlxalq şirkətlərin təcrübəsi inandırıcı şəkildə sübut edir ki, miqyasından və istehsalın xüsusiyyətlərindən asılı olmayaraq, şirkətin idarəetmə sisteminin tərkib hissəsi kimi risklərin idarə edilməsindən fəal istifadə edilmədən biznesin inkişafının sabitliyi və idarəetmənin səmərəliliyinin artırılması qeyri-mümkündür.

Risklərin idarə edilməsi sistemi mənfəət əldə etmək və biznes itkilərini azaltmaq arasında lazımi tarazlığa nail olmağa yönəldilmişdir və təşkilatın idarəetmə sisteminin ayrılmaz hissəsinə çevrilmək üçün hazırlanmışdır yəni şirkətin ümumi siyasətinə, biznes planlarına və fəaliyyətlərinə inteqrasiya edilməlidir. Yalnız bu şərt yerinə yetirildikdə risklərin idarə edilməsi sisteminin tətbiqi effektiv olur:

- risklərin baş verməsinin səbəblərini və əsas amillərini müəyyən etmək;
- risklərin müəyyən edilməsi, təhlili və qiymətləndirilməsi;
- qiymətləndirmə əsasında qərarlar qəbul etmək;
- riski məqbul səviyyəyə endirmək;
- nəzərdə tutulan proqramın icrasının təşkili;
- planlaşdırılmış tədbirlərin icrasına nəzarət;
- riskli qərarın nəticələrinin təhlili və qiymətləndirilməsi.

Müəssisələrin praktikasına risklərin idarə edilməsi sisteminin tətbiqi, onların inkişafının sabitliyini təmin etməyə, riskli vəziyyətlərdə qərarların qəbul edilməsinin əsaslılığını artırmağa və nəzarət edilən şəraitdə bütün fəaliyyət növlərini həyata keçirməklə maliyyə vəziyyətini yaxşılaşdırmağa imkan verir.

Risklərin idarə edilməsi həm mənfi, həm də faydalı nəticələrlə əlaqələndirilir. Riskin idarə olunması təkmilləşdirmə üçün imkanların müəyyən edilməsi, hadisələrin arzuolunmaz gedişatının qarşısının alınması və ya azaldılması deməkdir. Risklərin idarə edilməsi müəssisənin gündəlik işinə inteqrasiya edilməlidir.

**Mövzunun aktuallığı.** Risklərin idarə edilməsinin mahiyyəti planlaşdırılan nəticələrdən potensial sapmaları müəyyən etmək və perspektivləri yaxşılaşdırmaq, itkiləri azaltmaq və qəbul edilmiş qərarların etibarlılığını artırmaq üçün bu kənarlaşmaları idarə etməkdir.

**Tədqiqatın məqsədi**. Risklərin idarə edilməsi fəaliyyəti daha da təkmilləşdirmək, təşkilatın iş proseslərinin səmərəliliyini artırmaq üçün yol seçmək üçün tətbiq oluna bilən məntiqi və sistemli bir prosesdir.

**Tədqiqat obyekti.** Biz riski idarə etməsək, onlar bizi idarə etməyə başlayacaq.

**Tədqiqat metodu.** Risklərin idarə edilməsi qərar qəbulu şərtlərinin hərtərəfli təhlilini əhatə edir və zəmanətli iş prosesinin icrasına aparan metoddur.

**Açar sözlər:**planlama, risk, risklər idarə edilməsi

**Ədəbiyyat siyahısı:**

1. Mərkəzi Bank-Banklarda risklərin idarə olunması haqqında qaydalar (Bakı 2010)
2. https://www.cfin.ru/finanalysis/risk/main_meths.shtml
3. http://unec.edu.az/application/uploads/2015/05/disser2015.pdf

## РИСКИ И УПРАВЛЕНИЕ ИМИ В СЕКТОРЕ ПЛАНИРОВАНИЯ

**Доц. Д.Н.Исмаилов**
**С.Э.Байрамова**
**Азербайджанский Технологический Университет**
**sevinj.bayramova@aztelekom.az**

Процесс управления рисками должен сопровождать планирование и принятие решений по ключевым вопросам. В первую очередь это связано с внедрением новых стратегий и процедур, управлением проектами, крупными финансовыми вложениями и оптимизацией конфликтов.

## RISKS AND THEIR MANAGEMENT IN THE PLANNING SECTOR

**Prof. Je.N.Ismailov**
**S.E.Bayramova**
**Azerbaijan Technological University**
**sevinj.bayramova@aztelekom.az**

The risk management process should accompany planning and decision-making on key issues. This primarily dueto theintroduction of new strategies and procedures, project management, large financial investments and conflict optimization.

# KOMMERSIYA MÜƏSSISƏLƏRINDƏ INSAN RESURSLARININ IDARƏ OLUNMASININ TƏKMILLƏŞDIRILMƏSI

**dos. M.Tağıyev**
**A.M.Rzayeva**
**Azərbaycan Texnologiya Universiteti**
**rzayevaaynur06@gmail.com**

Kadrların düzgün seçilməsi, peşə və ixtisas səviyyəsindən, təhsilindən, eyni zamanda potensialından asılı olaraq onların düzgün yerləşdirilməsinin təmin olunması hər bir müəssisənin idarəedilməsində önəmli məsələlərdən birini təşkil edir. Bu fəaliyyətin yerinə yetirilməsində isə hər bir idarə, müəssisə, firma və ya təşkilat özünün kadr siyasətini əsas götürür.

Kommersiya müəssisələri hər zaman yeni biliklərə yiyələnən, intellektual, yaradıcı düşüncəqabiliyyətinə malik işçilərin axtarışındadır. Bunun üçün, müəssisədə müvəffəqiyyətləçalışan insan resursları bölməsi fəaliyyət göstərir.Bu şöbənin fəaliyyətinin əsasında müəssisəyə yeni kadrların cəlb olunması dayanır. Kommersiya müəssisəsitərəfindən işçi işə götürülən zaman müəssisə çalışır ki, ilk olaraq, öz missiyalarının düzgün qəbul edilməsini anlayan işçiləri seçsin. Belə ki, müəssisənin insan resurslarının idarə edilməsi şöbəsi birbaşa olaraq vakant yerlərə işçilərin seçilməsi prosesinə diqqət yetirir və çalışır ki, müəssisəni elə kadrlarla təmin etsin ki, bu kadrlar müəssisənin uzunömürlü və daimi fəaliyyətində fövqəladə rol oynasınlar və ən əsası, müəssisəyəyalnız aylıq gəlir mənbəyi gözü ilə baxmasınlar.

Bazar münasibətləri şəraitində heyətin formalaşdırılması müəssisədaxili bazar mexanizminin fəaliyyətinə əsaslanır. Bu cür mexanizmin yaradılması və istifadə edilməsi müəssisənin lazımi kadrlarla təmin edilməsinin daha çevik formasının yaradılmasına şərait yaradır.

İşçilərə olan tələbatın təyin edilməsində ehtimal olunan təşkilati strukturun böyük əhəmiyyətini nəzərdən qaçırmaq olmaz. Müəssisənin təşkilati strukturuistehsal və idarəetməstrukturunu özündə ehtiva edir.

Beynəlxalq praktikaya uyğun olaraq, hər bir müəssisənin strukturu məhz onun strategiyası ilə müəyyən edilir. Bununla bərabər, müəssisənin ölçüləri, istehsal həcmi və mənfəətin miqdarı da strateji kursun seçilməsinə təsir göstərir.

Hazırda,kommersiya müəssisələrində insan resurslarının idarə olunması üzrəəsas diqqət işçi qüvvəsinin kəmiyyət deyil, keyfiyyət baxımından yüksəldilməsinə yetirilir. Çünki, yeni iqtisadi sistemin ən vacib tələblərindən biri kadr və mütəxəssishazırlığı ilə Elmi Texniki Tərəqqinin(ETT) nailiyyətlərinə müvafiq istehsal vasitələrinin ardıcılsurətdə inkişafına müyəssər olmaqdır. Bu uyğunluq,insan resurslarının ümumi təhsil səviyyəsi və ixtisasının yüksəldilməsi nöqteyi-nəzərindən, ali vəorta ixtisas təhsilli işçilərin sayının artması ilə bərabər, yüksək keyfiyyətli işçi qüvvəsinin təkrar istehsalı anlamına gəlir.

Sahibkarlıq fəaliyyətinin genişləndiyi bir dövrdə, minimal əmək və vaxt sərf etməklə maksimum gəlir qazanmaq prinsipinin yüksəldilməsi, işçi qüvvəsinin keyfiyyəti baxımından iş vaxtı fondundan rasional istifadə probleminin həll edilməsi insan resurslarının idarə olunmasının təkmilləşdirilməsi sahəsində başlıca yer tutur. Belə ki, iş vaxtından rasionalşəkildə istifadəməhsuldarlığın yüksəldilməsi, məhsul vahidinin dəyərinin azalması, asudə vaxtın çoxalması ilə sıx əlaqədardır. İnsan resurslarının idarə edilməsində iş vaxtına qənaət prinsipinin hesaba alınması, əsas və dövriyyə fondlarından, maliyyə vəsaitlərindən rasional istifadə,işçi qüvvəsinə olan əlavə tələbatı artırmış olur.

Kommersiya müəssisələrində insan resurslarının idarə olunmasının təkmilləşdirilməsində işçi qüvvəsinin keyfiyyəti və rəqabət qabiliyyəti artırılmalıdır.

**Mövzunun aktuallığı.**İqtisadi inkişafın sosial aspektinin gücləndirilməsində daxili vəbeynəlxalq bazarların tələblərinə müvafiq kvalifikasiyalı kadrların hazırlanması problemi diqqət mərkəzində olduğu üçün mövzumuz aktuallıq kəsb edir.

**Tədqiqatın məqsədi.**Kommersiya müəssisələrində insan resurslarının idarə olunmasının təkmilləşdirilməsi mexanizmlərini aydınlaşdırmaqdır.

**Tədqiqat obyekti.** İnsan resurslarının idarə olunmasının təkmilləşdirilməsi məsələsinə bir obyekt kimi kommersiya müəssisələrinin timsalında aydınlıq gətirilib.

**Tədqiqat metodu.** Tədqiqat işimizi kadr siyasətinin həyata keçirilməsi üzərində müfəssəl təhlilvə sistemli yanaşma metodları əsasında yerinə yetirmişik.

**Açar sözlər:** insan resursları, kommersiya müəssisələri, təkmilləşdirmə mexanizmləri,insan kapitalı, biznes mühiti

**Ədəbiyyat siyahısı:**

1. T.Y.Bazarov, B.L.Yeremin. "Heyətin idarə edilməsi", 2012
2. T.Ə.Quliyev. "İnsan resurslarının idarə edilməsi". Bakı, 2013
Dövlət maliyyə nəzarətinin hüquqi bazasının formalaşdırılması məsələlərində olan natamamlıq və onun anlayışının olmaması ona gətirib çıxartmışdır ki, hal-hazırda nəzarətedici orqanların cəhdləri nəzarətin həyata keçirilməsi əsasən öz idarələri marağına yönəldilir. Belə ki, məsələn, hesablama Palatasının özünün nəzarət kompetensiyası, Mərkəzi Bankın- özünün, Dövlət vergi xidmətinin özünün kompetensiyası vardır. Təcrübə isə göstərir ki ölkənin bank sistemi Mərkəzi Bankdan başlayaraq faktiki olaraq nəzarətsizdir. Eləcə də hesablama palatası, xəzinadarlıq, valyuta və ekspert nəzarətinin xidməti, qiymətli kağızlar üzrə komissiya öz nəzarət funksiyalarını cəmləşdirmirlər. Maliyyə nəzarıtinin strukturu kompotentli orqanların mühüm sayı ilə fərqlənir. Büdcə- maliyyə resurslarının formalaşması və istifadəsi sahəsində tez-tez uzlaşır, parlelizmin təkrarlanması elementləri ilə xarakterizə edilir. Demək olar ki, həmin məsələlər həll olunmur. Qanunvericilik təcrübəsində bu cür sənəddə hansı orqanlar dövlət və bələdiyyə nəzarəti orqanlarına aid olması məlum deyil. Nəzarəti həyata keçirən orqanların əsas hüquqları, daxili nəzaritin vəzifələri müəyyənləşdirilməmişdir.

Ən vacib yenilik ondan ibarətdir ki, Maliyyə Nazirliyinin və xəzinadarlığın kontrol funksiyaları ətraflı qeyd olunmuşdur.Bunlar hamısı onu təsdiq edir ki, maliyyə nəzarəti və auditin hüquqi bazasının formalaşdırılmasında addım atılmışdır.Dövlət maliyyə nəzarətinin effektiv həyata keçirilməsi üçün ancaq dövlət nəzarət orqanlarının adını çəkmək tələb olunur, onların vəzifələrini, hüquqlarını, fəaliyyıt dairəsini qanunvericiliklə möhkəmləndirmək tələb olunur.

Qeyd etmək lazımdır ki, maliyyə qanunvericiliyini pozanlara görə dövlət maliyyə nəzarətinin imkanlarını müəyyənləşdirən qanunların olmamasıdır.Beləliklə, hesab edirəm ki, bugün bütün büdcə sistemi yaranma mərhələsindədir, maliyyə nəzarəti və audit sisteminin islahat məsələsi ən vacib məsələlərdəndir.

## Ədəbiyyatsiyahısı:

1.Азярбайжан Республикасынын Коснтитутсийасы. Бакы, 1995
2.АзярбайжанРеспубликасыРеэионларынынсосиал-игтисадиИнкишафыДювлятПрограмы (2004-2008-жииллляр) Республикагязети, 13 феврал, 2004
3.АзярбайжанРеспубликасынынВерэиМяжялляси. Бакы, 2009, 351 с
4.АзярбайжанРеспубликасыВерэилярНазирлийининматериаллары. 2000-2010
5.АзярбайжанРеспубликасыИгтисадиИнкишафНазирлийиСащибкарлыьаКюмякМиллиФондунун щесабатлары. Бакы, 2002-2006
6.Азярбайжан Республикасынынващидбцджятяснифаты. Бакы, 2005, 120с
7.Азярбайжанынстатистикэюстярижиляри 2009.Бакы 2010, 869с

8.Азярбайжан Республикасынын 2005-жи ил Дювлят бцджяси зяАРи. Ыж.,326
9.Аббасов А.Ф. Сосиал базар игтисадиййаты. Бакы, 1998, 320с
10.Аьайев А.Г. Дювлят боржу вя онун идаря едилмяси. Бакы., 2002, 230с
11.Аллащвердийев Д.И. Бцджя-верэи сийасяти вя игтисади тящлцкясизлик.Бакы,2002, 170с
12.Аудит: Дярс вясаити/ В.Новрузовун редактяси иля. Бакы, 2001, 604с
13.Азярбайжан игтисадиййаты / И.Щ.Алыйев вя С.А.Ибадовун редактясииля Бакы, 1998, 400с
14.Азярбайжан XX ясрдя. Статистик мяжмуя, 1,2 жилд, Бакы, 2001, 355 вя699с
15.Ахундов Ш.Я., Ахундов М.Я. Базар игтисадиййатынын ясаслары. Бакы, 2001, 672с
16.Баьыров Д.А. Верэи аудити

## СОВЕРШЕНСТВОВАНИЕ ФИНАНСОВОГО КОНТРОЛЯ И АУДИТА.

**Доц.Х.М.Агаева**
**Л.Т.Гахраманзаде**
**Азербайджанский Технологический Университет**

В статье рассмотрены вопросы по выяснению целого ряда проблем, касающихся государственного финансового контроля. Остро стоит вопрос о законодательном регулировании государственного финансового контроля. Также выяснены вопросы по координации контрольных функций оргонов контроля, по повышению требований к качеству работы контрольных органов.

## IMPROVEMENT OF FINANCIAL CONTROL AND AUDIT.

**Prof. X.M.Agayeva**
**L.T.Gahramanzadeh**
**AzerbaijanTechnologicalUniversity**

The article deals with the issues of clarifying a number of problems related to state financial control. There is an acute issue of legislative regulation of state financial control. Also, the issues on the coordination of the control functions of the orgones of control, on increasing the requirements for the quality of the work of the control bodies were clarified.

# KƏND TƏSƏRRÜFATI MƏHSULLARININ EMALI SAHƏSININ TƏNZIMLƏNMƏSINDƏ DÖVLƏT DƏSTƏYININ ROLU

**Dos.R.M.Cəfərova,**
**T.M.Zeynalov**
**Azərbaycan Texnologiya Universisteti**
**teymur_z@mail.ru**

Hazırda kənd təsərrüfatı sahəsinə göstərilən dövlət müdafiə tədbirlərinin spektri kifayət qədər genişdir və onların hər birinin demək olar ki, istehsalçıların maliyyə vəziyyətinin yaxşılaşmasına çox böyük müsbət təsiri vardır.

Kənd təsərrüfatına dövlət dəstəyi tədbirləri üç istiqamətdə: 1) ümumi sahə üzrə dövlət dəstəyi tədbirlərinə; 2) bitkiçilik sahəsi üzrə dövlət dəstəyi tədbirlərinə və 3) heyvandarlıq sahəsi üzrə dövlət dəstəyi tədbirlərinə bölünür.

Kənd təsərrüfatına ümumi dövlət dəstəyi tədbirlərinə sahənin müxtəlif vergilərdən azad edilməsi aiddir və bu dəstəyin uzunmüddətli dövrdə istehsalçıların maliyyə vəziyyətinə göstərdiyi müsbət təsirlər məlumdur.Bu istiqamətdə həyata keçirilən ən mühüm maliyyə dəstəyi tədbirlərindən biri də istehsal-çılara müxtəlif layihələr üzrə büdcədən güzəşli kreditlərin verilməsidir. Bunlar müxtəlif məhsulların istehsalı və emalı , kənd təsərrüfatı məhsullarının emalı , kənd təsərrüfatı məhsullarının istehsalı , turizmin inkişafı , xidmət (infrastruktur) sahələrinin inkişafı layihələridir. Göründüyü kimi, maliyyə-ləşdirilən layihələrin sırasında ən böyük saya və çəkiyə malik layihə kənd təsərrüfatı məhsullarının istehsalı üzrə olan layihələrdir. Onların layihələrin ümumi sayında payı 95,2%, verilən kreditlərin məbləğində payı isə 64,1% təşkil etmişdir. Həyati əhəmiyyətə malik sahə kimi kənd təsərrüfatının inkişafına verilən kreditlərin sayı və məbləği daha çoxdur.

Fond tərəfindən kənd təsərrüfatı məhsullarının emalına ayrılan kreditlərin məbləği son ildə 3356.0 min manat və yaxud 2,3% təşkil etmişdir. Əvvəlki illərdə kənd təsərrüfatı məhsullarının emalı məqsədilə ayrılan kreditlərin məbləği daha çox olmuşdur və bu, fikrimizcə, təqdirə layiq hesab edilməlidir. Belə ki, ölkəmizin aqrar-sənaye sferasının kənd təsərrüfatı məhsullarının emalı ilə bağlı sahəsi zəif inkişaf etmişdir.

Bu sahənin inkişafına güclü təkan verilməsi emal müəssisələrinin sayının artımına, onların bölgələrdə lokal inhisarçılığnın qarşısının alınmasına və beləliklə də, kənd təsərrüfatı məhsulları istehsalçılarının maliyyə vəziyyətinin yaxşılaşmasına gətirib çıxara bilər. Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 1953 layihə üzrə verilən kreditlərin 1875-ni və yaxud 96,0%-ni kiçik həcmli kreditlər təşkil etmişdir. Layihələrin 2,1%-i üzrə verilən kreditlər orta həcmli, 1,9%-i üzrə verilən kreditlər isə bö-yük həcmli kreditlərə aid olmuşdur [1]. Hazırda bu qurumun – Sahibkarlığa Kömək Milli Fondunun verdiyi kreditlərin faiz dərəcələri 6,0%-i keçmir. Mövsümi işlərin görülməsi məqsədilə qısamüddətli kreditlərin faiz dərəcələrinin aşağı salınması daha da məqsədə müvafiqdir. Məlum olduğu kimi, kənd təsərrüfatı əmtəə istehsalçılarının maliyyə vəziyyətinə başqa amillərlə yanaşı onların müxtəlif növ maşınlarla, texnikalarla təminatı da güclü təsir göstərir. İstehsalçıların texniki təminatının yaxşılaşdırılması onların əldə etdikləri mənfəətin məbləğinin artımı, bu isə onların geniş təkrar istehsalı həyata keçirmək üçün imkanlarının yüksəlməsi deməkdir. Bu aspektdə də Azərbaycanın kənd

təsərrüfatında fəaliyyət göstərən istehsalçıların müdafiəsi məqsədilə məqsədyönlü tədbirlər işlənib hazırlanır və həyata keçirilir. Bunun bariz nümunəsi kimi ölkəmizdə fəaliyyət göstərən "Aqrolizinq" ASC-nin fəaliyyəti göstərilə bilər. Bu cəmiyyət dünyanın qabaqcıl şirkətlərinin istehsal etdiyi müxtəlif təyinatlı kənd təsərrüfatı texnikalarının ölkəmizə gətirilməsini və onların məhsul istehsalçılarına icarəyə verilməsini, eyni zamanda satılmasını təşkil edir. Bu məqsədlə hər il dövlət büdcəsindən vəsait ayrılır və istehsalçılara satılan texnikanın dəyərinin də 40%-i dövlət büdcəsi hesabına ödənilir. "Aqrolizinq" ASC-nin fəaliyyəti nəticəsində kənd təsərrüfatının texniki baxımından modernləşdirilməsi istiqamətində əhəmiyyətli işlər görülmüş və bu, kənd təsərrüfatı əmtəə istehsalçılarının maliyyə vəziyyətinin yaxşılaşmasında öz əksini tapmışdır.Qarabağda dirçəliş işlərinin sürətləndirilməsi üçün daha işlək və təsirli, həm də əlçatan maliyyə mexanizmləri tələb olunur. Şübhəsiz, ilk növbədə, bundan ötrü dövlət tənzimlənməsi vasitəsi ilə daha tez tətbiq olunması mümkün olar maliyyə mexnizmlərinin və xidmətlərinin dövriyyəyə buraxılması təmin olunmalıdır. Bununla belə, regionda kənd təsərrüfatının inkişafının intensivləşdirilməsində alternativ maliyyə mənbələrəinin müəyyənləşdirilməsinə böyük ehtiyac vardır. Digər tərəfdən, Azərbaycan Respublikasının 2021-ci il üçün dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərə böyük qayıdışın sürətləndirilməsindən ötrü 2,2 mlrd. manat vəsait nəzərdə tutulmuşdur [2].

**Ədəbiyyatsiyahısı:**

1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Sahibkarlığa Kömək Milli Fondunun 2017 illik hesabatı. Bakı, "Şərq-Qərb", 2018, 53 s
2. Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 29 dekabr 2020

## Роль государственной поддержки в регулировании переработки сельскохозяйственной продукции

**Р.М.Джафарова, Т.М.Зейналов**
**Азербайджанский технологический университет**
teymur_z@mail.ru

В настоящее время спектр мер государственной защиты, предоставляемых агропромышленному комплексу, достаточно широк и практически все они оказывают большое положительное влияние на улучшение финансового положения товаропроизводителей. Меры государственной поддержки сельского хозяйства по трем направлениям: 1) меры государственной поддержки в общей сфере; 2) меры государственной поддержки в области растениеводства и 3) меры государственной поддержки в области животноводства.

## THE ROLE OF STATE SUPPORT IN REGULATING THE PROCESSING OF AGRICULTURAL PRODUCTS

**R.M.Jafarova**
**T.M.Zeynalov**
**Azerbaijan Technological University**
teymur_z@mail.ru

At present, the range of state protection measures provided to the agricultural sector is quite wide, and almost all of them have a great positive impact on the improvement of the financial situation of producers.Measures of state support to agriculture in three directions: 1) measures of state support in the

general field; 2) measures of state support in the field of crop production and 3) measures of state support in the field of animal husbandry.

# İSTEHSAL MÜƏSSISƏLƏRINDƏ MÜHASIBAT UÇOTUNUN TƏŞKILININ INFORMASIYA TƏMINATI

**N.S.Mahmudov**
**Azərbaycan Kooperasiya Universiteti**
**nurlanm@hotmail.com**

Burada Respublikamızın mühasibat uçotuna aid Möhtərəm Prezidentimizin gördüyü işlər, həmçinin mühasibat uçotunun informasiya bölməsinə aid sərəncamlarının mahiyyəti əksini tapmış, müəssilərin fəaliyyətinə təsiri təhlil edilmişdir.

Cənab İlham Əliyevin sədarəti altında informasiya daşıyıcılarına aid eyni zamanda onların işlənib hazırlanması, çoxsaylı qərarların, sərəncamların tətbiq edilməsi maliyyə-uçot sisteminin destrukturizasiyasına xidmət etməkdədir. Bakıda keçirilən müxtəlif görüş, sərgilərdə bu sahəyə olan marağın artırılması, inkişaf etmiş ölkərin tətbiq edilən texniki innovasiyaların gətirilməsi istiqamətində Möhtərəm Dövlət Başçımız öz iştirakı ilə bir daha öz dəstəyini göstərmişdir[1, 1].

Mühasibat uçotu informasiya sistemi mütəxəssislərin idarəetmə və maliyyə uçotu funksiyalarını yerinə yetirmələri üçün zəruri olan məlumatları əldə etmək üçün texniki vasitələr kompleksindən istifadə edən xüsusi məlumatların emalı metodlarından istifadə etməklə uçot məlumatı prosesinin avtomatlaşdırıldığı sistemdir.

Mühasibat uçotunun informasiya sisteminin əsasını informasiya təşkil edir - planlaşdırma, nəzarət, təhlil funksiyalarını yerinə yetirmək üçün labüd olan və idarəetmə qərarlarının qəbulu üçün əsas olan kəmiyyət məlumatlarının məcmusudur.

Müasir iqtisadi şəraitdə müəssisənin səmərəli idarə edilməsi dinamik proses kimi böyük əhəmiyyət kəsb edir ki, bu da menecer tərəfindən müxtəlif informasiyalardan istifadə əsasında həm qeyri-rəsmi, həm də rəsmiləşdirilmiş idarəetmə üsullarının məharətlə tətbiqi olur.

Vətən müharibəsində ordumuzun , xalqımızın Cənab Ali Baş Komandanımızla vəhdətli mübarizəsi düşməndən arındırılmış ərazilərimizdə yaradılan istehsal təşkilatlarında informasiya təhlükəsizliyi, hesabatlılığın komputerləşdirilməsi, dövlətin elektron xidmət platformalarının sürətlə tətbiqini şərtləndirir [1, 1].

Mürəkkəb sistem olan informasiya sistemi, onun tərkibi fəaliyyət növündən və müəssisənin (subyektin) ölçüsündən asılıdır. İS-nin müasir elementlərinə (alt sistemlərinə) aşağıdakılar daxildir:

- istehsalın hazırlanmasının idarə edilməsi, planlaşdırılması, maddi-texniki təchizatı və satışı (marketinq);
- mühasibat uçotu;
- kadr məsələlərinin həlli.

Bütün məlumatların təxminən 60%-i mühasibat uçotunda cəmləşmişdir. Hər bir funksional altsistem müəyyən nəzarət funksiyalarının yerinə yetirilməsi üçün nəzərdə tutulmuş öz tapşırıq kompleksləri və məlumat toplusuna malikdir[3, 6].

Mühasibat uçotunun informasiya təminatı həm mühasibat uçotu şöbəsindən kənarda, həm də daxilində müxtəlif şöbələrdə yaranan çoxlu sayda müxtəlif ilkin sənədlər, habelə normativ və arayış sənədlərinin geniş istifadəsi ilə xarakterizə olunur[4, 1].

**Açar sözlər:** Cənab,Uçot, mühasibat, istehsal, müəssisə, siyasət, ölkəmiz

**Ədəbiyyatsiyahısı:**

1. President.az internet portalı
2. Mühasibat uçotu haqqında Azərbaycan Respublikasının qanunu,İlham Əliyev,Azərbaycan Respublikasının Prezidenti, Bakı şəhəri, 29 iyun 2004-cü il № 716-IIQ
3. "Beynalxalq Muhasibat Uçotunun Əsasları". İqtisadi araşdırmalar və Tədris mərkəzi. Bakı-2019
4. Maliyyə nazirliyinin saytı: WWW.maliyye.gov.az

## ИНФОРМАЦИОННОЕ ОБЕСПЕЧЕНИЕ ОРГАНИЗАЦИИ БУХГАЛТЕРСКОГО УЧЕТА НА ПРОИЗВОДСТВЕННЫХ ПРЕДПРИЯТИЯХ.

**Н.С.МАХМУДОВ**
**Азербайджанский Университет Сотрудничества**
**nurlanm@hotmail.com**

В этой статье отражена работа президента республики по бухгалтерскому учету, а также сущность приказов информационного отдела бухгалтерского учета,и проанализировано их влияние на деятельность предприятий.

## INFORMATION SUPPORT OF THE ORGANIZATION OF ACCOUNTING IN PRODUCTION ENTERPRISES.

**N.S.MAHMUDOV**
**Azerbaijan Cooperation University**
**nurlanm@hotmail.com**

This article reflects the work of the president of the republic on accounting, as well as the essence of the orders of the information department of accounting, and analyzed their impact on the activities of enterprises.

# ƏHALİNİN MƏŞĞULLUQ PROBLEMİNİN HƏLLİNDƏ ƏMƏK BAZARININ ROLU

**Ə.Əsgərov,**
**H.K.Məhəmmədi**
**Azərbaycan Texnologiya Universiteti**
**h.m89@mail.ru**

Müasir dövrdə məşğulluq probleminin səmərəli həlli istiqamətində əmək bazarı da ən aktual bir məsələ kimi çıxış etməkdədir. Bu mənada ən optimal variant kimi qəbul edilmiş əmək bazarı hər bir ölkədə normal fəaliyyət mexanizminin təşkil edilməsini tələb edir. Əmək bazarı daha çox bazar münasibətlərinə xas olan cəhətləri özündə cəmləşdirməklə həm də burada işaxtaranların lazımi iş yerləri ilə təmin edilməsinə səmərəli mühitin yaradılmasını şərtləndirir. Nəzərə alsaq ki, bazar iqtisadiyyatında hər kəs öz biliyi və bacarığı əsasında müvafiq işlərlə təmin edilə bilir, onda faydalı məşğulluğun təminatında əmək bazarının da rolunu təsəvvür etməmək olmaz. Əmək bazarının elmi izahı bir çox iqtisadi ələbiyyatlarda geniş şəkildə verilmişdir. Düşünürük ki, əmək bazarı sosial-iqtisadi münasibətləri tənzimləyən əsas iqtisadi mexanizm olmaqla, həm də attestasiya, imtahan mərhələsi kimi də qeyd oluna bilər. Bunu belə izah edə bilərik ki, təklif olunan iş yerləri üzrə tələb olunan norma və hədləri keçə bilənlər üstünlük əldə edirlər. Çünki, burada iş axtaranların bilikləri, savadları və bacarıqları ortaya çıxır və onlar bu əsasda müvafiq işlərlə təmin edilirlər. Eyni zamanda müxtəlif peşə kurslarına göndərilənlərin də qeydiyyatı burada aparılır. Əmək bazarı da digər bazar növləri kimi-əmtəə bazarı, kapital bazarı, qiymətli kağızlar bazarı, investisiya və s. bazarlar kimi müasir iqtisadi sistemin əsas mahiyyətini izah edən, açan və təhlil edən əsas mexanizmdir. Əmək bazarında da digər bazar növlərində olduğu kimi, əsasən iki tərəf iştirak edir. Bunlardan biri tələb, digəri isə təklif edənlərdir. Daha doğrusu, tələb edənlər iş verənlər, təklif edənlər isə iş axtaranlar (iş qüvvəsi) qismində iştirak edirlər. Elə məhz əmək bazarında tələb və təklif qanunları əsasında bütöv, tam bir proses həyata keçirilir. Yəni bu bazarın əsas mahiyyəti ondan ibarətdir ki, burada da tarazlıq qorunmaqla bütün işlər görülür. Əmək bazarında əsasən əmək münasibətləri formalaşır. İşləmək arzusunda olan şəxslərlə işçi qüvvəsi tutmaq istəyən şəxslər bir-birinə ziddiyyət təşkil edir. Bu da təbiidir. Çünki, həm işləmək istəyənlər, həm də müxtəlif əmtəələrin istehsalında və xidmətlərin göstərilməsində istifadə etmək üçün işçi axtaranlar məhz əmək bazarlarına müraciət edirlər. Fikrimizcə, elə əmək bazarının inkişafını, səmərəliliyini və optimallığını təmin və müəyyən edən amil məhz budur. Həm də bu bazar münasibətlərinin əsas mahiyyətini özündə cəmləşdirməsindən irəli gəlir. Əmək bazarı həm də vasitə rolunu da öz üzərinə götürmüşdür. İşləmək istəyib işsiz olanlarla (əmək qabiliyyətli insanlar) iş yerləri arasındakı mərhələni təşkil edən əmək bazan bir növü qeyd olunan hər iki tərəf arasında körpü rolunu oynayır. Bu həqiqətən də belədir. Çünki, ümumi mənada götürsək əgər işləmək istəyənlərlə iş yerlərini əmək bazan olmadan təsəvvür etsək məntiqsizlik olardı.

Əmək bazarı öz fəaliyyəti ilə dövlətin iqtisadi siyasətinin əsas tərkib hissəsi olmaqla, eyni zamanda həmin siyasətə dəstək vasitəsi kimi də mühüm əhəmiyyətə malikdir. Nəzərə alsaq ki, hər bir dövlət zəruri məsələ kimi əhalinin işsizliyini minimuma endirməklə məşğulluq səviyyəsinin yüksəldilməsinə ciddi fikir verməkdədir, onda açıq şəkildə əmək bazarının mahiyyətini dərk etmək asan olar.

Əmək bazarında bir iqtisadi müstəqillik hökm sürür ki, bu da iş axtaranlarla, iş verənlər arasında

təzahür edir. Yəni iş axtaranlar da, iş verənlər də sərbəst surətdə özlərinə uyğun gələn məqsədlərə doğru can atırlar. Əmək bazarında çevik əmək haqqı sistemi vardır ki, bu da əsasən kəmiyyət və keyfiyyət cəhətdən iş qüvvəsinə olan tələb və təklifi özündə əks etdirir. Cəmiyyətin inkişafı nəticəsində ayrı-ayrı peşə sahələrinə olan tələbatın dəyişməsi işçi qüvvəsinin yenidən hazırlanmasına ehtiyac yaradır. Bütün bunlar əmək bazarının səviyyəsi cəhətlərini özündə birləşdirir[1,s. 287].

Bunlardan əlavə, əmək bazarını öyrənən, tədqiq edib, ətraflı şəkildə araşdıran, klassik siyasi iqtisad məktəbinin davamçıları və tərəfdarları neoklassiklərdir. Bu cərəyanın əsas nümayəndələri P. Samueison, M. Feldstayn və R. Xolldur. Onlar əmək bazarını digər bazarlardan ayırmır və deyirdilər ki, əmək bazarı da qiymət tarazlığına əsasən tənzimlənir. Fikirlərini daha da konkretləşdirən neoklassiklərə görə bütün başqa bazarlar kimi əmək bazarı da qiymətlər tarazlığı əsasında fəaliyyət göstərir [2, s. 156]. Tələb və təklif əmək haqqının köməyi ilə tənzimlənir. Qeyd etmək lazımdır ki, neoklassiklərin ideyalarında insan amilinə də geniş yer veirlmişdir. Onlar deyirdilər ki, təhsilə və ixtisasın artırılmasına qoyulan investisiyalar da maşın və avadanlıqlara qoyulan investisiyalar kimidir.

**Ədəbiyyat siyahısı:**

1. Əhmədzadə M. İ. Maliyyə hüququ. Praktikum. Bakı: Qanun, 2003, 80 s
2. Babayev T. Q. Aqrar sahədə özəl qurumların təşkili və iqtisadi əsasları.Bakı: AzərbaycanDövlətNəşriyyatı. 2008, 258 s

## РОЛЬ РЫНКА ТРУДА ВРЕШЕНИИ ПРОБЛЕМЫ ЗАНЯТОСТИ

**А.Аскеров**
**Х.К. Магомеди**
**Азербайджанский Технологический Университет**
**h.m89@mail.ru**

В современное время рынок труда является одним из наиболее актуальных вопросов эффективного решения проблемы занятости. В этом смысле рынок труда, который считается наиболее оптимальным вариантом, требует налаживания нормального механизма работы в каждой стране. Рынок труда сочетает в себе черты рыночных отношений и создает эффективную среду для обеспечения соискателей необходимой работой.

## the role of the labor market in solving the problem of employment

**A.Askarov**
**H.K.Mohammadi**
**Azerbaijan Technological University**
**h.m89@mail.ru**

In modern times, the labor market is one of the most pressing actual issues in the effective solution of the employment problem. In this sense, the labor market, which is considered the most optimal option, requires the establishment of a normal mechanism of operation in each country. The labor market combines more features of market relations butand also creates an effective environment to provide job seekersapplicants with the necessary jobs.

# SIĞORTA BAZARI VƏ ONUN ƏSAS FUNKSIYALARI

**R.M.Cəfərova**
**A.E.Həsənli**
**Azərbaycan Texnologiya Universiteti**
**ceyhunmammadli96@gmail.com**

Sığorta iqtisadi anlayış olmaqla yanaşı iqtisadi fəaliyyət sahələrinin və cəmiyyətin inkişafında mühüm rol oynayır. Sığorta istehsal prosesində baş verən maddi itkilərin əvəzinin ödənilməsi ilə əlaqədardır. [2, s.11].

Sığorta bazarı maliyyə bazarının tərkib hissəsi kimi sığorta xidmətlərinin satıldığı və alındığı bir sferadır. Sığorta bazarının subyektlərinə sığorta təşkilatları, sığorta şirkətləri, sığorta məhsulları, vasitəçilər, sığorta risklərini qiymətləndirənlər, müxtəlif sığorta şirkətlərinin və sığortaçıların assosiasiyaları, habelə dövlət bazarının tənzimlənməsi orqanları daxildir. Sığorta fəaliyyəti əsasən məcburi lisenziyaya, habelə təşkilatların maliyyə sabitliyinin təmin olunmasına nəzarət funksiyası yerinə yetirir.

Sığorta bazarının aşağıdakı əsas funksiyaları vardır:

1. Sığorta bazarının kompensasiya funksiyası - hüquqi və fiziki şəxslərə sığorta predmeti olan mənfi hadisələr baş verdikdə onlara dəymiş zərərə görə kompensasiya şəklində sığorta təminatı daxildir.
2. Yığım funksiyası - həyat sığortası ilə təmin olunur və əvvəlcədən müəyyən edilmiş bir məbləği bağlanmış sığorta müqaviləsi hesabına yığmağa imkan verir.
3. Paylama funksiyası - sığorta fondunun formalaşması və məqsədli istifadəsidir. Sığorta fondunun formalaşdırılması sığorta ödənişlərinin təminatı və bütövlükdə sığorta sisteminin sabitliyini təmin edən sığorta ehtiyatları sistemində həyata keçirilir.
4. Sığorta bazarının profilaktik funksiyası - sığorta hadisəsinin qarşısının alınması və zərərin azaldılması daxildir.
5. İnvestisiya funksiyası - mövcud vəsaitlərin qiymətli kağızlara, bank depozitlərinə, daşınmaz əmlaka və digər aktivlərə yönəldilməsi yolu ilə əldə edilir.

Ümumiyyətlə sığorta insanların təhlükəsizlik, xüsusən iqtisadi təhlükəsizlik üçün ehtiyaclarını ödəyən xüsusi bir maliyyə xidmətidir. Sığorta ödənişi baş verən və ya baş verə biləcək risk sığortası şərtləri daxilində sığortalılar üçün fərdi olaraq göstərilən müəyyən bir xidmət növüdür. Eyni zamanda, tərəflər arasında sığorta müqaviləsi bağlandıqdan sonra sığorta müqaviləsində nəzərdə tutulmuş sığorta hadisələri baş verdikdə, sığortalıya sığorta haqqının ödənildiyi andan etibarən sığorta zərərin ödənilməsinin qarantı rolunda çıxış edir, sığorta müştərisinin dincliyinə, iş və ya şəxsi həyatına inamını təmin edir. Fərdi olaraq maddi olmayan sığorta xidmətlərinin - vədlər, qorunma zəmanətləri və s. təklifi hər zaman sığorta xidmətlərinə görə sığorta ödənişləri şəklində istehsal prosesindən əvvəl mümkün olur. Qeyd edilənlər sığorta bazarında sığorta xidməti təklifinin fərqli xüsusiyyətlərə malik olmasını göstərir.

Sığorta bazarının özünün də spesifik fəaliyyət xüsusiyyətləri mövcuddur və həmin xüsusiyyətlər aşağıdakı məsələlərdə özünü əhəmiyyətli şəkildə biruzə verir: təklif olunan sığorta xidməti təqdim

olunduğu qədər birtərəfli şəkildə mövcud deyil. Bu, sığorta şirkətləri tərəfindən xidmətləri eyni göründüyü fərqli yerlərdə iki satıcın təkliflərini müqayisə etməyi qeyri-mümkün edir. Müqayisə yalnız xidməti əldə etdikdən sonra mümkün olur, bazarlarda isə məhsullar müxtəlif yollarla müqayisə edilir: sınaq, sınaq alışları və s. Sığorta bazarında qeyd edilənlər baxımından mümkün ola biləcək yeganə məsələ gözlənilən faydaları müqayisə etməkdir. Bu baxımdan modernləşdirmə istiqamətindəki tədirlərə böyük ehtiyac var. Sığorta bazarının fəaliyyət mexanizminin modernləşdirilməsi həm dövlətin, həm də sığortaçıların aktiv fəaliyyətini şərtləndirir (1, s.42)

**Ədəbiyyatsiyahısı:**

1. Ataşov B.X., Ələkbərov Ə.Ə., Xudiyev N.N. Sığorta işi. Bakı 2018. 416 s
2. Xankişiyev B.A., Abdullayev P.N. Sığorta işi. Bakı, "Adiloğlu" nəşriyyatı - 2004, 186 s

## СТРАХОВОЙ РЫНОК И ЕГО ОСНОВНЫЕ ФУНКЦИИ

**Р.М. Джафарова**
**А. Э. Гасанлы**
**Азербайджанский Технологический Университет**
**ceyhunmammadli96@gmail.com**

Страховой рынок – это сфера, где страховые услуги продаются и покупаются как часть финансового рынка. К субъектам страхового рынка относятся страховые компании, страховые продукты, посредники, оценщики страховых рисков, объединения различных страховых компаний и страховщиков, а также государственные регуляторы рынка. Страховая деятельность в основном контролируется принудительным лицензированием, а также обеспечением финансовой устойчивости организаций.

## INSURANCE MARKET AND ITS MAIN FUNCTIONS

**R.M.Jafarova**
**A.E. Hasanli**
**Azerbaijan Technological University**
**ceyhunmammadli96@gmail.com**

The insurance market is an area where insurance services are sold and purchased as apart of the financial market. The subjects of the insurance market include insurance companies, insurance products, intermediaries, insurance risk assessors, associations of various insurance companies and insurers, as well as state market regulators. Insurance activity mainly controls the compulsory licensing, as well as ensuring the financial stability of organizations.

# DÖVLƏTIN STIMULLAŞDIRMA SIYASƏTI VƏ ONUN ƏSAS PRINSIPLƏRI

**R.M.Cəfərova**
**H.M.Heydərova**
**Azərbaycan Dövlət Aqrar Universiteti**
**heqiqet97_97@mail.ru**

Kənd təsərrüfatında dünyanın elmi-texniki tərəqqi təcrübəsi göstərir ki, bu sahə mühüm yeniliklər potensialına malikdir. Bu baxımdan aqrar sektorda dövlət tərəfindən innovasiya tətbiqinin stimullaşdırılması istiqamətlərinin müəyyənləşdirilməsi aqrar siyasətin prioritetlərindən hesab olunur. İnkişaf etmiş ölkələrdə kənd təsərrüfatı istehsalında artım ilk növbədə elmi və texnoloji nailiyyətlərin tətbiqi ilə təmin edilir. Dövlət dəstəyini nəzərədə tutan, xüsusilə də elmi-texniki tərəqqinin strateji istiqamətləri və fundamental tədqiqatlar, habelə elmi-texniki ideyaların yayılması istiqamətində tədbirlər innovativ inkişaf stimullaşdırma siyasətinin ən vacib tərkib hissəsinə çevrilir. Zənnimizcə aqrar sahədə iri biznesin dəstəklənməsi modernləşdirilməni daha da zəruri edəcək ki, bu da həmin istiqamətdə investisiya layihələrinin, bir tərəfdən daha az riskli, digər tərəfdən isə yüksək sosial və iqtisadi əhəmiyyətə malik olması ilə dövlət dəstəyinin bu sahələrin potensialı baxmından seçilməsini əhəmiyyətli edəcək.(2 səh 3)

Dövlətin stimullaşdırma siyasətinin əsas prinsiplərinə aşağıdakılar daxildir: qiymətlərin tənzimlənməsi, vergi güzəştləri, güzəştli kreditləşmə, dotasiya və subsidiyalar, kənd təsərrüfatı bazarının sabitləşdirilməsi və s.

Araşdırmalara əsaslanaraq kənd təsərrüfatının inkişafında aşağıdakı amillərdən istifadənin xüsusi əhəmiyyətini qeyd etmək olar:

- aqrar-sənaye sahələrinin məqsədyönlü büdcə maliyyələşdirilməsi; aqrar sahənin innovativ əsasda fəaliyyəti üçün təşkilati və iqtisadi mexanizmin formalaşdırılması;
- dövlət qurumlarının yeniliklərin tətbiqinin genişləndirilməsindəki rolunun gücləndirilməsi;
- aqrar-sənaye sferasının kompleks inkişafı üçün innovativ yönümlü proqramların hazırlanması;
- kənd təsərrüfatında istehsalçıların maarifləndirilməsi üçün təlim sisteminin təkmilləşdirilməsi.

Təhlil göstərir ki, aqrar sahənin iqtisadi inkişaf strategiyası, o cümlədən onun əsas hədəfləri, məqsədləri, innovativ proqramlara və layihələrə dəstək mexanizmləri, elmi imkanları səfərbər etməyi nəzərdə tutan dövlətin stimullaşdırma tədbirləri əsasında müəyyən edilir. Bu baxımdan kənd təsərrüfatının texniki və texnoloji modernləşdirilməsinin stimullaşdırlması yolu ilə ayrı-ayrı sahələrin effektiv və dinamik inkişafını təmin etmək mümkündür. Dövlət tərəfindən verilən güzəştli kreditlər, subsidiyalar, meliorasiya və irriqasiya işləri və regional infrastrukturun təkmilləşdirilməsi kənd təsərrüfatının inkişafını sürətləndirmişdir.(2 səh 2)

Elm və texnika nailiyyətlərinin tətbiqinin stimullaşdırılması ərzaq məhsulları istehsalı və eləcə də istehsal olunan məhsulların keyfiyyətinin yüksəldilməsi üçün yeni texnologiyaların yaradılması, tətbiqi

və yayılmasını əhatə edən proseslərin tərkib hissələrindən biridir.

Akademik Z.Zəmədzadənin fikrincə inkişaf etmiş ölkələr aqrar sahənin texniki səviyyəsinin,əməyin istehsal fondları ilə silahlanmasının yüksəkliyi ilə fərlənirlər ki,bu faktor da əmək məhsuldarlığı, mənfəətlik səviyyəsinin yüksək olmasına ciddi təsir etmiş olur (1). Dünya ölkələrində bu istiqamətlərdə kənd təsərrüfatı istehsalının dövlət tərəfindən stimullaşdırılması ən vacib üç əsas metodla həyata keçirilir: vergi güzəştləri (güzəştlər, tətillər, vergi kreditləri və s.); amortizasiya siyasəti yolu ilə təşviq; yeni məhsul növləri istehsalını həyata keçirən istehsalçılara birbaşa büdcə qrantları. Kənd təsərrüfatı istehsalının stimullaşdırma istiqamətinə ən mühüm tədbirlərdən biri də bu sahəyə elmi dəstəyinin maliyyələşdirilməsi və bunun sayəsində yeniliklərin inkişaf etdirilməsidir.

**Ədəbiyyatsiyahısı:**

1. Səmədzadə Z.Ə. Çin qlobal dünya iqtisadiyyatında, Bakı: "Elm və təhsil", 2009. 608 s
2.R.M. Cəfərova, Y.Ə.Abbasova Aqrar sahədə modernləşmə yeni iqtisadi inkişaf modelinin formalaşmasında əsas vasitədir. Iqtisadiyyatqəzetidekabr 2016-cı il, 48,49,50-saylı

## ГОСУДАРСТВЕННАЯ СТИМУЛИРУЮЩАЯ ПОЛИТИКА И ЕЕ ОСНОВНЫЕ ПРИНЦИПЫ

**Р.М.Джафарова**
**Х.М.Гейдарова**
**Азербайджанский Государственный Аграрный Университет**
**heqiqet97_97@mail.ru**

Мировой опыт научно-технического прогресса в сельском хозяйстве показывает, что эта область имеет потенциал для значительных инноваций. С этой точки зрения определение направлений стимулирования применения государством инноваций в аграрной сфере является одним из приоритетов аграрной политики. Рост сельскохозяйственного производства в развитых странах обеспечивается прежде всего за счет применения достижений науки и техники.

## STATE INCENTIVE POLICY AND ITS BASIC PRINCIPLES

**R.M.Jafarova**
**H.M.Heydarova**
**Azerbaijan State Agrarian University**
**heqiqet97_97@mail.ru**

The world's experience of scientific and technological progress in agriculture shows that this field has the potential for significant innovations. From this point of view, determining the directions of stimulating the application of innovations by the state in the agricultural sector is one of the priorities of agrarian policy. Growth in agricultural production in developed countries is ensured primarily through the application of scientific and technological achievements.

# AZƏRBAYCANDA TAXILÇILIĞIN INKIŞAF PERSPEKTİVLƏRİ

**S.R.Qarayeva**
**Azərbaycan Dövlət Aqrar Universiteti**
sabina.qaraeva@gmail.com, ruhiyye.qemberova@mail.ru

Ərzaq təhlükəsizliyini təmin edilməsində taxıl məhsulları əsas yerdədir. Məqalədə ölkədə taxılçılığın inkişaf səviyyəsi təhlil edilərək qiymətləndirilmişdir. Respblikada taxıl istehsalına təsir edən amillər müəyyən edilmiş və səciyyələndirilmişdir.Taxılçılığın inkişafını ləngidən əsas səbəblər araşdırılaraq ümumi nəticə əldə olunmşdur.

Bir çox ölkələrdə kənd təsərrüfatının tarixi taxıl istehsalı ilə başlayır. Aqrar sahənin sistemli inkişafı taxılçılığın inkişaf səviyyəsindən asılıdır. Daha çox istehlak olunan və başlıca qida məhsulu sayılan buğdanın, düyünün və digər dənli bitkilərin istehsalı və son istehlakçıya çatdırılması vəziyyəti ərzaq probleminin xarakterini müəyyənləşdirən əsas amildir.

Taxılçılığın inkişaf problemi mürəkkəb və çoxşaxəlidir, çünki o, bir çox təbii, iqtisadi, təşkilati, texnoloji, texniki və digər məsələləri özündə birləşdirir (3).

**Taxılçılığın inkişafının təhlili**

Statistikaya əsaslanaraq qeyd edək ki, 1913-cü ildə ölkədə ümumi əkin sahəsinin 87%-ni dənlilər təşkil etmişdir. İstehsal olnan taxıl daxili tələbatı ödəməklə yanaşı ixrac da olunurdu. SSRİ-nin tərkibinə daxil olduqdan sonra ümumi əkin sahələrinin strukturunda taxılın əkin sahəsi azlmağa başlamışdır. Artıq 1980-ci ildə bu göstərici azalaraq 37 % düşmüşdür (2). Müstəqillik əldə etdikdən sonra ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından problemin aradan qaldırılmasına başlandı. 2000 - ci ilin iyun ayında Azərbaycan hökuməti Avropa komissiyasının ərzaq təhlükəsizliyi proqramına qoşulmaq üçün memorandum imzalamışdır. Beləliklə, ölkədə Ərzaq Təhlükəsizliyi Proqramı hazırlanmış və ölkə prezidenti tərəfindən 2001 - ci il 2 mart tarixli sərəncamla təsdiq edilmişdir (1).

Ölkənin torpaq resurslarının, kənd təsərrüfatına yararlı sahələrin xeyli hissəsində məhz milli ərzaq təhlükəsizliyinin təminatının obyektiv zərurət olduğu hazırkı dövrdə, taxıl, yəni dənli və dənli paxlalı bitkilər əkilir. Dünyanın əsas taxıl ixracatçıları olan ölkələr əkinçiliyin inkişafının tarixi mərhələlərinin xüsusiyyətlərindən asılı olaraq müxtəlif strateji prioritetlər qəbul etsələr də, müqayisəli üstünlük amilini önə çəkirlər. Bu məqsədlə əsas istehsal vasitəsi kimi torpaq resurslarının vəziyyəti və onlardan istifadə səviyyəsi qiymətləndirilir. Müxtəlif bitkiçilik məhsullarının istehsalı və satışının səmərəliliyinin müqayisəli təhlili sayəsində əkin sahələrinin əlverişli strukturu müəyyənləşdirilir.

2016-2020-ci illər arası dənli və dənli paxlalı bitkilərin əkin sahəsi cəmi əkin sahəsinin təqribən 59-62% -i arasında dəyişib. 2019-cu ildə cəmi əkin sahəsinin 62.5%-i, 2020-ci ildə 60.6% dənli və dənli-paxlalıların payına düşmüşdür (2).

2016-cı illə müqayisədə 2020-ci ildə bütün təsərrüfat kateqoriyaları üzrə taxılın ümumi yığımı 6.2% artmışdır (cədvəl 1). Payızlıq və yazlıq buğda yığımı, təhlil dövründə 1.04 %, payızlıq və yazlıq arpa yığımı isə 6.8 % artmışdır. Ciddi artım darı, vələmir və çəltik kimi dənlilərdə özünü daha çox göstərir. 2019-cu ilə nisbətən 2020-ci ildə payızlıq və yazlıq arpa 0.4% və dən üçün qarğıdalı 10.9% artım olmuşdur. Digər göstəricilər üzrə ümumi yığımda azalma müşahidə olunub. Cədvəl

məlumatlarından göründüyü kimi məhsuldarlıq 2016-cı ilə nisbətən 2020-ci ildə 3,3% artmışdır.

**Cədvəl 1.2016-2020-ci illər üzrə təmizlənmədən sonrakı çəkidə, bütün təsərrüfat kateqoriyaları üzrə taxılın ümumi yığımı, məhsldarlığı və cəmi dənlilərlə özünütəminat səviyyəsi**

| İllər | ümumi yığımı (min ton) | Məhsuldarlıq (sent/ha) | Cəmi dənlilərlə (çəltik istisna olmaqla) özünütəminat səviyyəsi |
|---|---|---|---|
| **2016** | 2986,9 | 29,9 | 63,8 |
| **2017** | 2855,3 | 29,0 | 66,3 |
| **2018** | 3230,4 | 29,2 | 74,1 |
| **2019** | 3451,6 | 31,3 | 67,3 |
| **2020** | 3172,3 | 30,9 | 68,1 |

Mənbə: https://www.stat.gov.az/

Ümumən dənlilər üzrə özünütəminat səviyyəsi 2016-cı ilə nisbətən 2020-ci ildə artsa da ayrı-ayrı taxıl məhsulları üzrə göstəricilər fərqlidir. Belə ki, 2020-ci ildə buğda üzrə özünütəminat səviyyəsi 2016-cı ilə nisbətən 4,2% artaraq 57,1% olmuşdur. Arpa məhsulu üzrə təminat səviyyəsi 2016-cı ildə 101,7%, 2020-ci ildə isə 7.1 bənd azalaraq 94,6% olmşdur. Müqayisə olunan illər üzrə qarğıdalı və vələmir məhsulları üzrə göstəricilər artmışdır.

Təhlillər göstərir ki, hələ ki, daxili tələbatımızın ödənilməsi idxal hesabına baş verir. 2020-ci ildə idxal olunan buğdanın 82.7%-i Rusiya bazarından, 17.2%-i Qazaxıstan bazarından idxal olunmuşdur. Buğda ilə təminatda əsasən Rusiya bazarından asılıyıq. Ümumilikdə taxıl məhsullarının istehsalında və idxalında dinamikanın demək olar ki, dəyişməz qalması bu sahədə taxıl bazarının tam inkişaf etmədiyini və istehsala təsir gücünün aşağı olmasının göstəricisi kimi qəbul edilə bilər (2, 4).

Ölkəmizin bir çox regionlarının aqroiqlim potensialı taxılçılıqda yüksək məhsul almağa imkan verir və taxılçılıqda məhsuldarlığın artırılması üçün, ilk növbədə keyfiyyətli toxumun olması, alaq otlarına qarşı səmərəli mübarizə aparılması, gübrələrin lazımi miqdarda və optimal rejimdə tətbiq edilməsi, su-varma işinin səmərəli təşkili və s. zəruridir. Bu tələblərə əməl edilməsi üçün taxıl istehsalçıları üçün əlverişli mühit formalaşdırılmaqdadır.

Torpaq, iqlim, landşaft potensialından, tutmuş, marketinq və menecment istiqamətli tədqiqatlara qədər əhatəli araşdırmalar sayəsində yerli istehsal hesabına daxili bazarı taxıl məhsulları ilə təmin etmək imkanları kompleks surətdə öyrənilməli, taxıl istehsalçılarının problemləri araşdırılmalı, onların aradan qaldırılması üçün nəzəri-metodoloiji və institusional təkmilləşdirmə istiqamətləri əsaslandırılmalıdır.

**Açar sözlər:** taxılçılıq, taxıl bazarı, ərzaq təhlükəsizliyi.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respblikasının «Ərzaq təhlükəsizliyi üzrə Dövlət Proqramı» (02 mart 2001-ci il). http://www.e-qanun.az/framework/4467
2. Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi saytı -https://www.stat.gov.az/source/agriculture/
3. Алтухов, А. И. Экономика зернового хозяйства России / А. И. Алтухов. – М.: ООО «НИПКЦ Восход-А», 2010. – 800с
4. C. C. Allahverdiyeva, Azərbaycandataxilbazarınıninkişafistiqamətləri // "Kəndtəsərrüfatınıniqtisadiyyatı", elmi-praktikjurnal, 2021, № 3 (37) https://agroeconomics.az/pdf/articles/N3-2021-J.J.Allahverdiyeva.pdf

## ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ ЗЕРНОВОГО ХОЗЯЙСТВА В АЗЕРБАЙДЖАНЕ

**С.Р.Гараева**
**Азербайджанский Государственный Аграрный Университет**
**sabina.qaraeva@gmail.com**

Зернопродукты играют ключевую роль в обеспечении продовольственной безопасности. В статье анализируется и оценивается уровень развития зернового хозяйства в стране. Выявлены и охарактеризованы факторы, влияющие на производство зерна в стране.

**Ключевые слова:** зерноводство, рынок зерна, продовольственная безопасность.

## PERSPECTIVES OF DEVELOPMENT OF GRAIN FARMING IN AZERBAIJAN

**S.R.Garayeva**
**Azerbaijan State Agrarian University**
**sabina.qaraeva@gmail.com**
Grain products play a key role in ensuring food security. The article analyzes and evaluates the level of development of grain growing in the country. Factors affecting grain production in the country have been identified and characterized. The main reasons for the delay in the development of grain growing have been investigated and a general conclusion has been reached.
**Keywords:** grain growing, grain market, food security.

## AQRAR SAHƏDƏ IXRAC POTENSIALININ INKIŞAF ETDIRILMƏSI ISTIQAMƏTLƏRI

**A.N.Şükürlü**
**Azərbaycan Dövlət Aqrar Universiteti**
**shukurlu.aydan@mail.ru**
**ruhiyye.qemberova@mail.ru**

Məlumdur ki, hazırda heç bir ölkə dünya iqtisadiyyatından tamamilə təcrid olunmuş formada inkişafı mümkün deyil. Həmçinin, dünya ölkələri üçün istər aqrar sahə, istər sənaye, istərsə də xidmət sahəsi və s. ölkə əhalisinin yaşam tərzinin yüksəldilməsi baxımından xarici ticarət əlaqələrinin inkişafının böyük rolu var. Ölkələr əsasən, istehsalı ucuz başa gələn, lakin keyfiyyətcə dünya standartlarına cavab verən məhsulları istehsal edərək, istehsalı bir qədər yüksək xərc tələb edən məhsulları ixrac edirlər. Elə bu da, ölkələr arasında xarici ticarətin yaranmasına səbəb olur. Məqalədə aqrar sahənin ixrac potensialının mövcud vəziyyəti təhlil edilmişdir.

Müasir dünyada hər hansı bir ölkənin inkişafı, tərəqqisi onun digər ölkə-lərlə maddi və mənəvi dəyərlərə mübadiləsiz mümkün deyil. Hazırki dövrdə, hər bir dövlət daha mütərəqqi məhsul və xidmətlərdən ölkə hüdudları çərçivəsində yararlana bilmədiyi üçün beynəlxalq iqtisadi əlaqələrin qurulmasına mütləq ehtiyac duyur. Xarici iqtisadi əlaqələr bir neçə formada inkişaf edir. [4]

Qeyd edək ki,ölkədə aparılan ticarət siyasəti ilə, öncə Azərbaycanın ixrac potensialının yüksəlməsi baxımından dünyaya inteqrasiya prosesi sürətlənmişdir. Bu da xaricə məhsul ixracının artması ilə ölkəyə gələn gəlirlərin həcmində artıma səbəb olmuşdur. Ölkə rəhbərinin imzaladığı fərman və təsdiq etdiyi dövlət proqramları ilə dövlət strukturlarının işinin əsas prioritetini regionların inkişaf etdirilməsi təşkil etmişdir. Son illər ərzində ölkə iqtisadiyyatının əsas hərəkətverici qüvvəsi olan qeyri-neft sektorunun inkişafında mühüm nailiyyətlər əldə olunmuş, onun ümumi daxili məhsulda xüsusi çəkisi üstünlük təşkil etmiş, rəqabət qabiliyyətli və ixrac potensialı yüksək olan məhsulların istehsalı genişlənmişdir."Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında ixrac yönümlü iqtisadi model əsas götürülərək yüksək əlavə dəyər yaradan ixrac yönümlü iqtisadiyyata transformasiya mühüm məqsəd kimi müəyyən olunmuşdur.[1] Bu çərçivədə əsas vəzifələrdən biri qeyri-neft sektorunun yüksək inkişaf tempini qoruyub saxlamaqla onun ixrac imkanlarını genişləndirməkdir. Nəticədə xarici ticarətdə ixrac potensialının inkişafına aparan proseslər əhatə olunur. Yəni, bütün bunlar respublikada müəyyən zaman daxilində həyata keçirilməsi nəzərdə tutulan iqtisadi inkişaf strategiyasının əsas istiqamətlərini təşkil edir. Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 18 yanvar 2016-cı il tarixli "Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" sərəncamı ilə bu sahənin inişafına xeyli təkan vermişdir.[2] Sərəncəmın məqsədi, qeyri-neft məhsullarının ixracının stimullaşdırılması, rəqabət qabiliyyətli qeyri-neft məhsullarının istehsalı və ixracının, ənənəvi və yeni bazarlara çıxış imkanlarının artırılması, bu sahədə əlverişli şəraitin daha da genişləndirilməsidir.

Həmçinin xarici ticarət fəaliyyətinin tənzimlənməsi ilə bağlı olaraq, ixracın təşviqi fəaliyyətini də qeyd etmək zəruridir. Iqtisadiyyat Nazirliyi tərəfindən 2003-cü ildə yaradılan İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) qeyri-neft sektoruna investisiyaların cəlbi və qeyri-neft məhsullarının ixracının stimullaşdırılması məqsədilə fəaliyyət göstərir.

Məlumdur ki, 2020-ci ilin əvvəlindən yaranan pandemiya sürətlə yayılmağa başladı. Pandemiya

| Illər | Milyon ABŞ dolları ilə | | | | Əvvəlki ilə nisbətən faktiki qiymətlərlə, %-lə | | |
|---|---|---|---|---|---|---|---|
| | Ticarət dövriyyəsi | idxal | ixrac | Saldo | T/d | idxal | ixrac |
| **2016** | 21 596,6 | 8 489,1 | 13 107,5 | 4 618,4 | 92,7 | 89,6 | 94,4 |
| **2017** | 24 263,8 | 8 783,3 | 15 480,5 | 6 697,2 | 89,3 | 83,8 | 92,9 |
| **2018** | 31 782,7 | 11 465,9 | 20 316,8 | 8 850,9 | 100,5 | 100,2 | 100,7 |
| **2019** | 33 065,3 | 13 667,5 | 19 397,8 | 5 730,3 | 96,1 | 93,5 | 97,6 |
| **2020** | 24 201,1 | 10 730,7 | 13 470,4 | 2 739,7 | 78,1 | 64,0 | 88,0 |

nəticəsində iqtisadiyyatın müxtəlif bölmələrində yaranan problemlər xarici ticarət dövriyyəsinə də öz təsirini etmişdir. Bu baxımdan, xarici ticarət dövriyyəsi həcm və dəyər baxımında azalma müşahidə edilmişdir.

**Təhlil.** Hazırda dünyada baş verən iqtisadi inkişaf və inteqrasiya prosesləri respublikamızın digər ölkələrlə ticarət əlaqələrinin genişlənməsini zəruri edir. İlk öncə ölkənin hansı ölkələrlə daha çox iqtisadi əlaqədə olduğunu və hansı ölkələrdən iqtisadi asılılıqda olduğunu ortaya çıxarır. Bu baxımdan ölkənin xarici iqtisadi göstəricilərini dinamikasını nəzər salmaq lazımdır.

**Cədvəl 1.**

**Xarici ticarət dövriyyəsinin dinamikası**

Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları

Statistik göstəricilərə əsasən 2020-ci ildə xarici ticarət dövriyyəsi əvvəlki illərə nisbətən azalaraq 24201, mln. ABŞ dolları olmuşdur. Bu azalmanın əsas səbəbi bütün dünyada yaranan pandemiya səbəb olmuşdur. Onu da qeyd edək ki, ÜDM-un həcmindən də 2020-ci ildə azalma olsa da artıq 2021- ci ildə isə 92857,7 mln manat olmuşdur. 2019-cu ildə Azərbaycan $943,3 milyon dəyərində kənd təsərrüfatı məhsulları ixrac edib ki, bu da 2018-ci ilin göstəricisi ilə müqayisədə 14,1% çoxdur. Qeyri neft-qaz məhsulları üzrə ixracın dəyərində Rusiyaya (32,4 faiz), Türkiyəyə (24,8 faiz) kimi ölkələrin payı daha üstünlük təşkil edir.[3] Qeyd edək ki, ölkənin kənd təsərrüfatı və ərzaq məhsulları üzrə ixracında əsas yeri pomidor, pambıq (mahlıc, iplik və pambıq parçalar nəzərə alınmaqla), fındıq, xurma və gilas (albalı

da daxil olmaqla) tutur. Ölkəmiz müəyyən mənada əsasən bu kənd təsərrüfatı məhsullarının ixracı üzrə ixtisaslaşmışdır. Həmçinin, mövcud potensialı tam və səmərəli həyata keçirmək üçün dövlətin təbii mühitinə uyğun olaraq bütün ixracat mərkəzlərinə uyğun olaraq formalaşdırılması üçün mexanizmlər yaratmaq lazımdır.

Nəticə. İxraca yönəldilmiş məhsullar üçün xammal istehsalçılarına subsidiyaların köçürülməsi, eyni zamanda, müvafiq istehsal sahəsinin kənd təsərrüfatının digər sahələrində rəqabət qabiliyyətinə malik olmasına gətirib çıxarır.Torpaq sahəsinin ixrac potensialını yaratmaq üçün yaradılmış maliyyə sahələrinin məqsədəuyğun həyata keçirilməsi üçün əsas şərt bu sahədə işlərin aparılması ilə əlaqədardır.

**Açar sözlər:** xarici ticarət, ixrac, idxal, ticarət dövriyyəsi, aqrar sahə və s.

**Ədəbiyyatsiyahısı:**

1.Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli 800 nömrəli “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası

2. Azərbaycan Respublikası Prezidentinin 18 yanvar 2016-cı il tarixli “Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” sərəncamı

3.Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları-2020

4.ƏləsgərovA.K., AMEA İqtisadiyyat institutu. Bakı-2015, s.14-18

## НАПРАВЛЕНИЯ РАЗВИТИЯ ЭКСПОРТНОГО ПОТЕНЦИАЛА В АГРОПРОМЫШЛЕННОМ КОМПЛЕКСЕ

**А.Н.Шукурлу**
**Азербайджанский Государственный Аграрный Университет**
**shukurlu.aydan@mail.ru**
**ruhiyye.qemberova@mail.ru**

Известно, что в настоящее время ни одна страна не может развиваться в полной изоляции от мировой экономики. Также для стран мира, будь то аграрный сектор, промышленность, сфера услуг и так далее. Развитие внешнеторговых связей имеет большую роль в повышении уровня жизни населения страны. Страны в основном экспортируют недорогую, но качественную продукцию, соответствующую мировым стандартам. Это приводит к возникновению внешней торговли между странами. В статье анализируется современное состояние экспортного потенциала агропромышленного комплекса.

**Ключевые слова**: внешняя торговля, экспорт, импорт, товарооборот, аграрный сектор и др.

## DIRECTIONS FOR DEVELOPING EXPORT POTENTIAL IN THE AGRICULTURAL SECTOR

**A.N.Shukurlu**
**Azerbaijan State Agrarian University**
**shukurlu.aydan@mail.ru**
**ruhiyye.qemberova@mail.ru**

It is known that at present no country can develop in complete isolation from the world economy. As well as for the countries of the world, whether it is the agricultural sector, industry, service and so on.

The development of foreign trade relations has a great role in terms of improving the living standards of the country's population. Countries mainly export low-cost but high-quality products that meet world standards. This leads to the emergence of foreign trade between the countries. The article analyzes the current state of the export potential of the agricultural sector.

**Keywords:** foreign trade, export, import, trade turnover, agrarian sector, etc.

## MÜƏSSİSƏLƏRDƏ LİKVİDLİYİN ƏHƏMİYYƏTİ VƏ HESABLANMASI

**dos. X.M.Mehdiyev, A.Ş.Məmmədov**
Azərbaycan Texnologiya Universiteti
afiyddinmdov@gmail.com

Mühasibat uçotunda likvidlik aktivlərin tez və asanlıqla pula (valyutaya) çevrilmə qabiliyyəti və müəssisənin qısamüddətli öhdəliklərini (bir ildən az müddətdə) ödəmək qabiliyyətinin ölçüsüdür. Müəssisələrin fəaliyyət göstərmələri üçün pul vəsaitlərinə ehtiyacları vardır. Satışları olsa belə müəssisənin pul vəsaitləri olmadıqda fəaliyyətinin davamlılığına müvəffəq ola bilməyəcəklər. Likvidlik müəssisələrin və ya şirkətlərin qısamüddətli maliyyə öhdəliklərini ödəmək qabiliyyətini yoxlamaq üçün istifadə etdiyi ölçüdür. Likvid aktivlər tez və asanlıqla pula (valyutaya) çevrilə bilir. Sağlam likvidlik müəssisənin maliyyə çətinliklərinin öhdəsindən gəlməyə və maliyyə vəziyyətini yaxşılaşdırmağa kömək edir.

Müəssisələr öz fəaliyyətlərini idarə etmək, məhsul istehsal etmək və ya başqa üsullarla dəyər yaratmaq üçün aktivlərdən istifadə edirlər. Aktivlərə avadanlıq və ya əqli mülkiyyət kimi şeylər daxil ola bilər. Aktivin likvid hesab edilməsi üçün onun çox saylı maraqlı alıcıları olan, tələb və təklifin kəsişdiyi nöqtə, yəni bazarı olmalıdır. Eləcə də aktiv mülkiyyət hüququnu asanlıqla və tez ötürmək qabiliyyətinə malik olmalıdır. Likvidliyi yoxlamaq üçün lazım olan məlumatlar müəssisənin balans hesabatındakı məlumatlardır. Adətən aktivlər onların nə qədər tez nağd pula çevrilə bilmələri əhəmiyyətinə görə sıralanır. Beləliklə, balans hesabatının yuxarı hissəsində ən likvid aktivlər dayanır. Həmçinin balans hesabatında müəssisənin öhdəlikləri də yer almaqdadır. Öhdəliklər də adətən onların ödəmə vaxtına görə qeyd olunur. Qısamüddətli öhdəliklər kassada olan pul vəsaitləri və digər likvid aktivlərlə müqayisə etmək biznes fəaliyyətinin maliyyə vəziyyətini daha yaxşı başa düşməyə, likvidlik ölçülərini və əmsallarını düzgün hesablamağa kömək edir.Müəssisənin sahib olduğu aktivlərin maliyyə dəyəri var. Likvidlik lazım gələrsə, həmin pula nə qədər tez dəyişə biləcəyini göstərir. Aktivlər öz likvidliyinə görə dəyişir. Məsələn, şirkətin sahib olduğu bina da kapitalı ola bilər. Lakin bu kapital çox likvid deyil, çünki pula çevrilməsi çətindir. Digər tərəfdən gələcəkdə satılmağı gözlənilən aktiv bir o qədər də likvid aktiv hesab olunmur. Baxmayaraq ki o, hələ də nağd pul kimi likvid deyil, çünki səhimlərin satışı zamanı

gözlənilməz hallar yarana və likvidliyin baş verməsini dayandıra bilər. Likvidliyin ölçülməsi müəssisə və ya şirkətin hazırda maliyyə vəziyyəti haqqında məlumat verə bilər. Likvidliyin müntəzəm olaraq ölçülməsinin bəzi üstünlükləri var:

- Biznesin maliyyə vəziyyətini öyrənməyə kömək edir. Maliyyə öhdəliklərini yerinə yetirmək üçün kifayət qədər pul olmalıdır. Likvidliyin ölçülməsi düzgün tarazlığı tapmağa, müəssisənin maliyyə vəziyyətini qiymətləndirməyə kömək edir.
- Kredit və ya digər maliyyələşdirməni təmin edir. Banklar və investorlar müəssisə və ya şirkətin borcunu ödəmək qabiliyyətini təyin edərkən likvidlik əmsalına diqqət yetirirlər.
- Digər müəssisə və ya şirkətlərlə müqayisə etməyə kömək edir. Bazardakı digər oxşar və yüksək performanslı müəssisə və ya şirkətlərin nə etdiyini izləməklə hədəflər təyin edir.

Müəssisələr likvidliyi ölçmək üçün üç likvidlik əmsalından istifadə edir. 1. cari likvidlik əmsalı, 2. qısa likvidlik əmsalı, 3. pul nisbəti.

Cari likvidlik əmsalı - əsasları dövriyyə kapital əmsalı kimi də tanınan cari nisbət, müəssisənin bir il ərzində ödəməli olduğu qısamüddətli öhdəliklərini yerinə yetirmək qabiliyyətini müəyyən edir və "CARİ LIKVIDLIK ƏMSALI = QISAMÜDDƏTLİ AKTİVLƏR/ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR" kimi hesablanır.

Bu nisbət nə qədər yüksək olarsa, müəssisənin maliyyə vəziyyət bir o qədər yaxşı olar və maliyyə öhdəliklərini yerinə yetirmək qabiliyyəti də bir o qədər güclü olar.

Qısa likvidlik əmsalı – dövriyyə aktivlərinin hesabblanmasında, yalnız ən likvid aktivlərdən istiadə edilir. Pul vəsaitləri, satıla bilən qiymətli kağızlar və debitor borcları və s. kimi. Qısa likvidlik əmsalı üçün iki düstur var.

1) QISA LİKVİDLİK ƏMSALI = (NAĞD PUL+SATILA BİLƏN QİYMƏTLİ KAĞIZLAR+DEBİTOR BORCLAR) / QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR

2) QISA LİKVİDLİK ƏMSALI = (QISAMÜDDƏTLİ AKTİVLƏR-EHTİYATLAR) / QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR

Yenə də, nisbət nə qədər yüksək olarsa, müəssisə üçün maliyyə öhdəliklərini yerinə yetirmək bir o qədər asan olur.

Pul nisbəti – qısa likvidlik əmsalından daha asandır. Yalnız pul vəsaitlərini cari öhdəliklərlə müqayisə edir. Əgər müəssisə öz maliyyə öhdəliklərini başqa aktivləri satmağa ehtiyac olmadan sadəcə nağd pul hesabına ödəyə bilərsə, bu son dərəcə yaxşı maliyyə vəziyyətidir. Pul nisbəti "PUL NİSBƏTİ = NAĞD PUL VƏSİTİ / CARİ ÖHDƏLİKLƏR" kimi hesablanır.

Yuxarıda sadalanan likvidlik nisbətləri müəssisənin səhimlərinə investisiya qoymağa və ya korporativ istiqrazlarını almaq barədə qərarın əsas amillərindən birini ifadə edir. Yüksək likvidlik əmsalları müəssisənin borcunu ödəmək üçün yaxşı maliyyə bazasının olduğunu göstərir. Aşağı likvidlik əmsalları müəssisələrin xüsusi bazarlarda və ya ümumi iqtisadiyyatda geriləməsi baş verərsə, defolt (borclar üzrə faiz və ya əsas məbləğin ödənilməsinə dair öhdəliyin yerinə yetirilməməsi) ehtimalının daha yüksək olduğunu göstərir. İstifadə edilən likvidlik nisbətləri nə olursa olsun 1) müəssisə üçün 1 nisbətindəki dəyər, cari öhdəliklərlə bərabər cari aktivlərə malik olduğunu göstərir, 2) müəssisə üçün 1-dən yuxarı nisbətdəki dəyər, cari öhdəliklərdən daha çox cari aktivlərə malik olduğunu göstərir, 3) müəssisə üçün 1-dən aşağı nisbətdəki dəyər, cari aktivlərdən daha çox qısamüddətli öhdəliklərə malik olduğunu və maliyyə öhdəliklərini yerinə yetirmək qabiliyyətində olmadığını göstərir. Müəssisənin likvidlik nisbəti 1-dən aşağı olduqda bu müəssilər üçün likvidlik riski yaradır. Likvidlik riski dedikdə müəssisə və ya şirkətlərdə kreditorların tələblərini vaxtında və lazımı dərəcədə qarşılaya biləcək maliyyə vəsaitinə sahib olmamasıdır. Son olaraq onu demək olar ki, müəssisələrdə likvidliyin hesablanması və onun daim diqqətdə saxlanması vacib məsələdir. Likvidlik mühasibat balansındakı aktiv hissəyə aiddir. Müəssisə üçün likvidliyin nisbət dəyəri nə qədər yüksək olarsa, müəssisə üçün bir o qədər faydalı olar.

**Ədəbiyyatsiyahısı:**
1. ACCA, Caspian Plaza, GRBS-I nəşr, f3-mühasibat uçotunun əsasları(beynəlxalq), 2010
2. www.invest.az
3. V. Quliyev, R. Fətullayev, A. Kərimov "Beynəlxalq uçot və hesabata giriş. (GAAP və İFRS əsasında)" II nəşr, Bakı, "Nurlar" Nəşriyyatı Poliqrafiya Mərkəzi, 2012, 280 səh.
4. www.mühasib.az
5. www.mühasibat.az

**ЗНАЧЕНИЕ И РАСЧЕТ ЛИКВИДНОСТИ НА ПРЕДПРИЯТИЯХ**

**Х.М.Мехтиев, А.Ш.Мамедов**
**Азербайджанский Технологический Университет**
**afiyddinmdov@gmail.com**

В статье подчеркивается сущность ликвидности и ее значение в бухгалтерском учете. Рассмотрены способы, виды и методы расчета ликвидности на предприятиях.

**IMPORTANCE AND CALCULATION OF LIQUIDITY IN ENTERPRISES**

**X.M.Mehdiyev, A.Sh.Mammadov**
**Azerbaijan Technological University**
**afiyddinmdov@gmail.com**

The article emphasizes the essence of liquidity and its importance in accounting. Ways, types and methods of calculating liquidity in enterprises are considered.

# BIZNESIN INKIŞAFINDA KADR POTENSIALINDAN SƏMƏRƏLI ISTIFADƏ OLUNMASININ MÜASIR PROBLEMLƏRI

**S.İsmayılova**
**G.Əsgərova**
**Azərbaycan Texnologiya Universiteti**
**gunelesgerova2000@gmail.com**

Məqalədə biznesin inkişafında kadr potensialından səmərəli istifadə olunmasının müasir problemləri işıqlandırılmışdır.

Biznesdə kadr potensialından istifadə, işçilərlə ən səmərəli və sərfəli əməkdaşlıq münasibətlərinin qurulması və gözlənilən nəticələrin əldə edilməsi mümkün olan metodlar, alətlər və digər vasitələrdir.

Biznesin inkişafında ardıcıl həll tələb edən problemlər sırasında kadr çatışmazlığının aradan qaldırılması da yer alır. Bu problem, əvvəllər, ixtisaslı kadr çatışmazlığından əziyyət çəkən təşkilatlar və müəssisələr üçün xüsusilə aktualdır. Bu təşkilat və müəssisələrdə insan resursları ilə doyma problemlərinin tədqiqi heyətin cəlb edilməsi və saxlanılması üçün tətbiq olunan motivasiyanın əhəmiyyətli dərəcədə çatışmazlığını və qeyri-sistemliliyini nümayiş etdirir.

İxtisaslı kadr çatışmazlığı problemi,öz növbəsində, yeni problemlər yaradır:

1. Tələb olunandan daha aşağı ixtisasa malik kadrların cəlb edilməsi göstərilən xidmətlərin keyfiyyətinə olan tələbləri əhəmiyyətli dərəcədə azaldır;

2. Kompensasiya edilməmiş kadr çatışmazlığı işçilərin həddindən artıq yüklənməsinə səbəb olur. Bu, təkcə xidmətlərin keyfiyyətinə təsir etmir, həm də onların məmnunluğunu azaldır. İşçilərin məmnun olmayan hissəsi daha az idarəolunan olur, fəaliyyətin sosial və peşəkar orientirlərini itirir, bu, maksimum iş həcmini yerinə yetirmək ehtiyacı ilə əvəz olunur;

3. İşçilərin həddindən artıq yüklənməsi inkişaf və öyrənmək üçün vaxt ayırmağa imkan vermir;

4. Həddindən artıq iş yükü heyətin həm fiziki, həm də psixosomatik xəstəliklərinə gətirib çıxarır, peşə tükənməsini artırır;

5. Kadrların heterogenliyi və onların dövriyyəsi kollektiv dəyərlərin formalaşmasına, vahid

kollektivin yaradılmasına mane olur;

6. Xidmətlərin keyfiyyəti aşağı düşür, təşkilat "əlverişsiz" statusu alır, müştərilərini və əməkdaşlarını itirir. Bu faktorlarla yanaşı, insanlarla işləməkdə obyektiv çətinlik yaranır ki, bu da əməyin təşkilinə və şəxsi heyətin psixoloji relyefinə konkret yanaşma tələb edir. Kadr çatışmazlığı şəraitində əməkdaşlara və onların işinə tam diqqəti təmin etmək mümkün olmur.

Kadr potensialından istifadənin səmərəliliyini necə artırmaq olar?Göründüyü kimi, sürətlə dəyişən, məhsulların və istehsal sahələrinin getdikcə daha tez köhnəldiyi dünyada ən mühüm kapital və biznes resursu məhz insanlardır - "insan kapitalı", şirkətin kadrlarıdır. Bu onunla bağlıdır ki, müasir şəraitdə biznes yalnız daimi, permanent innovasiyalar - ideyaların yaradılması və həyata keçirilməsi ilə uğurla inkişaf edə bilər. Məlum olduğu kimi, ideyaları yaradan və həyata keçirən insanlardır; bu zaman, ideyalar və bu ideyaların daşıyıcıları üçün adekvat maliyyə dəstəyini təmin etmək məqsədilə, vençur maliyyələşdirmə sistemi kifayət qədər səmərəli şəkildə inkişaf etdirilməlidir.

Eyni zamanda məlumdur ki, hətta ən qabaqcıl şirkətlərdə və ən inkişaf etmiş ölkələrdə də insan kapitalından istifadə son dərəcə səmərəsizdir (5-10%, hətta daha az səmərəliliklə).

Buna görə də, biznesin idarə edilməsinə yeni yanaşmanın ən mühüm vəzifəsi insan kapitalından istifadənin səmərəliliyinin keyfiyyətcə (yəni, bəzən, hətta onlarla dəfə) artırılmasıdır (öz növbəsində, biznesin maliyyə səmərəliliyini - maliyyə kapitalının səmərəliliyini - və nəticədə şirkətin gəlirliliyini və dəyərini kəskin şəkildə artıracaqdır). Başqa sözlə desək, şirkətin hər bir əməkdaşının yaradıcı potensialından maksimum dərəcədə səmərəli istifadə etmək, eləcə də bu potensialın maksimum dərəcədə tez böyüməsi və inkişafı üçün bir sistem qurmaq lazımdır.

**Mövzunun aktuallığı.** Dünyada ən mühüm kapital və biznes resursu məhz insanlar - "insan kapitalı" olduğu üçün biznesin inkişafında kadr potensialından səmərəli istifadə mühüm aktuallıq kəsb edir.

**Tədqiqatın məqsədi.**Biznesin inkişafında kadr potensialından səmərəli istifadə olunmasının müasir problemlərini və onların həlli yollarını göstərmək.

**Tədqiqat obyekti.** Təşkilatın,müəssisənin və ya hər hansı bir qurumun inkişafında mühüm rol oynayan kadr potensialı.

**Tədqiqat metodu.** Biznesin inkişafında kadr potensialından səmərəli istifadə olunmasının analitik təhlil metodu.

**Ədəbiyyat siyahısı:**

1. Ç.İsmayılov,Ə.Abdullayev, G.Qurbanova, X.Hüseynova, E.Zeynalova, F.Nağıyev, M.Seyidzadə, A.Həsənov. Davamlı inkişaf naminə kadr potensialının təkmilləşdirilməsi: Azərbaycan modeli. – Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2018. – 252 səh.
2. Курамысова А.О. Альтернативный менеджменткак совершенно новая система управления компании //АльПари, 2010. - №4. - С. 91-94.

## СОВРЕМЕННЫЕ ПРОБЛЕМЫ ЭФФЕКТИВНОГО ИСПОЛЬЗОВАНИЯ ЧЕЛОВЕЧЕСКОГО ПОТЕНЦИАЛА В РАЗВИТИИ БИЗНЕСА

**С.Исмайлова**
**Г.Аскерова**
**Азербайджанский Технологический Университет**
**gunelesgerova2000@gmail.com**

Уровень развития персонала непосредственно влияет на конкурентные возможности фирмы и ее стратегические преимущества.

## CONTEMPORARY PROBLEMS OF EFFECTIVE USE OF HUMAN POTENTIAL IN BUSINESS DEVELOPMENT

**S.Ismayilova**
**G.Asgarova**
**AzerbaijanTechnologicalUniversity**
gunelesgerova2000@gmail.com

The level of staff development directly affects the competitive capabilities of the company and its strategic advantages.

## TÜRKIYƏ AZƏRBAYCANDA MÜSTƏQIL AUDITIN STATUSU VƏ MÜQAYISƏSI

**S.E.Məmmədova, M.M.Hüseynov**
**Azərbaycan Texnologiya Universiteti**
sevda-eliyeva-83@mail.ru

Audit- əmtəə istehsalı və satışı, xidmət göstərilməsi və iş görülməsi ilə məşğul olan təsərrüfat subyektlərində mühasibat uçotunun dəqiq və dürüst aparılmasının, mühasibat və maliyyə hesabat larının müstəqil yoxlanılmasıdır. Audit aktivlərin, öhdəliklərin, xüsusi vəsaitlərin və maliyyə nəticələrinin düzgün, bütöv və dəqiq əks etdirilməsini müəyyənləşdirmək məqsədi ilə qüvvədə olan qanunvericiliyə uyğun sürətdə iqtisadi subyektlərin tərtib etdikləri illik maliyyə hesabatla rının müstəqil yoxlanmasını nəzərdə tutur. Auditin əsasını dövlətin, müəssisənin müdriyyətinin və onun sahiblərinin ( əmanətçilərin, səhmdarların) qarşılıqlı marağı təşkil edir. Bir sıra ölkələr də audit dedikdə, müəssisələrin yoxlanılması və omum maliyyə hesabatı haqqında fikir söylənil məsi başa düşülür. Amerika İctimai Mühasiblər Assosiasiyası auditi aşağdakı kimi müəyyən Audit, iqtisadi fəaliyyət və hadisələr haqqında ifadələrlə əvvəlcədən müəyyən edilmiş meyarlar arasında altuallıq dərəcəsini müəyyən etmək üçün bu iqtisadi fəaliyyətlər vəhadisələr haqqında ifadələrə dair rəyləri qərəzsiz əldə etmək, qiymətləndirmək və sistematik ünsiyyət prosesidir. Audutin növləri aşağdakılardır:

1. Daxili audit
2. Kənar audit
3. Vergi auditi
4. Ətraf mühit auditi

**Daxili audit**- təsərrüfat subyektinin fəaliyyətinin inkişafına və səmərəliliyinin yüksəldilməsinə yönəldilmiş risklərin idarə olunması, nəzarət və idarəetmənin səmərəliyinin qiymətləndirilməsi və inkişafına sistemli yanaşmaqla, təsərrüfat subyektinə öz məqsədlərinə nail olmaqda köməklik edən ob-yektiv, təminatverici və məsləhətverici fəaliyyətdir.

**Kənar audit**- müstəqil bir audit təşkilatı tərəfindən bir təsərrüfat subyekti ilə müqavilə əsasında bit təsərrüfat subyektinin maliyyə hesabatlarının əhəmiyyətli təhriflərdən azad olduğuna dair əsaslı əminlik əldə etmək və bu barədə fikir bildirmək məqsəd ilə aparılan yoxlama autitor hesabatının formasıdır. **Vergi auditi**- təsərrüfat subyektinin mühasibat və vergi hesabatlarına baxılması üçün qanunveri cilikla müəyyən edilmiş normalara etibarlılıq dərərcəsi və uyğunluğu barədə rəy bidirmək üçün audit təşkilatı tərəfindən xüsusi auditin tapşırığının icrası təsərrüfat subyekti tərərfindən müxtəlif səviyyəli büdcələrə və büdcədənkənar fondlara vergi və digər ödənişlərin formalaşdırılması, uçotu və ödənliməsi **Ətraf mühit auditi**- sahibkarlıq subyekti tərəfindən və digər fəaliyyətlərin ətraf mühitin mühafi zəsi sahəsində tənzimləyici tələblərə uyğunluğun mustəqil qiymətləndirilməsi və ətraf mühitin mühafizəsi sahəsində tövsiyələrin hazırlanması.

Bəs müstəqil auditin məqsədi nədir? Müstəqli auditin məqsədi- maliyyə hesabatları standartları na uyğun hesabatlar, müəssisənin maliyyə vəziyyəti və fəaliyyətinin nəticələri maddi aspektləri, doğru və dəqiq olub-olmaması barədə müstəqil auditorun rəyi xəbərdar etməkdir. İctimai nəzarətə gəldikdə ictimai nəzarət sahəsində beynəlxalq tələbi olaraq Yeni Türk Məcəlləsinəuyğun olaraq nəzərdə tutulan müstəqil audit sahəsini tənzimləmək üçün 2 noyabr 2011-ci iltarixdə 660 saylı Fərmanı ilə yaradılmışdır. POA- əsas məqsədi audit hesabatlarının düzgün və müstəqil hazırlanmasında investorlarin maraqlarını və ictimai maraqları qorumaq, düzgün, etibarlı müqayisə edilə bilən maliyyə məlumatlarını təmin etməkdir. Bu istiqamətdə iri miqyaslışirkətlərin, xüsusilə lizinqdə olan şirkətlərin, bankların, sığorta şirkətlərinin auditlərinə nəzarət etmək və monitorinq etmək məqsədilə yaradılmışdır.

Bu, Baş Nazirliyə bağlı, inzibati muxtariyyətə malik bir Ali Şuradır. Azərbaycan da isə auditin inkişafı SSRİ dövründən formalaşıb. Belə ki, 1994-1996-cı illərdə Azərbaycan Respublikasında audutin beynəlxalq standartlara uyğun bir xidmət kimi formalaşdırılması üçün normativ hüquqi tədbirlər həyata keçirilmişdir. Azərbaycan Respublikasının Auditorlar Palatasının məqsədi- formasından asılı olmayaraq müəssisələrin maliyyə və mühasibat uçotunun düzgün və dürüst aparılmasını təmin etmək məqsədilə Azərbaycan Respublikasında audit xidməti biznesin yaradılması mövcud qanunvericiliyə uyğun inkişafı üzrə tədbirlərin həyata keçirilməsindən ibarətdir. Türkiyə Respublikasında müstəqil auditor olmaq üçün aşağdakı şərtlər tələb olunur.

1. Hüquq, iqtisadiyyat, maliyyə, biznesin idarə edilməsi, mühasibat uçotu, bank işi, dövlət idarə çiliyi və siyasi elmlər üzrə təhsil verən kollec və fakültələrdən və ya xarici ali təhsil ekvivalenti Ali Təhsil Şurası tərəfindən təsdiqlənir.

2. Peşə üzvü olması

3. Türkiyə Respublikası ərazisində yaşamaq

4. Mülki hüquqlardan istifadə etmək qabiliyyətinə malik olmaq

5. Praktik peşə hazırlığını tamamlamaq

Müstəqil audit peşəsinin tələb etdiyi ləyaqət və şərəfə uyğun gəlməyən şirkət, vəziyyətin olmaması, mənfi reputasiya olmaması daşınması lazımdır. Bir sözlə Türkiyə və Azərbaycanda formalaşan auditin inkişafı müasir dövr üçün mühüm əhəmiyyət kəsb edir.

**Mövzunun aktuallığı.** Mövzu üzrə Azərbaycan və Türkiyə də müstəqil audit araşdırılıb, yazılanlara istinadən iki ölkə arasında formalaşan auditin inkişafı əks olunmuşdur.

**Tədqiqatın məqsədi.** Müstəqil auditin yaranmasında iştirak etmiş elementlərin və əsas faktor ların öyrənilməsidir.

**Tədqiqat obyekti**. Müstəqil auditin statusu və iki ölkə arasında müqayisəsi.

**Tədqiqat metodu.** Müstəqil auditin yaranmasında iki ölkə arasında formalaşan auditin muqayisə edilməsi metodları.

**Açar sözlər:** audit anlayışı, iki ölkə arasında müqayisəsi, müstəqil auditin statusu.

**Ədəbiyyat siyahısı:**

1. Korporativ Muliyyətin Müasir Auditi ( Vəliyev Anar Cümşüd oğlu-2012)
2. Auditin əsasları ( Mühazirələr)
3. Audit CAP-CİPA
4. " Türkiyə Azərbaycanda müstəqil auditin statusu və müqayisəsi"-nə dair dos. BurcuDoğanıntezisi

**СОСТОЯНИЕ И СРАВНЕНИЕ НЕЗАВИСИМОГО АУДИТА В ТУРЦИИ, АЗЕРБАЙДЖАНЕ**

**С.Э.Мамедова, М.М.Гусейнов**
**Азербайджанский Технологический Университет**
sevda-eliyeva-83@mail.ru

В статье рассматривается статус и сравнение независимого аудита Турции в Азербайджане.

**STATUS AND COMPARISON OF INDEPENDENT AUDIT IN TURKEY AZERBAIJAN**

**S.E.Mammadova, M.M.Huseynov**
**Azerbaijan Technological University**
sevda-eliyeva-83@mail.ru

İn the article, Turkey discusses the status and comparison of independent audit in Azerbaijan.

# AZƏRBAYCANDA SAHİBKARLIĞIN MALİYYƏ TƏMİNATI PROBLEMLƏRİ

**S.İsmayılova**
**Ü.M.Poladlı**
**Azərbaycan Texnologiya Universiteti**
Upoladli94@mail.ru

Sahibkarlıq fəaliyyəti, sivilizasiyalı bazar iqtisadiyyatının formalaşmasının ən mühüm struktur komponentlərindən biridir. Fiziki və hüquqi şəxslərin mənfəət əldə etməsi məqsədilə qanunvericiliklə qadağan olunmayan təsərrüfat fəaliyyətinin bütün növləri, eyni zamanda, məhsul istehsalı, satışı və xidmət göstərilməsi formasında reallaşdırılan müstəqil təşəbbüskarlıq fəaliyyəti dedikdə,sahibkarlıq fəaliyyəti başa düşülür. [1,s.56]

Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafına mane olan faktorlardan ən başlıcası biznesin maliyyə resursları ilə təminatının zəif olmasıdır. Ölkədə aparılan tədqiqatlara və sorğu nəticələrinə müvafiq olaraq, kiçik və orta sahibkarlığın maliyyə probleminin daha çox daxili imkanlar hesabına həll olunduğu təyin olunub. KOS-lar məhdud resursla, riski və gəliri az, lakin özü etibarlı olan fəaliyyətə meyl edirlər. Biznesini böyütmək istəyən müəssisələr isə daha çox xarici maliyyə mənbələrinə üstünlük verirlər. [3,s.7]

Banklar və bank olmayan kredit təşkilatları Azərbaycanda fəaliyyət göstərən KOS-ların daha çox üstünlük verdikləri təşkilatlarıdır. Dünyada kiçik və orta sahibkarlığın geniş maliyyələşmə mexanizmlərinin mövcudluğuna baxmayaraq, Azərbaycanda sahibkarlığın xarici maliyyələşmə mənbəyi kimi, əsasən, kreditlərdən istifadə edilir.

Bank olmayan kredit təşkilatlarının verdiyi kreditlər kiçik və orta sahibkarlığın maliyyələşmə mənbələri sırasındadır. Bank olmayan kredit təkilatlarının sayının banklardan çox olmasına baxmayaraq, kredit bazarının yükü, bütünlüklə, bankların çiyninə düşür. Ölkə üzrə kredit qoyuluşunun cəmisi 2,8 %-i bank olmayan kredit təşkilatlarının hesabına reallaşır.[2]

Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən müştərək hazırlanan və biznes mühi-

tinin əlverişliliyi üzrə qiymətləndirmənin təzahürü olan "Doing Business" illik hesabatlarında, son illərdə, Azərbaycanda sahibkarların kreditə çıxış göstəricisinin zəiflədiyi göstərilir. [4]

Azərbaycanda sahibkarlığın maliyyə təminatı problemləri sırasında faktorinq də yer alır. Azərbaycanın maliyyə sistemində faktorinq xidməti geniş yayılmadığı üçün bu xidmət kiçik və orta sahibkarlığın maliyyələşməsində çox cüzi rol oynayır. Ölkə iqtisadiyyatının həcminin artması baxımından, sahibkarların maliyyə resurslarına tələbatının yüksəlməsi faktorinqdə müşahidə edilmir. Ölkədə, KOS-ların inkişafı üçün faktorinq əməliyyatlarının və xidmətlərinin təkmilləşdirilməsi lazımdır. [3,s.15]

Kapital bazarı vasitəsilə maliyyələşmə məsələsinə gəldikdə isə, qeyd etmək lazımdır ki, Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafı üçün kredit resurslarına alternativ olan və dünyada geniş yayılan qiymətli kağızlar, yəni, səhm və istiqraz buraxılışı vasitəsilə maliyyə vəsaitinin cəlb edilməsi təcrübəsi azlıq təşkil edir.

Ölkədə, sahibkarlığa dövlət maliyyə yardımı İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən həyata keçirilir. Dövlət tərəfindən kiçik sahibkarlığa maliyyə yardımı, məqsədli proqramlar çərçivəsində güzəştli kreditlər, subsidiyalar, kompensasiyalar, qrantlar, kreditlərə təminatlar verilməsi, lizinqin təşkili, sahibkarlara xidmət edən maliyyə-kredit təşkilatlarına stimullaşdırıcı tədbirlərin tətbiqi formasında reallaşdırılır.

Sahibkarlığa Kömək Milli Fondu, Kənd Təsərrüfatı Kreditləri üzrə Agentlik, İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu, Azərbaycan İnvestisiya Şirkəti kimi qurumlar Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafına, o cümlədən maliyyələşməsinə dövlət dəstəyini təmin edən təsisatlardır. [3,s.22]

**Mövzunun aktuallığı.** Sahibkarlıq bazar iqtisadiyyatının əsas hərəkətverici qüvvəsi olduğu üçün araşdırdığımız mövzu aktuallıq kəsb edir.

**Tədqiqatın məqsədi.** Bazar münasibətləri şəraitində Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin maliyyə təminatı problemlərinin araşdırılmasıdır.

**Tədqiqat obyekti.** Tədqiqat obyektini kiçik və orta sahibkarlıq təşkil edir.

**Tədqiqat metodu**. Sahibkarlığın maliyyə təminatı probleminin araşdırılmasında tədqiqat və sorğu metoduna üstünlük verilib.

**Açar sözlər:** sahibkarlıq sektoru, maliyyə təminatı, kredit təşkilatları, maliyyələşmə, KOS.

## Ədəbiyyatsiyahısı:


1. A.B. Abbasov, R.Ə.Abbasova, M.Ə.Əliyev və başqaları "Biznesin təşkili və idarə edilməsi". Bakı. 2011
2. Azərbaycan Respublikasının Mərkəzi Bankının statistik bülleteni. www.cbar.az
3. Samir Əliyev. Azərbaycanda kiçik və orta sahibkarlığın maliyyə çıxışının artırılması. İqtisadi Təşəbbüslərə Yardim İctimai Birliyi. Bakı. 2015
4. "Doing Business" Reports. 2014. www.doingbusiness.org


## ПРОБЛЕМЫ ФИНАНСИРОВАНИЯ ПРЕДПРИНИМАТЕЛЬСТВА В АЗЕРБАЙДЖАНЕ

**С.Исмайлова**
**Ю.М.Поладлы**
**Азербайджанский Технологический Университет**
**Upoladli94@mail.ru**

Одним из основных вопросов развития предпринимательства в современное время является его финансирование. В целях финансирования развития предпринимательства в нашей стране,

особенно малых и средних предприятий, при Министерстве экономического развития Азербайджанской Республики был создан Национальный Фонд Поддержки Предпринимательства.

## ENTREPRENEURSHIP FINANCING PROBLEMS IN AZERBAIJAN

**S.Ismayilova**
**U.M.Poladlı**
**AzerbaijanTechnologicalUniversity**
**Upoladli94@mail.ru**

One of the main issues of entrepreneurship development in modern times is its financing. In order to finance the development of entrepreneurship in our country, especially small and medium-sized enterprises, the National Fund for Entrepreneurship Support was established under the Ministry of Economic Development of the Republic of Azerbaijan.

## TEXNİKİ QLOBALLAŞMA ŞƏRAİTİNDƏ EKOLOJİİNNOVASİYALARIN İNKİŞAFI

**S.E.Əliyev**
**Mingəcevir Dövlət Universiteti**
**sabir_aliyev@yahoo.com**

Mövcud olan bəşər sivilizasiyası texnoqlobalizmin dərinləşdiyi və Elmi Texniki Tərəqqinin sürətlə inkişaf etdiyi bir dövrdə real təhlükə ilə üz-üzə qalmışdır. Bu gün ekoloji böhranın nəticələrindən yalnız insan fəaliyyətinə intensiv şəkildə ekoloji innovasiyalar daxil etməklə xilas olmaq mümkündür. Bu innovasiyalar əsasında tarazlıq bərpa olunacaq, cəmiyyət və təbiət arasında balans yaranacaqdır.

Bu cür innovasiyaların çoxu texnoloji xarakterə malikdir və ətraf mühitin vəziyyətinə nəzarət edən monitorinq vəsaitlərinə, tullantısız, enerjiyə və təbii resurslara qənaət edən, ekoloji cəhətdən təmiz yeni nəsil texnologiyaların yaradılmasına yönəldilmişdir. Digərləri isə iqtisadi-hüquqi və geo-siyası xarakterə malikdir. İqtisadi-hüquqi xarakterli innovasiyalara ekoloji qanunlar, ətraf mühitə atıla bilən tullantıların buraxıla bilən qatılıq həddinin standartları, bu tullantılara görə cərimə ödəmələri daxildir. Geo-siyasi xarakterli innovasiyalar isə nüvə silahlarının sınaqdan keçirilməsini qadağan edən beynəlxalq sazişlər, kimyəvi, bioloji, nüvə silahlarının ən təhlükəli növlərinin beynəlxalq nəzarəti altında azaldılmasında öz əksini tapır. Bu qrupa, o cümlədən, təhsilin və digər sahələrin ekologiyalaşdırılması ilə bağlı yeniliklər də aiddir [4].

Texniki qlobllaşmanın aktiv inkişafı şəraitində dünyanın lider ölkələrinin təşəbbüsü ilə mühüm beynəlxalq müqavilələr, sazişlər və konvensiyalar imzalanmışdır. Məsələn, 2002-ci ildə Yoxannesburqdakı Davamlı İnkişafa dair Ümumdünya Sammitində texnoloji xarakterli ekoloji innovasiyalara xüsusilə diqqət yetirilməsi tələb olunmuşdur: təbii sərvətlərin səmərəli istifadəsinə yönəldilən texnoloji xarakterli ekoloji innovasiyalar, bərpa olunan enerji mənbələrinin öyrənilməsi, o cümlədən şirin sulardan istifadənin yaxşılaşdırılması ilə bağlı tədbirlər, torpaqların məhsuldarlığının artırılması,

meşə massivlərinin qorunması və s.

Bir çox ölkələr milli səviyyədə yeni ekoloji texnologiyaların inkişafı və tullantıların azaldılması ilə bağlı qərarlar qəbul etmişlər.

Avropa Birliyi ölkələrində artıq bu sahədə demək olar ki, qlobal yeniliklər əldə olunmuşdur. Bu gün Avropa ölkələri artıq emissiyasız gələcəyin əsasının qurulmasında lider mövqeyi qazana bilmişdir. Aşağıdakıları nümunə kimi göstərmək olar:

− İsveçdə nəqliyyatın səmərəliliyinin artırılması və bioloji yanacaqdan istifadə edilməsi hesabına neft məhsullarına olan tələbatın azaldıması hədəflənmışdır.

− Avropada bütün qlobal investisiyaların 80% külək enerjisinin payına düşür.

− Almaniyada və İspaniyada bərpa olunan enerji mənbələrindən enerji istehsal edən istehsalçılara xüsusi güzəştlər olunur.

− İspaniya, Avstraliya və Almaniyada günəş energetikasının inkişafı üçün böyük sərmayələr qoyulmuşdur.

− Skandinaviya ölkələrində, həmçinin Avstraliyada biokütlədən istifadə geniş yayılmışdır.

− Böyük Britaniya alternativ və bərpa olunan enerji resurslarına keçidi hədəfləmişdir.

− müxtəlif ölkələrdə ayrı-ayrı maraqlı olan təşkilatlar tərəfindən $CO_2$ azaldılmasına yönəlmiş texnologiyalara qoyulmuş investisiyalar;

Digər inkişaf etmiş ölkələrə nəzər saldıqda, Yaponiyada ətraf mühitin mühafizəsinə yönəldilmiş tədbirlər xüsusilə diqqəti cəlb edir. Yaponiya bütün sahələrdə olduğu kimi, ekoloji problemlərin həlli məsələlərində də ən yeni texnologiyalara yiyələnmişdir. Orada 2030-cu ilə qədər 2003-cü ilə nisbətdə enerjinin UDM-ə görə istehlakının 30% aşağı düşməsi nəzərdə tutulmuşdur.

Burada qeyd etmək lazımdır ki, texniki qloballaşmanın inkişafı yalnız iqtisadiyyatın bütün sahələrinə ekoloji təmiz, enerjiqoruyucu və tullantısız texnologiyaların tətbiqi ilə deyil, həmçinin bio-texnologiyalar, nanotexnologiyalar və ekoloji İKT inkişafı bağlıdır. Bu texnologiyalar isə ekoinnovasiyaların real nümunələridir və bəşəriyyətin bir çox qlobal problemlərinin həllinə şərait yaradır.

XX əsr fizika, elektronika, atom enerjisi, telekommunikasiya dövrü hesab edilir, lakin XXI əsr robo-totexnika, biotexnologiya, nanotexnologiya, qlobal informasiya şəbəkələri, inteqrasiya olunmuş texnoloji sistemlər dövrü olacaqdır. Məhz nanotexnologiya, biotexnologiya və informasiya texnologiyasının sinergizmindən yaranan bionanotexnologiya bir çox ekoloji problemlərin həllində yeni texnoloji nailiyyətlərə imza atmağa imkan verəcəkdir.

Əsrimizi nanotexnologiya əsri adlandırsaq, yanılmarıq. Bu gün bir çox qlobal ekoloji problemləri artıq nanohissəciklər vasitəsilə həll etmək olar. Bəzi proqnozlara görə XXI əsrin ortalarında insanın ətraf mühitə zərərli fəaliyyətinə tam son qoyulacaqdır: ekosferada molekulyar-robot sanitarlar tullantıları yenidən xammala çevirəcək, sənaye və kənd təsərrüfatı tamamilə tullantısız nanotexnologiyalarla işləyəcək [3].

Biotexnologiyalara gəldikdə, sənaye istehsalatında onların istifadəsi üçün ən vacib istiqamət ekoloji iqtisadi baxımdan səmərəli texnologiyaların yaranması olacaqdır. Yəni biokütlə ayrı-ayrı hissələrə ayrılaraq təkrar emal olunacaqdır. Məsələn, bioyanacağın və bioplastikanın buğdadan, taxtadan istehsal olunması.

Mikroorqanizmlər sayəsində enerji alınması biotexnologiyanın vacıb istiqamətlərindəndir. Biokütlələrdən mikroorqanizmlərin vasitəsilə həm bioqaz, həm də maye enerji əldə olunur. Bu istiqamətin inkişafı biokütlələrin daima yenilənən və artan resurslarından istifadə etmək imkanı yaradır, həmçinin ətraf mühitin mühafizəsi üçün əlavə tədbirlərə təminat yaradır. Müvafiq texnikanın, yəni biogeneratorların istifadəsini artıq tam öyrənilmiş iş hesab etmək olar. Ekoinnovasiyaların bu növünün istifadəsinin daha bir sahəsi − ətraf mühitin biotexnoloji metodlardan istifadə etməklə mühafizəsidir. Sənaye və məişət tullantı sularının bioloji təmizlənməsi, onların utilizasiyası, kimya sənaye

müəssisələrinin zəhərli maddələrinin daha üçüz və həm də daha effektiv metodlarla təmizlənməsi biotexnologiyanın uğurlu tətbiqinin nəticəsidir.

Bəzi alimlərin fikrincə, biotexnologiya və nanotexnologiyanın birləşməsi ətraf mühitin monitorinqi, sağlamlaşdırılması və daha təmiz, ekoloji təhlükəsiz gələcəyin təminatçısı olacaqdır [1].

Azərbaycan da qlobal ekosistemin fəal üzvü kimi dünya bazarında öz rəqabət qabiliyyətliliyini milli səviyyədə ekoloji innovasiyaların daha geniş tətbiqi ilə əldə edə bilər. Çünki bu yaşamaq uğrunda mübarizənin bir hissəsidir. Ümumi ekoloji tərəqqidəki ekoloji amilin payının getdikcə artması bunun təsdiq edir. Belə bir ehtimal da var ki, 2030-cu ildə dünya innovasiyalarının 50% ekoloji situasiyanın yaxşılaşdırılmasına yönləndiriləcəkdir [2].

Beləliklə Azərbaycan hökümətinin bu cür yanaşmasının strateji əhəmiyyəti texnoqlaballaşmanın yeni şərtində dövlətin rəqabət qabiliyyətliliyi üçün əsas yaradacaqdır.

Bu gün Azərbaycanda nanotexnologiyanın inkişafı və eko-innovasiyaların texnologiyalara tətbiqi sahəsində üğürlu nəticələr əldə olunur. Dövlətimiz tərəfindən bu sahəyə artıq yetərincə vəsaitin ayrılması bunun göstəricisidir.

### Ədəbiyyatsiyahısı:

1.Biotechnology. A Technology Forecast. Implications for community & Technical Colleges in the State of Texas. Texas State Technical College System. Technology Futures, Inc. (TFI). J. Vanston, H. Elliott. 2006

2. Глобальний конкурентний простір: монографія / О.Г. Білорус та ін. К.: КНЕУ, 2007, 680 с

3.Чумаченко Б., Лавров К. Нанотехнология – ключевой приоритет обозримого будущего // Проблемы теории и практики управления // №5

4.Яковец Ю.В. Эпохальные инновации XXI века. Междунар. ин-т П. Сорокина – Н. Кондратьева. – М.: ЗАО Издательство „Экономика", 2004, с. 144

## РАЗВИТИЕ ЭКОЛОГИЧЕСКИХ ИННОВАЦИЙ В УСЛОВИЯХ ТЕХНОГЛОБАЛИЗМА

**С.Э.Алиев**
**Мингячевирский Государственный Университет**
**sabir_aliyev@yahoo.com**

В настоящее время интенсивное развитие человеческой цивилизации, характеризующееся дальнейшим ускорением научно-технического прогресса и одновременно углублением техноглобализма, создало реальные угрозы дальнейшему существованию человечества – общество оказалось в ловушке острых экологических проблем собственного социальноэкономического развития, которые в конечном итоге могут привести к деградации всего человечества. Во избежание негативных последствий современного экологического кризиса необходимо внедрение экологических инноваций во все сферы жизни человека. В статье рассмотрено краткое описание экоинноваций; современные тенденции их развития в ЕС, а также в Японии, Китае, Индии, США; а также обсуждается практика внедрения экоинноваций в Азербайджане.

## DEVELOPMENT OF ECOLOGICAL INNOVATIONS IN THE CONDITIONS OF TECHNOGLOBALISM

**S.E.Aliyev**
**Mingachevir State University**
**sabir_aliyev@yahoo.com**

Nowadays the intensive development of human civilization, which is characterized as the further acceleration of scientific and technological progress and at the same time the deepening of technoglobalism, created the real threats of further human existence – the society is appeared to be in the trap of sharp ecological problems concerning its socio-economic development. In order to avoid negative consequences of modern ecological crisis it is necessary to introduce ecological innovations in all spheres of human life. In the article it is examined the short description of ecoinnovations; modern tendencies of their development in the EU, also in Japan, China, India, the USA; and the practice of introduction of eco-innovations in Azerbaijan is also discussed.

# TURİZMDƏ İDARƏETMƏNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**S.V.Muxtarova**
**Azərbaycan Texnologiya Universiteti**
**seva_mukhtarova@mail.ru**

Turizm müasir inteqrasiya şəraitində amil və fəaliyyət sferası olmaqla bir sıra kompleks problemlərin və idarəetmə mexanizmlərinin məcmuu və qarşılıqlı əlaqəsi kimi formalaşır və dəyişir.Turizm əsasən sosial-iqtisadi sahə kimi XIX əsrin ortalarından inkişaf etməyə başlamışdır. Bu dövrə qədər isə turizm fərdi gəzinti və səyahət xarakteri daşımış, qeydiyyata düşmədən müxtəlif əraziləri, ölkələri gəzən adamlara "turist" demişlər. 1954-cü ildə Birləşmiş Millətlər Təşkilatının yığıncağında "Turizm" sözü müzakirə olunmuş, onun beynəlxalq mahiyyəti, kulturoloji və sosial-iqtisadi əhəmiyyəti müəyyənləşdirilmişdir [3, s.3].

Turizmin idarəçiliyini turizmin mentaliteti formalaşdırır. İlkin növbədə turizmin bazarı öyrənilir. Turizm bazarının digər sahələrdən fərqli cəhətləri onun fəaliyyət mexanizmlərinin xüsusiyyətləri ilə formalaşır. Turist idarəçiliyi turist tələbatı ilə təklifi arasında təşkilati idarəetmə strukturunu yaratmağı özündə əks etdirir. Turizm idarənin bazar strukturu şəraitində əsas maliyyə mənbəyi sahibkarlıq və dövlət hesabına büdcə təşkil edir. İdarəetmə mexanizminə əsasən turistlərin ayırmaları sayı onların məqsədləri və ölkənin iqtisadi potensialı daxildir [2, s.110].

Turizmin idarə edilməsi kompleks sistemli və məqsədyönlü fəaliyyət dairəsi olub struktur islahtların tərkib hissəsidir. Turizm idarəetmə obyekti olaraq turizm məqsədini, onun əsas təşkilati quruluşuna və kadr potensialına asaslanır. Turizm idarəçiliyi turistərin motivasiyası əsasında qurulur. Bu baxımdan hər bir turist obyektində turistlərin rəyi, seçimi öyrənilir, onların özlərinin xarakteristikası, hansı ölkədən

gəldikləri, turist müddəti və turistlərin sosial demoqrafik tərkibi, sosial statusu, turist tələbatı ilə müqayisə olunur və bu idarəetmədə aparıcı motiv seçilir. Turistlərin hər bir ölkəyə axını potensial turist axınını qiymətləndirməyə imkan verir [1, s.113].

Ümumiyyətlə, turizmin təşkilatı quruluşu firma və ya şirkət qurumunda formalaşır.

Bu quruluş çərçivəsində müəyyən məhsul istehsal edən və ya fəaliyyət göstərən və qərarların qəbulunda müstəqilliyə malik olan bir neçə sahə fəaliyyət göstərir. O, yuxarı orqana ( qərargaha) tabe olur ki, həmin orqan da onun fəaliyyətini əlaqələndirir [1, s.45].

İdarəçilik funksiyasına uyğun olaraq aşağıdakı qrup, yaxud icraedici strukturlar yaradılır: Tədqiqatçılar və turizm məhsullarının hazırlanması qrupu;

- Turizm fəaliyyətini həyata keçirməklə məşğul olan bölmə;
- Təchizat bölməsi;
- Mühasibat uçotu və nəzarəti bölməsi;
- Kadrlar şöbəsi və texniki təhlükəsizlik texnikası bölməsi;
- Mütəxəssislər, marketinqlər və tarixçilər qrupu;
- Turizm üzrə menecerlər və bələdçilər qrupu;
- İqtisadçılar qrupu və s.

Qeyd olunan qrup və bölmələr özlərinə məxsus olan konkret vəzifə və funksiyaları yerinə yetirirlər. Bu bölmə və qruplara kadrların seçilib yerləşdirilməsi vəzifəsini isə, strukturların rəhbərlərinin bilavasitə köməyi ilə turizm şirkətinin prezidenti və ya sədri yerinə yetirir. Turizm məhsullarının hazırlanması bölməsi mövcud problemləri dəqiqləşdirir, onların aradan qaldırılmasının vasitələrini müəyyənləşdirir. Həmçinin, xüsusi dəqiqləşdirmələr əsasında müəyyənləşdirilmiş turizm məhsullarının və ya əşyalarının hazırlanması istiqamətində əməli işlər görür. Turizm fəaliyyətini həyata keçirən bölmə həm yerli, həm də beynəlxalq təşkilatlarla əlaqələr yaradır, turizmin təşkilinə aid müqavilələr bağlayır. Bu işdə menecerlərin təşkilatçılıq fəaliyyətindən geniş istifadə olunur. Menecerlər turizm şirkətinin biznesinin səmərəliliyi baxımından fəaliyyət göstərir. Turizm bazarının son nəticələrini öyrənib ona münasib olan müqavilələr bağlayır. Bu müqavilələrin nəticələrinə uyğun olaraq şirkətin təchizat bölməsinə sifarişlər edir və s. Təchizat bölməsi isə turistlərin nəqliyyat, yaşayış, istirahət, məişət problemlərini sifarişə uyğun olaraq yerinə yetirir. Müqavilənin şərtləri əsasında müxtəlif xidmətlər təşkil edir. Turistlərin qarşılanması, yerləşdirilməsi və yola salınması məsələləri də təchizat bölməsi tərəfindən həll olunur. Təbii ki, bu işə çox məsuliyyətli icraçılar cəlb edilir və onlar kifayət qədər təlimatlandırılırlar. Eyni zamanda təchizat bölməsinin fəaliyyəti ali rəhbərliyin daimi nəzarətində olur. Menecer bütün fəaliyyətini daimi əlaqə üzərində qurur, həm rəhbərliklə, həm də başqa insanlarla əlaqələr yaratmaq, onların potensial imkanlarından istifadə etmək fəaliyyətində bulunur. Çünki menecerlərin əsas vəzifəsi "istehsalın idarə olunması və texniki, texnoloji bazanın inkişafı da daxil olmaqla, istehsal prosesinin səmərəli təşkili vasitəsilə firmanın fəaliyyətinin mənfətliyini təmin etmək, habelə hər bir işçinin ixtisasını və yaradıcı fəallığını artırmaqla kadr potensialından səmərəli istifadə etməkdir" [1, s.45].

Turizm şirkətinin bütün maliyyə fəaliyyətini mühasibat uçotu və nəzarəti bölməsi idarə edir. Şirkətin mədaxili və məxarici bu bölmənin əməkdaşları tərəfindən hesablanır. Bütün sahələrə aid olan bank əməliyyatı, əməkdaşların əmək haqlarının verilməsi, xidmət sahələrinə ayrılan xərclərin müəyyənləşdirilməsi, müəssisənin malik olduğu maliyyə ehtiyatlarının hesablanması, məsrəflərin dəqiqləşdirilməsi və s. bu bölmənin funksiyasına daxildir. Kadrlar şöbəsi müxtəlif mütəxəssislərin seçilib işə qəbul olunmasına təminat yaradır. Həmçinin, bu şöbənin nəzdində texniki təhlükəsizlik bölməsi də fəaliyyət göstərir. Həmin bölmə işə qəbul olunanların sağlamlıqlarının qorunması və təhlükəsizliklərinin qorunması üçün xüsusi təlimatlar hazırlayır, texniki vasitələrlə davranmağın mexanizmini onlara öyrədirlər və s. Mütəxəssislər, marketinqlər və tarixçilər qrupunun funksiyasına isə turizmin təşkilinin rasional və empirik tərəflərinin həlli aiddir. Həmin bölmənin əməkdaşları turizmin səmərəli təşkilinə aid alternativ variantlar hazırlayır, zehni fəaliyyətlə bağlı olan problemləri həll edir,

işin dinamik şəkildə inkişaf etdirilməsi üçün morfoloji əhəmiyyət kəsb edən təhlillər aparırlar. Ekskursiya marşrutlarına daxil olan tarix və mədəniyyət abidələri, yer adları və başqa informasiya əhəmiyyətinə malik olan obyektlər haqqında məlumatlar hazırlayırlar. Həmçinin, müxtəlif turist təşkilatları ilə informasiya mübadiləsi yaradır, səmərəli əməkdaşlıqları əlaqələndirir, ayrı-ayrı məsələlərin düzgün həllini tapır. Belə ki, əlaqələr intensiv şəkildə koordinasiya olunur və idarəetmənin keyfiyyətinə təminat yaradır. Bu işlərin öhdəsindən əsasən ixtisaslaşdırılmış alimlər və menecerlər gəlir. Ümumiyyətlə, turizmin təşkilində menecerlər qrupunun çox böyük rolu vardır. Adətən bələdçilər qrupu da menecerlər qrupunun tərkibində fəaliyyət göstərir. Bələdçilər qrupu alimlər tərəfindən hazırlanmış materiallarla tanış olur, marşrutlar üzrə özlərini daima təkmilləşdirirlər. Bu işdə onlara ixtisaslaşmış menecerlər də yaxından kömək edirlər. Bələdçilərin hazırlığına marşrutlar üzrə baxış keçirilir və onlara müəyyən peşəkarlıq dərəcələri verirlər. İqtisadçılar qrupu isə dünya turizm aləmində baş verən iqtisadi məlumatları informasiya blokuna daxil edir, turizm işinin elmi-iqtisadi tərəflərini qabaqcadan proqnozlaşdırır, dəqiqləşdirilmiş iqtisadi məlumatların təhlilini aparır. Bu təhlillərə əsasən turizmin yaxın və uzunmüddətli iqtisadi perspektivlərini işləyib hazırlayır. Yuxarıda qeyd olunan bölmə və qruplara nəzər yetirdikdə turizm şirkətlərinin və firmalarının kifayət qədər böyük strukturlara malik olduğunu görürük. Bu nəhəng strukturun bütöv bir orqanizm kimi idarə olunması məsuliyyəti isə təşkilatın birinci rəhbərinin üzərinə düşür. Belə çoxsahəli bir strukturu idarə etmək üçün təşkilatın rəhbəri liderə xas olan bütün keyfiyyətləri özündə cəmləşdirməlidir [4, s.22].

Beləliklə, turizm planlaşması strateji planlaşma obyekti olaraq ölkə iqtisadiyyatının əsas istiqamətlərinin və onun investisiya və ərazi inkişaf meyllərini tənzimləyən dövlət himayəçiliyi və dövlətin iqtisadi idarəetmə metodlarının tətbiqi sahəsi kimi formalaşır.

**Ədəbiyyat siyahısı:**

1. Bilalov B.Ə. Turizmin menecmenti. Mütərcim, Bakı, 2005. - 45 s
2. Əlirzayev Ə.Q. Turizmin iqtisadiyyatı və idarə olunması. -Bakı: “İqtisad Universiteti” Nəşriyyatı, 2010. - 529 s
3. İlqar Hüseynov, Nigar Əfəndiyeva. Turizmin əsaslari. Azərbaycan Respublikası Təhsil Nazirliyi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti. Bakı. 2007. 442s

## НАПРАВЛЕНИЯ СОВЕРШЕНСТВОВАНИЯ УПРАВЛЕНИЯ В ТУРИЗМЕ

**С.В.Мухтарова**
**Азербайджанский Технологический Университет**
**seva_mukhtarova@mail.ru**

Социально-экономическая роль туризма и вовлечение отраслевых ресурсов в хозяйственный оборот создают особенности управления им. Управление туризмом основано на мотивации туристов. С этой точки зрения в каждом туристском объекте изучается мнение и выбор туристов, сопоставляются их характеристики, страна происхождения, продолжительность туризма и социально-демографический состав туристов, социальный статус, туристские потребности и выбирается ведущий мотив в данном туристическом объекте управление. Приток туристов в каждую страну позволяет оценить потенциальный поток туристов.

## DIRECTIONS FOR IMPROVING MANAGEMENT IN TOURISM

**S.V.Mukhtarova**
**Azerbaijan Technological University**

seva_mukhtarova@mail.ru

The socio-economic role of tourism and the involvement of sectoral resources in the economic turnover create the characteristics of its management. Tourism management is based on the motivation of tourists. From this point of view, the opinion and choice of tourists are studied in each tourist facility, their characteristics, country of origin, tourist duration and social demographic composition of tourists, social status, tourist needs are compared and the leading motive is selected in this management. The influx of tourists to each country allows us to estimate the potential flow of tourists.

# MÜƏSSİSƏLƏRİN FƏALİYYƏTİNDƏ UÇOT SİYASƏTİNİN ROLU

**dos. X.M. Mehdiyev, İ.İ. Kərimov**
**Azərbaycan Texnologiya Universiteti**
ilham.kariimov@gmail.com

Uçot siyasəti müəssisənin idarə heyəti tərəfindən həyata keçirilən və maliyyə hesabatlarını hazırlamaq üçün istifadə olunan xüsusi prinsiplər və prosedurlardır. Bunlara hər hansı uçot metodları, ölçmə sistemləri və açıqlamaların təqdim edilməsi prosedurları daxildir. Uçot siyasəti uçot prinsiplərindən onunla fərqlənir ki, prinsiplər uçot qaydalarıdır və uçot siyasəti müəssiələrin həmin qaydalara riayət etmə üsuludur. Uçot siyasəti müəssisələrin maliyyə hesabatlarını hazırlamaq üçün istifadə etdiyi prosedurlardır. Qaydalar olan uçot prinsiplərindən fərqli olaraq, uçot siyasəti həmin qaydalara riayət etmək üçün standartlardır. Uçot siyasəti ardıcıllığı qorumaq və qərar qəbul etmək üçün standart yaratmaq hər hansı bir müəssisə üçün vacibdir. Hər bir uçot siyasətində təlimat və ya qaydanın icmalı və ya xülasəsi olmalıdır. İcmal, spesifiklikləri özündə əks etdirən ətraflı məlumatla birinci gəlir. Məsələn, mühasibat departamentinin nağd ödəniş üçün nə qədər pulun veriləcəyini, əhatə etdiyi alışların növünü və onun düzgün saxlanmasına cavabdeh olan şəxsin adını təfərrüatlandıran pul fondu siyasəti ola bilər. Uçot siyasətində insanların adları siyahıya salınır və uçot siyasətinə cavabdeh olan müəssisələrin və firmaların vəzifələri qeyd olunur. Uçot siyasətinə əsaslanaraq, hesabların ödənilməsi, nağd pulun idarə edilməsi və büdcənin tərtibi daxil olmaqla, prosedurlar hazırlanır və onlara əməl olunur. Uçot siyasəti adətən yuxarı rəhbərlik tərəfindən təsdiqlənir və illər ərzində çox dəyişmir. Uçot siyasəti müəssisə və firmanın dəyərlərini və etikasını əks etdirən uzunmüddətli istifadə üçün hazırlanmışdır. Maliyyə menecmenti sferasında uçot siyasətinin açıqlanması təşkilatlar və korporasiyalar tərəfindən verilməli, investorun qərarına potensial təsir göstərə biləcək hər bir müvafiq məlumatı üzə

çıxarmalıdır. O, investorlara bildirilmiş qərarlar qəbul etməyə və investisiya tələblərinə və portfelinə uyğun olan səhm və ya istiqrazları seçməyə kömək edir. Uçot siyasəti mənfəəti qanuni şəkildə manipulyasiya etmək üçün istifadə edilə bilər. Uçot siyasətində müəssisənin seçimi rəhbərliyin öz mənfəəti haqqında hesabat verməkdə aqressiv və ya mühafizəkar olmasını göstərəcək. Uçot siyasətinin maliyyə hesabatlarının hazırlanmasında, həmçinin auditorlar və investorlar üçün vacib olmasının çoxsaylı səbəbləri var. Bütün şirkətlər maliyyə hesabatlarını hazırlayarkən ya MHBS və ya GAAP-a əməl etməlidirlər. Bu yolla hökumət maliyyə qeydlərini nəzərdən keçirir. Daha əvvəl qeyd edildiyi kimi, uçot siyasəti ilk növbədə müəssisələrə maliyyə hesabatlarını qeyd etmək üçün müvafiq çərçivə təqdim edir, ona görə də onlar proses boyu standartlaşdırılmış formata əməl etməlidirlər. Xüsusi uçot siyasətinə əməl etdiklərini qeyd etməklə, investorlar öz əməliyyatlarında özünə inamı inkişaf etdirəcəklər. O, maliyyə hesabatlarını digər rəqiblərin qeydləri ilə asanlıqla müqayisə edə bilər. Bu səbəbdən, müəssisə və firmalar tətbiq etdiyi uçot siyasətini açıqlamalıdır. Uçot siyasəti məlumatın investorlara açıqlanması ilə bağlı fərdi qaydalardan ibarətdir və hər bir müəssisə və firma adekvat açıqlama tələblərinə riayət etməlidir.

Uçot siyasəti həm də ümumi qəbul edilmiş Uçot prinsiplərinə (GAAP) riayət etməlidir. Beynəlxalq Maliyyə Hesabatları Standartları (BMHS) və Ümumi Qəbul Edilmiş Uçot Prinsipləri (GAAP) müəssisə və firmaların maliyyə hesabatlarını necə hazırlamalı olduğuna dair göstərişlər verən uçot prinsipləridir. MHBS daha çox prinsiplərə əsaslanır və buna görə də hər bir əməliyyatı daha yaxşı əhatə edə bilər.

Digər tərəfdən GAAP daha çox qaydalara əsaslanan bir yanaşmadır. İki metod arasındakı fərqlər uçot siyasəti ilə bağlı müxtəlif standartlarda aydın görünür (məsələn, GAAP çərçivəsində icazə verilən bəzi uçot siyasətlərinə MHBS-da icazə verilməyə bilər). Uçot siyasəti geniş şəkildə dəyişə bilər, lakin hamısı MHBS və ya GAAP tərəfindən diktə edilən standartlara daxildir. Aşağıdakı siyahıda müəssisə və firmalar tərəfindən istifadə edilən bəzi əsas siyasətlər qeyd olunur (qeyd edək ki, siyahı tam deyil və siyasətdən istifadə etmək müəssisə və firmaların fəaliyyət göstərdiyi sənaye sahəsindən asılı olaraq fərqlənə bilər). Bu siyasətə: uçot konvensiyaların izlənilməsi, əsas vəsaitlərin qiymətləndirilməsi, amortizasiya və inventarların tətbiqi, investisiyaların qiymətləndirilməsi, xarici valyuta maddələrinin qiymətləndirilməsi, tədqiqat və inkişaf üçün çəkilən xərclərin qiymətləndirilməsi, köhnə və cari xərclərin uçotu, icarələrin qiymətləndirilməsi, uzunmüddətli müqavilələr üzrə mənfəətin tanınması və şərti öhdəliklərin qiymətləndirilməsi aiddir.

Kompulsiv uçot siyasəti müəssisə və firmaların cari maliyyə göstəricilərini aşağı salır və sonrakı illərdə daha yaxşı maliyyə göstəricilərini göstərir. Bu, daha davamlı bir yanaşmadır və müəssisələrə və firmalara illər ərzində maliyyə göstəricilərinin təkmilləşməsinə imkan verir ki, bu da investorlar üçün müsbət haldır.

Aqressiv uçot siyasəti onu elə bir şəkildə tətbiq etməyə meyllidir ki, onlar əvvəlki illərdəki performansı çox göstərsinlər və bu, sonrakı illərdə müəssisələrin performansının aşağı düşməsinə səbəb olur (müəssislər bunu edə bilsə də). Aqressiv uçot siyasəti, həmçinin auditorlar və ya investorlar rəhbərliyin qazancları yanlış təqdim etdiyini və ya xərclərin bölüşdürüldüyünü hiss edərlərsə, buna qarşı tədbir görə bilərlər.

Digər təşkilati siyasət və qaydalar kimi, maliyyə və uçot siyasəti də çoxsaylı üsullarla müəssisə və təşkilat fəaliyyətinin yaxşılaşdırılmasına xidmət edir. Yaxşı tərtib edilmiş uçot siyasətinə malik olmağın faydasını başa düşməklə maliyyə hesabatı funksiyasının həm keyfiyyətini, həm də səmərəliliyini artırmaq üçün biznesdə uçot siyasətini tərtib edib həyata keçirmək olar.Müəssisə və firmalar riayət etdiyi uçot siyasətini açıqlamalıdır. Uçot siyasəti məlumatın investorlara necə açıqlanmasına dair ayrıca qaydalardan ibarətdir və adekvat açıqlama tələblərinə əməl etməlidir.

Uçot siyasəti işçilərə mühasibat əməliyyatlarını oxşar şəkildə qiymətləndirməyə kömək edir. Daha böyük müəssisə və təşkilatlarda bir çox mühasiblər maliyyə fəaliyyətini yoxlaya bilər və uçot qərarlarında tələb olunan mülahizələrə görə, bu mühasiblər eyni əməliyyat üçün fərqli uçot üsullarını müəyyən edə bilərlər. Uçot siyasəti ümumi qəbul edilmiş uçot prinsiplərinin tətbiqi üçün yol xəritəsi ro-

lunu oynayır və işçilərin mülahizələrindəki fərqliliyi aradan qaldırır.

Gəlirlərin tanınması və ya qiymətli kağızların təsnifatı kimi mürəkkəb uçot məsələləri üçün uçot siyasəti işçilərin mürəkkəb sahədə xüsusi bilikləri olmasa belə, düzgün uçota gəlmələri üçün bir yol təqdim edir. Mühasibat nəzarətçiləri diqqətli olmalıdırlar. Uçot siyasəti səlahiyyətli işçilərə düzgün qərar verməyə kömək edə bilsə də, siyasət səriştəliliyi əvəz etməməlidir. Həmçinin mühasibat işçiləri uçot siyasətini necə tətbiq edəcəklərini bilməlidirlər.

Uçot siyasəti qərar qəbul etmə proseslərini sadələşdirməklə uçot prosesini daha səmərəli edə bilər. Ən sadə əməliyyatlar üçün, müəssisənin uçot sistemində maliyyə əməliyyatlarını avtomatlaşdırmaq üçün uçot siyasətindən istifadə edilə bilər. Avtomatlaşdırılmış uçot sistemlərinin işi hələ də mühasibat işçiləri tərəfindən nəzərdən keçirilməli olsa da, bu proses hələ də işi əl ilə yerinə yetirməkdən daha az vaxt aparmalıdır. Uçot proseslərinin avtomatlaşdırılmasının əlavə faydası səhvlərin azaldılmasıdır. Ümumiyyətlə, avtomatlaşdırılmış uçot sistemləri çap xətalarına yol vermir və rəqəmlərin yerini dəyişdirmir. Səhvlər edilə bilsə də, onları ümumiyyətlə daha da sistemli aşkar etmək asandır.

Audit tələbləri olan müəssisələr və firmalar üçün uçot siyasəti əlavə məqsədə xidmət edir. Uçot siyasəti mühasibat əməliyyatlarının sistemli şəkildə qiymətləndirilməsinə xidmət edir və bu siyasətə riayət edilməsi əməliyyatlarının eyni qaydada işləndiyini göstərir. Daxili nəzarəti yoxlayan mühasiblər uçot sistemində əməliyyatları izləməyə kömək etmək üçün uçot siyasətindən istifadə edə bilərlər. Auditorlar tərəfindən təklif olunan xidmətlərə gəldikdə isə bu material çərçivəsində onlar öz benefisiarlarının nöqteyi-nəzərindən, eləcə də digər xidmətləri ilə məsləhət xidmətləri arasında uyğunluq aspekti üzrə təhlilə məruz qalırlar.

analyze the ways of developing the export potential of the Azerbaijani economy. **Object of study.** The main directions of development of the export potential of the Azerbaijani economy

**Research method.** Methods of research include comparison, observation, and summarizing methods.

**Keywords:** export, business, external trade.

**References:**

1. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi;
2.https://www.stat.gov.az
3. http://www.azpromo.az/export/club-of-expor
4. https://www.economy.gov.az/

**AZƏRBAYCANIN IXRAC POTENSIALININ INKIŞAFININ ƏSAS ISTIQAMƏTLƏRI**

**X.N.Qurbanova**
**Azərbaycan Texnologiya Universiteti**
**xumar.qurbanova@bk.ru**

Məqalədə Azərbaycanın ixrac potensialının inkişafının əsas istiqamətləri nəzərdən keçirilir.

**ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ РАЗВИТИЯ ЭКСПОРТНОГО ПОТЕНЦИАЛА АЗЕРБАЙДЖАНА**

**Х.Н.Гурбанова**
**Азербайджанский Технологический Университет**
**xumar.qurbanova@bk.ru**

В статье рассмотрены основные направления развития экспортного потенциала Азербайджана.

# EKSTREMAL ŞƏRAİTDƏ MATERİAL-İSTEHSAL EHTİYATLARININ UÇOTUNUN TƏKMİLLƏŞDİRİLMƏSİ

**M.Q.Nurməmmədli**
**Azərbaycan Texnologiya Universiteti**
**murtuz.nurmemmedli@gmail.com**

Bilindiyi kimi dünyanı əhatə edən qlobal pandemiya iqtisadiyyatın ayrı-ayrı sahələrinə müxtəlif cürə təsir göstərmişdir. Bu təsirlər həm mənfi həm də müəyyən sahələr üzrə müsbət olaraq nəticələnmişdir. Pandemiya mənfi təsirini ən çox qeyri-yeyinti sahələri üzrə fəaliyyət göstərən müəssisələrə göstərmişdir. Keçən əsrin 30-cu illərinin geriləməsindən sonra dünya iqtisadiyyatını heç bir böhran belə ağır sınağa çəkməmişdi. İqtisadiyyatlar gözləmədikləri proseslərə qəfil və hazırlıqsız yaxalanmışdı, bunun səbəbi böhranın mənşəyinin iqtisadiyyatdan kənardan – səhiyyə sistemindən gəlməsi idi. Normal, heç bir maliyyə problemi olmayan sağlam və işlək müəssisələr karantin tələbləri altında dayanmağa, istehsalı (xidməti) dayandırmağa, işçilərini ixtisar etməyə məcbur qaldılar. Bununla da müəssisələrin əldə etdikləri material-istehsal ehtiyatları istifadəsiz qaldı. Bu problem materialların uçotunun və anbar uçotunun ya düzgün aparılmaması ya da heç anbarın və lazımı saxlama şəraitinin olmamasından tez sıradan çıxan ehtiyatların korlanmasına və istehsalın dayanmasıyla əlaqədar olaraq material xərclərinin artmasına gətirib çıxardı.Və yaxud da davamlı fəaliyyətlətini fasiləsiz həyata keçirmək üçün müəssisələrdə material ehtiyatlarının çatışmazlığı ilə üzləşdi.

"Material" termini ümumiyyətlə istehsalat konsernlərində istifadə olunur. Materiallar müəssisədə məhsul istehsal etmək və ya xidmət göstərmək,emal üçün istifadə olunan əşya və ya predmetdir. Bu məhsulların material-istehsalat ehtiyatı olması onların təyinatından asılı olaraq dəyişir. Buraya son məhsulun istehsalı üçün istifadə olunan fiziki əmtəələr daxildir. Xərclərin ilk və ən vacib elementidir. Normal şəraitdə istehsalda iki növ materiallar mövcud olur. Onlar aşağıdakılardır:

1. Birbaşa materiallar: hazır məhsulun bir hissəsini təşkil edən və hazır məhsulla asanlıqla eyniləşdirilə bilən materiallar deməkdir. Misal üçün; Mebel istehsalında - taxta, faner, yapışqan, mismar və s.; pambıq iplik istehsalında – pambıq, parça istehsalında – iplik; maşın istehsalında dəmir və s. birbaşa materialların tərkibinə daxil olur və hazır məhsulun əsas hissəsini təşkil edir.

2. Dolayı material: bölüşdürülməsi mümkün olmayan, lakin məsrəf mərkəzlərinə və ya məsrəf vahidlərinə bölünə və ya onlar tərəfindən mənimsənilə bilən material məsrəflərinə aiddir. Bunlar məhsulun bir hissəsi kimi izlənilə bilməyən materiallardır və onların dəyəri ədalətli əsaslarla müxtəlif xərc mərkəzləri və ya məsrəf vahidləri arasında bölüşdürülür. Dolayı materiallara misal olaraq məhsulların istehsalında istifadə olunan elektrik enerjisi, yanacaq, maşınların saxlanmasında istifadə olunan sürtkü yağları, təmir və texniki xidmət işlərinə sərf olunan materiallar və s. aiddir.

Müəssisələrdə materiallara nəzarətin ilkin forması material qalığı ilə bağlıdır. Azərbaycanda bir neçə il öncəsinə qədər Milli Muhasibat Uçotu Standartlarından (MMUS) istifadə olunurdu. Bu standartda material ehtiyatları alındıqda birbaşa olaraq ehtiyatlar hesabında qeyd olunurdu və bu aktiv kimi uçota alınırdı. Hazırda tətbiq olunan Beynəlxaq Muhasibat Uçotu Standartlarına (BMUS) əsasən isə alınan material-istehsal ehtiyatları xərc hesabında qeydə alınmalıdır və dövrün sonunda istifadə olunmamış ehtiyatlar xərc hesabından anbar hesabına qaytarılmalıdır. Burdan da belə nəticə çıxarmaq olar ki, ilkin qalıq Maliyyə Vəziyyəti Haqqında Hesabatdan (MVHH və ya Balans hesabatı) Mənfəət və Zərər Haqqında Hesabata (MZHH) göndərilir. Son qalıq isə əksinə ilin sonunda MZHH-dan MVHH-a göndərmək lazımdır.

Materiallara düzgün nəzarət sistemi olmadan heç bir maya dəyəri sisteminin tam olduğunu söyləmək olmaz. Materiala nəzarət, lazımı miqdarda sərmayə qoyuluşu ilə lazımı keyfiyyətdə materialın müəyyən edilmiş miqdarda və lazımı yerdə olmasını təmin edən bir sistemdir. Materiallara nəzarət əsasən materialların səmərəli alınmasına, onların düzgün saxlanmasına və səmərəli istifadəsinə yönəlib. Effektiv inventar idarəçiliyi müəssisənin müştəri tələbini ödəmək üçün kifayət qədər ehtiyata malik olmasını təmin etmək üçün vacibdir. Əgər inventar idarəçiliyi düzgün olunmazsa, bu, biznesin ya doldurula bilməyən potensial satışlar üzrə pul itirilməsinə, ya da çoxlu inventar ehtiyatı saxlamaqla pul itkisinə səbəb ola bilər. İnventarların idarəetmə sistemi bu səhvlərin qarşısını almağa kömək edəcəkdir. Materiallara nəzarət iki səviyyəli nəzarətdən: kəmiyyətə nəzarət və xərclərə nəzarətdən ibarətdir.

Materiallara nəzarət aşağıdakı səbəblərə görə lazımdır:

1. Şöbələr arasında düzgün koordinasiya: satınalma, qəbul və daşınma ilə məşğul olan şöbələr arasında düzgün əməkdaşlıq və koordinasiya olmalıdır ki, ahəngdar istehsal üçün zəruri material mövcud olsun.

2. Səlahiyyətli satınalma: materialların alınması səlahiyyətli işçilər və ya şöbə tərəfindən aparılmalıdır. Bunun üçün mərkəzləşdirilmiş satınalma sistemi qurulmalıdır və onun fəaliyyətinə vaxtaşırı nəzarət olunmalıdır.

3. Daimi inventar sistemi: anbarda olan hər bir növün və ya materialın miqdarını və dəyərini müəyyən etmək mümkündür.

4. Daxili yoxlama sistemi: materiallarla bağlı bütün əməliyyatların səlahiyyətli şəxs tərəfindən yoxlanılmasını təmin etmək üçün təşkilatda daxili yoxlama sistemi tətbiq edilməlidir. Bu sistemə nəzarəti ən azı 3 nəfər səlahiyyətli nümayəndə həyata keçirir və sonda öz imzalarını ataraq təsdiq edirlər.

5. Standart formalardan (limit-zabor kartı və s.) istifadə: sifarişlər üçün standart blanklar, materialların verilməsi, bir işdən digərinə köçürülməsi, materialın istehsaldan mağazalara ötürülməsi və s. istifadə olunur.

6. Materialların düzgün təsnifatı və kodlaşdırılması: materialları düzgün idarə etmək və saxlamaq üçün materialları təsnif etmək, qruplaşdırmaq və kodlaşdırmaq lazımdır.

7. Müvafiq ehtiyat səviyyəsinin qeydiyyatı: ehtiyat səviyyəsinin müxtəlif növləri vardır, məsələn: maksimum ehtiyat, minimum ehtiyat, orta ehtiyat və s. Ehtiyat səviyyəsini təyin etməkdə əsas məqsəd materiallara lazımsız investisiyaları aradan qaldırmaq və istehsalı düzgün aparmaqdır.

Bu sadalanan səbəblərə daha asan nəzarət etmək üçün müəyyən 1)Sadə cədvəllərdən, 2).Əsas inventar proqramlarından. 3) Barkod sistemindən və s. istifadə edərək materialların inventarizasiyasını təkmilləşdirmək olar.

- Sadə cədvəllər. Bir çox şirkətlər, xüsusən də kiçik müəssisələr inventarları izləmək üçün elektron cədvəllərdən istifadə edir. Microsoft Excel və ya buna bənzər bir cədvəl proqramlarından istifadə etmələrindən asılı olmayaraq, elekron cədvəllər material ehtiyatları məlumatlarını avtomatlaşdırılmasına və elekron şəkildə nəzarət edilməsi üçün bir yoldur. Ardıcıl yenilənmə və əsas kodlaşdırma ilə, mövcud inventar səviyyəsini və sitatistikansını əldə etmək mümkün olacaq.
- Əsas inventar proqramları. Sadə inventar proqramı adətən aşağı qiymətə malikdir və kiçik və orta biznes üçün nəzərdə tutulub. Bu sadə avtomatlaşdırma bulud (internet yaddaşı,ing.cloud) əsaslıdır və satış nöqtəsi proqram təminatı ilə əlaqələndirilir, buna görə də real vaxt rejimində avtomatik ehtiyat yenilənmələri yaradıla bilər. Həmçinin analitika və hesabatı birləşdirmək və qiymət müqayisələrini həyata keçirmək, yeni sifarişlər yaratmaq, ən yaxşı və ən çox satılan məhsulları müəyyən etmək və sifariş təfərruatları və ya müştəri nümunələri ilə tanış olmaq olar.
- Barkodlar. Barkodlar daimi və ya dövri inventar sisteminin bir hissəsi ola bilər. Ştrix kod mahiyyət etibarı ilə hər bir malın üzərinə vurulan mətn və ya rəqəmlərdən ibarət kiçik bir şəkildir. Mətin və ya rəqəmlər böyük miqdarda məlumat saxlayır. Skaner həmin məlumatı oxuyur və hissələri və onların yerlərini izləyən verilənlər bazasına ötürür. Sistem yeni inventar gəldikdə və buraxıldıqda skan edir. Ştrix kodlar hətta kiçik bizneslər üçün də həyata keçirildikdən sonra əməliyyat xərclərini azaldaraq investisiyanın sürətli qaytarılmasına kömək edir. Barkodlaşdırmanın digər üstünlükləri bunlardır: Manual(əl ilə daxil etmək) məlumat səhvlərinin aradan qaldırılması, inventar məlumatlarının daha sürətli toplanması, sənədləşmənin və hesabatların sadələşdirilməsi və s. təmin edir. Barkodları inventarda tətbiq etmək ağıllı bir fikirdir, çünki onlar hətta kiçik və böyüyən müəssisələr üçün miqyaslılıq və dəqiqlik təklif edir.

Material istehsala, məhsulların keyfiyyətinə, qiymətə və satışa təsir etdiyi üçün hər bir təşkilat üçün əsas komponentdir. Beləliklə, sistemli bir proses materialların alınması üçün inkişafdır. Satınalma, satın alınacaq materialın müəyyənləşdirilməsini, müvafiq təchizatçıların seçilməsini, satınalma sifarişinin

göndərilməsini, materialların satınalma sifarişinə uyğun olmasını təmin etmək üçün yoxlamanı və hesabların ödənilməsini əhatə edir. Materialın alınması ilə məşğul olan şöbə təchizat şöbəsidir.

Satınalma prosedurları aşağıda qeyd olunur.Təchizat şöbəsi aşağıdakı fəaliyyətləri həyata keçirir:

• Materiallardan səmərəli istifadə etmək;
• Uyğunlaşdırılmış şəraitdə keyfiyyətli materialların alınması;
• İqtisadi qaydada materialların alınması və onların artıq qalığının çıxarılması;
• Təchizatçılarla sıx əlaqə saxlamaq;
• Təchizat, keyfiyyət, qiymət, satınalma prosedurları, ödəniş şərtləri, daşınma prosesi və s. haqqında məlumatları yeniləmək və istifadə etməkdir.

Bazar iqtisadiyyatı şəraitində material ehtiyatları ilə bağlı bu tənzimləmələrin, uçotun təkmilləşməsinin aparılması ilə müəyyən dərəcədə də olsa belə vəziyyətlərdə itkilərin və xərclərin azaldilmasına nail olmaq olar. Saxlama şəraitinin də yaxşılaşdırılması və müəyyən təsirlərdən (məsələn: rütubət, şaxta , günəş şüası və s.) asılı olaraq tez sıradan çıxan ehtiyatlarla bağlı saxlama kameralarının yaradılması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi mühüm məsələlərdəndir. Bununla da ekstremal şəraitlərdə istehsalın, xidmətin dayandarılması ilə yaranan itkilərin qarşısını almaq mümkün olacaqdır.

Ümumilikdə həm iqtisadi proseslərin dəyişdiyi həm də iqtisadiyyatla əlaqəsi olmayan hadisələrin(pandemiya və s.) müəssisələrin material-istehsal ehtiyatları ilə bağlı fəaliyyətinə təsirinin minimuma endirilməsi yolunda ehtiyatların uçotunun təkmilləşdirilməsidir.Materialların uçotunun təkmilləşdirilməsi üçün müəyyən sahələrin fəaliyyətinə nəzarəti gücləndirmək və müəssisələrdə tətbiq edilən uçot prinsiplərinin dəyişdirilməsi və yeniliklərin tətbiqini artırmaq lazımdır. Ehtiyatların uçotunun yaxşılaşdırılması üçün inventarizasiyanın vaxtlı-vaxtında aprılması, anbar uçotunun təşkili və nəzarətin həyata keçirilməsi, mərkəzləşdirilmiş təchizat şöbəsinin yaradılması və s.vacib məsələdir.

**Açar sözlər:** ehtiyatlar, material-istehsalat ehtiyatları, təkmilləşdirmə, ehtiyatların anbar uçotu, material ehtiyatlarına nəzarət, ilkin qalıq və son qalıq

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikası Vergi Məcəlləsi. "Hüquq ədəbiyyatı".Bakı, 2021
2. Maliyyə Hesabatlarının Hazırlanması. Tədris vəsaiti. "METM". Bakı, 2013
3. Rzayev.Q.R. Muhasibat uçotu və audit. Dərslik. Bakı-2006
4. Sadiqov Ə.A., T.Ə.Sadiqov, Cəfərova Ş.Ə., Sadiqov C.Ə. Muhasibat uçotu. Dərslik. Bakı-2015.
5. TerexovaV.A., Maliyyə uçotu. Bakı-2008
6. Abdulov Ş.V., Əhmədov Y.B., Kənd Təsərrüfatında Mühasibat (Maliyyə) Uçotu. Dərslik. "Mütərcim". Bakı-2008
7. Т.В.Морозова.Международные Стандарты Финансовой Отчетности.Москва, 2012

## СОВЕРШЕНСТВОВАНИЕУЧЕТАМАТЕРИАЛЬНЫХ И ПРОИЗВОДСТВЕННЫХРЕСУРСОВ В ЭКСТРЕМАЛЬНЫХУСЛОВИЯХ

**М.К.Нурмамедли**
**Азербайджанский Технологический Университет**
**murtuz.nurmemmedli@gmail.com**

В целом, меняются как экономические процессы так и события, не связанные со сферой экономики (пандемия и т. д.), совершенствование учета запасов путем минимизации их влияния на деятельность предприятий, связанную с материально-производственными ресурсами.Для совершенствования учета материалов необходимо усилить контроль за деятельностью отдельных отраслей и усилить внедрение инноваций и изменение принципов бухгалтерского учета, применяемых на предприятиях. Для улучшения учета товарно-материальных запасов необходимо своевременное проведение инвентаризации, организация складского учета и осуществление контро-

ля, создание централизованного отдела снабжения и т.д.
**Ключевые слова:** запасы, материальные и производственные ресурсы, улучшения, инвентаризация, контроль материальных ресурсов, начальный остаток и окончательный остаток.

## IMPROVINGTHEACCOUNTING OF MATERIAL ANDPRODUCTIONRESOURCESINEXTREMECONDITIONS

**M.Q.Nurmammadli**
**AzerbaijanTechnological University**
**murtuz.nurmemmedli@gmail.com**

Generally, either the transformation of the economic procedures or the events which is not related to the economy( pandemic, etc) are the improvement of reserve accounting to minimize the effect of actions associated with the material-production resources of an enterprise. To improve the accounting of materials, it is necessary to strengthen control over the activities of individual industries and increase the introduction of innovations and changes in the accounting principles which are used in enterprises.In order to improve the accounting of material and production resources, it is necessary to carry out accurate inventory, organization and control of storage accounting, establishment of a centralized supply department, etc.
**Keywords:** stocks, material and production resources, improvement, inventory, management of material resources, opening and closing balance.

## BANK SEKTORUNDA MALİYYƏ RİSKLƏRİNİN İDARƏEDİLMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

**dos. R.R.Mustafayeva**
**S.B.Sadıqova**
**Azərbaycan Texnologiya Universiteti**

sadigova-sabina@mail.ru

Risklərin idarə edilməsi, bankların risk almasına mane olmaq deyil, kapital strukturlarının imkan verdiyi qədər risk götürmələrini qorumaqdır. Bank risklərin idarə olunması sisteminə fərqli funksiyaları inteqrasiya etməlidir və strukturlarında bəzi prosedurlar yaratmalıdırlar.1980-ci illərdən bu yana maliyyə bazarlarının gündəminə risklərin idarə olunması konsepsiyası daxil edilmiş və bank sektorunda əsas rol oynamışdır. Maliyyə liberallaşması, kredit bazarlarının inkişafı, kredit törəmələri bazarının genişlənməsi və təzə maliyyə alətlərinin ixtirası əsasən banklar üçün kredit riskinin idarə olunmasını çətinləşdirmişdir. Bankçılıq risklə məşğul olan sahədir və riskdən qaçış bankların itkilərə məruz qalması deməkdir. Bank sahəsində riskin idarə edilməsinin vacib məqsədləri:

❖ Bankın maliyyə fəaliyyətini yaxşılaşdırmaq,
❖ Bankın əhatə edə bilmədiyi və ya məqbul hesab etdiyi böyük itkilərlə üzləşməsinin qarşısını almaq.

Bankın strukturuna, həcminə və maliyyə fəaliyyətinə uyğun olaraq fərqli şərtlərə uyğun edilə bilən, yaxşı təşkil olunmuş, davamlı olaraq risklərin idarə olunması sistemi bankın qeyri-aktiv kapitalını saxlamaqdan çəkindirən təminatdır. Banklar həmin qaydaları tək qanunvericiliyə uyğunluğu təmin edəcək və ya tələbləri yerinə yetirəcək şəkildə deyil, eyni olaraq səhmdarlarını qoruyacaq formada həyata keçirməlidirlər. Bank sisteminə görə əsas təhlükə risklərin idarə olunması prosesini yalnız nəzarətçilər üçün hesabat vasitəsi kimi nəzərdən keçirmək və bunun qanunvericiliyə uyğunluq baxımından tamam olan iş kimi nəzərdə tutulmasıdır.

Bankda riskin idarə olunmasında skorinq modeli əsas rol oynayır. Onun istehlak kreditində riskin ən aşağı səviyyəyə salınmasında rolu çox böyükdür. Azərbaycan Respublikasında istehlak kreditinin verilməsində tələb edilmiş informasiya toplusu çox şəffafdır və eyni zamanda skorinq modelləri də doğru formada təhlil edilib, real nəticələr ötürür. Çoxlu sayda banklar eyni ilə bu modeldən istifadə edirlər. İnformasiya texnologiyası çox böyük bir sürətlə inkişafdadır, həmçinin öz növbəsində banklarda risk menecmentinin inkişaf etməsində çox böyük rolu vardır. İnformasiya texnologiyaları günümüzdə iqtisadiyyatın idarəetmə, eyni zamanda bank işində çox istifadə olunur. Bank işlərində riskin aşağı səviyyəyə salınması üçün həmçinin bankın təhlükəsizliyinin təmin olunmasında əsas bir vasitədir. Bankda çox sayda təmas prosesi zamanı olan müvafiq analitik xidməti, səmərəli təhlükəsizlik sistemi və nizamlaşdırılmış daxili bank nəzarətində rolu böyükdür.

**Mövzunun aktuallığı.** Risklərin idarə edilməsinə dair çoxlu nəzarətçilər tərəfindən müəyyən olunmuş fərqli qaydalar nəzərə alınır.

**Tədqiqatın məqsədi**. Risklərin idarə edilməsi anlayışı və eyni zamanda onun hazırkı vəziyyətinə qədər təkmilləşdirilməsi araşdırılır.

**Tədqiqat obyekti.** Risklərinin idarəedilməsinin təkmilləşdirilməsi.

**Tədqiqat metodu**. Effektiv risklərin idarə edilməsi prosesində ilk addım bankların risklərinin müəyyən olunması, bu risklərin ölçülməsi və bu risklərə nəzarət olunması və azaltması üçün metod hazırlamaqdır.

**Açar sözlər:** risk, risk idarəetmə, bank sektoru.

## Ədəbiyyat siyahısı:

1. Mərkəzi Bank-Banklarda risklərin idarə olunması haqqında qaydalar
2. Abdullayev -Ş.Ə Kommersiya banklarında kredit resurslarının təşkili və kredit risklərinin sığortası. Bakı, 2000
3. file:///C:/Users/HP/Downloads/Risk_Management_in_the_Banking_Sector_Case_of_TRNC.pdf
4. http://unec.edu.az/application/uploads/2015/05/disser2015.pdf

# СОВЕРШЕНСТВОВАНИЕ УПРАВЛЕНИЯ ФИНАНСОВЫМИ РИСКАМИ В БАНКОВСКОМ СЕКТОРЕ

**Р.Р.Мустафаева**
**С.С.Бахтияркызы**
**Азербайджанский Технологический Университет**
**sadigova-sabina@mail.ru**

Управление рисками заключается не в том, чтобы предотвратить риски банков, а в том, чтобы защитить структуры капитала от максимально возможного риска. Банк должен интегрировать различные функции в систему управления рисками и установить некоторые процедуры в своих структурах.

## IMPROVING FINANCIAL RISK MANAGEMENT IN THE BANKING SECTOR

**R.R.Mustafayeva**
**S.B.Sadygova**
**Azerbaijan Technological University**
**sadigova-sabina@mail.ru**

Risk management is notonly preventing banks from taking risks, but also protecting capital structures from taking as much risk as possible. The bank should integrate different functions into the risk management system and establish some procedures in its structures.

## MÜƏSSİSƏLƏRDƏ MARKETİNQ FƏALİYYƏTİNİN PLANLAŞDIRILMASI METODOLOGİYASININ TƏKMİLLƏŞDİRİLMƏSİ

**Dos. V.M.Ramazanov**
**A.Q.Abbaslı**
**Azərbaycan Texnologiya Universisteti**
**azer.abbasli.00@mail.ru**

Marketinq fəaliyyətinin planlaşdırılmasının bir xüsusiyyəti ondan ibarətdir ki, o, müəssisənin cari strategiyasının və onun taktiki proqramlarının formalaşdırılması əsasında qurulur. Planlaşdırılan tədbirlər nə qədər gələcəyə doğru gedirsə, planların həyata keçirildiyinə inam da bir o qədər az ola bilər. Eyni zamanda, təkliflərdəki səhvlər qərar qəbulunda səhvlərə yol açır. Buna görə də yeni şəraitə daim uyğunlaşmağa ehtiyac var.

Müəssisənin ümumi planlaşdırılması bir-biri ilə əlaqəli, bir-birindən asılı olan və bir-birini tamamlayan bir sıra planlara əsaslanır. Şəxsi planlar öz növbəsində ayrı bir əməliyyata qədər daha kiçik planlara bölünə bilər. Nəzərə almaq lazımdır ki, hər şey ümumi planın çərçivəsinə uyğun olmalıdır.

S ənaye müəssisələrində marketinq fəaliyyətinin planlaşdırılmasının xüsusiyyətlərini səciyyələndirən bu ümumi cəhətləri nəzərə alaraq, biz bu prosesin bütün əlaqələrini nəzərə alaraq, məhsulların marketinqinin kompleks planlaşdırılmasını nəzərdən keçirmək vəzifəsini qoymadıq, ona görə də özümüzü məhdudlaşdıracağıq. Şirkətdaxili idarəetmənin marketinq konsepsiyasının əsas prinsipləri bazarın proqnozlaşdırılması, strategiyanın işlənib hazırlanması və bazarda fəaliyyətinin planlaşdırılmasıdır.

Strateji planlaşdırma, artıq qeyd olunduğu kimi, dəyişən bazar tələblərinə uyğun olaraq şirkətin növbəti hərəkətlərini qabaqcadan görmək, artıq məlum bazarda işləmək, əmtəə, qiymət, marketinq və həvəsləndirmə siyasəti sahəsində bir-biri ilə əlaqəli tədbirlər kompleksinin işlənib hazırlanmasıdır. rəqiblərin mümkün reaksiyasını nəzərə alaraq. Ətraflı strateji plan marketinq planıdır. Müxtəlif şirkətlərdə marketinqin planlaşdırılması planın məzmunu, planlaşdırma üfüqləri, inkişaf ardıcıllığı, planlaşdırmanın təşkili baxımından fərqli şəkildə həyata keçirilir.

Müxtəlif müəssisələr üçün marketinq planının məzmunu da fərqlidir: bəzən o, satış şöbəsinin planından çox da geniş deyil, digər hallarda isə biznes strategiyasının geniş nəzərdən keçirilməsinə əsaslanır və onun həyata keçirilməsi üçün məqsəd və proqramları ehtiva edə bilər. Aparıcı xarici şirkətlərin təcrübəsinin nəticələrinə əsasən güman etmək olar ki, marketinq planına əsaslanan istehsal-təsərrüfat fəaliyyəti planı müəssisənin bütün digər funksiyalarının: istehsal, elmi-tədqiqat, maliyyə, əmək resursları. Belə müəssisədə marketinq fəaliyyətinin planlaşdırılmasının təşkili tam marketinq sisteminin strukturuna əsaslanır.

Yuxarıdakı modeldən göründüyü kimi, bazar münasibətləri şəraitində istənilən müəssisənin fəaliyyətinə müxtəlif idarə olunmayan amillər təsir edir. Buradan belə nəticəyə gəlmək olar ki, marketinqin planlaşdırılması prosesində həll edilməli olan əsas vəzifə bazarda güclü və sabit mövqe əldə etməyə kömək edən həm daxili, həm də xarici əsas amilləri müəyyən etməkdir.

Marketinq fəaliyyətinin planlaşdırılması birdəfəlik deyil, dövri prosesdir ki, bu da planlaşdırma obyektinin vəziyyəti və xarici mühit haqqında ən son məlumatlar əsasında planın daim yenilənməsinə əsaslanır.

Proses ilkin vəziyyətin təhlili ilə başlayır, sonra onun nəticələrinə əsasən ardıcıl olaraq aşağıdakılar həyata keçirilir: müəssisənin məqsədlərini müəyyənləşdirmək, optimal strategiyanı seçmək, orta müddətli planları hazırlamaq və qısamüddətli illik planları hazırlamaq.

Marketinq planı müəyyən tələblərə cavab verməlidir, onlardan ən mühümləri:

- müəssisənin məqsəd və vəzifələrinin həyata keçirilməsinə kömək edən strategiyanın əsaslandırılması;
- müəssisənin bütün mövcud ehtiyatlarından, xüsusən maliyyə, maddi, əmək ehtiyatlarından səmərəli istifadə edilməsi, marketinq xidmətinin işçiləri arasında vəzifə və öhdəliklərin bölüşdürülməsi;
-nəzərdə tutulan məqsədlərin həyata keçirilməsini təmin edən təşkilati strukturun təsvirinin olması;
-gələcək üçün hesablama ki, hər bir sonrakı marketinq planı əvvəlkinin davamı və inkişafı olsun. Belə davamlılıq uzunmüddətli məqsəd və vəzifələrin əldə olunmasını təmin edir;
- sözlərin qısalığı və aydınlığı. Eyni zamanda, bütün qısalığına baxmayaraq, marketinq planı kifayət qədər təfərrüatlı olmalı və nəzərdə tutulan məqsədlərə çatmağın aydın yollarını əsaslandırmalıdır;

-çeviklik, onun uğurla həyata keçirilməsi ondan asılı ola biləcəyi üçün, müəyyən gözlənilməz hallar zamanı necə hərəkət edə biləcəyinizi əvvəlcədən düşünüməlidir.
Planlaşdırma idarə olunan obyektin inkişafı məqsədinin, ona nail olmaq üsullarının, yollarının və vasitələrinin müəyyən edilməsi, proqramın, yaxın və gələcək üçün müxtəlif təfərrüatlı fəaliyyət planının hazırlanmasıdır.

Planlaşdırma, planın həyata keçirilməsi üçün gələcək ehtimal şərtləri haqqında fərziyyələrə əsaslanaraq, müəyyən bir müddət ərzində məqsədlərin, strategiyaların və onlara nail olmaq üçün tədbirlərin müəyyən edilməsi prosesidir. Strateji marketinq planlaması firmanın məqsədləri, onun marketinq potensialı və şansları arasında strateji uyğunluğun yaradılması və saxlanması idarəetmə prosesidir.

### Ədəbiyyat siyahısı:

1. Azərbaycan regionları. Statistik məcmuə. Bakı, 2015
2. Azərbaycanın Sənayesi, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Statistik Məcmuəsi, 2014
3. Hacıyeva L.A. Sənaye marketinqi. Bakı, "Təhsil işçisi" MMC, 2012
4. Амблер Т. Практический маркетинг. СПб, Питер, 2001
5. Ковалев А.И. Промышленный маркетинг. В 2 частях..М., Центр экон., 2002
6. Литовченко И.Л. Генезис и эволюция информационной концепции маркетинга: Монография. - К.: Наук.думка, 2011
7. Филип Котлер, Маркетинг менеъмент. Експресс-курс. 2-ъи няшр/Рус дилиндян тяръцмя. Бакы: «Игтисад Университети» няшриййаты, 2008
8. Smith, A. (2007). An inquiry into the nature and causes of the wealth of nations. New York: MetaLibri. 754 p

## СОВЕРШЕНСТВОВАНИЕ МЕТОДИКИ ПЛАНИРОВАНИЯ МАРКЕТИНГОВОЙ ДЕЯТЕЛЬНОСТИ НА ПРЕДПРИЯТИЯХ

**Доцент Рамазанов Вагиф Меджид оглы**
**Аббаслы Азер Габил оглы**
**Азербайджанский Технологический Университет**
**azer.abbasli.00@mail.ru**

Современный этап развития экономической системы Азербайджана характеризуется развитием рыночных отношений, что требует кардинальных реформ в сфере социально-экономических отношений и структурных изменений во всех сферах общественной деятельности. Вполне естественно, что происходящие преобразования привели к ряду кризисов на промышленных предприятиях, прежде всего связанных с разрывом ранее установившихся хозяйственных связей. Процесс реализации продукции значительно усложнился из-за наличия на местном рынке большого количества импортных товаров и неспособности местных производителей учитывать растущий потребительский спрос на качественные товары. В связи с этим основной задачей промышленных предприятий стал поиск новых форм хозяйственной деятельности и необходимость коренной перестройки управления, ведь только тогда можно приспособиться к новым социально-экономическим условиям с минимальными потерями. Поэтому в современных условиях особое значение приобретает изучение и использование концепции маркетинга как концепции управления предприятием в рыночных условиях.

## IMPROVEMENT OF METHODS FOR PLANNING MARKETING ACTIVITIES IN ENTERPRISES

**Prof. V.M.Ramazanov**
**A.G.Abbasly**
**Azerbaijan Technological University**
**azer.abbasli.00@mail.ru**

The current stage of development of the economic system of Azerbaijan is characterized by the development of market relations, which requires fundamental reforms in the field of socio-economic relations and structural changes in all areas of public activity. It is only natural that the ongoing transformations have led to a number of crises in industrial enterprises, primarily related to the severance of previously established economic ties. The process of selling products has become much more complicated due to the presence of a large number of imported goods in the local market and the failure of local producers to take into account the growing consumer demand for quality goods. In this context, the main task of industrial enterprises was the search for new forms of economic activity and the need for a radical restructuring of management, because only then it is possible to adapt to the new socio-economic conditions with minimal losses. Therefore, in modern conditions, the study and use of the concept of marketing as a concept of enterprise management in market conditions is of particular importance.

## GƏNCƏ-DAŞKƏSƏN İQTİSADİ RAYONUNDA AQROTURİZMİN İNKİŞAF İSTİQAMƏTLƏRİ

**Ə.A.Qurbanova**
**X.H.Əsgərova**

**Azərbaycan Texnologiya Universiteti**

**esgerovax2@gmail.com**

Aqroturizmin ən əsas üstünlüyü budur ki, o yerli məhsullardan və var olan imkanlardan istifadə etməklə region gəlirlərini artırır, eyni zamanda iqtisadi çətinliyin yüngülləşməsinə kömək yaradır. Ölkəmizdə bu turizm üçün uyğun şərait olduğundan, insanlar turizm üçün əlverişli olan yerləri tanıtmaqla və göstərdikləri qonaqpərvərliklə aqroturizmi təkmilləşdirir.

Birincisi, qeyd etmək lazımdır ki, dünyada yaxşı və vahid aqroturizm konsepsiyası yoxdur. Lakin buna baxmayaraq, bəzi Avropa ölkələrində aqroturizm çox uzun illərdir ki, sürətli bir formada inkişaf edir və əlavə gəlir mənbəyinə çevrilir. Aqrar sahədə çalışanların əlavə gəlir mənbəyinin formalaşdırılması üçün yüksək dağlıq rayonların kəndlərində aqroturizmin inkişafı mühüm əhəmiyyət kəsb etməkdədir. Gəncə-Daşkəsən iqtisadi rayonundaaqroturizmdən gəlir əldə etmək davamlı inkişaf konsepsiyası çərçivəsində mümkün olar.

Aqroturizm həm Gəncə-Daşkəsən iqtisadi rayonunda, həm də bütövlükdə Azərbaycanda yeni və perspektivli bir istiqamətdir. Gəncə-Daşkəsən bölgəsi kənd təsərrüfatı bölgəsi olduğundan aqroturizmin inkişafı iqtisadi cəhətdən gəlirli olmaq üçün hər cür əsaslara malikdir.

Aqroturizm təkcə kənd yerlərində rekreasiya sektorunun deyil, həm də xidmət sahəsinin, rayonun təsərrüfat kompleksinin sahələrinin - nəqliyyat, rabitə, ticarət, qida istehsalı, o cümlədən suvenir və turizm sahələrinin inkişafı ilə sıx bağlıdır. Rayonda kənd turizminin inkişafı rayondaxili iqtisadi səmərələrin formalaşmasına, kənd yerlərində sahibkarlıq fəaliyyətinin inkişafının intensivləşməsinə, əhalinin məşğulluğunun və özünüməşğulluğunun artmasına səbəb olacaqdır.

Gəncə-Daşkəsən iqtisadi rayonundabu istiqamətin inkişafı üçün bütün lazımi resurslar var. Turizminin təşkili üçün bütün ilkin şərtlərə əməl olunur. Rayon ərazisində irili-xırdalı onlarla kənd təsərrüfatı müəssisəsi fəaliyyət göstərir. Kənd təsərrüfatı ilə yanaşı sənaye istehsalı, tikinti, sosial sahə, xalq sənətkarlığı inkişaf edir. Gəncədə turistlərin mədəni və maarifləndirici asudə vaxtının təşkili üçün yaxşı şərtlərlə seçilir ki, bu da onun ərazisində aqroturizmin təşkili perspektivlərini göstərir. Aqroturizm fəaliyyətləri şaxələndirilir və ya təbii sərvətlərin və yerli mədəniyyətin istehlakı, eləcə də ziyarətçilər və yerli ictimaiyyət arasında şəxsi münasibətlərin inkişafıdır.

**Mövzunun aktuallığı.** Aqroturizm rəqabətqabiliyyətli turizm məhsulunun formalaşdırılması üçün prioritet istiqamətlərdən biri hesab olunur ki, rayonun bələdiyyəsinin səmərəli iqtisadi inkişafının sabitləşməsinə təsir edir.

**Tədqiqatın məqsədi**. Aqroturizm iqtisadi artım və gəlir əlavəsi və gəlirləri artırmaq üçün katalizatordur, kənd yerlərinin sənaye strukturunun optimallaşdırılmasına və təkmilləşdirilməsinə kömək edir.

**Tədqiqat obyekti.** İqtisadi rayonlarda aqroturizmin inkişaf istiqamətləri.

**Tədqiqat metodu.** Aqroturizm olan yerləri yaratmaqla həyat keyfiyyətini yaxşılaşdıra, habelə sosial aspektlərə təsir göstərə bilər və eləcə də kənd yerlərinin davamlı inkişafı təmin olunar.

**Açar sözlər:** aqroturizmin inkişafı, regionların maliyyələşdirilməsi, inkişaf istiqamətləri.

## Ədəbiyyatsiyahısı:

1. Azərbaycanda turizm - 2016 (AMEA İqtisadiyyat İnstitutunun bülleteni), Bakı: 2017, 156 s

2.https://uluchay.org/az/aqroturizm-mane%C9%99l%C9%99r-v%C9%99-inkisaf-perspektivl%C9%99ri/

3.https://www.researchgate.net/publication/342207159_ECONOMIC_MECHANISMS_OF_ORGANIZATION_AND_IMPLEMENTATION_OF_ACCOUNTING_POLICY_AT_THE_ENTERPRISE

## НАПРАВЛЕНИЯ РАЗВИТИЯ АГРОТУРИЗМА В ГЯНДЖА-ДАШКЕСАНСКОМ ЭКОНОМИЧЕСКОМ РАЙОНЕ

**А.А.Гурбанова**
**Х.Г.Аскерова**
**Азербайджанский Технологический Университет**
esgerovax2@gmail.com

Основное преимущество агротуризма заключается в том, что он увеличивает доход региона за счет использования местных продуктов и имеющихся возможностей, одновременно помогая облегчить экономические трудности. Поскольку в нашей стране есть благоприятные условия для этого туризма, люди улучшают агротуризм, продвигая места, подходящие для туризма и их гостеприимство.

## DIRECTIONS OF AGROTOURISM DEVELOPMENT IN GANJA-DASHKESAN ECONOMIC DISTRICT

**Kh.H.Askerova**
**Kh.A.Gurbanova**
**Azerbaijan Technological University**
esgerovax2@gmail.com

The main advantage of agritourism is that it increases the region's income by using local products and available opportunities, while helping to alleviate economic hardship. As there are favorable conditions for this tourism in our country, people improve agro-tourism by promoting places that are suitable for tourism and their hospitality.

## AZƏRBAYCAN İQTİSADİYYATIN İNKİŞAFI VƏ SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİNDƏ İNVESTİSİYALARIN ROLU

**S.D.Həsənova**
**Azərbaycan Texnologiya Universiteti**
hesenovas985@gmail.com

Bazar iqtisadiyyatı şəraitində Azərbaycan iqtisadi sahələrinin, xüsusilə sənayenin inkişafına investisiya qoyuluşunun artırılması, onun yeni-yeni bazarlara daxil olmasına, investisiya münasibətlərinin inkişafına və onun formalaşmasına zəmin yaradır.

Qeyri-neft sektorunun stimullaşdırılması, biznes və investisiya mühitinin yaxşılaşdırılması və dövlət-sahibkar münasibətlərinin inkişafı, eləcə də xarici investorların cəlb olunması daim diqqət mərkəzində saxlanılır. Qeyri-neft sahəsinin inkişafı, sənaye, tikinti, nəqliyyat və s kimi sahələrin inkişafı yerli və xarici investisiyaların Azərbaycana cəlb olunması, müasir texnologiya və biliklərin əldə edilməsi vasitəsilə ölkə iqtisadiyyatının rəqabətədavamlılığı və təkmilləşdirilməsinin artırılması məqsədilə bir sira qurumlar fəaliyyət göstərir. Bu qurumlardan biri də yaradılmış "Azərbaycan İnvestisiya Şirkəti" ASC (AİŞ) də bu istiqamətdə öz töhfəsini verir.

Qeyd etmək istərdim ki, adını çəkdiyimiz bu şirkət tərəfindən son illər ərzində altmış iki yeni investisiya layihəsinə baxılıb və müvafiq təhlillər aparılmışdır. Daxil olan təkliflərin 10%-i yüngül sənaye, 8%-i ağır sənaye 23%-i kənd təsərrüfatı, 23%-i qida və içki sənayesi, 8%-i tikinti və mədən sənayesi, 5%-i alternativ və bərpa olunan enerji, 5%-i ənənəvi energetika, 13%-i səhiyyə, 5%-i isə digər sahələrin payına düşür.

Bundan əlavə bu şəkildə fəaliyyət göstərən qurumlardan biri də Azərbaycan İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) qurumudur. Bu qurum yerli istehsalın inkişafı ilə ölkənin ixrac qabiliyyətinin artırılması və investisiyaların cəlb edilməsini həvəsləndirmək məqsədilə 2003-cü ildə yaradılmışdır.

Qeyd etmək istərdim ki, təkcə yerli investorlar deyil, o cümlədən investisiyanın inkişafına kömək edəcək qurum və təşkilatlar olmaqla yanaşı xarici sərmayədarlar da Azərbaycanın gələcək inkişafına, respublikanın iqtisadi perspektivinə və potensialına böyük ümidlər bəsləyir və bu da onların məqsədlərini şərtləndirir.

Ümumiyyətlə ölkəmizdə hər hansı zavodun, müəssisənin tikintisi eyni zamanda onu göstərir ki, Azərbaycanın gələcəyinə, iqtisadiyyatın inkişafına xarici investorlar tərəfindən böyük inam var. İndi Azərbaycanın bazarı daxili istehsalçılar tərəfindən böyük dərəcədə təmin edilir. Biz elə etməliyik ki, Azərbaycanda məhsul istehsalını, o cümlədən sement istehsalı da Azərbaycanın bütün tələbatını ödəyə bilsin. İndi biz idxaldan asılıyıq, amma zavodların tikintisi, digər müəssisə və qurumların tikintisi bu asılılığı azaldacaq və əminəm ki, vaxt gələcək, yerli istehsal Azərbaycanın bütün tələbatını təmin edəcəkdir və bu sahədə də mühüm addımlar atılır.

Biz statistikaya nəzər salsaq, müşahidə edə bilərik ki, Azərbaycanda bütün sənaye üzrə ümumilikdə daxili və xarici investisiyaların həcmi 2016-cı ildə 9949,8, 2017-ci ildə 10610,1, 2018-ci ildə 8497,2, 2019-cu ildə 9258,0 və 2020-ci ildə 9065,3 mln manat olmuşdur ki, 2020-ci ildə biz xarici investorlar tərəfindən qoyulan sərmayənin 3845,6 mln manat oldugunu yani azaldığını görürük bu isə həmin dövrdə pandemiya şəraiti və müharibə vəziyyəti ilə xarakterizə olunur.

Bundan əlavə qeyd etmək istərdim ki, 44 günlük Vətən müharibəsinin qələbə ilə bitməsinin ən məhsuldar nəticələrindən biri Qarabağ torpaqlarlarında təbii sərvətlərin, xüsusilə faydalı qazıntıların işlənilməsi və investisiyaların qoyuluşu baxımından böyük perspektivlər vəd edir. Son illərdə Azərbaycanın qeyri-neft ixracında qızıl ən mühüm yerlərdən birini tutur. Həm bu sahədəki şirkətlərin müasir istehsal texnologiyalarına sahib olması, həm də dünya bazarlarında qızılın qiymətinin yüksəlməsi onu deməyə əsas verir ki, post-konflikt ərazilərdə qızıl yataqlarının istismarı yaxın illərdə Azərbaycan iqtisadiyyatı üçün perspektivli addımlardan biri olacaq.

O cümlədən,post-konflikt ərazilərdə "yaşıl enerji" zonasının yaradılması konsepsiyası çərçivəsində kiçik su elektrik stansiyalarının bərpası layihələrinin icrası işlərin həyata keçriilməsi planlaşdırılır və bu da qeyri-neft sektorunun, xüsusilə sənayenun inkişafına təkan verir. "Kəlbəcərdə 100 meqavatt gücündə külək elektrik stansiyasının tikintisi layihəsinə özəl investisiyaların cəlb olunması planlaşdırılır. Bu layihə çərçivəsində hazırlıq işləri artıq başlayıb.

Beləliklə, ölkəmizdə yaradılmış iqtisadi şərait, əlverişli biznes və investisiya mühiti, post-konflikt ərazilərdə aparılan bərpa-quruculuq işləri, regional infrastruktur layihələri, Ələt Azad İqtisadi Zonası diqqət mərkəzində olmaqla, iqtisadi inkişafın sürətlənməsinə təkan verəcəkdir. Diqqətinizə çatdırmaq istəyərdim ki, Azərbaycan Respublikası Qarabağ iqtisadi regionun sülh və əməkdaşlıq bölgəsinə çevrilməsi, işğaldan azad edilmiş ərazilərimizin təbii və iqtisadi potensialından maksimum istifadəsi istiqamətində genişmiqyaslı işlər görür. 2021-ci ilin oktyabrında Azərbaycan və Türkiyə dövlətlərinin

birgə işi və dəstəyi ilə Füzuli Beynəlxalq Hava Limanının açılması Qarabağın bərpasında böyük iqtisadi önəm kəsb etmişdir.

Bildiyimiz kimi, Azərbaycan Qarabağda bərpa-quruculuq işlərinə tərəfdaş ölkələrdən investisiya cəlb olunmasında maraqlıdır. Hökumətimiz bu bölgəyə hazırda böyük sərmayələr yatırır. Post-konflikt ərazilərimizin sənaye, nəqliyyat-tranzit, bərpa olunan enerji, kənd təsərrüfatı, dağ-mədən və digər sahələrdə böyük potensiala malik olması, İslam Əməkdaşlıq Təşkilatının, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv dövlətlərin sahibkarlarını azad edilmiş ərazilərimizə sərmayə yatırılması və s kimi layihələrin həyata keçirilməsi və regionun bərpa-quruculuq işlərində fəal iştirak etmişdir ki, bu daiqtisadi reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-tranzit dəhlizlərinin imkanlarından faydalanmaq ölkəmizin inkişafına böyük təkan verəcəkdir.

**Açar sözlər:** investisiya, iqtisadi potensial, maliyyə vəsaitləri, maddi və intelektual sərvətlər

**Ədəbiyyat siyahısı:**

1. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. Bakı, 29 dekabr 2012
2. "Azərbaycan Respublikası regionlarının 2009-2013-cti illərdə sosial-iqtisadi inkisafi Dövlət Proqramı". Bakı, 14 aprel 2009
3. Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkisafı Dövlət Proqramı. Bakı, 27 fevral 2014
5. "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 1995.
6. "Xarici investisiyanın qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 1992
7. stat.gov.az

## THE ROLE OF INVESTMENTS IN THE DEVELOPMENT AND EFFICIENCY OF THE ECONOMY IN THE REPUBLIC OF AZERBAIJAN

**S.D.Hasanova**
**Azerbaijan Technology University**
**hesenova985@gmail.com**

One of the main tasks ahead in modern times is to improve investment relations, which play an important role in the formation of the agricultural market and stimulate its development.
As the country's economic sectors develop, the role of investment increases significantly, and the attraction and efficient use of financial and credit resources becomes an important factor in economic progress in all areas. Increasing investment in the development of the agricultural sector creates the basis for its entry into new markets, the development of investment relations and its formation.

**Keywords:** investment, innovation, finance, material and intellectual resources

## РОЛЬ ИНВЕСТИЦИЙ В РАЗВИТИИ И ЭФФЕКТИВНОСТИ ЭКОНОМИКИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ.

**С.Д.Гасанова**
**Азербайджанский Технологический Университет**
**hesenova985@gmail.com**

Одной из главных задач современности является совершенствование инвестиционных отношений, играющих важную роль в формировании аграрного рынка и стимулирующих его развитие.

По мере развития отраслей экономики страны значительно возрастает роль инвестиций, а привлечение и эффективное использование финансово-кредитных ресурсов становится важным фактором экономического прогресса во всех сферах. Увеличение инвестиций в развитие аграрного сектора создает основу для его выхода на новые рынки, развития инвестиционных отношений и его формирования.

**Ключевые слова**: инвестиции, инновации, финансы, материальные и интеллектуальные ресурсы

# BAZAR VƏ ONUN İNFRASTRUKTURUNUN İNKİŞAFININ PROQNOZLAŞDIRILMASI HAQQINDA MARKETİNQ ARAŞDIRMALARI

**T.S.Yusifov**
**Azərbaycan Texnologiya Universiteti**
**Teymuryusif.51@gmail.com**

Qeyd etməliyik ki, Sovetlər Birliyi dövründə ölkəmizdə məhsul istehsalı ilə məşğul olan müəssisələr mövcud olmuş, lakin bu müəssisələrin özləri qərar qəbul etməmişlər. Müəssisələr yalnız tapşırılmış məhsulları istehsal etmişlər. Eyni zamanda, hökümət müəssisələri bəzən lazım olduğundan da az, bəzi hallarda isə izafi dərəcədə istehsal vasitələri ilə təmin edilirdi. Qüvvədə olan qanunlar açıq şəkildə pozulmasa da, onlardan yan keçmək bir həyat tərzinə çevrilmişdir.

Bazar iqtisadiyyatında olduğu kimi, Sovet sistemində də qiymətlər mövcud olmuş, lakin qiymətlər bazar tərəfindən deyil, hökümətin göstərişi əsasında təyin olunurdu. Qeyd edilməlidir ki, Sovetlər Birliyi dövründə kolxoz-bazar ticarətində qiymətlər tənzimlənsə də tələb və təklifin təsiri altında formalaşmırdı.

Eyni zamanda sovet dövrünün kənd təsərrüfatı sistemində kolxozçular ehtiyac duyduqları toxum, gübrə və texnika ilə təmin olunmağa öyrəşmişlər. Onlar bütün bu və ya digər istehsal vasitəlrini əldə etmək və məhsulları bazarda satmaq haqqında heç bir narahatçılıq keçirməmişlər. Bazar iqtisadiyyatı şəraitində isə xammal və məhsul bazarları yaradılmalı idi. Bu isə öz növbəsində yeni firma və müəssisələrin yaradılmasını tələb edirdi. Yetkin bazari qtisadiyyatına malik ölkələrdə hüquqi-normativ baza bir əsr yarımdan da uzun müddətə, azad bazar kapitalizmin də meydana çıxan problemlərə cavab olaraq yaranmışdır. Deməli, fond birjası yaratmazdan əvvəl bu sahədə real normativ–hüquqi aktların mövcud olduğuna əmin olmaq gərəkdir. Fond birjalarının fəaliyyətinə dair qanunvericilik bazasının təkmilləşdirilməsi istehsal vasitələri bazarının formalaşması və təkamülü prosesində mühüm əhəmiyyətə malikdir.

Bazar infrastrukturunda əsas rol pul, kredit və qiymətli kağızlar bazarından ibarət olan maliyyə bazarına məxsusdur. Bazar infrastrukturunun mexanizmində investisiya bazarı xüsusi yer tutur. Bugün Azərbaycan iqtisadiyyatının qeyri-neft sahələri neft sahəsinə nisbətən zəif inkişaf edir. Bu bütün bazar infrastrukturunun inkişafına böyük ziyan verir. Deməli qeyri-neft sektoruna investisiyaların cəlb edilməsi üçün şərait yaradılması çox vacibdir. Respublika iqtisadiyyatının qeyri-neft sektorunun daha da inkişaf etdirilməsi xarici investorların köməyi ilə həyata keçiriləbilər. Bunun üçün dövlətin köməyi və zəmanəti olmalıdır.

Bazar infrastrukturunda sığorta bazarı mühüm yertutur. Bu bazar təşəkkül mərhələsindədir və orada 50-dən çox sığorta şirkəti və firması fəaliyyət göstərir. Lakin onların əksər hissəsi çox az nizamnamə kapitalına görə sərbəst şəkildə iri riskləri öz üzərinə götürmək imkanına malik deyillər. Ona görə də hər il iri məbləğlər xaricə təkrar sığortaya göndərilir. Bu iqtisadiyyatımız üçün sərfəli deyildir. Burada da dövlət respublikada güclü təkrar sığorta şirkətinin yaradılması istiqamətində öz sözünü deməlidir. Ölkəmizdə istehsal vasitələri bazarının infrastrukturunun inkişaf etdirilməsi mühüm əhəmiyyətə malikdir.

Marketinq araşdırmalarında eksperiment metodunun istifadə sahələri aşağıdakılardır:

- Məhsul, qiymət və reklam məsələləri;
- Qablaşdırmanın rəng, material və forma baxımından eksperimenti;
- İstehlakçı tərəfindən qəbul ediləcək məhsul xüsusiyyətlərini müəyyənləşdirmək üçün yeni məhsulların sınaqdan keçirilməsi;
- Tələbin qiymət elastikliyini müəyyənləşdirmək, qiymət siyasətinin satışa təsirini yoxlamaq;
- Müəssisələrin reklam xərclərinin, istifadə etdikləri reklam şüarlarının və rəng effektlərinin eksperimenti.

**İstehlakçı araşdırması**. İstehlakçı tədqiqatları iqtisadi, psixoloji və sosial-mədəni amillərin istehlakçı alış qərarlarında rolunu araşdırır. Bu araşdırma ilə demoqrafik xüsusiyyətlər, istehlakçının yaşı, cinsi və ailə böyüklüyü, gəlir, peşə, təhsil səviyyəsi və sosial vəziyyət kimi sosial-iqtisadi xüsusiyyətlər, xarakter və vərdişlər kimi psixoloji xüsusiyyətlər haqqında məlumatlar verilir.

**Qablaşdırma araşdırması.**Qablaşdırma araşdırması, istehlakçının mövcud bir məhsulun və ya bazara yeni çıxan bir məhsulun qablaşdırılmasına verdiyi reaksiyanın araşdırılmasıdır. Qablaşdırma tədqiqatları texniki tədqiqatlar və istehlakçı qiymətləndirmələrinə bölünür:

Texniki tədqiqatlar istehsal şöbəsinə aiddir. Qablaşdırmanın quruluşuna dair bir araşdırmadır. Burada qəza, düşmə, təzyiqə davamlılıq və qaz keçiriciliyi kimi testlər tətbiq olunur.
İstehlakçı qiymətləndirməsi marketinq şöbəsinə aiddir. Burada məqsəd rəng və formanı qavramaq, markanı tanımaq və psixoloji təsirləri qiymətləndirməkdir.
**Xarici Bazar Araşdırmaları.** Xarici bazar araşdırmaları Daxili bazar araşdırmalarından daha mürəkkəbdir, dil, mədəniyyət və sosial zövq kimi cəhətləri ilə fərqlənən bazar mühitində məlumatların toplanması və təhlilini əhatə edir. Məqsəd, hər hansı bir xarici bazarda müəyyən bir məhsulun marketinqi zamanı qərar verməyə kömək edəcək məlumatlar toplamaqdır.
Xarici bazar araşdırması vasitəsilə əldə ediləcək datalar aşağıdakılardır:

- Hədəf edilmiş xarici bazarlar haqqında ümumi məlumat;
- İxrac ediləcək məhsul haqqında məlumat;
- Hədəf bazarında qanunvericilik və bazar şərtləri barədə məlumat.

Xarici bazar araşdırması modelində; mədəni, iqtisadi, demoqrafik, coğrafi, texnoloji, sənaye, ixrac ediləcək məhsul və xarici ticarət siyasətləri, idxal rejimi və qaydaları, gömrük qanunvericiliyi, rəqabət statusu, paylama kanalları, satış səyləri və kredit statusu haqqında məlumatlara ehtiyac var.

Ən əhəmiyyətlisi və əhəmiyyətlisi vasitəçilərin mallara sahib olması və "kimin adına ticarət aparılması" əsasında ayrılmasıdır. Bu əsasda vasitəçilər dörd əsas qrupa bölünür:
satıcılar;
- distribyutorlar;
- komissiya agentləri;
- brokerlər.

**Dilerlər**- Topdansatış, az tez-tez öz adından və öz hesablarına əməliyyat aparan pərakəndə vasitəçilər. Təchizat müqaviləsi ilə mal alırlar, çatdırılma üçün ödəniş edildikdən sonra malın sahibi olur və bu malları istehlakçılara satırlar.
**Distribyutorlar** - İstehsalçıların adından və öz hesablarına əməliyyat aparan topdan və pərakəndə vasitəçilər. İstehsalçı distribyutorun məhsullarını müəyyən bir ərazidə və müəyyən müddətə ticarət etmək hüququ verir. Distribyutor məhsulun sahibi deyil. Müqaviləyə əsasən onu satmaq hüququnu əldə edir.
**Komissiya agentləri** - Öz adından və istehsalçının hesabına əməliyyat aparan topdan və pərakəndə vasitəçilər. Agent məhsul sahibi deyil. Göstərilən xidmətlər üçün ona əməliyyatların faizi şəklində bir haqq ödənilir.
**Brokerlər** - tərəfdaşları gətirən əməliyyatlar zamanı vasitəçilər. Brokerlər məhsulların sahibi deyillər, məhsulları satmırlar. Təlimatlar əsasında hərəkət edirlər və əməliyyatı asanlaşdırırlar; mükafat yalnız satılan məhsullar üçün alınır.

Malların sahibi olması / olmaması ilə funksiyaların fərqləndirilməsinə əsaslanaraq vasitəçilər 14 qrupa bölünürlər. Budur onların qısa təsviri.

Daimi toptancılar tam xidmət biznesi aparır. Adətən, tam mülkiyyət əsasında, istehlakçılar üçün mallarla əməliyyat aparan müstəqil bir şirkətdir. İstehsal distribyutorları istehlakçı görünüşündə müntəzəm topdan satıcılardan fərqlənir. Bu vəziyyətdə onlar sənaye təşkilatları, kommunal xidmətlər, dəmir yolu, xidmət sektoru təşkilatları və s. Satış siyasəti marketinq qarışığının (satışın) üçüncü elementinin praktik şəkildə həyata keçirilməsi ilə əlaqələndirilir. Müəyyənləşdirməyi təmin edir malın harada, kimə, necə, kim tərəfindən və hansı şərtlərlə satılması. Başqa sözlə, marketinq siyasəti istehsalçıdan istehlakçıya qədər olan məkanda və vaxtda malların rəqabətli hərəkətini təşkil etməyə yönəlmiş tədbirlərin işlənib hazırlanmasını və həyata keçirilməsini nəzərdə tutur.
**Satınalma siyasəti.**Bundan əlavə, marketinq siyasətinin tərs tərəfini unutmamalıyıq - haqqında satınalma siyasəti. İlə əlaqəli problemlərin həllini təmin edir malın haradan, kimdən, necə, kim tərəfindən və hansı şərtlərlə alınması . Eyni şey, amma əksinə. Satınalma siyasəti, tədarükçülərin

seçilməsinə, malların tədarükü və ödənilməsi üçün optimal şərtlərin hazırlanmasına və həyata keçirilməsini nəzərdə tutur.

Bazar iqtisadiyyatı şəraitində istehsal vasitələri bazarının normal və səmərəli fəaliyyəti yalnız inkişaf etmiş bazar infrastrukturu vasitəsi ilə həyata keçirilir. Bazar ictimai təkrar istehsalın bütün fazaları (istehsal, bölgü, mübadilə və istehlak) ilə bir sistem halında, əlaqəli olduğundan, onun infrastrukturu bir çox xidmət növlərini özündə birləşdirir. Bazar infrastrukturu bazarın ayrı-ayrı növlərinin fəaliyyəti üçün əlverişli iqtisadi mühitin təhlil olunmasına xidmət edir.

Mövzunun aktuallığı:Bazar və onun infrastrukturunun inkişafının proqnozlaşdırılmasınıdüzgün quraraq müəssisinin bazarda rəqabət qabiliyyətinin artırır.

**Açar sözlər**: Bazar, satış siyasəti, marketinq araşdırmaları

**Ədəbiyyat siyahısı:**

1. Инновационный маркетинг: учебник для бакалавриата и магистратуры / под. Общ. ред. С.В. Карповой. – М.: Издательство Юрайт, 2016, 457 с
**Азербайджанский Технологический Университет**
**togrulyusibli09@gmail.com**

В целом, идентификация рисков, индикаторы, методы оценки и методы, выбранные для смягчения последствий в управлении, должны быть тщательно изучены и должным образом применяться. Это означает управление рисками.

## RISKS IN MANAGEMENT: GOAL, INDICATORS, EVALUATION METHODS AND WAYS TO REDUCE THEM

**Prof. E.Y.Guseinova**
**T.A.Yusibli**
**Azerbaijan Technological University**
**togrulyusibli09@gmail.com**

In general, risk identification, indicators, assessment methods and methods chosen for mitigation in management should be carefully studied and properly applied. This means risk management.

## İNVESTİSİYA LAYİHƏLƏRİ VƏ ONLARIN MALİYYƏLƏŞDİRİLMƏSİ RİSKLƏRİ

**X.N.Əliyev**
**Azərbaycan Texnologiya Universiteti**

Xaliq.aliyev99@icloud.com

İnvestisiya ümumilikdə iqtisadiyyatda, həmçinin müxtəlif sahələr və müəssisədə reallaşan fundamental iqtisadi proseslərdə əhəmiyyətli iştiraka malikdir. İnvestisiyada olan keyfiyyət və kəmiyyət göstəricilərindən ölkədə olan istehsal imkanı, istehsal fəaliyyətinin səmərəli olması, istehsalın sahə üzrə və yenidən istehsal quruluşu , iqtisadi artım tempindən asılıdır.

İnvestisya - mənfəət qazanmaq və ya müsbət sosial effektə nail olmaq üçün sahibkarlıq və başqa fəaliyyət sahəsi obyektlərinə kapital yatırımına deyilir. Bazar iqtisadiyyatı dövründə mənfəət qazanmaq investisiya aktivliyinin stimullaşdırıcı məqsədidir. Belə məqsəd müəyyən məhsul istehsalı, bazar daxilində tələb edilən xidmətin göstərilməsi xüsusiyyətini daşıyır, bu məqsədlərsiz investisiya qoyuluşu səmərə verməz. Əgər vergilər, əsasən də gəlir vergisinin səviyyəsi azalarsa, qanuna uyğun olaraq əmlakın hüquqi forması təmin olunarsa, stimullaşdırıcı motiv daha da güclü və möhkəm olacaq. Bu gəlirlərin təkrar olaraq maliyyələşəsinə şərait yaratmaq, yəni onu konkret miqdarda istehsalatın inkişaf etdirilməsinə yönəltmək daha səmərəlidir.

İqtisadi ədəbiyyatda investisiya nemətlərin istifadəsindən bir anda imtina aktı kimi qiymətləndirilir.

İnvestisiyanı, gəliri və ya sosial fayda qazanmaq üçün sahibkarlıq və başqa fəaliyyət növləri obyektlərinə yatırılan maliyyə vəsaitləri, həm də maddi və intellektual resurslardan təşkil olunmuşdur. Hazırda olan bəllidirsə, gələcəkdə olan hər zaman qaranlıqdır. Bu səbəbdən, investisiya müəyyənləşdirilməyən səmərələrin qazanılması məqsədilə xərclənən konkret məsrəfləri göstərir. İnvestisiya yatırımının reallaşdırılmasında nəticələnən məsrəflər gələcək dövrdə səmərə verməyə başlayacaq ki, bu səmərənin dəyəri də əvvəlcədən bəlli olmur. Malların alınması baxımından, investisiya qoyuluşuna gələcək dövrdə yararlanması məqsədilə qazanılan malların həcmi aid edilir. Bu səbəbdən, investisiya hər zaman gələcəkdə olacaq istehlakla əlaqədardır. Yəni investisiya yatırmaq deyəndə , gələcək dövrdə daha çox vəsait qazanmaq üçün hazırdakı vəsaitdən imtina olunması nəzərdə tutulması deməkdir. Bu cür münasibəti amerika iqtisadçıları L.Qitman və M.Conk da müsbət dəyərləndirirlər. Bu iqtisadçılar investisiya terminınə kapital məbləğinin saxlanması və ya çoxaldılması və gəlir qazanılmasını təmin etməli olan kapital qoyuluşu metodu kimi diqqət göstərirlər. Fikrimizcə, mikroiqtisadi tərəfdən nəzər yetirdikdə, gələcəkdə olacaq istehlakla bağlı hazırki istehlakdan imtina və imtina olunmuş resursun gələcəkdə olan səmərələrin qazanılması və ya resursun qiymətinin saxlanması üçün istifadə olunması «investisiya» termininin mövzusunu aydınlaşdırır.

İnvestisiya layihəsi – investisiyaların istifadə edilməsi planıdır. İnvestisiya layihəsi aşağıdakılardan təşkil olunmuşdur:

- biznes-plan;
- müəssisənin xarici mühitinin təsviri;
- təşkilat və idarəetmə sisteminin inkişafı;
- layihənin reallaşdırılmasında mümkün risklərin təhlili;
- risklərin minimuma endirilməsi üçün mümkün yolların tapılması;

Riskin azaldılması həm çeviklik, həm də məqsədyönlü fəaliyyət tələb edir. Bu məqsədyönlü fəaliyyət risklərin məcmu potensial sferaları üzrə baş verməlidir. Risklərlə bağlı ən önəmli məsələ risklərin tərəflər arasında bölüşdürülməsi və risklərdən yaranan itkilərin müəyyənləşdirilməsidir. Lakin bazar şəraitində itkilərin var olması onların sığortalanmasını tələb edir.

Riskin mövcudluğu və onunla əlaqədar olaraq maliyyə itkilərinin obyektiv mövcud olduğu şəraitdə xüsusi bir mexanizmə, yəni riskin idarə edilməsi prosesinə xüsusi bir təlabat hiss edilir. Bu mexanizm də təsərrüfat fəaliyyətində qərarların qəbulu və reallaşdırılmasında firma sahibkarının öz məqsədlərinə çatması nöqteyi-nəzərindən qarşıya çıxan risklərin dərindən araşdırılmasına və idarə edilməsinə xidmət edir. Risklərin idarə edilməsi prosesinin ilk mərhələsində risklər təhlil edilir və qiymətləndirilir. Daha sonra isə risklərə təsir metodları müəyyən edilir və bu metodların içərisində iqtisadi cəhəttən ən

səmərəlisi müəyyən edilir. Ən səmərəli metod seçimindən sonra optimal qərar qəbul edilir və bu qərarın reallaşdırılması gedişində risklərə təsiretmə, yəni risklərin idarə edilməsi prosesi baş verir.

**Mövzunun aktuallığı:** İqtisadiyyatın müxtəlif sahələrinə investisiyalarınqoyuluşu Azərbaycan iqtisadiyyatının sürətli inkişafının vacib şərtlərindən biri hesab edilir. İnvestisiya fəaliyyətinin inkişafı zamanı iqtisadiyyatın təşəkkülü və inkişafıtəmin edilir, müəssisələr modernləşdirilir, yeni əmtəə və xidmətlərin istehsalının mənimsənilməsi təmin edilir.

**Tədqiqatın məqsədi:** Tədqiqatın məqsədi aşağıdakılardan ibarətdir:

- Maliyyə riskləri, onların yaranması səbəblərinin araşdırılması;
- Maliyyə risklərinin təsnifatının müəyyən edilməsi;
- Risklərin idarə edilməsi sisteminin strukturunun muasir təhlili;

**Tədqiqat obyekti:** İnvestisiya layihəsi və investisiya layilərinin maliyyələşdirilməsi riskləri

**Tədqiqat metodu:** Tədqiqat prosesində iqtisadi-statistik, statistik qruplaşdırma, müqayisəli- iqtisadi təhlil, sistemli yanaşma üsullarından istifadə olunmuşdur.

**Açar sözlər:** investisiya , investisiya layihələri, maliyyələşdirmə riskləri

## Ədəbiyyat siyahısı:


1. Erdal A.N., Kərimov V.X. İnvestisiya layihələrinin hazırlanması və qiymətləndirilməsi. Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2002, 151 s
2. Əliyev F.B. İnvestisiya layihələrinin təhlili və dəyərləndirilməsi. Bakı, "Azər" nəşriyyatı, 2003 s
3. Əliyev N.C., Daşdəmirov M.Ə, Mirzəyev V.S. İnvestisiya layihələrinintəhlili. Bakı, 2003, 182 s
4. http://www.e-qanun.az/framework/9367
5. https://banker.az/ensiklopedia/investisiya-layihəsi-nədir/
6. https://dolg-nalog.ru/az/news/osnovnymi-metodami-finansirovaniya-investicii-yavlyayutsya-teoreticheskie.html


## ИНВЕСТИЦИОННЫЕ ПРОЕКТЫ И РИСКИ ИХ ФИНАНСИРОВАНИЯ

**Х.Н.Алиев**
**Азербайджанский Технологический Университет**
Xaliq.aliyev99@icloud.com

Из экономической теории известно, что чем более ограничены ресурсы, тем больше потребность в их более эффективном использовании. С этой точки зрения актуально ограниченное финансирование государственных инвестиций.

## INVESTMENT PROJECTS AND RISKS OF THEIR FINANCING

**Kh.N.Aliyev**
**Azerbaijan Technological University**
Xaliq.aliyev99@icloud.com

Economic theory suggests that the more limited the resources, the greater the need for more efficient use. From this point of view, limited financing of public investments is relevant.

## XİDMƏT SAHƏSİNDƏ UÇOT VƏ AUDİTİN TƏŞKİLİ

**P.E.Muxtarova**
**A.N.Talıbova**

**Azərbaycan Texnologiya Universiteti**
**talibovhidayet2020@gmail.com**

Mühasibat uçotu və eyni zamanda audit müəssisələrdə əsas rol oynayır. Müəssələrin gələcək zamandakı fəaliyyətlərinin planlı olması və hal-hazırda maliyyə vəziyyətlərinin təyin olunması mühasibat uçotu əsasında hazırlanır.

Xidmət sektorunda mühasibat uçotu müəssisələrin fəaliyyəti onu iqtisadiyyatın digər sahələrindən fərqləndirən və istehsalın təşkilinə eyni zamanda müəssisənin iqtisadiyyatına müəyyən təsir göstərən bir sıra xüsusiyyətlərə malikdir. Bunlar aşağıdakı əsas xüsusiyyətlərdir:

1. Xidmət müəssisələrinin fəaliyyəti əsasən təklif olunan xidmətlərə olan tələbatdan asılıdır. Xidmət istehsalı tələbatın mövsümi tərəddüdlərinə məruz qalır, həm də istehsalın həcminin yerli şəraitdən asılılığını müəyyən edən yerli xarakter daşıyır.
2. Xidmət sektoru müəssisələri öz fəaliyyətlərində istehsal və ticarət əməliyyatlarını birləşdirir.
3. İstehsal prosesində xidmət göstərən müəssisələr əhalinin əmtəə dəyərlərindən (materiallar, avadanlıqlar) istifadə edirlər.
4. Kommunal xidmət müəssisələri çoxprofilli xarakter daşıyır, çünki onlar təkcə əhaliyə deyil, həm də təşkilatlara xidmət göstərir, həmçinin istehlak malları istehsal edir.

Azərbaycanda audit xidmətinin təşkili, auditorların hüquqları və vəzifəsi, bu xidmətin başa çatdırılmasının hüquqi əsasları – audit xidməti haqqında qanunla müəyyən olunur. İndiki zamanda Azərbaycan Respublikasında bu xidmətləri audit təşkilatları ilə bir yerdə sərbəst auditorlar həyata keçirirlər. Sərbəst auditor isə Auditor palatasının lisenziyalarına əsaslanaraq Azərbaycan ərazisində audit xidmətləri həyata keçirən fiziki şəxsə deyilir. Sadalanan şərtlər Azərbaycan ərazisində sərbəst auditor hüququna nail olamaq üçün lazımi olan şərtlərdir :

- Azərbaycan Respublikasının vətəndaşı olması;
- Mühasibat uçotu, hüquqşünas yaxud da maliyyə ixtisası üzrə ali təhsilli olmalı, sadalanan ixtisaslar üzrə ən az 3 illik iş stajı olmalıdır;
- Sərbəst auditorlar məhkum olmamalı(cinayət üzrə) və məhkumluq müddəti bitmiş olmalıdır;
- Digər ölkələrdə audit xidməti ilə məşğul olan şəxslər Auditorlar Palatasının icazəsi ilə burada işləyə bilər.

Audit olmaq üçün Auditorlar Palatasının əsasnaməsinə əsasən imtahanlar təşkil edilir və Palata tərəfindən komissiya əsasında nəzarət olunur.

**Mövzunun aktuallığı.** Mühasibat uçotu fərqli xidmət növünə fərdi tələbat və tələbatın ödənilməsi üçün nəzərdə tutulan milli iqtisadiyyatın əsas sahəsindən biridir.

**Tədqiqatın məqsədi**. Xidmət sektoru iqtisadi fəaliyyətin bəzi sahəsi kimi məqsədi əhalinin fərdi sifarişləri üçün fərqli pullu xidmətlər göstərən təşkilatların məcmusudur.

**Tədqiqat obyekti.** Mühasibat uçotu və audit

**Tədqiqat metodu.** Şəffaflıq və dəqiqliyinin təmin edilməsi üçün auditin metod hesab edilir.

**Açar sözlər:**mühasibat uçotu, audit xidmətləri, xidmət sektoru

## Ədəbiyyat siyahısı:

1. "Audit (Qanunvericilik və normativ sənədlər)" III cild "İqtisadiyyat və audit" jurnalının nəşri, Bakı-2005, 322 s
2. Abbasov İ.M., Məmmədov İ.A., Cabbarov A.S."Mühasibat uçotu (sahələr üzrə)" – dərslik. Bakı, 2017, 424 s
3. https://otherreferats.allbest.ru/audit/00109920_0.html
4. Баранов О.В "Аудит информационных систем", Вестник Финансовой Академии»М, 2009, №1

## ОРГАНИЗАЦИЯ УЧЕТА И АУДИТА В СФЕРЕ УСЛУГ

**П.Э.Мухтарова**
**А.Н.Талыбова**
**Азербайджанский Технологический Университет**
**talibovhidayet2020@gmail.com**

Бухгалтерский учет и аудит необходимы для бизнеса. Планирование будущей деятельности предприятий и определение текущего финансового положения основываются на информации, предоставляемой бухгалтерией.

## ORGANIZATION OF ACCOUNTING AND AUDIT IN THE SERVICE SECTOR

**P.E.Mukhtarova**
**A.N.Talybova**
**Azerbaijan Technological University**
**talibovhidayet2020@gmail.com**

Accounting and auditing are essential for businesses. The planning of the future activities of the enterprises and the determination of the current financial situation are based on the information provided by the accounting.

## ELEKTRON HÖKMƏT PORTALININ HƏYATIMIZDA ROLU

**A.A.Məmmədova**
**Azərbaycan Texnologiya Universiteti**
**vuqarayten2519@gmail.com**

E-hökumət" layihəsi "Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiyaya (2003–2012-ci illər)" əsasən işlənib hazırlanmışdır və "Elektron Azərbaycan" Dövlət Proqramı çərçivəsində həyata keçirilir. Layihə informasiya-kommunikasiya texnologiyalarının (İKT) geniş tətbiqi ilə dövlət orqanlarının fəaliyyətinin səmərəliliyinin və operativliyinin yüksəldilməsini, əhali, biznes qurumları, həmçinin öz aralarında əlaqələrin asanlaşdırılması və sərbəstləşdirilməsinə yönəldilmiş fəaliyyəti nəzərdə tutur, vətəndaş-məmur münasibətlərinin yeni müstəvidə qurulmasına, şəffaflığın təmin olunmasına və informasiya tələbatının dolğun ödənilməsinə şərait yaradır.

**Giriş**Layihənin məqsədi: Dövlət orqanlarında müasir İKT-dən istifadəni genişləndirməklə idarəetmə metod və mexanizmlərinin təkmilləşdirilməsi.Dövlət orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması, şəffaflığın təmin edilməsiİctimai qərarların qəbul edilməsində vətəndaşların iştirakına şərait yaradılması və hökumət orqanları ilə əlaqələrin daha sadə və münasib olan elektron üsullarla həyata keçirilməsi.Layihənin həyata keçirilməsinin əsas istiqamətləri. E-hökumətin və onun istifadəçilərinin fəaliyyətini tənzimləyən normativ-hüquqi bazanın formalaşdırılması.Dövlət idarəçiliyində müasir texnologiyaların tətbiqinin genişləndirilməsi.E-hökumət infrastrukturunun əsas komponentlərinin yaradılması."Bir pəncərə" prinsipi əsasında e-xidmətlərin tətbiqi və inkişaf etdirilməsi.Dövlət qulluqçularının, İKT üzrə mütəxəssislərin hazırlıq səviyyəsinin yüksəldilməsi.E-hökumət infrastrukturunun və informasiya sistemlərinin fəaliyyətinin təhlükəsizliyinin, fərdi məlumatların mühafizəsinin təmin olunması. Əhali qruplarının informasiya texnologiyaları sahəsində savadlılıq səviyyəsinin artırılması, e-hökumət xidmətlərinə çıxışının təmin olunması. E-hökumət infrastrukturunun əsas komponentləri. Dövlət orqanlarının vahid şəbəkə infrastrukturu. E-hökumət portalı,E-hökumət şlüzü,İnformasiya resursları və sistemlərinin dövlət reyestri,E-imza üzrə milli infrastruktur,E-sənəd dövriyyəsi üzrə milli infrastruktur (hazırlanmaqdadır),E-hökumət verilənlər mərkəzi (data-center) (hazırlanmaqdadır)

**Məsələnin qoyuluşu və həlli.**Layihənin əsas üstünlükləri:Hökumət üçün müasir texnologiyaların geniş tətbiqi ilə dövlət orqanlarının fəaliyyətinin səmərəliliyinin artması.Büdcə vəsaitlərinə qənaət edilməsi, dövlət xidmətlərinin göstərilməsi müddəti və xərclərinin azalması.Dövlət orqanlarının vahid informasiya fəzasının formalaşması və təhlükəsizliyinin təmin olunması.Effektiv, şəffaf, nəzarət oluna bilən dövlət idarəetməsinin və yerli özünüidarəetmənin bərqərar olması.Vətəndaşlar üçün Vətəndaşların dövlət idarəçiliyində fəal iştirak etməsi.Vətəndaşların dövlət orqanları ilə təmaslarının sadələşdirilməsi, daha münasib və çevik formada həyata keçirilməsi.İnformasiya tələbatının dolğun ödənilməsində rahatlıq.Məhdud imkanlı insanların dövlət xidmətlərinə çıxış imkanı əldə etməsi.Biznes sektoru üçün.Dövlət orqanları ilə səmərəli və operativ şəkildə əlaqə qurulması, xərclərin azaldılması.İqtisadi aktivliyin, rəqabət qabiliyyətinin və xarici bazarlara çıxış imkanlarının artması.

**Nəticə.** Layihənin icrasından əldə olunacaq nəticələr: E-xidmətlərin göstərilməsi:Vətəndaşlar üçün e-xidmətlər:Gəlir vergisi,iş axtarışı (müəssisələrdə vakansiyalar),Sənədlərin verilməsi (pasport və sürücülük vəsiqəsi),vətəndaşların qeydiyyat aktları (doğum, ölüm, nikah),avtomobillərin qeydiyyatı,"Onlayn" ərizə (ali məktəbə daxil olmaq, tikinti aparmağa razılıq almaq, pensiya, müavinət və s. haqqında),yaşayış yerində qeydiyyat,səhiyyə xidmətləri ( e-məsləhət) və s. Biznes sektoru üçün e-xidmətlər:Sosial fondlara ödəmə,E-bəyannamə, e-vergi hesab-fakturası,yeni şirkətlərin qeydiyyatı,gömrük bəyannamələri,E-lisenziya,E-satınalma, E-kotirovka,E-hərrac,arayışların verilməlidir.

**Açar sözlər:**elektron hökümət portalı,İKT,Online ərizə,xidmətlərin göstərilməsi

**Ədəbiyyatsiyahısı:**

1. Махов А.Е., Петровская Л.И., Смолкин В.М. Большой российский энциклопедический словарь. М.: Большая российская энциклопедия. 2003
2. Чернова Ж.Б. Анализ научных подходов к экономической природе кластера // Интернет-журнал «Науковедение», 6 (25), 2014, с. 1-10
3. https://www.e-gov.az/

## РОЛЬ ПОРТАЛА ЭЛЕКТРОННОГО ПРАВИТЕЛЬСТВА В НАШЕЙ ЖИЗНИ

**А.Мамедова**
**Азербайджанский Технологический Университет**
**vuqarayten2519@gmail.com**

Проект электронного правительства разработан в соответствии с Национальной стратегией развития информационных и коммуникационных технологий Азербайджанской Республики (2003-2012 годы) и реализуется в рамках Государственной программы «Электронный Азербайджан». Проект предусматривает повышение эффективности и результативности деятельности государственных органов за счет широкого использования информационно-коммуникационных технологий (ИКТ), мероприятий, направленных на облегчение и либерализацию отношений между населением, бизнесом, а также построение нового уровня взаимоотношений государственных служащих, обеспечение прозрачность и информационная потребность создает условия для полной оплаты.

## THE ROLE OF E-GOVERNMENT PORTAL IN OUR LIVES

**A.A.Mammadova**
**AzerbaijanTechnologicalUniversity**
**vuqarayten2519@gmail.com**

The e-government project has been developed in accordance with the National Strategy for Information and Communication Technologies for the Development of the Republic of Azerbaijan (2003-2012) and is being implemented within the framework of the State Program "Electronic Azerbaijan". The project envisages increasing the efficiency and effectiveness of government agencies through the widespread use of information and communication technologies (ICT), activities aimed at facilitating and liberalizing relations between the population, businesses, as well as building a new level of civil servant relations, ensuring transparency and information needs. creates conditions for full payment.

## İNNOVATIV BIZNESIN INKIŞAF ETMƏSINƏ MANEƏ TÖRƏDƏN FAKTORLAR VƏ ONLARIN XÜSUSIYYƏTLƏRI

**A.İ.Oruclu**
**Azərbaycan Texnologiya Universiteti**

anaroruclu41@gmail.com

Xırda biznesin inkişaf etməsi ölkənin iqtisadi baxımdan suverenliyinin təminləşdirilməsi prosesi zamanı səmərəli rola sahibdir. Bazar münasibətləri müstəvisində hər biznesmen özəl mülkündən, icarəyə götürmüş olduğu sahənin istifadəsində, nəyi və necə istehsal eləmək, həmçinin istehsalatla əlaqədar başqa qərarların azad şəkildə alınmasa malikdir. Kiçik biznesin böyüməsi iqtisadiinkişaf baxımdan bir sıra üstün cəhətlərə sahibdir. I sırada, məhsulun çeşidliliyi və rəqabətliliyi yüksəlir, istehlakcıların dəyişkən tələblərini daha aktiv və sürətli təmin edir. Həmdə, minimal xərc sərfiyyatı ilə özünü istehsalat vasitələrinin hamısı ilə təçhiz edərək bol çeşitli mal istehsal eləyir və beləliklə də, elmi və texnoloji inkişafın müvəffəqiyyətlərini asan şəkildə şirkətə cəzb eləyir.

Ümumiləşdirsək, təzə ideya və fikirlərin, kəşflərin və təzə istehsal metodlarının hazırlanıb ərsəyə gətirilməsi və reallaşdırılması kiçik biznesdən başlayır. Həm də, iri bizneslə müqaisədə daha az zaman müddətində özünü innovasiyalarla təmin eləmək xüsusiyyətinə malikdir.

İnnovasiya tətbiq olunması prosesi yüksək sərmayələrlə reallaşdırılır və bu baxımdanda investisya prosesinin təkminləşdirilməsi yönündə işlər görülür. Özəlliklə, hakimiyyət tərəfdən qeyri petrol sektorunda innovativ ideyaların tətbiq olunmasına görə “açıg qapı” politikası reallaşdırılır. Bölgələrdə daha yaxşı, daha təkminləşmiş cihazları sövq eləməklə bölgələrararası fərqliliklər yox edilir. Ancaq, bölgələrdə bizneslərin müasir cihazlarla zəif təchiz olunması yəni, innovasiyanın ləng inkişafı insanların bölgələr arasında yerdəyişmələrinə səbəbiyyət verir.

Sərmayələrin adam kapitalına istiqamətləndirilməsiylə irəliki zamanlarda savadlı kadr1arın əmələ gəlməsinin yekunu kimi həminki kadr1ara aid kəşflərin ərsəyə gəlməsinə müvəffəq olunacaq. Respublikamız 2009-2015 illərində elmi inkişaf yönündə hökümət programı işlənmiş, burda başlıca hədəf peşəkar kadr pottensialının və elm qurumlarının yaradılmasını təminləşdirmək, aparılmış araşdırmaları modern standartlar səviyəsinə çatdırmaqdır [3]. Peşəkar kadrları forma1aşdırmaqla təzə fikirlərin yığılması, doğru-düzgün araşdırmaların aparı1ması, bütün məhsullara aid informasiyaların firmaya axışının təmin olunması elmi məshulların emalını ödəyir.

İnnovasiya prossesinə maneə törədən faktorlardan birisi hökümətin nizamlama priyomu olan vergi endirimlərindən firmaların lazımi qaydada istifadə eləməməsidir. Hökumətin sayəsində inno-vasiyanın tənzim olunması, həmdə, vergi nizamlanması metodu ilə gerçəkləşdirilir. Bu nöqteyi nəzərdən güzəşt olunana vergi firmanın fəaliyətinin təkmilləşdirilməsinə və rəqabətlilik bacarıqlı məshulların yaradılmasına səbəbiyyət verir. AR-nın vergi qanunlarının 165-ci maddəsinə (vergi tutulmasının 0% olması) əsasən, uyğun olan icra hakimiyətinin qərarını əsas götürərək hazırlanılan sənayə pakrında uyğun icra hakimiyəti qurumunun müəyyənləşdirdiyi işlə fəaliyyət göstərən sənayə parkının rezitentinə podratcıdan, podratcıya onla biləvasitə anlaşma imzalamış subpodratcıdan həminki fəaliyət hədəflərinə görə məshulların təqdimi, islərin yerinə yetirilməsi və qulluğun verilməsi, 2016-nın bur mayından beş il ərzində verginin dərəcəsi 0 olur. Həmdə, vergi məcə11əsinə müvafiq qaydada, respublikada var olan sanaye park1arıyla səviyyəli texnologiya sahəsində fəaliyətdə olan sub-yektlər bəzi vergi1ərdən qazanc, əm1ak və topraq vergilərindən, ƏDV-dən məhrum olunmuşdur[2].

İnnovasiya fəaliyyətlərinin gerçəkləşdirilməsi ilkin olaraq araşdırma, praktika, təzə məshul örnəklərinin yaradılması və çalışanların cəhdlərinin birləşdirilməsi, mtb-nın (texnoloji bazanın) təkminləşdirilməsi böyük həcmli maliyə vəsaiti istəyir. Nəticədə, bu hadisələri böyük müəssisələrin həyata keçirilməsi gerçəkləşdirməsi daha məqsədyönlüdür.

İnnovativ proses aşağıda qeyd olunan etaplarda gerçəkləşdirilir:1) Firmaya qəbul olmuş ideaların strukturlaşdırılması; 2) Bu fikirlərin seçimlərdən keçməsi və bu mal fikrinin işlənməsi; 3) Malın əhəmiyyətliliyinin təhlil olunması; 4) Təzə malın hazırlanması; 5) Hazırlanmış malı sınamaq üçün örnəyinin bazara göndərilməsi; 6) Təzə malın kütləvi emalı qərarının verilməsi[1].

İnnovasiya biznesi birçox metodlarla gerçəkləşdirmək olar. Ən sərfəli metodun seçilməsi texnoloji xarakterlə, müəssisənin potencial şəraiti ilə, yönətim strukturunun təcrübəliliyi ilə və s. bağlıdır. İnnovasiya fəaliyyətinin tətbiq olunması biznesin inkişafına, onun təkmilləşdirilməsinə təkan verir. İnnovativ sahibkarlıq deyəndə, hüquqişəxsiyyət olmadan, elm və texnoloji sənayedə çıxış eləyən fiziki şəxsiyyətlər başa düşülür.

İnnovativ biznes başlıca olaraq, təzə çeşidli məshulun hazırlanması, onun gerçəkləşdirilməsi və bu mala hansısa qiymətin verilməsini özlüyündə təşkil eləyir.İnnovasiya biznesiylə fəaliyyət göstərmək ilkin olaraq, əmək bacarığı olan xalqın təshil dərəcəsindən, yəniki sadəcə ideya təklifləri eləməklə yox, həmdə bunları gerçəkləşdirmək qabiliyyətiə sahib olan peşəkar mütəxəssislərin hazırlıq səviyyəsiylə birbaşa əlaqədardır.

Müəyyən hökümətlər peşəkar mütəxəssisləri özlərinin respublikalarına çəkərək onların peşəkarlıq

dərəcələrini yüksəltməklə az maddi sərfiyyatla yüksək səviyyəli nəticə qazanaraq respublikanın innovativ inkişafını stimullaşdırır. Xırda və orta sahibkarlıq inovasiyanın bünövrəsidir. Bulara müəyyən faktorlar təsir eləyir:

- Xırda və orta bizneslərdə çalışanların hamısı vahid proyekt çərçivəsində toplaşır, beləliklə də, edilmiş araşdırmalar gərgin xarakterə malikdir;
- Xırda və orta bizneslər idarəçilik cəhətdən daha əhəmiyyətlidir, habelə, idarəçiliklə əlaqədar məsrəflər böyük bizneslərə nəzərən zəifdir və biznes fəaliyətinin yekununa yaxşı effekt göstərir.
- Xırda və orta bizneslərdə tükətici ehtiyyatlarını daha cəld müəyyən eləyir və yerinə yetirir.

İnnovativ fəaliyət innovasiya proyektinə əsasən gerçəkləşdirilir. İnnovativ fəaliyyət vençur fontlar hesabına maliyyə ilə təminləşdirilir ki, bu fontlar elmi araşdırmaların yekunlarını uyqulayan biznes müəssisələrinin fəaliyyətlərini investisyalaşdıran fontlardır. Bu vaxt firmanın texnoloji təchizatın təmini və marketink tədqiqatlarına aid xərcləri təminləşdirmək fürsəti mümkün olmaya bilir. Ancaq, vençur programları gerçəkləşdirən biznes firmalarına görə saydığımız faktorlar xərclərin əsasını təşkil eləyir. Paralel vaxtda vençur maliyyə təminatının likvidlilik çətinliyi də bu cəhətdən səmərəli çıxış etməz, ona görə ki font bazarlarında başlıca olaraq böyük biznes müəssisələrinin dəyərli kagızlarına dahada fikir verilir. Təzə fəaliyyət göstərən yeni, xırda bizneslərin satışı çox zaman təlb eləyən qəliz prosesdrir.

Vencur investisiyaların likvidlik problemi respublikamızda da həllini tapmış olan məsələ kimi aşağıda qeyd olunmuş xüsusiyyətləri özlüyündə birləşdirir:

- Vencur proyektlərini reallaşdıran bizneslərin fəaliyatinə sərmayə qoyulmasını gerçəkləşdirən sehm bazarlarının inkişaf etməməsi;
- Vencur preyektlərini gerçəkləşdirən bizneslərin alışında lazımı praktikanın az olması;
- Əcnəbi sərmayəçilərin respublikamızda təzə fəaliyət göstərən bizneslərə etimadının müəyyən dərəcədə zəifliyi.

Vençur sahibkarlığın inkişaf etməsində hökümət mühafizəsini əsas götürən normatif huquqi bazasının yoxluğu mənfi situasiya şəklində dəyərləndirilir.

**Ədəbiyyat siyahısı:**

1. Abbasov A.B., Abbasova R.Ə., Əliyev M.Ə., və b. "Biznesin təşkili və idarə edilməsi" Bakı-2011
2. "Azərbaycan Respublikasının Vergi Məcəlləsi" 905-IQ, Bakı, 2000
3."Sahibkarlığa Yardım Milli Fondunun təkminləşdirilməsi haqda" AR-sı Prezdentinin əmri-2009

## FACTORS HINDERING THE DEVELOPMENT OF INNOVATIVE BUSINESS AND THEIR CHARACTERISTICS

**A.Oruclu**
**Azerbaijan Technological University**
anaroruclu41@gmail.com

The article examines the stages of realization of innovative business, the factors that hinder its development. Also, the features of these factors were analyzed, the issues of what features of the liquidity problem of venture investments in our country are discussed. The growth of small business, first of all, from the point of view of economic development, increases the diversity and competitiveness of the product.

## ФАКТОРЫ, ПРЕПЯТСТВУЮЩИЕ РАЗВИТИЮ ИННОВАЦИОННОГО БИЗНЕСА, И ИХ ХАРАКТЕРИСТИКА.

**А.Оручлу**
**Азербайджанский Технологический Университет**
anaroruclu41@gmail.com

В статье рассматриваются этапы реализации инновационного бизнеса, факторы, препятствующие его развитию. Также были проанализированы особенности этих факторов, обсуждены вопросы, каковы особенности проблемы ликвидности венчурных инвестиций в нашей стране. Рост малого бизнеса, прежде всего, с точки зрения экономического развития, увеличивает разнообразие и конкурентоспособность продукта.

# AZƏRBAYCAN RESPUBLİKASINDA İNVESTİSİYA QOYULUŞUNUN SƏMƏRƏLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**M.B.Mamedova**

**Dos. R.M.Qəmbərova**
**Azərbaycan Texnologiya Universiteti**
**malakmamedova0@gmail.com**

Azərbaycan Respublikasında invesitisiya qoyuluşlarının nəzəri metodoloji əsasları haqqında məlumat verilmişdir.

İnvestisiya- İnvestisiya latın sözü olub (investio) , mənası “geyindirmək”, “örtmək” deməkdir. İnvestisiya mənfəət və ya müəyyən sosial səmərə əldə olunması məqsədi ilə sahibkarlıq və yaxud digər fəaliyyət növləri obyektlərinə uzun müddətə qoyulan maliyyə vəsaitindən, maddi və intelektual sərvətlərdən ibarətdir. Belə vəsait və sərvətlərə pul məqsədli bank əmanətləri, kreditlər, paylar, səhmlər, müvafiq qaydada rəsmiləşdirilmiş elmi-təcrübi və digər intelektual sərvətlər, daşınan və daşınmaz əmlak daxildir.İnvestisiya siyasəti dedikdə, investisiya qoyuluşlarının əsas istiqamətlərini iqtisadiyyatın aparıcı sahələrində cəmləşdirilməsi üzrə kompleks tədbirləri müəyyən təsərüfat qərarlarının məcmusu başa düşülür. İnvestisiya vasitəsi ilə respublikanın makro, mikro iqtisadiyyatının yüksək inkişafına nail olunur. Eyni zamanda iqtisadiyyatın tarazlığı onun səmərəliliyini yüksəldilməsi və milli gəlirin artımı təmin edir.Ölkə iqtisadiyyatına yönəldilən bütün investisiyalar 2 mənbədən ola bilər: daxili və xarici mənbələr. 2015-ci ilin ortalarından etibarən ölkədə biznes və investisiya mühitinin yaxşılaşdırılması istiqamətində bir sıra addımlar atılıb. İnvestisiya fəaliyyətinin stimullaşdırılması sahəsində investisiya təşviqi sənədi tətbiq edilib. İnvestisiya mühitinin təşəkkülündə müvafiq qanunvericilik bazasının möhkəmlənririlməsi mühüm rol oynayır. Hüquqi bazanın formalaşmasında Azərbaycan Respublikasında investisiya fəaliyyəti haqqında qanunun rolunu xüsusi qeyd etmək lazımdır. Azərbaycanın uzunmüddətli dövrdə dayanıqlı və tarazlı inkişafının təmin edilməsində investisiyaların cəlb edilməsi xüsusi rol oynayır. İnvestisiyaların tələb olunan həcm və keyfiyyətinin təmin edilməsi məqsədi ilə ölkədə investisiya mühitinin daha da yaxşılaşdırılması qarşıda duran əsas vəzifələrdədəndir. Bunun üçün şəxsi mülkiyyətin qorunması və korporativ idarəetmənin təkmilləşdirilməsinə, mülkiyyətin formasından asılı olmayaraq bütün investorlar üçün daha əlverişli rəqabət mühitinin yaradılmasına, investisiya hüquqi-normativ rejimin təmin edilməsi məqsədilə dövlətin rolunun artırılmasına, biznes informasiya təminatının yaxşılaşdırılmasına, mühasibat uçotunun və statistikanın beynəlxalq stardantlara uyğunlaşdırılmasına yönəldilmiş tədbirlər davam etdiriləcəkdir. Ölkədə dövlət investisiya siyasətinin əsas istiqamətlərini ölkənin iqtisadi təhlükəsizliyin təmin olunması, dövlət investisiyalarının elm tutumlu layihələrə yönəldilməsi, dövlətin müdafiə qabiliyyətinin artırılması prioritetləri təşkil edir. Azərbaycanın investisiya mühitindən danışarkən onun əlverişli geosiyasi və coğrafi mövqeyi, yüksək ixtisaslı kadr potensialı, zəngin təbii sərvətləri ön plana çəkilir. Əslində əlverişli investisiya mühiti yaratmaq üçün bunlar yalnız ilkin şərtlərdir, səmərəli yanaşma olmadıqda bu zənginlik ölkə üçün ciddi problemlər mənbəyi ola bilər. Azərbaycan investisiya qoyuluşunun artmasının səbəbi maliyyə bazarının təkmilləşdirilməsinə daim diqqət yetrilməsi ilə bağlıdır. Belə ki ölkədə əsas diqqət maddi resursların iş adamlarının əlində cəmləşməsinə yönəldilir. Maddi resursların investisiya layihələrinə istiqamətləndirilməsi baxımından Azərbaycan dünyada və MDB məkanında üstün mövqeyə malikdir.İnvestisiya fəaliyyəti anlayışını nəzərdən keçirdikdə aydın olur ki, İnvestisiya qoyuluşu perspektiv xarakter ilə fərqlənir- yəni qoyulmuş məqsədlərə tez bir zamanla deyil, müəyyən dövr ərzində nail olunur. İnvestisiya fəaliyyəti konkret məqsədə yönəlir gəlirin və ya digər faydalı sosial səmərənin əldə edilməsidir.

**Mövzunun aktuallığı:** İnvestisiya qoyuluşunu araşdırılması

**Tədqiqatın məqsədi:** İnvestisiyanın qoyulması və fəaliyyətində əsas mənbələrin öyrənilməsi

**Tədqiqat obyekti:** Azərbaycan Respublikasında investisiya qoyuluşunun səmərəliliyinin qiymətləndirilməsi

**Açar sözlər**: investisiya, investisiya qoyuluşu və fəaliyyəti ,investisiyanın nəzəri əsasları

**Ədəbiyyat siyahısı:**

1. Əhmədov M.A. Hüseyn A.C. İqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları. Bakı, 2011
2. Məmmədov İ.S. Azərbaycan sənayesində investisiya fəaliyyəti və onun təkmilləşdirilməsi. Bakı, 2005
3. AR konstutiyası, 2013

## ОБЪЕМ ИНВЕСТИЦИЙ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ ОЦЕНКА ЭФФЕКТИВНОСТИ

**доц. Р.М.Гамбарова**
**М.Б.Мамедова**
**Азербайджанский Технологический Университет**
**malakmamedova0@gmail.com**

Сообщено о рациональности инвестирования в Азербайджанской Республике.

## EVALUATION OF EFFICIENCY OF INVESTMENT IN THE REPUBLIC OF AZERBAIJAN

**Dos. R.M Gambarova**
**M.B.Mamedova**
**AzerbaijanTechnologicalUniversity**
**malakmamedova0@gmail.com**

Information was provided on the theoretical and methodological bases of investments in the Republic of Azerbaijan.

## MHBS ƏSASINDA MİLLİ UÇOT VƏ HESABAT SİSTEMİNİN İNKİŞAFI

**dos. Y.Ə.Abbasova**
**A.A.Hüseynova**
**Azərbaycan Texnologiya Universiteti**

aitachh999@gmail.com

Azərbaycan şirkətlərində mühasibat uçotunun təşkilini təkmilləşdirmək üçün Beynəlxalq Mühasibat Uçotu Standartlarına və Maliyyə Hesabatlarına (BMHS) diqqət yetirilməsi vacibdir. MHBS-nın rolu müxtəlif ölkələrdən olan şirkətlər tərəfindən hesabatların müqayisəliliyini təmin etməkdən ibarətdir.

Mühasibat uçotu sistemləri birinci növbədə mühasibat uçotu prinsipləri, qiymətləndirmə prinsipləri, uçot metodları (məsələn, mühasibat uçotu prosedurları) və maliyyə hesabatları (maliyyə hesabatlarının məzmunu) ilə xarakterizə edilir. Sahibkarların maliyyə hesabatlarını uyğunlaşdırılması səylərinə baxmayaraq, dünyada əhəmiyyətli fərqlərə malik mühasibat uçotu sistemləri kifayət qədər yüksəkdir. O, cəmiyyət tərəfindən qurulmuş və milli qanunvericilikdən təsirlənmişdir. Son dövrlərdə qloballaşma və kapital bazarlarında müəssisələrin sürətli inkişafı müxtəlif mühasibat uçotu təcrübələri arasında fikir ayrılıqlarını aradan qaldırmağa yönəlmiş qlobal səviyyədə qəbul edilmiş maliyyə hesabat sistemlərinə ehtiyac yaratmışdır.

Azərbaycanda Beynəlxalq Maliyyə Hesabatları Standartları və MHBS-nı qəbul etmək zəruridir. 2008-ci ilin yanvar ayından etibarən Avropa İttifaqı ölkələrində və digər ölkələrdəki bütün şirkətlər, eləcə də Azərbaycanda MHBS-a uyğun olaraq maliyyə hesabatları tərtib etməlidirlər. İqtisadiyyat sferasında beynəlxalq inteqrasiyanın artan rolu ilə müşayiət olunan biznesin inkişafı mənfəətin formalaşması və hesablanması prinsiplərinin, vergitutma bazasının, müxtəlif ölkələrdə istifadə olunan kapitalın qoyuluşu şərtlərinin vahidliyi və başa düşülməsi üçün müəyyən şərtlər yaradır.

Milli uçot və hesabat sisteminin inkişafı üçün aşağıdakılar tətbiq olunmalıdır:

- Milli standartların hazırlanması prosesi zamanı standartların məzmunu maksimum dərəcədə beynəlxalq standartlara qarşılıqlı uyğunluğu olmalıdır;
- Uçot informasiyaların tətbiqi və işlənilməsi üçün kopüterlərdə istifadə olunan proqramların, eyni zamanda mühasibat uçotu registrlərinin həmçinin hesabat formalarının düzgünlüyünü yenidən baxılıb, nəzərdən keçirilməlidir;
- İxtisası mühasibatlıq üzrə olan kadrların hazırlanması sistemi inkişaf etdirilməlidir.

Dünyanın hər bir yerində qəbul olunan çoxlu sayda hesabat formalarının standartlara uyğun olması vacib əhəmiyyətə daşıyıb, ölkə iqtisadiyyatının təkmilləşdirilməsində böyük rol oynayır.

**Mövzunun aktuallığı.** Azərbaycanda MHBS-nın qəbulu iqtisadiyyata kömək edir və müsbət iqtisadi təsirlərlə inkişaf edir.

**Tədqiqatın məqsədi**. Mühasibat uçotunun və maliyyə hesabatlarının iqtisadi inkişafın müasir səviyyəsinin tələblərinə uyğun təkmilləşdirilməsi.

**Tədqiqat obyekti.** Uçot və hesabat sisteminin inkişafı.

**Tədqiqat metodu**. BMHS-a keçid maliyyə hesabatlarının şəffaflığının və effektivliyinin artırılmasına əhəmiyyətli təsir göstərmişdir.

**Açar sözlər:** Maliyyə hesabatları, Maliyyə Hesabatlarının Beynəlxalq Standartları (MHBS),
Azərbaycanda MHBS-nın təsiri, milli hesabat standartları

**Ədəbiyyat siyahısı:**

1. Rzayev Q.R., "Mühasibat uçotunun beynəlxalq standartları və maliyyə hesabatı", Bakı, 2004
2. Alexander D., Britton A., Jorissen A. "International Financial Reporting and Anlysis", 2010
3. https://unec.edu.az/application/uploads/2018/12/Ayshan-Suleymanli-diplom-isi.pdf
4. https://www.ifrs.org/use-around-the-world/why-global-accounting-standards/

**РАЗРАБОТКА НАЦИОНАЛЬНОЙ СИСТЕМЫ УЧЕТА И ОТЧЕТНОСТИ НА ОСНОВЕ**

**МСФО**

**доц.Е.А.Аббасова**
**А.А.Гусейнова**
**Азербайджанский Технологический Университет**
**aitachh999@gmail.com**

Для улучшения организации бухгалтерского учета в азербайджанских компаниях необходимо обратить внимание на Международные стандарты бухгалтерского учета и финансовой отчетности (МСФО). Роль МСФО заключается в обеспечении сопоставимости отчетов из разных стран.

**DEVELOPMENT OF THE NATIONAL ACCOUNTING AND REPORTING SYSTEM BASED ON IFRS**

**prof. E.A.Abbasova**
**A.A.Huseynova**
**Azerbaijan Technological University**
**aitachh999@gmail.com**

In order to improve the organization of accounting in Azerbaijani companies, it is necessary to pay attention to International Accounting Standards and Financial Reporting (IFRS). The role of IFRSs is to ensure comparability of reports from different countries.

## REGİONAL ƏMƏK BAZARININ FORMALAŞMASI VƏ İNKIİŞAF PROBLEMLƏRİ

**dos. M.Tağıyev**
**P.A.Balaşov**
**Azərbaycan Texnologiya Universiteti**

Məqalədə regional əmək bazarının formalaşması və inkişaf problemləri barəsində danışılıb. Regional əmək bazarı və onun real vəziyyəti həm konkret regionun, həm də bütövlükdə ölkənin iqtisadiyyatının inkişafına mühüm təsir göstərir. Regional əmək bazarının fəaliyyətinə və inkişafına təsir edən əsas amillər arasında aşağıdakıları sadalamaq olar:

1) İqtisadi amil - vakant iş yerləri üçün regionun əmək resurslarına tələbat;
2) Demoqrafik amil - əmək ehtiyatlarının potensialının formalaşması;
3) Sosial-psixoloji amil - təhsilin əlçatanlığı üçün şəraitin formalaşdırılması, əmək ehtiyatlarının miqrasiyası üçün motivasiya, əsas dəyəri işçilərin orta aylıq nominal hesablanmış əmək haqqı olan zəruri yaşayış səviyyəsi və gəlir;
4) Təhsil amili - işçilərin tələb olunan peşələr və ixtisaslar üzrə hazırlanması;
5) İnvestisiya amili – əlavə iş yerlərinin yaradılması üçün vəsaitlərin qoyuluşu, onların təmin olunma səviyyəsi, təhsilin keyfiyyətinin inkişafı və s.

Regional əmək bazarının inkişafı istiqamətində yaranan problemləri həll etmək üçün bir sıra məsələlərin həll edilməsi və təkmilləşdirilməsi lazım gəlir:

- iqtisadiyyatın real sektorunun müxtəlif fəaliyyət sferalarında regionun elmi-texniki potensialının artımının təmin edilməsi;
- iqtisadiyyatın bütün sahələrində yeni texnologiyalara investisiyaların stimullaşdırılması;
- disbalansın azaldılması üçün əmək bazarında tələbat olan ixtisaslara fokuslanmaqla təhsil sisteminin təkmilləşdirilməsi;
- daxili immiqrasiya üçün şəraitin yaradılması və keyfiyyətli immiqrasiyanın stimullaşdırılması məqsədilə normativ-hüquqi bazanın təkmilləşdirilməsi.

Qarşıya qoyulan vəzifələrin reallaşdırılması regional əmək bazarının tələb və təklifinin balanslaşdırılmasına, eləcə də onun keyfiyyətcə təkmilləşdirilməsinə imkan verəcək.Beləliklə, regional əmək bazarında formalaşan tələbat və mövcud öz əmək ehtiyatları arasında tarazlığın əldə edilməsi həm daxili, həm də beynəlxalq istiqamətli əmək immiqrasiyasından istifadə edilməklə mümkündür. Daxili əmək ehtiyatları, habelə regionun sosial-iqtisadi xüsusiyyətləri və aşkar edilmiş ehtiyatlar nəzərə alınmaqla əmək bazarında tələbat haqqında obyektiv məlumatların formalaşdırılması regional əmək bazarının səmərəli inkişafını təmin etməyə imkan verir.Qeyd etmək lazımdır ki, əmək bazarı işçi qüvvəsi ilə bağlı tələb və təklif, əmək dəyəri və rəqabət elementləri daxil olmaqla özünəməxsus struktura malikdir. Bu elementlər əmək dəyərinin dəyişməsi, işçilərin iş yerləri üçün rəqabəti və işəgötürənlərin işçiləri muzdlu işə cəlb etməsi şəklində gələn məlumatlar əsasında bir-birinə əhəmiyyətli dərəcədə təsir göstərir.

Əmək bazarı, o cümlədən regional əmək bazarı işçi qüvvəsinin müəssisələr və sənayelər arasında hərəkət etmək qabiliyyətini artırır. Azərbaycanda bu proses bir sıra amillərin təsiri ilə ləng gedir. Daimi yaşayış yeri, iş yerinə adaptasiya və mənzil probleminin həll edilməsindən sonra işçi qüvvəsinin fəallığı arta bilər və bu, məhz əmək bazarı vasitəsilə tənzimlənəcək.

Araşdırma göstərdi ki, Azərbaycanda regional əmək bazarı hələ tam inkişaf etməyib. İslahatdan əvvəlki dövrdə bu istiqamətdə həyata keçirilən tədbirlər həm daxili, həm də xarici əmək bazarlarının və eləcə də regional əmək bazarlarının formalaşmasına zəmin yaratmışdır.

**Mövzunun aktuallığı.** Əmək bazarı iqtisadi fəal əhalinin məşğulluğunu təmin etdiyi, onun istehsal və xidmət sahələrində tələbatını qarşıladığı, işçilərin müvafiq əmək haqqı almasına şərait yaratdığı üçün tədqiq etdiyimiz mövzu aktuallıq kəsb edir.

**Tədqiqatın məqsədi.** Regional əmək bazarının formalaşmasına təsir edən əsas amilləri təyin etmək və inkişaf problemlərinin həlli istiqamətində təkliflər vermək.

**Tədqiqat obyekti.** Öz növbəsində, mühüm informasiya mənbəyi kimi çıxış edən regional əmək

bazarıdır.

**Tədqiqat metodu**. Tədqiqat işi aparılarkən, əsasən, analiz metoduna üstünlük verilib.

**Açar sözlər:** əmək bazarı, əmək ehtiyatları, iqtisadi amil, yaşayış səviyyəsi, miqrasiya

**Ədəbiyyatsiyahısı:**

1. Məmmədova S., Azərbaycanda Sosial Dövlət: İnkişafı, Perspektivləri. Bakı, Avropa, 2017, s.232
2. Гелета И.В. Современное состояние и перспективы рынка труда // Гуманитарные и социально экономические науки. 2011. № 1. с. 68-71
3. Гневашева В.А. Миграционные процессы рынка труда // Экономика и управление народным хозяйством. 2017. № 5. с. 10-14
4. Соболев Э.Н. Критерии и факторы конкурентоспособности на современном рынке труда // Экономика и бизнес: теория и практика. 2019. № 2. с. 141-146

## ПРОБЛЕМЫ ФОРМИРОВАНИЯ И РАЗВИТИЯ РЕГИОНАЛЬНОГО РЫНКА ТРУДА

**доц. М.Тагиев**
**П.А.Балашов**
**Азербайджанский Технологический Университет**
**balasov2016@gmail.com**

Рынок труда, в связи со структурными изменениями экономики, обеспечивает повторное распределение экономически активного населения. Это проблема достаточно актуальна в нашей стране.

## PROBLEMS OF FORMATION AND DEVELOPMENT OF THE REGIONAL LABOR MARKET

**M.Tagiyev**
**P.A.Balashov**
**Azerbaijan Technological University**
**balasov2016@gmail.com**

The labor market ensures the redistribution of the economically active population due to structural changes in the economy. This problem is quite relevant in our country.

## TURİZM VƏ İQTİSADİYYAT

**R.R.Mustafayev**
**Azərbaycan Texnologiya Universiteti**
**raminmustafayev572@gmail.com**

Turizmin iqtisadiyyata təsiri çox vaxt yaxşı təsir yaratmaya bilər, lakin mənfi təsirlər əhəmiyyətlidə ola bilir.Tədqiqatçılar xaricdən gətirilən əmtəələrə, turistlərin gətirdiyi gəlirlərə, biznes gəlirlərinə, turizmdən asılılığa və qiymətlərin inflyasiyasına diqqət çəkirlər.Tədqiqatların nəticəsi onu göstərir ki, turizmin iqtisadi faydaları adətən mənfi cəhətləri üstələyir. Onlar, iqtisadi-ekoloji və sosial-mədəni məsələləri nəzərdən keçirərkən iqtisadi məsələlərində aydın görüdüyünə inanırlar.

Turizm müxtəlif növ turizm şirkətlərini və dövlət qurumlarını əhatə edən qlobal bir anlayışdır.Turizm mühüm iqtisadi və sosial mənbədir. Nəticə etibarı ilə onun üçün obyektiv və elmi anlayış tələb olunur.Turistlər olmadan turizm sənayesi də olmaz. Turistlər əsasən maraqlı yerlərə səyahət edirlər və hətta onlar bəzən kəşf olunmamış yerləri belə kəşf edə bilirlər. Bununla belə, turistlər (və ya potensial turistlər) turizm tacirləri tərəfindən reklamlara məruz qalır, və onların pullarını almağa çalışırlar.

Biz adətən turistləri evdən uzaqda bir yerdə tətilə gedən insanlar kimi düşünürük.Lakin turistlərin texniki tərifi bir az daha konkretdir. Yaşam standartından 1 il içində ən az 1 gecə kənara çıxan insanlar turist sayılır. Səyahətin məqsədləri müxtəlif ola bilər: iş məqsədilə, dostları və ailəni ziyarət etmək, təhsil məqsədləri üçün və ya sadəcə əylənmək üçün ola bilər. Milli və regional təyinatlar daxilində müxtəlif təriflər istifadə edilə bilir. Məsələn, Çinə bir günlük gələn qonaqlar (axşamlama yoxdur) turist sayılır və həmçinin Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Turizm Təşkilatı (UNWTO) üçündə turist sayılır. Bir çox ölkə işgüzar səyahət edənləri tətil üçün səyahət edənlərdən ayırır. Dünyada ümumiyyətcə tətil məqsədilə səyahət edənlər işgüzar səyahət edənləri üstələyir.Ancaq bu, təyinatdan asılı olaraq çox dəyişir. İşgüzar səyahət edənlər istirahət üçün səyahət edənlərdən təyyarə biletləri və otellər üçün daha çox pul xərcləyirlər.

**Turizm Sənayesi**

Turizm dünyanın ən böyük xidmət sahələrindən biridir. Beynəlxalq turizm xərcləri və gəlirləri xidmətlər üzrə ümumi beynəlxalq ticarətin 30%-ni təşkil edir (2002-ci il məlumatı, Dünya Turizm Təşkilatı). Xüsusilə Asiya, Latın Amerikası və Şərqi Avropa kimi inkişaf etməkdə olan iqtisadiyyatlarda istirahət və iqtisadi rifah artdıqca səyahət və turizmə tələb də artmaqda davam edir. Airbus və Boeing kimi təyyarə istehsalçılarına görə səyahət edənlərin sayı 2000 ilə 2020-ci illəri arasında 2 dəfə artmışdır. Ümumi uçuş məsafələrinin və təyyarələrin saylarının artımı müşahidə olunmuşdur. Orta uçuş məsafəsi 2002-ci ildə 1437 km təşkil edirdisə indi bu rəqəm 1516 km-ə bərabərdir.

**Turizm və İqtisadi İnkişaf**

Turizm inkişaf etməkdə olan ölkələrin iqtisadi artımında, inkişaf etmiş ölkələrlə müqayisədə daha dinamik rol oynayır. Turizmin inkişafı, məşğulluq və gəlir əldə etmək üçün bir vasitədir. Turizm əmtəələrin ticarəti, tələb olunan xidmətlərin və iqtisadi istehsal seqmentlərinin idxalı ilə valyuta gəlirlərini artırır. Turizmin inkişafının iqtisadi təsir növləri: birbaşa, dolayı, induktiv. Misal olaraq turizmin birbaşa iqtisadi nəticələrindən biri otellərdən, restoranlardan və turizmdən gələn gəlirlərin artmasıdır. Dolayı təsirlər turistlərin istehlakı reallaşdırdıqları digər turizm istehsalçılarına olan faydalardır. İnduktiv təsirlər isə birbaşa və dolayı təsirlər nəticəsində yaranır və öz məhsullarını sataraq əldə etdikləri iqtisadi fayda sayəsində turizm istehsalçılarının artan gəlir səviyyəsində əks olunur. Turistlərin pulunu birbaşa ala bilən səyahət sənayesindəki şirkətlər yerli iqtisadiyyatın digər təşkilatlarından mal və xidmətlər almalıdırlar. Bu iqtisadi fəaliyyətin sürət effektidir. Dolayı təsirlər turistlərin xərclədiyi bütün pulları əhatə etmir. Bu pulun bir hissəsinin vergilər vasitəsilə daxil olacağı ehtimal edilir.

**Azərbaycanda turizm**

Proqnozlar, neftin qiymətinin aşağı düşməsi gələcəkdə iqtisadi problemlərə gətirib çıxara və Azərbaycan manatında devalvasiya yarada biləcəyini göstərir.Qeyri-neft sənayesinə, xüsusən də turizm sənayesinə diqqət yetirməklə, gələcək devalvasiya və iqtisadi yavaşlama riskini kompensasiya edərək mənfi təsirlər azaldıla bilər. Turizmə diqqət yetirmək daha çox yaşayış yerləri və şərait tələb edir.

Hökumətin inzibati strukturunda dəyişikliklər, Azərbaycanda turizmlə bağlı assosiasiyasının yaradılması Azərbaycanda turizm sektorunda yeni inkişaf mərhələsidir. Azərbaycanda turizm markalarının inkişafı nəticəsində bir neçə il ərzində gələn turislərin sayıda artmışdır. Azərbaycanın "Başqa Baxış" adlı yeni kampaniyasının strateji məqsədlərindən biridə 2023-cü ildə Azərbaycana gələn turist sayını iki qatına çıxarmaqdır. Azərbaycan turizm brendlərinin beynəlxalq səviyyədə sərgilənməsidə turist axınının artmasına və davamlı olmasına kömək edir.

**Ədəbiyyat siyahısı:**


**1.** Cultural heritage and tourism in the developing world: a regional perspective by Penny Yim King Wan (https://www.tandfonline.com/doi/abs/10.1080/1755182X.2010.498155)

**2.** Tourism Services Exports and Economic Growth in Barbados (https://www.tandfonline.com/doi/abs/10.1080/08853908.2011.554788)Tourism and Development in Developing Economies: A Policy Implication Perspective

**3.** Asif Khan, Sughra Bibi 3, Ardito Lorenzo 4, Jiaying Lyu 1, and Zaheer Udden Babar (https://www.mdpi.com/2071-1050/12/4/1618)

**4.** World Geography of Travel and Tourism: A Regional Approach by Alan A. Lew, Colin Michael Hall, and Dallen Timothy (https://notendur.hi.is/sth158/0750679786Geography.pdf)


## ТУРИЗМ И ЭКОНОМИКА


**R.R.Mustafayev**
**Азербайджанский Технологический Университет**
**raminmustafayev572@gmail.com**



Экономика туризма является одним из важнейших вопросов для стран мира, но она часто подвержена внешним воздействиям на туризм. В последнее время Covid-19 является ярким примером этого. Помимо внешних воздействий, серьезное влияние на экономику туризма оказывают внутренние экономические и социальные проблемы. В развитых странах поток туристов в страну в результате экономического развития меняется в лучшую сторону. Для защиты экономики туризма от негативных последствий необходимо совершенствовать маркетинговую стратегию и бренд в этой сфере. Одним из наиболее важных способов маркетинговой стратегии сегодня являются социальные сети. В настоящее время он изменил свою форму в маркетинге в результате его обширного развития в социальных сетях. Используя это развитие социальных сетей, можно пройти долгий путь в развитии индустрии туризма. Результатом развития экономики туризма является развитие экономики страны в целом.


## TOURISM AND ECONOMY


**R.R.Mustafayev**
**Azerbaijan Technological University**
**raminmustafayev572@gmail.com**



The tourism economy is one of the most important issues for the countries of the world, but it is often affected by external influences on tourism. Recently, Covid-19 is a clear example of this. In addition to external influences, domestic economic and social issues have a serious impact on the tourism economy. In developed countries, the flow of tourists to the country as a result of economic development is changing for the better. To protect the tourism economy from negative effects, it is necessary to improve the marketing strategy and brand in this area. One of the most important ways of marketing strategy today is social media. It has now changed its form in marketing as a result of its extensive development on social media. Using this development of social media, it is possible to go a long way in the development of the tourism industry. The result of the development of the tourism economy is the development of the country's economy as a whole.


# BİZNES FƏALİYYƏTİNİN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN AKTUAL MƏSƏLƏLƏRİ


**S.S.Mustafayev**
**Azərbaycan Texnologiya Universiteti**
**subhan.mustafayev1999@mail.ru**

Bazar iqtisadiyyatı şəraitində ölkənin iqtisadi, sosial problemlərini həll etmək üçün dövlət tənzimlənməsi mexanizmindən istifadə olunur. Hər bir sosial-iqtisadi və ictimai-siyasi sistemdə iqtisadiyyat dövlət tərəfindən idarə edilir. Müasir iqtisadi fəaliyyətin genişlənməsi, beynəlxalq təsərrüfat əlaqələrinin dərinləşməsi iqtisadiyyatın, onun ayrı-ayrı sahələrinin və ictimai istehsalın tənzimlənməsində dövlətin rolunu daha da artırır. Bazar iqtisadiyyatına malik ölkələrdə dövlətin biznes fəaliyyətinə müdaxiləsi dolayı xarakterə malikdir. Bazar iqtisadiyyatı şəraitində dövlətin iqtisadiyyata müdaxiləsinin məhdud xarakter daşıması istehsal vasitələri üzərində müxtəlif mülkiyyət formalarının olması ilə əlaqədardır. İqtisadiyyatın dövlət tənzimlənməsinin məqsədi cəmiyyətin, dövlətin və əhalinin maraqlarını və mənafeyini qorumaqdır. Bazar iqtisadiyyatı şəraitində dövlətin başlıca vəzifələri istehsalçıların və istehlakçıların hüquqlarını müdafiə etmək, iqtisadiyyatın və onun ayrı-ayrı sahələrinin inkişafını təmin etməkdən ibarətdir. Amerika iqtisadçısı V.İ. Leontyevin fikrincə iqtisadiyyat yelkənli gəmiyə bənzəyir və onu idarə etmək üçün sükan və külək lazımdır. İqtisadiyyatda sükan funksiyasını ölkənin iqtisadi sistemi, külək funksiyasını isə maddi maraq yerinə yetirir.

Biznes fəaliyyətini və bütövlükdə iqtisadiyyatı inkişaf etdirmək üçün dövlət tərəfindən iqtisadi siyasət həyata keçirilməlidir. İqtisadi siyasət qiymət, investisiya, amortizasiya, elmi-texniki, fiskal, pul-kredit və digər tədbirləri özündə birləşdirir. Biznes fəaliyyətinin inkişafı bazar iqtisadiyyatının tələblərinə uyğun olmalı və bu istiqamətdə sağlam rəqabətə xüsusi diqqət yetirilməlidir.

Biznes fəaliyyətinin inkişaf etdirilməsi üçün hüquqi baza yaradılmalıdır. Hüquqi baza dedikdə biznes fəaliyyətini tənzimləyən, biznesin inkişafına şərait yaradan qanunlar və normativ-hüquqi aktlar başa düşülür. Biznes fəaliyyətinin inkişafı və dövlət tənzimlənməsi sahəsində bir sıra qanunlar və normativ-hüquqi aktlar qəbul edilmişdir. Bura "Sahİbkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunu (24 dekabr 1992-ci il), "Azərbaycan Respublikasında Sahibkarlığın inkişafı sahəsində dövlət siyasətinin əsas istiqamətləri" (Azərbaycan Respublikası Milli Məclisinin qərarı, 26 yanvar 1993-cü il), "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa dövlət köməyi proqramı" (1997-2000-ci illər), "Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafının dövlət proqramı" (2002-2005-ci illər) və s. aiddir. Bazar iqtisadiyyatı şəraitində hüquqi tənzimləmənin müxtəlif formaları bazar mexanizminin məhdudlaşdırılmasına deyil, onun inkişafına şərait yaratmaqla, son nəticədə iqtisadi inkişafa təkan verir. Ölkədə biznes fəaliyyətinin inkişafı üçün hüquqi tənzimləmə formaları daim təkmilləşdirilməlidir. Ölkədə biznes fəaliyyətinin inkişaf etdirilməsi iqtisadiyyatın dövlət tənzimlənməsi sahəsində qanunların qəbul edilməsini və hüquqi bazanın möhkəmləndirilməsini tələb edir.

Son illər Azərbaycanda biznesin dövlət tənzimlənməsi və dəstəklənməsi sahəsində qəbul olunmuş dövlət proqramları, qanunlar, qərarlar, biznes mühitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən iqtisadi islahatlar ölkədə azad rəqabətə əsaslanan biznesin inkişafına xidmət edir. Ölkədə biznes mühitinin inkişaf etdirilməsi beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyinin daha da yaxşılaşmasına səbəb olur. Beynəlxalq İrs Fondu tərəfindən hazırlanan "İqtisadi Azadlıq İndeksi 2021" hesabatında Azərbaycan 172 ölkə arasında 38-ci pillədə qərarlaşıb. Bu hesabatda Azərbaycan Polşa, İspaniya, Fransa, İtaliya kimi ölkələri qabaqlamışdır. Prezident İlham Əliyevin "Ölkəmizin inkişafı sahibkarlığın inkişafından asılıdır" fikrinə uyğun olaraq ölkədə biznes və investisiya mühitinin yaxşılaşdırılması istiqamətində tədbirlər həyata keçirilir. Azərbaycanın 2020-ci ildə işğaldan azad edilmiş ərazilərində də biznesin inkşaf etdirilməsi üçün tədbirlər görülməsi nəzərdə tutulub.

**Mövzunun aktuallığı.** Biznes iqtisadiyyatın əsas sahələrindən biri olduğu üçün bazar iqtisadiyyatı şəraitində biznesin dövlət tərəfindən tənzimlənməsi mühüm əhəmiyyət kəsb edir.

**Tədqiqatın məqsədi.** Biznesin dövlət tənzimlənməsinin zəruriliyinin, əhəmiyyətinin müəyyən edilməsi.

**Tədqiqat obyekti.** Biznesin dövlət tənzimlənməsi məsələləri.

**Tədqiqat metodu.** Biznesin dövlət tənzimlənməsinin aktual məsələlərinin müəyyən edilməsi baxımından, dövlət tənzimlənməsinin zəruriliyinin, əhəmiyyətinin təhlil edilməsi metodu

**Açar sözlər:** dövlət tənzimlənməsi, hüquqi tənzimləmə, bazar iqtisadiyyatı, biznes fəaliyyəti, kiçik və

orta biznes.

**Ədəbiyyat siyahısı:**

1. Abbasov A.B. Biznesin əsasları. Azərbaycan Dövlət İqtisad Universiteti. Bakı, 2005, s.644
2. www.kitabyurdu.org
3. www.taxes.gov.az

## АКТУАЛЬНЫЕВОПРОСЫГОСУДАРСТВЕННОГОРЕГУЛИРОВАНИЯПРЕДПРИНИМАТЕЛЬСКОЙДЕЯТЕЛЬНОСТИ

**С.С.МУСТАФАЕВ**
**Азербайджанский Технологический Университет**
**subhan.mustafayev1999@mail.ru**

Для обеспечения развития бизнеса в условиях рыночной экономики необходимо его регулирование со стороны государства и совершенствование его нормативно-правовой базы.

## TOPICAL ISSUES OF STATE REGULATION OF BUSINESS ACTIVITIES

**S.S.MUSTAFAYEV**
**AzerbaijanTechnologicalUniversity**
**subhan.mustafayev1999@mail.ru**

The purpose of state regulation is to protect the interests of society, the state and the population, to protect the rights of producers and consumers, to ensure the development of the economy and its individual sectors.

## İDARƏETMƏ UÇOTU MƏQSƏDİ ÜÇÜN TƏŞKİLATIN UÇOT SİYASƏTİ VƏ ONUN TƏKMİLƏŞDİRİLMƏSİ

**Y.B.Əhmədov, T.S.Nuriyeva**
**Azərbaycan Texnalogiya Univeristeti**
**telnaznuriyeva796@gmail.com**

İdarəetmə uçotu istehsalat-kommersiya fəaliyyətinin planlaşdırılması və nəzarətin aparılması üçün

menecerə lazım olan informasiyanın hazırlanması prosesini özündə birləşdirir.İdarəetmə uçotu idarəetmə prosesini uçot prosesilə əlaqələndirir.İdarəetmə uçotu hər hansı obyektin idarə olunması üçün lazım olan məlumatların eyniləşdirilməsi, ölçülməsi,yığılması,sistemləşdirilməsi,təhlili ayrılması,deməkdir.İdarəetmə uçotunun sinonimi daxili uçotdur.

İdarəetmə uçotunun məqsədini konkret müəssisədə qəbul edilmiş qərarın təbiətinə tam uyğunlaşdırılmış və idarəetmə vasitəsi kimi istifadə edilən hesabat sisteminin təmin edilməsi təşkil edir. Qarşıya qoyulan məqsədə nail olmaq üçün idarəetmə uçotu sistemi planlaşma,uçot,təhlil,tənzimləmə və.s işlərdə istifadə olunur.Bütün bunlar formalaşdırılan məqsədlərin son nəticəsinin müəyyən edilməsinə yönəldilir.

İdarəetmə uçotunun aşagıdakı vəzifələri var.

- Müəssisənin üzərinə götürdüyü bütün istehsal funksiyalarının yerinə yetirilməsini təmin edən xərcləri müəyyənləşdirir;
- Müəssisə balansının bir sıra tərkib hissələrini hesablamaq üçün əsas yaradır;
- Müvafiq satış qiymətilə müqayisə etmək üçün məlumatların dəyərini hesablamaqla müəssisənin istehsalat fəaliyyətindən əldə edilən nəticəni təhlil edir;
- Cari xərc və gəlirləri proqnozlaşdırır;
- Proqnozlaşdırılan və həqiqi məlumatlar arasndakı kənarlaşmanı təhlil və təsdiqedir.

Bu sadalan vəzifələri üç istiqamətdə qruplaşdırmaq məqsədə uyğundur.

1.Birinci istiqamət-məlumat və xidmətin dəyərinin hesablanması,həmçinin təhlili

2.İkinci istiqamət-müəssisənin məsul bölmələrinin yerinə yetirdiyi funksiyalarla əlaqədar maliyyə -təsərrüfat fəaliyyətinə idarətmə nəzarəti;

3.Üçüncü istiqamət-qərar qəbul etmək

**Movzunun aktuallığı**.İdarəetmə

**Tədiqatın məqsədi.**Təsərüffatın mühasibat uçotunun idarə edilməsinə dair məsələlər öz əksin tapmışdır.

**Tədqiqat obyekti**. İdarəetmə və mühasibat uçotunun təkminləşdirilməsi.

**Tədqiqat metodu.** İdarəetmə uçotuna dair məsələlər.

**Açar sözlər:** İdarəetmə uçotu,Uçot siyasəti, mühasibat uçotu

**Ədəbiyyat siyahısı:**

1. Abdullayev L.İ., Maliyyə uçotu, Sumqayıt, 2017
2. Abbasov Q.G., İdarəetmə uçotunun təşkili prinsipləri. Bakı, “Elm”, 2006
3. Əliyeva A.H., Mühasibat uçotu,Bakı, “Elm və təhsil” 2016
4. Səbzəliyev S.M., Quliyev V. “İdarəetmə uçotu” Bakı, 2014

**УЧЕТНАЯ ПОЛИТИКА ОРГАНИЗАЦИИ ДЛЯ ЦЕЛЕЙ УПРАВЛЕНЧЕСКОГО УЧЕТА И ЕЕ СОВЕРШЕНСТВОВАНИЕ**

**Ю.Б.Ахмедов, Т.С.Нуриева**
**Азербайджанский Технологический Университет**
telnaznuriyeva796@gmail.com

В статъе рассматриваются назначение и совергценствование управленческого учета.

**COMPANY ACCOUNTING POLICY FOR THE PURPOSE OF MANAGEMENT ACCOUNTING AND ITS IMPROVEMENT**

**Y.B.Akhmedov, T.S.Nurieva**
**Azerbaijan Technological University**
telnaznuriyeva796@gmail.com

The article discusses the purpose and improvement of management accounting.

# BAZAR İQTİSADİYYATI ŞƏRAİTİNDƏ DÖVLƏT STRUKTUR SİYASƏTİNİN REALLAŞMASI VƏ TƏKMİLƏŞDİRİLMƏSİ MƏSƏLƏLƏRİ

**Ş.N.Qasımov**
**H.S.Mustafayeva**
**Azərbaycan Texnologiya Universiteti**
hebibe.mustafayeva@gmail.com

Struktur siyasətinin müəyyən edilməsində iqtisadiyyatın ixtisaslaşma və uzunmüddətli strukturunun əsaslandırılmasına xüsusi əhəmiyyət verilir. Eyni zamanda, təbii ki, ilkin amillər təbii, sənaye, əmək, innovativ, maliyyə və digər resurslardan istifadənin real qiymətləndirilməsi və səmərəliliyidir.

İqtisadiyyatın makroiqtisadi strukturunun formalaşması, onun istehsal şəraitinin, sosial tələbatların, daxili və dünya bazarlarının konyukturasının dəyişməsindən asılıdır. Struktur dəyişiklikləri tənzimləyən dövlətin və bazar mexanizmlərinin əsas funksiyaları müəyyən edilir, bazar iqtisadiyyatı şəraitində onların birləşməsinin obyektiv zərurəti əsaslandırılır. Ölkələr üçün iqtisadiyyatın struktur modernləşdirilməsini, iqtisadi potensial və əhali, resurs imkanları və səviyyə arasında mövcud dərin disproporsiyaların aradan qaldırılmasını nəzərdə tutan uzunmüddətli struktur siyasətinin hazırlanması və həyata keçirilməsinin xüsusi aktuallığı. onların istehsalatda, xammal və emal sənayeləri arasında istifadəsi əsaslandırılır.

Son illərdə ölkədəvə onun bölgələrində sosial-iqtisadi formasiyanın köklü islahatı, sosialist mərkəzləşdirilmiş planlı iqtisadi sistemin sosial yönümlü bazar iqtisadiyyatına çevrilməsi həyata keçirildi.

Texnoloji dövrlərin sürətlənmiş dəyişməsinin, həyatın bütün sahələrində intensiv innovasiya proseslərinin getdiyi müasir şəraitdə ölkənin və onun regionlarının dünya iqtisadi məkanına inteqrasiyası yalnız yüksək inkişaf etmiş və rəqabətqabiliyyətli bazar iqtisadiyyatı şəraitində mümkündür.

Ona görə də ölkədə və regionlarda aparılan islahatların ən mühüm strateji vəzifəsi sosial-iqtisadi sistemin transformasiyası, iqtisadiyyatın struktur modernləşdirilməsi, yüksək inkişaf templərinin və iqtisadiyyatın rəqabət qabiliyyətinin təmin edilməsidir. "Yeni sosial-iqtisadi strategiyanın mahiyyəti və ölkənin islahatı konsepsiyasının özəyi onun tədricən, mərhələli şəkildə insanların həyat keyfiyyətinin müasir xüsusiyyətlərinə malik post-sənaye tipli cəmiyyətin versiyasına keçməsindədir.

Bazar tələb və təklifin tənzimlənməsində mühüm funksiyaları yerinə yetirir ki, bu da öz növbəsində iqtisadiyyatın strukturuna müvafiq olaraq istehsal və istehlaka fəal təsir göstərir. Bazarın aşağıdakı funksiyaları məlumdur:

- vasitəçilik, məlumatlandırma, qiymət, tənzimləyici, stimullaşdırıcı;

Aparılan islahatların yekun məqsədi obyektiv surətdə struktur modernləşdirilməsini, disbalansın aradan qaldırılmasını, iqtisadiyyatın bütün sahə və sektorlarının optimallaşdırılmasını və balanslaşdırılmasını tələb edən ölkənin və onun regionlarının uzunmüddətli davamlı sosial-iqtisadi inkişafının təmin edilməsindən ibarətdir.

**Mövzunun aktuallığı.** Qloballaşma və açıq dünya bazarı şəraitində bazar iqtisadiyyatının formalaşması və inkişafıüçün struktur siyasətinin reallaşması.

**Tədqiqatın məqsədi**. İqtisadi siyasətin funksiyaları və əsas vəzifələri, onun əsas tərkib hissəsi kimi dövlət və regional struktur siyasətinin üzə çıxarılması.

**Tədqiqat obyekti.** Struktur siyasətinin reallaşması və inkişafı məsələləri.

**Tədqiqat metodu.** Sosial-iqtisadi inkişafı üçün dövlət idarəetmə sistemində dövlət struktur siyasətindən fəal və geniş istifadə olunması.

**Açar sözlər:** iqtisadiyyatın strukturu, iqtisadi siyasət, struktur siyasəti, dövlət tənzimlənməsi, tənzimləmənin bazar mexanizmi, struktur modernləşmə, innovativ transformasiyalar.

## Ədəbiyyat siyahısı:

1. V.I.Kuşlin «Bazar iqtisadiyyatının dövlət tənzimlənməsi» Bakı, 2008.
2.http://unec.edu.az/application/uploads/2015/05/AZ_RBAYCAN-DOVL_T-IQTISAD-UNIVERSITETI-struktur-maq.pdf

3.file:///C:/Users/HP/Downloads/strukturnaya-politika-gosudarstva-v-usloviyah-innovatsionnyh-preobrazovaniy-v-ekonomike.pdf

## ВОПРОСЫ РЕАЛИЗАЦИИ И СОВЕРШЕНСТВОВАНИЯ ГОСУДАРСТВЕННОЙ СТРУКТУРНОЙ ПОЛИТИКИ В УСЛОВИЯХ РЫНОЧНОЙ ЭКОНОМИКИ

**Ш.Н.Гасымов**
**Г.С.Мустафаева**
**Азербайджанский Технологический Университет**
**hebibe.mustafayeva@gmail.com**

При определении структурной политики особое внимание уделяется обоснованию специализации и долгосрочной структуреэкономики. При этом, безусловно, первичными факторами являются реальная оценка и эффективность использования природных, производственных, трудовых, инновационных, финансовых и других ресурсов.

## ISSUES OF IMPLEMENTATION AND IMPROVEMENT OF STATE STRUCTURAL POLICY IN A MARKET ECONOMY

**Sh.N.Gasymov**
**H.S.Mustafayeva**
**Azerbaijan Technological University**
**hebibe.mustafayeva@gmail.com**

In determining the structural policy, special attention is paid to the justification of the specialization and long-term structure of the economy. At the same time, of course, the primary factors are the real assessment and efficiency of the use of natural, industrial, labor, innovative, financial and other resources.

## TURİZMİN İDARƏ OLUNMASININ ƏSASLARI

**A.K.Quliyeva**
**Azərbaycan Texnologiya Universiteti**
**a.k.quliyeva@asan.gov.az**

Turizm idarəçiliyi sosial və iqtisadi idarəetmə problemlərin vəhdətində təşkil olunur.İqtisadi və

təşkilati quruluş sahə və ərazi prinsipləri əsasında qurulur.İdarəetmə vəzifələri bazar iqtisadiyyatının tələblərinə uyğun dinamik, kompleks və sistemli təşkil olunur.İdarəetmə funksiyası mülkiyyət münasibətlərini, onun formalarını və təsərrüfatın təşkil olunmasının istiqamətlərini əhatə edir.İdarəetmə məqsədi olaraq maksimal səmərə nəzərdə tutulur.Turizm səmərəsi iqtisadi və sosial səmərə ilə ölçülür.Hər bir subyekt təsərrüfat bu turizmdə gələn gəlirlərin maksimum artmasına səbəb olur.Minimum məsrəflərlə yeni iş yerlərinin açılması, məşğulluq və kommersiya mənfəətinin artırılmsı nəzərdə tutulur. Turizmin idarəçiliyini turizmin mentaliteti formalaşdırır.İlkin növbədə turizmin bazarı öyrənilir.Turizm bazarının digər sahələrdən fərqli cəhətləri onun fəaliyyət mexanizmlərinin xüsusiyyətləri ilə formalaşır.Turist idarəçiliyi turist tələbatı ilə təklifi arasında təşkilati idarəetmə strukturunu yaratmağı özündə əks etdirir.Turizm idarənin bazar strukturu şəraitində əsas maliyyə mənbəyi sahibkarlıq və dövlət hesabına büdcə təşkil edir.İdarəetmə mexanizminə əsasən tursitlərin ayırmaları sayı onların məqsədləri və ölkənin iqtisadi potensialı daxildir.

Turizm idarənin əsas prinsipləri aşağıdakılardır:

1. Sistemli yanaşma prinsipləri
2. Normativ yanaşma prinsipləri
3. Səmərəlilik prinsipləri

Turizmin regioanal xüsusiyyətli idarəetmədə regionların kompleks inkişafına və onun əsas amillərinin nəzərə alınması ilə formalaşdırır.İdarəetmə iqtisadi və sosial inkişafın ali məqsədlərinə xidmət edir.Region maraqları ilə makroiqtisadi maraqların uzlaşmasını təmin edir.İdarəetmə resurs təminatına və tələbatın ödənilməsinin yaxşılaşmasına yönəldilir.Turizmdə çəkilən xərclərin çoxşaxəliliyi, rəngarəngliliyi onun məsrəflərinin qiymətləndirilməsinin yeni metodikasını tələb edir.Buna görə turizm "gətirilmiş məsrəflər" ilə ifadə olunur, 1 məsrəf digər məsrəfdən ekvivalentliyini tapır.Turizmin iqtisadi potensialı təbbi sərvətlər ilə ifadə olunur. Turizmin iqtisadi potensialı təbii sərvətlərin qiymətləndirilməsi ilə bağlıdır.Təbii sərvətlər isə öz effektlivliyinə görə, istifadə olunmasına və sahəsinə görə fərq bir-birini əvəz edən resusrslara daxildir.Ona görə idarəetmə vəzifələri proqnozlarla reallaşır.Proqnozlar idarəetmə hədəfini müəyyənləşdirir.

Turizmin idarəedilməsi məqsədyönlü fəaliyyətdir.Turizm inkişafının struktur modeli onun sahədaxili və sahələrarası proporsiyalarına nisbəti müəyyən edir.Turizmin proqnozları ümumi iqtisadi inkişafın proqnozları ilə tarazlaşdırılır.

**Ədəbiyyat siyahısı:**

1. Əlirzayev Ə.Q. Turizmin iqtisadiyyatı və idarə olunması.
2. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2010.

**ОСНОВЫ ТУРИСТСКОГО МЕНЕДЖМЕНТА**

**А.К.Кулиева**
**Азербайджанский Технологический Университет**
**a.k.quliyeva@asan.gov.az**

В статье анализируются основы управления туризмом.

**FUNDAMENTALS OF TOURISM MANAGEMENT**

**A.K.Guliyeva**
**Azerbaijan Technological University**
**a.k.quliyeva@asan.gov.az**

The article analyzes the basics of tourism management.

# AZƏRBAYCANDA VƏ DÜNYA PRAKTİKASINDA MALİYYƏ HESABATININ NORMATİV TƏNZİMLƏNMƏSİ

**P.E.Məmmədova**
**G.R.Rəhimova**
**Azərbaycan Texnologiya Universiteti**

gulnazrehimova7@gmail.com

Bildiyimiz kimi müasir dövrdə informasiyanın rolu dönmədən artmaqdadır. Sahibkarlıq fəaliyyətində mənfəətin əldə edilməsində və kapitalın artımında öz əksini tapan işgüzar müvəffəqiyyət iqtisadi informasiyaların keyfiyyətindən bir başa olaraq asılıdır.Ümumiyyətlə investisiya qərarlarının qəbulu, müştərilərin, malsatanların və digər işgüzar partnyorların seçilməsi üçün məlumatların tamlığı və etibarlılığı vacib şərtlərdən biridir.Ümumiyyətlə mühasibat hesabatı dedikdə, istifadəçi üçün qəbul ediləsi görünüşdə təqdim olunan müəyyən informasiyalar başa düşülür.Bildiyimiz kimi, hesabat adətən kağız üzərində tərtib edilərək, kağız daşıyıcısı formasında təqdim edilir. Lakin müasir dövrdəm texnologiyanın inkişafı nəticəsində hesabat həm elektron formada, həm də digər formalarda tərtib oluna bilər.Hesabatın tərtibi müəyyən vaxt kəsiyi ərzində (ay, rüb, altı ay, il) müəssisənin təsərrüfat fəaliyyətinin son mərhələsi, eyni zamanda mühasibat uçotunun yekunu hesab olunur.

**Bəs maliyyə hesabatlarını necə düzgün şəkildə tərtib edə bilərik?**Maliyyə hesabatlarını düzgün tərtib etmək üçün qüvvədə olan qanunvericiliyin bütün tələblərini özündə əhatə edən informasiyalara malik olmaq lazımdır. Hazırda Azərbaycanda uçot və hesabatın tənzimlənməsinin dördsəviyyəli sistemi təşəkkül tapmışdır. Bu sistemin formalaşmasına ölkədə iqtisadi cəhətdən yenidənqurma, təşkilatların yeni bazar şəraitinə uyğunlaşması, habelə Maliyyə Hesabatlarının Beynəlxalq Standartları əsasında Milli Mühasibat Uçotu Standartlarının hazırlanması və tətbiqi fəal rol oynamışdır.

**İndi isə dünya praktikasında maliyyə hesabatının normativ tənzimlənməsi**:**Fransada** uçot və hesabatın tənzimlənməsinin əsasını Kommersiya Kodeksi təşkil edir. Bu sənəddə mühasibat uçotunun təşkili və hesabatın hazırlanmasının başlıca şərtləri öz əksini tapmışdır.v**Almaniyada** mühasibat işinin çox qədim ənənələri mövcuddur. Bu ölkədə uçot və hesabatın qanunvericilik əsası Ticarət Kodeksi hesab olunur.Qeyd olunan sənəd mühasibat uçotunun digər məsələləri ilə yanaşı, hesabatın tərtib olunması qaydalarını da tənzimləyir. Burada balansın, mənfəət və zərərlər haqqında hesabatın məzmunu və tərtib olunması ilə bağlı qaydalar ətraflı şəkildə araşdırılır. Almaniyada vahid hesablar planı qüvvədədir və onun əsasında sənaye, ticarət və maliyyə sferasının təşkilatları üçün ayrı-ayrı sahələr üzrə mühasibat uçotunun hesablar planı hazırlanmışdır.Müxtəlif alman mənbələrinə nəzər salsaq, görərik ki, bu ölkədə mühasibat uçotu və hesabatın aparılmasını tənzimləyən aşağıdakı sənəd qruplarını qeyd etmək olar.

- kommersiya normativ aktları;
- vergi qanunvericiliyi;
- vergi təlimatları;
- uçot siyasətinin materialları;
- peşə təşkilatlarının tövsiyələri.

**İtaliyada** uçot və hesabat sisteminin qanunvericilik əsası kimi Mülki Kodeks, Respublika Prezidentinin sərəncamları, habelə Maliyyə Nazirliyinin müvafiq əmrləri, o cümlədən peşə təşkilatlarının tövsiyələri çıxış edir. **ABŞ-da** mühasibat uçotu və hesabatını tənzimləyən başlıca sənəd GAAP sistemi hesab olunur. GAAP özünün mahiyyətinə görə uçot standartlarının rolunu oynayan və hamı tərəfindən qəbul edilən ümumi uçot prin-siplərindən ibarətdir.

GAAP sistemində sənədlərin dörd səviyyəsi fərqləndirilir:**1.A səviyyəsi:**- maliyyə uçotu standartları üzrə təlimat;- interpretasiyalar;-tövsiyələr;-mühasibat uçotu üzrə tədqiqat bülletenləri.**2. B səviyyəsi:**-texniki bülletenlər;-mühasibat uçotu və audit üzrə sahə təlimatları;- izahlar.**3. S səviyyəsi:**- işçi qrupunun ümumi qərarı,- praktik bülletenlər;-tətbiq üzrə təlimatlar;- uçotun qəbul edilən sahə praktikası.ABŞ-ın GAAP sisteminin əsasını A səviyyəsinin sənədləri təşkil edir.

**Tədqiqatın məqsədi.**Hesabatların yerli və xarici standartlarını öyrənmək.

**Tədqiqatobyekti.**Hesabatlarıntənzimlənməsi

**Açar sözlər:**maliyyə,mühasibat,hesabat,uçot

**Ədəbiyyatsiyahısı:**

1. Səbzəliyev S., Maliyyə hesabatıdərs vəsaiti, Bakı, 2018
2. Bağırov D., Həsənli M.,Maliyyə Bakı, 2011
3. Alexander D.,Britton A., Jorissen A., Maliyyə hesabatının beynəlxalq standartları

## НОРМАТИВНОЕ РЕГУЛИРОВАНИЕ ФИНАНСОВОЙ ОТЧЕТНОСТИ В АЗЕРБАЙДЖАНЕ И МИРОВАЯ ПРАКТИКА

**Г.Р.Рагимова**
**П.Э.Мамедова**
**Азербайджанский Технологический Университет**
**gulnazrehimova7@gmail.com**

В каждой стране по-своему регулируется финансовая отчетность

## NORMATIVE REGULATION OF FINANCIAL REPORTING IN AZERBAIJAN AND WORLD PRACTICE

**P.E.Mammadova**
**G.R.Ragimova**
**Azerbaijan Technological University**
**gulnazrehimova7@gmail.com**

Learning how to manage financial statements is important in terms of being familiarwith the results of accounting.

## MÜƏSSİSƏLƏRİN İDARƏ EDİLMƏSİNDƏ RİSKLƏRİN NƏZƏRƏ ALINMASI

**V.V.Bəhmənli**
**Azərbaycan Texnologiya Universiteti**
**behmenli_vaqif@bk.ru**

Sürətlə inkişaf edən dünyamızda cəmiyyət olaraq böyümək və inkişaf etmək üçün risk etməliyik və idarə etməli olduğumuz risklər sürətlə inkişaf edir. Risklərin idarə edilməsi, müəssisələrin məqsədlərinə

çatmasını təmin etmək üçün riski anlamaq, təhlil etmək və həll etməkdən ibarətdir. Risk, müəssisənin mürəkkəbliyinə və növünə mütənasib olmalıdır. Müəssisə riskinin idarə edilməsi təşkilat və onun genişləndirilmiş şəbəkələrində riski idarə etmək üçün inteqrasiya olunmuş yanaşmadır.

Müəssisə riskləri təşkilatın müxtəlif səviyyəsində olan potensial itkilərdir. Bunlar korporativ idarəetmənin və icraçı rəhbərliyin diqqətini tələb edir. Müəssisə risklərinin idarə edilməsi müəssisə fəaliyyətinə və məqsədlərinə mane ola biləcək və yaxud itkilərə səbəb ola biləcək potensial itkiləri, təhlükələri və digər zərər potensiallarını müəyyən etmək, qiymətləndirmək və onlara hazırlaşmaq məqsədi daşıyan şaquli strategiyadır.[1]

Müəssisə risklərinin idarə edilməsi vahid bir yanaşma tətbiq edir və fərdi biznes bölməsi və ya seqment üçün idarəetmə səviyyəsində qərarların qəbul edilməsini tələb edir. Beləliklə, hər bir biznes bölməsinin öz risk idarəçiliyinə cavabdeh olması əvəzinə, firma miqyasında nəzarətə üstünlük verilir. Məsələn, investisiya bankında risk meneceri firmanın müxtəlif sahələrində yerləşən iki ticarət bölməsinin eyni riskə məruz qaldığını görsə, onlar ikisindən daha az əhəmiyyətə malik olanı riskə qurban verməyə məcbur qala bilərlər. Bu qərar bütün firma nəzərə alınmaqla qəbul edilir. Biznesdə müəssisə risklərinin idarə edilməsi müəssisələrin riskləri idarə etmək və məqsədlərinə nail olmaq üçün imkanlardan istifadə etmək üçün istifadə etdiyi üsul və prosesləri əhatə edir. Risklərin idarə edilməsi üçün müəssisənin məqsədlərinə uyğun olan xüsusi riskli hadisələrin və ya halların müəyyən edilməsini, onların təsir ehtimalı və miqyası baxımından qiymətləndirilməsini, cavab strategiyasının müəyyən edilməsini və monitorinq prosesini əhatə edir. [4]

Müəssisə risklərinin idarə edilməsinin məqsədi daha çox bürokratiya yaratmaq deyil, həqiqətən böyük risklərin nə olduğu barədə müzakirələri asanlaşdırmaqdır. Müxtəlif mühüm risklərin idarə edilməsi çərçivələri mövcuddur ki, onların hər biri müəssisənin üzləşdiyi daxili və xarici mühitdə risklərin və imkanların müəyyən edilməsi, təhlili, cavablandırılması və monitorinqi üçün yanaşmanı əhatə edir. Rəhbərlik müəyyən edilmiş və təhlil edilmiş xüsusi risklər üçün risk cavab strategiyasını seçir, bunlara aşağıdakılar daxil ola bilər:

1. Yayınma: riskə səbəb olan fəaliyyətlərdən uzaqlaşmaq;
2. Azaltma: risklə bağlı ehtimalı və ya təsiri azaltmaq üçün tədbirlər görmək;
3. Alternativ fəaliyyətlər: riskləri minimuma endirmək üçün digər mümkün addımlara qərar vermək və nəzərdən keçirmək;
4. Paylaşma və ya sığortalama: riskin bir hissəsini köçürmək və ya bölüşmək, onu maliyyələşdirmək;
5. Qəbullanma: xərc-fayda qərarına görə heç bir tədbir görülmür.

Monitorinq adətən risklərə cavab strategiyasının necə işlədiyini və məqsədlərə nail olub-olmadığını anlamaq üçün analitik hesabatların nəzərdən keçirilməsi və ya müvafiq ekspertlərlə idarəetmə komitəsinin görüşləri kimi daxili nəzarət fəaliyyətlərinin bir hissəsi kimi rəhbərlik tərəfindən həyata keçirilir.Riskin növlərinə aşağıdakılar daxildir: təbii fəlakət, maliyyə riski, qiymət riski, valyuta riski, likvidlik riski, strateji risklər və s. [2]

Risklərin idarə edilməsi prosesi ilk öncə müəsisənin daxili, xarici və risklərin idarə edilməsi kontekstində fəaliyyət göstərdiyi cari şərtlərin anlaşılmasını əhatə edir. Növbəti mərhələdə müəsisənin məqsədlərinə çatması üçün maddi təhdidlərin sənədləşdirilməsi və müəsisənin rəqabət üstünlüyü üçün istifadə edə biləcəyi sahələrin müəyyənləşməsi, risklərin təhlili və risklərin kəmiyyətinin müəyyən edilməsi daxildir. Risk təhlili tədqiq olunan obyektin strukturu, xassələri və cəlb olunan risklər haqqında zəruri məlumatların əldə edilməsinin ilkin mərhələsidir.

Risklərin inteqrasiyasına korrelyasiya və portfel effektlərini əks etdirən bütün risk paylamalarının ümumiləşdirilməsi və müəssisənin əsas fəaliyyət göstəricilərinə təsir baxımından nəticələrin formalaşdırılması daxildir. Risklərin qiymətləndirilməsi və prioritetləşdirilməsi hər bir riskin ümumi risk profilinə töhfəsinin müəyyən edilməsi və müvafiq prioritetləşdirmə daxildir. Təhlil prosesindən sonra risk meneceri müəssisədə risklərin idarə edilməsinin təşkilati strukturunu formalaşdırır və bu fəaliyyətlə

bağlı əsas müddəaları və təlimatları hazırlayır. Qiymətləndirmə müəyyən edilmiş risklərin keyfiyyət və kəmiyyət təsviri, mümkün zərərin ehtimalı və dərəcəsi kimi xüsusiyyətlərin müəyyən edilməsidir. İqtisadi kateqoriya kimi istənilən riskli əməliyyatın üç nəticəsi ola bilər: mənfi - bu itki, ziyan, itkidir; sıfır və müsbət, qazanc, fayda, mənfəət deməkdir. Risk səviyyəsi bir çox amillərdən, o cümlədən təsərrüfat subyektlərinin təşkilati-hüquqi formalarının yaradılması və fəaliyyət göstərməsindən, şirkətin ölçüsündən, onların fəaliyyət subyektindən və s. [7]

**Ədəbiyyat siyahısı:**

1. Aqrar-sənaye müəssisələrinin iqtisadiyyatı və idarə edilməsi. Qasımov Ə. Bakı: Nurlan, 2005, 354 s.
2. Cəfərov N.Ə. Bazar münasibətləri şəraitində sənaye istehsalının inkişafının stimullaşdırılması məsələləri. Bakı, Azərnəşr, 2010, 196 s
3. İqtisadi risklərin qiymətləndirilməsi və idarə edilməsi. X.Kazımlı, İ.Quliyev. B.,2011
4. İqtisadi təhlükəsizlik və inkişafın maliyyə problemləri. E.Ə. Balayeva. Bakı, "Elm", 2011,396 s
5. Kommersiya fəaliyyətnin əsasları. K.Paşayev. B.,2010
6. Qloballaşma şəraitində milli iqtisadiyyatın formalaşmasının nəzəri problemləri. İqt. elm. dok. ...dis. avtoref. Əhmədov M.A. Bakı, 2005, 45 s
7. Menecment. Ə.Əliyev, M.Vəliyev, S.Pürhani. B.,2013

## УЧЕТ РИСКА В УПРАВЛЕНИИ ПРЕДПРИЯТИЕМ

**В.В.Бахманлы**
**Азербайджанский Технологический Университет**
**behmenli_vaqif@bk.ru**

В нашем быстро меняющемся мире нам необходимо идти на риск, чтобы расти и развиваться как общество, и риски, которыми мы должны управлять, быстро развиваются. Управление рисками включает в себя понимание, анализ и устранение рисков, чтобы обеспечить достижение бизнесом своих целей. Риск должен быть пропорционален сложности и типу предприятия. Управление рисками предприятия — это комплексный подход к управлению рисками в организации и ее расширенных сетях.

Риски предприятия - это возможные потери на разных уровнях организации. Они требуют внимания корпоративного управления и исполнительного руководства. Управление рисками предприятия представляет собой вертикальную стратегию, направленную на выявление, оценку и подготовку к возможным убыткам, опасностям и другим потенциальным убыткам, которые могут препятствовать или вызывать убытки в деятельности и целях организации.

## RISK CONSIDERATION IN ENTERPRISE MANAGEMENT

**V.V.Bahmanli**
**Azerbaijan Technological University**
**behmenli_vaqif@bk.ru**

In our fast-paced world, we need to take risks to grow and develop as a society, and the risks we need to manage are evolving rapidly. Risk management involves understanding, analyzing, and resolving risk to ensure that businesses achieve their goals. The risk should be proportional to the complexity and type of enterprise. Enterprise risk management is an integrated approach to risk management in an organization and its extended networks.

Enterprise risks are potential losses at different levels of the organization. These require the attention of corporate governance and executive management. Enterprise risk management is a vertical strategy aimed at identifying, assessing and preparing for potential losses, hazards and other potential losses that may impede or cause losses to the entity's operations and objectives.

# QİYMƏTİN YARANMASININ ELMİ ƏSASLARI

**A.V.Abdurahmanov**
**Azərbaycan Texnologiya Universisteti**
**A.Allahverdi137@gmail.com**

Qiymət, pulla ifadə olunan mal vahidinin dəyəri hesab edilir. Qiymət, hər hansı bir əmtəənin pulla ifadə olunması deməkdir. Hər hansı bir əmtəəyə qiymətin yaranması metodlarının öyrənilməsi onu göstərir ki, başqa bazar amilləri ilə yanaşı xərclərin səviyyəsi də əsas amil hesab edilir. Faktiki olaraq ölkəmizdə qiymətin yaranmasının əsas prinsipi ondan ibarətdir ki, qiymətlər satıcı və alıcı arasında razılaşdırılır. Lakin,

dövlən müəyyən əmtənin qiymətinin tənzimlənməsini də öz əlində saxlayır.

İstehsalın müəyyən xərclərini görə qiymətin yaranmasının metoduna onun zərərsizlik təhlilinə əsasən hesablanmasına və məqsədli şəkildə mənfəətin təmin olunmasına aiddir. Hər hansı bir firmanın öz məhsuluna elə qiymət qoymağa çalışır ki, istədiyi həcmdə mənfəət əldə etsin.

Xidmətlərdə qiymətlərin yaranmasından danışıldıqda isə təkcə xidmətin göstərilməsi ilə deyil, həm də onların istehlakıyla bağlı olan xərclərin uçotu da mühüm amillərdəndir. Burada müştərilərin, xidmətin alınmasında vaxt məsrəfləri ilə, fiziki güc məsrəfi ilə, əsəbi-psixi xərclər ilə və sensor xərcləri nəzərdətutulur. Bu xərclərin xüsusi diqqət göstərilməsi məqamı ondan ibarətdir ki, bir çox müştərilər bunlardan yaxa qurtarmaq üçün hətta yüksək qiymət ödəməyə də hazırdır

Məhsulun satış qiymətinin təyin edilməsində marketinq yanaşmasının əsas xüsusiyyətləri ondan ibarətdir ki, məhsulun qiyməti hər hansı bir kalkulyasiyanın nəticəsində deyil, tarazlığı bazar vəziyyətində əmələ gəlir. Bu tarazlığı axtarmaq üçün məhsul satılacaq bazarın vəziyyətini, rəqabətliliyini, risklərini və istehlakçı psixologiyasını öyrənmək zəruridir. Bazarın marketinq təhlilləri nəticəsində məhsula və onunla bağlı xidmətə elə qiymət yaranır ki, alıcı və satıcını kifayət qədər təmin edir. Marketinq zamanı əgər bazar düzgün qiymətləndirilərsə, onda məhsulun bir çeşidi üzrə qiyməti yüksəldilə bilər, lakin belə olmadıqda məhsulun digər çeşidlərinin qiyməti aşağı salınmalıdır. Qiymətin yaranması üçün marketin zamanı bir tərəfdən bazarın xüsusiyyətlərini, digər tərəfdən satıcılar və alıcıların davranışını öyrənmək lazımdır. Marketinqin fəliyyəti zamanı əsasə nəticə satışın artırılmasına yönəldilir. Bazar iqtisadiyyatının inkişafı və qiymətin yaranmasının məhdudlaşdırılması üçün məqsədli şəkildə dəqiq naliyyətlərə yönəlmiş vergi siyasəti həyata keçirmək tələb olunur.

Qiymətin dövlət tənzimlənməsi, dövlət qurumlarının qiymətin təyin edilməsində və qiymətin yaranmasında müəyyən qaydaların tətbiq edilməsində inzibati müdaxiləni ifadə edir. Qiymətin vasitəsiz şəkildə özünün tənzimlənməsi kimi deyil, qiymətə təsir göstərən amillərin tənzimlənməsini göstərir

**Açar sözlər:** istehsalın qiyməti, xidmətin qiyməti, əmtəənin qiyməti, dövlət tənzimləməsi

**Ədəbiyyat siyahısı:**

1. Çudakov A.D., Qiymətlər və qiymətin əmələ gəlməsi. Dərslik,Bakı, 2009
2. Kazımlı X.H., Bayramov Q.S., Sadıqov B.C., Quliyev İ.Q., Hümbətova S.İ., Məmmədov İ.N. Qiymətin əmələ gəlməsi.Dərslik. "Müəllim" nəşriyyatı Bakı, 2019
3.https://az.wikipedia.org/wiki/Qiym%C9%99t

**НАУЧНЫЕ ОСНОВЫ ЦЕНООБРАЗОВАНИЯ**

**А.В.Абдурахманов**
**Азербайджанский Технологический Университет**
**A.Allahverdi137@gmail.com**

Цена – это стоимость единицы товара, выраженная в деньгах. Цена есть денежное выражение любого товара. Изучение методов ценообразования на любой товар показывает, что уровень издержек является ключевым фактором, наряду с другими рыночными факторами. По сути, главный принцип ценообразования в нашей стране заключается в том, что цены согласовываются между продавцом и покупателем. Однако, государство также контролирует цены на некоторые товары.

**Ключевые слова:** себестоимость, цена услуги, цена товара.

**SCIENTIFICBASESOFPRICEFORMATION**

**A.V.Abdurakhmanov**
**Azerbaijan Technological University**
**A.Allahverdi137@gmail.com**

Price is the value of a unit of goods expressed in money. Price is the monetary expression of any commodity. The study of methods of price formation for any commodity shows that the level of costs is a key factor, along with other market factors. In fact, the main principle of price formation in our country is that prices are agreed between the seller and the buyer. However, the state also retains control over the price of certain goods.

**Keywords:** cost of production, price of service, price of goods.

# AZƏRBAYCANDA ANTİİNFLYASİYA SİYASƏTİ VƏ ONUN DÖVLƏT TƏRƏFİNDƏN TƏNZİMLƏNMƏSİ

**T.Q.Quliyev**
**Azərbaycan Texnologiya Universiteti**
**taleh335@mail.ru**

Qiymətlərin ümumi səviyyəsindəki mütəmadi artımlar və bunun nəticəsində pulun aramsız şəkildə

qiymətdən düşməsi – inflyasiya hazırda bu və ya digər dərəcədəhəm keçid iqtisadiyyatı, həm də bazar iqtisadiyyatının səciyyəvi olduğu ölkələr üçün problem olaraq qalmaqda davam edir.

Azərbaycanda inflyasiyanıntənzimlənməsi problemlərindən və mexanizmlərindən danışarkən iki əsas şərti diqqətə almaq lazımdır:

- İnflyasiyaya uyğunlaşmaq – adaptasiya siyasəti;
- Radikal – antiinflyasiya siyasəti ilə inflyasiyanın ləğv edilməsi.

Adaptasiya siyasətində dövlət, firmalar – bütün bazar subyektləri özfəaliyyətlərində inflyasiyanı tənzimləyərkən, əksərən, pulun alıcılıq qabiliyyətinin düşməsini əsas götürürlər. Buradan aydın olduğu kimi, adaptasiya siyasətində inflyasiyanın mənşə səbəblərinə ciddi yanaşılmır. Dövlətin bazar qüvvələrinəminimal müdaxiləsi və antiinflyasiya tədbirləri görməsiinflyasiya zamanı dövlətin ikinci siyasəti kimi dəyərləndirilir. Bu, firmaların fəaliyyət şəraitinin həm daxili, həm də dünya bazarında liberallaşması, azad qiymət və milli valyuta kursunun saxlanılmasını özündə ehtiva edir. Bir çox ölkələr kimi,Azərbaycan dabu siyasət növünüseçmişdir.

Manat öz real dəyərindən həddindən çox uzaqlaşdıqca onun kursunun saxlanılması da bir o qədər mürəkkəbləşir və baha başa gəlir. Əgər 1996-ci ildən vüsət alan pul-kredit siyasətini bir qədər yüngülləşdirmək olsaydı,hazırda manatın kursunun saxlanılması üçün az ehtiyat lazım gələrdi və dövlət daha çox ehtiyat qoruyardı. Başlıcası isə, iqtisadiyyat daha mülayim inflyasiya şəraitində işləməklə uzlaşmış olardı. Bu gün, inflyasiyanın tənzimlənməsi dövlətin qarşısında duran əsas problemlərdən biridir. İnflyasiyanın sürətinin "təhlükəsiz" səviyyəyədək azaldılması (ildə 15-20% və yaxud ayda 1-2%), yalnız istehsalın səmərəsinin və idarəetmənin keyfiyyətinin yüksəldilməsi yolu ilə mümkündür. Bu məqsədə çatmaq üçün mərhələlərlə uzun müddət lazımdır. Bu işin öhdəsindən gəlmək üçün, investisiyanın tələb, intehsal xərcləri və gözləmətənzimlənməsi kimi komponentləri istiqamətində kompleks tədbirlərin həyata keçirilməsi lazımdır:[1, s.78]

1. İnhisarçı sahədə qiymətin qalxması ilə təzad təşkil edən məqsədyönlü bilavasitə məhdudlaşdırıcı tədbirlərin görülməsi;
2. 4-5%-lə büdcə kəsirinin məhdudlaşdırılması. Dövlətin investisiya qoyuluşu dövlət büdcə bazası gəlirlərinin genişləndirilməsi ilə paralellik təşkil etməlidir;
3. İnflyasiyanı stimullaşdıran hal kimi qiymətləndirilən vaxtı keçmiş debitor borclarının böyüməsi əleyhinə tədbirlərin görülməsi, bu isə, öz növbəsində, sənayedə dövriyyə kapitalının dövriyyəsinə və veksel istifadəsinin inkişafına və normalaşdırılmasına qatqı göstərir;
4. İstehlak mallarının yekun qiymətində vasitəçi gəlirlərin payının məhdudlaşdırılması vacibdir.
5. Valyuta kursunun stabilləşdirilməsi siyasətinə keçməzdən əvvəl, ilk öncə, məqsədyönlü şəkildə, "valyuta dəhlizinin" saxlanılması lazım gəlir. Bu məsələnin həlli tələb edir ki, inflyasiya iqtisadiyyatda radikal şəkildə azaldılsın, qiymət nisbətlərində dəyişikliklər, investisiya və istehlak kompleksləri sahələrində struktur dəyişiklikləri aparılsın. İnvestisiya və istehsal dinamikasında sabitlik real sektorda əhalinin rifahının yaxşılaşdırılmasına imkan yaradır.

İnflyasiyanın mənfi yöndə sosial-iqtisadi nəticələri dövləti vadar edir ki, bu neqativ prosesi yaradan səbəbləri ortadan qaldırmağa imkan verən kompleks tədbirləri,yəni antiinflyasiya siyasətini həyata keçirsin. Praktikada, bu siyasətin effektivliyinin zəruri şərtləri aşağıdakı kimi səciyyələndirilir: [1, s.80]

- cari inflyasiyanın elmi cəhətdən əsaslandırılmış prinsiplərə əsaslanaraq qiymətləndirlməsi;
- maliyyə, pul-kredit təşkilatları ilə hökumət orqanlarının fəaliyyətinin uyğunlaşdırılması;
- inflyasiya əleyhinə mexanizmin kompleksliliyi və çox həlqəliliyi.

İnflyasiyayanınqarşısını almaq üçün hökumət ev təsərrüfatını izafi vergilərlə yükləməməli, gəlirlərin yenidən bölgüsü sahəsinəifrat müdaxilə etməməlidir. Bununla bərabər, zəruri hallarda, ölkədə gərgin sosial-iqtisadi və siyasi vəziyyət zamanı müəyyən anda dövlət iqtisadi siyasəti, bütövlükdə, inflyasiya nəticələrinin aradan qaldırılması tədbirlərinin realizasiyasına, intensiv yenidənbölgü proseslərinin icra edilməsinə istiqamətləndirə bilər.

İnflyasiyaya qarşı mübarizə və onun tənzimlənməsi müəyyən müddət üçün hesaba alınmış siyasi proqram deyil, müddətsiz proqramdır, dövlətin gündəlik öhdəliyi, onun daimi funksiyasıdır. İnflyasiyanın dövlət tərəfindən tənzimlənməsi istiqamətində hökumətin və Mərkəzi Bankın əsl məqsədi inflyasiyanı yalnız mülayim, balanslaşdırılmış, proqnozlu deyil, həm də onu nəzarət altında olan bir prosesəçevirməkdən ibarətdir. Antiinflyasiya siyasətinin formalaşdırılması zamanı dövlət yalnız onun məqsədli istiqamətini deyil, eyni zamanda müddətli intervalını da müəyyənləşdirməlidir. Yalnız müəyyən interval müddətində verilmiş məqsədə nail olmaq olar.

İnflyasiya gözləmələrinin ləğv edilməsi siyasəti tətbiq edilərkən inflyasiya gözləmələrinin aradan qaldırılmasında qiymətlərin tənzimlənməsi vacib əhəmiyyət kəsb edir. Qiymətlərin müəyyən edilməsi hakimiyyət orqanlarının sərəncamında olduğu təqdirdə əmtəə defisiti və inflyasiya(defisit) gözləməsi qaçılmaz olacaqdır. Dövlət tərəfindən dəqiq irəli sürülən inflyasiya tempi və onun təminatının zəiflədilməsi üçün cəhdlər edilərkən qiymət dinamikasının sabitləşməsi məqsədi bütün digərləri üzərində dominantlıq təşkil edir, ev təsərrüfatı və şirkətlər öz iqtisadi davranışını qəfil surətdə dəyişir. [3, s.102]

Pul aqreqatlarının targetləşdirilməsi siyasəti tətbiq edilərkən Mərkəzi Bank gələcək üçün Fridmen tənliyinə (bərabərliyinə)müvafiq olaraq pul kütləsi artımının məqsədli istiqamətini təyin edir. Təcrübədən göründüyü kimi, belə yanaşma pula olan tələbin dəyişməsi zamanı səmərəlihesab olunmur. Valyuta kursunun targetləşdirilməsi siyasəti dedikdə,valyutanın tənzimlənməsi nəzərdə tutulur. Bu, inflyasiyanın azalan templəri ilə ölkənin milli valyutasının xarici valyuta ilə bağlılığı ilənəticələnir.

Müəyyən şəraitdə, ələlxüsus, büdcənin qeyri-tarazlığı şəraitində büdcəkəsirinin azaldılması strategiyası və bununla inflyasiya təhlükəsinin aradan qaldırılması tələb edir ki, hökumət surətli istehsal və maliyyə nəticələrini təmin edən xərclərin çoxaldılması tədbirlərini reallaşdırsın. Sözsüz ki, bu tip çox riskli strategiyanın həyata keçirilməsi milli iqtisadiyyatın investisiya xərclərinin surətli inkişaf edən sektorlarına vergi ödəyiciləri tərəfindən vəsaitlərin qoyuluşunu tələb edir. Bu strategiya, eyni zamanda dövlət borcunun idarəedilməsi üzrə maliyyə hökumət orqanlarının fəaliyyətini özündə ehtiva edir.

Azərbaycanda antiinflyasiya siyasəti və onun dövlət tərəfindən tənzimlənməsi sahəsində Mərkəzi Bank valyuta siyasəti yeritməli, həmçinin ölkədə həyata keçirilən sosial – iqtisadi inkişaf proqramlarının reallaşdırılmasını dəstəkləməli vəmakroiqtisadi siyasətin əlaqələndirilməsində aktiv iştirak etməlidir ki, inflyasiyanın təkrəqəmli səviyyədə saxlanmasına və maliyyə sabitliyinin qorunmasına nail olmaq mümkün olsun.

**Ədəbiyyat siyahısı:**

1. M.A.Əhmədov, A.C.Hüseyn. İqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları. Bakı. 2011.
2. Quliyev T.Ə. İnflyasiyanın anatomiyası. Bakı, 2006
3. Rasim Həsənov. "İqtisadi siyasət: metodologiya və praktika". Bakı. "İqtisad Universiteti" nəşriyyatı. 2014
4. Лаврушин О.И. О денежно-кредитной и банковской политике. Банковское дело.2008. №02
5. С.Н. Кабушкин. Управление Банковским Кредитным Риском. Москва. 2014

## АНТИИНФЛЯЦИОННАЯ ПОЛИТИКА В АЗЕРБАЙДЖАНЕ И ЕЕРЕГУЛИРОВАНИЕ ГОСУДАРСТВОМ

**Т.Г.Гулиев**
**Азербайджанский Технологический Университет**
**taleh335@mail.ru**

Из опыта предыдущих лет регулирования инфляции и реализации антиинфляционных мер можно сделать вывод, что для того, чтобы эта политика была целенаправленной, необходимо правильно использовать элементы инфляционного механизма.Жесткая денежно-кредитная политика, обеспечивающая стабильность курса маната и сдерживание инфляции, должна проводиться таким образом, чтобы сделать возможным минимизироватьнегативное влияние этой политики на экономику. Для этого необходимо создать микрофинансовую стабильность, которая представляет собой реальную финансовую стабильность, основанную на сильной экономике.

## ANTI-INFLATIONPOLICY IN AZERBAIJAN AND ITS GOVERNMENT REGULATION

**T.G.Guliyev**
**Azerbaijan Technological University**
**taleh335@mail.ru**

From the experience of the previous years in the regulation of inflation and the implementation of anti-inflationary measures, it can be concluded that in order for this policy to be purposeful, it is necessary to properly use the elements of the inflation mechanism.A tight monetary policy that ensures the stability of the manat and curbing inflation should be carried out in such a way as to make it possible to minimize the negative impact of this policy on the economy. To do this, it is necessary to create microfinance stability, which is to be  real financial stability based on a strong economy.

## KİÇİK BİZNESİN RƏQABƏT QABİLİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ STRATEJİ MARKETİNQİN ROLU

**V.Məmmədova**
**K.V.Həsənov**
**Azərbaycan Texnologiya Universiteti**

hasanovkamran611@gmail.com

Qısamüddətli planlaşdırma ilə qısamüddətli vəzifələr formalaşdıran, hədəfləri və fəaliyyət istiqamətləri tez-tez dəyişən, habelə istehsal, maliyyə və intellektual imkanlara malik olmayan fəaliyyət şəraitindəki dəyişikliklərə qısa zamanda reaksiya verməyə imkan verən kiçik sahibkarlıq subyektləri bazarda rəqabətə davamlı ola bilməz.

Buna görə də, rəqabətli bazarda kiçik biznesin rəqabət qabiliyyətinin səviyyəsinin yüksəldilməsi üçün idarəetmə heyəti müəssisənin inkişafı üçün effektiv marketinq strategiyasıişləyib hazırlamalıdır.

Kiçik biznesdə strateji marketinqinbaşlıca rolusahibkarlıq subyektini uzunmüddətli perspektivdə müəssisənin rəqabət qabiliyyətinin yüksəldilməsi mexanizmləri və alətlərini özündə təmsiledən effektiv strategiya ilə təmin etməsindən ibarətdir.

Strateji marketinqin effektivliyi müəssisənin rəqabətədavamlı olub-olmamasını və ya rəqiblərin təzyiqi altında öz mövqeyini itirib-itirməyəcəyini müəyyən edir.

Strategiya rəqabətli bazarda öz inkişaf vektorunu formalaşdırmağa, rəqabət üstünlüklərini və bazardan gələn təhdidləri qiymətləndirməyə imkan verir.

Sahibkarlıq tipli kiçik biznes müəssisələrində strateji marketinqin əsas funksiyaları aşağıdakılardır:[1,s.123]

- müəssisənin inkişaf istiqamətinin yaradılması;
- potensial alıcıların üstünlüklərinin təhlili, marketinq tədqiqatlarının aparılması, effektiv reklam kampaniyalarının yaradılması, səmərəli satış sisteminin, habelə müəssisənin qiymət siyasətinin işlənib hazırlanması;
-hər bir funksional şöbə üçün müəssisənin ümumi vəzifələrinə müvafiq olan aydın məqsədlərin müəyyən edilməsi;
-  müəssisənin bütün funksional şöbələrinin fəaliyyətinin koordinasiyası;
- müəssisənin rəqabət qabiliyyətinin qiymətləndirilməsi, müəssisənin rəqabət qabiliyyətinin xarici və daxili amillərinin, habelə bazarda mümkün risklərin təhlili;
- müəssisənin maddi, maliyyə və intellektual resurslarının səmərəli bölgüsü.

Mövcud iqtisadi şəraitdə, strateji marketinq kiçik biznesin rəqabət qabiliyyətinin yüksəldilməsinin ayrılmaz mexanizmidir.

Kiçik biznes müəssisəsində strateji marketinq xarici və daxili mühit parametrlərinin, bazar tələblərinin, rəqabət mühitinin, təklif olunan məhsul və xidmətlər çeşidinin, qiymət siyasətinin, məhsulun keyfiyyətinin təhlilini və proqnozlaşdırmasını aparmağa, həmçinin özlərinin uzunmüddətli perspektivlərini, öz məqsədlərini və onlara nail olmaq metodlarını müəyyən etməyə imkan verir.[3,s.142]

Strateji marketinq nəzəriyyəsinin əsas predmeti rəqiblərlə müqayisədə müəssisənin rəqabət üstünlüklərinin axtarışı, yaradılması və saxlanılmasıdır.

Beləliklə, səmərəli strateji marketinqin həyata keçirilməsi kiçik biznesin iqtisadi dayanıqlığının daim yüksəldilməsini təmin etməklə yanaşı, həm onun istehsal etdiyi malların, həm göstərilən xidmətlərin, həm də müəssisənin özünün rəqabət qabiliyyətinin yüksəldilməsini təmin edir.

**Mövzunun aktuallığı.**Müasir iqtisadi şəraitdə kiçik biznesin fəaliyyəti onun fəaliyyət nəticələri ilə maraqlanan bazar münasibətləri iştirakçılarının geniş dairəsinin diqqət predmetini təşkil edir. Bununla bağlı olaraq, kiçik biznesin rəqabət qabiliyyətinin yüksəldilməsi aktual əhəmiyyətə malikdir.

**Tədqiqatın məqsədi.**Kiçik biznesin rəqabət qabiliyyətinin yüksəldilməsində strateji marketinqin rolunun aydınlaşdırılmasıdır.

**Tədqiqat obyekti.** Qarşıya qoyulan məqsədlərə müvafiq olaraq sahibkarlıq fəaliyyəti ilə məşğul olan kiçik biznes müəssisələridir.

**Tədqiqat metodu.** Mövzunun tədqiq edilməsi zamanı araşdırma və analiz metodlarına üstünlük

verilib.

**Açar sözlər:** kiçik biznes,rəqabət qabiliyyəti, strateji marketinq, qısamüddətli planlaşdırma, uzunmüddətli perspektiv

**Ədəbiyyatsiyahısı:**

1. Носова Н.С. Конкурентная стратегия компании, или маркетинговые методы конкурентной борьбы. - М.: Дашков и Ко, 2013. 256 с
2. Олдерогге Н.Г. Управление конкурентоспособностью в бизнесе: справочное пособие. - М.: Омега-Л, 2013. 496 с
3.Передовые подходы к стратегии бизнеса. Harvard Business Review. / Пер. с англ. Минервина И. М.: Юнайтед Пресс, 2014. 256 с

## THE ROLE OF STRATEGIC MARKETING IN ENHANCING THE COMPETITIVENESS OF SMALL BUSINESS

**V.Mammadova**
**K.V.Hasanov**
**Azerbaijan Technological University**
**hasanovkamran611@gmail.com**

Competitiveness is the possession of properties that create advantages for an economic entity to win in economic competition.And the role of strategic marketing in increasing this competitiveness is irreplaceable.

## РОЛЬ СТРАТЕГИЧЕСКОГО МАРКЕТИНГА В ПОВЫШЕНИИ КОНКУРЕНТОСПОСОБНОСТИ МАЛОГО БИЗНЕСА

**В.Мамедова**
**К.В.Гасанов**
**Азербайджанский Технологический Университет**
**hasanovkamran611@gmail.com**

Конкурентоспособность - это обладание свойствами, создающими преимущества для хозяйствующего субъекта одержать победу в экономическом соревновании.И роль стратегического маркетинга в повышении этой конкурентоспособности незаменима.

## REGİONLARDA KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN İNKİŞAFININ MƏŞĞULLUQ SƏVİYYƏSİNİN YÜKSƏLDİLMƏSİNDƏ ROLU

**Ə.Ə.Əsgərov**
**X.A.Əliyeva**
**Azərbaycan Texnologiya Universiteti**

aliyeva.xayala95@mail.ru

Sahibkarlıq regionlar üzrə nəzərəçarpacaq dərəcədə fərqlidir. "İnformasiyanın yayılmasından" və digər amillərdən faydalanan dinamik firmaların klasterlərini yaradan bölgələrin sayı getdikcə artır.

KOM-lar (kiçik və orta müəssisələr) əksər ölkələrdə iş yerlərinin 60-70 faizini təşkil edir, xüsusilə İtaliya və Yaponiyada böyük pay, ABŞ-da isə nisbətən kiçik paya malikdir. Onlar həmçinin yeni iş yerlərinin qeyri-mütənasib böyük hissəsini təşkil edir, xüsusən də bu işlərdə ABŞ və Hollandiya da daxil olmaqla, güclü məşğulluq rekordu nümayiş etdirən ölkələr var. Bəzi sübutlar həmçinin iş yerlərinin yaradılmasında ölçüdən çox yaşın vacibliyinə işarə edir: gənc firmalar məşğulluqdakı paylarından çoxunu yaradırlar. Bu səbəbdən yalnız bir neçə iş yerləri mühüm töhfələr verən yüksək inkişaf edən firmalara çevrilir. Yüksək iş dövriyyəsi məşğulluğun təminatında problemlər yaradır. Kiçik firmalar da təlimə daha az sərmayə qoyur və səriştələrin artırılması üçün nisbətən daha çox kənar işə etibar edirlər.

Məhdud sayda yüksək inkişaf edən KOM-lar iş yerlərinin yaradılmasına və məhsuldarlığın artmasına mühüm töhfələr verir. Əvvəlki mərhələlərdə idarəetmə imkanları inkişaf etmək üçün çox vacibdir. Firma yetkinləşdikcə insan resursları və innovasiya strategiyalarının əhəmiyyəti artır. Şirkət qurulan zaman innovasiyalar böyümə üçün çox vacibdir. Ən sürətlə böyüyən sahibkar, innovasiya və təlim formasında fəaliyyətə çevirən, ixtisaslı işçilərin işə götürülməsinə və işçilərin həvəsləndirilməsinə böyük diqqət yetirən və müxtəlif sahələrdə onlara imkan yaradan yüksək bilikli sahibkarlardır. Əsas maneələr yüksək inkişaf edən KOM-ların inkişafı kapital bazarlarında bazar uğursuzluqları, hökumət qaydaları, dolayı əmək xərcləri, xarici bazarlara çıxış və ixtisaslı kadrların və ixtisaslı işçilərin işə götürülməsində çətinliklərdir.

Qadınlara məxsus KOM-lar bir sıra ölkələrdə bütövlükdə iqtisadiyyatdan daha sürətli böyüyür və bu təhsilli və təlim keçmiş qadınların bacarıqlarının kapitallaşdırılmasına imkan verir. Öz biznesinə xas olan artan çeviklik qadınlara iş və ailəni balanslaşdıraraq ailələrinin gəlirlərinə töhfə verməyə imkan verir. Bununla belə, bu sahədə informasiya və statistikanın təkmilləşdirilməsi, habelə maliyyələşdirmə, şəbəkə və texnologiya üçün ilkin şərtlərin gücləndirilməsi üçün tədbirlər tələb olunur.

Tənəzzüldə olan sənayelərdən əziyyət çəkən bölgələrə kömək etmək üçün regional inkişaf siyasətləri tətbiq edilmişdir. Firmaları əlverişsiz bölgələrə cəlb etmək üçün əsas siyasət alətləri infrastruktura investisiya, sosial yardım, təlim və digər dövlət yardım formalarıdır. Sahibkarlığın regional ölçüsü təkcə müəssisə klasterləri ilə məhdudlaşmır, həm də mikro müəssisələri də əhatə edir. Daxili şəhərlərdə və ucqar kənd yerlərində mikro müəssisələrin yaradılmasına və inkişafına yardım proqramları geniş yayılmış siyasət alətlərinə çevrilmişdir. Digər regionlarda və ya ölkələrdə uğurla istifadə edilən siyasətləri qəbul etmək istəyən hökumətlər regional konteksti nəzərə almalıdırlar.

**Mövzunun aktuallığı.** KOM-lar haqqında etibarlı, aktual və beynəlxalq səviyyədə müqayisə edilə bilən məlumatlara tələbat artır.

**Tədqiqatın məqsədi**. Sahibkarlığın inkişafı üçün uyğun olan bir neçə regionlar məşğulluq səviyyəsinin yüksəldilməsində rolu vardır.

**Tədqiqat obyekti.** Kiçik ve orta sahibkarlığın inkişafı.

**Tədqiqat metodu.** Sahibkarlığa dövlət tərəfindən dəstək olunması və məşğulluğun ölkə tərəfindən tənzimlənməsi.

**Açar sözlər:**kiçik və orta sahibkarlıq**,** məşğulluq, inkişaf və innovasiya.

## Ədəbiyyat siyahısı:

1. Tağıyev A.H., Fərzəliyev S.A Kiçik biznesin təşkili və idarə edilməsi. Bakı, Təknur, 2007
2. Qasımov F.H və.b "Sahibkarlığın əsasları". Bakı , MAA nəşriyyatı, 2008
3. https://www.oecd.org/cfe/smes/2090740.pdf

4. https://unec.edu.az/application/uploads/2018/11/BA-IROVA-SEV-L-D-SSERTAS-YA.pdf

## РОЛЬ РАЗВИТИЯ МАЛОГО И СРЕДНЕГО ПРЕДПРИНИМАТЕЛЬСТВА В ПОВЫШЕНИИ УРОВНЯ ЗАНЯТОСТИ В РЕГИОНАХ

**А.А.Аскеров**
**Х.А.Алиева**
**Азербайджанский Технологический Университет**
**aliyeva.xayala95@mail.ru**

Предпринимательство значительно различается по регионам. Все большее число регионов создают кластеры динамичных фирм, получающих выгоду от «распространения информации» и других факторов.

## THE ROLE OF SMALL AND MEDIUM ENTREPRENEURSHIP DEVELOPMENT IN RAISING EMPLOYMENT IN THE REGIONS

**A.A.Askerov**
**Kh.A.Aliyeva**
**AzerbaijanTechnologicalUniversity**
**aliyeva.xayala95@mail.ru**

Entrepreneurship differs significantly by region. An increasing number of regions are creating clusters of dynamic firms that benefit from "information dissemination" and other factors.

## TURİZMDƏ MARKETİNQİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**X.N.Cavadzadə, A.F.Qurbanlı**
**Azərbaycan Texnologiya Universiteti**
**ayten.qurbanli.2017@mail.ru**

**Marketinq-**müəyyən istehlakçı qrupunun ehtiyaclarını ödəmək məqsədilə məhsul və xidmətlərin istehsalı və satışı ilə əlaqəli fəaliyyətin planlaşdırılması və idarə edilməsidir.Hər şeydən əvvəl "marketinq" -

iqtisadi bir prosesdir.

Marketinq planlamasının uğurlu həyata keçirilməsi üçün bu ardıcıllığı qorumaq lazımdır.

1) Mövcud vəziyyətin analizi
2) Müəssisənin misiya, hədəf və məqsədlərinin təyin edilməsi
3) Strategiyanın təyin edilməsi
4) Tətbiqetmə
5) Dəyərləndirmə və sınaq müddəti

Turizmdə marketinq – turizm məhsullarının və xidmətlərinin hazırlanması, planlaşdırılması, bazara irəlilədilməsi, satışı və onlara tələbin stimullaşdırılması üzrə həyata keçirilən fəaliyyətdir.Turizm bazarının formalaşması, tələb və təkliflərin artması,rəqabətin kəskinləşməsi nəhayət turizmdə marketinqin yaranmasına səbəb oldu. Turizm sənayesində istehsal edilən məhsul və xidmətlərin marketinqində alt qruplarda toplasaq turizm sənayesində diferensiallıq xüsusiyyəti yaradır.

1) Turizm məhsulu iki ayrı səviyyədə bazara çıxarılır. Bunlardan birincisi, milli və ya regional rəsmi turizm təşkilatlarının ümumi olaraq ölkəyə və ya bölgəyə turist cəlb edə bilmək məqsədilə həyata keçirdikləri marketinq fəaliyyətidir.

2) Turizm marketinqinin ikinci xüsusiyyəti, bazara çıxarılan məhsul və xidmətlərin əksəriyyətini anbarlaşdırmaq olmur, xidmət göstərmə tutumu yaradılır və hazır saxlanılır.

3) Turizm məhsulu olaraq satılan xidmətlərin həm anbarlaşdırıla bilməməsi və həm də "əmək-tezlik" məhsullar olmaları səbəbindən bir-birindən fərqli xüsusiyyətləri vardır.

4) Məhsullar istehsal edilib bir müddət sonra satıldığı və istehlak edildiyi halda xidmətlər birinci satılır, istehsal ilə istehlak daha sonra eyni zamanda həyada keçirilir.

**Mövzunun aktuallığı.**Məqalə turizmdə marketinqin təkmilləşdirilməsi yollarına həsr olunub.

**Tədqiqatın məqsədi.**Turizmdə marketinqin təkmilləşdirilməsini yolları araşdırılır.Marketinqin planlamasının həyata keçirilməsində ən önəmli faktorlar araşdırılır.

**Tədqiqat obyekti.**Turizmdə marketinqin təkmilləşdirilməsi və istifadə metodları.

**Tədqiqat metodu.**Turizmdə marketinq və onun təkmilləşdirilməsi üsulları.

**Açar sözlər:** turizm, marketinq, marketinq təkmilləşdirilməsi

**Ədəbiyyat siyahısı:**

1.Əlirzayev Ə.Q. Turizmin iqtisadiyyatı və idarə edilməsi. Bakı, İqtisad Universiteti, 2011
2.Tourism destination management
3. https://www.emerald.com/insight/content/doi/10.1108/03090560010348452/full/html
4. http://az.strategiya.az/news.php?id=140831

**НАПРАВЛЕНИЯ СОВЕРШЕНСТВОВАНИЯ МАРКЕТИНГА В ТУРИЗМЕ**

**А.Ф.Гурбанлы**
**Х.Н.Джавадзаде**
**Азербайджанский Технологический Университет**
**ayten.qurbanli.2017@mail.ru**

В целом туризм и маркетинг взаимосвязаны. Маркетинг играет незаменимую роль при организациях успешной связи туризма.

**DIRECTIONS FOR IMPROVING MARKETING IN TOURISM**

**H.N.Javadzadeh**
**A.F.Gurbanly**
**Azerbaijan Technological University**
**ayten.qurbanli.2017@mail.ru**

In general, tourism and marketing are interrelated. Marketing has an invaluable inputinto building successful tourism relationships.

# HEYƏTİN İDARƏ EDİLMƏSİNƏ İQTİSADİ METODLARIN TƏSİRİ

**S.V.Əkbərova, dos. Ş.Qasımov**
**AzərbaycanTexnologiyaUniversiteti**
**akberovas1999@gmail.com**

İdarəetmə – bu təşkilatın məhsul istehsal prosesində əmək kollektivlərininvə

ayrı-ayrı işçilərin fəaliyyətinin təşkili və əlaqələndirilməsinə yönəldilmişinsanların xidməti əməyinin göstərilməsidir.İdarəetmə vaxtı həmişə suallar yaranır: nə, kimə,harada,nəvaxt, nəqədər,nədən?Beləməsələlərin sayı durmadan artır

Müəssisəninidarəedilməsiikiəsasvəzifələrihəlledir:

1. İstehsalınnormalgedişinidəstəkləmək,onundövriliyinivəsabitliyitəminetmək;
2. İstehsalıninkişafınıtəminetmək,məhsuluntəkmilləşdirilməsi,texnikivətexnologiyayeniliklərinin tətbiqi.

Təşkilatdainsanlaratəsir edənüçamiliayırmaqolar.

Birinci-təşkilatıniyerarxiyastrukturu,haradaəsastəsirvasitəsi-buhakimiyyətinmünasibətidir - tabe etməyə, yuxarıdan təzyiq, məcburiyyətin köməyi ilə maddi nemətlərinbölgüsü üzərindənəzarət.

İkinci mədəniyyət, yəni cəmiyyətdə təşkilatdaxili bir qrupla birgə yaradılan dəyərləri, sosialnormaları,qaydayasalanşəxsiyyətinhərəkətlərini,davranışını,özünü beləbaşqacürdeyil,məcburiyyətolmadanfərdin özü-özünü aparmağa məcbur edir.

Üçüncü-bazar-məhsulunvəxidmətlərinalqı-satışınaəsaslananbərabərhüquqlumünasibətlərin şəbəkəsidir. Bu həlqə özündə mülkiyyətin münasibətləri, satıcının və alıcınınmaraqlarınıntarazlığını birləşdirir.

Təsirin bu amilləri - çox mürəkkəblər anlayışlardır və təcrübədə nadir hallarda ayrılıqdareallaşırlar.Onlardanprioritet kimitəşkilatdaiqtisadisituasiyanınsimasıdır.

Müasir dövrdə təşkilatlarda heyətin idarə edilməsinin yeni xidmətləri yaradılır. Bunlar birqayda olaraq, ənənəvi xidmətlər əsasında: kadr şöbəsi, mühasibatlıq, əməyin ölçülməsi, əməyinqorunması,texniki təhlükəsizliyin təşkili şöbəslərivəbaşqalarısayılır.

**Mövzununaktuallığı:**

Məqalədəidarəetmə,təşkilatdaidarəetməhəmçininmüasirdövrdəidarəetmədəye ni xidmətinyaradılması aktualhesab edilir.

**Tədqiqatınməqsədi:**Təşkilatdaheyətinidarəedilməsivəonatəsirgöstərəcəkamillərinöyrənilməsi.

**Tədqiqatınobyekti:**Məqalədəəsasobyektheyətinidarəedilməsidir.

**Tədqiqatın metodu:** Tədqiqat işi aparılarkən idarəetmədə hansı üsullardan, həmçinin müasirdövrdəhansıqaydalara əsasənidarəedilməsiaraşdırılmavəanaliz metodundanistifadəedilib.

**Ədəbiyyat siyahısı:**


1. Heyətinidarəedilməsi, Bazarov T.Y., B.L.Yereminin redaktorluğu ilə(tərcümə)Bakı, 2012
2. İnsanresurslarınınidarəedilməsi,TofiqQuliyev,Bakı, 2013
3. ОрганизационнаяКультура(Учебноепособие)Ульяновск, 2007
4. ЗайцевЛ.Г.,СоколоваМ.И. «Стратегическийменеджмент»


## ВЛИЯНИЕ ЭКОНОМИЧЕСКИХ МЕТОДОВ НА УПРАВЛЕНИЕ ПЕРСОНАЛОМ

**доц. Гасымов Шахин, С.В.Акбарова**
**Азербайджанский Технологический Университет**
**akberovas1999@gmail.com**

Необходимоучитыватьфакторы,влияющиенауправлениеперсоналомворганизации,атакжеобратитьвнимание нановыеуслугиуправленияперсоналомворганизацияхвсовременноевремя.

## IMPACT OF ECONOMIC METHODS ON PERSONNEL MANAGEMENT

**prof. Sh.Gasymov, S.V.Akbarova**
**Azerbaijan Technological University**
**akberovas1999@gmail.com**

Itisvitaltoconsidertheelementsthatinfluencestaffmanagementintheorganization,as well as to pay attention to the new services of people management in organizations at currenttimes.

## AZƏRBAYCAN RESPUBLİKASINDA AZAD İQTİSADİZONALARIN FORMALAŞDIRILMASI VƏ İNKİŞAFIN SOSİAL-İQTİSADİ ASPEKTLƏRİ

**Ə.Ə.Əsgər**

**J.E.Nəzərli**
**Azərbaycan Texnologiya Universiteti**
**zhalanazarli@icloud.com**

Azad iqtisadi zonalar kapitalın, malların və əməyin ümumi sərbəst hərəkəti ilə xarakterizə olunan xüsusi gömrük və ticarət rejimi ilə açıq şəkildə məhdud olan ərazilərdir. AİZ-in əsas xüsusiyyətləri dünya iqtisadiyyatı, dünya bazarı ilə sıx əlaqə və xarici kapitalın aktiv cəlb edilməsidir.

Azad İqtisadi Zonalar İnstitutunun (AİZ) kifayət qədər uzun tarixi var. 20-ci əsrin ortalarında AİZ-lər bir çox ölkələrdə geniş yayılmışdır. Eyni zamanda, müxtəlif ölkələrdə bu qurumun yaradılması özünəməxsus şəkildə baş vermişdir ki, bu da xarici ölkələrin praktiki təcrübəsinin Azərbaycanda istifadə maraqları baxımından öyrənilməsi və müqayisəli təhlili üçün aktuallıq verir. Bu gün AİZ investisiyaların cəlb edilməsini asanlaşdıran, o cümlədən dövlətin iqtisadi və elmi potensialını gücləndirən bir qurumdur. Bütövlükdə Azərbaycan iqtisadiyyatının inkişafının dəyişən xarici və daxili amillərini və onun iri iqtisadi rayonlarının inkişaf xüsusiyyətlərini nəzərə almaqla zonaların fəaliyyətinin hərtərəfli öyrənilməsinə ehtiyac yarandı.

Azadiqtisadi zonaların formalaşması və inkişafının ümumi və spesifik xüsusiyyətlərini müəyyən etmək, habelə regional amillərin təsirini qiymətləndirmək lazımdır. Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələri qoyulur:

- dünya iqtisadiyyatında xüsusi iqtisadi zonaların yaradılması və fəaliyyətinin məqsəd və vəzifələrini təsnif etmək, onların Azərbaycanda tətbiq oluna biləcək variantlarını nəzərdən keçirmək;
- dünyanın makrozonasında xüsusi iqtisadi zonaların iqtisadi inkişaf xüsusiyyətlərini nəzərə almaqla onların formalaşması və fəaliyyət göstərmə xüsusiyyətlərini müəyyən etmək;
- mövcud əsas çətinlikləri müəyyən etmək və zonaların inkişafı üçün perspektivli sahələrin axtarışı məqsədilə Azərbaycanda xüsusi iqtisadi zonaların fəaliyyəti təcrübəsini təhlil etmək;
- müxtəlif modellərin müqayisəli təhlili əsasında Azərbaycan üçün xüsusi iqtisadi zonanın konseptual çərçivəsini və dünya iqtisadi sisteminə fəal inteqrasiya yolu ilə iqtisadi sabitləşməyə və idarəetmənin səmərəliliyinin artırılmasına töhfə verən regional modifikasiyalarını müəyyən etmək;

İqtisadi-coğrafi vəziyyətin üstünlüklərindən istifadə, ilk növbədə, AİZ-lərin adətən dəniz və çay limanlarının, dünya bazarı ilə yaxşı əlaqəni təmin edən beynəlxalq hava limanlarının yaxınlığında yaradılmasında reallaşır. Bununla belə, belə zonaların yaradılmasının müxtəlif məqsədləri və onların ərazisində biznesin aparılması üçün müxtəlif qaydaları olur.

**Mövzunun aktuallığı.** AİZ-lər inkişaf etməkdə olan ölkələrə ixracın təşviqi, birbaşa xarici investisiyaların cəlb edilməsi, ixracın rəqabətini, valyuta gəlirlərinin artırılması və regional inkişaf kimi inkişaf amillərini sürətləndirməyə kömək edir.

**Tədqiqatın məqsədi**. AİZ-ın yaradılmasında bəyan edilmiş ilkin məqsəd və vəzifələr, faktiki inkişaf nəticəsində baş verən sosial-iqtisadi aspektlər.

**Tədqiqat obyekti.** Azad zona nəinki ayrı coğrafi ərazi deyil və milli iqtisadi məkanın bir hissəsidir.

**Tədqiqat metodu.** AİZ-da agentlərin fəaliyyətini tənzimləyən xüsusi qanunvericilik mövcuddur və ixrac-idxal əməliyyatlarının gömrük tənzimlənməsi, vergitutma, bank, əmlak və ipoteka münasibətlərin idarə edilməsini əhatə edir.

**Açar sözlər:** AİZ, sosial-iqtisadi aspekt, təkmilləşdirmə

## Ədəbiyyat siyahısı:

1. Əliyev Ş.T., "Xüsusi iqtisadi zonaların tətbiqi problemləri", Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, Bakı, 2012

2.https://www.researchgate.net/publication/312176539_Significance_of_free_economic_zones_A_Study_from_an_International_Perspective.pdf
3. https://www.economy.gov.az/article/iqtisadi-zonalar/21402

## ФОРМИРОВАНИЕ СВОБОДНЫХ ЭКОНОМИЧЕСКИХ ЗОН И СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКИЕ АСПЕКТЫ РАЗВИТИЯ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

**А.А.Аскеров**
**Ж.Э.Назарли**
**Азербайджанский Технологический Университет**
**zhalanazarli@icloud.com**

Свободные экономические зоны – это территории, четко ограниченные особым таможенным и торговым режимом, характеризующимся общим свободным перемещением капитала, товаров и рабочей силы. Основными особенностями ОЭЗ являются мировая экономика, тесные связи с мировым рынком и активное привлечение иностранного капитала.

## FORMATION OF FREE ECONOMIC ZONES AND SOCIO-ECONOMIC ASPECTS OF DEVELOPMENT IN THE REPUBLIC OF AZERBAIJAN

**A.A.Askerov**
**J.E.Nazarli**
**Azerbaijan Technological University**
**zhalanazarli@icloud.com**

Free economic zones are areas that are clearly marked by a special customs and trade regime characterized by the general free movement of capital, goods and labor. The main features of the SEZ are the world economy, close ties with the world market and the active attraction of foreign capital.

## İNNOVASİYA YÖNÜMLÜ İNVESTİSİYA QOYULUŞUNUN STİMULLAŞDIRILMASI MEXANİZMİNİN TƏMİNATİNDA MÜHASİBAT UÇOTUNUN ROLU

**dos. Y.B.Əhmədov**

**A.Z.Nəzərli**

**Azərbaycan Texnologiya Universiteti**
**asif.nezerov7551@gmail.com**

İnvestisiya fəaliyyəti biznesin mürəkkəb və riskli növlərindən biridir. Onun nəticələri bütövlükdə sahibkarların inkişafına böyük təsir göstərir. Müasir şəraitdə investisiya iqtisadiyyatda struktur dəyişikliklərin həyata keçirilməsinin, iqtisadi artımın davamlı inkişafının təmin olunmasının, elmi-texniki tərəqqinin müasir nailiyyətlərinin tətbiqinin, təsərrüfat fəaliyyətinin keyfiyyət göstəricilərinin yüksəlməsinin mühüm vasitəsi kimi çıxış edir. Məsələyə bu aspektdən yanaşdıqda, belə bir fikir formalaşır ki, müəssisələrdə resursların əsas kapitala yönəldilməsinin məqsədə uyğunluğunun düzgün qiymətləndirilməsi investisiya xərclərinin həcmi, investisiya resurslarından istifadənin mümkün variantları və investisiya obyektlərinin vaxtında yaradılması haqqında tam və dürüst informasiya əsasında mümkündür.

Məlum olduğu kimi, respublikamızda innovasiya yönümlü investisiya qoyuluşunun stimullaşdırılması üçün mühasibat uçotununun rolu danılmazdır. Bunun üçün Mühasibat Hesabatlarının Beynəlxalq Standartları (MHBS) və Mühasibat Uçotunun Beynəlxalq Standartlarına (MUBS) uyğun Milli Mühasibat Uçotu Standartları (MMUS) hazırlanmış və 2010-cu ildən başlayaraq müəssisələrdə həyata keçirilməyə başlamışdır. Bu baxımdan investisiya proseslərinin müəssisələrin maliyyə təsərrüfat fəaliyyətində rolu və önəmi artmış, onun uçotu, auditi və təhlili məsələləri günün aktual məsələlərindən birinə çevrilmişdir.

İqtisadiyyatın transformasiyası şəraitində müəssisə və təşkilatlarda iqtisadi fəaliyyətin bütün sistemlərinin təkmilləşdirilməsi və keyfiyyətcə yenidən qurulmasını tələb edir. Məsələyə bu prizmadan yanaşaraq qeyd edək ki, həmin məsələnin həlli müəyyən dərəcədə təsərrüfat subyektinin idarəetmə prosesinin informasiya təminatının səmərəliliyinin yüksəldilməsindən asılıdır. Belə ki, iedarəetmə qərarlarının qəbul olunması zamanı istifadə olunan informasiyanın keyfiyyəti maliyyə resurslarının həcmini, mənfəət səviyyəsini, müəssisənin bazar dəyərini, investisiya layihələrinin və investisiyalaşdırmanın maliyyə alətlərinin seçilməsinin alternativliyini və mülkiyyətçilərin rifah səviyyəsini və onun iqtisadi inkişafı tempini formalaşdıran digər göstəriciləri daha düzgün müəyyən etməyə imkan verir. Belə şəraitdə idarəetmə uçotu sitemi xüsusi əhəmiyyət kəsb edir və müxtəlif istifadəçiləri təsərrüfat subyektinin fəaliyyəti məsələləri üzrə vaxtında, kifayət qədər və dürüst informasiya ilə təmin edən mühasibat uçotu sisteminin tərkib hissəsidir.

**Mövzunun aktuallığı.** Mövzu üzrə innovasiya yönümlü investisiya anlayışında mühasibat uçotunun rolu öyrənilsədə hal-hazırda da bu mövzu aktual hesab edilir.

**Tədqiqatın məqsədi.** İnnovasiya yönümlü investisiya qoyuluşunun stimullaşdırılması mexanizminin təminatında mühasibat uçotunun rolunun və əsas faktorların öyrənilməsidir.

**Tədqiqat obyekti**. İnnovasiya yönümlü investisiya qoyuluşunun stimullaşdırılması mexanizmi.

**Tədqiqat metodu**. İnnovasiya yönümlü investisiya qoyuluşunun stimullaşdırılması mexanizminin təminatında mühasibat uçotunun seqmentləşdirilməsi metodu.

**Açar sözlər.** İnvestisiya, mühasibat uçotu, innovasiya, biznes

## Ədəbiyyat siyahısı:

1. MahmudovI.M., ZeynalovT.Ş., İsmayılovN.M. İqtisaditəhlil. Dərslik. Bakı, İqtisadUniversiteti. 2010, 796 s
2. NamazovaC.B., İnvestisiyaqoyuluşlarınıninkişafperspektivləri. Monoqrafiya. Bakı, CBS. 2008, 222 s

## РОЛЬ БУХГАЛТЕРСКОГО УЧЕТА В ОБЕСПЕЧЕНИИ МЕХАНИЗМА СТИМУЛИРОВАНИЯ ИННОВАЦИОННО-ОРИЕНТИРОВАННЫХ ИНВЕСТИЦИЙ

**Доц. Ю.Б.Ахмедов**
**А.З.Назерли**
**Азербайджанский Технологический Университет**
**asif.nezerov7551@gmail.com**

В статье рассматривается роль бухгалтерского учета в обеспечении механизма стимулирования инновационно-ориентированных инвестиций.

## THE ROLE OF ACCOUNTING IN PROVIDING A MECHANISM TO STIMULATE INNOVATION-ORIENTED INVESTMENTS

**Prof. Y.B.Akhmedov**
**A.Z.Nazerli**
**Azerbaijan Technological University**
**asif.nezerov7551@gmail.com**

This article is about the role of accounting in providing a mechanism to stimulate innovation-oriented investments.

## İNSAN KAPİTALININ FORMALAŞMASI VƏ ONUN SOSİAL-İQTİSADİ SƏMƏRƏLİLİYİ

**M.Tağıyev, G.E.Məmmədova**
**Azərbaycan Texnologiya Universiteti**
**gulnar_m919@mail.ru**

Təhsilə və ixtisaslı hazırlığa qoyulmuş kapital – insan kapitalı texniki bilik və bacarıqlar ehtiyatının formalaşdırılmasını hədəfə alır. Onun hesabına,adi, ixtisassız və təhsil almamış işçi qüvvəsi ilə müqayisədə zənginləşmiş işçi qüvvəsi elmi-texniki tərəqqinin daha sürətlə inkişaf etməsinə gətirib çıxarır, onun nailiyyətlərindən bacarıqla və ustalıqla faydalanır, nəticədə, daha çox mənfəət, gəlir və məhsul yaradılmasına qatqı göstərir, əhalinin daha firavan yaşaması üçün maddi imkan formalaşdırmış olur.

Müasir şəraitdə insan kapitalının formalaşması və inkişafı bu kimi əsas amillərin təsiri altında baş verir:ölkənin siyasi və sosial-iqtisadi inkişafı, onun demoqrafik potensialı, qanunun aliliyi, vətəndaşların təhlükəsizliyi, təhsilin və səhiyyənin keyfiyyəti.

İnsan kapitalının təkrar istehsalına ən çox birbaşa təsiri demoqrafik faktorlar göstərir. Öz növbəsində, insan kapitalının artımı iqtisadiyyatın inkişafı, onun innovativ komponentinin güclənməsi ilə bağlıdır. Məhz iqtisadiyyatın innovativ sektoru yüksək keyfiyyətli insan kapitalının akkumulyasiya mənbəyi kimi çıxış edir. [2,s.56]

Sosial-iqtisadi, mənəvi və hətta siyasi baxımdan vacib əhəmiyyət kəsb edən insan kapitalının normal olaraq reallaşdırılması və gerçəkləşməsi bu kimi istiqamətlər vasitəsilə təmin edilir:

- ✓ təhsilə kapital qoyuluşu;
- ✓ ixtisaslı hazırlığa kapital qoyuluşu;
- ✓ elmə kapital qoyuluşu.

Son zamanlar, ölkəmizdə insan kapitalının reallaşdırılması sahəsində nəzərəçarpacaq işlər görülmüş, xüsusilə peşəkar kadrların hazırlanmasına, təhsilin tərəqqisinə, bu sektora ayrılan büdcə vəsaitinin ilbəil çoxalmasına, təhsil işçilərinin sosial problemlərinin həllinə, tələbələrin təqaüdlərinin artırılmasına, istedadlı tələbələrin xarici ali məktəblərə daxil olmasına, təhsil sahəsində çalışan işçilərin peşəkarlıq səviyyəsinin yüksəldilməsinə çox mühüm diqqət yetirilmişdir.

İnsan kapitalının səmərəliliyinin qiymətləndirilməsinin mürəkkəbliyi onun fiziki kapitaldan fərqliliyi ilə şərtlənir. Belə ki, fiziki əmək sahibinin fəaliyyətinin qiymətləndirilməsi istehsal olunmuş məhsulun kəmiyyət və keyfiyyət ölçüsü üzrə aparılır. Maddi məhsul istehsal etməyən intellektual işçinin məhsulu isə bilik və ideyadır. İntellektual fəaliyyətlə məşğul olan işçi yalnız özünün deyil, həmçinin həmkarlarının işinə də səmərəlilik gətirməlidir. Eyni zamanda, təşkilatın insan kapitalının əsasını təşkil edən intellektual işçinin səmərəliliyi onun aktual məsələləri həll etmək bacarığında öz əksini tapır. Səmərəlilik dedikdə, keyfiyyət meyarı nəzərdə tutulur. İnsan kapitalının səmərəliliyinin ənənəvi göstəricisi isə əmək məhsuldarlığıdır. [3,s.81]

İnsan kapitalının inkişafının və keyfiyyətinin yüksək olmasının nəticəsi olaraq, inkişaf etməkdə olan ölkələrdə adambaşına ÜDM-in stabil artımı, əhalinin məişət rifahı və yüksək həyat səviyyəsi təmin edilmiş olur. İnsan kapitalının inkişafı ölkənin və əhalinin gəlirlərinin artımına öz töhvəsini verir və iqtisadiyyatın yaxın və uzaq perspektivdə dinamik və keyfiyyətli inkişafına nəzərəçarpacaq dərəcədə təsir göstərir.

Elmi-texniki inqilabın nəticələri, əhalinin bilik səviyyəsi, onların texniki bilik və bacarıqlarımənimsəməsi əhalinin həyat səviyyəsinin yüksəldilməsinin və bütövlükdə ölkənin sosial-iqtisadi rifahının əsas təminatçısı kimi çıxış edir. Bütün bunlar insan vasitəsilə və insan fəaliyyəti ilə həyata keçirildiyi üçün insan kapitalının həcmi və kəmiyyəti daim çoxaldılmalıdır.

**Mövzunun aktuallığı.**İqtisadiyyatın innovativ inkişafında insan kapitalı əvəzsiz rol oynadığı və bütün dünya iqtisadiyyatının inkişaf xarakterini müəyyən etdiyi üçün mövzumuz aktuallıq kəsb edir.

**Tədqiqatın məqsədi.**İnsan kapitalının formalaşmasını və onun sosial-iqtisadi səmərəliliyini əsaslandırmaqdır.

**Tədqiqat obyekti.** Kapitalın reproduksiyası prosesində onun komponentləri olan istehsal vasitələrini hərəkətə gətirib öz dəyərindən artıq dəyər istehsal edən, onun işçi qüvvəsinin daşıyıcısı olan insan

kapitalıdır.
**Tədqiqat metodu.** Tədqiqat mövzusu işlənərkən qiymətləndirmə metoduna üstünlük verilib.
**Açar sözlər:** insan kapitalı, qiymətləndirmə, iqtisadi səmərəlilik, təhsilə kapital qoyuluşu, elmi-texniki tərəqqi

**Ədəbiyyatsiyahısı:**

1. Как увеличить человеческий капитал и его вклад в экономическое и социальное развитие. 2018. М.: Изд. дом Высшей школы экономики, 63 с. URL: https://publications.hse.ru/mirror/pubs/share/direct/218063308 .pdf (дата обращения: 04.07.2020).
2. Малыгин В.А., «Человеческий капитал как определяющий фактор развития инновационной экономики», «Вестник экономки, права и социологии» №1, 2007
3. Худякова, Е. Г. Роль человеческого капитала в инновационном развитии предприятия [Текст] / Е. Г. Худякова // Материалы Российской научнопрактической конференции «Тенденции и закономерности функционирования и развития социально-экономических систем». – Уфа: ГБОУ ВПО «БАГСУ». 2014, с.78-81

## ФОРМИРОВАНИЕ ЧЕЛОВЕЧЕСКОГО КАПИТАЛА И ЕГО СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКАЯ ЭФФЕКТИВНОСТЬ

**М.Тагиев**
**Г.Э.Мамедова**
**Азербайджанский Технологический Университет**
**gulnar_m919@mail.ru**

Благосостояние и устойчивое развитие любой нации зависит от человеческого капитала. Поэтому необходима продуманная и последовательная политика в области развития человеческих ресурсов и сбалансированных инвестиций в человеческий капитал, как на уровне предприятий, так и на уровне страны в целом.

## HUMAN CAPITAL FORMATION AND ITS SOCIO-ECONOMIC EFFICIENCY

**M.Tagiyev**
**G.E.Mammadova**
**Azerbaijan Technological University**
**gulnar_m919@mail.ru**

The well-being and sustainable development of any nation depends on human capital. Therefore, there is a need for a well-thought and consistent policy in the field of human resource development and balanced investment in human capital, both at the enterprise and the national level as a whole.

## AZƏRBAYCANIN ENERJİ VƏ QEYRİ ENERJİ SAHƏSİNDƏ ÖLKƏ XARİCİNDƏ YATIRDIĞI İKİ ƏN BÖYÜK İNVESTİSİYA

**A.R.Cəfərli**
**Azərbaycan Texnologiya Universiteti**

Ölkələrin iqtisadi inkişaf səviyyəsi əsasən Ümumi Daxili Məhsul (ÜDM) miqdarı ilə ölçülür. ÜDM, bir il ərazində ölkə daxilində istehsal olunan əmtəə və xidmətlərin bazar dəyəridir. Burada həm dövlət müəssisələrinin, həm ölkə vətəndaşlarına aid olan müəssisələrin, həm də ölkə ərazisində fəaliyyət göstərən xarici şirkətlərin istehsal etdiyi mal və xidmətlər hesablanır. ÜDM ilə yanaşı Ümumi Milli Məhsulun (ÜMM) hesablanması da zəruridir. ÜMM, yalnız vətəndaşların daxil istehsal etdikləri son əmtəə və xidmətlər ilə ölkədən kənarda yaşayan vətəndaşların əldə edib ölkəyə transfer etdikləri iqtisadi amillərin gəlirlərinin məcmu bazar dəyəridir[1].

Dünya ölkələrinin iqtisadi göstəricilərini ölçərkən əsasən ÜDM nəzərə alınır. Yaponiya kimi milli markaları ilə tanınan və dünyanın çox ölkəsində şirkətləri fəaliyyət göstərən dövlətlərin iqtisadiyyatında isə ÜMM-nin payı daha böyük yer tutur. Ümumilikdə xarici ölkələrin ərazisində fəaliyyət göstərib orada əldə edilən gəlilərin bir başa maliyyə şəklində ölkəyə transfer edilməsi sınaqdan keçirilmiş müsbət təcrübədir. Hər hansı bir sahə üzrə fəaliyyət göstərən müəssisələrin böyüməsi Azərbaycan kimi kiçik ölçülü iqtisadiyyatlarda məhdud olur. Belə məhdudiyyətləri aşmaq, qarşıya çıxan müxtəlif fürsətləri dəyərləndirmək və daha geniş bazarlarda iştirak etmək üçün bu tip şirkətlər xarici ölkələrin ərazisində müxtəlif layihələrdə iştirak edir, investisiyalar qoyur. Azərbaycan ərazisi daxilində məhsul istehsal edib uzaq bazarlara ixrac etmək isə istər nəqliyyat xərcləri baxımından istər müxtəlif idxal-ixrac xərcləri baxımından baha başa gələcək.

Gəlin, hissədarları Synergy Group MMC və Paşa Holding MMC olan Azerbaijan Global İnvestments şirkətinin Monteneqroda turizm sahəsinə yatırdığı investisiyanın timsalında ÜMM-nin artımını gözdən keçirək. Azerbaijan Global İnvestments şirkəti tərəfindən 2012-ci ildə Montenegroda köhnə Portonovi limanı ərazisində inşasına başlanan dəyəri 900 milyon avroya yaxın olan Portonovi Resort hotel kurort kompleksi Azərbaycanın ölkə xaricində qeyri enerji sektoruna yatırdığı ən böyük sərmayədir. 2019-cu il iyun ayının 15-də Bakıda keçirilən Azərbaycan-Monteneqro biznes forumunda çıxış edən Monteneqronun baş naziri Doşko Markoviç bunun Monteneqroda reallaşdırılan ən iri layihə olduğunu bildirib. Monteneqronun özəlliklə Adriatik dənizi sahillərinin turizm potensialını nəzərə alsaq bu investisiyanın nə demək olduğunu yaxşı başa düşərik. Buraya Monteneqronun turizm infrastrukturu, Adriatik dənizinin təmiz, şəffaf suyu, o bölgənin təmiz havası, 6 aylıq çimərlik mövsümü, hotel qiymətlərinin tələbatdan yaranan yüksəkliyi aid edilir. Bu layihədən gələn gəlirlərin ölkəyə transferi ÜMM-də iqtisadi artıma səbəb olur.[2]

Enerji sahəsində Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) Türkiyədəki fəaliyyətlərinə nəzər salaq. SOCAR Azərbaycanda neft və qaz emalını həyata keçirən dövlət şirkətidir. 30 may 2008-ci ildə keçirilən hərracda Petkim Petrokimya Holdinq A.Ş-nin səhmlərinin 51%-ni 2 milyard 40 milyon dollara almışdır. Hal hazırda petkimdə 2500 adam işləyir. Bunun ardınca 400 milyon dollarlıq SOCAR Terminal, 6.3 milyard dollarlıq Star neft emalı zavodu, 600 milyon dollarlıq anbar[5]. Bundan başqa TANAP layihəsinə 6.5 milyard dollar sərmayə qoymuşdur. SOCAR-ın bu günə kimi Türkiyə iqtisadiyyatına qoyduğu investisiyaların ümumi miqdarı 15 milyarddan artıqdır. Hazırda davam etməkdə olan layihələrlə birlikdə bu rəqəmi 19.5 milyard dollara çatdırmağı planlayır. Layihələr tamamlandıqdan sonra SOCAR Türkiyənin 3 böyük holdinqindən biri, sənaye sahəsində isə birincisi olacaq. SOCAR sadəcə Petkim layihəsinin 15 əsas 6 köməkçi obyektində istehsal olunan 60 növ müxtəlif neft kimya sənayesi məhsulunun satışından 2018-ci ildə 872 milyon TL (2018-ci ilin ortalama məzənnəsi ilə 311 milyon manat[7]) xalis mənfəət əldə edib[3].

Bundan əlavə SOCAR Türkiyədə bərpaolunan enerji sahəsində də işlər görür. Türkiyənin bərapaolunan enerji potensialından mümkün qədər səmərəli istifadə olunması istiqamətində 2018-ci ildə 51 meqavat gücə malik Petkim Külək Enerjisi Stansiyası fəaliyyətə başlayıb. Petkim KES 17 külək turbin generatoru vasitəsi ilə ildə 200 giqavat/saat elektrik enerjisi istehsal edir[4].

Səhmlərinin 70%-i SOCAR-a aid olan SOCAR Terminal konteyner limanı ildə 1.5 milyon TEU (TEU-konteyner ölçüsü: 1 TEU=34 kubmetr[6]) potensialı ilə Egey bölgəsinin ən böyük konteyner terminalıdır. SOCAR Terminala xərclənən vəsaitin məbləği 400 milyon dollardır.

SOCAR-ın beynəlxalq ticarət və investisiya fəaliyyətləri 13 ölkədə təmsilçilik, Sinqapur, Vyetnam, Nigeriya və İsveçrədə beynəlxalq ticarət şirkətləri, əlavə olaraq Türkiyə, Gürcüstan, Ukrayna, Ruminiya, İsveçrəvə Yunanıstanda aktivlərin satın alınmasıişlərinə davam edir. 2019-cu ilin dövlət büdcəsində neft sektorunun payı 59.1% olduğunu nəzərə alsaq, SOCAR-ın bu sahədə gördüyü işlərin iqtisadi inkişafda çox böyük rola malik olduğu qənaətinə gələrik.

**Ədəbiyyat siyahısı:**


1. Makroiqtisadiyyat – Fizuli Məmmədov, Vüqar İsmayılov, Asiman İlyasov, Gəncə 2018
2. http://cbc.az/az/az/v_story/azrbaycanin-monteneqroda-tkdy-yay-kurortu-gln-l-stfady-verlck
3. https://realmedia.az/socar-in-milyardlarla-g%C9%99lir-g%C9%99tir%C9%99n-layih%C9%99si-petkim-d%C9%99n-reportaj-fotolar/
4. https://socar.az/socar/az/activities/chemicals/petkim
5. https://enerji.socar.com.tr/kurumsal/SOCAR-Turkiye-Hakkinda
6. https://www.gemipersoneli.com/makalebak.asp?makid=31
7. https://www.doviz365.com/Azerbaycan-Manat%C4%B1/2018


## ДВЕ КРУПНЕЙШИЕ ИНВЕСТИЦИИ АЗЕРБАЙДЖАНА ЗА ПРЕДЕЛАМИ СТРАНЫ В ЭНЕРГЕТИЧЕСКУЮ И НЕЭНЕРГЕТИЧЕСКУЮ СФЕРУ


**А.Р.Джафарли**
**Азербайджанский Технологический Университет**
**anarjfrl@gmail.com**



Необходимо использовать потенциал стран мира для достижения больших успехов в экономическом развитии. Для этого необходимо иметь долю рынка в зарубежных странах и инвестировать в экономику этих стран. Перенос прибыли в страну ведет к экономическому росту.


## AZERBAIJAN'S TWO LARGEST INVESTMENTS OUTSIDE THE COUNTRY IN THE ENERGY AND NON-ENERGY SECTOR


**A.R.Ceferli**
**AzerbaijanTechnologicalUniversity**
**anarjfrl@gmail.com**



It is necessary to use the potential of the world countries to achieve greater achievements in economic development. For this, it is necessary to have a market share in foreign countries and invest in the economy of these countries. The transfer of profits to the country leads to economic growth.


## TARAZLIİQTİSADİ İNKİŞAFDA İNVESTİSİYANIN FUNKSİYASI


**Dos. R.Ş.Şükürov, S.Ş.İsmayılov**
**Azərbaycan Texnologiya Universiteti**

sukurov_rafayil@mail.ru
ismayilsoysahil@gmail.com

İnvestisiyalar makroiqtisadi baxımdan 2 rola malikdirlər. İlkin olaraq, investisiyalar məsrəflərin çoxlu və elastik hissəsi olduğu üçün, sərmayələrin surətli çoxalması və ya zəifləməsi məcmuu tələbə surətli effekt göstərir; məcmuu tələbin dəyişilməsi isə özlüyündə emala və məşğulluq sahəsinə təsir edəcəkdir. İkincisi, sərmayələr kapital yığılmasına səbəbiyyət verir. Təchizat və inşaatların artması dövlətin potensial emalını çoxaldır və uzun müddətliiqtisadi yüksəlməni təmin edir. Bununla da, sərmayələr ikili xarakter: qısa ərəfədə emala məcmu tələblətəsir etməklə və uzun ərəfədə kapitalın formalaşmasının potensial emala və məcmuu təklifə təsir etməsi metod ilə. Məlumumuz olduğu qaydada kapital aparıcı emal faktorlarından birisidir. Yəniki, o elə bir ehtiyyatdır ki, məhsul emalında vacib səmərəyə malikdir. Bu cəhətdən kapital bir sıradəqiq formaya bürünür.

Yaranma qaynaqları baxımından, kapital hökümət və fərdi kapitala ayrılır.Hökümət kapitalı, ölkə xəzinəsindən alınan vəsaitlər və yaxud hökümət qərarıylayabancı qaynaqlardan qazanılan gəlirlərdir. Bu kateqoriyaya müəyyən bir dövlətdən başqasına verilən ölkə borclarının hamısı, ssudalar, qrand-dəstəkləri, bir sıra sektorlarainvestisiya qoyuluşları və s. daxildir. [1] Hökumət kapitalna həmdə ümumdünyadövlətlərarası qurumların təqdim elədikləri vəsaitlərdə daxildir. (Nümunə üçün, BVF-nin sərmayə kreditləri, Dünya Bankının kreditləri, BMT təşkilatının sülhün bərqərar olunmasına ayırdığı məsrəflər və i.)

Hökumət kapitalının qaynağını büdcə vasitələri əmələ gətirdiyindən, kapital qoyulmasıhaqqındakı qərarlar dövlət səviyəsində verilir. Böyük proyektlər ratifikasya (hökümətin səlahiyətli şəxsinin bağlamış olduğu beynəlxaq sözləşmənin eyni ölkənin ali dövlət qurumunda təsdiqi) edilməlidir. Fərdi (qeyri rəsmi) kapital isə başqa-başqa özəl şirkət, bank vəya başqa qeyri-rəsmi firmaların vəsaitləridir. Bu kateqoriyayaözəl şirkətlərin reallaşdırdıqları investisiya yatırımları, biznes kredit borçlarının verilməsi və s. daxil olunur. Onların qaynağını şirkətlərin, bankların şəxsi mənfəətləri, yənihökumət büdcəsiylə əlaqədar olmayan mənfəətlər yaradır. Ancaq şirkətlərin gerçəkləşdirdikləri kapital yatırımlarında iqtisadi baxımdan azadlıq olsada, bu yatırımların nizamlanması və onların yoxlanılmasını qəti şəkildə hökumət qurumları reallaşdırmalıdır. [2] Emalxüsusiyyəti baxımdanisə, kapita1 biznesmen və ssuda kapitaına ayrılır. Biznesmen kaptalı-gəlir qazanılması hədəfi ilə emala verilən birbaşa və dolayı vəsaitlərdir. Biznesmen kapitalı formasındaənənəvi olaraq fərdi kapital rol oynayır. Ancaq hökümət və yaxud hökümətəaid təşkilatlar emala qazanc yatıra bilər.

Ssuda kapitalı isə müəyyən faiz qazanmaq məqsədi ilə borc verilən vəsaitdir. Dünyamiqyası səviyyəsində ssuda kapitalı şəklindəbir qayda olaraq rəsmi hökümət kapitalı çıxış eləyir. Ancaqfərdi mənbələrdən əldə olunan ssuda kapitalı da, yüksək səmərəli miqdara qalxmışdır.

Qoyulmuş zaman ərəfəsinə görə kapita1 orta, uzun və qısazamanlı kapitallara ayrılır. Orta və uzun zaman ərəfəli kapital, vahid ildən artıq zamanaqoyulmuş vəsaitlərdir. Birbaşa və portfolio investisyalar, həmdə ssuda kapitalı uzunzamanlı kapital yatırımları hesabolunur. Qısazamanlı kapitalon iki aydan qısa zamanaqoyulmuş vəsaitlərdir. Sərmayə qoyulmasında birbaşa və paket investisiyaları daha çox əhəmiyyətə malikdirlər. Birbaşa investisiyalar elə kapital qoyuluşuna deyilir ki, sərmayəçiyə kapital qoyulan müəssisəyə yoxlama şəraiti yaradır. Birbaşa investisiyalar uzunzamana iqtisadi mənfəət qazanmaq məqsədilə gerçəkləşdirilir. Birbaşa investisiyalar adətənfərdi biznes kapitalıyla bağlıdırlar. [3]

Portfolio investisiyaları, əcnəbi dəyərli kağızlara yatırılan kapitallardır. Həmin investisiyalar sərmayəçiyə kapital qoyulmuş müəssisəyə yoxlama səlahiyyəti vermir.

Onu da qeyd edək ki, respublikamızın 44 günlük II Qarabağ müharibəsindəkizəfərindən sonra demək olar ki, dünyada geoiqtisadi potensiala çevrilmişdir. Hazırda bölgədə yaranmış yeni iqtisadi və siyasi konfiqurasiya yerli və xarici investorların diqqət mərkəzindədir.Dünya praktikasından görmək olar ki, müharibədən çıxmış dövlətlərə xarici investorların marağı həmişə böyük olur. Lakin işğaldan azad edilmiş ərazilərimizdəki quruculuq işlərinin əksəriyyəti dövlətimizin maliyyə ehtiyyatları hesabına

aparılmışdır. Qeyd edim ki, bütün çətinliklərə rəğmən hazırda ölkəmizin valyuta ehtiyatları 51,2 milyard dollara çatıb.

Şanlı qələbəmizdən sonra isə ölkəmiz bölgədə sülhü və stabilliyitəminləşdirmək üçün bir sıradövlətləricəmləşdirən nəqliyyat proyektlərini müzakirə eləməyə başlayıb. Azərbaycan, Türkiyə və İran bölgədə nəqliyyat proyektlərinin icrasıyla əlaqədaryek mövqe göstərib. Bu proyektlərdən ən önəmlisiZəngəzurdan həyata keçəcək. Beləliklə, ölkəmizin əsas hissəsi ilə Naxçıvan MR-nın və Türkiyəni əlaqələndirəcək yeni nəqliyat koridoru yaradılacaq.

Artıq Qarabağda quruculuq-bərpa işləri baxımdan əcnəbi dövlətlərin investorları ilə müəyyən əməkdaşlıqlar yaradılıb. Yəni ki, ölkəmizin azad olunmuş bölgələrində elektroenergetik infrastrukturun formalaşdırılması hədəf alınaraq "Azərenerji" ASC-ilə İtalyanın "Ansaldo Energia" şirkəti arasında müqavilə bağlanıb. Sözləşmədə, Ağdam, Füzuli, Kəlbəcər və Qubadlı rayonlarında qurulacaq 4 ədəd 110 k.voltluq yarımstansıyanın təchizatlarla təşkilini sırf bu firma reallaşdıracaq. Həmçinin qardaş Türkiyə Cümhuriyyətində130ədəd texnoloji firmaya kömək edən "GOSB" texnoparkı ilə Azərbaycan İnnovasiyalar Agentliyi arasında bağlanmış "Mədəni və Elmi Əməkdaşlıq" sənədinə əsaslanaraq Qarabağda Yüksək Texnologiyalar Parkı qurulacaq. [4]

**Ədəbiyyat siyahısı:**

1. Əhmədov M.A., Hüseyn A.C. "İqtisadiyyatın dövlət tənzimləməsinin əsasları". Bakı"UNEC" 2011
2. İsayev S.Z. "İnvestisaya fəaliyyətinin hüquqi tənzimlənməsi" Dərs vəsaiti. Bakı, 2010
3. Mahmudova X.C. "Bazar iqtisadiyyatına keçid dövründə Azərbaycan sənayesinə investisiya qoyuluşlarının əsas istiqamətləri", Bakı, 2000
4. https://science.gov.az/az/news/open/15789. Second Karabakh War, the interests of local and foreign investors and the planned projects

## ФУНКЦИЯ ИНВЕСТИЦИЙ В СБАЛАНСИРОВАННОМ ЭКОНОМИЧЕСКОМ РАЗВИТИИ

**Р.Ш.Шукуров, С.Ш.Исмаилов**
**Азербайджанский Технологический Университет**
**sukurov_rafayil@mail.ru**
**ismayilsoysahil@gmail.com**

В статье рассматривается роль инвестиций в динамичном и пропорциональном развитии экономики. Характеристика инвестиций, виды капитала по источникам происхождения и переработки, виды капитала по срокам инвестирования, заемный капитал, портфельные инвестиции и др. были проанализированы. В результате была выяснена важность инвестиций в сбалансированное экономическое развитие.В статье также комментируются строительно-восстановительные работы в регионе после славной 44-дневной победы во Второй Карабахской войне, интересы местных и иностранных инвесторов, и планируемые проекты.

## THE FUNCTİON OF INVESTMENT IN BALANCED ECONOMİC DEVELOPMENT

**R.Sh.Shukurov, S.Sh.Ismayilov**
**Azerbaijan Technological University**
**sukurov_rafayil@mail.ru**
**ismayilsoysahil@gmail.com**

The article examines the role of investment in the dynamic and proportional development of the economy. Characteristics of investments, types of capital in terms of sources of origin and processing, types of capital by term of investment, loan capital, portfolio investments, etc. were analyzed. Consequently, the importance of investment in balanced economic development has been clarified.The article also comments on the construction and restoration work in the region after the glorious 44-day victory of th.

# AZƏRBAYCANDA OPTİMAL İNVESTİSİYA ŞƏRAİTİNİN FORMALAŞMASI

**Dos. R.Ş.Şükürov**
**S.Ş.İsmayılov**
**Azərbaycan Texnologiya Universiteti**
sukurov_rafayil@mail.ru
ismayilsoysahil@gmail.com

Respublikamızda müvəffəqiyyətlə gerçəkləşdirilən əhatəli iqtisadi-sosial dəyişimlər sayəsində axır zamanlar dövlətimizin yaşayışında zəruri dəyişimlər olmuşdur, respublika iqtisadiyatının dinamik inkişafıyla təzə etapa sənaye1əşməyə addım atmışdır. Son5 ildə ümumi daxili məhsul 29,90%, həmçinin sanaye məshulları 4,1 dəfə çoxalmışdır. Bilindiyi üzrə, respublikanın iqtisadi inkişafı bura bəzi sərmayələrin cəlbi və bunlardan optimal istifadəsi günümüzün mühüm etaplarındandır. Respublikanın investisiya şəraitinə müəyyən məsələlər maneə törədir. Bütövlüklə investista şəraitinə maneə törədən çətinliklər FİAS-ın (əcnəbi sərmayələr üzrə məsləhət servisi) 2006-cı ildə apardığı anketin yekununda açıq görülür (Şəkil 1).

**Şəkil 1. İnvestisiya şəraitinə maneəçilik törədən çətinliklər**




Əcnəbi dövlətlərdən respublika iqtisadiyatına kapital qoyulması həmin respublikanın iqtisadiyyat şəraitinin incəlikləriylə öyrənilməsini vacib eləyir. Dövrümüzdə bütün iri müəssisələr bu məqsəd ilə öncə respublikanın investisiya şəraitini və biznes infrastrukturlarının səviyyəsini dəyərləndirir və sonrasında bu respublikaya investisiya qoymağı qərara alır.

Qeyd eləməliyik ki, optimal sərmayə şəraitinə aşağıda saydığımız ünsürlər müsbət effekt verir:

1. Hökümətin biznesə təkan verməsi politikasının sabitliyi;
2. Endirimli vergi sisteminin varlığı;
3. İnamlı çevik bank strukturu;
4. İnformasiya kommunikasiya texnologiyası və infrastrukturlarıyla təmin olunma səviyyəsi;
5. Qeyri-təbii nəzarət və müdaxilənin olmaması üçün müəssisə zəncirinin inkişafı;
6. İntelektual mülkiyətin dayanıqlı mühafizəsi;
7. Təsərrüfatçılıq fəaliyyəti prosedurunun sadələşdirilməsi;
8. Yaradıcılıq müstəqilliyi və i. (azad innovasiya);
9. Əcnəbi sərmayə gerçəkləşdirmək istəyən firmanın bəzi məhdudluqla rastlaşması mümkündü.

Ən geniş yayılmış məhdudluq respublikaya gətirilmiş müəyyən əmtəələrə (texnoloji və s.) tətbiq olunan rüsum və vergilərdir. Bunun üçün də bucür məhdudluqların effektinin asanlaşdırılması məqsədiylə uyğun ümumdünya müəssisələri mütamadiyən, əmələ gəlmiş mühitə müvafiq nizamlayıcı planlar qururlar. [1] Misal üçün, Modern zamanda AR-da gömrük qurumlarının fəaliyətinin qlobal standart1ara uyğunlaşması, prosedurlarının dahada elementarlaşdırılması və aydınlaşdırılması

məqsədiylə ümumdünya valyuta fondu, ümumdünya gömrük mərkəziylə birlikdə proyekt gerçəkləşdirməkdədir. Gerçəkləşdirilən sistemli fəaliyətin yekunu olaraq, qlobal praktikaya uyğun deyərik ki, respublikamızda ixrac ödəmələri (rüsum) aradan qaldırılmış, idxa1 ödəmələrininsə on beş faizlik maximal hüdudları təyinləşdirilmişdir. Paralel olaraq yerli bazarda təkminləşmiş rəqabətliliyin inkişafı, təbii inhisarcıların tariflərinin, həmçinin hökümətin təyin elədiyi dəyərlərin sistemli formada nizamlanması hədəfi ilə respublika başçısının sərəncamına əsaslanaraq və Nazirlər Kabinetinin 31.01.2002 tarixdəki sərəncamıyla “Azərbaycan Respublikası Tarif Şurası” qurulmuşdur. Respublikada biznesin surətli inkişaf etməsinin təminləşdirilməsi, sahibkarlıq şəraitinin optimallığının yüksəldilməsi və sahibkarlığa başlama proseduralarının elementarlaşdırlmasına görə mühüm metodların göru1məsi hədəflənərək AR-nın başçısı "Sahibkarlıq subyekt1ərinin fəaliyətinin "bir pəncərə" prinsipiylə təşkil olunmasının təminləşdirilməsi üsullar haqda" 25.10.2007 tarixində fərman qərara almışdır. Fərmana görə, "bir pencere" prinsipiylə tək dövlət qeydiyat qurumu “AR Vergilər Nazirliyi” təyin olunmuşdur və 01.01.2008 tarixindən ölkədə bu sturukturun tətbiq olunmasına başlanılmışdı. "Bir pencere" sturukturunun tətbiq olunmasının ardınca respublikada sahibkarlığa başlanma prosedurları on beşdən birə və bununçün sərf edilən zaman otuz gündən üç günə salınmışdır. Günümüzdə biznesmenlər vergi qurumları və banklarla sənəd alış-verişini təzə qurulmuş elektron vergi sistemi (www.e-taxes.gov.az) ilə gerçəkləşdirə bilirlər. Ondan savayı, biznesmenlər vergi məcəlləsinə dair müraciətlərinə cəld şəkildə cavab almaq üçün 195 №li telefon məlumat xidmətinə zəng edə bilərlər.

Planlaşdırılmış iqtisadi fəaliyyətdən bazar iqtisadi fəaliyyətinə keçməklə sonra gələn dərin iqtisadi dəyişimlər çağında sərmayəçilərin haqq və mənfəətlərinin mühafizəsi, mülkiyət toxunmazlığının təminləşdirilməsi, faydalı biznes şəraitinin yaradılması, qazanılmış gəlirdən azad istifadə edilməsinin təminləşdirilməsi üçün müəyyən faydalı qaydalar qəbul olunmuşdur. Ölkəmizin sərmayə qoyuluşunu nizamlamaqçün AR başçısının 13.01.1995 tarixindəki 952 №-li sərəncamıyla təsdiqlənmiş “İnvestisiya qoyuluşu haqqda”, “Əcnəbi investisyaların mühafizəsi haqqda” Ali baş komandanımızın 15.01.1992-dəki 57№-li sərəncamıyla təsdiqlənmiş qərarları gündəmdədir. [2] Bunlardan savayı respublikamız müəyyən əcnəbi dövlətlərlə 2 dəfə artıq vergi tutulmasının ləğv olunması, sərmayənin cəlbi və ikitərəfli mühafizəsi haqda sözləşmələr bağlanmışdır. Mənfəətin digər pullarla konvertasiyası, digər dövlətlərə köçürdülməsi, investisiyayla əlaqədar problemlərin hamısı ortadan götürülmüş, bazar iqtisadiyyatı prinsiplərini əsas götürərək liberal pul sinifi yaradılmışdır. [3]

Respublikada lisenziya alma məsələsinin asanlaşdırılması yönündədə bəzi prosedurlar gerçəkləşdirilmişdir. Hazırda lisenziya alma sistemi təməlindən dəyişdirilmiş lisenziya alınan fəaliyyətlərin miqdarı 240-dən 33-ə endirilmiş, lisenziyyaların vaxtı isə beş il yox, ömürlük edilmişdir. Prezidentin 21.12.2015-dəki 713№ li fərmanı, yeni lisenziya alma sisteminin tətbiq olunması müstəqil rəqabətliliyin inkişaf etməsinə, emal edilən malın, verilən xidmət keyfiyyətinin artırılmasına gətirəcək. Qlobal praktikada sərmayə qoyuluşuna görə respublika seçimini təsirləndirən ən vacib amillərdən birisi vergi qanunudur. Aydındır ki, milli iqtisadiyyatın inkişaf hədəfləri və dərəcəsindən asılı olaraq dövlətlərin vergi qanunları bir-birlərindən xeyli seçilir.

**Ədəbiyyat siyahısı:**

1.Əhmədov M.A., Hüseyn A.C.“İqtisadiyyatın dövlət tənzimləməsinin əsasları”, Bakı, “UNEC” 2011
2. İsayev S.Z. “İnvestisaya fəaliyyətinin hüquqi tənzimlənməsi” Dərs vəsaiti, Bakı, 2010
3. Mahmudova X.C., “Bazar iqtisadiyyatına keçid dövründə Azərbaycan sənayesinə investisiya qoyuluşlarının əsas istiqamətləri”, Bakı, 2000

## ФОРМИРОВАНИЕ ОПТИМАЛЬНЫХ ИНВЕСТИЦИОННЫХ УСЛОВИЙ В АЗЕРБАЙДЖАНЕ

**Доц. Р.Ш.Шукуров**
**С.Ш.Исмаилов**
**Азербайджанский Технологический Университет**
sukurov_rafayil@mail.ru
ismayilsoysahil@gmail.com

В статье рассматриваются направления формирования эффективного инвестиционного климата в Азербайджанской Республике. Отражены трудности, препятствующие созданию благоприятного инвестиционного климата, а также факторы, оказывающие положительное влияние. В период глубоких экономических преобразований путем перехода к рыночной экономике были приняты определенные решения для защиты прав и интересов инвесторов, а также для обеспечения неприкосновенности собственности, создания благоприятной деловой среды, обеспечения свободного использования прибыли.

## FORMATION OF OPTIMAL INVESTMENT CONDITIONS IN AZERBAIJAN

**R.Sh.Shukurov**
**S.Sh.Ismayilov**
**AzerbaijanTechnologicalUniversity**
sukurov_rafayil@mail.ru
ismayilsoysahil@gmail.com

The article examines the directions of forming an effective investment climate in the Republic of Azerbaijan. The difficulties that hinder the favorable investment climate, as well as the factors that have a positive effect, are reflected. During the period of profound economic changes through the transition to a market economy, certain decisions and their results were made to protect the rights and interests of investors, to ensure the inviolability of property, tocreate a favorable business environment, and ensure the free use of profits.

## İNTENSİV RƏQABƏT ŞƏRAİTİNDƏ YÜNGÜL SƏNAYE MÜƏSSİSƏLƏRİNDƏ

# MARKETİNQİN iDARƏ EDİLMƏSİ XÜSUSİYYƏTLƏRİ

**dos. V.Q.Məmmədova**

**C.P.Mirzəyev**

**Azərbaycan Texnologiya Universiteti**

covherm@bk.ru

Yüngül sənaye əhalinin istehlak mallarına olan tələbatının ödənilməsində, həyat səviyyəsinin, mədəniyyətin yüksəldilməsində, eləcə də digər sənaye sahələrinin inkişafı üçün əsas məhsulların verilməsində, eləcə də ölkənin əsas valyuta gəlirləri ilə təmin olunmasında mühüm rol oynayır.

İqtisadiyyatın innovativ inkişafı və bazar iştirakçılarının inkişafının son yüz ildə onun əsas lokomotivi kimi marketinqlə əlaqəsi yerli və qlobal bazarlarda münasibətlərin fəlsəfi əsasını müəyyən edir. Ümumən marketinqin idarə edilməsi iqtisadi inkişaf üçün müəssisələri bazar şəraitinə uyğunlaşdırmaq, istehsalı artırmaq, malların çeşidini genişləndirmək, üçün ən əsas və mühüm vasitədir.

Yüngül sənaye müəssisələrinin marketinq fəaliyyəti onlara xammal və texnologiya tədarükçüləri ilə hazır məhsulların alıcıları arasında bazar münasibətlərinin elmi-metodoloji və praktiki əsasını təşkil edir. Yüngül sənaye müəssisələrinin marketinq fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi öz növbəsində marketinq strategiyalarının formalaşdırılmasını tələb edir. Strategiya yeniləşmə proseslərinin real fəaliyyət proqramıdır. Marketinq strategiyası müəyyən bir dövrdə müəssisənin məqsədlərinə çatmaq üçün əsas vəzifəni həll etməyə imkan verən bazar tələbinin və rəqiblərin davranışının öyrənilməsidir.

Məlumdur ki, yüngül sənaye ən inkişaf etmiş sənaye sahələrindən biridir və bu sənayenin inkişafı üçün unikal bazar mühiti ilə xarakterizə olunur. Yüngül sənaye ümumi sənaye məhsulunun çox hissəsini istehsal edən bütöv bir kompleks sistem kimi formalaşıb və onun əsas xüsusiyyətləri bunlardır:

❖ Ölkənin istehlak malları bazarının əsas hissəsini təşkil edən parçalara, tikiş məmulatlarına, xalçalara, corablara, ayaqqabılara və s.-yə əhalinin tələbatını davamlı olaraq təmin edir;

❖ Dünya bazarlarında yüngül sənaye məhsullarına artan tələbat ölkənin ixrac potensialını və iqtisadi qüdrətini artıracaq, xalqın rifahı ilə bağlı sənaye sahələrini ən zəruri xammalla təmin edəcək;

❖ Yüngül sənaye məhsullarının istehsalı digər sənaye sahələri ilə müqayisədə əl əməyinin xüsusi çəkisi və əməyin böyük həcmdə olması səbəbindən əhalinin böyük hissəsini işlə təmin edəcək;

❖ Yüngül sənaye moda sənayesinin inkişafının əsasını qoyur, əhalinin mədəni səviyyəsinin və geyim mədəniyyətinin inkişafında lokomotivdir.

Bazar münasibətlərinin yüksək səviyyədə olduğu ölkələrdə, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə sadə məişət idarəçiliyindən tutmuş məkandan səmərəli istifadəyə qədər gedən prosesdə marketinqin qanun və prinsiplərinə əsaslanır.

**Mövzunun aktuallığı.** Marketinq təkcə istehsal və xidmət sahələrinin bazarı deyil, həm də elmi əsasdır.

**Tədqiqatın məqsədi**. Yüngül sənaye müəssisələrində marketinqin idarə edilməsi iqtisadi inkişaf üçün innovasiyaların və elmi-texniki nailiyyətlərin tətbiqinə diqqət yetirmək və mənfəəti artırmaq üçün ən əsas və mühüm vasitədir.

**Tədqiqat obyekti.** Marketinqin idarə edilməsi xüsusiyyətləri.

**Tədqiqat metodu.** Elmi statistik təhlil, sistemli yanaşma və müqayisə metodlarından istifadə olunmuşdur.

## Ədəbiyyat siyahısı:

1. Cəfərov Turan Vəliyəddin oğlu. Yüngül sənaye sahələrində resursların səmərəli istifadə problemləri
2. file:///C:/Users/HP/Downloads/4042...MEI...N...Theories+Of+Marketing+Strategies+To+Increase+The+Competitiveness.pdf

3. https://unec.edu.az/application/uploads/2018/12/Mahmudov-Nurlan-Sehran-o-lu.pdf

## ОСОБЕННОСТИ УПРАВЛЕНИЯ МАРКЕТИНГОМ НА ПРЕДПРИЯТИЯХ ЛЕГКОЙ ПРОМЫШЛЕННОСТИ В УСЛОВИЯХ ИНТЕНСИВНОЙ КОНКУРЕНЦИИ

**Доц. В.Г.Мамедова**
**Д.П.Мирзаев**
**Азербайджанский Технологический Университ**
**covherm@bk.ru**

Легкая промышленность играет важную роль в удовлетворении потребности населения в товарах народного потребления, повышении уровня жизни, культуры, а также в обеспечении основными продуктами для развития других отраслей промышленности, а также в обеспечении страны основными валютными поступлениями.

## FEATURES OF MARKETING MANAGEMENT AT THE ENTERPRISES OF LIGHT INDUSTRY IN CONDITIONS OF INTENSE COMPETITION

**Prof. V.G.Mammadova**
**J.P.Mirzaev**
**Azerbaijan Technological University**
**covherm@bk.ru**

Light industry plays an important role in meeting the population's demand for consumer goods, raising living standards, culture, as well as providing basic products for the development of other industries, as well as providing the country with basic foreign exchange earnings.

# ONUN NƏZƏRİ-METODOLOJİƏSASLARI

**i.f.d.dos. Ə.Qurbanəliyev**
**R.Ə.Xurşudova**
**Azərbaycan Texnolojiya Universiteti**
**ruqiwxursudova@gmail.com**

Azad iqtisadi sistemin əsasını təşkil edən sahibkarlıq fəaliyyəti və onun inkişafına şərait verən iqtisadi mühit müxtəlif inkişaf mərhələlərini keçmişdir. Bu mərhələlər sahibkarlıq fəaliyyətini formalaşdıraraq hazırki vəziyyətə gətirmişdir. Əvvəllər Aristotelin bəzi fikirləri- məsələn ticarət haqqındakı fikirləri sahibkarlıq anlayışına uyğun gəlsə də, tam fikri 1755-ci ildə Richard Contilion özünün «Kommersiyanın təbiəti haqqında oçerk» əsərində («sahibkar risk əsasında fəaliyət göstərən şəxsdir») ifadə etmiş. Azərbaycanda milli sahibkarlığın ən böyük inkişaf dövrü XIX əsrin axırlarına və XX əsrin əvəllərinə təsadüf edilir. Neft hasilatı üzrə gedən mübarizədə ölkəmiz həm respublikada, həm də dünyada güclü nüfuza malik neft sahibkarlarının (milyonçuların) yetişməsinədə böyük rol oynamışdır.

Sahibkarlıq iqtisadi kateqoriya kimi iqtisadi fəaliyyətlə məşğul olan bazar subyektləri arasında çoxşaxəli, qarşılıqlı münasibətləri əks etdirir. Sahibkarlıq fəaliyyətinin təsərrüfatçılıq metodu kimi başlıca şərti onun təsərrüfat subyekti kimi müstəqil və azad olması ilə xarakterizə edilir. Sahibkarlıq fəaliyyətinin müstəqilliyinin əsas cəhətlərindən biri onunla bağlıdır ki, onun nə istehsal etməsinə, necə qiymət qoymasına heç bir orqan müdaxilə etmir. (lakin onu da qeyd etmək lazımdır ki, əgər sahibkar bazarda hökmran mövqe tutarsa Antiinhisar fəaliyyəti və Sahibkarlığa Kömək Komitəsi tərəfindən müəyyən tədbirlər nəzərdə tutula bilər [6] və bir də əgər sahibkarlıq fəaliyyəti qanunsuz istehsal fəaliyyəti ilə məşğul olarsa buna yol verilmir. O, ancaq qəbul edilmiş qanunların tələbləri dairəsində öz fəaliyyətini davam etdirir.

İnnovasiya sahibkarlığına istehsalçıların bütün elmi texniki, istehsal, marketinq fəaliyyətini əhatə edən və son nəticədə bazar tələbatının ödənilməsinə yönəldilmiş proseslər kimi baxmaq lazımdır. İnnovasiya sahibkarlığı müxtəlif yollarla həyata keçirilə bilər. Hər bir konkret halda daha səmərəli yolun seçilməsi texnologiyanın, son məhsul bazarı, firmanın potensialı, iqtisadi iqlim, rəhbərliyin səriştəlilik dərəcəsi kimi şərt və amillərdən asılıdır. İstənilən halda müxtəlif qruplar tərəfindən həyata keçirilən çoxüzlü və çoxrəqəmli proseslərin, bir çox insanlar, bölmə və təşkilatlar arasında dinamik qarşılıqlı təsirin rolu böyükdür. Bununla yanaşı, həmişə uğur qazanılması maneə və müqavimətin aradan qaldırılması ilə bağlıdır. Odur ki, innovasiyalar təşəbbüssüz və inadsız, habelə istehsal, insan, təşkilati və sosial amillər sahəsində iri xərclər çəkmədən mümkün deyildir. İnnovasiya sahibkarlığının məqsədləri, həyata kecirilməsi üsulları, forma və müddətləri hər şeydən əvvəl ayrı-ayrı təsərrüfat subyektlərinin və bütövlükdə cəmiyyətin resurs imkanları ilə müəyyən olunmalıdır. İnnovasiya sahibkarlığının gedişində təsərrüfat subyektləri tərəfindən secilən məqsədlərin məcmusu və onların həyata keçirilməsi fərz edilən üsullar yeniliklərin reallaşdırılması üzrə onların innovasiya siyasətini müəyyən edir.

Elmin, texnologiyanın inkişafı nəticəsində dünya ölkələrində innovativ şirkətlərin sayı daha da artmışdır. İnnovativ şirkətlər sırasında Amazon da online satış saytı olaraq ön sıralardadır. Satış məhsullarına kompüter oyunları və proqramları, geyim, əşyalar, elektronik məhsullar, mebellər və s. aiddir. Şirkətin ən böyük uğuru isə kindle elektron kitab satışını reallaşdırmasıdır. Şirkətin dünyada 20 minə yaxın işçisi vardır.

1980-cı illərdən etibarən ABŞ-da və bir çox Avropa ölkələrində innovasiyaya əsaslanan sahibkarlıq öz inkişafını tapmışdır. ABŞ-da fəaliyyət göstərən 70 elmi-istehsal mərkəzinin nəznində olan tədqiqat qurumları və sənaye firmaları arasında əlaqələr daha da genişlənir. İnkişaf etmiş ölkələr öz milli maraqlarına əsaslanan " Milli innovasiya sistemi" nin əsasını qoyur və bununla da, iqtisadiyyata xidmət

edən təkmilləşmiş texnika, texnologiyanın ərsəyə gəlməsinə və tətbiqinə, elmi birliklərin formalaşmasına, motivləşdirici tədbirlərin reallaşmasına nail olmuş olurlar. İnnovasiya sistemlərinin 3 formasını fərqləndirmək olar:

Şəkil 1.1 sistemlərinin forması:




**Açar sözlər:** İnnovasiya, innovasiyalı iqtisadi inkişaf, nəzəriyyə, sahibkarlıq əliayyəti, iqtisadi artım, transformasiya

**Ədəbiyyat siyahısı:**

1. Manafov Q.N. Sahibkarlığın nəzəri və praktiki məsələləri. Bakı, 1997
2. Nəcəfov Z.M. Azərbaycan Respublikasında milli innovasiya sisteminin formalaşması və inkişafı, İqtisad elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilən dissertasiyanın avtoreferatı. Bakı, 2011, 35 s
3. Qasımov F.H., Nəcəfov Z.M. İnnovasiyaların yaranması, yayılması vəinkişaf perspektivləri. Bakı: “Elm”, 2009, 416 s
4. http://unec.edu.az/application/uploads/2016/03/ahmedli_ahmed.pdf

## ЭТАПЫ РАЗВИТИЯ ИННОВАЦИОННОГО ПРЕДПРИНИМАТЕЛЬСТВА И ЕГО ТЕОРЕТИКО-МЕТОДОЛОГИЧЕСКАЯ ОСНОВА

**и.ф.д.дос.А.А.Гурбаналиев**
**Р.А.Хуршудова**
**Азербайджанский Технологический Университет**
**ruqiwxursudova@gmail.com**

Инновационное предпринимательство следует рассматривать как процесс, охватывающий всю научно-техническую, производственную, маркетинговую деятельность производителей и в

конечном итоге направленный на удовлетворение потребностей рынка. Инновационное предпринимательство может осуществляться по-разному. Выбор более эффективного пути в каждом случае зависит от условий и факторов, таких как технология, рынок конечного продукта, потенциал фирмы, экономический климат и управленческая компетентность. В любом случае велика роль многоплановых и многозначных процессов, осуществляемых разными группами, динамического взаимодействия множества людей, подразделений и организаций. В то же время успех всегда связан с преодолением препятствий и сопротивлением. Поэтому инновации невозможны без инициативы и настойчивости, а также без больших затрат в области производственных, человеческих, организационных и социальных факторов. Цели, методы, формы и сроки реализации инновационного предпринимательства должны определяться, прежде всего, ресурсными возможностями отдельных хозяйствующих субъектов и общества в целом. Набор целей, выбранных хозяйствующими субъектами в ходе инновационного предпринимательства, и методы их реализации определяют их инновационную политику по внедрению инноваций.

**Ключевые слова:** инновации, инновационное экономическое развитие, теория, предпринимательство, экономический рост, трансформация

## DEVELOPMENT STAGES OF INNOVATIVE ENTREPRENEURSHIP AND ITS THEORETICAL AND METHODOLOGICAL BASIS

**i.f.d.dos.A.Gurbanaliyev**
**R.A.Khurshudova**
**AzerbaijanTechnologicalUniversity**
**ruqiwxursudova@gmail.com**

Innovative entrepreneurship should be considered as a process that covers all the scientific, technical, production, marketing activities of producers and ultimately aimed at meeting market needs. Innovative entrepreneurship can be done in different ways. The option for a more efficient path in each case depends on conditions and factors such as technology, end product market, firm's potential, economic climate, and managerial competence. In any case, the role of multi-faceted and multi-digit processes carried out by different groups, the dynamic interaction between many people, departments and organizations is great. At the same time, success is always associated with overcoming obstacles and resistance. Therefore, innovations are impossible without initiative and perseverance, as well as without large expenditures in the field of production, human, organizational and social factors. The goals, methods, forms and terms of implementation of innovative entrepreneurship should be determined, first of all, by the resource capabilities of individual economic entities and society as a whole. The set of goals selected by economic entities in the course of innovative entrepreneurship and the methods of their implementation determine their innovation policy for the implementation of innovations.

**Keywords:** Innovation, innovative economic development, theory, entrepreneurship, economic growth, transformation

## IMPROVING MANAGEMENT WITH PROPER TIME MANAGEMENT

**Sh.Sh.Huseynova**

Azerbaijan TechnologicalUniversity
shafakamran@gmail.com

**Abstract.**Time management is a way to find the time for all the things you want and need to do. It helps you decide which things are urgent and which can wait. Learning how to manage your time, activities, and commitments can be hard. However, doing so can make your life easier, less stressful, and more meaningful.[1]

**Introduction.** Every year, nearly three million recent high school graduates and older students enroll in a college or university. Sadly, though, one in four college freshmen will drop out of school, never to return. Not quite as tragic, but still extremely regrettable, is the fact that nearly a third of those who embark on the quest for a bachelor's degree will take six or more years to complete it.[1]

**Materials and methods.** With a time and materials contract, instead of quoting a fixed price for the entire project, a contract will describe the rough scope of the job along with a quote for a fixed hourly wage plus the cost of materials. The contractor might also include a maximum price for the project — commonly called a "not-to-exceed" clause — as a guarantee to protect the client against runaway costs.[2]

**Fixed price vs. time and materials.** There are some important differences between fixed price and time and materials contracts. Fixed price contracts, in which the final price is determined before work begins, are more common than time and materials contracts. Fixed price contracts are best suited to projects that are well understood by both the client, the contractor and, therefore, the time needed, and costs required are predictable.[2]

**Control procrastination.** The more stressful or unpleasant a task, the more likely you are to put it off. This only increases your stress. You may want to try these tips for controlling procrastination:

**Structure your time.**Use a day planner or notebook to plan your day or week. Just seeing on paper that there is a time to get your tasks done can help you get to work. For shorter projects, use a timer or alarm clock to help you stick with your plan. You can also find apps to help structure and plan your time. They can be used on your phone or computer.[2]

**Break up large tasks.** If you know that you won't be able to focus on a project for 3 hours, break up your work into 1-hour blocks over 3 days. It's easier to face an unpleasant task if the time you are giving it is brief.[2]

**Create short-term deadlines.** Short-term deadlines will help you make a habit of meeting deadlines. It will also force you to get things done. That way, when the long-term deadline does arrive, you won't have as much pressure and work built up.[2]

**Avoid perfectionism.** If you demand perfection, you might not even start a task because you're worried it won't be perfect. Doing your best is fine. Giving yourself enough time to do your best will reduce stress. If you find a tip that works for you, stay with it. Over time you'll gain confidence that you can beat the procrastination habit.[3]

You may still slip up sometimes and find yourself putting things off. That's okay. Don't blame yourself. Confidence and positive thinking can help you get back on track.

**Manage your commitments.** Both too many and too few commitments can lead to stress.

Letting go of a commitment doesn't mean giving up. It means learning what's important to you, recognizing that you have limits, and deciding how you want to spend your time. Here are some tips for letting go: Don't commit to things that are not important to you.[3]

The stressful life of an independent meeting planner and business owner can lead to asking oneself some tough questions.Have you ever felt that everything around you is collapsing? Do you have challenging clients? Are you juggling between your company and your family? Is it really worth it?You may be wondering how to get out of the vicious cycle of working hard—harder than ever before—but

not being able to develop your business above a certain level.Chances are that nobody ever told you about that. [3]

“No one ever told me that I would never have a day off after starting a business,” Kratt said. “I have days when I stress about our events, about my leadership skills, about expanding. "The list goes on and on," she added.

We’ve all been there: trapped in a meeting with no way to escape, another hour to go, and escalating levels of stress hormones threatening to culminate in a full-fledged panic attack. The feelings of mounting anxiety can be particularly crushing in a claustrophobic setting like a conference room, especially when you have to appear cool, collected, and professional.[3]

**References:**


1. https://www.uofmhealth.org/health-library/av2103
2. Business.az
3. Kayzen.az
4. Wikipedia.org


## TAYM MENECMENTİN KÖMƏYİLƏ İDARƏETMƏNİN TƏKMİLLƏŞDİRİLMƏSİ


**Ş.Ş.Hüseynova**
**Azərbaycan Texnologiya Universiteti**
**shafakamran@gmail.com**


Məqalədə vaxtın düzgün idarə edilməsi ilə idarəetmənin təkmilləşdirilməsi və bunun nəticəsində idarəetmədə uğurun əldə olunmasından  söhbət gedir.

## УЛУЧШЕНИЕ УПРАВЛЕНИЯ С ПРАВИЛЬНЫМ ТАЙМ-МЕНЕДЖМЕНТОМ


**Ш.Ш.Гусейнова**
**Азербайджанский Технологический Университет**
**shafakamran@gmail.com**


В статье рассматривается совершенствование управления при правильном управлении временем и, как следствие, успешность управления**.**

## HEYVANDARLIQDA MƏSRƏFLƏRİN VƏ MƏHSUL ÇIXIMININ UÇOTUNUN TƏŞKİLİ VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ

**R.T.Məmmədli, P.E.Muxtarova**
**Azərbaycan Texnologiya Universiteti**
**resadmemmedli2000@bk.ru**

Heyvandarlıq kənd təsərrüfatının yüksək materialtutumlu sahələrindən biridir. Bu sahənin bir çox məhsullarının maya dəyərində heyvanların saxlanılmasına çəkilən cəmi xərcin yarıdan çoxunu yem xərci təşkil edir.Heyvandarlığın inkişafında əsas məsrəflər heyvanların qidalanmasına çəkilən xərclərdə çoxluq təşkil edir. Heyvandarlıqda istifadə edilən əsas məsrəflər yemlərin alınmasına çəkilən xərclər, otlaq sahələrinin alınmasına çəkilən xərclər, ot tayalarının alınmasına çəkilən xərclər südlüq heyvanlarda süd artırıcı qidalara çəkilən xərclər, ətlik heyvanlarda isə çəki artıracaq yemlərə çəkilən xərclər xeyli məsəflərə səbəb olur. Heyvandarlıqda edilən məsrəflərlər məhsul çıxımında sahibkarın xeyrinə olduqda bu heyvandarlığın inkişafına səbəb olacaqdır. Həmçinin çəkilən məsrəf məhsul çıxımındakı xeyirdən artıq olduqda bu ziyana səbəb olacaqdır. Heyvandarlıqda məsrəflərin uçot obyekti kimi heyvanların növləri və qrupları çıxış edir.

İribuynuzlu mal-qaranın və qoyunların saxlanılmasına sərf edilən məsrəflər qruplar üzrə uçota alınır.

I. I. İribuynuzlu mal-qara:

*A. Südlük istiqamətli mal-qara*

a) bütün yaşda olan cavan heyvanlar və kökəldilməkdə olan heyvanlar

b) əsas sürü (inəklər və törədici buğalar)

*B. Ətlik istiqamətli mal-qara*

a) əsas sürü (inəklər, törədici buğalar, 8 aylığa qədər buzovlar)

b) 8 aylıqdan yuxarı cavan heyvanlar və kökəldilməkdə olan iribuynuzlu mal-qara.

II. Qoyunçuluq

a) yunluq və ətlik istiqamətli qoyunçuluq

b) qaragül qoyunları;

c) Qeyd: Məsrəflər qoyunların bütün yaş qrupları üzrə uçota alınır.

İribuynuzlu mal-qara:

A. *Südlük istiqamətli mal-qara*

a) bütün yaşda olan cavan heyvanlar və kökəldilməkdə olan heyvanlar

b) əsas sürü (inəklər və törədici buğalar)

B. *Ətlik istiqamətli mal-qara*

a) əsas sürü (inəklər, törədici buğalar, 8 aylığa qədər buzovlar)

b) 8 aylıqdan yuxarı cavan heyvanlar və kökəldilməkdə olan iribuynuzlu mal-qara.

II. Qoyunçuluq

a) yunluq və ətlik istiqamətli qoyunçuluq

b) qaragül qoyunları;

c) Qeyd: Məsrəflər qoyunların bütün yaş qrupları üzrə uçota alınır.

Heyvandarlıqda məsrəflərin analitik uçotu yuxarıda göstərilən qruplar üzrə təşkil edilir. Heyvanların saxlanılması xərcləri aşağıdakı kalkulyasiya maddələri üzrə uçota alınır:yem,döşənək, avto nəqliyyat,traktorların nəqliyyat işləri, su təchizatı, elektrik təchizatı, əsasvəsaitlərinamortizasiyası,əsasvə saitlərin caritəmiri,sair istehsalat xərcləri, ümumiistehsalat və ümumtəsərrüfat xərcləri,əsas və əlavə əmək haqqı, sosial

ehtiyaclara ayırmalar.Xərc maddələrininyuxarıdasadalanannomenklaturası heyvandarlıq məhsullarının maya dəyərinin formalaşması xüsusiyyətlərini əks etdirir.

Heyvandarlıqda bütün məsrəflərin tam və dəqiq aşkara çıxarılması baş verənəməliyyatların,şlənilmiş iş vaxtının,işçilərinistehsaletdikləri məhsul,əmək haqqıməbləği,yemxərci və digərəməliyyatlarındüzgünvə vaxtındasənədləşdirilməsinitələbedir.Heyvandarlıqişçiləri-nin istehsal etdikləri məhsulun həcmini və əmək haqqını uçota almaq üçün əsasən, iş vaxtının uçotu tabelindən və əməködənişinin hesablanması cədvəlin-dən istifadə edilir.Ümumilikdə götürüldükdə heyvandarlıq məhsulları həcminin artımı özəl bölmənin inkişafı və kənd təsərrüfatında aparılan özəlləşdirmə prosesi hesabına baş vermişdir. Qeyd etməklazımdır ki, heyvandarlıq məhsulları istehsalının artımı kiçik şəxsi yardımçı təsərrüfatların hesabına baş vermişdir.

Heyvanların yetişdirilmə işlərini 3 başlıq altında göstərmək mümkündür.

- Baxım
- Bəsləmə
- Heyvan sağlamlığı

Heyvandarlıqda istehsal məsrəflərinin və məhsul çıxımının uçotunun ümumi sxemasını südlük istiqamətli iribuynuzlu mal-qaranın böyüdülməsi və kökəldilməkdə olan hissəsinə nəzər yetirdikdə bəzi məsrəfləri aydın görmək olar.Heyvandarlıq işçilərinə əmək haqqı hesablanması, qidalanmada yemin sərf edilməsi, dərman maddələrinin işlənməsi, elektrik enerjisinin və suyun sərf edilməsi və başqa digər məsrəfləridə göstərmək olar.

**Mövzunun aktuallığı.** Məqalə heyvandarlıqda istifadə olunan məsrəflərdən və məhsul dəyərinin kalkulyasiyasından bəhs etmişdir. Heyvandarlıqda düzgün məqsədlər üçün istifadə olunan məsrəflər və məhsullar heyvandarlığın düzgün inkişafı sahəsində aktuallığını qoruyub saxlayacaqdır.

**Tədqiqatın məqsədi.** Heyvandarlığın yaxşı inkişafı insan qidalanmasının əsasını təşkil edən qida rasionunun daha keyfiyyətli olmasına səbəb olacaqdır.

**Tədqiqat obyekti.** Heyvandarlıqda məsrəflər və məhsul çıxımı.

**Tədqiqat metodu.** Heyvandarlıqda məsrəflərin əsasən harada daha çox aparılması və məhsul çıxımının düzgün təşkili və kalkulyasiyasının aparılması.

**Açar sözlər:** Heyvandarlıqda istehsal məsrəfləri,heyvandarlığın südlük və ətlik növləri,məhsulun maya dəyərinin kalkulyasiyası

**Ədəbiyyat siyahısı:**

1. http://genderi.org/dersvesaitibak.html?page=31#8.3._Heyvandarlıqda_məsrəflərin_uçotu _və_məhsulun_maya_dəyərinin_
2. kalkulyasiyası
3. www.Wikipedia.org

**ОРГАНИЗАЦИЯ И СОВЕРШЕНСТВОВАНИЕ УЧЕТА ЗАТРАТ И ПРОДУКЦИИ ЖИВОТНОВОДСТВА**

**Р.Т.Мамедли, П.Э.Мухтарова**
**Азербайджанский Технологический Университет**
resadmemmedli2000@bk.ru

В статье рассматриваются затраты, используемые в животноводстве и расчет себестоимости продукции.

**ORGANIZATION AND IMPROVEMENT OF COST ACCOUNTING AND LIVESTOCK PRODUCTS**

**R.T.Mammadli, P.E.Mukhtarova**
**Azerbaijan Technological University**
resadmemmedli2000@bk.ru

The article discusses the costs used in animal husbandry and the calculation of the cost of the product.

# YÜNGÜL SƏNAYE MÜƏSSİSƏLƏRİNİN UZUN MÜDDƏTLİİNKİŞAFI

**İSTİQAMƏTLƏRİ**

**X.F.Məmmədova**
**Azərbaycan Texnologiya Universiteti**
fizuli.ekonomist@gmail.com

Azərbaycan Respublikası Prezidentinin imzaladığı "Pambıçılığın inkişafı" Dövlət Proqramında xüsusilə qeyd edilmişdir ki, 2018-2022-ci illər Respublikamızda bu şəhərin inkişafı yüngül və toxuculuq sənayesinin inkişafına böyük təkən verəcəkdir.

Bununla bağlı Respublikamızın kənd və rayon yerlərində ilbəil pambıçılıq üzrə göstəricilər artır və bunun da sayəsində toxuculuq və yüngül müəssisələri stabil olaraq fəaliyyət göstərir. Xüsusən bu sahənin inkişafı işğaldan azad olunmuş torpaqlarda özəl bir xarakter daşıyır. Həmin torpaqlar nəinki, pambıçılıq üçün eyni zamanda digər xanmal ehtiyatları üçün xüsusən əhəmiyyətlidir.

Müasir dövrdə ölkədə yüngül sənayenin inkişaf etdirilməsi bu sahəyə investisiyanın cəlb olunması müvafiq inkişaf institutlarının yaradılmasını tələb edir. Həmçinin əlverişli biznes investisiya mühiti, ixtisaslı kadr potensialı, institusional potensial, səmərəli infrastrukturun, xammal resurslarının mövcudluğu və digər bu kimi amillər yüngül sənaye sahəsinin investisiya cəlbediciliyini müəyyən edir. Bununla belə bu imkanların hərəkətə gətirilməsi, yüngül sənayenin strukturunun təkmiləşdirilməsi və onun uzun müddətli təmin edilməsi baxımdan mühüm əhəmiyyətə malikdir.

Qeyd etmək lazımdır ki, yüngül sənaye müəssisələri üçün əsas xammal bazası aqrar sahə və kimya sənayesidir. Aqrar sahəyə investisiya qoyuluşu o qədər də arzu olunan səviyyədə deyildir. Ona görə xarici şirkətlər bu sahəyə investisiya yatırım etmirlər. Əvvala bu sahə riskli sahədir bundan başqa ölkəmizdə risk və sığorta haqqında qanun qəbul olumamışdır. Bu sahəyə yönəldilən investisiya tez bir zamanda itirilə bilər. Əgər risk haqqında qanun qəbul olunarsa, onda yüngül sənayenin inkişafı yüksək səviyyədə inkişaf edə bilər.

Son illərdə ölkədə həyata keçirilən islahatlar əsasən neft və qaz hasibatı sənayesinə və infrastruktur sahələrə yönəldilmişdir. İnfrastruktur sahələrin inkişafı real sektorda istehsalın artımı və cəmiyyətin həyat səviyyəsinə müsbət təsir göstərsə də bu sahəyə investisiya qoyuluşları ilə sahənin xidmətlərindən istifadə edən sahələrin inkişafının əlaqələndirilməsi ölkədə prioritet istiqamətdir və dövlət proqramı çərçivəsində reallaşdırılmalıdır. Bu baxımdan, yüngül sənayedə istehsalın artırılması, bu sahədə biznes fəallığının artırılması üçün əlverişli investisiya mühitinin formalaşdırılması cəlb olunmuş. Daxili və xarici investisiya resurslarının bu qeyri-neft sənayesində səmərəli istifadə olunması və yüngül sənayedə investisiya fəaliyyətinin dövlət tərəfindən stimullaşdırılması məsələləri Azərbaycan iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edir. Qeyd edilənlərin aktuallığı nəzərə alınaraq elmi iş yüngül sənayenin uzun müddətli inkişafının əsas istiqamətlərinin öyrənilməsinə həsr olunmuşdur.

Tədqiqatın məqsədi yüngül sənayenin uzun müddətli kompleks təhlili əsasında bu sahədə istehsal fəallığının təmin olunması yollarını müəyyənləşdirmək və bu istiqamətdə elmi cəhətdən əsaslandırılmış təklif və tövsuyyələr işləyib hazırlamaqdan ibarətdir.

**Açar sözlər:** müəssisə, tikiş, istehsal, inkişaf, sənaye

**Ədəbiyyatsiyahısı:**

1.Управление хозяйственными связями предприятия с поставщиками и потребителями. Коллективная монография с международным участием. М. 2015. 569 с

2. Проектирование информационных систем управления бизнес-процессами предприятий легкой промышленности. Учебник с международным участием. М. 2020. 587 с

**ПЕРСПЕКТИВЫ И ДОЛГОСРОЧНЫЕ РАЗВИТИЯ ПРЕДПРИЯТИЯ ЛЕГКОЙ**

## ПРОМЫШЛЕННОСТИ

**Х.Ф.Мамедова**
**Азербайджанский Технологический Университет**
**fizuli.ekonomist@gmail.com**

Основной целью работы является комплексное исследование долгосрочного развития предприятия легкой промышленности Азербайджана. Для этого разработана методика исследования на основе которого выполнена даннаяработа.
**Ключевые слова:** предприятия, швейной, производства, развития, промышленность

## PROSPECTS FOR LONG-TERM DEVELOPMENTOF LIGHT INDUSTRY ENTERPRISES

**H.F.Mammadova**
**Azerbaijan Technological University**
**fizuli.ekonomist@gmail.com**

The main goal of the work is a comprehensive study of the long-term development of the light industry enterprises in Azerbaijan. For this purpose the method on the basis of which the work is carried out, has been developed.
**Keywords:** enterprises, garments, manufacturing, development, industry

# EMAL SƏNAYE MÜƏSİSƏLƏRİNDƏ STRATEJİ MARKETİNQIN TƏTBİQİ XÜSUSİYYƏTLƏRİ

**E.Ə.Həsənov**
**Azərbaycan Texnologiya Universiteti**
**elnurhesenofff@gmail.com**

Sənaye iqtisadiyyatın aparıcı sahəsidir. Lakin sənayenin tərkib hissələri iqtisadiyyata müxtəlif cür təsir göstərirlər. İqtisadiyyata çox güclü müsbət təsir göstərən sahə emal sənayesidir. Emal məhsulları istehsal etmək, hər il yenidən onların sadə və geniş təkrar istehsalına nail olmaq dünya təsərrüfat sisteminin ən mühüm sferalarından hesab edilir. Uzun illərin təcrübəsi göstərir ki, emal sənayesi bir çox cəhətdən ölkə iqtisadiyyatının prioritet istiqamətlərini təyin edir. O ilk növbədə sosial məsələlərin həlli üçün lazımdır. Yeni iş yerlərinin yaradılması bilavasitə emal sənayesindən, onun sahə strukturundan asılı olur. Bundan başqa, emal sənayesinin məhsulu hazır məhsullardır: avadanlıqlar, cihazlar, dəzgahlar, axın xətləri, avtomatlar, komputerlər, elektrik stansiyaları üçün avadanlıqlar, raketlər, müxtəlif yeyinti məhsulları, geyim-ayaqqabı məmulatları və s. Bütün bu məhsulların sənayenin hasilat sahələrinin məhsulundan mühüm fərqli cəhətləri vardır. Onlar ilk növbədə ETT-nin daşıyıcılarıdır, son elmi və texniki tərəqqini özlərindən təcəssüm etdirirlər və eyni zamanda istehsalın texniki səviyyəsini yüksəltməyə qadirdilər. Emal sənayesini inkişaf etdirmək, yaradılan məhsulların davamlılığını, uzunömürlülüyünü, etibarlılığını yüksəltmək, rəqabət qabiliyyətli emal məhsulları istehsal etmək güclü bilik, yaradıcı əmək və çoxlu vəsait tələb edir. Bu şərtləri ödəyən ölkələr emal sənayesini inkişaf etdirə bilərlər və dünya ölkələri arasında özlərinin iqtisadi gücləri ilə fərqlənirlər. Təsadüfi deyildir ki, inkişaf etmiş ölkələrdə bir qayda olaraq emal sənayesi yüksək səviyyədə olur. Son dövrlər sənaye cəhətdən inkişaf etmiş ölkələrdə emal sənayesindən istehsalın nisbətən aşağı düşməsi müşahidə olunur. Belə meyl heç də sənayenin bu mütərəqqi sahəsinin rolunun azalması mənasını vermir, əksinə, prosesindünya ölkələrinə yayılmasından xəbər verir. Keçən əsrin 70-ci illərindən başlayaraq dünya miyasında belə bir istiqamət diqqəti cəlb edir. Emal sənayesinin ÜDM-dəki xüsusi çəkisi inkişaf etmiş ölkələrdə azalmağa, inkişafda olan ölkələrdə isə nisbətən çoxalmağa başlamışdır. Dünya iqtisadiyyatına aid dərc olunmuş materiallarda bu proses desənayeləşmə adlanır. Bu prosesin həm obyektiv həmdə subyektiv kökləri vardır. Desənayeləşmənin subyektiv əsasını dünya miqyasında baş verən beynəlmilləşmə, qloballaşma, yarımsistemlər iqtisadiyyatının daha açıq olması və beynəlxalq ticarətin sürətlə inkişaf etməsi, biliyin bütün dünyaya yaylmasını təşkil edir. Dünya miqyasında baş verən elmi-texniki tərəqqi və iqtisadi inkişafın obyektiv xüsusiyyəti obyektiv amil rolunu oynayır. İnkişafda olan ölkələr anlayıblar ki, təkcə xammal və materiallar ixrac etməklə sosial-iqtisadi inkişafa nail olmaq olmaz, sənayenin bütün sahələrini, o cümlədən də ilk növbədə emal sənayesini tamamilə inkişaf etdirmək lazımdır. Bu prosesin baş verib genişlənməsinə inkişaf etmiş ölkələrində təsiri olur. Çox vaxt emal müəssisələri ətraf ölkələrdə yerləşdirmək onların özü üçündə sərfəli olur. İnkişaf etmiş ölkələrdə emal sənayesinin artım sürətinin nisbətən aşağı düşməsinə hazır məhsulların qiymət indeksindən aşağı olmasıda təsir göstərir. Bütün dünya üzrə emal sənayesinin səviyyəsi isə sahənin inkişafda olan ölkələrdə üstün inkişaf etdirilməsi yolu ilə sabitləşdirilir.

Emal sənaye müəssisələrində planlaşdırmanın, xüsusilədə strateji planlaşdırmnın rolu çox böyükdür. Beynəlxalq fəaliyyətlə məşğul olan sənaye müəssisələrinin idarə edilməsi təcrübəsində marketinq planlarının müxtəlif növlərinin geniş dairəsinin tərtib edilməsi mümkündür. Standart və ya qlobal marketinq proqramları müxtəlif ölkələrin bazarlarında işləməyə vahid yanaşma və onlarda marketinq işinin vahid metodlarından istifadə etməyi nəzərdə tutur. Standart marketinq proqramları qlobal marketinqin ifadəsidir. Onlar müxtəlif ölkələrin istehlakçılarının ümumi və oxşar tələblərinə istiqamətlənir və bütün emal sənaye müəssisələr üçün vahid reklam konsepsiyası üzrə bir sıra hallarda isə vahid qiymət strategiyası və birtipli satış kanalları üzrə bir standart məhsul təklif edirlər. Belə

proqram, onun tərtib edilməsi və həyata keçirilməsi ən az xərc tələb edir və rəqabət mübarizəsində əhəmiyyətli üstünlüklər təmin edə bilər.

**Ədəbiyyat siyahısı:**


1. A.T.Məmmədov. "Marketinqin əsasları" dərs vəsaiti. 2007
2. Beynəlxalq marketinq Allahverdiyeva M.A., Dərslik 444səh Bakı, İqtisad Universiteti
3. Marketinq strategy. https://www.gartner.com/technology/research.jsp


## ПРИМЕНИМЫЕ ОСОБЕННОСТИ СТРАТЕГИЧЕСКОГО МАРКЕТИНГА НА ПЕРЕРАБАТЫВАЮЩИХ ПРОМЫШЛЕННЫХ ПРЕДПРИЯТИЯХ

**Э.А.Гасанов**
**Азербайджанский Технологический Университет**
**elnurhesenofff@gmail.com**

Роль планирования, особенно стратегического планирования, очень важна в перерабатывающей промышленности. В практике управления промышленными предприятиями, осуществляющими международную деятельность, возможна разработка широкого спектра различных видов маркетинговых планов. Стандартные или глобальные маркетинговые программы предусматривают единый подход к работе на рынках разных стран и использование на них единых методов маркетинга.

## APPLICABLE FEATURES OF STRATEGIC MARKETING IN PROCESSING INDUSTRIAL ENTERPRISES

**E.A.Hasanov**
**AzerbaijanTechnologicalUniversity**
**elnurhesenofff@gmail.com**

The role of planning, especially strategic planning, is very important in the processing industry. In the practice of managing industrial enterprises engaged in international activities, it is possible to develop a wide range of different types of marketing plans. Standard or global marketing programs provide a unified approach to working in the markets of different countries and the use of common methods of marketing in them.

## ƏMƏYİN VƏ MÜƏSSİSƏNİN İŞÇİ HEYƏTİİLƏ HESABLAŞMALARIN UÇOTUNUN

# TƏŞKİLİ VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ

**P.E.Muxtarova**

**E.E.Fətəliyev**

**Azərbaycan Texnologiya Universiteti**

e.fataliev@mail.ru

Mühasibat uçotunun təkmilləşdirilməsi, o cümlədən təşkilatın maliyyə-təsərrüfat fəaliyyətinə nəzarət funksiyalarının rolunun gücləndirilməsi maliyyə-büdcə sisteminin gücləndirilməsinin nəticəsidir. Təşkilatlarda mühasibat uçotunun aparılmasının özünəməxsus xüsusiyyətləri vardır və nəticəyönümlüdür.Əməyin və əmək haqqının uçotunun düzgün təşkili onun sənədləşdirilməsindən bilavasitə asılıdır. Əmək haqqını hesablamaq üçün müəssisələrdə işə görə və vaxta görə işləyənlərin sayını bilmək mütləqdir. Vaxta görə işləyənlərə əmək haqqı hesablamaq üçün onların işəçıxma saatlarının miqdarını müəyyən etmək lazımdır. İş dərəcələrini, habelə vəzifə maaşlarını bilməklə əmək haqqı hesablamaq olar. Belə bir məlumat mənbəyi müəssisədə işəçıxmanı qeydə alan tabel uçotudur. İşəmuzd işləyənlərə əmək haqqı hesablamaq üçün onlara verilmiş tapşırıqların həcmini, istehsal olunan məhsulun miqdarına və keyfiyyətini bilmək lazımdır. Aylıq və rüblük hesabatlara baxmadan cari təşkil etmək çətindir, dövlətlər və kontingentlər tərəfindən planın icrası və əvvəllər köçürülmüş vəsaitlər haqqında məlumatların daxil olması bu hesabatlar əsasında müəyyən edilə bilər.

Düzgün təşkil edilmiş mühasibat uçotu əsasında: gizli ehtiyatları aşkara çıxarmaq; plan və maliyyə-büdcə sifarişinə əməl etmə rejimindən kənarlaşmaların müəyyən edilməsi; ehtimal olunan itkilərin, habelə əsassız xərclərin qarşısının alınması və vaxtında aradan qaldırılması.

Büdcədən vəsaitlər plan üzrə deyil, konkret məqsədlər üçün, istehsal-təsərrüfat məqsədləri üçün, müəyyən proqram və tapşırıqların həlli üçün ayrılır. Bununla yanaşı, vacib məqam bu büdcə vəsaitlərinə həqiqətən ehtiyac olduğunu sübut etmək, həmçinin bu xərclərin xərc limitinə daxil edilməsinin zəruriliyidir.

Büdcə təsnifatının maddələri bölməsində gəlir və xərclərin smetalarının icrasına və onların ciddi uçota alınmasına nəzarət, habelə büdcə uçotunun yeni forması və s. mühasibat uçotunun xüsusiyyətlərinə aid edilə bilər.

Əmək haqqı uçotunun ən vacib vəzifələri bunlardır:

- İşçilərin kadr tərkibinin düzgün uçotunun aparılması, o cümlədən görülən işlərin məbləğinin uçotu;
- əməyə görə ödəniş məbləğlərinin və ondan tutulmaların düzgün hesablanması;
- qurumun işçiləri, büdcə, sosial sığorta orqanları, habelə tibbi sığorta və pensiya fondu ilə hesablaşmaların uçotu;
- əmək ehtiyatlarından və əmək haqqı fondundan məqsədəuyğun istifadəyə nəzarət
- Sosial ehtiyaclar üçün hesablanmış əmək haqqı və ödənişlərin müvafiq mühasibat uçotu hesablarına düzgün aid edilməsi.

Əmək haqqının hesablanması və ödənilməsi prosesində mülki, vergi və əmək qanunvericilik və normativ hüquqi aktlara əsaslanmaq lazımdır.

**Mövzunun aktuallığı.** Əməyin və müəssisənin işçi heyəti ilə hesablaşmaların uçotunun öyrənilməsi və təhlili**.**

**Tədqiqatın məqsədi**. Mühasibat uçotunun formalaşdırılması, normativ sənədlər vasitəsilə həyata keçirilən ciddi dövlət uçot siyasəti, habelə büdcə uçotunun yeni formasının təşkili.

**Tədqiqat obyekti.** İşçi heyəti ilə hesablaşmaların uçotu.

**Tədqiqat metodu**. Smeta təyinatına uyğun olaraq maliyyələşdirmə məqsədi ilə ayrılan xərclərin düzgünlüyünə mütəmadi olaraq nəzarət edilməsi metodu.

**Ədəbiyyat siyahısı:**

1. Rzayev Q.R. Mühasibat uçotunun beynəlxalq standartları və maliyyə hesabatı. Dərs vəsaiti. Bakı, 2004
2.http://unec.edu.az/application/uploads/2018/11/Osobennosti-ucheta-i-audita-raschetov-po-oplate-truda-v-byudzhetny-h-organizatsiyah.pdf
3. Səbzəliyev S.M. Mühasibat (maliyyə) hesabatı. bakı, 2003
4. Аудит. Под ред. В.И.Подольского. Москва, ЮНИТИ, 2003, 269 с

## ОРГАНИЗАЦИЯ И СОВЕРШЕНСТВОВАНИЕ УЧЕТА ТРУДА И РАСЧЕТОВ С ПЕРСОНАЛОМ ПРЕДПРИЯТИЯ

**П.Э.Мухтарова**
**Э.Э.Фаталиев**
**Азербайджанский Технологический Университет**
**e.fataliev@mail.ru**

Совершенствование бухгалтерского учета, а также усиление роли контроля за финансово-хозяйственной деятельностью организации является результатом укрепления финансово-бюджетной системы. Бухгалтерский учет в организациях имеет свои особенности и ориентирован на результат.

## ORGANIZATION AND IMPROVEMENT OF ACCOUNTING OF LABOR AND SETTLEMENTS WITH ENTERPRISE PERSONNEL

**P.E.Mukhtarova**
**E.E.Fataliev**
**Azerbaijan Technological University**
**e.fataliev@mail.ru**

The improvement of accounting, as well as the strengthening of the role of control over the financial and economic activities of the organization is the result of strengthening the financial and budgetary system. Accounting in organizations has its own characteristics and is results-oriented.

# AZƏRBAYCAN RESPUBLİKASINDA TURİZM SƏNAYESİNİN İNKİŞAFINA DAİR STRATEJİ YOL XƏRİTƏSİ

**A.K.Quliyeva**
**Azərbaycan Texnologiya Universiteti**
**a.k.quliyeva@asan.gov.az**

Milli iqtisadiyyatıninkişaf strategiyasında prioritet istiqamətlərdən biri kimi ixtisaslaşmış turizmin müəyyənləşdirilməsi turizmin inkişafı istiqamətində görülən işlərin davamlılığınaxidmət etməklə yanaşı, Azərbaycan Respublikasının cəlbedici turizm məkanı kimiqabaqcıl mövqe tutmasına imkan yaradacaq, eyni zamanda, qarşılıqlı əlaqələrdən vəmövcud turizm potensialından səmərəli istifadə edilməklə turizm sektorununiştirakçıları arasında əməkdaşlığın inkişafına və Azərbaycanda turizm xidmətləri üzrəkeyfiyyətin yüksəldilməsinə gətirib çıxaracaqdır. Strateji Yol Xəritəsi nəzərdətutulmuş müddətlər ərzində turizm sektorunun inkişafının dəstəklənməsi, beynəlxalqvə yerli bazarlarda yüksəkkeyfiyyətli və rəqabətədavamlı turizm xidmətlərinin təminedilməsi, milli dəyərlərə uyğun turizm təcrübəsinin formalaşdırılması, müasir ideya vəinnovasiyalara əsaslanan yeni investisiya layihələrinin cəlb edilməsi və turizmininkişafı ilə əlaqədar aidiyyəti orqanların qarşılıqlı koordinasiyası kimi tədbirləri özündəehtiva edir.

**Strateji məqsədlər -** Bakı şəhərinin turizm potensialından tam istifadə üzrə səmərəli idarəetmə sisteminin yaradılması, marketinq və brendinq səylərinin gücləndirilməsi, turizm məkanları barədə məlumatlılığın artırılması və turizm infrastrukturununtəkmilləşdirilməsi yolu ilə uzunmüddətli dövrdə Bakı şəhərinə getdikcə dahaçox xarici turistlərin cəlb edilməsinə nail olmaq;

- ölkə üzrə əlverişli mühitin yaradılması üçün ölkəyə giriş-çıxışınsadələşdirilməsi, əlaqə vasitələrinin təkmilləşdirilməsi, turizm sektorunun ayrıayrı iştirakçıları arasında koordinasiyalı fəaliyyətin qurulması və turizm vərekreasiya zonalarının yaradılması kimi dəstəkverici mexanizmlərin tətbiqi iləuzunmüddətli inkişafa nail olmaq;
- turizm sektorunda göstərilən xidmətlərin keyfiyyət və kəmiyyət göstəriciləri baxımından təkmilləşdirilməsi məqsədilə turizm keyfiyyət sistemininyaradılması ilə turistlərin məmnunluq səviyyəsinin artırılmasına nail olmaq.

**Strateji hədəflər -** Həm işgüzar məqsədlərlə, həm də istirahət məqsədilə gələn turistlər arasında beynəlxalq tanınmanın növbəti səviyyəsinə çatmaq və Bakı şəhərinin turizmpotensialını artırmaq üçün Milli Turizm Təbliğat Bürosu yaradılacaqdır. Milli TurizmTəbliğat Bürosu Bakı şəhəri barədə mövcud məlumatları yeniləmək üçün AzərbaycanRespublikasının Turizm Şurası ilə, müvafiq dövlət qurumları və digər təşkilatlarlabirgə işləyəcək, mühüm hədəf bazarlarda təşviqat tədbirlərini həyata keçirəcək, eynizamanda, sahibkarlara həm aşağı büdcəli yerləşdirmə vasitələri üzrə seçimlərinçeşidinin genişləndirilməsinə, həm də şəhərin mərkəzində turizm mərkəzlərininyaradılmasına dəstək verəcəkdir. Bu cür əlaqələndirilmiş və məqsədyönlü səylərnəticəsində Bakı şəhəri qısamüddətli uçuş məsafəsində yerləşən və 90 milyondanartıq əhalinin yaşadığı 26 şəhəri əhatə edən potensial turizm tələbat qrupundan
əhəmiyyətli dərəcədə bazar payı əldə edə biləcəkdir.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi

## СТРАТЕГИЧЕСКАЯ ДОРОЖНАЯ КАРТА ПО РАЗВИТИЮ ИНДУСТРИИ ТУРИЗМА В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

**А.К.Кулиева**
**Азербайджанский Технологический Университет**
**a.k.quliyeva@asan.gov.az**

В статье о развитии индустрии туризмапроанализированы цели и задачи Стратегической дорожной карты.

## STRATEGIC ROAD MAP FOR THE DEVELOPMENT OF TOURISM INDUSTRY IN THE REPUBLIC OF AZERBAIJAN

**Azerbaijan Technological University**
**A.K.Gulieva**
**a.k.quliyeva@asan.gov.az**

In the article on the development of the tourism industrythe goals and objectives of the Strategic Road Map were analyzed.

# ELEKTRON TİCARƏTDƏ SOSİAL MEDİANIN ROLU

**Z.Qocayeva, S.Nəsibbəyli**
**Azərbaycan Texnologiya Universiteti**
**zgojayeva@yahoo.com**

Günümüzdə insanların tələbatlarını ödəməsi üçün alış-veriş etməyin daha rahat üsulları vardır. Elektron ticarət dediyimiz bu anlayışda alıcılar və satıcılar internet üzərindən bir birləri ilə əlaqəyə keçir və alış-veriş prosesini daha rahat şəkildə həyata keçirilər. Bu da elektron ticarəti hər bir insanın həyatının ayrılmaz parçasına çevirir. Twitter, Facebook, LinkedIn, Instagram və YouTube kimi sosial şəbəkələr trafikin artırılmasında, yeni müştərilərin cəlb edilməsində və e-ticarət alətlərinin tətbiqində aparıcı rol oynayır.Bu tədqiqatın əsas məqsədi elektron ticarət bazarında sosial şəbəkələrin rolunu təhlil etməkdir.

**E-ticarət.** İlk olaraq elektron ticarət anlayışına nəzər salaq. Qlobal olaraq E-commerce olaraq istifadə edilən bu termin "Electronic Commerce" sözlərinin qısaldılmasıdır. Elektron vasitələr vasitəsi ilə bir şirkətə yaxud şəxsə məhsul və ya xidmət satmağa imkan verən biznes modelidir. Elektron ticarət kompüterlər, planşetlər, smartfonlar və digər ağıllı cihazlar vasitəsi ilə fəaliyyət göstərir. Hazırda ticarətin bu növü vasitəsi ilə demək olar ki, istədiyiniz hər məhsulu və xidməti ala və sata bilərsiniz. Bunlara gündəlik tələbat məsullarının alış və satışı, müxtəlif xidmətlər, kitablar və s. daxildir. Elektron ticarət anlayışı 1980- ci illərdə meydana gəlsə də ilk dəfə internet vasitəsilə alqı- satqı 1995- ci ilə təsadüf edib.Elektron ticarət - informasiya və internet resurslarından istifadə etməklə ticarətin aparılmasıdır. Dünyada bütün alış əməliyyatlarını internet üzərindən aparan, sırf elektron ticarətlə məşğul olan şirkətlərin sayı getdikcə artmaqdadır. Buna misal olaraq "Amazon", "Ebay", "Alibaba" və.s şirkətləri göstərə bilərik.

**E-ticarətin növləri:** Elektron ticarət müxtəlif biznes seqmentində fəaliyyət göstərir, bunlardan əsasları aşağıdakılardır:

Biznesdən biznesə (B2B) – Burada müxtəlif bizneslərin öz aralarında məhsul və ya xidmət alıb satması nəzərdə tutulur.

Biznesdən istehlakçıya (B2C) – Bu seqmentdə bizneslər və onların müştəriləri nəzərdə tutulur. Bizneslərin insanlara məhsul və ya xidmət satması bura aiddir.

İstehlakçıdan istehlakçıya (C2C) – Burada istehlakçıların öz aralarında məhsul satması nəzərdə tutulur, bu əksərən 3-cü çirkətin iştirakı ilə həyata keçir. Məs. Ebay, Aliexpress və.s.

İstehlakçıdan biznesə (C2B) – İstehlakçıdan biznesə seqmentində isə insanların müxtəlif biznes müəssisələrinə xidmət satması nəzərdə tutulur. Buna misal olaraq hər hansı biznes müəssisəsi üçün frilans çalışan bir işçini misal göstərə bilərik.

Hökümətdən hökümətə (G2G) - hökümətin dövlət qulluqçuları ilə qarşılıqlı əlaqədə olaraq məqsədin kommersiya mənfəəti əldə edilməsi deyil məsrəflərin azaldılmasından ibarət bir E- ticarət növüdür.

Biznesdən hökümətə (B2G) - İqtisadçılar biznes hökümət elektron kommersiya sisteminin inkişafının qlobal miqyasda işgüzar təcrübənin konseptual dəyişməsinə imkan yaradacağına daha çox inanırlar. Biznes hökümət e- ticarət sistemi şəxslərlə hökümət arasında baş tutur.

İstehlakçıdan hökümətə (C2G) - Bu növ e-ticarət fiziki şəxslər və sosial təminat kimi dövlət orqanları arasında baş tutur.

E-ticarətin 2020-ci ildə qlobal e-ticarət satışlarının cəmi 4.28 trilyon olub. Bu rəqəmin 2022-ci ilə qədər 5.4 trilyona qədər artacağı proqnoz edilir.

**Sosial media.** İstifadə məqsədi insanların ünsiyyət, paylaşma və əyləncə kimi ehtiyaclarının qarşılanması olan sosilal şəbəkələr istifadəçi sayının çox olması ilə ticarətin aparıla bilməsi üçün əlverişli mühit də təşkil edir.Sosial şəbəkələrə misal olaraq internetdə ünsiyyət qurmaq və sosiallaşmaq imkanı olan saytları göstərmək olar. Onların arasında Facebook, Twitter, Instagram kimi ən çox tanınan ünvanlar sosial şəbəkələrə nümunədir.

Sosial şəbəkələr istənilən növ məlumat mübadiləsi üçün geniş imkanlar təqdim edir. Bunlar fotolar,

videolar, bloqlar, mikrobloqlar, icmalar, söhbətlər və s. ola bilər. İstifadəçi profilləri yaradarkən onlardan əsl adlarını göstərməklə özləri haqqında maksimum məlumat vermələri tələb olunur.Biznes üçün sosial şəbəkələr həm məlumat yayma vasitəsi, həm də biznes mühitidir. Məsələn, sosial şəbəkələr onlayn mağazalar yerləşdirə və ya mal satmaq üçün onlayn mağazaları birləşdirə bilər.

Məlumatı yaymaq üçün milyonlarla sayt sosial şəbəkələrlə inteqrasiya olunub. Bunun üçün şirkətin saytında real sosial şəbəkəyə (BK, Facebook və s.) daxil olmaq üçün düymə, "Bəyən" düyməsi, sosial şəbəkələrlə işləmək üçün xüsusi proqramlar, sosial şəbəkələr vasitəsilə şərh vasitələri və s. ola bilər. Bunlardan istifadə etməklə. alətlər və düymələr vasitəsilə sayt istifadəçiləri sosial şəbəkələrə və əksinə, sosial şəbəkə istifadəçiləri konkret saytlara daxil ola bilirlər. Satıcılar üçün sosial şəbəkələrlə inteqrasiya əlavə ziyarətçi axını təmin edə bilər və buna görə də satışları artıra bilər.

Sosial media İnternet istifadəçilərinin müəyyən bir alış-veriş etmək qərarına əhəmiyyətli dərəcədə təsir göstərir. Sosial şəbəkənin üzvləri digər üzvlərin məhsullar və istehsalçılar haqqında fikrinə reklamdan daha çox etibar edirlər.

Son illər ölkəmizdə də geniş yayılmağa başlayan sosial media marketinqi və rəqəmsal marketinq fəaliyyətləri elektron ticarətin aparılmasında, xüsusilə strategiyaların hazırlanmasında digər ölkələrdə olduğu kimi müsbət təsirini göstərir.

**Strategiya.** E-ticarətdə sosial media strategiyası sizin bazara çıxarkən etməli olduğunuz addımların toplusudur. Burada siz biznes modelindən asılı olaraq bəzi məqamlara diqqət yetirməlisiniz. Diqqət etməli olunmalı məqamlar aşağıdakılardır:

- E-ticarətin modelini və məqsədini müəyyən etmək, bununla da uyğun platformaları seçmək, Vebsayt və tətbiqlərdən istifadə edərək trafiki artırmaq;
- Məhsulları birbaşa sosial media üzərindən satmaq;
- Müştərlərinizlə daim - həm satış zamanı, həm də satışdan sonra - əlaqədə olmaq;
- Biznesiniz barədə ətraflı araşdırmalar aparmaq. Auditoriya, rəqiblər və s. digər məlumatları toplamaq;
- Düzgün analiz etmək. Reklamları və ya ümumilikdə fəaliyyəti düzgün analiz edərək nəticələr çıxarmaq.

**E-ticarət üçün sosial mediadan istifadə və brendləşmə.** Sosial mediada e-ticarətinizi gücləndirəcək və satışlarınızı artıracaq bir çox yollar vardır. Əgər siz sosial mediadan düzgün istifadə etsəniz bu sizin e-ticarətinizə müsbət təsir göstərəcək, satışlarınız əhəmiyyətli dərəcədə artacaq. Bəs bu yollar hansılardır?

Reklam – Sosial şəbəkələr vasitəsi ilə paylaşdığınız reklamlar sizin biznesinizə böyük təsir edir. Facebook, İnstagram və.s. böyük kütlələrə malik sosial şəbəkələrdə reklamlar vermək sizin potensial müştəri kütlənizə çatmağınzı təmin edir. Reklamlarınızı biznes modeilinizə uyğun seçməlisiniz.Misal üçün B2B və C2B biznes modelləri üçün Linkedin sosial şəbəkəsi daha effektivdir. Digər biznes modelləri üçün, həmçinin yuxarıda qeyd etdiyimiz biznes modelləri üçün Facebook və İnsatagram reklamları da yüksək effektivliyə malikdir.

İndi isə gəlin qeyd etdiyimiz sosial şəbəkələr vasitəsi ilə nə qədər insana çata biləcəyimizin statistikasına baxaq.

- Facebook vasitəsi ilə siz 190 milyon insana çata bilərsiniz.
- İnstagram ilə isə 140 milyon insana çata bilərsiniz.
- Linkedin reklamlarından istifadə edərək 170 milyon insana çatmaq şansınız var.

Təbii ki, bu nəticələr sizin reklam büdcənizdən və reklamınızın düzgün hədəflənməsindən asılıdır. Əgər reklamlarınızın hədəflənməsi zəif olarsa, daha insana görünəcəksiniz və sizin biznes göründüyünüz insanların maraq dairəsində olmayacaq.

**Reklam növləri.** Hədəfləmə və büdcədən əlavə reklamın kontenti də vacibdir. Əgər reklamın kontenti zəif olarsa, bir o qədər az diqqət çəkərsiniz. Bura reklamda istifadə etdiyiniz görsəl və reklam mətni daxildir. Gəlin e-ticarətdə vacib olan reklam növlərinə nəzər salaq.

1. Şəkil reklamları;

2. Video reklamları;
3. Karusel reklamları;
4. Kolleksiya reklamları.

E-ticarət vizual bir mühitdir. Çox az istehlakçı yalnız mətnə əsaslanaraq məhsul almaq istəyir. Sosial media səylərinizin müvəffəqiyyəti tez-tez diqqət çəkmək və məhsul səhifələrinizə trafik yaratmaq üçün görüntü istifadə etməyinizə bağlıdır.

Kolleksiya reklamları xüsusi olaraq e-ticarət üçün yaradılıb və sizin kataloqunuzu müştərilərin önünə çıxararaq daha çox satışlar etməyinizi təmin edir.

Qısa video kontentləri. Bu kontentlər də özlüyündə müştərilərdə müsbət fikirlər oyadır, bəzi müştərilər məhsulun video halını gördükdə almaq qərarını netləşdirirlər. Bunun üçün siz öz məhsul və xidmətləriniz haqda qısa videolar çəkərək paylaşa bilər, həmçinin onları reklam edə bilərsiniz. Bəs harada bu qısa videoları paylaşa bilərik?

1. İnstagram hekayə bölümü
2. İnstagram reels
3. İnstagram canlı yayımlar
4. Tik-tok

**Zamanlama** – Zamanlama anlayışı və işlərin rutin olaraq görülməsi burada da işinizə yarayacaq. Sosial şəbəkələrdə paylaşımlarınızı hər gün eyni vaxtda etməlisiniz. Bu zamanlama sizin müştəri və istifadəçi kütlənizin sosial mediada aktiv olduğu zamanla üst-üstə düşməlidir ki, daha çox maraq əldə edə biəsiniz. Həmin zamana "Optimal zaman" deyilir və bu çox zaman sosial şəbəkələr tərəfindən avtomatik olaraq sizə bildirilir.

**Analiz** – Reklam kompaniyalarının sonunda mütləq analizlər aparılaraq sosial media hesabatı hazırlanmalıdır. Burada diqqətin yönəlməli olduğu məqam reklamının məqsədindən asılıdır. Əgər daha çox insana çatmaq üçün reklam başladılıbsa, nə qədər insana çatdığına baxılmalıdır. Əgər mesajlaşma başladılması üçün reklam işi görülübsə, neçə mesajlaşmanın başlamasına nəzər yetirilməlidir.

Digər tərəfdən vebsayta və ya applikasiyaya nə qədər trafik getdiyinə, yerləşdiyi keçidə neçə nəfərin klik etiyinə və s. məlumatlara baxaraq onlar analiz edilməlidir ki, növbəti kompaniyalara bu analizdən çıxan nəticələrə baxaraq reklam başlada və nəticələri müqayisə etmək mümkün olsun.

**Brendləşmə** - Satışlarınızın artırılması ilə bərabər siz brendləşməyə də önəm verməlisiniz. Əgər *brendləşmə anlayışını biznesinizə qatmasaz sadəcə məhsul satan bir profildən ibarət olacaqsınız. Artıq məlumdur ki,* Sosial media İnternet istifadəçilərinin müəyyən bir alış-veriş etmək qərarına əhəmiyyətli dərəcədə təsir göstərir. Sosial şəbəkənin üzvləri digər üzvlərin məhsullar və istehsalçılar haqqında fikrinə reklamdan daha çox etibar edirlər. Böyük şirkətlər üçün onlayn strategiyalarını inkişaf etdirmələri son dərəcə vacibdir. Bu o demək deyil ki, onların öz onlayn mağazası olmalıdır. Şirkətlər başa düşməlidirlər ki, internet müştərilərlə ünsiyyət vasitəsidir. Deməli, sosial şəbəkə brendin inkişafına kömək edə bilər, həm də onu məhv edə bilər və çox qısa müddətdə. Müştəri ilə ünsiyyət sisteminin qurulmasına investisiya bütövlükdə bütün strategiyanın mühüm tərkib hissəsidir. Son zamanlar bir sıra qlobal brendlərin müştərilərin rəylərinə diqqət yetirməməsi və müştərilərlə qarşılıqlı əlaqə kanallarının zəif idarə olunması kimi strategiya səhv hesablamaları bu brendlərin reputasiyasına mənfi təsir göstərib. İnternet həm lazımlı, həm də istənməyən geniş məlumat mənbəyi rolunu oynayır. Buna görə də, pərakəndə satıcılar məlumat izləmə prosedurlarını və onlayn ünsiyyət təcrübələrini strategiyalarına daxil etməlidirlər. Ənənəvi mağazalar internetdə brend şüurunu yaratmaq üçün daha yaxşı vəziyyətdədir. Lakin şirkətlər bu artan satış kanalına və müştəri ilə ünsiyyətə kifayət qədər diqqət yetirməsələr, bu, biznes perspektivlərinə mənfi təsir göstərə bilər.Onlar sosial mediada şəxsi və peşəkar brendinqə önəm versələr, markalarına bir dəfəlikalıcılar yox, birdəfəlik alıcılar cəlb edəcəklər.

Azərbaycanda "Elektron ticarət haqqında Qanun" 10. May 2005-ci ildə qəbul olunmuşdur. Ötən dövr ərzində dövrlər Azərbaycanda da elektron ticarətə insanlar arasında marağın artması nəzərə çarpır. Bunun təsdiqi olaraq qeyd edə bilərik ki, 2019-cu ilin ilk 9 ayı ərzində Azərbaycanda elektron ticarətin həcmi **91%** artaraq **2,2 milyard** manat təşkil edib.

**Nəticə.**Bir çox müəssisələr, o cümlədən e-ticarət biznesi sosial şəbəkələrin potensialından tam istifadə etmir. Bu müəssisələrin bir çoxu sosial şəbəkələrin müştəriləri və ya potensial müştəriləri cəlb etmək üçün necə səmərəli istifadə oluna biləcəyini də tam bilmir.

Elektron ticarət müəssisələri sosial media şəbəkələri ilə brend şüurunu yarada, müştərilərlə qarşılıqlı əlaqə qura və müştərilərin perspektivlərini anlaya bilər. Bütün müəssisələr sosial mediadan eyni məqsədlə istifadə etmir. Biznesin strukturundan və məqsədlərindən asılı olaraq sosial mediadan istifadənin məqsəd və üsulları fərqli ola bilər.

Əksər şirkətlər sosial medianı sadəcə satış yeri kimi görməkdə səhv edirlər. İnsanlar sosial mediadan məhsul almaq qərarına gəlsələr də, satın almaq məqsədi ilə bu saytları ziyarət edə bilməzlər. Buna görə də sosial media yazıları hədəf auditoriyanı məlumatlandıracaq və dəyər qatacaq şəkildə hazırlanmalıdır.

**Açar sözlər:** e-ticarət, sosial media, sosial media marketinqi, e-ticarətdə reklam və brendləşmə.

**Ədəbiyyat siyahısı:**

1. Hacıyeva N.A., Məmmədov S.C., Qocayeva Z.B., Məmmədli Z.T., Şıxıyeva X.X. Rəqəmsal iqtisadiyyat: Dərs vəsaiti. – Gəncə 2021
2. https://markzone.az/e-ticaret-marketinq-strategiyalarinin-sirleri/
3. http://www.e-qanun.az/framework/10406

## РОЛЬ СОЦИАЛЬНЫХ МЕДИА В ЭЛЕКТРОННОЙ ТОРГОВЛЕ

**З.Годжаева, С.Насиббейли**
**Азербайджанский Технологический Университет**
**zgojayeva@yahoo.com**

Сегодня есть более удобные способы делать покупки, чтобы удовлетворить потребности людей. В этой концепции, которую мы называем электронной коммерцией, покупатели и продавцы общаются друг с другом через Интернет и легче осуществляют процесс покупки. Это делает электронную коммерцию неотъемлемой частью жизни каждого человека. Социальные сети, такие как Twitter, Facebook, LinkedIn, Instagram и YouTube, играют ведущую роль в увеличении трафика, привлечении новых клиентов и внедрении инструментов электронной коммерции. Основной целью данного исследования является анализ роли социальных сетей на рынке электронной коммерции.

**Ключевые слова:** электронная коммерция, социальные сети, маркетинг в социальных сетях, реклама и брендинг в электронной коммерции.

## THE ROLE OF SOCIAL MEDIA IN ELECTRONIC TRADE

**Z.Qocayeva, S.Nasibbayli**
**AzerbaijanTechnologicalUniversity**
**zgojayeva@yahoo.com**

Today, there are many convenient ways of shopping to meet people's needs. In this concept, which we call e-commerce, buyers and sellers communicate with each other via the Internet and carry out the shopping process more easily. This makes e-commerce an integral part of every person's life. Social networks such as Twitter, Facebook, LinkedIn, Instagram and YouTube play a leading role in increasing traffic, attracting new customers and introducing e-commerce tools. The main purpose of this study is to analyze the role of social networks in the e-commerce market.

**Keywords:** e-commerce, social media, social media marketing, advertising and branding in e-commerce.

# QEYRİ-NEFT SEKTORUNUN AQRAR SAHƏ TİMSALINDA İNKİŞAFI

**S.V.Tahirov**
**Azərbaycan Texnologiya Universiteti**
akademiya.kurslari@inbox.ru

Rəqabətqabiliyyətinin artırılması və rəqabətqabiliyyətliyinin yüksəldilməsi istiqamətində qeyri-neft sektorunun inkişafının təmin edilməsi dövlətin iqtisadi prioritetlərindəndir. Bu məqsədlə ölkədə aparılan uğurlu iqtisadi siyasət nəticəsində qeyri-neft sektorunun da ümumidaxili məhsulda xüsusi çəkisi nəzərə çarpacaq dərəcədə artmaqdadır. Azərbaycanın neft sektorunun qeyri-neft sektoruna yönləndirilməsində böyük uğurlara nail olmasını ötən illərin statistikalarında da aydın şəkildə görə bilirik. 2021-ci ildə qeyri-neft ixracı 2020-ci il ilə müqayisədə 870 milyon dollar artmış və bu 2,7 milyard dollar təşkil etmişdir. Qeyd edək ki, Azərbaycanın qeyri-neft məhsullarının ən iri idxalatçıları Rusiya, Türkiyə, Gürcüstan, İsveçrə və.s digər ölkələr olmuşdur. Aydın məsələdir ki, qeyri-neft sektorunun inkişafı iqtisadiyyatın şaxələndirilməsini tələb edir. Ölkədə qeyri-neft ixracının inkişafı üçün əlverişli mühitin yaradılması və həmçinin özəl sektorun iqtisadi fəallığının stimullaşdırılması dövlət qarşısında dayanan vacib məsələlərdəndir.Uzun illər Azərbaycan iqtisadiyyatına qoyulan vəsait, şaxələndirməsiyasəti qeyri-
neft sektorunun inkişafına imkan vermişdir. Bu sektorunun inkişafı da öz növbəsində milli iqtisadiyyatı mızın dayanıqlı surətdə inkişafına zəmin yaradır.

Keçid dövrünü yaşamış hər bir ölkə kimi Azərbaycan da güclü iqtisadiyyat qurmaq üçün öz təbii resurslarından faydalanıb, ancaq bu resurslardan əldə etdiyi gəlirlər hesabına iqtisadiyyatını uğurla şaxələndirə və onun neftdən asılılığını minimuma endirə bilib. Bu strategiya nəticəsində ölkədə tikinti, turizm, aqrar təsərrüfat, nəqliyyat, informasiya və kommunikasiya texnologiyaları sektorlarında davamlı artım tendensiyası hökm sürməkdədir. Tendensiyanın göstəricilərindən biri kimi, son 8 ildə ölkədə 1 milyondan yuxarı iş yeri yaradılıb və bunun böyük hissəsi məhz qeyri-neft sektorunda baş vermişdir.

Ölkənin sosial-iqtisadi həyatında qeyri-neft sektorunun prioritet sahələrindən olan kənd təsərrüfatı xüsusi əhəmiyyət kəsb edir. Bu sahədə kənd təsərrüfatının ənənəvi sahələrindən olan pambıqçılığın, üzümçülüyün, tütünçülüyün, baramaçılığın sürətli inkişafı, kənd təsərrüfatı məhsullarına tələbatın ödənilməsi, emal müəssisələrinin xammal təminatının yaxşılaşdırılması və emal sənayesinin genişlənməsi istiqamətində dövlət dəstəyinin gücləndirilməsi ilə əlaqədar bir sıra hüquqi aktlar, o cümlədən dövlət proqramları qəbul edilmişdir. Elmi-texniki tərəqqi və qabaqcıl texnologiyaların tətbiqi ilə birlikdə təşkilati və iqtisadi tədbirlərin tətbiqi ölkəmizdə kənd təsərrüfatının daha da inkişaf etməsinə zəmin yaradır. Beynəlxalq maliyyə institutları da kənd təsərrüfatının əhəmiyyətini xüsusi qeyd edirlər. Belə ki, ölkənin məşğul əhalisinin 44 faizə yaxını məhz kənd təsərrüfatında çalışır. Bu səbəbdən ölkədə kənd təsərrüfatının inkişafına yönələn ardıcıl dövlət proqramları, islahatlar və yeni texnologiyaların cəlb edilməsi həyata keçirilməkdədir. Kənd təsərrüfatı infrastrukturunun inkişaf etməsi də kənd əhalisinin sosial təminatının daha çox yüksəlməsinə gətirib çıxarmış və aqrar sektorun qeyri-neft sahəsinin inkişafına öz müsbət təsirini göstərmişdir. Buna görə də kənd təsərrüfatı məhsullarının istehsalı və emalı iqtisadiyyatın əsas sektorlarından biri kimi qəbul edilir. Azərbaycan dünya iqtisadiyyatına inteqrasiya şəraitində milli iqtisadiyyatın bütün sahələrində, o cümlədən kənd təsərrüfatında innovativ proseslərin intensivləşməsini təmin etməlidir. Görülən məqsədyönlü tədbirlər nəticəsində Azərbaycanda bu sektorun inkişafı üçün əlverişli şərait yaradılıb. Ölkəmizdə qeyri-neft sektorununvəxüsusiləkəndtəsərrüfatınıninkişafetdirilməsiməqsədiləKəndTəsərrüfatıKreditləriüzrəDövlət Agentliyi,AzərbaycanİnvestisiyaŞirkəti,SahibkarlığaKöməkMilliFondukimiqurumlaryaradılmışdır.Kənd təsərrüfatıməhsullarınınemalısənayesindəiqtisadiartımınolması yeni iş yerlərinin açılması üçün əlverişli şəraitlərdən biri idi.Ölkənin ixrac potensialının yüksəldilməsi bu sahədə fəaliyyət göstərən kostların innovativ qabiliyyətini artırmaqla yüksək məhsuldarlığın əldə olunması istiqamətində mühüm addımlar atılır. Azərbaycan Prezidenti İlham Əliyev ayrı-ayrı çıxışlarında qeyri-neft sektorunun inkişafı

məsələsinə xüsusi aydınlıq gətirmişdir. Təbii ki, bu sahədə qarşıya qoyulan hədəflərin icrasının nəticəsi öz bəhrəsini verir. Qeyri-neft sektorunun inkişafı strategiyasının əsas məqsədi ölkənin neft asılılığını minimuma endirmək və kənd təsərrüfatında artımı sürətləndirmək, ərzaq təhlükəsizliyi səviyyəsini daha da gücləndirməkdir. Statistikalara nəzər yetirsək görərik ki, 2019-cu ilin 9 ayı ərzində Azərbaycan 501,5 milyon dəyərində kənd təsərrüfatı məhsulları ixrac edib. Həmçinin ötən ilin yekunlarına əsasən, qeyri-neft ixracında meyvə-tərəvəz məhsullarının payı 630,4 milyon dollar təşkil etmişdir. Aqrar sektorun prioritet elan edilməsini müsbət dəyərləndirən mütəxəssislər hesab edirlər ki, dayanıqlı inkişafa nail olmaq üçün kənd təsərrüfatına diqqət yetirilməsi, kənd təsərrüfatının idarə olunmasında ciddi dəyişikliklərin aparılması və onun həyata keçirilməsi mexanizmlərinin hazırlanmasının yaxın illərdə daha da sürətli artıma təkan verəcəyi göz önündədir.

Müasir dövrdə aqrar təsərrüfatının innovativ inkişafının qarşılıqlı və bir-birindən asılı istiqamətə malik üç yolu vardır ki, bunlar aşağıdakılardır:

**1.İnsan kapitalına investisiya** – aqrar təhsilin, fundamental və tətbiqi tədqiqat təşkilatlarının prioritet inkişafı, innovasiyalara dair məlumat bankının yaradılması, həmçinin kənd təsərrüfatı istehsalçılarına xidmət göstərən məlumat və məsləhət sisteminin yaradılması;
**2.Bioloji resurslara investisiya** – innovativ metodların tətbiqi ilə torpağın münbitliyinin və kənd təsərrüfatı istehsalının məhsuldarlığının artırılması;
**3.Yeni texnologiyaya investisiya** – enerji və ehtiyata qənaət edən avadanlıq və yüksək texnologiyalardan istifadə etməklə kənd təsərrüfatının texniki və texnoloji potensialının yaxşılaşdırılmasını təmin edən, əmək məhsuldarlığını və kənd təsərrüfatı fəaliyyətinin səmərəliliyini kəskin artıra bilən texnologiyaların inkişafına qoyulan investisiyalar.Aqrar sahədə tətbiq edilən hər bir innovasiya məhsuldarlığı, gəlirləri artırır və nəticə etibarı ilə bu sahənin daha sürətli inkişafını təmin edir.

Ümumilikdə, qeyri-neft sənayesi və kənd təsərrüfatı sahələrinin inkişafı iləbirlikdəinfrastruktursahələrinikişafınındamühüməhəmiyyətivardır.Nəzərəalınmalıdır ki, istehsala xidmət sahəlridə inkişaf səviyyəsi nə qədər yüksək olsa,istehsalsahələrinin rəqabətqabiliyyətliliyidəuyğunolaraqyüksələcəkdir.

**РАЗВИТИЕ НЕНЕФТЯНОГО СЕКТОРА НА ПРИМЕРЕ АГРАРНОГО СЕКТОРА.**

**С.В.Таиров**
**Азербайджанский Технологический Университет**
akademiya.kurslari@inbox.ru

Сельское хозяйство, одно из приоритетных направлений ненефтяного сектора, имеет особое значение в социально-экономической жизни страны. Наряду с научно-техническим прогрессом и применением передовых технологий применение организационно-экономических мер создает основу для дальнейшего развития сельского хозяйства нашей страны. Каждая инновация, применяемая в аграрном секторе, повышает производительность, доход и, как следствие, обеспечивает более быстрое развитие этого сектора. В целом, наряду с развитием ненефтяной промышленности и сельского хозяйства, важно и развитие инфраструктуры.

**DEVELOPMENT OF THE NON-OIL SECTOR ON THE EXAMPLE OF THE AGRICULTURAL SECTOR**

**S.V.Tahirov**
**Azerbaijan Technological University**
akademiya.kurslari@inbox.ru

Agriculture, one of the priority areas of the non-oil sector, is of special importance in the socio-economic life of the country. Along with scientific and technical progress and the application of advanced technologies, the application of organizational and economic measures creates the basis for further development of agriculture in our country. Every innovation applied in the agricultural sector increases productivity, income and, as a result, provides faster development of this sector. In general, along with the development of the non-oil industry and agriculture, the development of infrastructure is also important.

# BAZAR İQTİSADİYYATI ŞƏRAİTİNDƏ AQRAR SEKTOR

**X.A.Osmanova**
**Azərbaycan Texnologiya Universiteti**
husein.osmanli2010@mail.ru

Müasirdövrdəölkəiqtisadiyyatının formalaşması aqrar sahənin inkişafı iləsıxbağlıdır. Əhalininnormal yaşamınıtəminetmək üçün kənd təsərrüfatının inkişaf etdirilməsivə ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsiölkəninbaşlıcastratejiməqsədlərindəndir. Bu səbəbdən aqrar sektorun inkişafına göstərilən dövlət qayğısı çoxşaxəlidir. Yüksək məhsuldarlığın təmin edilməsi, yerli məhsulların rəqabət qabiliyyətinin artırılması, kənd təsərrüfatının gəlirli sahələrinin inkişaf etdirilməsi aqrar sahədə dövlət siyasətinin mühüm istiqamətlərini təşkil edir. Aqrarsahəninininkişafetdirilməsi,neftsektorundanasılılığınaradanqaldırılması,işsizliyinazaldılası, ölkəninərzaqtəhlükəsizliyinintəminedilməsikimiproblemlərinhəllinə yönəlib. Aqrar sektor qeyri-neft iqtisadiyyatının əsas bölməsi olmaqla yanaşı, ölkənin milli iqtisadi təhlükəsizlik platformasının sütunlarını özündə birləşdirir, maliyyə, fiskal, vergi, bank və digər sahələr üzrə tətbiq olunmuş səmərəli mexanizmlərin daha da təkmilləşdirilməsi məsələləri başlıca prioritetlər hesab olunur.

Respublikamızın bazar iqtisadiyyatı şəraitində sosial-iqtisadi inkişafın sürətləndirilməsi üçün tədbirlər sistemində aqrar sahənin idarə edilməsinin yeni iqtisadi münasibətlərə uyğunlaşdırılması və təkmilləşdirilməsi mühüm məsələlərdəndir. Çünki burada böyük maliyyə, maddi, əmək və elmi potensial cəmlənmişdir, onlardan səmərəli istifadə insanların rifah halının yaxşılaşdırılmasının mühüm şərti hesab olunur. Aqrar sahənin idarə edilməsi əsas iqtisadi qanunla müəyyənləşir. Idarə edilməsi dedikdə toplumun maddi tələbatının ödənilməsi məqsədilə istehsal və qeyri-istehsal sahələrində məhsul istehlak etmək və xidmətlər göstərmək üçün onların müəyyən üsul və metodlarla fəaliyyətinin istiqamətləndirilməsi və əlaqələndirilməsi hesab edilir.

Aqrar sahədə sahibkarlıqla məşğul olan fiziki və hüquqi şəxslərin əksəriyyətinin maddi-texniki bazasının zəif olması,maliyyəçatışmazlığı,daxilibazarınyetərincəqorunmaması,emalqurumlarının tam gücü ilə fəaliyyət göstərməməsi,aqrar sahənin ayrı-ayrı bölmələri arasında dəyərzəncirininyaradılmamasıvədigəramillərbusahədə mövcud olan problem və çatışmazlıqlarınhəllinixeyliçətinləşdirir. Bununla əlaqədar olaraq, aqrar sahəyə investisiyaların cəlb olunması,xüsusilə beynəlxalqvə milli layihələrin tətbiqimövcudproblemlərinhəllinətəkanverməkləonun inkişafının sürətləndirilməsində mühüm rolamalikdir.

Bu sektorun inkişafında, xüsusilə maliyyə problemlərinin aradan qaldırılmasında hər-bir ölkənin vergi siyasəti mühüm əhəmiyyət kəsb edir. Digər tərəfdən inkişaf etmiş ölkələrin təcrübəsi sübut edir ki, milli iqtisadiyyatın dinamik inkişafına real imkanlar yaradan əsas şərtlərdən biri 5 ölkədə təkmil vergi sisteminin yaradılması və onun çevik fəaliyyət göstərməsidir. Təkmil vergi siyasəti həm iqtisadiyyatın inkişafını sürətləndirir, həm də milli istehsal sahələrinin yüksək artımına şərait yaradır. Bu siyasi xətt bir çox iqtisadi bölmələri əhatə edir ki, bu bölmələrdən də birini aqrar sahə təşkil edir və burada optimal vergi siyasətinin həyata keçirilməsi öz səmərəsini verməkdədir. Dövlət aqrar sektorda vergi tənzimlənməsini keyfiyyətcə yaxşılaşdırmaqla həm insanların iş təminatı yaxşılaşır, həm onların fəaliyyəti hesabına aqrar məhsulların istehsalı artır, həm də sahibkarlıq inkişaf etdirilir. Ona görə də, dövlət kənd təsərrüfatı sahəsində vergi güzəştlərinin səmərəliliyini yüksəltməklə sadalanan məsələlərin

həllinə qismən də olsa kömək etmiş olur. Aqrar sahənin inkişafında vergi siyasəti mühüm rol oynadığından inkişaf proqramlarının hazırlanması və həyata keçirilməsi bilavasitə vergi-fiskal rejimlərin müşayiəti ilə tənzimlənir. Ötən illər ərzində tətbiq olunmuş səmərəli vergi rejimi kənd təsərrüfatının inkişafında stimullaşdırıcı rol oynayıb. Aqraq sektorda tətbiq edilən güzəşt mexanizmi sahibkarların xərc problemlərinin azalmasına gətirib çıxarmışdır.

Digər tərəfdən son illərdə kənd təsərrüfatında əldə olunan naliyyətlərlə yanaşı bir məsələni xüsusi olaraq vurğulamaq lazımdır ki, qloballaşan iqtisasi şəraitdə aqrar sahənin inkişafı istiqamətində mövcud maliyyə resurslarından səmərəli istifadənin təmin edilməsi və yeni maliyyələşmə mənbələrinin aşkar edilməsi əsas problem kimi qəbul olunur. Bu baxımdan problemin həlli istiqamətində "aqrar sektorun maliyyə təminatinin yüksəldilməsində vergi güzəştlərinin rolu" mövzusu olduqca aktual əhəmiyyət daşıyır. Tətbiq olunan vergi güzəştlərinin kənd təsərrüfatı kimi mühüm sahənin inkişafına təsiri və kənd yerlərində əhalinin işgüzarlıq fəaliyyətinin artırılmasına maliyyə dəstəyinin verilməsi istiqamətində dövlətin rolu elmi araşdırmalar tələb edir. Bu sahədə maliyyələşmənin səmərəliliyin yüksəldilməsi istiqamətləri, vergi güzəştlərinin aqrar sektorun inkişafına təsiri, əhalinin təmiz və keyfiyyətli kənd təsərrüfatı məhsulları ilə təminat səviyyəsinin yaxşılaşdırılması, vergi tənzimlənməsinin dövlətin digər tənzimləmə tədbirləri ilə qarşılıqlı təsiri bu tədqiqatın predmeti kimi qəbul olunur.

## СЕЛЬСКОХОЗЯЙСТВЕННЫЙ СЕКТОР В УСЛОВИЯХ РЫНОЧНОЙ ЭКОНОМИКИ

**Х.А.Османова**
**Азербайджанский Технологический Университет**
**husein.osmanli2010@mail.ru**

Становление экономики страны в современное время тесно связано с развитием аграрного сектора. Одной из главных стратегических целей страны является развитие сельского хозяйства и обеспечение продовольственной безопасности для обеспечения нормальной жизнедеятельности населения. В качестве предмета рассмотрения рассматриваются направления повышения эффективности финансирования в этой сфере, влияние налоговых льгот на развитие аграрного сектора, улучшение снабжения чистой и качественной сельскохозяйственной продукцией, взаимодействие налогового регулирования с другими государственными нормативными актами эта учеба.

## AGRICULTURAL SECTOR IN A MARKET ECONOMY

**X.A.Osmanova**
**Azerbaijan Technological University**
**husein.osmanli2010@mail.ru**

The formation of the country's economy in modern times is closely linked with the development of the agricultural sector. One of the main strategic goals of the country is to develop agriculture and ensure food security to ensure the normal life of the population. The directions of increasing the efficiency of financing in this area, the impact of tax incentives on the development of the agricultural sector, improving the supply of clean and quality agricultural products, the interaction of tax regulation with other government regulations are considered as the subject of this study.

# İXRAC OLUNAN ƏRZAQ MALLARININ TƏKMİLLƏŞDİRİLMƏSİ MEXANİZMİ

**N.R.Qurbanova**
**Azərbaycan Texnologiya Universiteti**
nurana.qurbanova.00.00@mail.ru

Aqrar sahənin inkişafının davamlılığının təmin edilməsi, o cümlədən kənd təsərrüfatı məhsullarının ixrac potensialının gücləndirilməsi Prezident İlham Əliyev tərəfindən qarşıya qoyulmuş əsas prioritet istiqamətlərdəndir. Bu məqsədlə dövlət tərəfindən birbaşa və dolayı dəstək mexanizmləri həyata keçirilir.

Aydın məsələdir ki, istənilən bir ölkə yalnız öz çərçivəsində iqtisadiyyatını inkişaf etdirə bilməz. İndiki şəraitdə ölkəmizin xarici iqtisadi əlaqələrinin formalaşması və inkişaf etməsi onun strateji istiqamətlərdə həyata keçirilməsi çox vacibdir. Xarici ölkələrdə olduğu kimi, bizdə də bazar münasibətlərinin formalaşmasında ictimai əmək bölgüsünün inkişafı ilə bağlıdır. Aqrar sahənin inkişafının davamlılığının təmin edilməsi, o cümlədən kənd təsərrüfatı məhsullarının ixrac potensialının gücləndirilməsi Prezident İlham Əliyev tərəfindən qarşıya qoyulmuş əsas prioritet istiqamətlərdəndir. Bu məqsədlə dövlət tərəfindən birbaşa və dolayı dəstək mexanizmləri həyata keçirilir. İctimai əmək bölgüsünün mühüm forması olaraq beynəlxalq əmək bölgüsünün həyata keçirilməsi beynəlxalq aləmdə əmək ilə bağlı fəaliyyətinin ixtisaslaşdırılmasının və kooperasiyalaşdırılmasının göstəricisidir.

Dünya bazarında əmtəələr müxtəlif ölkələrdə milli əməkləri məcmə əməyin hissəsi kimi başa düşülür və nəticə olaraq milli əmək orta dünya əməyinə nisbətdə çıxış edir. Bazarlara satış məqsədi ilə çıxarılan əmtəələrə çəkilən xərclər orta dünya bazar xərclərindən aşağı olarsa o, iqtisadi səmərə vermiş olur. Əmtəənin dəyəri və kefiyyətinin standartlarla uyğun olması həmçinin onun dünya bazarında qiymətini müəyyən edir. Aqrar sahədə istehsal olunmuş məhsulların hamısı beynəlxalq mübadilə obyekti ola bilmir. Bu onunla əlaqədardır ki, bazarda rəqabətə dözümlü, aşağı xərcli və istehlak keyfiyyətinə malik məhsullar beynəlxalq mübadilə obyektinə çevrilə bilir. Ümumilikdə nəzər yetirsək görə bilərik ki, ixrac olunacaq məhsulları istehsal edən zaman qabaqcıl texnologiyalardan istifadə etmək lazımdır.

2018-ci ildə “Beynəlxalq Yaşıl Həftə”, “Prodexpo”, “Gulfood”, “Sial China”, “Worldfood Moscow”, “Sial Paris” Beynəlxalq ərzaq, "Fruit Logistica" meyvə-tərəvəz, “Prowine China” Beynəlxalq şərab, “Kazbuild Almaty” tikinti, habelə “6-cı Çin Avrasiya” və Çin Beynəlxalq idxal məhsulları sərgilərində Azərbaycan şirkətlərinin məhsullarının təşviqi məqsədilə onların vahid ölkə stendi altında iştirakı təmin edilib. Bu sərgilərdə “Made in Azerbaijan” brendinin geniş marketinq kampaniyası aparılıb. Bundan əlavə, yeni bazarlara çıxış imkanlarını aşkarlamaq, mövcud bazarlarda yerli məhsulların mövqeyini möhkəmləndirmək və bu bazarlara yeni məhsullar təqdim etmək, “Made in Azerbaijan” brendinin təşviqi məqsədilə İqtisadiyyat Nazirliyi tərəfindən 10 ölkəyə 11 ixrac missiyası təşkil olunub.

2021-ci ilin statistikasına nəzər yetirsək aqrar sahədə olan ixracı görə bilərik:

**İxracda əsas mallar**

(min ABŞ dolları)

| Malın adı | 2021-ci ilin ilk 10 ayı | | 2021-ci ilin ilk 10 ayının ixracına nisbətən, %-lə | 2021-ci ilin ilk 10 ayının qeyri-neft sektoru üzrə ixracına nisbətən, %-lə |
|---|---|---|---|---|
| | Miqdar | Statistik dəyər | | |
| **Neft-qaz sektoruna daxil olmayan mallar üzrə** | **-** | **2 053 630.73** | **12.19** | **100.00** |
| Meyvə-tərəvəz, ton | 480 117.39 | 464 076.56 | 2.75 | 22.60 |
| ondan: | | | | |
| Kartof, ton | 91 834.66 | 39 855.52 | 0.24 | 1.94 |
| Tomat, ton | 120 342.35 | 129 651.75 | 0.77 | 6.31 |
| Meşə fındığı, ton | 13 423.96 | 77 335.25 | 0.46 | 3.77 |
| Alma, ton | 51 392.57 | 27 599.70 | 0.16 | 1.34 |
| Xurma, ton | 75 133.08 | 54 168.07 | 0.32 | 2.64 |

Ölkənin uzunmüddətli, dayanıqlı iqtisadi inkişafının təmin olunması baxımından xarici bazarlara, o cümlədən Avropa bazarlarına çıxış imkanlarının genişləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Ümumiyyətlə, dünya üzrə xarici ticarət fəaliyyəti əsasən ayrı-ayrı ölkələrin üzv olduqları təşkilatların bu sahədəki tənzimləmə qaydalarına uyğun olaraq həyata keçirilir.

Ölkədə istehsal olunan məhsulların daxildə və xarici bazarda tanınması üçün bir neçə tələblər qarşıya qoyula bilər ki, bunlar aşağıdakılardır:

- Daxili ehtiyatlar hesabına kənd təsərrüfatı məhsulları istehsalı və onun emalı artırılmalıdır;
- Məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsi məqsədilə istehsalın texniki və texnoloji səviyyəsinin dünya standartları səviyyəsinə tədricən qaldırılması ön plana çəkilməlidir;
- Aqrar sektorda emal olunmamış halda ixrac olunan məhsullarının müvafiq xarici bazarlarda qiymət rəqabətinə davamlılığını təmin edən əsas amil həmin məhsulların ucuz işçi qüvvəsi ilə istehsalıdır;
- İşçi qüvvəsinin ucuzluğuna əsaslanmaqla ixrac olunan kənd təsərrüfatı məhsullarının xarici bazarlarda rəqabət qabiliyyətinin təmin edilməsi üçün məhsuldarlığın da yüksəldilməsi vacibdir;
- Əsaslı islahatlardan sonrakı dövrdə demək olar ki, bütün ixrac yönümlü bitkiçilik sahələrində nisbətən yüksək məhsuldarlıqlı toxum sortlarından istifadə sahəsində real irəliləyişlərə nail olmaq olar.

Göründüyü kimi, kənd təsərrüfatı məhsullarının ixracının artırılması istiqamətində atılan addımlar artıq öz bəhrələrini verir və konkret nəticələrə gətirib çıxarır. Əminliklə söyləmək olar ki, aqrar sahədə ölkənin ixrac potensialının gücləndirilməsi istiqamətində həyata keçirilən fəal siyasət bundan sonra da uğurla davam etdiriləcək.

## МЕХАНИЗМЫ УЛУЧШЕНИЯ ЭКСПОРТА ТОВАРОВ

**Н.Р.Курбанова**
**Азербайджанский Технологический Университет**
nurana.qurbanova.00.00@mail.ru

Обеспечение устойчивого развития аграрного сектора, а также укрепление экспортного потенциала сельскохозяйственной продукции является одним из основных приоритетов, поставленных Президентом Ильхамом Алиевым. Для этого реализуются механизмы прямой и косвенной поддержки со стороны государства.

Товары на мировом рынке В разных странах национальный труд понимается как часть совокупного труда, и в результате национальный труд соотносится со средним мировым трудом. Если стоимость товаров, продаваемых на рынке, ниже средней мировой рыночной стоимости, то это экономически выгодно. Очевидно, что предпринятые шаги по увеличению экспорта сельскохозяйственной продукции уже приносят свои плоды и приводят к конкретным результатам. Можно с уверенностью сказать, что проводимая активная политика по укреплению экспортного потенциала страны в агропромышленном комплексе будет успешно продолжена.

## MECHANISMS OF IMPROVING EXPORTED GOODS

**N.R.Qurbanova**
**Azerbaijan Technological University**
nurana.qurbanova.00.00@mail.ru

Ensuring the sustainable development of the agricultural sector, as well as strengthening the export potential of agricultural products is one of the main priorities set by President Ilham Aliyev. For this purpose, direct and indirect support mechanisms are implemented by the state.

Commodities in the world market In different countries, national labor is understood as part of aggregate labor, and as a result, national labor is relative to the average world labor. If the cost of goods sold to the market is lower than the average world market cost, it is economically viable. It is obvious that the steps taken to increase the export of agricultural products are already bearing fruit and leading to concrete results. It is safe to say that the active policy pursued to strengthen the country's export potential in the agricultural sector will continue successfully.

# VIIBÖLMƏ
# DAVAMLI İNKİŞAF VƏ TƏHSİL TEXNOLOGİYALARI
## ALİ MƏKTƏB KAFEDRASININ ELMİ-TƏDQİQAT ALT SİSTEMİNDƏ SWOT – ANALİZİ

**T.H.Mirrzəyev**
**Azərbaycan Texnologiya Universiteti**
**t.mirzeyev@uteca.edu.az**

**Ali təhsi müəsisələrində menecment sistemi** – bu ali təhsilin təşkilati strukturunun, idarəetmə metodikasının və proseslərinin həmçinin kadr, tədris metodiki, laborator və s. resurs imkanlarının səfərbər edilməsi ilə təhsil alanların, təhsil verənlərin və cəmiyyətin razı salınmasına yönəlmişdir. Beynəlxalq standarta (İSO 9001:2000) əsasən Ali təhsilin menecment sistemi - ***tədris-metodiki,elmi-tədqiqat, kadr və sosial, infarmasiya-texnoloji və idarəetmə-finans*** olmaqla alt sistemlərinin məcmusundan ibarətdir ki, bu da Ali təhsilin keyfiyyət menecmentini məyyən edir [1, 2].

**SWOT**–analizi ilk dəfə 1960- ci ildə M.Porter müəssisənin vəziyyətinin qiymətləndirilməsi üçün təklif edilmişdir.swot-analizinin açılişi [1, 3]:

S (strength) – güclü tərəfi;
W (weakness) – zəif tərəfi;
O (opportunitu) – əlverişli imkanlar;
T (threat) – təhlükə.

**Ali məktəb kafedralarında illik hesabat əsasında hazırlanmışElmi-tədqiqat işinin yerinə yetirilməsinin fərdi komponentlərin qiymət indeksləri:**

1. Elmi-tədqiqat işinin, Elmi tədqiqatda iştirak edənlər başına strukturunun mənimsənilməsi və tərtibi ("S" 0,5 ÷ 1,0 – güclü tərəf, "W" 0,3 ÷ 0,4 – zəif tərəf, "T" 0 ÷0,2 – təhlükə);
2. Elmi-tədqiqat işinin , Elmi tədqiqatda iştirak edənlər başına metodologiyasının mənimsənilməsi və işlənməsi ("S" 0,6 ÷ 1,0 – güclü tərəf, "W" 0,4 ÷ 0,5 – zəif tərəf, "T" 0 ÷0,3 – təhlükə);
3. Elmi tədqiqatın istiqaməti ilə bağlı Elmi tədqiqatda iştirak edənlər başına ümumelmi metodların seçilməsi və istifadə fəndlərinin işlənməsi ("S" 0,6 ÷ 1,0 – güclü tərəf, "W" 0,4 ÷ 0,5 – zəif tərəf, "T" 0 ÷0,3 – təhlükə);
4. Elmi-tədqiqatınistiqaməti ilə bağlı Elmi tədqiqatda iştirak edənlər başına xüsusi metodların seçilməsi və istifadə fəndlərinin işlənməsi ("S" 0,5 ÷ 1,0 – güclü tərəf, "W" 0,3 ÷ 0,4 – zəif tərəf, "T" 0 ÷0,2 – təhlükə);
5. Elmi-tədqiqat işində Elmi tədqiqatda iştirak edənlər başına "determanizm" prinsipinin sistemli yanaşma ilə tətbiqi və tərtibi ("S" 0,5 ÷ 1,0 – güclü tərəf, "W" 0,3 ÷ 0,4 – zəif tərəf, "T" 0 ÷0,2 – təhlükə);
6. Kafedranın "Dövlət büdcəli" Elmi-tədqiqat işində iştirakı Elmi tədqiqatda iştirak edənlərin sayının, kafedranın ümumi professor-müəllim sayına nisbətində və mütəmadi iştirakla ("S" 0,6 ÷ 1,0 – – güclü tərəf, "W" 0,4 ÷ 0,5 – zəif tərəf, "T" 0 ÷0,3 – təhlükə);
7. Kafedranın Elmi potensialının hazırlıq səviyyəsi beş illik fəaliyyətdə Elmi dərəcə alanların sayının, professor müəllim heyyətinin ümumi sayına nisbətində ("S" 0,1 ÷ 1,0 – – güclü tərəf, "W" 0,05 ÷ 0,09 – zəif tərəf, "O" – 0,05 ÷ 0,2 – əlverişli imkanlar, "T" 0 – təhlükə);
8. Elmi-tədqiqatın istehsalatda tətbiqi imkanları ("S" 0,3 ÷ 1,0 – güclü tərəf, "W" 0,1 ÷ 0,2 – zəif tərəf, "T" 0 – təhlükə);;
9. Elmi-tədqiqat işlərii üzrə alınmış Elmi tədqiqatda iştirak edənlər başına patentlər ("S" 0,1 ÷ 0,3 – güclü tərəf, "W" 0 ÷ 0,2 – zəif tərəf, "T" 0 – təhlükə);

10. Elmi-tədqiqat işi üzrə dərc olunmuş məqalə Elmi tədqiqatda iştirak edənlər başına (0,5 ÷ 0,7 – güclü tərəf "S" 0,1 ÷ 0,4 – zəif tərəf, 0 – təhlükə);
11. Elmi-tədqiqat, tədris-istehsalat laboratoriyalarının və emalatxanalarının mövcudlugu həmçinin işlək vəziyyətdə olması ("S" Əla, yaxşı qənətbəxş – güclü tərəf, "W" Qeyri-qənatbəxş – zəif tərəf, "T" Yoxdur – təhlükə);
12. Kafedrada "Təsərrüfat hesablı" Elmi-tədqiqat işinin aparılması illik fəaliyyətdə Elmi tədqiqatda iştirak edənlər başına düşən məbləğin, iştirakçı tədqiqatçıların illik əmək haqqı fondunun orta hesabi qiymətinə nisbəti kimi ("S" 0,4 ÷ 1,0 – güclü tərəf, "W" 0,1 ÷ 0,3 – zəif tərəf, "T" 0 – təhlükə);
13. Qrantlar əsasında yerinə yetirilən elmi-tədqiqat işləri illik fəaliyyətdə Elmi tədqiqatda iştirak edənlər başına düşən məbləğin, iştirakçı tədqiqatçıların illik əmək haqqı fondunun orta hesabi qiymətinə nisbəti kimi ("S" 0,4 ÷ 1,0 – güclü tərəf, "W" 0,1 ÷ 0,3 – zəif tərəf, "T" 0 – təhlükə);
14. Kafedrada tələbələrin elmi-tədqiqat işlərinin təşkilində iştirak edən tələbə və ya magistrantların sayının Elmi tədqiqatda iştirak edənlər başına düşən payı ("S" 0,7 ÷ 1,0 – güclü tərəf, "W" 0,5 ÷ 0,6 – zəif tərəf, "O" – 0,4 ÷ 0,6 – əlverişli imkanlar, "T" 0 ÷0,4 – təhlükə);
15. Kafedranın istehsalatla əlaqələri kafedrada mövcud bakalavr və uyğun magistr istiqamətlərinin sayının ümumi bağlanmış müqavilələrin, əməkdaşlıq memorandumu və s. sayına olan nisbəti ("S" 0,4 ÷ 1,0 – güclü tərəf, "W" 0,1 ÷ 0,3 – zəif tərəf, "T" 0 – təhlükə).

**«YÜNGÜL SƏNAYE MÜHƏNDISLYI VƏ DIZAYN» KAFEDRASININ 01 YANVAR 2022-CI IL ÜZRƏ ELMİ-TƏDQIQAT ALT SİSTEMİNDƏ SWOT - GÖSTƏRİCİLƏRİ**

| *S(strength) – güclü tərəf* | *Qiymət indeksi* | *W (weakness) – zəif tərəfi* | *Qiymət indeksi* |
|---|---|---|---|
| Elmi-tədqiqat işinin Elmi tədqiqatda iştirak edənlər başına strukturunun mənimsənil - məsi və tərtibi | 0,7 | Elmi-tədqiqatistiqaməti ilə bağlı Elmi təqiqatda iştirak edənlər başına xüsusi metodların seçilməsi və istifadə fəndlə-rinin işlənməsi. | 0,4 |
| Elmi-tədqiqat işinin Elmi tədqiqatda iştirak edənlər başına metodologiyasının mənim - sənilməsi və işlənməsi | 0,7 | Elmi-tədqiqat işində Elmi tədqiqatda iştirak edənlər başına "determanizm" prinsipinin sistemli yanaşma ilə tətbiqi və tərtibi | 0,4 |
| Elmi tədqiqatın istiqaməti ilə bağlı Elmi tədqiqatda iştirak edənlər başına ümumelmi metodrarın seçilməsi və istifadə fəndlərinin işlənməsi | 0,6 | Kafedranın Elmi potensialının hazırlıq səviyyəsi beş illik fəaliyyətdə Elmi dərəcə alanların sayının, professor müəllim heyyətinin ümumi sayına nisbətində | 0,05 |
| Kafedranın "Dövlət büccəli" Elmi-tədqiqat işində iştirakı Elmi tədqiqatda iştirak edənlərin sayının, kafedranın ümumi professor-müəllim sayına nisbətində və mütəmadi iştirakları | 0,8 | Kafedrada tələbələrin elmi-tədqiqat işlərinin təşkilində iştirak edən tələbə və ya magistrantların sayının Elmi tədqiqatda iştirak edənlər başına düşən payı | 0,3 |
| Elmi-tədqiqatın istehsalatda tətbiqi imkanları | 0,3 | | |
| Elmi-tədqiqat işlərii üzrə alınmış Elmi tədqiqatda iştirak edənlər başına patentlər | 0,2 | | |
| Elmi-tədqiqat işi üzrə dərc olunmuş məqalə Elmi tədqiqatda iştirak edənlər başına | 0,5 | | |
| Elmi-tədqiqat, tədris-istehsalat laboratoriyalarının və emalatxanalarının mövcudlugu həmçinin işlək vəziyyətdə olması | Yaxşı | | |

| | | | |
|---|---|---|---|
| Kafedranın istehsalatla əlaqələri kafedrada mövcud bakalavr və uyğun magistr istiqamətlərinin sayının ümumi bağlanmış müqavilələrin, əməkdaşlıq memorandumu və s. sayına olan nisbəti | 0,7 | | |
| ***O (opportunitu) – əlverişli imkanlar*** | ***Qiymət indeksi*** | ***T (threat) – təhlükə*** | ***Qiymət indeksi*** |
| Kafedrada tələbələrin elmi-tədqiqat işləri -nin təşkilində iştirak edən tələbə və ya magistrantların sayının Elmi tədqiqatda iştirak edənlər başına düşən payı | 0,3 | Kafedrada "Təsərrüfat hesablı" Elmi-tədqiqat işinin aparılması illik fəaliyyət-də Elmi tədqiqatda iştirak edənlər başına düşən məbləğin, iştirakçı tədqiqatçıların illik əmək haqqı fondunun orta hesabi qiymətinə nisbəti kimi | 0,0 |
| Elmi-tədqiqatın istehsalatda tətbiqi imkanları | 0,3 | Qrantlar əsasında yerinə yetirilən Elmi-tədqiqat işləri illik fəaliyyətdə Elmi tədqiqatda iştirak edənlər başına düşən məbləğin, iştirakçı tədqiqatçıların illik əmək haqqı fondunun orta hesabi qiymətinə nisbəti kimi | 0,0 |
| Kafedranın Elmi potensialının hazırlıq səviyyəsi beş illik fəaliyyətdə Elmi dərəcə alanların sayının, professor müəllim heyyətinin ümumi sayına nisbətində | 0,05 | | |

**Ədəbiyyat siyahısı:**

1.Стандарты и руководящие принципы к системам обеспечения качества в европейском пространстве высшего образования. Москва: Высш.образования, 2017

2. Каланова Ш.М., Бишимбаев В.К. Тотальный менеджмент качества в высшем образовании: Учеб. пособие. Астана: Фолиант, 2006

3. S.K.Bishimbaeva, 2017 Тотальный менеджмент качества *в* высшем образовании*:* учебное пособие */* Ш. М. Каланова*, В. К.* Бишимбаев. – *2*-е изд., 2017

## SWOT-АНАЛИЗ В ПОДСИСТЕМЕ НАУЧНЫХ ИССЛЕДОВАНИЙ В КАФЕДРАХ ВУЗА

**Т.Г.Мирзоев**

**Азербайджанский Технологический Университет**

**t.mirzeyev@uteca.edu.az**

Впервые в системе управления ВУЗами разработаны отдельные компоненты SWOT-анализа и их ценовые показатели для научно-исследовательской подсистемы кафедр.В результате в качестве примера в табличной форме приведены SWOT-показатели научно-исследовательской подсистемы кафедры «Инженерия легкой промышленности и дизайн» по состоянию на 1 января 2022 года.

## SWOT-ANALYSIS IN THE SUBSYSTEM OF SCIENTIFIC RESEARCH IN UNIVERSITY DEPARTMENTS

**T.H.Mirzayev**

**Azerbaijan Technological University**

**t.mirzeyev@uteca.edu.az**

For the first time at the university management system, individual components of the SWOT analysis and their price indicators for the research subsystem of the departments have been developed.As a result, as an example, in tabular form, the SWOT indicators of the research subsystem of the department "Engineer of light industry and design" as of January 1, 2022 are given.

# AZƏRBAYCAN RESPUBLİKASINDA TURİZM SƏNAYESİNİN İNKİŞAFINA COVİD-19 TƏSİRLƏRİ

**Dos. i,f,d. Fazil KərimovCəmil oğlu, A.S.Əhmədova, S.S.Rzayev, Ş.T.Qasımov**

**Azərbaycan Texnologiya Universiteti**
**a.ehmedova2000@gmail.com**

Hər bir dövlətin əsas məqsədi öz vətəndaşlarının həyat təhlükəsizliyinin təmin edilməsi və həyat şəraitinin yaxşılaşdırılmasının təmin edilməsidir. Bildiymiz kimi, 2020-ci ilin fevral ayının 28-də ölkəmizdə ilk dəfə Covid-19 pandemiyasına yoluxma halı qeydə alınmışdır. Ölkəmizdə pandemiya ilə mübarizə aparılması yönündə bir çox qabaqlayıcı tədbirlərin görülməsinə rəğmən yoluxma sayının artımı ölkədə sərt karantin rejiminə keçidi labüd edirdi.

Sərt karantin rejimi zamamanı bir çox sahələr öz fəaliyyətini dayandırması nəticəsində bu sahələrdə fəaliyyət göstərən müəssisələrin gəlir və xərclərində əsaslı dəyişikliyə səbəb olmuşdur.

COVİD-19 Qlobal pandemiyası bir çox sektorlarda olduğu kimi turizm sənayesinə də öz mənfi təsirini göstərdi. Bunlara UEFA Euro 2020 və Olimpiya oyunları 2020 beynəlxalq tədbirlərin ləğv edilməsi nəticəsində sektorda müşahidə edilən geriləmələri nümunə göstərmək olar.[1]

Pandemiya nəinki ölkəmiz də hətta bütün dünyanı əhatə edən qlobal iqtisadi kiçilməyə səbəb olmuşdur.Pandemiya dövründə dünya iqtisadiyyatında baş vermiş kiçilmə 5-10% civarında müşahidə edildiyi zaman ölkəmizdə 2020-ci ilin ilk 2 ayında təxminən 3%lik artım müşahidə edilmişdirsə, sonrakı aylar ərzində təxminən 5% lik iqtisadi kiçilmə baş vermişdir.

Əsasən turizim sektoru böyük itkilərlə üzləşmişdir. Ümumən turizm sektoru pandemiya şəraitində 55% qədər kiçilmə müşahidə edilmişdir. Bunun əsas səbəbi beynəlxalq sərnişin daşınmalara qoyulan məhdudiyyətlər. Ölkələr arasında sərhədlərin bağlanmasını göstərmək olar.

Covid-19 pandemiyasının gətirdiyi bütün neqativ halların aradan qalxması yönündə dövlətlər bütün mümkün tədbirləri görməkdədirlər. Ölkəmizdə də pandemiyaın fəsadlarının yavaş-yavaş aradan qaldırılması və iqtisadi fəallığın artırılması yönündə müvafiq addımlar atılır.

Respublikamızda turizm sənayesinin yaranması və onun inkişafı üçün dövlətin göstərdiyi xüsusi maraq diqqətəlayiqdir.

Turizm sənayesi geniş əhatəlidir,buraya: otel sənayesi, nəqliyyat sənayesi və bir çox başqa sənaye və sektorlar daxildir.

Turizm geniş anlayışdır və onun bir neçə növləri var: idman, kənd, macəra, etnik, dini, müalicə məqsədli səfərlər,işgüzar, ekskursiya və.s. Turizm fəal istirahətin ən geniş yayılmış növüdür. Turizm əsasən son 20-25 ildə insanların vərdiş etdiyi həyati tələbatı sayılır..

Son illərədək inkişaf sürətinə görə turizm sənayesi neft və neft məhsulları ticarəti və avtomobil satışından sonra 3-cü yerdə idi.

Xalqımızın qonaqpərvərlik və tolerantlıq ənənələri hər zaman ölkəmizə gələn turistlərin marağına səbəb olmuşdur.

Azərbaycanın turizm sənayesinin inkişafı üçün böyük potensialı vardır. Azərbaycan turizm sənayesinin inkişafı üçün zəngin təbii ehtiyatlara və əlverişli iqtisadi-coğrafi mövqeyə malikdir. Avropanın Qafqaz və Mərkəzi Asiya ölkələrilə birləşdirən hava və dəniz daşımaları, magistral avtomobil və nəqliyyat yolları ölkəmizin ərazisindən keçir. Bundan başqa, turizm potensialına malik dövlət qoruqları və milli parklar ölkəmizin tanıdılmasında çox böyük rol oynayır.

Azərbaycan təbiət turizminin inkişafında əlverişlidir.Belə ki, ölkənin Xəzər dənizi sahilində yerləşməsi, digər tərəfdən Böyük və Kiçik Qafqaz dağları ilə əhatə olunması ərazinin yarıdan çoxu dağlıq, qalan hissəsi isə düzənlik, ovalıq və şökəkliklərdən ibarətdir.Azərbaycanda 1250-dək çay, 250-

dək göl vardır. Qeyd etmək lazımdır ki, ölkəmizdə 13 iqlim tipindən 9-na rast gəlinir. Bunun nəticəsində ölkəmizin flora və faunasının zənginliyini müşahidə edirik.[3]

Dağlıq ərazilər qış turizmi və dağ idman növlərinin inkişafı üçün əhəmiyyətlidir.

Bundan başqa, ölkəmizin təbiətinin palçıq vulkanları turistlərin diqqətini cəlb edir.

Qeyd etdik ki, ölkəmizin yarıdan çoxu dağlıq,qalan hissəsi isə düzlər, ovalıqlardan ibarətdir. Ölkəmizin qalan hissəsi, yəni Şirvan, Mil, Muğan düzlərinin landşaftı və faunası bu ərazidə safari turizminin yaradılması üçün əlverişlidir.

Turistlərə göstərilən xidmətin səviyyəsi və çeşidi ildən ilə artır və daha da təkmilləşir.Eyni zamanda sadələşdirilmiş viza rejiminin tətbiq olunması da ölkəyə gələn turistlərin sayının ildən ilə artımı ilə nəticələnir. Buna istinadən 2018-ci ilin statistik məlumatlarına əsasən ölkəmizə gələn turistlərin sayı 2 milyon 850 min nəfər olmuşdur. 2019-cu ildə bu rəqəm 3 milyon 170 min, 2020-ci ildə isə 1 milyon 299 min 400 nəfər olmuşdur.

Bir il ərzində ölkəyə gələn turistlərin sayının iki dəfə azalmasına səbəb COVİD-19 qlobal pandemiyasıdır. Əfsuslar olsun ki, 2021-ci ildə də davam edən pandemiya turizm sənayesinin inkişafında uzun fasiləyə səbəb oldu. Bu uzun fasiləyə baxmayaraq, 2021-ci il Azərbaycanın turizm sənayesi üçün olduqca uğurla keçdi.[2]

Belə ki, ötən il vacib layihələrdən biri olan Palçıq Vulkanları Turizm Kompleksinin təməli qoyulub.

2021-ci ilin oktyabrında isə işğaldan azad edilmiş Qarabağ regionunda Fizuli Beynəlxalq Hava Limanının açılış mərasimi baş tutub.

Qeyd etmək lazımdır ki, Qarabağ Azərbaycanın təbii sərvətləri ilə zəngin, həmçinin kənd təsərrüfatı üçün ən münbit torpağı və bol suyu olan məkandır.

Şuşa isə qədim zamanlardan Azərbaycanın Mədəniyyət paytaxtı hesab edilir. Onun ən tanınmış turistik məkanı Cıdır düzüdür.

Şuşanın digər gəzməli məkanlarından biri də Yuxarı Daşaltıdır. Bu yerin özünəməxsus xüsusiyyəti isə bu füsunkar istirahət guşəsi Daşaltı çayının üstündə "Ağzıyastı kaha" yerləşən Üçmıx dağının düz altında yerləşir.[4]

Şuşanın Qarabağ müharibəsində işğalından əvvəl ərazisi qədim abidələrlə zəngin idi. Burada 17 məscid, 3 türbə, 2 mədrəsə və qala divarları mövcud idi.

Şuşanın 2020-ci il noyabrın 8-də rəşadətli ordumuz tərəfindən azad edilməsi ilə tarixi abidələrimizdən biri olan Yuxarı Gövhər ağa məscidi də erməni əsarətindən qurtuldu.

Hal-hazırda da prezidentimiz sərəncamı ilə Qarabağda aparılan bərpa işləri, yaxın gələcəkdə Azərbaycanın turizm səneyisini inkişaf etdirməsi ilə yanaşı, ərazilərini də genişləndirəcək.

### *Xülasə*

Turizm sənayesinin inkişafı üçün Azərbaycanda Dövlət Turizm Agentliyi və onun tərkibinə daxil olan təhsil müəssisələri (Azərbaycan Turizm və Menecment Universiteti, Bakı Turizm Peşə Məktəbi, Mingəçevir Turizm Kolleci) və Azərbaycan Turizm Bürosu yaradılmışdır.

Araşdırmalar göstərir ki, Azərbaycanda turizm sənayesi tədricən iqtisadi siyasətin ən qabaqcıl istiqamətindən birinə çevrilir. Təbiət bizə ölkəmizin turizm sənayesini beynəlxalq səviyyədə qaldırmaq üçün bütün imkanları bəxş edib, bundan sonrakı işlər isə insanların fəaliyyətindən və bu işə göstərdikləri münasibətdən asılıdır.

Neft qiymətlərinin yüksəlməsi, peyvəndləmənin mütamadi aparılması ölkə iqtisadiyyatının artımı üçün əsas zəmin yaradır. Beləliklə baş vermiş neqatuv hallara baxmayaraq 2021-ci il qlobal iqtisadi vəiyyətin stabilləşməsinə və inkişafına kömək edəcəkdir.

**Açar sözlər:** turizm, iqtisadiyyat, turizm sənayesi, Azərbaycan, COVİD-19.

**Ədəbiyyat siyahısı:**


1. Azərbaycanda sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı
2. Azərbaycan sənayesi, Bakı "DSK",2018, 339 səh
3. tourismboard.az[3]
4. az.wikipedia.org [4]
5.revfine.com [1]
6. dergipark.org.tr [2]


## ВЛИЯНИЕ COVID-19 НА РАЗВИТИЕ ИНДУСТРИИ ТУРИЗМА В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ


**Ф.Дж.Керимов, А.С.Ахмадова, С.С.Рзаев, Ш.Т.Гасымов**

**Азербайджанский Технологический Университет**

**a.ehmedova2000@gmail.com**



Для развития индустрии туризма в Азербайджане созданы Государственное агентство по туризму и его образовательные учреждения (Азербайджанский Университет Туризма и Менеджмента, Бакинское профессионально-техническое училище туризма, Мингячевирский колледж туризма) и Бюро туризма Азербайджана.

Исследования показывают, что индустрия туризма в Азербайджане постепенно становится одним из самых передовых направлений экономической политики. Природа дала нам все возможности для того, чтобы поднять индустрию туризма нашей на международный уровень, и дальнейшая работа зависит от активности людей и их отношения к этой работе.


**Ключевые слова**: туризм, экономика, индустрия туризма, Азербайджан, COVİD-19.

## IMPACT OF COVID-19 ON DEVELOPMENT OF TOURISM INDUSTRY IN AZERBAIJAN REPUBLIC


**F.J.Kerimov, A.S.Ahmadova, S.S.Rzaev, Sh.T.Gasimov, Sh.T.Gasymov**

**AzerbaijanTechnological University**

**a.ehmedova2000@gmail.com**



For the development of tourism industry in Azerbaijan, the State Tourism Agency and its educational institutions (Azerbaijan University of Tourism and Management, Baku Tourism Vocational school, Mingachevir Tourism Collage) and the Azerbaijan Tourism Bureau have been established.

The research shows that the tourism industry in Azerbaijan is gradually becoming one of the most advanced areas of economic policy. Nature has given us all the opportunities to raise tourism industry of our country at the international level, and further work depends on the activities of people and their attitude to this work.

# AQRAR SƏNAYE SİSTEMİNİN RƏQABƏTQABİLİYYƏTLİLİYİN YÜKSƏLDİLMƏSİNDƏ İNNOVATİV TEXNOLOGİYALARIN ROLU

**dos. N.A.Hacıyeva, C.A.Allahverdi**
**Azərbaycan Texnologiya Universiteti**
**arzu.cavid@yahoo.com**

Aqrar-sənaye sistemi kənd təsərrüfatı məhsullarının istehsalı, onların emalı və saxlanması üzrə ixtisaslaşan, o cümlədən aqrar sahəni və emal sənayesini istehsal vasitələri ilə təmin edən, sıx iqtisadi və istehsal əlaqələri olan sahələr kompleksi kimi iqtisadiyyatın ən mühüm sahələrindən biridir. Aqrar-sənaye sisteminin inkişafı problemlərinin həlli üçün yeni yüksək texnologiyalı və elm tutumlu texnologiyalardan istifadə etmək, innovativ inkişafa diqqət yetirmək lazımdır.

Aqrar-sənaye sisteminin innovativ inkişafı dedikdə, kənd təsərrüfatının, onunla qarşılıqlı əlaqədə olan sahələrin və bütövlükdə aqrar-sənaye sisteminin təşkilati-iqtisadi mexanizminin təkmilləşdirilməsi yolu ilə məhsuldar qüvvələrin artımı hesabına əldə edilən onun keyfiyyətcə transformasiyası başa düşülür. Bu, aqrar sahə məhsullarının istehsalı və emalı üçün daha qabaqcıl texnologiyaların, kənd təsərrüfatı bitkilərinin təkmilləşdirilmiş sortlarının və heyvan cinslərinin, yeni texnikaların, qabaqcıl təşkilati-təsərrüfat modellərinin, müasir informasiya texnologiyalarının və digər innovasiyaların daim genişləndirilməsi ilə təmin edilir.

Aqrar-sənaye sistemində fəaliyyət göstərən sahibkarlıq strukturlarının rəqabət qabiliyyətinin yüksəldilməsində texnoloji innovasiyanın əhəmiyyəti olduqca vacibdir. Belə ki, innovasiyaların iqtisadiyyatda geniş miqyasda tətbiq edilməsi həm mikro, həm də makro səviyyədə məhsuldarlığı, əmək prosesinin səmərəliliyini, gəliri yüksəldə bilər və bir sıra digər mühüm nəticələrəldə edilə bilər.

Aqrar-sənaye sisteminin innovativ inkişafının təmin edilməsi iki blokdan - resurs və institusional blokdan ibarətdir. Resurs blokuna maliyyə, kadr, maddi-texniki, informasiya təminatı daxildir. İnstitusional bloka təşkilati, iqtisadi, infrastruktur, hüquqi və tənzimləyici dəstək daxildir.

Aqrar-sənaye sisteminin innovativ inkişafı iki əsas komponentlə - elmi tədqiqatlar və onların nəticələrinin istehsalda işlənilməsi ilə müəyyən edilir, ona görə də o, həm elmi tədqiqatların işlənib hazırlanmasını, həm də onların nəticələrinin istehsalda istifadəsini əhatə etməlidir.

Aqrar-sənayedə innovasiya sisteminin təkmilləşdirilməsinin vəzifəsi aqrar sahənin innovasiya potensialının artırılmasıdır. O, aqrar-sənaye sisteminin innovativ yenilənməsi üçün davamlı artan imkanların daim yenilənən və bərpa olunan mənbəyi kimi aqrar-sənaye istehsalı üçün elmi-texniki inkişaflara əsaslanır.

Aqrar sahənin innovasiya fəaliyyətinin əsas istiqaməti aşağıdakılardır:

- istehsalın enerji və resursqoruyucu texnologiyası, kəndtəsərrüfatı məhsullarının saxlanılması və emalı;
- daxili bazarı ucuz və keyfiyyətli ərzaq məhsulları ilədoldurmağa qadir olan innovasiya;
- məhsuldarlığı, səmərəliliyi, texnika və avadanlığın təmirə yararlılığı, onların xidmət vaxtının uzadılması, istehsal fəaliyyətinin yüksəldilməsinə imkan verən yeniliklər;
- iqtisadiyyatda innovasiya modelinin qurulmasını nəzərə alaraq ASK üçün yüksək ixtisaslı kadrların hazırlanması;
- ekoloji şəraiti yaxşılaşdırmağa imkan verən tədbirlər [2].

Aqrar sahənin inkişafı daha çox innovativ texnologiyaların cəlb olunma səviyyəsi və istehsalın səmərəliliyi ilə müəyyən edilir. Aqrar-sənaye istehsalının innovativ inkişafı ixracın və daxili istehlakın səviyyəsinin sabit artımına, yerli istehsalla əvəzlənməsi hesabına idxalın həcminin azalmasına kömək edəcəkdir. Buradan belə nəticəyə gəlirik ki, iqtisadi vəziyyət və kənd təsərrüfatı məhsullarının rəqabətqabiliyyətliliyinin yüksəldilməsi zərurəti iqtisadiyyatın və xüsusən də aqrar-sənaye sisteminin inkişafının indiki mərhələsində istehsal və iqtisadi proseslərin, kənd təsərrüfatı müəssisələrinin innovativ inkişafına böyük ehtiyac duyur.

Statistik məlumatlara baxsaq görərik ki, Azərbaycan sənayesində texnoloji innovasiyalara 2017-ci ildə 16135,7 min manat, 2018-ci ildə 34353,6 min manat, 2019-cu ildə 48037,1min manat, 2020-ci ildə 35919,8 min manat xərc çəkmişdi. Bu xərclərin ilbəil artımı onu göstərir ki, dövlət bu sahəni də diqqətdən kənarda qoymayıb. 2020-ci ildə texnoloji innovasiyaların xərclərində azalmalar olsa da bu pandemiya ilə əlaqədar olmuşdur.

Son illərdə aqrar-sənye sektorunda qabaqcıl texnologiyaların və idarəetmə təcrübələrinin geniş şəkildə tətbiqinə üstünlük verilir. Prezident İlham Əliyevin təşəbbüsü ilə sənayeləşmiş ölkələrdə istehsal olunan texnologiya alınaraq ölkəmizə gətirilir. Bu texnologiyalardan müxtəlif sahələrdə istifadə olunur ki, bunun da nəticəsində kənd təsərrüfatının bir çox sahələrində istehsal artımına nail olunub.

Məlumdur ki, illərdir erməni tapdağında olan torpaqlarımız 2020-ci ildə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmişdir. Bu gün işğaldan azad edilmiş torpaqlarımızda İlham Əliyevin göstərişi ilə bərpa və yenidənqurma işləri aparılır. Qarabağda ən son texnologiyalar, innovativ ideyalar əsasında Zəngilanda "Ağıllı kənd" layihəsi həyata keçirilir. Bu layihələr ölkəmizin ən qabaqcıl, innovativ ideyalar üçün nə qədər əlçatan olduğunu göstərir. Qeyd etmək istərdim ki, "ağıllı kənd" texnologiyalarından istifadə bu sahələrdə sosial innovasiyaların və kiçik sahibkarlığın inkişafı üçün şərait yaradacaq, həmçinin texnologiya innovasiyası regionun cəlbediciliyini artıracaq ki, bu da gələcəkdə iqtisadiyyatımızın daha da canlanmasına səbəb olacaqdır.

**Açar sözlər:**aqrar-sənaye sistemi, innovativ texnologiya, innovasiya,kənd təsərrüfatı müəssisələri, kənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyəti.

**Ədəbiyyat siyahısı:**

1. Abbasova S.H. - Texnologiyalar və yeniliklərin idarə edilməsi 2008
2. Ataşov B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri (nəzəriyyə və praktika). Bakı, 2017, "Kooperasiya" nəşriyyatı, 536 s
3. "Kənd Təsərrüfatının İqtisadiyyatı" elmi-praktiki jurnal, 2020, № 4 (34)
4. Quliyev.E.A. Aqrar iqtisadiyyat.Ali məktəb tələbələri üçün dərslik. Bakı, 2015, "Kooperasiya"nəşriyyatı, 320 s
5. https://www.stat.gov.az/

## РОЛЬ ИННОВАЦИОННЫХ ТЕХНОЛОГИЙ В ПОВЫШЕНИИ КОНКУРЕНТОСПОСОБНОСТИ СИСТЕМЫ АПК

**доц. Н.А.Гаджиева, Дж.А.Аллахверди**
**Азербайджанский Технологический Университет**
**arzu.cavid@yahoo.com**

В статье рассматривается значение технологических инноваций в повышении конкурентоспособности агропромышленной системы, роль применения технологических инноваций в экономике, их влияние на бизнес-структуры, действующие в агропромышленной системе.

**Ключевые слова:** агропромышленная система, инновационная технология, инновации, сельскохозяйственные предприятия, конкурентоспособность сельскохозяйственной продукции.

## THE ROLE OF INNOVATIVE TECHNOLOGIES IN INCREASING THE COMPETITIVENESS OF THE AGRICULTURAL INDUSTRY SYSTEM

**dos. N.A.Hajiyeva, J.A.Allahverdi**
**Azerbaijan Technology University**
**arzu.cavid@yahoo.com**

The article discusses the importance of technological innovations in increasing the competitiveness of the agro-industrial system, the role of the application of technological innovations in the economy, its impact on business structures operating in the agro-industrial system.

**Keywords:** agro-industrial system, innovative technology, innovation, agricultural enterprises, competitiveness of agricultural products.

# QARABAĞIN BƏZI ABIDƏLƏRI

**Dos.əv. M.İ.Tağıyeva**
**R.A.Hüseynov**
**Azərbaycan Texnologiya Universiteti**
**tagiyevamehriban@mail.ru**

Dünyanın ən qədim məskənlərindən biri olan Qarabağ bölgəsi qədim tarixə malik olan bir ərazidir. Buna səbəb ilk növbədə insanların yaşaması üçün mülayim və münasib şəraitin olmasıdır. "Pənah xan və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri " əsərinin müəllifi Rzaqulu bəy Mirzə Camal oğlu yazır: "Qarabağ vilayəti hər cəhətdən yer üzünün behiştidir... Qarabağın dağlıq yerləri və yaylaqları Göycə şəhərindən tutmuş Ordubada qədər başdan-başa cənnət otlaqlardan ibarətdir" [2, 284].

Azərbaycanın dövlətçilik tarixində özünəməxsus yeri olan Qarabağ xanlığı Nadir şah Əfşarın qurduğu imperiyanın (1736-1747) dağılmasından sonra 1748-ci ildə yaranmışdır. Qarabağ xanlığının banisi Pənahəli xan (1748-1763-cü illər) Cavanşir tayfasının Sarıcalı kəndindən idi. Onun ilk addımlarından biri Bayat qalasının tikilməsi oldu. Bayat qalası hicri 1161 (1748)-ci ildə tikildi [2, 243]. "Bayat savaşı" bu qalanın gələcək tarixi sınaqlara dözə bilməyəcəyini üzə çıxardı. "Pənah xan düşündü ki, ... Mən gərək möhkəm bir yerdə məskən və mənzil salam. Düşməni dəf etməkdə kahallıq və fəsad əhli ilə mübarizədə səhlənkarlıq etməyəm. Buna görə ... Şahbulaq adı ilə məhşur olan Tərnəkütdə bir qala bina etdi... Bu işləri 1165-ci (1751-ci il) ildə bitirərək oranı özünə məskən etdi" [3, 41].

Pənah xan istər Bayat qalasını, istərsə də Şahbulaq qalasını tikdirərkən oturaq həyatın və şəhər mədəniyyətinin ən mühüm amillərinin yaradılmasına çalışmışdı. "Mirzə Camal, Mirzə Adıgözəl bəyin salnamələrində göstərilir ki, yuxarıda adı çəkilən hər iki qalada ərazinin kiçikliyinə baxmayaraq əhalinin zəruri maddi və mənəvi tələbatını ödəmək məqsədi ilə bazar, məscid və başqa binalar daşdan tikilmişdir. Bayat və Şahbulaq qalaları bir növ Şuşa şəhərinin tikilməsi üçün təcrübə məktəbi idi" [4, 169].

Susa. Belə bir qalanın salınmasında başlıca tələbləri Pənah xanın özü müəyyən etmişdi: "Biz gərək dağların içində, möhkəm və keçilməz yerdə elə bir əbədi və sarsılmaz qala tikək ki, onu güclü düşmən belə mühasirə edə bilməsin. Qalanın bir tərəfi dağlarda olan ellərin üzünə açıq olmalı və mahallarla rabitəmiz, əlaqəmiz kəsilməməlidir " [1, 522-523].

Mirzə Yusif Qarabaği "Tarixi-Şafi" əsərində Pənahəli xan dövründə Şuşanın memarlıq abidələri haqqında bəzi maraqlı məlumatlar verir. O yazır ki, Şuşa ilk dəfə tikilərkən onun dörd darvazası olmuşdur. Bu darvazalardan biri şəhərin şimal-şərq tərəfində yerləşirdi ki, Suşa kəndə tərəf idi və ona xalq arasında Müxətər darvazası adı qoymuşdular. İki darvaza isə şimal ilə qərb arasında idi. Bu darvazaların birinə İrəvan darvazası, digərinə isə Gəncə darvazası deyirdilər. Dördüncü darvaza isə cənuba tərəf açılırdı ki, bu darvazanı yenidən hörmüşdülər.

XIX əsrin əvvəllərində Şuşanın yalnız üç darvazası qalmışdır. Sonrakı dövrlərdə yalnız iki darvaza qalmışdır.

İbrahimxəlil xan dövründə Şuşa şəhərində 17 məhəllə mövcud olmuşdur. Məhəllə məscidlərindən başqa ümumşəhər əhalisinin istifadəsi üçün iki cümə məscidi tikilmişdir.

"Qarabağnamələr"də bir qayda olaraq mərhum İbrahim xandan qalmış bina və imarətlərdən bəhs edilir. Rzaqulu bəy Mirzə Camal oğlu "Pənah xan və İbrahimxəlil xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri" əsərində bu abidələrdən birincisi-böyük camaat məscidini göstərir və bildirir ki, hicri 1182 (1768-1769) -ci ildə tikilib.

İkinci-Şuşa qalasının hasar divarıdır ki, 1198 (1783-1783) -ci ildə tikilmişdi.

Üçüncü-hər iki Əsgəran qalasıdır. Bu qalaları hicri 1203-cü ildə tikdirmişdir. (1788-89-cu ilə bərabərdir).

Dördüncü-İbrahim xanın özünün imarətidir ki, Şuşa şəhərində Gəncə xanzadələrindən olan Mehdiqulu xanın anası üçün tikdirmişdi.

Beşinci-Dərə xəzinəsinin imarət və otaqlarıdır. Şuşa qalasında dağların, daşların arasında olan imarətdir ki, mağaranın işində əhəng və daşla tikilmişdir.

Altıncı-qalanın bir ağaclığında olan Xan bağı imarətidir.

Pənahəli xan, İbrahimxəlil xan və Mehdiqulu xan dövrlərində Ağdamda bir sıra xanlıq abidələri inşa olunmuşdu. M.M.Xəzani yazır ki, 3 günbəzli məqbərələr Pənah xan və onun övladlarına aid idi.

Bu tədqiq edilən abidələr, Qarabağda mövcud olan abidələrin demək olar ki, az bir hissəsidir. Yaxın zamanda işğaldan azad edilmiş ərazilərimizdə olan tarixi abidələrin yenidən tədqiqinə başlanılacaq.

**Açar sözlər:** Qarabağ, qala, imarət, abidə, Suşa qalası

## Ədəbiyyat siyahısı:

1.Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci ilə qədər. Süleyman Əliyarlın redaktorluğu ilə. Bakı: 2009, 872 s

2.Qarabağnamələr. II kitab. Bakı: Şərq-Qərb, 2006, 288 s

3.Qarabağnamələr. I kitab. Bakı: Şərq-Qərb, 2006, 216 s

4.Nazim Axundov. Qarabağ salnamələri. -Bakı: Yazıçı, 1989, 232 s

## НЕКОТОРЫЕ ПАМЯТНИКИ КАРАБАХА

**И.о. доц. М.И.Тагиева**
**Р.А.Гусейнов**
**Азербайджанский Технологический Университет**
**tagiyevamehriban@mail.ru**

В этой статье рассматривается история Карабахского региона, очаровательного уголка Азербайджана. Были исследованы некоторые исторические памятники в Карабахе, такие как замки, замки и мечети. Исследуются причины строительства крепостей Баят, Шахбулаг и Шуша в Карабахе, различия между постройками, их стратегическое положение, расселение людей в этих крепостях. В статье дается информация о мечетях и кварталах в этом районе, а также о замках, построенных для проживания хана и его семьи.

**Ключевые слова:**Карабах, замок, имарет, памятник, замок Шуша

## SOME MONUMENTS OF KARABAKH

**prof. M.I.Tagiyeva**
**R.A.Huseynov**
**Azerbaijan Technology University**
**tagiyevamehriban@mail.ru**

This article looks at the history of the charming corner of Azerbaijan, the Karabakh region. Some historical monuments in Karabakh, such as castles, buildings and mosques, have been investigated. The reasons for the construction of Bayat, Shahbulag and Shusha fortresses in Karabakh, the differences between the buildings, their strategic positions, the settlement of people in these fortresses are being investigated. The article notes about the mosques and neighborhoods in the area, and the buildings built for the khan and his family.

**Keywords:** Karabakh, castle, mansion, monument, Shusha fortress

# DİSTANT TƏHSİLDƏ ASP PLATFORMASININ PROQRAMLAŞDIRMA DİLİNİN ROLU VƏ İŞ PRİNSİPİ

**dos.Z.Ə.Qasımov, S.Q.Bayramova**
**Azərbaycan Texniki Universiteti**
semamuradova99@gmail.com, qasimov-63@mail.ru

Server tərəfində işləyən Active Server Pages(ASP), Microsoft şirkətinin öz Web serveri olan İnternet İnformation Services (IIS) üçün inkişaf etdirmiş olduğu bir Web proqramlaşdırma texnologiyasıdır. ASP, içərisində bir və ya daha çox skript olan HTML səhifələridir. Bu səhifələr istifadəçilərə göndərilərkən, Web server tərəfindən işlənərək məlumat ehtiva edən səhifələr yaradılır və daha sonrakı istifadəçiyə çatdırılır. ASP-nin server tərəfində iş görmək üçün CGI texnologiyasına bənzər texnologiyadan istifadə olunur. Məsələn, bir istifadəçi formlar köməyilə ASP səhifələrinə məlumat göndərərək müəyyən əməliyyatlar təmin edə bilər.

ASP, Microsoft IIS-in bir xüsusiyyətidir, lakin server tərəfində işləyən bir script dili olduğundan və ayrıca istifadəçilərə çıxışları HTML formatındakı səhifələr şəklində göndərdiyindən hər cür Web skanerindən səhifə çıxışlarına çatmaq mümkün olmaqdadır[1].
Ayrıca server üzərinə yazılan faylların Web serveri tərəfindən işlənə bilməsi üçün uzadılmalarının ".asp" olması zəruridir. ASP platformasının proqramlaşdırma dilinin iş prinsipi aşağıkılardır: [6]

*İstifadəçi ".asp" uzadılmalı bir faylı istər.
* Server ".asp" fayllarının içərisində script ehtiva edən sətirlər olduğunu bildiyi üçün, bu sətirləri öz içərisində olan bir ASP şərhedicisi ilə işləyir.
* Web serverinin içərisində işlənilən səhifə əgər problemsizdirsə, HTML formatında bir səhifəyə çevrilər.
* İstifadəçiyə server tərəfindən bu HTML formatında yaradılan səhifə göndərilər.




Şək.1.ASP səhifələrinin işləmə sxemi

ASP-də HTML kodlarının istifadə edilməsi
Bir HTML əhifəsindəki ASP kodları "<%" və "%>" işarələri arasına yerləşdirilir. ASP səhifələri,HTML-in kod və əmrlərinin hər kombinasiyasını əhatə edə bilər. Əgər Web serveri ASP kodlarını işləyə biləcək bir şərhediciyə sahibsə, o Web serveri üzərində ASP kodlarının olduğu səhifələr işlədilə bilər. Bundan ötrü ASP səhifələri Web skanerlərdAən müstəqildir.ASP platformasının proqramlaşdırma dili ilə verilənlər bazaları Open Database Connectivity (ODBC) drayverləri istifadə etmək lazımdır. ASP platformasının proqramlaşdırma dili ilə verilənlər bazalarına çata bilmək üçün: İstifadəçidən əvvəl verilənlər bazası ilə əlaqədar sorğu gəlir.[4]

- Web server içərisindəki ASP şərhedicisi verilənlər bazasına daxil olma (müraciət) olacağını qəbul edir.
- Verilənlər bazasına daxil olma (müraciət) üçün uyğun ODBC drayverləri istifadə edilir.
- ODBC drayverləri verilənlər bazasında lazımlı əməliyyatları edir və ASP şərhedicisinə köçürür.

- ASP şərhedicisi də bunu HTML koduna çevirərək istifadəçiyə göndərər.ASPplatformasının proqramlaşdırma dilinin mənfi cəhətləri bunlardır:
- ASP, Microsoft Web server üzərindəki bir xüsusiyyət olaraq gəlir. Digər əməliyyat sistemləri və Web serverləri üçün, Microsoft şirkətindən başqa, başqa şirkətlər tərəfindən inkişaf etdirilən ASP şərhediciləri istifadə etmək lazımdır.
- Başqa şirkətlər tərəfindən inkişaf etdirilən ASP şərhedicilər, yalnız müəyyən platformalar üçün çıxarıldığından, platformadan tam müstəqil istifadə etmək mümkün olmur.
- ASP-nin verilənlər bazalarına çatmaq üçün xüsusi daxili funksiyaları yoxdur. Buna görə digər Web texnologiyalarına görə verilənlər bazalarına daha yavaş müraciət təmin edilir.[7]

ASP Web proqramlaşdırma dilinin Access, Excel, SQL və. s ilə əlaqəsi mümkündür. Bunların içində ən keyfiyyətli, sürətli və məsləhətlisi məlum olduğu kimi SQL-dir. Lakin bu dərsimizdə ACCESS bazasına daxil olaraq, sql əmrləri ilə bazadakı verilənləri ekranda sıralayacayıq. SQL əmrlərindən istifadə etməyimizə səbəb bunu access bağlantısı ilə yox, sql ilə də etmək mümkün olmasıdır. Yəni Access-ə daxil olaraq sql kodlarından istifadə edərək səhifə hazırlaya bilər, daha sonra sadəcə access əlaqə əmrlərini sql olaraq dəyişdirdikdən sonra sql baza sistemindən istifadə edə bilərik [2,6].

## Ədəbiyyat siyahısı:


1. Beginning Active Server Pages 2.0 Paperback , 2018
2. Designing Active Server Pages, Paperback, 202X0
3. Доминик Байер "MicrosoftASP .NET. Обеспечение безопасности" Питер,2018
4. Establishment of Textbook Information Management System Based on Active Server Page, pdf, 2016
5. Establishment of Textbook Information Management System Based on Active Server Page, pdf, 2016
6. http://www.slideshare.net/ramil77/teqdimat-05042012?next_slideshow=1
7. Kompüter texnikası və proqramlaşdırma , A. Qurbanov, E. Məmmədov, Baki, 2010
8. "Microsoft Internet Information Server. Учебныйкурс". - Перев. сангл. - М: Издательскийотдел "Русская-редакция" ТОО "Channel Trading Ltd.", 2017
9. Петровски М. "InternetInformationServer 4.0" - Перев. с англ. - К.: Издательская группа "BHV", 2018


## РОЛЬ И ПРИНЦИП РАБОТЫ ЯЗЫКА ПРОГРАММИРОВАНИЯ ПЛАТФОРМЫ ASP В ДИСТАНЦИОННОМ ОБРАЗОВАНИИ

**доц. З.А.Гасымов, С.Г.Байрамова**
**Азербайджанский Технический Университет**
semamuradova99@gmail.com
qasimov-63@mail.ru

В целях развития дистанционного образования был рассмотрен вопрос создания сайта дистанционного образования с помощью ASP-страниц. Здесь используются технологии IIS 5.0, ADO 2.5, ASP.net , VisualStudio.netMySQL.Для дистанционного обучения в дистанционном образовании была проделана следующая работа:

-Загрузка программы по руководствуSQLServer; -Создание и нарушение VB;-создание и нарушение расписаний;-извлечение данных из таблицы;-обобщение данных с помощью агрегатных функций;-выбор данных из нескольких таблиц;-размещение одного вопроса внутри другого вопроса.

## THE ROLE AND PRINCIPLE OF ASP PROGRAMMING LANGUAGE IN DISTANCE EDUCATION

**Prof. Z.A.Gasymov, S.G.Bayramova**
**Azerbaijan Technical University**
semamuradova99@gmail.com
qasimov-63@mail.ru

In order to develop distance education, the issue of creating a distance education site with the help of ASP pages was considered. IIS 5.0, ADO 2.5, ASP.net, Visual Studio.net MySQL technologies are used here.The following work has been done for distance learning in distance education:

-Download the program in the SQL Server manual; -Creation and violation of VB;-creation and disruption of schedules;-taking data from the table;-generalization of data with the help of aggregate functions;-selection of data from several tables;-placing one question within another question.

# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ EKOTURİZMİN İNKİŞAFI

**L.Ş.Xəlilova**
**İ.M.Əliyeva**
**Azərbaycan Texnologiya Universiteti**
lamiyex@list.ru
i.aliyeva@uteca.edu.az

Ölkə başçısı cənab İ.Əliyevin imzaladığı fərmana əsasən 7 iyul 2021-ci il tarixindən etibarən işğaldan azad olunmuş ərazilərdə Qarabağ iqtisadi rayonu və Şərqi Zəngəzur iqtisadi rayonu yaradılıb. Qarabağ iqtisadi rayonuna Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları, Şərqi Zəngəzur iqtisadi rayonuna isə Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları aiddir. [2]

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları Azərbaycanın ən gözəl regionlarından biridir. Füsunkar mənzərəli təbiəti, zəngin mənəvi və mədəni ənənələri olan bu ərazilər bir çox görkəmli azərbaycanlı alimlərin, şairlərin, yazıçıların, sənətkarların, musiqiçilərin və xanəndələrin doğulduğu yerdir. Və həmçinin, Azərbaycanın ən qədim tarixi bölgələrindən biridir. Bu qədim torpaqların zəngin təbiəti və təbii sərvətləri həmişə diqqət mərkəzində olmuşdu. Təəssüf ki, 30 ilə yaxın işğal nəticəsində bu ərazilərdə bütün sərvətlərimiz istismar olunub, talanıb. Bütün bu dağıntılara, maddi və mənəvi ziyana rəğmən dövlətimiz bir tərəfdən də barbarlığa məruz qalan dini, tarixi, mədəni abidələrimizin bərpası ilə məşğuldur. Qarabağın mədəniyyət beşiyi hesab edilən Şuşada başlayan mədəni quruculuq işləri digər bölgələrimizdə də davam etdiriləcək.

Qarabağın turizm potensialı olduqca zəngindir, burada turizmin çox növləri - ekoturizm, dağ turizmi, qış turizmi, ov turizmi, sağlamlıq turizminin inkişafı üçün bütün imkanlar vardır. Bir çoxlarınızın bildiyi kimi, turizm sahəsinin xüsusi sektoru olan ekoloji turizm dünya turizm bazarının təqribən 10 faizini əhatə edir. Bu sektorun inkişaf sürəti isə bütövlükdə turizm sənayesinin inkişaf sürətindən 2-3 dəfə artıqdır. Ekoturizmi adi turizmdən fərqləndirən xüsusiyyətlər vardır və onun inkişaf istiqamətləri müxtəlifdir. Ekoturizmin inkişafı üçün uyğun ərazilər seçilməlidir ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bu şərait mövcuddur.

Ümumiyyətlə, ekoturizm – məqsədyönlü şəkildə təbii ərazilərə ətraf mühitin və yerli təbiətin vəziyyəti ilə daha da dərindən maraqlanmaq, bütün bunların daha da dərindən öyrənilməsi və dərk edilməsi məqsədilə edilən səyahətdir. Ekoturizmdə bir sıra istiqamətlər üzrə turlar təşkil olunur ki, bunlar elmi turlar, təbii-tarixi turlar, macəra turları və xüsusi mühafizə olunan təbiət ərazilərinə təşkil olunan turlardır.

Elmi turlar zamanı turistlər elmi ekoturların gedişində təbiətin müxtəlif növlü tədqiqində iştirak edirlər, sahə müşahidələri aparırlar; təbii-tarixi turlar zamanı yerli mədəniyyəti (memariyyə, kulinariya, geyim-məişət və s.) və ətraf təbiəti dərk etməklə əlaqədar olan səyahətlər həyata keçirilir.

Macəra turları - idman nailiyyətlərinin qazanılması və turistlərin fiziki formalarının yaxşılaşdınlması, yeni hiss və təəssüratların alınması məqsədinə malik olan təbiətdə dincəlmək və aktiv üsullarla hərəkətlə bağlı olan bütün səyahətləri birləşdirir və xüsusi mühafizə olunan təbiət ərazilərinə təşkil olunan turlara isə milli parklar, qoruqlar, yasaqlıqlar və s. daxil edilir.

Elmi turlar Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində yaradılmış Bəsitçay və Qaragöl Dövlət Təbiət Qoruqlarında həyata keçirilə bilər. Belə ki, Bəsitçay Dövlət Təbiət Qoruğu Azərbaycanın cənub-qərbində, Zəngilan rayonu ərazisində Bəsitçayın dərəsində yerləşir. Qoruq ərazisinin landşaft kompleksini, xüsusilə nadir təbii çinar meşəliyini qorumaq məqsədilə təşkil edilmişdir.Meşə ilə örtülü sahənin əsas ağac cinsi Şərq çinarıdır. Burada əsasən bir meşə tipi müxtəlif otlu çinar meşələri formalaşmışdır ki, məhz çinar növlərinin araşdırlması üçün Bəsitçay qoruğuna elmi ekoturların təşkili

mümkündür.Qaragöl Dövlət Təbiət Qoruğu da elmi ekoturların təşkili üçün əlverişlidir. Belə ki, Qoruq Qarabağ Vulkanik yaylasının cənub hissəsində böyük İşıqlı dağının (3552m) yamacında 2650-2700 m hündürlükdə yerləşir. Burada geoloji cəhətdən vulkanik dağların pliosen lava massivi, geomorfoloji baxımdan isə vulkanogen fasiyalar səciyyəvidir ki, bu da landşaftşünas və geoşünasların marağına səbəb ola bilər.[1]

**Ədəbiyyat siyahısı:**

1. eco.gov.az
2. stat.gov.az

## РАЗВИТИЕ ЭКОТУРИЗМА НА ОСВОБОЖДЕННЫХ ОТ ОККУПАЦИИ ТЕРРИТОРИЯХ

**Л.Ш.Халилова**
**И.М.Алиева**
**Азербайджанский Технологический Университет**
**lamiyex@list.ru**
**i.aliyeva@uteca.edu.az**

Экотуризм – это целенаправленное путешествие по природным территориям для более глубокого интереса к состоянию окружающей среды и местной природы, изучения и понимания всего этого, и целесообразно организовывать экотуры на наших освобожденных территориях.

## DEVELOPMENT OF ECOTOURISM IN THE TERRITORIES LIBERATED FROM OCCUPATION

**L.Sh.Khalilova**
**I.M.Alieva**
**Azerbaijan Technological University**
**lamiyex@list.ru**
**i.aliyeva@uteca.edu.az**

Ecotourism is a purposeful trip to natural areas to take a deep interest in the state of the environment and local nature, to study and understand all this is expedient to organize ecotours in our liberated territories.

# QARABAĞDA TURİZMİN İNKİŞAFININ PRİORİTET İSTİQAMƏTLƏRİ

**dos. Z.T.Əhmədov**

**A.N.Namazov**

**Azərbaycan Texnologiya Universiteti**

**azpolitoloq@gmail.com**

Hazırda turizm dünyada sürətlə inkişaf edən biznes sahələrindəndir. Dünya üzrə ümummilli məhsulun 10 faizi, ixracatın 8 faizi beynəlxalq turizmin payına düşür, göstərilən xidmətlərin təqribən üçdə biri beynəlxalq turizm vasitəsilə həyata keçirilir. Turizmin başlıca məqsədi dövlətin iqtisadi siyasətinin uğurla yerinə yetirilməsinitəmin etmək, xalq təsərrüfatının bütün sahələrində maliyyə ehtiyatlarının formalaşmasıvə onlardan səmərəli istifadə prosesini gerçəkləşdirməkdir.

Azərbayacanda son illər turizmin inkişafı istiqamətində böyük işlər görülsə də, ölkəmizin ən böyük turizm potensialına malik Qarabağ və ətraf rayonları indiyədək işğal altında olduğundan bu proseslərdən kənarda qalmışdı. Son zamanlar işğaldan azad olunan torpaqlarda aparılan məqsədyönlü quruculuq işləri Turizm sektorunun bu ərazilərdə iqtisadi inkişafın aparıcı sahələrindən birinə çevrilməsi üçün ən mühüm vəzifə olaraq qarşıda durur. Son illər Azərbaycanda əldə olunmuş sosial-iqtisadi nailiyyətlər bu vəzifənin yeni imkanlara adekvat səviyyədə yerinə yetirilməsinə şərait yaradır. Bu da aydındır ki, işğaldan azad edilmiş ərazilərdə infrastruktur bərpa olunduqdan sonra, ilk növbədə, Azərbaycan vətəndaşlarının həmin ərazilərə səfərləri gözlənilir. Bu isə Azərbaycanda ilk növbədə daxili turizmin inkişafına töhvə verəcəkdir. İşğaldan azad olunan torpaqlarda yeni aeroportların tikilməsi, Zəngəzur dəhlizinin bərpa olunması qeyd olunan ərazilərə xarici turist axınını artıracaqdır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında turizmin yeni sahəsi kimi "Hərbi irs turizmi"ni də inkişaf etdirmək mümkündür. Belə ki, bu sahədə bələdçi qismində ehtiyyatda olan döyüşçülərdən və qazilərdən uğurla istifadə etmək daha məqsədə uyğundur. Bütün bunlar həm daxili, həm də xarici turistlərə xalqımızın qəhrəmanlıq salnaməsinin təbliği və həmin ərazilərdə olan hərbi istehkam mövqelərinin nümayişi istiqamətində uğurlu nəticələr verər. Bu məqsədlə əsas diqqət turizm marşrutlarının işlənib hazırlanmasına yönəldilməlidir ki, artıq həyat bu bölgəyə qayıdandan sonra vaxt itirmədən turizm sektoru da inkişaf etsin. Bu məqsədlə hal-hazırda Füzuli-Xocavənd-Şuşa-Laçın, Füzuli-Cəbrayıl-Zəngilan, Zəngilan-Qubadlı-Kəlbəcər-Laçın, Bərdə-Ağdam istiqamətlərində turizm marşrutlarının təşkili istiqamətində işlər aparılır. Regionların ayrı-ayrılıqda turizm potensialında Şuşa yüksək qiymətləndirilir. Bu dəyərin bariz nümunəsindən biri də Şuşanın Azərbaycanın Mədəniyyət Paytaxtı elan edilməsidir. Bu şəhərdə mədəni tədbirlərin təşkili, festivallar, turizm məhsullarının təqdimi, beynəlxalq sərgilərin və digər mədəni-kütləvi görüşlərin keçirilməsi bölgədə turizmin inkişafına təkan verəcəkdir. Beynəlxalq turizm sərgilərində Qarabağ bölgəsinin turizm potensialı, turizm marşrutları, tarixi abidələri nümayiş etdirilməlidir.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında qarşıya qoyulan məqsədlərə nail olmaq üçün ilk növbədə sadalanantədbirlərin həyata keçirilməsi məqsədəuyğundur:

- fəaliyyət göstərən turizm obyektlərinin müasir tələblərə uyğun qurulması;
- turizmin inkişafında kənd təsərrüfatı və kəndin inkişafına şərait yaratmaqla müasir dövrdə iqtisadiyyatın ərazi strukturunun təkmilləşməsinə nail olmaq ;
- turizm-rekreasiya zonalarının hüquqi statusunu müəyyən etmək, ərazisində turizm zonalarının və turist marşrutlarının müəyyən olunmasını təmin etmək;
- turizm xidməti üzrə mütərəqqi üsulların və standartların hazırlanmasına və tətbiq edilməsinə nail olmaq;
- bölgədə ekoloji turizm,dağ turizmi, kənd turizmi, macəra-ekstremal, etnik və s. turizm sahələrini inkişaf etdirmək.
- qeyri-ənənvi turizm növlərini inkişaf etdirmək.

İş adamları tərəfindən və ya dövlət himayəçiliyi ilə turistik bazalar yaradılarsa, bu, ilk növbədə on minlərlə iş yerinin açılması, kənd təsərrüfatı mallarının rahat satışı, bölgə əhalisinin sosial rifah halının yaxşılaşması deməkdir.

Son olaraq qeyd edək ki, işğaldan azad olunmuş ərazilərdə turizm sferası üçün effektiv maliyyə nəzarəti sisteminin təşkili düzgün aparılması prioritet məsələdir.

**Mövzunun aktuallığı**. Mövzu üzrə Azərbaycan turizmində işğaldan azad olunmuş ərazilərdə turizmin mövcud vəziyyəti sahələr və rayonlar üzrə hərtərəfli tədqiq etmək, inkişaf potensialını təhlil edilir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında dövlətin turizm siyasəti və onun istiqamətlərini araşdırmaq.

**Tədqiqatın məqsədi**. Qarabağ və Şərqi Zəngəzur rayonlarında turizmin inkişaf perspektivlərini tədqiq etmək.

**Tədqiqat obyekti.** Azərbaycan İqtisadiyyatının sosial-iqtisadi inkişafında əsas prioritet sahə kimi işğaldan azad olunmuş torpaqlarda turizm sahəsinin seçilməsi, mövcud vəziyyəti, problemləri və inkişaf perspektivlərinin araşdırılması və təhlili təşkil edir.

**Tədqiqat metodu.** Turizmin inkişaf xarakteristikası və metodikası daha çox konstruktiv göstəricilər və həmçinin davranış meyllərinə uyğun dinamik vəziyyətlə izah olunmalıdır. Ona görə də turizmin inkişaf xarakteristikası və metodikası daha çox konstruktiv göstəricilər və həmçinin davranış meyllərinə uyğun dinamik vəziyyətə uyğun tədqiq edilməlidir.

**Açar sözlər:**Qarabağ , Şərqi Zəngəzur, turizm

## Ədəbiyyat siyahısı:

1. "Azərbaycanda Turizmin inkişaf problemləri", Qurbanov F.İ., Bakı, Adiloğlu nəşriyyatı, 2007
2."Turizm Fəaliyyətinin Tənzimlənməsi", Bilalaov B.Ə, Bakı, Mütərcim nəşriyyatı,2006
3.http://www.azerbaijan.az/portal/Society/Tourism/tourism_01_a.html

## ПРИОРИТЕТНЫЕ НАПРАВЛЕНИЯ РАЗВИТИЯ ТУРИЗМА В КАРАБАХЕ

**доц. З.Т.Ахмедов**
**А.Н.Намазов**
**Азербайджанский Технологический Университет**
**azpolitoloq@gmail.com**

Опыт развитых стран показывает, что развитие туризма в Карабахе является серьезной силой, влияющей на экономическое развитие.

## PRIORITY DIRECTIONS OF TOURISM DEVELOPMENT IN KARABAKH

**Prof. Z.T.Ahmedov**
**A.N.Namazov**
**Azerbaijan Technological University**
**azpolitoloq@gmail.com**

In general, tourism has an indispensable role in the rapprochement of peoples, economic and cultural relations, and mutual understanding

# ŞƏKİ RAYONUNUN TORPAQ-EKOLOJİ PROBLEMLƏRİ

**G.K.Əliyeva**
**Gəncə Dövlət Universiteti**
safarova_pervana@mail.ru

Müasir dövrdə bəşəriyyətin ən mühüm problemlərindən biri də ekoloji problemlərdir. Belə ki, insanın ətraf mühitə vurduğu mənfi təsirlər nəticəsində qlobal səviyyədə ekoloji gərginlik yaranır. Ekoloji tarazlıq pozulduqca bəşəriyyət daha böyük ekoloji fəlakətlərlə qarşılaşır. Yer kürəsinin orta illik temperaturunun artması qlobal istiləşmənin yaranmasına səbəb olduğundan iqlim dəyişiklikləri dünyanın bütün ərazisini əhatə edir. Yer kürəsində qlobal istiləşmə ilə əlaqədar buxarlanmanın çoxalması yağıntıların artmasına və intensivləşməsinə gətirib çıxarmış, bu da öz növbəsində sürüşmələrin, daşqınların, hava kütlələrinin hərəkətinin dəyişməsi, güclü yağış və qalın qar örtüyünün yaranması və s. fəsadlarla insanın qarşılanmasına səbəb olmuşdur. Məşhur rus alimi Vernadskinin "insanın özünün yaratdığı çirkabda boğulmaması üçün ekoloji cəhətdən kamilləşməsi lazımdır" cümləsi buna əyani sübutdur. Odur ki, bəşəriyyət bu ekoloji bəlalardan qurtulmaq üçün ekoloji cəhətdən kamilləşməlidir. Atmosferin, su hövzələri və çayların, quru təbəqənin, okeanın ilk növbədə çirklənməsinin qarşısını almalıdır.

Məqalədə məqsədimiz Şəki rayonunun timsalında torpaq – ekoloji problemləri qismən də olsa araşdırmaqdır. Məlum olduğu kimi, ölkəmizin torpaq ehtiyatları çox deyil. Statistik məlumatlara görə, respublika torpaq ehtiyatlarının 4.2 milyon hektarı kənd təsərrüfatı əhəmiyyətlidir. Hazırda bunun təqribən 1.5 milyon hektardan çoxu istifadə olunur.

Torpaqlarımız üçün mövcud ekoloji problemlərdən ən əsası eroziya və şoranlaşmadır. Rəsmi məlumatlara görə respublika torpaqlarının təqribən 37%-i eroziyaya uğramış, 16%-i isə şoranlaşıb [1].

Torpaqların yenidən bərpası üçün isə milyardlarla dollar vəsait lazımdır. Bundan əlavə, mənfur düşmənlərimizin 30 ilə yaxın müddətdə Azərbaycan torpaqlarının 20% ərazisini işğal etməsi həmin ərazilərdə ekoloji problemlərin daha da dərinləşməsinə gətirib çıxarmışdır.Təəssüf ki, uzun illər işğal altında olan torpaqlarımızda çox zəngin güşələrimiz – nadir meşələr, çaylar, bulaqlar, mağaralar və digər təbiət abidələri qalmışdır: Zəngilan rayonu ərazisində Bəsitçay qoruğu, Laçın rayonu ərazisində Qara-göl və s. Zəngilan, Qubadlı meşələrinin, Çayzəmi,Topmeşə sahələrinin ağaclarının qırılıb xarici ölkələrə daşınması bütün dünyaya məlumdur. Filiz və qeyri-filiz ehtiyatlarımız talan edilmişdir. Bundan əlavə, düşmənlərimiz həm meşə, həm də əkin sahələrində dəfələrlə yanğınlar törətmiş, həmin bölgələrin flora-faunasına ciddi ziyan vurmuşlar.

27 sentyabr tarixindən başlayan və şanlı tariximizə 44 günlük Vətən müharibəsi kimi düşən zəfər müharibəsi nəticəsində torpaqlarımızın işğaldan azad olması dövlətimizin qarşısında həlli vacib olan bir sıra məsələlər qoymuşdur. Bu məsələlərdən biri də erməni vandallarının əzəli və əbədi torpaqlarımızda yaratdıqları ekoloji problemlərin həllidir.Torpaq ekoloji problemlərin mövcud olduğu ərazilərimizdən biri də Şəkidir. Bildiyimiz kimi, Şəki rayonu Balakən, Qax, Oğuz, Zaqatala və Qəbələ rayonları ilə birlikdə Şəki-Zaqatala iqtisadi rayonunun tərkibinə daxildir.

Şəki respublikamızın şimal-qərb bölgəsində yerləşir və sahəsi 2488 $km^2$ ərazini əhatə edir. Rayon təbii şəraitinə və təbii ehtiyatlarına görə müxtəlifliyi ilə seçilir. Şəki rayonu həm düzənlik, həm də dağlıq əraziyə malikdir. Rayonun ərazisinin 30%-i mülayim, 70%-i isə subtropik qurşaqda yerləşib, özünəməxsus iqlimə malikdir [2].

Relyef şəraiti və iqlim xüsusiyyəti bu rayonda ekoloji cəhətdən sağlam təbii mühit yaratmışdır. Meşə əraziləri əsasən dağlıq sahələrdə geniş yayılmışdır. Rayonun Alazan-Əyriçay dağarası çökəkliyində əsas əkin sahələri yerləşir və bu ərazilərdə suvarma əkinçiliyi geniş yayılmışdır. Şəki rayonu ərazisi şaquli zonallıq qanununa uyğun olaraq, zəngin bitki örtüyünə və heyvanat aləminə malikdir. Yüksək dağlıq zona nival, alp və subalp sahələrinə ayrılır. Bu dağlıq zona rayonun əsas dağ otlaq sahələridir. Rayonun əsas dağ meşələri Böyük Qafqaz silsiləsində yerləşib müxtəlif ağac növlərinə malikdir. Bu meşələr rayon ərazisinin Alazan-Əyriçay hövzəsində vaxtilə intensiv qırılması nəticəsində hal-hazırda yox dərəcəsindədir. Həmin qırılmış meşə əraziləri əkin sahələrinə çevrilib. Dağ meşələrnin həm sovet dönəmində, həm də müstəqilliyimizin ilk illərində təbii qazın olmaması ilə bağlı intensiv

qırılması nəticəsində ehtiyyatın azalmasına səbəb olmuşdur. Sovet dövründə şəhər əhalisinin bütövlükdə və bəzi dağ kəndlərinin qismən qazla təmin edilməsi dağ meşələrində ekoloji gərginliyi aradan qaldırmışdır.

Şəki rayonunun ekoloji problemlerindən biri  də qış və dağ otlaq sahələrinin intensiv otarılması səbəbindən həmin ərazilərin çılpaqlaşması nəticəsində eroziya proseslərinin intensivləşməsidir.  Bu isə sel təhlükəsini və qış otlaqlarında səhralaşma prosesini aktuallaşdırır. Rayonun Alazan-Əyriçay, Acınohur ərazilərində şorlaşma prosesi nəticəsində münbit torpaq sahələri ildən-ilə azalmaqdadır. Rayon ərazisində düzən meşələri demək olar ki, tamamilə azalaraq yox dərəcəsindədir.

Meşələrin qırıldığı ərazilərdə yağışlar tez bir zamanda münbit torpaq qatını yuyub apararaq, torpaqları da məhsul verməyən səhralara çevirir. Əkin sahələrinin, xüsusən isti iqlim şəraitində bol suvarılması torpaqların şoranlaşmasına səbəb olur.

Dağ meşələrində ətraf mühitin mühafizəsi məqsədi ilə meşələrin qırılması minimuma endirilmişdir. Rayon ərazisindən axan əsas çaylar Əyriçay və onun qollarından ibarətdir. Dağ çayları olan Şinçay, Kiş çay, Küncütçay sel hadisələrinin baş verdiyi çaylardır. Şəki şəhəri Kişçay sahillərində tikilmiş istinad divarları ilə təhlükəni aradan qaldırsa da, əkin sahələrinin sel suları və lillə korlanması təhlükəsi hələ də movcuddur.

Şəkinin respublikamızın əsas turizm bölgəsi olması bu ərazidə ekoloji sağlamlaşdırma işləri daim diqqət mərkəzində olmasını zəruri edir. Şəhərətrafı meşə əraziləri xüsusi mühafizə edilməlidir. Ona görə ki, meşələr Şəki şəhərinin mikroiqlimində, su təchizatında, seldən mühafizəsində xüsusi əhəmiyyətə malikdir. Şəki şəhəri kurort müalicəsi və isdirahət yeri kimi rekreasiya imkanlarına məxsus bir əraziyə malik olduğundan, eləcə də qədim mədəniyyət və tarixi abidələr buraya həm respublika daxili həm də xarici turist axının səbəb olur. Odur ki, şəhərin ekoloji cəhətdən təmiz saxlanılması dövlət orqanları və eləcə də şəhər əhalisinin daim nəzərində olmalıdır. Əhalinin ekoloji cəhətdən maarifləndirilməsi və kütləvi informasiya vasitəsilə ekoloji təbliğatın aparılması vacibdir. Şəki şəhərinin ekoloji sağlamlığı mühüm amil kimi qiymətləndirilməlidir.

**Ədəbiyyat siyahısı:**

1. Məmmədov Q.Ş. Azərbaycanın torpaq ehtiyatlarından səmərəli istifadənin sosial-iqtisadi və ekoloji əsasları. Bakı, «Elm», 2007, 856 s

2. Ümumi məlumat. Azərbaycan Respublikasının inzibati–ərazi vahidləri. İnzibati kənd rayonları (01.01.2006), səhifə 12. // Azərbaycan Milli Ensiklopediyası. 25 cilddə. Məsul katib akademik T. M. Nağıyev. "Azərbaycan". Bakı: "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi, 2007, 884 s

## ПОЧВЕННО-ЭКОЛОГИЧЕСКИЕ ПРОБЛЕМЫ ШЕКИНСКОГО РАЙОНА

**Г.К.Алиева**
**Гянджинский Государственный Университет**
safarova_pervana@mail.ru

В представленной статье описано природные условия, геологическое строение, климатические условия, почвенно–растительный покров Шекинского района Азербайджана. Как и во всех горных регионах, Шекинский район также имеет достаточно сложные природный условия, где широко распространены субальпийские и альпийские луга, имеющие огромное экологические и климатические значения леса, а также простирающиеся широкие площади пахотных земель, которые под влиянием природных и антропогенных факторов в различной степени подвержены эрозионным процессам.

**Ключевые слова:**плодородие, эрозия, деградация, овраг,  рельеф

## SOIL-ECOLOGICAL PROBLEMS OF SHEKI REGION

**G.K.Aliyeva**
**Ganja State University**
safarova_pervana@mail.ru

The presented article describes the natural conditions, geological structure, climatic conditions, of the soil and vegetation cover of the Sheki region of Azerbaijan. As in all mountainous regions, Sheki region also has rather difficult natural conditions, where subalpine and alpine meadows are widespread, forests of great ecological and climatic importance, as well as wide areas of arable land, which are under the influence of natural and anthropogenic factors vary degrees subject to erosion processes.

**Keywords**: fertility, erosion, degradation, ravine, gully, relief.

# ÖLKƏMİZDƏ DİSTANT TƏHSİLİN TƏŞKİLİ VƏ TƏTBİQİ MƏSƏLƏLƏRİ

**Y.M.Həsənova**
**Bakı Slavyan Universiteti**
**hasanlinubar0910@gmail.com**

Bildiyimiz kimi, 2019-cu ildən COVID-19 pandemiyası ilə əlaqədar olaraq demək olar ki, bütün təhsil müəssisələri distant (onlayn) təhsilə keçid almışdır və dərslər virtual şəkildə təhsil alanlara tədris olunmaqdadır. Təhsilin bu formada tədris olunması təhsilalanlarda müəyyən narazılıqlara səbəb olur. Biz də bu konfransdan keçid alaraq, təhsilin onlayn formada tədris olunması ilə bağlı bir sıra mülahizələr aparmaq qərarına gəldik. Əvvəla, dünyanın təhsil sahəsində inkişaf etmiş ölkələrinə nəzər salsaq görərik ki, təhsilalanlar daha çox onlayn formatda öyrənməyi üstün tuturlar. Bunun ən əlverişli səbəbi budur ki, harada və necə olmasından asılı olmayaraq istədiyin zaman öyrənmək imkanına malik olursan. Bunun üçün sadəcə internet resurslarının olması kifayət qədər yetərlidir. Keyfiyyət və nəticə hissəsinə nəzər salsaq görərik ki, onlayn şəkildə öyrənən şəxslər kifayət qədər uğur qazana bilmişlər. Ancaq təbii haldır ki, bütün təhsil sistemlərində olduğu kimi distant təhsilin də mənfi və müsbət cəhətləri vardır. Distant təhsil bizim alışdığımız ənənəvi təhsil forması ilə müqayisədə hal-hazırki dövr üçün daha çox üstünlük təşkil edir:

- Yerindən və zamanından asılı olmayaraq öyrənmək imkanının olması. (Bunun üçün müəyyən platformalar: Zoom, Teams, Google meet və s. mövcuddur)
- Utancaqlıq və auditoriya qarşısında danışa bilməmək kimi bir sıra fobiyaların və psixoloji maneələrin dəf edilməsi.
- Geniş kütlələr üçün informasiya və təhsil kompaniyalarının kütləvi şəkildə həyata keçirilməsi və s.

Digər təhsil sistemlərində olduğu kimi distant təhsil sisteminin də müsbət keyfiyyətləri olduğu kimi mənfi cəhətləri də mövcuddur:

- Təhsilalanlarla müəllim arasında əyani ünsiyyətin demək olar ki, tamamilə itməsi.
- Təhsilalanların dərsin praktiki sahədə həyata keçirilməsindən kənarda qalması, dərsi praktik cəhətdən tətbiq edə bilməməsi.
- İnternet resursları zəif olarsa dərs keyfiyyətinin maksimum pisləşməsi.
- İntensiv nəzarətin olmaması.

İndi isə uğurlu və keyfiyyətli onlayn təhsilin həyata keçirilməsi üçün bir sıra üsullardan söz açaq. Hərşeydən əvvəl, müasir texnologiyalara adaptasiya olmaq, hər bir sahədə olduğu kimi təhsil sahəsini də dövrlə uyğunlaşdırmaq lazımdır. Təhsil metodları təhsilalanlarda təfəkkür və daim inkişafetmə qabiliyyətini təkmilləşdirməlidir. Təhsilalan şəxs öz fikirlərini söyləməkdə azad və sərhədsiz olmalıdır. Dərslərin əzbərləmək yolu ilə mənimsənilməsi həm dövrümüzün tələblərinə uyğun deyil, həm də bu amil cəmiyyətin inkişafı yox, sadəcə yerində sayması kimi hesab olunur. Hal-hazırda dövrümüzün tələblərinə uyğun olan yeni təhsil kurikulumları, standartları mövcuddur. Bəs bu metodika ölkəmizdə lazımi dərəcədə tətbiq olunurmu? Bu sualı verməklə artıq təhsilalanlara deyil, təhsil verən müəllimlərə, digər tədrislə məşğul olan mütəxəssislərə yönəlirik. Əsas öhdəliyin müəllimlərdə olması amili meydana çıxır. Təhsilin səmərəli, ya da uğursuz və ya digər hər hansı bir vəziyyətdə keçirilməsi prosesi birbaşa müəllimdən asılı olan faktordur. Təhsil elə üsullarla tədris olunmalıdır ki, onun hansı formada tədris olunması (distant və ya əyani) arasında fərq olmasın. Məsələn, dərsin daha yaxşı mənimsənilməsi və distant olmasına baxmayaraq onun praktiki cəhətdən qavranılması üçün keçilən dərsin mövzusuna uyğun olan cədvəllər, şəkillər və nümunələr göstərilə bilər. Daha sonra isə şagirdin həmin dərslə bağlı bilik səviyyəsini ölçmək məqsədilə məntiqi və dolayı suallar ünvanlamaq, həmçinin dərs əsnasında təhsilalan şəxsin də dərslə bağlı suallar verməsinə şərait yaratmaq vacibdir. Ümumiyyətlə, yeni tədris proqramları tələb edir ki, bütün izahlar və təriflər gözlə görünən olsun və praktik səciyyə daşısın. Bütün bu standartları onlayn təhsil sistemi üzərindən də asanlıqla etmək mümkündür. Ümumiyyətlə, onlayn təhsilin növləri vardır. Məsələn, sinxron onlayn təhsil daha çox canlı təsir bağışlayır və internet resursları olduğu halda rahat ünsiyyət qurulur. Biz sinxron onlayn təhsil formatından daha çox istifadə edirik. Asinxron onlayn təhsil metodu da vardır ki, burada isə sərbəst şəkildə öyrənmə imkanı yaradılır. Zamandan, məkandan və hər hansı bir amildən asılı olmayaraq dərs materialları tam sərbəst şəkildə

mənimsənilir. Lakin qeyd edildiyi kimi, bizim müzakirə etdiyimiz təhsil sistemi sinxron onlayn təhsil sistemidir. Çünki mövcud vəziyyətlə bağlı olaraq sinxron onlayn təhsil forması bizim ölkəmizdə daha çox istifadə olunmaqdadır. Dərs kitablarının əldə olunması üçün Azərbaycan Respublikası TəhsilNazirliyinin şagirdlər üçün yaratdığı"e-dərslik" portalı olduqca əhəmiyyətlidir. Bundan əlavə, gündən-günə təhsillə bağlı yaranan portalların, şagird və bakalavrlar üçün sınaq imtahanlarının təşkil olunduğu saytların artması da distant təhsillə bağlı qarşılaşdığımız bir sıra problemləri müəyyən qədər aradan qaldırır. Dövlət İmtahan Mərkəzinin "otk.az" portalı şagirdlər üçün onlayn sınaq imtahanları təşkil edir. Bu da onların biliklərini yoxlamaqla yanaşı, onlayn imtahanlarla bağlı vərdişlərini artırır. Az öncə də qeyd olunduğu kimi müəyyən platformalar və proqramlar vardır ki bu sinxron onlayn təhsilin həyata keçirilməsinə geniş imkanlar yaradır. Məs: Zoom, Teams, Skype və s. vasitəsilə debat, müzakirə, "dəyirmi masa", eləcə də elmi seminarlar da təşkil etmək olar. Ancaq bununla belə,distant təhsildə əyani təhsildəki kimi təhsilalanın ixtisası üzrə praktik işlərə cəlb olunması üçün imkanlar olmur.Amma bunların həll olunması da mümkündür, məsələn, ixtisasla bağlı praktikaları müəyyən müddətdə ən yaxın müəssisələrdə keçmək və mütəxəssislərdən praktik biliklər öyrənməklə boşluqları doldurmaq olar.Onlayn tədris proqramlarında şagird və tələbələrin davranışlarına nəzarət, qısa müddətdə dərs proqramının mənimsədilməsi üçün əyani vəsaitlərdən-slaydlardan, cədvəllərdən, testlərdən (quiz və s. proqramlarla)istifadə etmək lazımdır. Nəticə olaraq qeyd etmək lazımdır ki, "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 1.0.9., 10.5 və 13.1.3 bəndlərində distant təhsil haqqında məlumat verilir. Artıq dərk etmək lazımdır ki, bu cür təhsil onu göstərir ki, distant təhsil sistemi dünyanın müxtəlif ölkələrində cəmiyyətin yeni tələblərinə adekvat cavab verir. Distant təhsil sistemində qloballaşma, mobillik, inteqrasiya, kütləvilik və operativlik təmin edilir və bu çox mühim əhəmiyyət kəsb edən amildir. Qeyd edilən bəzi çatışmazlıqlara baxmayaraq, distant təhsil sisteminin vacibliyi Azərbaycanda da yüksək qiymətləndirilir və onun inkişaf etdirilməsi üçün profilaktik tədbirlər görülür, lazımı işlər aparılır.

**Ədəbiyyat siyahısı:**

1.Azərbaycan Respublikasının qanunları. http://www.e-qanun.az/alpidata/framework/ data/18/c_f_18343.htm
Əlizadə, T. (2019). Distant təhsilin əsas modelləri və metodları

## ВОПРОСЫ ОРГАНИЗАЦИИ И ПРИМЕНЕНИЯ ДИСТАНЦИОННОГО ОБРАЗОВАНИЯ В НАШЕЙ СТРАНЕ

**Й.М.Гасанова**

**Бакинский Славянский Университет**

hasanlinubar0910@gmail.com

В настоящее время дистанционное обучение является одной из быстро развивающихся форм обучения. Существующие возможности программного обеспечения веб-серверов и современных компьютеров позволяют создавать интерактивные программы для обучения через глобальную сеть. Дистанционное обучение на базе интернет-технологий расширяет свои возможности и рассматривается как перспективная система образования, отражающая синтез международной сети Интернета и телевидения, конкретных технологий обучения. Эта новая форма образования не только обеспечивает интенсификацию распространения знаний для широкого круга потенциальных обучающихся, но и формирует рыночную среду образования среди потребителей новых знаний и технологий.

## ORGANIZATION AND APPLICATION OF DISTANCE EDUCATION IN OUR COUNTRY

**Y.M.Hasanova**

**Baku Slavic University**

hasanlinubar0910@gmail.com

The widespread use of distance education in accordance with the requirements of modern times allows more people to be involved in education. As in many higher education institutions of the world this form of education is widely used in Azerbaijan. Specially in last year this form of education received much attention. The educational process in general educational institutions and universities is carried out according to the relevant programs, developed in accordance with the needs. There are regularly organized trainings for professors-teachers of distance education with the participation of foreign experts. In the trainings there are provided information on a specially created platform, the methods and technologies used in distance education are considered. The article discusses the steps taken in the field of distance education, the work done, as well as the experiences of leading world scientific centers and their application in educational institutions of Azerbaijan.

# TULLANTI SULARININ TƏMİZLƏMƏ ÜSULLARI

**E.Ə.Məmmədov, E.E.Arifzadə**
**Azərbaycan Texnologiya Universiteti**
earifzade@gmail.com

Çirkab su ilə müxtəlif üzvi və qeyri-üzvi birləşmələr, məsələn, qətranlar, fenollar, aldehidlər, kükürd birləşmələri, kationlar, anionlar və s., su anbarına daxil ola bilər. Bu maddələrin daxil olmasının nəticəsi su ehtiyatlarının onlarla, hətta yüzlərlə kilometrlərlə çirklənməsidir. Onların su anbarına daxil olması suyun fiziki və fiziki-kimyəvi xüsusiyyətlərinin pisləşməsinə səbəb olur. Məsələn, dad, qoxu, rəng, suyun şəffaflığı, pH və codluq dəyişə bilər.

Təmizlənmiş tullantı sularının təkrar istifadəsi də bəzi sənaye müəssisələrdə geniş tətbiq olunan çirkab suların təmizlənməsi üsullarından biridir. Sənaye məhsullarına zərər vermədən tullantı sularından təkrar istifadə edə bilməyən müəssisələr öz proseslərini elə tənzimləyirlər ki, minimum miqdarda çirkab su yaransın. Hazırda "tamamilə" təmizlənmiş tullantı sularının təhlili göstərir ki, onların təmizlənməsinin mövcud üsulları tərkibində olan bütün birləşmələrin çıxarılmasını təmin etmir. Üzvi birləşmələr şəklində çirklənmənin miqdarı təxminən 50 mq/l, həll olunan qeyri-üzvi birləşmələr isə təxminən 300-400 mq/l təşkil edir.

Tullantı suları üçün üç mərhələdən ibarət ümumi təmizləyici qurğularda mövcud iqtisadi baxımdan ən məqsədəuyğun sxemi: mexaniki, bioloji, fiziki və kimyəvi təmizlənmə universal olaraq qəbul edilmişdir.Çirkab suların təmizlənməsi üsulları şərti olaraq oksidləşmə və reduksiya edici hissələrinə bölünə bilər.Oksidləşmə təmizlənmə üsulları su çirkləndiricilərinin oksidləşməsi və ya azaldılması ilə zərərsizləşdirilir. Yaranan parçalanma məhsulları sudan çıxarılır və ya həll olunan mineral duzlar şəklində qalır. Növbəti addım suda həll olunan kimyəvi birləşmələrin fiziki-kimyəvi, kimyəvi, elektrokimyəvi və bioloji üsullarla çıxarılmasıdır.

Müəssisələrdə səmərəli çirkab su təmizləyici qurğuların yaradılması bizə iki mühüm vəzifəni həll etməyə imkan verir: təbii suların sənaye tullantıları ilə çirklənməsinin qarşısını almaq və su istehlakını azaltmaq, çünki təmizlənmiş suyun istehsal dövrünə qaytarılması su təchizatı sistemində suyun dövriyyəsini təşkil etməyə imkan verir.

**Ədəbiyyatsiyahısı:**

1. Мамедов Э.А. Очистка промышленных сточных вод – Баку.: Издательство «ЭЛМ», 2002, 159 с
2. Мамедов Э.А., Садыхов Т.А. Проблемы прикладной экологии. БГУ, с.242-243, Баку, 2002
3.Орлов Д.С., Садовникова Л.К., Лозановская И.Н. Экология и охрана биосферы при химическом загрязнении. Москва, «Высшая школа», 2002, с. 256-259

## ОЧИСТКА ПРОМЫШЛЕННЫХ СТОЧНЫХ ВОД

**Э.А.Мамедов, Э.Э.Арифзаде**
**Азербайджанский Технологический Университет**
earifzade@gmail.com

Создание на предприятиях эффективно действующих установок для очистки сточных вод позволяет решить две важные задачи: предупредить загрязнение природных вод промышленными стоками и сократить потребление воды, так как возврат очищенной воды в производственный цикл позволяет организовать кругооборот, воды на предприятии.

## INDUSTRIAL WASTEWATER TREATMENT

**E.A.Mammadov, E.E.Arifzade**
**Azerbaijan Technological University**
earifzade@gmail.com

The creation of efficient wastewater treatment plants at enterprises allows us to solve two important tasks: to prevent pollution of natural waters by industrial effluents and to reduce water consumption, since the return of purified water to the production cycle allows organizing the circulation of water at the enterprise.

# ƏTRAF MÜHİTİ DAHA ÇOX ÇİRKLƏNDİRƏN NEFTİN FİZİKİ VƏ KİMYƏVİ XASSƏLƏRİ

**G.M.Səlimzadə**
**E.Y.Kəsəmənli**
**Azərbaycan Texnologiya Universiteti**
**gunel.selimzade2020@mail.ru**
**elmirakasamanli50@gmail.com**

Neft üzvi və qeyri-üzvi kimyəvi maddələrdən ibarət olan mürəkkəb quruluşlu özlü mayedir. O spesifik iyə malikdir, rəngi isə açıq-kəhrəba rəngindən tünd qara rəngə qədər dəyişir. Neftin elementar tərkibi nisbətən sabit olub, onu təşkil edən hər bir komponent quruluşda 3-4% təşkil edir. Maye neftin əsas tərkib hissəsini isə karbon (83-87%) və hidrogen (12-14%) təşkil edir. Kükürd isə neftin tərkibində 6%-ə qədər ola bilir. Azot və oksigenin özlü mayedə miqdarı 0,1%-i təşkil edir, bəzən isə bu miqdar 2,0%-ə qədər ola bilir. Neftin tərkibinin 0,1%-dən 0,01%-ə qədərini mikroelementlər – metalların duzları və üzvi turşular təşkil edir. Tərkibindəki 60 mikroelementlərin yarıdan çoxunu metallar təşkil edir. Bu metalların maye neftin tərkibində ümumi miqdarı kütləyə görə orta hesabla 0,01%- dən 0,04%-ə qədər təşkil edir. Bu metallardan vanadium və nikel – 10-3-10-2%; dəmir – 10-4-10-3; sink 10-5-10-3%; civə - 10-5%; natrium, kalium, kalsium, manqan – 10-4-103 təşkil edir[ 1].

Metal tərkibli birləşmələrin əsas kütləsi neftin qətran və alfaten hissəsində toplanmış karbohidrogen fraksiyasında isə onların miqdarı çox cüzidir. Element tərkibindən fərqli olaraq, xam neftin karbohidrogen tərkibi böyük intervalda dəyişir. Karbohidrogen tərkibdə sadə metandan çox mürəkkəb quruluş olan porfinlərə qədər 1000-ə yaxın individual üzvi maddələr vardır. Neftin əsas komponentləri karbohidrogen (CH) birləşmələridir. Müxtəlif növ neftlərin tərkibində onun miqdarı 90%-dən 95%-ə qədərdir. Neftin tərkibi metan, paften və aromatik karbohidrogenlərdən, həmçinin onların oksigenli, kükürdlü və azotlu törəmələrindən ibarətdir. Neftin sırası karbohidrogenlər (CH) doymuş tsiklik karbohidrogen olub siklopentan və sikloheksan sıralıdır.

XIX əsrin 70-ci illərində Moskovnikov və Oqloblik Bakı neftinin tərkibində tsiklik quruluşlu $C_{2n}H_{2n}$ sıralı karbohidrogenlərin olmasını göstərmişlər. Bundan əlavə alimlər tsiklopentan, tsikloheksan, metiltsiklopentan və başqa birləşmələri də aşkar etmişlər. Neftin karbohidrogenlərin tərkibi alkanlara nisbətən daha stabildir və onlar ilkin ana məhsulun genetik xüsusiyyətlərini özündə saxlayır. Neftin aromatik karbohidrogenləri müxtəlif neftlərdə 15%-dən 50%-ə qədər dəyişir. Onların orta miqdarı müxtəlif parafinli neftlərdə aşağıdakı kimi dəyişir: az parafinlərdə - 37,4%; orta parafinlərdə - 30,6%; yüksək parafinlərdə - 20,8%. Tərkibində bərk karbohidrogenlərin miqdarı 1%-dən az olan neftlər – az parafinli; 1-7%-ə qədər olan neftlər – orta parafinli; 7%-dən çox olan neftlər isə yüksək parafinli neftlərə aid edilir.

Neftin tərkibində olan parafin karbohidrogenlərinin ümumi miqdarı əsasən 25-30% təşkil edir. Bu faiz neftin tərkibində həll olunmuş qazların miqdarı nəzərə alınmayan haldakı miqdarını göstərir. Neftdə həll olan qazların miqdarı nəzərə alındıqda isə parafinlərin miqdarı 40- 50%-ə, bəzi neftlərdə isə 50-70%-ə çatır. Bunula yanaşı, tərkibində cəmi 10-15% parafin olan neftlər də vardır. Neftin tərkibində çox az miqdarda etil qrupundan daha böyük alkil qrupu saxlayan şaxəli quruluşlu parafinlərin olması da müəyyən edilmişdir. Qaz karbohidrogenlər xalis qaz, qaz kondensat və neftlə birlikdə neft yataqlarından çıxarılır. Qaz parafin karbohidrogenlərin müxtəlif qaz kondensantı yataqlarından çıxarılan stabil miqdarı 5-10 sm3 /m3 -dan 300-500sm3 /m3 -a qədər dəyişir. Qaz kondensat yataqlarındakı qazların tərkibində metanın, eləcə də benzin, kerosin və dizel fraksiyalarının tərkibini təşkil edən yüksək molekullu karbohidrogenlərin miqdarı çox olur [2].

**Ədəbiyyat siyahısı:**

1. Məhərrəmov A.M., Bayramov M. R. "Neft kimyası və neft kimyəvi sintez". Bakı, 2016, 587 s
2. Məhərrəmov A.M., Əhmədova R.A., F.N. Əhmədova "Neft-kimya və neft emalı". Bakı, 2016, 658 s

## ФИЗИЧЕСКИЕ И ХИМИЧЕСКИЕ СВОЙСТВА НЕФТИ, НАИБОЛЕЕ ЗАГРЯЗНЯЮЩИЕ ОКРУЖАЮЩУЮ СРЕДУ

**Г.М.Салимзаде**
**Э.Ю.Касаманлы**
**Азербайджанский Технологический Университет**
**gunel.selimzade2020@mail.ru**
**elmirakasamanli50@gmail.com**

Нефть представляет собой вязкую жидкость сложной структуры, состоящую из органических и неорганических химических веществ. Имеет специфический запах, а цвет варьируется от светло-янтарного до темно-черного. Элементный состав масла относительно стабилен, каждый компонент составляет 3-4% от состава. Основная масса соединений металлов очень мала в углеводородной фракции, которая сосредоточена в смолянистой и альфатеновой частях нефти. В отличие от элементного состава содержание углеводородов в сырой нефти колеблется в широких пределах.

## PHYSICAL AND CHEMICAL PROPERTIES OF OIL THAT MOST POLLUTE THE ENVIRONMENT

**G.M.Salimzadeh**
**E.Y.Kasamanli**
**Azerbaijan Technological University**
**gunel.selimzade2020@mail.ru**
**elmirakasamanli50@gmail.com**

Petroleum is a viscous liquid with a complex structure consisting of organic and inorganic chemicals. It has a specific odor, and its color varies from light amber to dark black. The elemental composition of the oil is relatively stable, with each component making up 3-4% of the structure. The main mass of metal compounds is very small in the hydrocarbon fraction, which is collected in the resin and alphaten part of the oil. Unlike the element composition, the hydrocarbon content of crude oil varies widely.

# PAMBIQ SORTLARININ MƏHSULDARLIĞINA SƏPİN MÜDDƏTİNİN VƏ BİTKİ SIXLIĞININ TƏSİRİNİN ÖYRƏNİLMƏSİ

**A.R.Babazadə**
**Azərbaycan Dövlət Aqrar Universiteti**
arzu.babazade94@mail.ru

Azərbaycanın sosial-iqtisadi inkişafında pambıqçılığın payı xüsusidir."Pambıqçılıq haqqında" Azərbaycan Respublikasının 11 may 2010-cu il tarixli 1012-1110-№-li qanununun qüvvəyə minməsi ilə əlaqədar ölkə prezidenti cənab İlham Əliyev aidiyyatı qurumlara rəsmi göstəriş vermişdir. 6 fəsil, 24 maddədən ibarət olan bu qanunda pambıqçılıq haqqında əsas anlayışlar, pambıqçılıqsahəsində dövlət siyasətinin istiqamətləri və vəzifələri, pambığın istehsalı və ilkin emalı, texniki pambıq istehsalı, pambığın alqı-satqısı, toxumluq pambığın alqı-satqısı, texniki pambığın alqı-satqısı, pambıq və pambıq məhsullarının keyfiyyətinin idarə edilməsi, pambığın va mahlıcın keyfiyyətinin ekspertizası, pambıqçılığın inkişafına dövlət dəstəyi, pambıqçıların istehsalına dövlət dəstəyi və s. məsələlər qanunda öz əksini tapmışdır.

Pambıq yüksək əhəmiyyətə malik olan texniki bitkidir. Pambıq bitkisinin mahlıcından, toxumundan və bitkinin digər hissələrindən 120-dən çox müxtəlif material və əşya əldə etmək olar. [1,2,5]Bu bitkinin mahlıcından paltar üçün parça toxunmasından başqa yüksək keyfiyyətli sap, kəndir, balıq tutmaq üçün əşyalar, rezin şlanqlar üçün xüsusi toxumalar, süni ipək, partlayıcı maddələr, sellüloid, foto-kino lentlər və bir sıra digər məmulatlar hazırlanır [3,6].

Bitki sıxlığının bitkilərin məhsuldarlığına təsiri bu vaxta qədər tam öyrənilməyib. Bunu nəzərə alaraq biz bitki sıxlıqlarının "Gəncə-114" və "Gəncə-160" pambıq sortlarının xam pambıq məhsuluna təsirinin öyrənilməsini qarşıya məqsəd qoyduq. Bu iki sort üç müxtəlif səpin müddətində və iki sıxlıqda - 111 min (60 x 15) və 83 min (60 x 20) səpilmiş və onun üzərində müşahidələr aparılmışdır. Tam yetişkənlik fazasında təkrarlar üzrə hər bölmədən ayrıca məhsul yığılıb, çəkilib, alınan məhsul hektara çevrilmişdir. Əldə olunan nəticələr 1 saylı cədvəldə verilmişdir.

Müxtəlifsəpin müddətləri və bitki sıxlıqları məhsuldarlığa eyni dərəcədə təsir göstərmir. 1-ci cədvəldən göründüyü kimi, 5-10 apreldə 60 x 15 sm bitki sıxlığında **Gəncə -114** pambıq sortunda məhsuldarlıq 33,2 sent/ha bərabər olmuşdur. Bu göstərici həmin müddətdə 60 x 20 sm bitki sıxlığında səpilmiş bitkilərdə orta hesabla 30,7 sent/ha olmuşdur.

1- ci cədvəl. Səpin müddətinin və bitki sıxlığının pambıq sortlarının məhsuldarlığına təsiri
(2018-2021-ci illər üzrə orta)

| Sıra sayı | Sortlar | Səpin müddəti, aprel | Bitki sıxlığı | Məhsuldarlıq, ha/sent |
|---|---|---|---|---|
| 1 | Gəncə-114 | 5-10 | 111 min (60 x 15) | 33,2 |
| 2 | Gəncə-114 | 5-10 | 83 min (60 x 20) | 30,7 |
| 3 | Gəncə-114 | 15-20 | 111 min (60 x 15) | 35,1 |
| 4 | Gəncə-114 | 15-20 | 83 min (60 x 20) | 33,1 |
| 5 | Gəncə-114 | 25-30 | 111 min (60 x 15) | 31,2 |
| 6 | Gəncə-114 | 25-30 | 83 min (60 x 20) | 29,5 |
| 7 | Gəncə-160 | 5-10 | 111 min (60 x 15) | 31,7 |
| 8 | Gəncə-160 | 5-10 | 83 min (60 x 20) | 32,6 |
| 9 | Gəncə-160 | 15-20 | 111 min (60 x 15) | 36,2 |
| 10 | Gəncə-160 | 15-20 | 83 min (60 x 20) | 37,5 |
| 11 | Gəncə-160 | 25-30 | 111 min (60 x 15) | 34,3 |
| 12 | Gəncə-160 | 25-30 | 83 min (60 x 20) | 32,5 |

Səpini 25-30 apreldə, 60 x 15 sm bitki sıxlığında apardıqda **Gəncə -114** pambıq sortunda məhsuldarlıq 31,2 sent/ha olmuşdur. Bu göstərici həmin müddətdə 60 x 20 sm bitki sıxlığında səpilmiş bitkilərdə orta hesabla 29,5 sent/ha olmuşdur.

Cədvəldən göründüyü kimi,5-10 apreldə 60 x 15 sm bitki sıxlığında **Gəncə -160** pambıq sortunda məhsuldarlıq 31,7 sent/ha bərabər olmuşdur. Bu göstərici həmin müddətdə 60 x 20 sm bitki sıxlığında səpilmiş bitkilərdə orta hesabla 32,6 sent/ha olmuşdur.

Təcrübə göstərir ki, 15-20 apreldə, 60 x 15 sm bitki sıxlığında səpilmiş **Gəncə -160** pambıq sortunda məhsuldarlıq 36,2 sent/ha bərabər olmuşdur. Bu göstərici həmin müddətdə 60 x 20 sm bitki sıxlığında səpilmiş bitkilərdə orta hesabla 37,5 sent/ha olmuşdur.

Səpini 25-30 apreldə, 60 x 15 sm bitki sıxlığında apardıqda **Gəncə -160** pambıq sortunda məhsuldarlıq 34,3 sent/ha bərabər olmuşdur. Bu göstərici 25-30 apreldə 60 x 20 sm bitki sıxlığında səpilmiş bitkilərdə orta hesabla 32,5 sent/ha olmuşdur.

Belə məlum olur ki, məhsuldarlıq Gəncə-114 sortu üçün ən yaxşı bitki sıxlığı hektarda 111 min bitki ( 60 x 15 sm sxemi ilə) və ən yaxşı səpin müddəti 15-20. aprel,. Gəncə-160 sortu üçün ən yaxşı bitki sıxlığı hektarda 83 min bitki ( 60 x 20 sm sxemi ilə) və ən yaxşı səpin müddəti isə 15-20. apreldir.

**Ədəbiyyat siyahısı:**

1. Aslanov H. Ə., Vəliyeva M. A. Pambıq bitkisi ilə aparılan tarla təcrübələrinin metodikası, Bakı: 2013, 310 s
2. Aslanov H. Ə., Vəliyeva M. A. Pambıqçılıq. Bakı: "Elm" 2014, 520 s
3. Ələkbərov Fariz. Pambıqçılıq (ilk peşə ixtisas təhsili müəssisələri üçün modul dərs vəsaiti) Bakı, 2017, 128 s
4. Güləhmədov X. O. Pambıqçılıq Bakı: "Agah" 2000, 241 s
5. Hümbətov H. S. Lifli bitkilər, Bakı: "Elm və təhsil" 2015, 216 s
6. Hümbətov H. S., Xəlilov X. Q. Texniki bitkilər. Bakı: "Aytac", 2010, 415 s
7. Технические культуры / Под р. Я. В. Губанова М.:, Агропромиздат, 1986, 287 с

## СРОКИ ПОСЕВА И ГУСТОТА ПОСАДКИ НА УРОЖАЙНОСТЬ СОРТОВ ХЛОПКАИЗУЧЕНИЕ ЭФФЕКТА

**А.Р.Бабазаде**
**Азербайджанский Государственный Аграрный Университет, город Гянджа**
**arzu.babazade94@mail.ru**

В народном хозяйстве нет такой отрасли, где бы ни не использовалась продукция из хлопка. Основной продукт этого растения – очищенный от семян хлопок. Хлопковая пряжа используется для изготовления различных тканей, и качественных нитей, бумага, фотоленты и т. д. Поэтому в экономике нашей страны хлопок стоит на одном уровне с зерном, железом, углем и нефтью.Встатье изучается влияния сроков, густоты посевов и динамику роста и количество симподиальных ветвей на сортов хлопчатника. Гянджа-114 иГянджа-160 которое высевались в разное время (5-10; 15-20. и 25-30. IV) и при разной плотности (60 x 15 111 тысяч растений на гектар и 83 тысячи растений на гектар при схеме 60 x 20 см).Из исследований было что время густота растений оказали значительное влияние, на динамику роста растений. В целом следует отметить, что оптимальные сроки и густота посевов будет зависеть от биологических особенностей сорта растений, а также от почвенно-климатических условий.
Ключевые слова: хлопок, растение, продуктивность, рост динамика.

## SOWING TIME AND PLANTING DENSITY FOR THE YIELD OF COTTON VARIETIES STUDYING THE EFFECT

**A.R.Babazade**
**Azerbaijan State Agrarian University, Ganja city**
**arzu.babazade94@mail.ru**

There is no industry in the national economy where cotton products are not used. The main product of this plant is cotton, peeled from seeds. Cotton yarn is used to make various fabrics, and high-quality threads, paper, photographic tapes, etc. Therefore, in the economy of our country, cotton is on a par with grain, iron, coal and oil.The article examines the influence of timing, planting density and growth dynamics and the number of sympodial branches on cotton varieties. Ganja-114 and Ganja-160 which were sown at different times (5-10; 15-20. And 25-30. IV) and at different densities (60 x 15 111 thousand plants per hectare and 83 thousand plants per hectare with the scheme 60 x 20 cm). From research it was found that the time of plant density had a significant impact on the dynamics of plant growth. In general, it should be noted that the optimal timing and density of crops depend on the biological characteristics of the plant variety, as well as on soil and climatic conditions.
**Key words:** cotton, plant, fruit, growth dynamics.

# NEFTİN KİMYƏVİ EMAL TEXNOLOGİYASI

**E.Y.Kəsəmənli**
**G.M.Səlimzadə**
**Azərbaycan Texnologiya Universiteti**
gunel.selimzade2020@mail.ru
elmirakasamanli50@gmail.com

Neftin fiziki emalı zamanı alınan benzinin nə keyfiyyəti, nə də miqdarısənayenin indiki inkişafını təmin etmir. Ona görə də nefti və neft məhsullarını kimyəvi yolla emal etməklə həm yeni neft məhsulları alınır, həm də alınan benzinin oktan ədədi yüksəlir. Digər tərəfdən benzinin çıxımı kimyəvi emal üsulunda 50−78 %-ə çatır. Kimyəvi emalın digər üstün cəhətlərindən biri də odur ki, bu prosesdə benzinlə yanaşı qaz halında olan karbohidrogenlərdə alınır ki, onlarda üzvi sintez sənayesi üçün xammal hesab edilir. Neftin kimyəvi emalı əsasən yüksək temperaturda aparıldığı üçün onun distillə məhsulları (liqroin, mazut fraksiyaları) parçalanaraq daha kiçik molekullara çevrilir. Ona görə neftin kimyəvi emal üsulu krekinq adlanır. Krekinq üsulu 3 qrupa bölünür[ 1-3]:

1. Termiki krekinq;
2. Termiki-katalitik krekinq;
3. Aşağı temperaturlu katalitik krekinq;

Termiki krekinq katalizatorsuz və yüksək temperaturda aparılan krekinqprosesidir. Bu proses 700−900ºC-də aparıldıqda piroliz adlanır. Termiki krekinq məhsullarının tərkibində doymamış birləşmələr çox olur və benzin fraksiyasını təşkil edən karbohidrogenlər az şaxəli olur. Ona görə də belə birləşmələrin həm oktan ədədi yüksək olmur, həm də saxlanan benzində ikiqat rabitəli birləşmələr polimerləşir. Bu da mühərrik karbüratorlarının müntəzəm iş rejimini pozur.

Katalitik krekinq 450−500ºC-də katalizator tətbiq etməklə aparılanprosesdir. Bu üsulla alınan neft məhsulları doymamış birləşmələrdən azad olur. Karbohidrogenlərin izomerləşməsi hesabına yüksək oktan ədədli benzin alınır. Aşağı temperaturlu krekinq prosesi isə yalnız katalizator iştirakında aparılır.

Krekinqin başqa bir növü riforminq adlanır. Riforminq prosesində məqsəd, yuxarı oktan ədədinə malik olan benzinlər almaqdır. Bu prosesdə həmçinin üzvi sintezdə istifadə olunan doymuş karbohidrogenlər və aromatik karbohidrogenlər dəalınır. Krekinq prosesi mürəkkəb prosesdir. Buna baxmayaraq bu prosesin dəmüəyyən qanunauyğunluqları vardır.

Termiki krekinq prosesi katalizator iştirakı ilə aparıldıqda ona termokatalitik,yaxud katalitik krekinq prosesi deyilir. Proses aromatik karbohidrogenlərin alınması ilə getdikdə riforminq adlanır.

Ümumiyyətlə, krekinq mürəkkəb prosesdir. Bu zaman izomerləşmə,polimerləşmə, parçalanma və.s reaksiyalar baş verir. Yüksək temperaturlarda böyük molekul çəkili neft karbohidrogenlərindən daha kiçik molekul çəkili birləşmlər əmələ gəlir.

## Ədəbiyyat siyahısı:

1.Q.İ.Səfərov, A.S.Məmmədov "Neft və qaz emalının texnologiyası" 464 səh, 2000

2. C.Mahmudov "Ekologiya" 320 səh, 2008

3. stat.gov.az

# ХИМИЧЕСКАЯ ТЕХНОЛОГИЯ ПЕРЕРАБОТКИ НЕФТИ

**Э.Ю.Касаманлы**
**Г.М.Салимзаде**
**Азербайджанский Технологический Университет**
gunel.selimzade2020@mail.ru
elmirakasamanli50@gmail.com

Ни качество, ни количество бензина, получаемого при физической переработке нефти, не обеспечивают современного развития отрасли. Поэтому химическая переработка нефти и нефтепродуктов не только дает новые нефтепродукты, но и повышает октановое число получаемых бензинов. С другой стороны, расход бензина на химическую переработку достигает 50-78%. Еще одним преимуществом химической переработки является то, что в этом процессе наряду с бензином получают газообразные углеводороды, считающиеся сырьем для промышленности органического синтеза. Поскольку химическая обработка нефти осуществляется в основном при высоких температурах, продукты ее перегонки (лигроин, мазутные фракции) распадаются на более мелкие молекулы.

# CHEMICAL TECHNOLOGY OF OIL REFINING

**E.Y.Kasamanli**
**G.M.Salimzadeh**
**Azerbaijan Technological University**
gunel.selimzade2020@mail.ru
elmirakasamanli50@gmail.com

Neither the quality nor the quantity of gasoline obtained during the physical refining of oil ensures the current development of the industry. Therefore, chemical processing of oil and oil products both produces new oil products and increases the octane number of the obtained gasoline. On the other hand, the consumption of gasoline by chemical processing reaches 50-78%. Another advantage of chemical processing is that in this process, along with gasoline, it is obtained in gaseous hydrocarbons, which are considered raw materials for the organic synthesis industry. As the chemical processing of oil is carried out mainly at high temperatures, its distillation products (ligroin, fuel oil fractions) break down into smaller molecules.

# QEYRİ-MÜƏYYƏNLİKLƏRİN AÇILIŞI. LOPİTAL QAYDASI.

**E.T.Əliyeva**
**Azərbaycan Texniki Universiteti**
**Elminaz.eliyeva.90@mail.ru**

Tutaq ki, $f\ (x)$ və $g(x)$ funksiyaları $x$=c nöqtəsinin müəyyən bir ətrafında (c nöqtəsi müstəsna ola bilər) təyin edilmiş funksiyalardır. Fərz edək ki, bu funksiyalar ya

$$\lim_{x\to c} f(x) = \lim_{x\to c} g(x) = 0 \qquad (1)$$

**və yaxud** $\lim_{x\to c} f(x) = \lim_{x\to c} g(x) = \infty$ **(2)**

şərtlərini ödəyir. Hər iki halda $\lim_{x\to c} \frac{f(x)}{g(x)}$limitinin hesablanmasına nisbətin limiti haqqında olan teoremi tətbiq etmək olmaz.(1) şərtləri ((2) şərtləri) ödəndikdə $\frac{f(x)}{g(x)}$nisbəti$x$ = c nöqtəsində $\frac{0}{0}$( şəklində $\frac{\infty}{\infty}$ ) şəklində qeyri-müəyyənlik adlanır. Qeyri-müəyyənliklərin açılışı üçün məzmunu aşağıdakı teoremdə ifadə edilən Lopital qaydasından istifadə edirlər.

Teorem. Tutaq ki, $f\ (x)$ və $g(x)$ $x$ = c nöqtəsinin müəyyən bir ətrafinda (c nöqtəsi müstəsna ola bilər) diferensiallanan funksiyadir. Əgər bu funksiyalar

$$\lim_{x\to c} f(x) = \lim_{x\to c} g(x) = 0\,, \quad \lim_{x\to c} f(x) = \lim_{x\to c} g(x) = \infty$$

şərtlərini ödəyirsə və $\lim_{x\to c} \frac{f'(x)}{g'(x)}$limiti varsa, onda

$$\lim_{x\to c}\frac{f(x)}{g(x)} = \lim_{x\to c}\frac{f'(x)}{g'(x)}$$

bərabərliyi doğrudur.

Bu teoremin isbatını ancaq $\frac{0}{0}$şəklində qeyri-müəyyənlik üçün verəcəyik. Bundan başqa fərz edəcəyik ki, $f\ (x), f'(x)$, $g(x)$ və $g'(x)$ funksiyaları $x$ = c nöqtəsində kəsilməzdir və $g\,'(c) \neq 0$ . Beləliklə, tutaq ki

$$\lim_{x\to c} f(x) = f\ (c) = 0$$
$$\lim_{x\to c} g\ (x) = g\ (c) = 0$$

şərtləri ödənilir. Onda $\frac{f(x)}{g(x)} = \frac{f(x)-f\ (c)}{g(x)-g(c)} = \frac{f(x)-f(c)}{x-c} / \frac{g(x)-g(c)}{x-c}$

münasibəti doğrudur.Burada $x \to c$yaxınlaşdıqda limitə keçək və

$$\lim_{x\to c} \frac{f(x)-f\ (c)}{x-c} = f'(c)\ ;$$
$$\lim_{x\to c} \frac{f(x)-f\ (c)}{x-c} = g'(c) = 0\ ;$$

olduğunu nəzərə alsaq

$$\lim_{x\to c} \frac{f(x)}{g(x)} = \frac{f'(c)}{g'(c)} \qquad (3)$$

bərabərliyini alarıq. Digər tərəfdən $f'(x)$ və g $'(x)$ funksiyaları $x$ = c nöqtəsində kəsilməz olduğu üçün

$$\lim_{x\to c} \frac{f'(x)}{g'(x)} = \frac{\lim_{x\to c} f'(x)}{\lim_{x\to c} g'(x)} = \frac{f'(c)}{g'(c)} \qquad (4)$$

münasibəti doğru olur. (3) və (4) düsturlarından

$$\lim_{x\to c} \frac{f(x)}{g(x)} = \frac{f'(x)}{g'(x)}$$

bərabərliyini alırıq.

## Ədəbiyyat siyahısı:

1. Namazov Q.M., Funksiyalar və Qrafiklər.“Bakı Biznes Universiteti Nəşriyyatı” Baki- 2011 il 6.c
2. Səlimov Y.Ş., Səbzəliyev M.M., Ali riyaziyyatdan məsələlər I hissə. Baki-2004 12. Səlimov Y.Ş.,

3. Demidoviç B.P., Riyazi Analizdən Məsələ və Misallar. Tərcümə edənlər.Əliyev A.R. Bakı, 2004 Səbzəliyev M.M., Ali riyaziyyatdan məsələlər II hissə.Baki, 2005
4. Nurəddinoğlu. Ali riyyaziyyat kursu üzrə məsələ və misallar. I hissə. Çaşıoğlu. Bakı, 2000

## ОТКРЫТИЕ НЕОПРЕДЕЛЕННОСТЕЙ. ЛОПИТАЛЬНОЕПРАВИЛО.

**Э.Т.Алиева**
**Азербайджанский Технический Университет**
**Elminaz.eliyeva.90@mail.ru**

Если функции F(x) и g(x) дифференцируемы вокруг некоторой точки x = c, то пределы этих функций равны между собой, что равно 0.И тогда функции f(x) и g(x) равны ∞.Тогда, если это условие выполняется, у нас есть предел$\lim_{x\to c} \frac{f(x)}{g(x)}$..Это означает, что пределы в точке c равны между собой.

## DISCOVERY OF UNCERTAINTIES. LOPITAL RULE.

**E.T.Aliyeva**
**Azerbaijan Technical University**
**Elminaz.eliyeva.90@mail.ru**

If the functions F (x) and g (x) are differentiable around a certain point x = c, then the limits of these functions are equal to each other, which is equal to 0.And then the functions f (x) and g (x) are equal to ∞.If this condition is satisfied, then we have the limit $\lim_{x\to c} \frac{f(x)}{g(x)}$.This means that the limits at point c are equal to each other.

# AZƏRBAYCANDA BİTKİ ÖRTÜYÜNÜN YAYILMASI

**Ü.İ.Qənbərova, S.H.Hüseynova**
**Azərbaycan Texnologiya Universiteti**
**ulker.qenberova@bk.ru**
**huseynova-1965@mail.ru**

Azərbaycan Respublikasının ərazisi zəngin floraya malikdir. Nisbətən böyük olmayan ərazidə dünyada rast gəlinən bütün bitki tiplərinin demək olar ki, hamısı respublikamızda yayılmışdır. Azərbaycanda bitən təxminən 4500 növ ali, sporlu çiçəkli bitkilər 125 dəstə 920 cinsdə birləşir.

Respublikada rast gələn bitki növləri Qafqazda bitən bitki növlərinin ümumi miqdarının 66%-ini təşkil edir. Qafqaz və başqa regionlarda geniş yayılmış bitki növləri ilə yanaşı Azərbaycanın florasında kifayət sayda yalnız Azərbaycan və onun nisbətən kiçik rayonları üçün xarakterik olan 240-a yaxın endemik bitki növləri də vardır. Bitki örtüyünün yayılmasını regionun fiziki-coğrafi cəhətdən formalaşması, müasir torpaq iqlim şəraiti, şaquli zonalıq və bir sıra digər amillər də şərtləndirir. [1]

Səhra tipli bitki qruplaşmalarına əsas etibarilə Xəzər sahilində, cənub-şərqi Şirvanda, Mil, Muğan və Şirvan düzlərində rast gəlinir. Torpağın duzluluğundan asılı olaraq burada qarasoran, şahsevdi, ətli, şoran, qışotu bitkiləri yayılmışdır. Yarımsəhra bitki örtüyü Şirvan, Səlyan, Muğan, Mil və Qarabağ çöllərində və eləcə də Ceyrançöl, Qobustan və Arazboyu düzənliklərdə geniş sahə tutur. Kür-Araz, Qobustan və Ceyrançöldə zonal formasiya olaraq yovşan yarımsəhrası sahə etibarilə üstünlük təşkil edir. Başqa formasiyalardan qarağan (Kür-Araz) və dəngiz (Qobustan, Naxçıvan) formasiyaları daha səciyyəvidir.

Yarımsəhralarda çox sayılan digər bitkilər: soğanaqlı qırtıcı, yapon tonqalotu, bərk quramat, şərq bozağı, çilingburnu, taxıl otları və bir sıra şoranlıq (çərən, şahsevdi, sarıbaş, qışotu və s.) otlarıdır. Bu sahələr üçün unikal olan tuqay meşələridir. Əsasən, Kür, Araz və Qabırrı çayları vadilərində yayılan meşələrin əsas ağacları palıd, ağcaqayın, göyrüş, söyüd və s. ibarətdir. Böyük Qafqaz və Kiçik Qafqaz dağətəyi düzənliklərində 200 m-dən 600-700 m, bəzən 1200 metrədək olan hündürlükdə əsasən bir və çoxillik kserofit bitkilər və kollar yayılmışdır. Daha yüksəkdə yuxarı sərhədi 1800-2200 metrlə məhdudlaşan sahələr meşələrdən ibarətdir.

Azərbaycan Respublikası ərazisinin ümumi sahəsi 86,6 milyon hektardır. Azərbaycan meşələrinin ümumi sahəsi isə 1213,7 min hektardır. Bundan meşə ilə örtülü sahə 989,5 min hektar təşkil etməklə, ümumi ərazinin 11,4%-ə qədəridir. Hər adam başına təqribən 0,12 ha meşə sahəsi düşür ki, bu da ümumdünya miqyasında götürülən müvafiq orta rəqəmdən 4 dəfə (0,48 ha) azdır. Azərbaycanda meşələr sahəcə az olsalar da növ zənginliyi ilə məşhurdur. Burada 435 növ ağac və kol bitir, onlardan da 70-i endemik növlərə aiddir. [2]

Respublika meşələrinin əksər sahələri (85%) Böyük Qafqazda, Kiçik Qafqazda və Talış dağ bölgəsində yerləşir.

Bütün respublika ərazisi üçün enliyarpaqlı meşələr səciyyəvidir. Bu tip meşələr Böyük və Kiçik Qafqazın, Talış dağlarının alçaq və orta dağlıq hissələrində geniş yayılmışdır. Xüsusilə onlar 600-1600 m mütləq yüksəkliklərdə çox yerdə vahid qurşaq yaradır. Qalan sahələrdə talalar, dar zolaqlar şəklində saxlanılır. Meşələr əsas üç ağac növlərindən - fıstıq, vələs və palıddan ibarətdir. Onlar bütün meşə örtüyünün 86,2 faizini təşkil edir. Bunlardan başqa, ağcaqayın, qarağac, cökə, qızılağac, qovaq, yalanyarpaq, söyüd və s. enliyarpaqlı ağaclar bitir. İynəyarpaqlı meşələr respublika meşələrinin 1,7 faizini təşkil edir.

Kür-Araz ovalığında tez-tez rast gələn cayırlıq, biyanlıq və lığvər cəngəlliyi nisbətən geniş yayılmışdır. Qarabağ düzündə dəvəayağı, qırxbuğum, poruq, ağlarot, süsən kimi bitki növləri həm əngəllik yaradır və həm də başqa cəngəlliyin tərkibində rast gəlirlər. Çay və supaylayıcı kanalların kənarında, bataqlıq yerlərdə, lokal formada isə düzənlik rayonlarda kosmopolit tərkibli qamış

cəngəlliklərinə tez-tez rast gəlinir. Belə bataqlıqlarda hündürboylu tülküquyruğu, çiyən, suluf, yumşaq süpürgə, kalış və s. çoxdur. Burada savanna tipli hündürboylu murğuz da cəngərlik yaradır.

Respublikanın quru və isti rayonlarında (Naxçıvan MR, Cəbrayıl, Zəngilan), Böyük Qafqazın bozqır yaylasında kserofit bitkiliyinə, yəni friqana, şibləks, tikanlı gəvənlik, tıstıslıq, bəzən və cılız ardıclığa, ardıcıq-püstəliyə rast gəlinir. Frinalalar Naxçıvan MR-da 1000-1500 m yüksəkliklərdə müstəqil formasiyalar (cəngəlliklər) yaradır. Bu formasiyalarda 300-dən artıq bitki növünə rast gəlinir. Quraqlıq rayonlarda kəkotu və onun növləri tumil-kəkotu formasiyalarını yaradır. Tumil sahələri üçün murdarça, çölnanəsi, karvanqıran və s. çox səciyyəvidir. Bu tip sahələrdə südləyən, boymadərən, zirinc kimi bitkilər də olur.

Respublikada lokal formada şibləklərə, yəni qaratikanlığa, murdarçalığa, dovşanalmalığına, badamlığa, tovulqalığa, yabanı armudluğa, quşarmudluğuna rast gəlmək olur; şaqqıldaq da xüsusi formasiylar yaradır və yaxşı dağ-kserofit bitkiliyinin formalaşmasında bilavasitə iştirak edir. Saqqızağaclıq, ardıclıq, dağdağanlıq, sarağanlıq da respublikaya xas formasiyalardan olmaqla hər biri öz-özlüyündə xüsusi bitki örtüyü əmələ gətirir.

Azərbaycan hökümətinin 2004 - 2018-ci illər ətraf mühitin qorunması ilə bağlı qəbul etdiyi proqram əsasən, Tuqay meşələrinin tam bərpası ilə bağlı lahiyə hazırlanıb. Qısa müdətdən sonra layihəninin həyata keçirilməsinə başlanılacaq."Meşələrin bərpa edilməsinə və artırılmasına dair Milli Proqram"ın tələblərinə uyğun olaraq 2020-ci ildə meşəbərpa tədbirlərinin plan-proqnozları artırılaraq on minlərlə hektara çatdırılmışdır. Hal-hazırda bu istiqamətdə işlər davam etdirilir.

**Ədəbiyyat siyahısı:**

1. eco.gov.az
2. stat.gov.az

## РАСПРОСТРАНЕНИЕ РАСТИТЕЛЬНОСТИ В АЗЕРБАЙДЖАНЕ

**У.И.Ганбарова, С.Г.Гусейнова**
**Азербайджанский Технологический Университет**
**ulker.qenberova@bk.ru**
**huseynova-1965@mail.ru**

Территория Азербайджанской Республики имеет богатую флору. В нашей стране широко распространены практически все виды растений, встречающиеся в мире на относительно небольшой территории. Около 4500 видов высших спороносных цветковых растений, произрастающих в Азербайджане, объединены в 125 групп 920 родов. Виды растений, встречающиеся в республике, составляют 66% от общего числа видов растений, произрастающих на Кавказе. Помимо широко распространенных на Кавказе и в других регионах видов растений, флора Азербайджана включает большое количество около 240 эндемичных видов растений, уникальных для Азербайджана и его относительно небольших районов. Распространение растительности обусловлено физико-географическим строением района, современными почвенно-климатическими условиями, вертикальной поясностью и рядом других факторов.

## DISTRIBUTION OF VEGETATION IN AZERBAIJAN

**U.I.Ganbarova, S.H.Huseynova**
**Azerbaijan Technological University**
**ulker.qenberova@bk.ru**
**huseynova-1965@mail.ru**

The territory of the Republic of Azerbaijan has a rich flora. Almost all plant species found in the world in a relatively small area are widespread in our country. About 4,500 species of higher, sporulated flowering plants growing in Azerbaijan are united in 125 groups of 920 genera.The plant species found in the republic make up 66% of the total number of plant species growing in the Caucasus. In addition to the widespread plant species in the Caucasus and other regions, the flora of Azerbaijan includes a large number of about 240 endemic plant species that are unique to Azerbaijan and its relatively small regions. The spread of vegetation is conditioned by the physical and geographical formation of the region, modern soil and climatic conditions, vertical zoning and a number of other factors.

# KƏND TƏSƏRRÜFATI MƏHSULLARININ KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNƏ TƏSİR GÖSTƏRƏN STİMULLAŞDIRICI AMİLLƏR

**A.O.Tağıyeva**
**Azərbaycan Texnologiya Universiteti**
**Ayseltagiyeva459@gmail.com**

Bazar iqtisadi münasibətləri şəraitində məhsul keyfiyyətinin yüksəldilməsi, ölkə iqtisadiyyatının dayanıqlı inkişafının əsas şərtlərindən, amillərindən biridir. Keyfiyyət məhsulun müxtəlif xassələrinin məcmusunu ifadə etdiyi üçün, onun artırılmasına texniki, texnoloji, təşkilati, iqtisadi, sosial və digər istiqamətlərindən yanaşılması zəruridir. Buna görə də təsərrüfatçılığın iqtisadi mexanizminin yeni şəraitində keyfiyyətin artırılması istiqamətləri qarşılıqlı şəkildə araşdrılmalı, istehsal-iqtisadi prosesin bütün mərhələlərində onun yüksəldilməsinə təsir edən amillər sistemləşdirilməli və bundan sonra keyfiyyətin iqtisadi səmərəli təsiri öyrənilməlidir[3].

İqtisadi münasibətlərin təkmilləşdirildiyi, torpaq sahələrinin və maddi ehtiyatların məhdudlaşdığı, kənd təsərrüfatı və emal məhsullarına tələbatın artdığı şəraitdə iqtisadi amillərin təsiri gücləndirilməli, məhsul istehsalı və keyfiyyətinə rəqabət mühiti yaradılmalı, maraq xeyli artırılmalıdır. Aqrar islahatlar, kənddə istehsal-iqtisadi münasibətlərə uyğun kənd təsərrüfatı məhsulları istehsalının artırılması, onun keyfiyyətinin yüksəldilməsinin mahiyyəti və məqsədini əsaslı şəkildə dəyişdirməyi qarşıya qoyur. Müasir inteqrasiya obyektiv iqtisadi proses olmaqla kənd təsərrüfatı sahələrini, müxtəlif təsərrüfat formalarını, həmçinin emal və xidmət bölmələrini əhatə edir. Deməli, inteqrasiya ümumi və şaquli formalarda təzahür etməlidir[1].

Müşahidələr göstərir ki, daxili imkanların səfərbər edilməsi üçün ayrı-ayrı fərdi təsərrüfatların kollektiv, kooperativ təsərrüfatlar formasında birləşməsi, həmin təsərrüfatların malik olduğu istehsal vasitələrindən daha səmərəli şəkildə istifadə edilməsinə şərait yaratmış olur. Bu tip təsərrüfatların fəaliyyəti daha səmərəli nəticələr verdiyinə görə, beynəlxalq təcrübədə də onların dəstəklənməsinə dövlət tərəfindən daha çox diqqət yetirilir. Güzəştli kreditlərin və subsidiyiların verilməsi, vergi güzəştlərinin tətbiqi, dövlət satınalmaları, bir sıra əmək vəsaitlərinin lizinq qurumları tərəfindən təqdim edilməsi və sair imkanlar. İlk növbədə fərdi təsərrüfatları özündə birləşdirən kooperasiyalar üçün yaradılır. Keçid dövründə həmin təsərrüfatların aşağıdakı üstünlüklərini qeyd etmək olar:

- iqtisadi fəaliyyətlə məşğul olan müxtəlif təsərrüfat qurumları başçılarının bu sahədə təcrübəsi, səriştəsi, maarifliyi fərqli səviyyədədir. Onların birgə fəaliyyəti, bir-birinin üstünlüklərindən istifadə etməyə imkan verir;
- kənd təsərrüfatı kreditlə işləyən sahədir və bu kreditlər verilərkən, onların təyinatı üzrə istifadə edilməsinə nəzarət olduqca vacibdir. Belə nəzarətin böyük təsərrüfatlara nisbətən ayrı-ayrı xırda təsərrüfatlar üzərində həyata keçirilməsi daha çətin olur.

Bu və digər səbəblərdən də, böyük təsərrüfat qurumlarına kredit verilməsi daha səmərəli nəticə verir;istər emal müəssisələri ilə səmərəli iqtisadi münasibətlər qurulmasında, istərsə də daxili və xarici bazarda müəyyən yer tutulmasında böyük təsərrüfatlar daha üstün mövqeyə malik olur və s. [4].

Qeyd etmək istərdim ki, müxtəlif əhali qruplarının keyfiyyətli ərzaq məhsullarına olan tələbatının müəyyən edilməsində onların yaşı, peşəsi, əmək şəraiti, milli xüsusiyyətləri,

yerləşdikləri coğrafi məkan və digər mühüm amillər nəzərə alınması vacibdir. Bu isə, həmin məhsulların istehlak normasını düzgün təyin etməyi şərtləndirir[5].

Beləliklə, müxtəlif əhali qruplarının keyfiyyətli ərzaq məhsullarına olan tələbatının müəyyən edilməsində onların yaşı, peşəsi, əmək şəraiti, milli xüsusiyyətləri, yerləşdikləri coğrafi təkan və digər mühüm amillər nəzərə alınması vacibdir. Bu isə, həmin məhsulların istehlak normasını düzgün təyin etməyi şərtləndirir. Ərzaq istehlak normalarını düzgün müəyyən etmək üçün müxtəlif növ məhsulların enerji tutumunu, daha doğrusu, onların malik olduqları kalorilik səviyyəsini bilmək vacibdir. Aparılan hesablamalara görə, 100 qram kərə yağında 734, şəkərdə 300, qoyun ətində 206, mal ətində 154, yumurtada 150, kartofda 89, süddə 62, almada 40, kələmdə 27 kilokalori mövcuddur.

Bu baxımdan, aqrar iqtisadiyyatın potensial imkanlarından da yüksək səviyyədə istifadə olunmalı, məhsul keyfiyyətinin artımının əldə edilməsi yolu ilə milli ərzaq təhlükəsizliyinə nail olmaq və möhkəmləndirmək tədbirlərinin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda, ərzaq məhsullarının idxalı və ixracı sahəsində də balanslaşdırılmış tədbirlərin görülməsi vacibdir[3].

**Ədəbiyyat siyahısı:**

1.Abbasov A. F. Ərzaq təhlükəsizliyi. Baki: Nəşir, 2007, 602 s.
2. Ailə-kəndli təsərrüfatları haqqında Azərbaycan Respublikasının Qanunu. 14.06.2005, Azərbaycan Respublikası Torpaq Qanunvericiliyi. Bakı: Qanun, 2008, 840 s
3. Aqrar islahatların nəticələri və dayanıqlı inkişaf problemləri. Respublika elmi- praktiki konfransının materialları. Bakı, 2006, 320 s
4. Aliyev I.H., Məmmədova Ş.E. Aqrar sahənin inkişafının əsas maliyyə mənbələri. Bakı: Elm, 2007, 227 s
5. Aliyev i.H., Qloballaşma şəraitində aqrar sahənin dayanıqlı inkişafının təminolunmasının sosial-iqtisadi problemləri. Bakı: Elm, 2008, 400 s
6. stat.gov.az

## СТИМУЛИРУЮЩИЕ ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА КАЧЕСТВО СЕЛЬСКОХОЗЯЙСТВЕННОЙ ПРОДУКЦИИ

**А.О.Тагиева**
**Азербайджанский Технологический Университет**
ayseltagiyeva459@gmail.com

Повышение качества продукции в условиях рыночной экономики является одним из основных условий и факторов устойчивого развития экономики страны. Поскольку качество представляет собой совокупность различных свойств продукта, к его повышению необходимо подходить с технических, технологических, организационных, экономических, социальных и других аспектов. Поэтому в новых условиях хозяйственного механизма хозяйства следует взаимно изучить направления повышения качества, систематизировать факторы, влияющие на его повышение на всех стадиях производственно-хозяйственного процесса, а затем - рентабельный эффект от качество надо изучать.

**Ключевые слова**: сельское хозяйство, обеспечение качества, продовольственная безопасность, продовольственное обеспечение.

## STIMULATING FACTORS AFFECTING THE QUALITY OF AGRICULTURAL PRODUCTS

**A.O.Tagiyeva**
**Azerbaijan Technology University**
ayseltagiyeva459@gmail.com

Improving the quality of products in a market economy is one of the main conditions and factors for the sustainable development of the country's economy. Since quality is a set of different properties of a product, it is necessary to approach its increase from technical, technological, organizational, economic, social and other aspects. Therefore, in the new conditions of the economic mechanism of the economy, the directions of quality improvement should be mutually studied, the factors influencing its improvement at all stages of the production and economic process should be systematized, and then the cost-effective effect of quality should be studied.

**Keywords:** agriculture, quality assurance, food security, food supply

# AQRAR SAHƏNİN MODERN İNKİŞAFINDA BEYNƏLXALQ ƏMƏKDAŞLIĞIN ROLU

**Ə.Qurbanova**
**F.R.Zeynalov**
**Azərbaycan Texnologiya Universiteti**
**farid.zeynalov@icloud.com**

Hal-hazırda Aqrar sektor Azərbaycan iqtisadiyyatında ÜDM-nin təxminən 5.6 məşğulluğun isə təxminən 45 faizini formalaşdırır. Əhalinin istehlak fondunun təxminən üçdə ikisi bu sahənin hesabına təmin olunur. Buna görə də istər inkişafetmiş, istərsə də inkişaf etməkdə olan ölkələrin iqtisadi təhlükəsizliyi məhz bu sahədən asılıdır.Maltus nəzəriyyəsinə görə dünya əhalisi həndəsi silsilə şəklində sürətlə artmaqdadır.Əhalinin bu cür sürətlə artdığı bir dövrdə hər bir dövlətin effektiv və dayanıqlı kənd təsərrüfatına ehtiyyacı vardır.Effektiv və dayanıqlı kənd təsərrüfatı yaratmaq üçün az resurslarla yüksək məhsul əldə etməyə nail olmaq lazımdır.Bu isə dövlətin aqrar siyasətindən asılıdır. Təbii şəraitin necə olmasından asılı olmayaraq dövlət kənd təsərrüfatına daim nəzər yetirməlidir.

Respublikada ardıcıl həyata keçirilən məqsədyönlü siyasət nəticəsində ölkəmizin aqrar sahəsi təşkilatları bir çox nüfuzlu beynəlxalq regional təşkilatların üzvü olmuş, bu təşkilatlarla və inkişaf etmiş ölkələrlə səmərəli əməkdaşlıq qurmuş və əlaqələr getdikcə genişlənməkdədir. Aparılan fəaliyyət nəticəsində BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), Beynəlxalq Kənd Təsərrüfatının İnkişafı Fondu (İFAD), Beynəlxalq Epizootik Büro (OİE)və bir çox beynəlxalq təşkilatlar, mərkəzlər və agentliklərlə səmərəli əlaqələr qurulmuşdur.

